ƏMİN ƏFƏNDİYEV
ZAKİRƏ ƏLİYEVA

ANAR – ÖMÜR YOLU. YARADICILIĞI

Bio-biblioqrafik soraq kitabı

ЭМИН ЭФЕНДИЕВ
ЗАКИРА АЛИЕВА

АНАР – ЖИЗНЕННЫЙ ПУТЬ. ТВОРЧЕСТВО

Био-библиографический справочник

BAKI - 2010

БАКУ - 2010

ЭМИН ЭФЕНДИЕВ
ЗАКИРА АЛИЕВА

ПОЗДРАВЛЕНИЯ.
КТО ЧТО СКАЗАЛ, ЧТО ПИСАЛ.
ПИСЬМА

Книга вторая

Био-библиографический справочник

Баку – 2010

ƏMİN ƏFƏNDİYEV
ZAKİRƏ ƏLİYEVA

TƏBRİKLƏR.
KİM NƏ DEMİŞ, NƏ YAZMIŞ.
MƏKTUBLAR

İkinci kitab

Bio-biblioqrafik soraq kitabı

Bakı – 2010

Redaktor: ***Günel Anarqızı***

Əmin Əfəndiyev, Zakirə Əliyeva. «Anar – ömür yolu. Yaradıcılığı». İkinci kitab. Bio-biblioqrafik soraq kitabı. Bakı, 2010, səh. 424.

Редактор: ***Гюнель Анаркызы***

Эмин Эфендиев. Закира Алиева. «Анар – жизненный путь. Творчество». Книга вторая. Био-библиографический справочник. Баку, 2010, стр. 424.

MÜNDƏRİCAT

ОГЛАВЛЕНИЕ

Çingiz Aytmatov.Tale müasirim 5

Чингиз Айтматов. Современник от судьбы 9

A.R.Rzayevin «İstiqlal» ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı 13

Heydər Əliyevin müxtəlif illərdə çıxışlarından 15

Təbriklər 22

Anarın 50 illiyinə təbriklər 22

Anarın 60 illiyinə təbriklər 27

Anarın 70 illiyinə təbriklər 33

Поскриптум к 70-летию Анара 45

Anarın yubileyinə sözardı 46

Kim nə yazmış, nə demiş 68

Azərbaycan yazıçıları 68

Alimlər, tənqidçilər 135

Sənət adamları 215

Siyasi xadimlər 228

Jurnalistlər 234

Lyudmila Lavrovanın «Tanımadığımız tanış» kitabından 266

Xaricdə yazılanlar 310

Müstəqil Dövlətlər Birliyi ölkələri 355

Xarici mətbuat səhifələrində **358**

Məktublar **373**

Письма **373**

Rusca yazılmış məktublar **399**

Письма на русском языке **399**

Anarın internet saytı **470**

Tale müasirim

Çingiz Aytmatov

Məni Anarla atası, görkəmli Azərbaycan şairi Rəsul Rza 60-cı illərin əvvəllərində Moskvada tanış etmişdi. Rəsul Rza mənim ən çox hörmət bəslədiyim çağdaş şairlərdən idi, böyük sənətkar və müdrik insandı. Uzun illər boyu Moskvada Yazıçıların Plenum və Qurultaylarında, Lenin və Dövlət mükafatları Komitəsinin iclaslarında görüşlərimiz zamanı o da, rəhmətliklər Qara Qarayev, İmran Qasımov kimi – mənim ən munis həmsöhbətim olurdu. Görüşlərimizdən birində o məni oğluyla tanış etdi. Anar o vaxt Moskvada, yanılmıramsa Ali Ssenari Kurslarında oxuyurdu.

Yazıçı kimi Anarı ilk dəfə böyük Cəlil Məmmədquluzadəyə həsr etdiyi essesindən tanıdım. «Anlamaq dərdli» adlı bu esse unudulmaz A.T.Tvardovskinin redaktorluğu zamanı «Novıy mir» jurnalında dərc edilmişdi. Mən «Novıy mir»in redaksiya heyətinin üzvüydüm və xatırlayıram ki, esse böyük maraqla qarşılanmışdı. Çünki ilk dəfə olaraq muasir səviyyədə rus və ümumittifaq oxucusunu Azərbaycan klassikinin yaradıcılığı və çətin taleilə tanış edirdi. Bu Cəlil Məmmədquluzadəyə yeni nəslin, altmışıncılar nəslinin baxışı idi. Anar yazıçının taleyindəki çətinlikləri – həm çar vaxtı, həm sovet dövründə – gizlətmirdi. Müəllif xüsusi vurğulayırdı ki, Cəlil Məmmədquluzadə yalançı patriotizmin və dini fanatizmin düşməni olduğu kimi çar hakimiyyətinin ruslaşdırma siyasətinin də düşməni idi. Anar açıq yazırdı ki, ədəbiyyatşünaslıqda məhz bu məsələnin üstündən sükutla keçilir. Milli müəllifin yazısında belə bir məqam yetərincə cəsarətli addım idi. Anar məncə məqbul bir düstur təklif edirdi, yazırdı ki, Cəlil Məmmədquluzadə rus xalqını səmimi qəlbdən sevirdi, amma Rus imperiyasının təbəəsi kimi yox, böyük rus mədəniyyətiylə tərbiyə almış bir adam kimi.

Təqribən elə o illərdə diqqətimi Anarın Moskva mətbuatında «Literaturnaya qazeta», «Sovetskaya kultura». «Nedelya»da, «Drujba narodov» jurnalında dərc edilmiş hekayələri, povestləri, məqalələri, Mərkəzi Televiziyanın ekranlaşdırıb göstərdiyi əsərləri cəlb etmişdi. Anar əsasən ona yaxın olan şəhər ziyalıları çevrəsindən yazır. Onun nəsrinə psixoloci dəqiqlik, yığcamlıq, kinematoqrafik görümlülük və plastiklik xasdır. Nəsrində də, publisistikasında da o xalqının mənəvi həyatının ən önəmli məsələlərindən söz açır, çətin suallara cavab axtarır. Bu cavabları qəhrəmanlarının yerinə deyil, onlarla bir yerdə axtarır.

Anar altmışıncılar nəslinin ən parlaq və maraqlı numa-yəndələrindəndir. Yaşca bir qədər böyük olsam belə, mən də özümü iftixarla bu nəslə mənsub sayıram.

İndiki zamanda, altmışıncılara ən yaxşı halda yekəxəna və ədəbaz, ən pis halda sinik və mərifətsiz münasibət dəb olarkən, mən qəti əminəm ki, bu nəslin ədəbiyyatda,

teatrda, kinoda ən istedadlı nümayəndələri cəmiyyətin mənəvi, estetik və hətta ideoloji yeniləşməsində müstəsna rol oynadılar. Rusiyada da, keçmiş müttəfiq respublikalarda da azadlıq, demokratiya, müstəqillik ideyaları bu nəslin ən yaxşı nümayəndələrinin qurduğu təməllər üzərində yüksəldi.

Həm yaradıcılığında, həm ictimai fəaliyyətində bu ideyalara sadiqliyinə görə Anar mənim bu qədər yaxın qələm qardaşımdır. Uzun illərin təmasları bizi bir-birimizə qarşılıqla rəğbət hissləri ilə bağlamışdır.

Anar Bişkəkə «Manas» yübileyinə gələrkən və evimdə qonaq olarkən ona kitabımı bağışladım və üstünə «Anara, Böyük qarlaşından» sözlərini yazdım. Bu yaxınlarda isə Anar mənə yeni kitabını «Kiçik qardaşından» sözləriylə hədiyyə etdi. Bu yalnız söz deyil. Bizi də, xalqlarımızı də həqiqi qardaşlıq duyğuları birləşdirir.

Sovet dövründə Anarın yaradıcılığı ümmittifaq ədəbi tənqidinin də, keçmiş SSRİ-inin nəhəng oxucu kütləsinin də diqqətini çəkirdi. O zaman biz daha çox Mosvada görüşürdük – yazıçıların toplantılarında, SSRİ Ali Sovetinin iclaslarında. Yadımdadır Anar necə böyük ağrıyla mənə Azərbaycanın ən böyük problemindən – Qarabağ faciəsindən danışırdı.

İndi biz daha çox Türkiyədə, İstanbulda görüşürük (doğrudur, bu il iyul ayında yenə də Moskvada görüşmüşdük, Sütunlu salonda «Dinlər terrora qarşı» beynəlxalq konfransda hər ikimiz çıxış etdik).

İstanbulda ən müxtəlif simpozumlarda, konfranslarda iştirak edərkən Anarın Türk dünyasında necə böyük nüfuz sahibi olduğunu görmək mənə çox xoşdur. Bu hörməti o həm Türkiyədə nəşr olunmuş kitablarıyla, həm də ən mühüm ədəbi və ictimai-siyasi məsələlərin müzakirələri zamanı prinsipial, düşünülmüş çıxışlarıyla qazanıb. Elə onun təşəbbüsüylə iki dilli (türk və rus) «DA. Dialoq Avrasiya» jurnalı nəşr olunmağa başladı. Dörd il ərzində Anar İstanbulda «Dialoq Avrasiya platformu» adlanan Beynəlxalq təşkilatın sədri olmuşdu, indi isə Fəxri sədridir.

Amma məni ən çox sevindirən odur ki, Anar bu ahıl yaşında da aktiv şəkildə yaradıcılıqla məşğul olur. Öz təcrübəmdən bilirəm ki, yaradıcılıq təşkilatına rəhbərlik etmək nə qədər çətin, fədakar işdir. Anar artıq 18 ildir ki, Azərbaycan Yazıçılar təşkilatına rəhbərlik edir, eyni zamanda öz ölkəsinin deputatı, Parlamentin Mədəniyyət komissiyasinin sədridir. Hələ digər ictimai vəzifələrini demirəm. Bununla belə əsas işinə – ədəbiyyata həmişə etibarlı qalır.

Anarın son əsərlərini maraqla oxudum. «Otel otağı» povesti Türkiyə təəssüratlarından yaranıb. Bilirəm ki, Anar bu ölkəni çox sevir, onun tarixinə, mədəniyyətinə yaxşı bələddir. Bununla bərabər o qəbul etmədiyi şeylərdən yazmaqdan çəkinmir. Əsərin əsas qəhrəmanının- Türkiyəyə gəlmiş Azərbaycan aliminin faciəvi taleyi – hardasa bir çox ümidlərin qırılmasının rəmzidir.

Anarın son iri əsəri «Ağ qoç, qara qoç» da bənzərsizdir. Folklor obrazından yararlanaraq (Ağ qoçun belinə minsən işıqlı dünyaya çıxacaqsan, qara qoçun belinə minsən qaranlıq dünyaya düşəcəksən) müəllif əsərinin iki hissəsində vətəni Azərbaycanın gələcəyini iki model şəklində qələmə alır. Birinci hissədə – xoşbəxt, firavan, bütün mil-

li, sosial, mənəvi problemləri həll olunmuş bir ölkə… İkinci hissədə dəhşətli bir ehtimal – elə həmin ölkə işcal edilmiş, üç zonaya bölünmüşdür – birində hətta ailə həyatına belə müdaxilə edən müdhiş dini fanatizm hökm sürür, ikincisində şəxsiyyəti əzən kommunist sisteminin ən pis şəkli-riyakarlıq və ehkamçılıq rejimi, üçüncüsündə vəhşi kapitalizm, ancaq və ancaq varlanmaq ehtirası və bütün mənəvi, mədəni dəyərəlrin tapdanması. Əgər birinci hissəsnin idilliyası bizə gerçəklikdən uzaq bir şey kimi görünürsə, ikinci hissə – antiutopiya- postsovet məkanını xatırladan real mənzərələri canlandırır və bu yalnız Azərbaycana aid deyil. Bu təhlükələrin rüşeymləri keçmiş sovet respublikalarının hamısında mövcüddur, bəzilərində isə artıq həyata keçib.

Arzu edirəm ki, Anarın vətəni Azərbaycan, yazıçının öz xəyallarında gördüyü ideala yaxınlaşsın, onun xəbərdarlıq etdiyi bütün təhlükələr isə heç vaxt gerçəkləşməsin.

Anar mənə öz foto-albomunu da bağışlamışdı və orada qazax yazıçısı M.Şaxanovla mənim 60 illiyi münasibətilə Anara göndərdiyimiz məktub da dərc edilib. Bu qeydlərimi həmin məktubdan sitat gətirərək tamamlayıram.

«Əziz Anar. Sizin ədəbi nəslinizi və Sizi Azərbaycan xalqının ən şanlı övladları kimi tanıyırıq. Siz 60 yaşına çox çətin bir dövrdə qədəm qoyursunuz və belə bir dövrdə Sizin görkəmli istedadınız öz əksini mənəvi dəyərlərin yeni təzahürlərini dərk etməkdə tapır».

Anarın yaşı artıq altmışı çoxdan ötsə də, həmin sözləri bu gün bir daha təkrar edərək: «Allah eləsin daha da irəliyə addımlayasan» deyirəm.

30 avqust, 2005

Современник от судьбы...

Чингиз Айтматов

С Анаром меня познакомил его отец, выдающийся азербайджанский поэт Расул Рза, в начале 60-х годов в Москве. Расул Рза был одним из самых глубокоуважаемых мной поэтов современности, большим художником и мудрым человеком. В течении многих лет он, как и ныне покойные Имран Касумов, Кара Караев – был моим задушевным собеседником во времена наших встреч в Москве, на писательских сьездах и пленумах, на заседаниях Комитета по Ленинским и Государственным премиям. Во время одной из таких встреч он и представил своего сына, который учился тогда в Москве, если не ошибаюсь, на Высших Сценарных Курсах.

Анара, как писателя, я впервые узнал прочитав его эссе, посвященное великому Джалилю Мамедкулизаде. Это эссе под названием «Большое бремя –понимать», было опубликовано в журнале «Новый мир» в период редакторства незабвенного А.Т.Твардовского. Я был членом редколлегии «Нового мира» и помню, что эссе было встречено с большим интересом, ибо, впервые на современном литературном уровне знакомило русского и союзного читателя с творчеством и трудной судьбой классика азербайджанской литераутуры. Это был взгляд на Дж. Мамедкулизаде представителя нового поколения, поколения шестидесятников. Анар не обходил острых углов в судьбе этого писателя, как в царские времена, так и в советский период. Автор особо подчеркивал, что Дж. Мамедкулизаде был не только врагом ура патриотизма и религиозного фанатизма, но и не менее яростным противником русификаторской политики царских властей. Это был довольно-таки смелый пассаж в тексте национального автора. Анар открыто писал, что именно этот вопрос как-то стыдливо замалчивается в литературоведении. Он нашел, на мой взгляд, приемлемую формулу, утверждая, что Дж. Мамедкулизаде искренно любил русский народ, но не как подданный Российской империи, а как человек, воспитанный на великой культуре этого народа.

Примерно в те же годы мое внимание привлекли и рассказы, повести, статьи Анара, опубликованные в московской прессе – в «Литературной газете», «Советской культуре», «Неделе», в журнале «Дружба народов», телевизионные спектакли по его произведениям, экранизованные и показанные Центральным телевидением.

Анар писал и пишет в основном о близком ему круге городской интеллигенции, его прозе присуще психологическая достоверность, лаконизм, кинематографическая зримость и пластичность. Как в прозе, так и в публицистике он ставил и ставит самые острые вопросы духовной жизни своего народа и мучительно ищет ответы на эти вопросы. Ищет вместе со своими героями, а не за них.

Анар один из ярких и интересных представителей поколения шестидесятников, к которому с гордостью причисляю себя и я, хотя я и несколько старше по возрасту. Несмотря на модное сейчас снобистское и скептическое в лучшем, и циничное, откровенное хамское, в худшем случае, отношение к шестидесятникам, я убежден, что самые талантливые представители этого поколения в литературе, театре, кино, сыграли огромную роль в духовном, эстетическом и даже идеологическом обновлении общества. На основах, заложенных лучшими представителями этого поколения, как в России, так и в бывших союзных республиках, взошли идеи свободы, демократии, независимости.

Именно приверженностью этим идеям, как в своем творчестве, так и в общественной деятельности Анар очень близкий мне собрат по перу, с которым за долгие годы контактов нас связывают взаимные симпатии.

Когда Анар приезжал в Бишкек на юбилей «Манаса» и был гостем в моем доме, я подарил ему свою книгу с автографом «От старшего брата». А недавно Анар подарил мне свою новою книгу с надписью «От младшего брата». И это не просто слова, нас, как и наши народы, связывают братские чувства.

В советское время Анар был писателем, чье творчество вызывало большой интерес и союзной литературной критики, и огромной читательской аудитории бывшего СССР.

В то время мы больше встречались в Москве, на писательских собраниях, на заседаниях Верховного Совета СССР, и я помню с какой душевной болью Анар рассказывал мне о самой большой проблеме Азербайджана – о Карабахской трагедии. Сейчас мы чаще встречаемся в Турции, в Стамбуле (хотя в июле этого года снова встретились в Москве, оба выступили в Колонном зале, на международной конференции «Религии против террора»).

Принимая участия на разных симпозиумах, конференциях в Стамбуле, мне приятно видеть каким уважением пользуется Анар в Тюркском мире, и благодаря своим изданным в Турции книгам, и своей принципиальной, взвешенной позицией во время обсуждения самых важных литературных и общественно-политических вопросов. Именно он был инициатором издания двуязычного (на турецком и русском) журнала «ДА» («Диалог Авразия»), в течении четырех лет возглавлял международную организацию в Стамбуле под названием «Платформа Авразия», а сейчас является ее почетным председателем.

Но больше всего меня радует, что Анар, в свои уже немалые теперь годы, активно занимается творческой работой. По собственному опыту знаю насколько трудной, порой неблагодарной работой является руководство творческим союзом. Анар уже 18 лет возглавляет Союз писателей Азербайджана, являясь при этом и депутатом Парламента своей страны, Председателем его Комиссии по культуре, не говоря о других ответственных общественных обязанностях и при этом остается верен своему основному призванию – литературе.

С интересом прочел последние вещи Анара – повесть «Комната в отеле», навеянную турецкими впечатлениями. Я знаю, что Анар очень любит эту страну, хорошо зна-

ком с ее историей, культурой. Но вместе с тем, он в этой повести не боится писать и о том, что для него неприемлимо. Трагическая судьба главного персонажа повести – азербайджанского ученого в Турции – в каком-то смысле – символ краха многих иллюзий. Своеобразна и последняя крупная вещь Анара «Белый овен, черный овен». Отталкиваясь от фольклорного образа – сядешь на белого овна, выйдешь в светлый мир, сядешь на черного – попадешь в мрачный и темный мир, – в двух частях своего произведения писатель воссоздает две модели будущего своей родины – Азербайджана. Счастливой, благополучной, свободной, демократичной страны, в которой решены все территориальные, национальные, социальные, духовные проблемы в первой части и страшную версию во второй – та же страна, разделенная на три фактически оккупированные зоны – в одной царит чудовищный религиозный фанатизм, регулирующий и регламентирующий даже семейные отношения, в другой коммунистическая система в самой худшей форме духовного подавления личности, фарисейства и догматизма, в третьей – дикий капитализм, с поклонением золотому тельцу и с попранием всех моральных, культурных ценностей. И если несколько лубочная идиллия первой части кажется нам далекой от реальности утопией, то ужасы второй части – антиутопии, вызывают вполне определенные ассоциации с постсоветской действительностью. И не только в Азербайджане.

Зачатки этих угроз существуют во всех бывших республиках, а в некоторых уже воплотились в жизнь.

Так вот, я желаю Азербайджану, родине Анара, приблизиться к тому идеалу, который в своих мечтах увидел писатель. И чтобы все опасности, от которых он предостерегает, никогда не осуществились бы в действительности.

Анар подарил мне и свой фотоальбом, в котором опубликовано и моё (вместе с казахским писателем М. Шахановым) приветствие ему по случаю 60-летия. Закончу эти заметки цитатой из того приветствия:

«Дорогой Анар. Мы знаем Вашу литературную династию и Вас, как одного из славных сынов азербайджанского народа… Вы достигли 60-летия в очень сложный исторический период, что отражается в постижении вами новых проявлений духовности присущего вам выдающегося таланта».

Эти слова я хочу повторить и сегодня, хотя сегодня Анару уже далеко за 60 и дай Бог двигаться дальше…

30 августа, 2005

A.R.Rzayevin «İstiqlal» ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı

Azərbaycan ədəbiyyatının inkişafındakı böyük xidmətlərinə görə Anar Rəsul oğlu Rzayev «İstiqlal» ordeni ilə təltif edilsin.

Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti,
Bakı şəhəri, 13 mart 1998-ci il

Yazıçı Anara

Hörmətli Anar!

Sizi – xalqımızın tanınmış yazıçısı, dramaturqu və ictimai xadimini 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz 60-cı illərdə ədəbiyyatımıza yeni ab-hava gətirmiş yazıçılar nəslinin görkəmli nümayəndələrindən birisiniz. Müasirlərimizin zəngin mənəvi aləmini, qayğı və problemlərini yüksək bədii səviyyədə əks etdirən əsərləriniz daim ədəbiyyat həvəskarlarının diqqət mərkəzində olmuşdur. Bəşəriliklə milliliyin üzvi vəhdətini təşkil edən çoxcəhətli yaradıcılığınız cəmiyyətimizdə milli şüurun aşılanmasına və xalqımızın bir çox ölkələrdə tanınmasına xidmət etmişdir.

Saflıq ideyalarını tərənnüm edən pyesləriniz, xüsusilə «Şəhərin yay günləri» pyesi öz bədii dəyəri ilə yanaşı, cəmiyyətimizin diqqətini bir çox mənəviyyat problemlərinə cəlb etmişdir.

Qürur, şərəf və ləyaqət simvolu olan ulu «Dədə Qorqud» eposunun qəhrəmanlarını müasirlərimiz üçün daha doğma və əziz edən məhz sizin yaradıcılığınız olmuşdur. Bu eposun gənc nəslin tərbiyəsində müstəsna yer tutmasında da səyləriniz xüsusi qeyd olunmalıdır.

«Molla Nəsrəddin» ənənələrinə, müdrik Mirzə Cəlilin millət dərslərinə bizim səhnədə və jurnalistikada yenidən həyat vermiş fəaliyyətiniz də diqqətə layiqdir. Üzeyir bəy mövzuları sizin əsərlərinizdə öz uğurlu əksini taparaq tarixi keçmişimizin yenidən dərk olunması zərurətini bir daha vurğulamışdır. Təşəbbüsünüzlə yaranan «Qobustan» toplusu azərbaycançılıq ideyalarının carçısına çevrilərək bütöv bir nəslin milli, mənəvi-əxlaqi qayə və duyğularının formalaşmasında böyük rol oynamışdır.

Ölkədə və cəmiyyətdə baş verən dəyişikliklər yazıçı Anara publisist və tədqiqatçı şöhrəti də gətirmişdir. Sizin ictimai fəaliyyətiniz bədii əsərlərinizdəki fikir və ideyaların əməli surətdə gerçəkləşməsinə əyani bir nümunədir.

Azərbaycan ədəbiyyatı tarixində görkəmli yer tutmuş və böyük xidmətləri olmuş sevimli şairlərimiz Nikar Rəfibəyli ilə Rəsul Rzanı yubiley gününüzdə böyük minnətdarlıq hissi ilə yad edir və bu ailənin layiqli övladı olmağınızdan məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan Respublikasının müstəqil inkişafı yollarında öz zəngin təcrübə və bacarığınızı bundan sonra da əsirgəməyəcəksiniz.

Sizə uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti,
Bakı şəhəri, 13 mart, 1998-ci il

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə

Hörmətli prezidentim!

60 yaşım münasibətilə məni müstəqil dövlətimizin ən yüksək ordeni ilə təltif etmənizə, son dərəcə səmimi məktubunuza, ədəbiyyat, sənət sahəsində, ictimai həyatda gördüyüm az-çox işlərə yüksək qiymət vermənizə görə Sizə ürəkdən təşəkkür edirəm. Bu qiymətin Sizin tərəfinizdən – neçə min illik Azərbaycan tarixinin ən böyük şəxsiyyətlərindən biri tərəfindən verilməsi qəlbimi iftixar hissiylə doldurur. Onu da dərk edirəm ki, bu qiymət yalnız mənə deyil, ailəmə, mərhum valideynlərimə hörmətinizin ifadəsi, mənsub olduğum «altmışıncılar» nəslinə daimi diqqətinizin, qayğınızın daha bir təzahürüdür.

Hörmətli Heydər Əlirza oğlu! Keçən il Azərbaycan Yazıçılarının X qurultayı ərəfəsində ağsaqqal və cavan yazıçılarla görüşləriniz, qurultayda iştirakınız və parlaq nitqiniz, Qurultaydan sonra ədəbi qəzet və jurnallara yardım, yaşlı və gənc yazıçılara təqaüdlər, altı yazıçının, o cümlədən üç gənc yazıçının mənzil probleminin həlli – milli ədəbiyyatımıza həssas münasibətinizin danılmaz faktlarıdır. Bütün bunlara görə Sizə bir daha öz adımdan, qələm dostlarım adından, Yazıçılar Birliyi adndan dərin minətdarlığımı bildirirəm.

Azərbaycanımızın layiqli gələcəyi üçün bundan sonra da bacarığımı, əlimdən gələni əsirgəməyəcəm.

Müstəqil Vətənimizin hər cür təcavüzdən və hər növ təzyiqlərlən qorunması, ərazi bütövlüyümüzün bərpası, dövlətçiliyimizin demokratik əsaslarla möhkəmlənməsi, xalqımızın rifahınini yüksəlməsi, mədəniyyətimizin çiçəklənməsi yolunda yorulmaz fəaliyyətinizdə Sizə yeni uğurlar, uzun ömr, can sağlığı arzulayıram. Sizə bol-bol ailə, ata, baba sevincləri diləyirəm. Dərin hörmətlə

Anar,
14 mart, 1998

Heydər Əliyevin müxtəlif illərdə çıxışlarından:

Gənclərin yaradıcılığında dövrümüzün adamının xarakteri, qəhrəmanların daxili aləmi, kommunist əxlaqının antipodlarına qarşı mubarizə getdikcə daha aydın şəkildə və dərindən əks etdirilir. Bu, Rustəm İbrahimbəyovun «Ad günü» televiziya filmində, Eldar Quliyevin «Sevinc buxtası» kinofilmində, Anarın «Şəhərin yay günləri» pyesində, Vaqif İbrahimin oçerklərində və başqa əsərlərdə parlaq və obrazlı şəkildə göstərilmişdir. Gənc sənətkarların qazandıqları müvəffəqiyyətlər bizi inandırır ki, onlar düzgün yoldadırlar...

1978

60-70-ci illərdə ədəbiyyata, mədəniyyətə gəlmiş gözəl bir nəsil indi artıq ədəbiyyatımızın, mədəniyyətimizin aparıcı qüvvələridir. Yusif də, Anar da, Maqsud da, Elçin də, başqaları da. Ona görə də bir daha deyirəm: o illəri xatırlamağa və onun qiymətini unutmamağa əsas var.

19 dekabr 1995

Bizdə «Dədə Qorqud» kimi yuksək səviyyəli tarixi film yaradılmışdır.

24 oktyabr 1996

Tariximizin hələ çox səhifələri var ki, onları kinoya salmaq lazımdır. Məsələn, «Dədə Qorqud»un kinoya salınması tariximiz üçün nə qədər böyük hadisədir. Nə üçün? Çünki, gəlin açıq danışaq, elə özümüzün içərisindən də çoxları «Dədə Qorqud»u yaxşı bilmirlər. O əsəri oxumaq – onun dili də çox adam üçün çətindir – onu dərk etmək də çətindir. Amma kino elə bir vasitədir ki, gəlib baxırsan, hər şey aydın olur.

O vaxt Anarın «Şəhərin yay günləri» pyesi də mənim çox xoşuma gəlmişdi. Dedim ki, bir kino çəkilsin, amma o vaxt çəkmədiniz, məndən sonra çəkildi. Xatirimdədir, pyesə baxandan sonra mən dedim ki, onu Rus Dram Teatrında tamaşaya qoysunlar, sonra da mütləq kino çəkilsin.

16 dekabr, 1995

İyirminci illərin repressiyalarında, otuzuncu illərin repressiyalarında çox dəyərli gəncəlilər – ziyalılar məhv edilmişdilər. Onlardan biri də Nigar xanımın atası Xudadat bəy Rəfibəyli – Azərbaycanın ilk mustəqil hökümətində, Xalq Cümhuriyyətində nazir vəzifəsini tutmuş bir insan, sonra repressiya qurbanı olmuşdur. Ancaq tarix hər şeyi oz

yerinə qoyur. Repressiya qurbanı olmuş Xudadat bəy Rəfibəylinin qızı Nigar xanım Rəfibəyli böyuk yol keçmiş, Azərbaycan mədəniyyətinin inkişaf etməsi uğrunda çalışmışdır. O, öz həyat yoldaşı – Azərbaycanın böyuk şairi Rəsul Rza ilə birlikdə Azərbaycan ədəbiyyatının yüksəlməsində xüsusi rol oynamışdır və məmnunam ki, onların övladı, Azərbaycanın böyuk yazıçısı, Yazıçılar Birliyinin sədri hörmətli Anar da əcdadlarının, anasının, atasının işini davam etdirir və Azər-baycan ədəbiyyatının, mədəniyyətinin inkişafına öz xidmətlərini göstərir. Görürsünüz Gəncə nə qədər boyuk insanlar yetirir. Bir ailədə üç xalq yazıçısı – Rəsul Rza, Nigar Rəfibəyli, Anar.

1998-ci il oktyabrın 7-də Gəncə seçiciləri ilə görüşdəki çıxışından

«Kitabi Dədə Qorqud»un elmi nöqteyi-nəzərdən tədqiq edilməsi bizim üçün çox lazımdır. Eyni zamanda, «Kitabi Dədə Qorqud» Azərbaycan ictimaiyyəti, kütlə, xalq üçün tanınmalıdır. Mən bu baxımdan Anarın xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Mənə belə gəlir ki, biz bu gün, muəyyən zaman keçəndən sonra Anarın bu sahədəki axtarışlarına, xidmətlərinə daha da yuksək qiymət verməliyik. Bəlkə də Anar uşaqlar üçün Dədə Qorqud haqqında kitab yazanda, yaxud başqa kitablarını yazanda çoxları bunun nə qədər əhəmiyyətli olduqunu o dərəcədə dərk edə bilmirdilər. Amma indi biz artıq öz milli dəyərlərimizi, köklərimizi, tariximizi olduğu kimi təsvir etməyə çalışırkən vaxtilə atılmış belə addımların nə qədər qiymətli olduğunu dərk edirik. Mən Anarın bu münasibətlə yaratdığı filmi də qiymətləndirirəm.

Tarixi mövzuda yaradılan əsərlər, o cümlədən «Nəsimi», «Babək» filmləri çox qiymətlidir. Şübhəsiz ki, Anarın yaratdığı «Dədə Qorqud» filmi də çox qiymətlidir. Onun qiyməti bəlkə də ona görə çoxdur ki, indi hamımız bilirik – «Kitabi Dədə Qorqud» dastanının dili çox çətindir, mürəkkəbdir. Onun tarixi də başqa dastanlar kimi o qədər tədqiq olunmayıbdır. Ona görə də bu təşəbbüs çox əhəmiyyətlidir. Hesab edirəm ki, bu film qarşıdakı yubiley zamanı Azərbaycan ictimaiyyətinə, kütləyə yenidən təqdim olunmalıdır. Mən burada irəli sürülən təkliflərlə tamamilə razıyam ki, «Kitabi Dədə Qorqud» haqqında böyük bir serial yaratmaq olar.

«Kitabi Dədə Qorqud» yubileyi
üzrə Dövlət komissiyasının iclasında çıxışından.
16 fevral, 1999

Mən bir daha qeyd edirəm ki, məsələn Anarın bu barədə təşəbbusu olmasaydı və o, «Dədə Qorqud» filmini yaratmasaydı, «Kitabi Dədə Qorqud" dastanı haqqında xalqımız üçün bu qədər geniş məlumat yox idi.

Yubiley Komissiyasının iclasında çıxışından.
8 aprel, 1999

Əgər şair Azərbaycanı vəsf edirsə və Azərbaycanın nə qədər gözəl, nə qədər qüdrətli, nə qədər iftixar hissi doğuran bir ölkə olduğunu öz şerində göstərirsə, demək, bu, hər bir azərbaycanlıda öz Azərbaycanına, vətəninə, torpağına məhəbbət hissi yaradır... İndi yaşa dolmuş və 60-70-ci illərdə gənc olan yazıçılarımız və şairlərimiz də bu sahədə çox böyük xidmətlər göstərmişlər. Məsələn, mən «Qobustan» jurnalını xatırlayıram. O yarananda əleyhinə nə qədər cürbəcür hərəkətlər oldu. Mənim xatirimdədir, biri gəlirdi ki, nə bilim, millətçilik ideyaları yayır; biri gəlirdi ki, bizim quruluş əleyhinə ideyalar yayır; biri o tərəfdən, biri bu tərəfdən gəlirdi. Mən də götürürdüm, baxırdım bu «Qobustan» jurnalına, görürdüm burada bunların dedikləri şey yoxdur, amma bizim üçün lazım olan şeylər çoxdur. Ona görə də «Qobustan» jurnalı yaşadı. Bu gün məmnuniyyət hissi ilə deyirəm – «Qobustan» jurnalı o vaxt çox böyuk işlər gördü.

30 oktyabr, 1997

Anar, amma «Qobustan» jurnalı o vaxtlar bundan yaxşı çıxırdı. Yadımdadır, rəngli şəkillər verirdiniz. O vaxtlar «Qobustan» ən yuksək səviyyədə çıxırdı. Düzdür, bəzən bunu gecikdirirdiniz, vaxtında çıxarmırdınız. Buna baxmayaraq, yüksək səviyyədə çıxırdı. O vaxtlar «Qobustan» jurnalı həya-tımızda çox böyük rol oynayırdı. Bizim bu milli dirçəliş, milli oyanış, milli özünütanıma prosesində «Qobustan»ın rolu çox böyük olubdur. Bunu o vaxtlar bəziləri bəlkə də dərk etmir-dilər. Bəlkə indi də bəziləri o qədər də dərk edə bilmir. Amma mən bunların hamısını daim izləyirdim və hər bir belə tədbirin həyata keçirilməsi üçün lazımi şərait yaradırdım. İndi mən «Qobustan» jurnalına baxanda heyfsilənirəm ki, jurnal niyə o vaxtki kimi deyildir. Amma olacaqdır.

23 iyul, 1996

Bayaq dediyim ikinci dövr mənim üçün maraqlı olmuşdur. 1991-ci ilin əvvəli idi. Unutmamışam martın 21-i idi. O vaxt Elmira xanım Axundova mənə bildirdi ki, yazıçılar qurultayı keçiriləcək, sizi oraya dəvət ediblər. Elmira xanım Axundova çox dəyərli bir insandır. Mən dedim ki, Elmira xanım, çox sağ olun, ancaq güman edirəm, mənim oraya gəlməyim lüzümsüzdür. Çünki indi mən burada kiməm ki, oraya gəlim? Yazıçı deyiləm ki, oraya yazıçı kimi gəlim. Eyni zamanda o, elə bir dövr idi ki, o vaxt həm Sovetlər İttifaqının rəhbərliyində, həm də Azərbaycanın rəhbərliyində mənə qarşı çox ədalətsizliklər edirdilər. Mənim əleyhimə böhtanlar quraşdırır və yayırdılar. Mən çox böyük təzyiq və təqib altında idim. Elmira xanım məni çox inandırdı ki, yox, sizi qurultaya dəvət ediblər. Fikirləşdim ki, bəlkə xətir naminə dəvət ediblər, bilirlər ki, getməyəcəyəm. Sonra da məlum olacaq ki, dəvət etdilər, mən gəlmədim. Ondan xahiş etdim, dedim ki, sən bir daha dəqiqləşdir. Sonra o mənə zəng edib dedi ki, mən Anar müəllimlə bu barədə danışdım. Anar müəllim dedi ki, biz onu ürəkdən dəvət etmişik, bu, formal xarakter daşımır, ona görə də əgər gəlsə, biz məmnun olarıq. Mən bundan sonra ürəkləndim, dedim ki, əgər belədirsə, pis olmaz, gedim görüm yazıçılar necədirlər. Gəldim.

Burada bunu xatırlatdılar, – siz məni hörmətlə qarşıladınız, o hadisəyə görə mən sizin hamınıza təşəkkür edirəm. Çox sağ olun...

Heydər Əliyevin Azərbaycan Yazıçılarının
X Qurultayında çıxışından. 30 oktyabr 1997-ci il

Bir dəfə 1989-cu ildə Moskvada bir jurnalist məndən müsahibə götürərkən Azərbaycana rəhbərlik etdiyim zamandan danışırdıq. Mənə sual verdi ki, sizdə Azərbaycanda o vaxt dissident var idi, yoxsa yox? Dedim ki, yox idi. Dedi, nə üçün? Dedim ki, biz dissident axtarmırdıq. təbiidir ki, əgər axtarsaydıq çox dissident çıxarmaq olardı. Ən böyük dissident Bəxtiyar Vahabzadə idi. Yaxud da ki, Xəlil Rza ən böyük dissidentlərdən biri idi. Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov əsl dissident idilər. Yaxud götürək Anarı. O da dissident idi. Məsələn, «Qobustan» jurnalının yaranması və o jurnalın səhifələrində yazılan əsərlər şübhəsiz ki. dissient xarakteri daşıyırdı. Mən həmin jurnalı o vaxt daim oxuyurdum, izləyirdim. Görürdüm ki, yaxşı yazırlar. Bu yazılar nə idi: Bizim milli mədənyyətimizi, milli keçmişimizi, milli ruhumuzu o vaxtlar təbliğ edirdi və insanlarda milli ruhu oyadırdı, öz tarixinə, öz keçmişinə, öz mədəniyyətinə hörmət və ehtiram yaradırdı. Çünki o dövr belə hesab edilirdi ki, Oktyabr inqilabına qədər heç bir şey olmayıbdır, hamısı Oktyabr inqilabından sonra olubdur. Bax o illər o cür oyanış bizim yazıçılarımızın çox əsərlərində olmuşdlur. O cümlədən «Qobustan» jurnalında. Beləliklə, Azərbaycanda bu gənc insanlar həqiqətit deyirdi, düzü deyirdi və insanlara həqiqətə çatdırırıdı.

1999-cu ilin fevralında «Gülüstan» sarayındı Rüstəm İbrahimbəyovun
60 illik yubileyində söylədiyi nitqindən

1934-cü ildə Yazıçılar İttifaqı yarandı. İndi bu Yazıçılar İttifaqı 63 ildir yaşayır. O, xalqımıza nə qədər böyük fayda verib. İndi durub deyək ki, bu Yazıçılar Birliyi lazımdır, ya lazım deyil? Şübhəsiz ki, indi sərbəstlikdir, hərə öz fikrini deməlidir, bu da tam təbiidir. Amma mən öz fikrimi deyirəm, əlbəttə ki, Yazıçılar Birliyi lazımdır...

Mən hesab edirəm ki, Azərbaycan Yazıçılar Biliyi bu altı il müddətində keçən qurultaydan indiyə qədər – çox iş görübdür. Yazıçılar Birliyini qoruyub saxlayıb, onun parçalanmasına, dağılmasına yol verməyiblər. Axı Yazıçılar Birliyi böyük sınaqlardan keçib. Görürsünüz ki, bu altı ildə Azərbaycanın başına nə işlər gəlibdir. Yazıçılar Birliyi də bütün bu sınaqlardan, imtahanlardan keçibdir. Ona görə də şəxsən mən belə hesab edirəm ki, bunu yüksək qiymətləndirmək lazımdır. Yazıçılar Birliyinə rəhbərlik edən şəxslərin fəaliyyətini yüksək qiymətləndirmək lazımdır.

Gənc nəsildən olan yazıçı və şairlərin bir qrupu ilə görüşündə
Prezident Heydər Əliyevin çıxışından

29 oktyabr 1997.
«Azərbaycan Yazıçılarının X qurultayı (28-30 oktyabr 1997)» kitabında

Təbriklər

Anarın 50 illiyinə təbriklər

Əziz Anar, mən atanız, unudulmaz Rəsul Rzayla Moskvada tez-tez ünsiyyətdə olurduq. Sizin əlli yaşına çatmağınız həyatın nə qədər sürətlə keçməsini bir daha xatırladır. Əlli illiyiniz münasibətiylə sizi ürəkdən təbrik edir, gələcəkdə də yaradıcılığınızda həmişəki ciddiliyi, Qərb və Şərq təcrübəsini birləşdirən böyük mədəniyyətinizi qorumağı arzu edirəm.

Çingiz Aytmatov

Əziz və hörmətli Anar!

Sənin müdriklik yaşın mübarək olsun!

Ağıl və təmkin, səbr və dəyanət yollarıyla addımlayıb gəlib çatdın bu müqəddəs sərhəddə. Elə bir sərhəddə ki, ondan o yana ömrün ikinci dövrü – daha məsuliyyətli, daha yanğılı bir dövrü başlanır. İnsan nələr etdiyini, nələr edə bilmədiyini daha yaxşı görür, duyur.

Sən ömrünün birinci yarım əsrliyində doğma xalqımıza ləyaqətlə xidmət etdin. Mən inanıram ki, bundan sonra da belə olacaqdır.

Qartal iki qanadıyla uçar.

Sənin qanadların möhkəmdir. Uç, ucalara uç, əziz dost!

Qoy səni ata-ana xeyir-duası hifz eləsin!

Ot kökü üstə bitər.

Sənin köklərin müqəddəs torpağımızın dərinliklərindədir.

Qoy səni ulu Dədə Qorqudun xeyir-duası saxlasın.

Qoy cansağlığı və xoşbəxtlik bu yollarda sənin yol yoldaşın olsun!

Nəbi Xəzri
15 mart, 1988

Vətənimizin qeyrətli və qüdrətli oğlu Anar, əlli yaşın mübarək olsun. Ədəbiyyatın çətin yollarında sənə daha böyük uğurlar arzulayıram, səni bağrıma basıb öpürəm.

Bəxtiyar Vahabzadə

Əziz Anar, ordenlə təltif edilməyiniz və yeni əsərləriniz münasibətilə sizi ürəkdən təbrik edir, çoşğun yaradıcılıq səfərinizdə sizə daha uğurlu, səfalı yollar arzu edirəm.

Məmməd Cəfər

Əziz Anar, Şərəfli yubileyinizin bu gözəl günlərində sizin köhnə dostlarınız Gürcüstan yazıçıları adından var qəlbimizlə Sizi – qardaş Azərbaycan ədəbiyyatının qüdrətli ustadını, onun böyük klassiklərinin xələfi və davamçısını, məşhur ictimai xadimi təbrik edir, sizə möhkəm cansağlığı, uzun ömür, gümrahlıq, yeni yaradığıcılıq sevincləri və uğurları, doğma mədəniyyətiniz və çoxmillətli ədəbi birliyimiz naminə yeni qələbələr arzulayırıq.

Georgi Sisişvili, Cansuq Çarkviani, Xuta Berulava,
Revaz İnanişvili, Şota Nişniadze, Laşa Tabukaşvili, Tamaz Çiladze

Hörmətli, əvəzsiz qardaşımız Anar Bir qələm sahibi kimi ömrün 50 yaş adlanan zirvəsinə gətirib çıxardığınız ədəbi sərvətlə həm siz özünüz və həm də mənsub olduğunuz xalq fəxr edə bilər. Sizin publisist yazılarınız, nəsr və səhnə əsərlərinizin səsisədası çoxdan respublikanın sərhədlərini aşıb keçmişdir. Xalqın müqəddəs ideallarının, milli ləyaqətinin, tükənməz ata-baba irsinin elçisi olmaq hər yazıçı üçün ən yüksək şərəfdir. Siz bu məhəbbəti Arazın o tayında yaşayan milyonlarla cənublu oxucuralınız arasında da qazanmısınız. İnqilabın yüksəliş illərində də, bu gün də onlar sizin əsərlərinizi həvəslə nəşr edir, ehtirasla oxuyurlar. Bu əziz gündə üzümüzü sizə tutur, cənublu qardaş və bacılarınız adından 50 yaşınızı təbrik edir, nəcib və gərəkli işinizdə sizə yeni uğurlar arzulayırıq.

Balaş Azəroğlu, Əli Tudə, Mədinə Gülgün, Hökümə Billuri,
Söhrab Tahir, Afiyət Əmrahi, Sadıqzadə

Əzizim Anar, Səni, milləttimizin ləyaqətli, istedadlı, hünərli övladını ömrünün, yaradıcılığının yetgin, bəhrəli çağında təbrik edirəm, cansağlığı, ailə xoşbəxtliyi, arzulayıram. Xalqımızın milli şərəfinin, mənliyinin qorunması yolunda sənə uğurlar. Ümid yeri olasan. Öpürəm.

Qasım Qasımzadə

Millətimizin, torpağımızın və ədəbiyyatımızın naminə Allah sizi hər cür bəladan hifz etsin.

Qulu Xəlilli

Azərbaycanın başı üstündə damokl qılıncı asıldığı zəmanədə əlli yaşı tamam olan əziz, sevimli Anarımız, qüdrətli yazıçımız, yalnız sizin kimi qadir sənətçilərin böyük sözü bu qanlı qılıncı sındıra bilər. Sizə yepyeni bir bahar çələngi dilərəm.

Xəlil Rza

Hörmətli Anar səni ürəkdən təbrik edirəm, Sənin qələmin, vətəndaş qeyrətin var olsun. Vətən sənə oğul deyir.

Məmməd Araz

Anara, əsərlərində yalan, ürəyində çirk, idrakında bədəməl olmyan ləyaqətli ziyalımıza. Ömrün kamillik dövrünə qədəm qoymağın münasibətilə səni təbrik eləyirəm. Müdrik cəsarət, cəsarətli müdriklik arzulayıram sənə ömrün təzə yoxuşunda.

Asif Əfəndiyev

Qara saçlı ağsaqqalımızı, böyük el şairimizin istəkli balasını, görkəmli yazıçımızı, qeyrətli ziyalı el oğlumuzu, doğma qələm dostumuzu əzizim Anarı 50 yaşı munasibətiylə təbrik etməkdə şadam. Baba dağın bahar yelindən, Göyçay çayının daşan selindən sizə salamlar yetirirəm. Qələminiz daha ecazkar, canınız daim sağ, kefiniz həmişə çağ olsun. Daha yüksək zirvələrə, qardaşım.

Hörmətlə,

Musa Yaqub

Əzizim Anar!

Açığını deyim ki, son zamanlaradək kimlərinsə 50, 60…100 illiyi qeyd olunanda bu rəqəmlərin arxasında qalan illərdən daha çox onların gördükləri işlər barədə fikirləşirdim. Bəlkə də yubileylərin bayram əhvalı buna mane olurdu. Deyə bilmərəm. Lakin indi, bizim nəslin də əlli yaşı haqladığını eşidəndə, həm də yamanca kövrəlirəm. Deməli, sənin də ömrünün əlli ili çatdı. Gözün aydın, qardaş! Gözlərimiz aydın olsun ki, sən bu yarıməsrlik ömrünü çox dolğun keçiribsən: öz zəhmətin, ədəbiyyata və ümümən mədəniyyətmizə, el-obaya məhəbbətin, əlbəttə, ilk növbədə istedadın sayəsində görkəmli söz ustasına çevrilibsən.

İnsan təbiətinin qəribəlikləri çoxdur. O qəribəliklərdən biri də budur ki, insan öz yaşıdlarından nəyisə öyrəndiyini çətin etiraf edir. Yazıçıi Anarın xoşbəxtliyi bir də onadadır ki, qələm yoldaşları, dostları, yaşıdları İnsan Anardan təmkinli, dostlara münasibətdə saf, mərd olmağı, öz ləyaqətini həmişə üca tutmağı da öyrəniblər.

Bunları düşünəndə, ümumiyyətlə yan-yörəndə mərd adamları görəndə, üstəlik də bu adamların sənin nəslinə mənsub olduğunu biləndə həyat deyilən çətin yol adama asan gəlir, çünki bu yolda təklik duymursan, əksinə, arxanda güclü dayaq hiss edirsən!

Öz yaşıdlarında belə inam yaratmaq hər oğulun hünəri deyil!

Sənə arzuların qədər uzun ömr, möhkəm can sağlığı, bol-bol yaradıcılıq sevinci arzu edən, səni bağrına basıb öpən dostun

Sabir Azəri.
14 mart 1988

Əzizim Anar!

Ürəyimdən gələn ən səmimi sözlərimi sənə çatdırmaq istəyirəm!

Bahar ilin ən gözəl fəslidir. Deyirlər baharda dünyaya gələn insan xoşbəxt olur. Çünki baharda təbiət bütün var-dövlətini, gözəlliyini insanlara bəxş etməyə çalışır. Hər tərəf al-əlvan çiçəklərə, yam-yaşıl otlara qərq olur. Elə bil çöllərdəki bu yaşıllıq azmış kimi, insanlar evlərdə də yaşıl səməni göyərtməyə başlayırlar.

Baharın ilk müjdəçisi, tez açılıb, tez solan boynu bükük bənövşə kimi vaxtsız gedən Cəfərimi, Müşfiqimi, yoxsa bir ceyrana güllə atmağa qıymvayan təbiət vurğunu Səməd Vurğunumu deyim? Qəlbləri həmişə yazıb yaratmaq eşqi ilə döyünən, baharın təzə-tər çiçəkləri kimi saf qəlbli insanlar məgər bahar oğulları deyilmi?

Doğrudan da baharda dünyaya gələn insanların qəlbi, ürəyi həmişə yazmaq, yaratmaq, qurmaq, öz xalqına xeyir vermək eşqi ilə döyünür.

Əziz Anar! Bu baharda sənin 50 yaşın tamam olur. Sən iki qəlbin döyünən ürəyisən! Sən Rəsul yadigarı, Nigar nişanəsisən. Kaş elə imkan olarydı ki, sənə demək istədiyim sözləri mənim ürəyimdən oxuya biləydin. Axı sən mənim üçün təkcə xalqın, elin yazıçısı kimi yox, həm də əzizlərimin yadigarı kimi əzizsən.

Nə arzulayıram sənə əziz balam Anar!Uzun ömür, can sağlığı, ailə xoşbəxtliyi… və bir də arzu edirəm ki keçən 50 yaşının üstünə bir 50 bahar da gəlsin.

Mən eşidəndə ki, sənə Azərb. SSR Fəxri fərmanı verilib çox sevindim. Gün o gün olsun ki, daha yüksək «fərman»lara layiq görüləsən.

Sən qiymətli yadigarsan,
Sanki ətirli baharsan
Arzuların qanad çalsın,
Qızıl gül tək ətir saçsın.

Hörmətlə, Dilbər
(Dilbər Axundzadə – M. Müşfiqin həyat yoldaşı – ***red.)***

Əziz Anar! Şanlı yubileyin münasibətiylə səni ürəkdən təbrik edirəm. Mədəniyyətimiz naminə Sənə möhkəm can sağlığı, uzun ömür, böyük yaradıcılıq uğurları arzulayırvam. Ümid edirəm ki, sənin artan nüfuzun dostun Vaqif Mustafazadənin mənzil muzeyinin tezliklə yaranmasına yardım edəcək. Öpürəm.

Vaqifin anası Zivər xanım

Anarın 60 illiyinə təbriklər

Hörmətli Anar bəy!

Sizi – Azərbaycan ədəbiyyat və incəsənətinin görkəmli xadimini anadan olmanızın 60 illiyi münasibətilə təbrik edirəm!

Siz Azərbaycanın Rəsul Rza və Nigar xanım kimi təmiz ziyalı ailəsində, xalqımızın keşməkeşli mürəkkəb həyatını yaşayan bir ocaqda böyüyüb boya-başa çatmış, şəxsiyyət və yazıçı kimi formalaşmısınız.

Yeni milli təfəkkürün formalaşmasında 60-cı illər nəslinin öndərlərindən biri kimi ədəbiyyat muzeyində, radioda, «Qobustan» toplusunda, Azərbaycan Yazıçılar Birliyində çalışdığınız illərdə yaradıcılığınızın çoxşaxəli və zəngin örnəkləri Azərbaycana yeni abhava, düşüncə və təsəvvür gətirib.

Rus-sovet rejiminin yaratdığı rəzalət, totalitar rejim mənzərəsi, insan haqlarina qarşı kəskin sənətkar etirazı, Sizin bədii yaradıcılığınızın mayasını təşkil edir.

Azərbaycan milli-azadlıq hərəkatı tarixində və milli dövlətçilik şüurunun formalaşmasında Sizin bədii əsərləriniz müstəsna rol oynayıb. Eyni zamanda milli-azadlıq hərəkatında iştirakınız minlərlə insanların oyanmasında, ziyalıların hərəkata qoşulmasında böyük rol oynamışdır.

Siz millət vəkili kimi bu gün də bu mücadilələrdə iştirak edir, başçılıq etdiyiniz mədəniyyət komissiyasında ölkənin demokratikləşməsi, mədəniyyətimizin yüksəlişi üçün əlinizdən gələn hər şeyi edirsiniz.

Bu gün Azərbaycanın ümummilli dəyərlərinln formalaş-masında, Bütöv Azərbaycan uğrunda hərəkatın genişlənməsində, Türk dünyasının iç-içə bağlanmasında Sizin gördüyünüz işlər, göstərdiyiniz xidmətlər çox böyükdür.

Mən Sizin Vətən, Millət, dövlətçilik və demokratiya naminə görəcəyiniz böyük işlərə, milli həmrəylik yolunda atacağınız addımlara ürəkdən inanıram.

Sizə və ailənizə cansağlığı, xoşbəxtlik, yaradıcılığınızda, fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram!

Hörmətlə,

Əbülfəz Elçibəy,
Azərbaycan Xalq Cəbhəsi partiyasının sədri.
14 mart, 1998

Respublikada gəncləri çox əzirdilər. R.Rza birdən çıxdı, 20-30 nəfəri himayə elədi. Camaat baxırdı ki, yuxarıda Rəsul da var. Rəsulun hesabına aşağıdan bəziləri cəsarətlənirdilər. Və onları Rəsul himayə edirdi. Məsələn, Fikrət Qoca idi, Vaqif Səmədoğlu idi və başqaları. O zaman ziyalılar çox böyük işlər görürdülər... Həmin dövrdə Ə.Əy-

lisli də, Anar da, Elçin də, Y.Səmədoğlu da göz qabağında idilər. Bunlar o sözü deyirdilər, təbliq edirdilər. Bəzən biz deyırık ki, Bəxtiyar müəllim, niyə belə danışdı, bir az yumşaq danışdı. Bəxtiyar müəllim o ağır vaxtlarda tələbələrinə, millətinə vətənpərvərlik şeirləri öyrədirdi... Bizimki o zaman yüksəliş deyildi, ölümdən qayıdış idi. O zamanın ədəbiyyatı daha çox əzablıdır. O zamanın yazısına daha çox qiymət verilməlidir. Millətin ölüm nəfəsini geri qaytardığı üçün. Dil uğrunda ədəbiyyat mübarizə aparırdı. Əkrəmin «Azərbaycan» jurnalı, Y.Səmədoğlunun «Ulduz» jurnalı böyük rol oynadı. Onlardan əvvəl Anarın «Qobustan» jurnalı dili ilə, məsələsi ilə təzə gəlmişdi. Sonra hamı düşdü onun üstünə, başladılar Rəsul Rzanın əleyhinə yazmağa, Anarın əleyhinə yazmağa. Qrup ilə bir yerdə vurmağa başladılar ki, bunun adı topludur, bu qurumdur, bəs bunlar nədir.

O dövrün ziyalıları haqqında ayrıca yazı da yazmaq lazımdır. Onların qiyməti də verilməlidir. Mənim yadımdadır «Molla Nəsrəddin – 66» – Anarın yazıları, hamı oxuyurdu. Bütün cavanlar bir-birindən soruşurdu ki, oxumusan? Onun müzakirəsini keçirirdilər, danışırdılar cavanlar. Yəni bu, Sabir ruhunun qayıtması idi. Bu, XX əsrin birinci yarısında qaynayan ziyalı təfəkkürünü təzədən qaytarıb gətirmək, təzədən ona qayıtmaq və onun üstündə yenidən qürub getmək üçün, indi necə ki, biz Azərbaycan Demokratik Cümhuriyyətini bərpa etməyə çalışırıq, o zaman da bunlar həmin o məfkurəni bərpa eləyənlər idi və elədilər də. Çox şeylər elədilər.

Əbülfəz Elçibəy,
1991

Əziz Anar!

Biz sizin ədəbi sülalənizi və Azərbaycan xalqının layiqli övladı olan Sizi yaxşı tanıyırıq və yubileyiniz münasibətilə ürəkdən təbrik edirik. 60 yaşına çox mürəkkəb bir tarixi dövrdə yetişmisiniz və bu Sizin böyük istedadınızın yaradıcılıq ruhunda əks olunub.

Sizə möhkəm can sağlamlığı və yüksək uçuş diləyirik.

Bağrımıza basırıq,

Çingiz Aytmatov, Muxtar Şaxanov

Əziz Anar!

Altmış illiyinin bu sevincli günündə biz, sənin dostların, həmkarların sənin sağlığına, gələcək uğurlarının şərəfinə badə qaldırırıq. Səni, bütün Azərbaycan yazıçılarını bu xoş yubiley münasibətilə ürəkdən təbrik edirik. Öz müəllimlərinin – hörmətli valideynlərinin ən yaxşı ənənələrini davam etdirərək sən bizim xalqların mənəvi birliyi işinə əhəmiyyətli töhfələr vermisən. Oxucularınla, dostlarınla görüşmək üçün səni Moskvada görməyə ümid edirik, qardaşcasına qucaqlayırıq.

Mixalkov, Pulatov, Qamzatov, Kuqultunov, Rozov, Bondarev, Rasputin, Jukov, Larionov, Kozlovskiy, Askər Xakim, Berulava, Niyazi

Böyük alim, ünlü yazar, dəyərli siyasət adamı Anarın «Dədə Qorqud» senaryosu, «Ağ liman» və «Molla Nəsrəddin – 66» kibi əsərləri ilə sənət, elm dünyasında yapmış olduğu hizmətlərindən dolayı 60 yaş gununu qutlar, yeni əsərlərlə Türk dünyasına hizmətlərinin devamını dilərəm.

Professor, doktor Sadiq Tural
Atatürk Kültür Mərkəzi Başqanı.
Ankara

Azərbaycan Respublikası Yazıçılar İttifaqının hörmətli sədri cənab Anar Rzayev.

Alicənabınızın 60 illik yubileyinin ədəbiyyat və poeziya şəhərində, Nizami yurdunda keçirilməsi Sizi bir daha səmimi-qəlbdən təbrik etmək üçün mənə imkan verdi. Allah Təalanın dərgahında Sizə uzun ömür, başucalığı, can sağlığı və müvəf-fəqiyyətlər diləyirəm.

Əli Rza Bikdeli
İran İslam Respublikasının Azərbaycan Respublikasında
Fövqəladə və Səlahiyyətli Səfiri.
14 aprel 1998

Hörmətli və əziz Anar!

60 illiyiniz münasibətilə mənim ən səmimi və ürəkdən gələn təbriklərimi qəbul edin. Siz Azərbaycan ziyalılarının parlaq nümayəndəsi, bu sözün ən yüksək mənasında Azərbaycanın vətəndaş yazıçısısınız. Ən yüksək kürsülərdən Siz öz xalqınızı, öz mədəniyyətinizi, öz dövlətinizi müdafiə edirsiniz. Əsərləriniz yüksək humanist ruhdadır. Gürcü dilinə Sizin «Beşmərtəbəli evin altıncı mərtəbəsi» və başqa əsərləriniz çevrilib. Gürcü oxucuları sizin şəhər nəsrinizi, qəhrəmanlarınızı çox bəyənirlər. Bu əsərlərdə qaldırdığınız mənəvi və psxoloci problemlər bizim oxucuları da həyəcanlandırır. Sizin yaradıcılığınız yalnız azərbaycanlılara deyil, gürcülərə də böyük sevinc bəxş edir.

Düşünürəm ki, bizi hələ çox-çox gözəl əsərlərinizlə sevindirəcəksiniz.

Bir daha yubileyiniz mübarək.

Böyük hörmətlə,

Zurab Qumberidze
Gürcüstanın Azərbaycanda Fövqüladə və səlahiyyətli səfiri.
14 mart, 1998

Hörmətli Anar bəy!

Sizi, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini, 60 yaşa qədəm qoymağınız münasibəti ilə təbrik edirəm.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Sizin yaradıcılığınız tək qiymətli sənət nümunəsi deyil, həm də müasir dünyamızın çox mürəkkəb hadisəsi olan Azər-

baycan haqqında bədii sənəddir. Bu sənəddə yaxın keçmişimizə yazıçı peşəsindən xeyli uzaqlaşmış söz sənətinin peşəkar normalara qayıtmasının çox maraqlı və qiymətli mənzərəsi var. Bu həm də son yarım əsrdə Azərbaycan ədəbiyyatının mənzərəsidir.

Sizin mənsub olduğunuz Rəfibəylilər nəslinin, həmçinin valideynlərinizin – görkəmli Azərbaycan şairləri Nigar xanım və Rəsul bəyin ömür yolu Azərbaycanın keçdiyi böyük, keşməkeşli, əzablı yolla sıx bağlıdır və bu yol Azərbaycanımızın bütövləşməsi, dərindən dərk olunması, xilas yollarının tapılması işi kimi araşdırılacağına, öyrəniləcəyinə, təhlil edilcəyiənə əsas verir.

Anar bəy, bir daha Sizi 60 yaşınız münasibəti ilə təbrik edir, Sizə uzun ömür, can sağlığı, yaradıcılıq uğurları, çox sevdiyiniz nəvələrənizlə birlikdə xoşbəxt Azərbaycan arzulayıram.

Hörmətlə,

İsa Qəmbər.
Müsavat Partiyasının Başqanı.
«Yeni Müsavat» qəzeti, 13-14 mart, 1998.

Hörmətli Anar bəy!

Sizi, Azərbaycan ədəbiyyatının görkəmli nümvayəndəsini, tanınmış yazıçısını anadan olmanızın 60 illik yubileyi münasibətilə təbrik edirik. Azərbaycanda yeni fikrin formalaşmasında, ədəbiyyatımızın, kinomuzun inkişafında əvəzsiz xidmətləriniz vardır. Yazdığınız məqalələrin, hekayə və povestlərin, roman və kinossnerilərin xaldqımızın milli düşüncəsinin, mənəiviyyatının, mədəniyyətinin zənginləş-məsində mühüm rolu olmuşdur.

Siz Azərbaycanda böyük adı və nüfuzu olan məşhur Rəfibəylilər nəslindənsiniz. Sizin ulu babalarınızın Azərbaycanın azadlıq və müstəqilliyi uğrunda misilsiz xidmətləri danılmazdır. Bu gün Siz şərəfli nəslin nümayəndəsi kimi müstəqil dövlətçiliyimizin qorunmasında gücünüzü əsirgəmirsiniz.

Siz həm də «Əsgi müsavatçılar nəsli» Beynəldxalq cəmiyyətinin Fəxri üzvüsünüz. Cəmiyyətimizin tədbirlərində Siz fəal iştirak etmişsiniz.

Hörmətli Anar bəy! 60 illik yubileyiniz münasibətilə Sizi ürəkdən təbrik edir, həyatda xoşbəxtlik, yaradıcılığınızda böyük uğurlar arzulayırıq.

Rəis Rəsulzadə,
«Əski müsavatçılar nəsli» Beynəlxalq Cəmiyyətinin prezidenti

Möhtərəm Anar müəllim, ulu ustad! Anadan olmağınızın 60 illiyi münasibəti ilə Sizi hərarətlə bağrıma basır, ürəkdən – sonsuz sevinclə təbrik edirəm. Siz Azərbaycan nəsri, dramaturgiyası, ədəbi tənqidi, publisistikası tarixinə, milli teatrımızın, kinomuzun, ümumən Azərbaycan mədəniyyəti və ictimai fikri tarixinrə «Anar həqiqəti» adlı möhtəşəm kitab bəxş etmiş müqtədir – təkrarsız sənətkarsınız. «Anar həqiqəti» bütün ömrü boyu ədalətsiliklə, riykarlıqla – dünyanın gəc rəftarı ilə barışa bilməyənlərin kitabıdır.

«Anar kitabı» sabah da milli və bəşəri gerçəklərin solmaz-ölməz abidəsi kimi neçə-neçə nəslin qəlbində silinməz izlər salacaqdır. Sizin fədai – sənətkar hünəriniz qarşısında bədxahların, paxılların rəzalət bataqlığından boyun uzatmaqla, yaranışdan təmiz, pak şərəfinizə şərəfsizcəsinə qara yaxmaq cəhdləri müəllifləri üçün tarixi rüsvayçılıqla nəticələnəcək bədnam iflasa məhkumdur. Hörmətli Anar müəllim, şübhə yoxdur ki, Siz XXI əsrdə də Azərbaycan xalqının sələflik-xələflik ənənələrini daha böyük təəssübkeşliklə yaşadacaq, ömürünüzün 70 illik, 80 illik, 90 illik yubileylərini müdrik Şərq ağsaqqalı ucalığında, Rəsulun, Anarın (nəvələrinin-red.) suallarına gözlənilməz və sərrast cavablar vermək qüdrətinə malik baba kimi qarşılaya-caqsınız. 100 illik yubileyinizə aparan yollarda Sizə möhkəm cansağlığı, tükənməz yaradıcı enerji, vətənimizin işğaldan azad, firavan çağlarını görmək və yaşamaq səadəti arzularıyla. Ən səmimi ehtiramla,

Tofiq Qəhrəmanov,
14 mart, 1998

Anarın 70 illiyinə təbriklər

Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anara

Hörmətli sədr!

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 70 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə uzun ömür, cansağlığı və işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

Müxtəlif janrlarda yaratdığınız və taleyüklü problemlərə həsr etdiyiniz əsərlərinizlə Siz respublikamızda ədəbi prosesin inkişafına layiqli töhfələr vermisiniz. Qələminizin məhsulu olan, öz həyatiliyi, təbiiliyi, dilinin rəvanlığı və üslub rəngarəngliyi ilə fərqlənən yaradıcılığınız müasir Azərbaycan oxucusunun bədii-estetik zövqünün formalaşmasında əhəmiyyətli rol oynamışdır.

Siz fəaliyyətinin çoxşaxəliliyi ilə seçilən qələm sahibisiniz. Teatr və kino üçün əsərləriniz tamaşaçılar tərəfindən həmişə böyük maraqla qarşılanmışdır. Ssenarilərini yazdığınız və rejissoru olduğunuz bədii filmlər Sizi peşəkar kino xadimi kimi tanıtmışdır.

Azərbaycançılıq düşüncəsindən yoğrulan ədəbi-tənqidi, elmi-publisistik məqalə və esseləriniz nasir-publisist iste-dadınızın məhsulu kimi meydana çıxmışdır. Həmin yazılarda milli mədəniyyətimizin qiymətli abidələrinə, klassik və müasir ədəbi fikir tariximizin bir çox böyük şəxsiyyəti və hadisəsinə tədqiqatçı münasibəti öz dolğun əksini tapmışdır.

Sizin ictimai xadim kimi də fəaliyyətiniz geniş və əhatəli olmuşdur. Uzun illərdən bəri Azərbaycan Yazıçılar Birliyinin sədri kimi məsul bir vəzifədə çalışmağınız isə böyük təşkilatçılıq qabiliyyətinə malik olduğunuzu göstərir.

İnanıram ki, yaradıcılığının ən yetkin dövrünü yaşayan söz ustası kimi Siz bundan sonra da ədəbiyyatımızın zənginləşməsi naminə töhfələrinizi əsirgəməyəcəksiniz.

Ən xoş arzularla,

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti,
Bakı şəhəri, 13 mart, 2008-ci il

AZƏRBAYCAN RESPUBLİKASİNİN PREZİDENTİ
ZATİ-ALİLƏRİ İLHAM ƏLYEVƏ

Hörmətli cənab Prezident!

70 illiyim münasibətilə mənə ünvanlandığınız səmimi sözlərə görə Sizə ürəkdən minnətdaram.

Yalnız elə ən son zamanlarda Yazıçılar üçün Yaradıcılıq evinin tikilməsi, Yazıçılar Birliyi binasınm əsaslı təmiri, yaşlı və gənc yazıçılara təqaüdlər verilməsi haqqında sə-

rəncamlar imzalamısınız. Bu, yeni tarixi dövrdə, başqa sahələrdə olduğu kimi ədəbiyyat, mədəniyyət sahəsində də xatirəsi həmişə mənim üçün son dərəcə əziz olan ulu öndərmiz Heydər Əliyev siyasətinin, onun ədəbiyyata, mədəniyyətə qayğısının, diqqətinin layiqli davamıdır.

Azərbaycanımızın xoşbəxt gələcəyi naminə Sizə çətin və şərəfli işinizdə yeni uğurlar, möhkəm can sağlığı, uzun ömür, səadət və ailə sevincləri arzulayıram.

Anar,
15 mart, 2008

Heydər Əliyev Fondu

Azərbaycanın Xalq yazıçısı Anara

Hörmətli Anar müəllim!

Sizi, müasir Azərbaycanın görkəmli yazıçısını 70 illik yubileyiniz munasibətilə ürəkdən təbrik edirəm!

Ötən əsrin 60-cı illərində ədəbi həyata gəlmiş yeni istedadlar nəslinin ən tanınmış nümayəndəbrindən biri kimi Siz çoxşaxəli yaradıcılığınızla Azərbaycan ədəbiyyatı və mə-dəniyyətinin inkişafına layiqli töhfələr vermisiniz. Sizin vətənpərvərlik, yüksək əxlaqi keyfiyyətlər aşılayan əsərləriniz oxucuların, xüsusilə gənclərin mənəvi cəhətdən zənginləşməsinə, bədii-estetik zövqünün formalaşmasına xidmət etmişdir. Siz ölkəmizdə baş verən və xalqımızın taleyi ilə bağlı olan hadisələrdən heç vaxt kənarda qalmamış, öz sözünüzü, mövqeyinizi birmənalı bəyan etmisiniz. Çox-saylı əsərləriniz tək ölkəmizdə deyil, ölkəmizin hüdudlarından kənarda da Sizə böyük şöhrət gətirmişdir. Hörmətli Anar müəllim,

Sizi əlamətdar yubileyiniz münasibətililə bir daha təbrik edir, Sizə həyatda ən gözəl nemət olan möhkəm cansağlığı, uzun ömür, ömrünüzün müdrik çağında yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Hörmətlə,

Mehriban Əliyeva,
Heydər Əliyev fondunun Prezidenti

Mehriban Əliyevaya

Hörmətli Mehriban xanım!

Yetmiş illiyim münasibətilə mənə göndərdiyiniz təbrik məktubuna görə Sizə ürəkdən təşəkkür edirəm.

Çox illər öncə mən unudulmaz öndərimiz Heydər Əliyevə öz adını daşıyan bir fond yaratmasını təklif etmişdim. O, çıxşlarında bunu xatırlamışdı. Mən çox, şadam ki, belə bir fond yarandı və ona Siz rəhbərlik edirsniz. Fondun xətti ilə və ümumiyyətlə ictimai

failiyyətinizlə gördüyünüz çox səmərəli işlər, maarif, səhiyyə, xeyriyyə və xüsusiylə mədəniyyət, incəsənət sahəsindəki təşəbbüsləriniz məni çox sevindirir.

Sizə işinizdə yeni uğurlar, möhkəm çan sağlığı, uzun ömür, xoşbəxlik arzulayıram.

Anar,
16 mart, 2008

Əziz Anar!

Belə günlərdə (öz təcrübəmdən bilirəm) çoxlu təbriklər alırsan. Onların arasında səmimiləri az deyil. İnanıram ki, mənim təbrikimi onları qoyduğun qovluğa qoyacaqsan.

Haçansa, cavanlığımda köçərilər haqqında yazmışdım: «Başqalarında özümü tanıyaraq sənə tərəf köç edirəm». Ta-nışlığımızın, yoldaşlığımızın, dostluğumuzun, qardaşlığımızın on illikləri ərzində bir-birimizi daha yaxından tanıdıq. Özümü də, dünyanı da sənin kimi adamlarla görüşlərdən sonra daha yaxşı anladım. Sənin vasitənlə sənin torpağına da, xalqına da daha yaxından bələd oldum. Xalqın sənin kitablarına püskürmüş etiraflarıyla, sevincləri və bəlalarıyla, işıqlı və qanlı səhifələriylə mənə daha da doğmalaşdı.

Bəxtimizə qəribə vaxt düşdü. Uğurlarıyla, faciələriylə möhtəşəm bir vaxt. Təffərrüatını bilmək istəyənlər tərcümeyi-hallarımızı vərəqləsinlər. Nəslimizin tarixini görəcəklər. O nəslin ki, yalanı yaxın buraxmırdı, amma eyni zamanda özü dəfələrlə aldanırdı, böyük illüziyalara qapılırdı və həyatın qaba gerçəkliyi qarısında müdafiəsiz qalırdı. Peşəkar bioqraflar qərhəmanlara və dövrlərə aid detalların fərqinə varmır, onları əhəmiyyətsiz sayır. Mən isə bu gün Moskvada, Bakıda, Alma-Atada, İstanbulda çoxlu-çoxlu görüşlərimizi xatırlayiram və bu görüşlərin hər birinin öz süjeti vardı. Şəxsiyyətin və zamanın obrazını tamamlayan görüşlər.

1986-cı ilin yazı. Yazıçılar qurultayı. Kreml dəhliz-lərində müxtəlif respublikalardan gəlmiş həmkarların gör-üşləri. Bir-birlərini qucaqlayırlar, axı aylarla görüşməyiblər. Qızğın söhbətlər, mübahisələr, hamısı da yenidənqurma mövzularında. Hamımız ölkənin həyatında dəyişiklikləri gözləyirik. Tribunadan səslənən çıxışlar da bu ab-havanı əks etdirir – kiminçünsə sevincli, kiminçünsə həyacanlı ovqatı.

Qurultayın yekun günü. SSRİ Yazıçılar İttfaqının İdarə heyəti üzvlüyünə namizədlərin siyahisi oxunur. Salondan əlavələr, təkliflər səslənir. Siyahı açıq səsverməylə qəbul olunur. Hesablama komissyası seçilir, sədr – məni, üzvlərindən biri səni seçirlər. Nümayəndələrə namizədlərin siyahısını verirlər. Gizli səsvermə üçün. Dəhlizdə qutular qoyulub, çoxu bülleten alıb elə bir başa qutuya atır. Bəziləri bülletenləri götürüb bir kənara çəkilir, kimisə pozur, sonra salona qayidırlar. Komissyanın işi iri Kreml otaqlarından birində gedir. Çoxlu masa qoyulub. Hər masanın arxasında komissiyanın bir üzvu oturub, qarşısında da bülletenlər.

Hərə neçə yüz bülletenə baxmalıdır. Hesablama sükut içində davam edir. Sədri yalnız əl qaldırmaqla çağırmaq olar. Masalara yanaşıram. Bəzi bülletenlərə çalın-çarpaz xətt çəkilib. Aydındır ki, bunu narazı adamlar edib-adları siyahılara düşməyənlər. Bu bülletenləri ayrı qoyuruq-onlar hesaba alınmayacaq. Amma bəzi «normal» bülletenlər də

var ki, onlarda da müəyyən familiyalar pozulub. Məsələn «kənd yazarları» «liberalları» pozublar Yevtuşenkonu, Rojdestvenskni, Voznesenskini.

Gördüm ki, sən əlini qaldırmısan. Yanaşdım. Mənə bir-birinə bənzəyən bülletenləri göstərdin. Hamısında eyni familyalar pozulmuşdu: Rəsul Həmzətov, Çingiz Aytmatov, Mustay Kərim, Qaysın Quliyev – siyahının az qala üçdə biri pozulmuşdu – bütün Azərbaycan familyaları, bütün qazax, türkmən, tatar, başqır, qırğız, özbək, Dağıstan, çeçen, inquş, karaçay, tacik, qaraqalpak familyaları. Yəni bütün müsəlmanların familiyaları. İstisnasız. Hansısa nümayəndələr gizli səsvermədən istifadə edib belə total hesablama genosidi icra etmişdilər. Sən: ermənilərin işidir – dedin. Komissiyanın başqa bir üzvü də eynən bu cür bülleteni göstərdi. Bu sayaq ondan artıq bülleten üzə çıxdı. Qurultayın tərkibini yoxladıq – bu sayaq bülletenlərin sayı, doğrudan da, erməni nümayəndələrin sayı qədər idi.

Mən bu qara mürəkkəblə pozulmuş adlara baxır və o vaxtadək dərk etmədiyim bir şeyi anlamağa çalışırdım. Axı mən onların hamısını tanıyırdım. Bəzilərilə cürbəcür yazıçı toplanrtılarında görüşürdük, yeyib içirdik, bir-birimizin şərəfinə tostlar deyirdik. Bəs nə oldu görəsən? Əvvəlki qurultaylarda belə bir işin olduğunu eşitməmişdim. Bu nə qəsd idi belə? Onu da deyim ki, erməni nümayəndələrinin öz aralarında da özlərini pozanlar vardı. Amma başqa bülletenlərin heç birində «yan» sonluğu olan familiyaların heç biri pozulmamışdı. Bütün bu bülletenləri yararsız sayaraq komissiya öz hesabatına daxil etmədi.

Qurultayın devizi: «Ədəbyyatların dostluğu – xalqların dostluğu» idi. On beş-iyirmi səs qurultayın qərarlarına təsir edə bilməzdi. Amma bu hərəkət bizimçün «Qorbaçov qripinin» ilk əlaməti kimi səsləndi. O xəstəliyin ki, dövlət immunitetini sarsıtdı, az sonra belə sətəlcəmli səslər xalqları bir-biriylə salışdırdı və ölkəni dağıtdı. Bir xalqın faciəsi başqa xalqı xoşbəxt edə bilməz. Tarix bu həqiqəti çox dəfə isbat edib... Bunu yazıçılardan yaxşı kim bilə bilər? Bədii tarix də, elmi tarix kimi yaddaş sənətidir. Amma biz gördük ki, tarix nifrət amilinə də çevrilə bilər və bu amil nəsil-bənəsil keçərək insanların şüurunu şikəst edə bilər. Qədim dövrlərin yazıçıları tarixi yalnız müharibələrin ardıcıllığı kimi təfsir edirdilər. «Sülh istəyirsənsə – müharibəyə hazır ol» Hər bir müharibə – soyqırımıdır. Nə yazıq ki, bu soyqırımı beynəlxalq təcrübəylə qanuniləşdirilib. Savaşlar mütləq amansız inqilablara yol açır. «Ya-ya», «Ya mən, ya sən», «Ya biz, ya onlar!»

Ədəbiyyatçılar və bu sayaq tarixçi alimlər bir neçə nəsli «ya biz, ya onlar» şüurüyla tərbiyə edərək müharibəyə hazır-layıblar. Atalarımızı (mən konkret olaraq Rəsul Rzanı və Ömər Süleymenovu nəzərdə tutmuram) bu «ya biz, ya onlar» romantikası cəlb edib və bunun nəticəsində bütöv siniflər, silklər, hətta xalqlar toqqquşub və məhv olub. Amma atalar nəslinin ən yax-şıları onu da dərk etdilər ki, təbiət insanlığı inqilaba yox, təkamülə çağırır. Və yer üzündə həyat da buna görə davam edir. İnsanlar bunu dərk etsələr həyat bundan sonra da davam edə bilər. «Həm mən, həm sən», «Həm biz, həm siz».

O qurultaydan 20 il keçib. İnsanların və özəlliklə bizim nəslin şüurunda çox şey dəyişib. Biz haçansa parlaq görünən terminləri – «azalıq», «müstəqillik». «demokratiya» istilahlarını indi ayrı cür dərk edirik. Həyat bu anlayışları təshih etdi. Və əgər o vaxtki

səsvermə bu gün baş versəydi, mənə elə gəlir ki, erməni bülletenləri də bu dərəcədə yeknəsək olmazdı.

Ən müdrik siyaəsətçilər Müstəqillik dövrünü qarşılıqlı bağlılıq kimi qavrayırlar. Get-gedə daha yaxşı anlayırıq ki, cəmiyyətdəki siniflər, qonşu xalqlar bir-biriylə qarşılıqlı anlaşmalıdırlar və bu da birgə yaşamağın əsas şərtidr. İndi bu fikir daha çox qəbul edilir. Və bu işdə, biz, yazıçılar xalqlarımıza kömək etməliyik. Anar, sənin adını atan çox gözəl tapıb. Bu adla bağlı digər nəcib assotsiatsiyalardan başqa məndə bir assosiasiya da oyanır. Xəzərin Şərq sahilindəki səhralarda qazaxlar güclü erkək dəvəni NƏR adlandırırlar. Bu dəvəni adətən karvanın lap axırına qoşurdular. O dövrdə belə bir zərbməsəl də yaranıb: «Sonuncu dəvənin yükü daha ağır olur». Ona görə ki, uzaqlaşan karvandan düşən yükləri də sonuncu dəvəyə yükləyiblər. Anar, sənlə biz hələ çox belə yükləri qaldırmalı olacayıq – keçib gedən nəsllər karvanından düşüb qalan yükləri. Bizim vəzifəmiz xalqlarımızın yaşaması üçün, təbiətin «həm sən, həm mən» qanuna riayət etmək üçün bu yükü daşımaqdır.

Səni qardaşcasına bağrıma basıram,

Sənin Oljas Süleymenovun,
Paris, 12 mart 2008

Hörmətlit Anar bəy!

70 illik yubileyiniz münasibəti ilə təbrik edir, Sizə uzun ömür, cansağlığı arzulayıram.

Siz Azərbaycan ədəbiyyatının canlı klassiklərindən birisiniz. 60-cı illər ədəbi nəslinin əni parlaq nümayəndə-lərindən biri kimi ədəbiyyatımıza yeni nəfəs gətirmiş, söz sənətimizin ideoloji ehkamlardan qurtulması, həyat həqiqətləri ilə zənginləşməsi yolunda misilsiz xidmətlər göstərmisiniz. Hələ gənc yaşlarında yazdığınız hekayə və povsetlərlə nəinki həyata yeni ədəbi baxışın başlanğıcını qoymuş, eyni zamanda yeni oxucu nəslinin yaranmasında və formalaşmasında əvəzsiz xidmətlər göstərmisiniz. Hər bir yenilik kimi Sizin də ədəbiyyatımıza gətirldiyiniz yeni ruh, yeni bədii obrazlar ciddi müqavimətlərlə rastlaşır, əsassız tənqidlərə hədəf olur. Lakin belə müqavimətlər və tənqidlər heç bir zaman həqiqi istedadın qarşısına sədd çəkə bilməyib və bilməyəcək. İstər ədəbi əsərlərinizdə, istərsə də kino və teatr sahəsində yaratdığınız zəngin irs bu gün milli mədəniyyətimizin və mənəviyyatımızın iftixarıdır. Sizin qələminizdən çıxan məqalə və esselər, xüsusilə rəhbərliyiniz altında nəşr edilən «Qobustan» dərgisi publisistikamızın sonrakı inkişafına güclü təkan verib.

Azərbaycan cəmiyyətində Sizi həm də görkəmli ziyalı kimi tanıyırlar. Bir çox çətin tarixi və milli sınaqlar dönəmində məhz Sizin mövqeyiniz proseslərin düzgün axara istiqamətlənməsində həlledici rol oynayıb. Azərbaycan cəmiyyətinin, bütövlükdə xalqımızın fikrinə və möyqeyinə ehtiyac duyduğu çox nadir ziyalılıramızdan birisiniz. Bəzən ünvanınıza səslənən qərəzli yox, səmimi tənqidlər də məhz burdan qaynaqlanır. Çünki Siz cəmiyyətin bütün kəsimlərinin umacağı olan bir insansınız. Əlbəttə, bu çox çətin bir missiyadır, amma bu missiyanı daşımaq şərəfini istedadınız və zəkanızla Siz özünüz qazanmısız.

Hörmətli Anar bəy!

Bir daha Sizi yubileyiniz münasibəti ilə təbrik edir, şəxsi həyatınızda xoşbəxtlik, ədəbi-bədii yaradıcılığınızda uğurlar arzulayıram. Ümid edirəm ki, hələ yeni-yeni əsərlərinizlə bizi çox sevindirəcəksiniz.

İsa Qəmbər,
Müsavat Partiyasının Başqanı.
«Yeni Müsavat» qəzeti, 14 mart 2008

Əski Müsavatçılar Nəsli Birliyi Cəmiyyətinin İdarə heyəti adından Rəis Rəsulzadə və İslam Camalbəyli cəmiyyətimizin fəxri, görkəmli yazıçı Anarı 70 illiyi münasibətilə təbrik edir, ona cansağlığı arzulayırlar.

«Yeni Müsavat» qəzeti, 15 mart, 2008

Həmişə əziz, həmişə səmimi, həmişə xeyirxah dostumuz Anar! Yubileyiniz münasibətilə bizim ən səmimi dostluq təbriklərimizi qəbul edin. Sizə möhkəm can sağlığı və yüksək yaradıcılığınızın daha da çiçəklənməsini arzulayırıq. Gözəl istedadınız üçün Sizə təşəkkür elirik.

Səmimiyyətlə,

Sizin Varvara və Tahir Salahovlar

Hörmətli Anar Rəsul oğlu!

70 illik yubileyiniz münasibətilə mənim ən səmimi və ürəklən gələn təbriklərimi qəbul edin. Parlaq yaradıcılığınız, çoxyönlü istedadınız, mədəniyyətin inkişafı üçün səmimi fəaliyyətiniz Sizə hörmət və məhəbbət qazandırmışdır. Azər-baycan xalqının çiçəklənməsi naminə Sizə möhkəm çan sağlığı, xoş hadisələrlə və səadətlə dolu ömür arzulayıram.

Hörmətlə,

Fərhad Əhmədov,
Rusiya Federasiyası Federal şurasının üzvü

Hörmətli Anar müəllim!

Ümumrusiya Azərbaycan Konqresi və şəxsən öz adımdan Sizi 70 illik yubileyiniz münaisibətilə təbrik edirəm.

Sizin bütün yaraldıcılığınız bir həqiqəti təsdiq edir ki, hər bir böyük istedad, qanadları möhkəmlənəndən sonra mütləq milli sərhədləri aşır və ümumdünya mədəniyyəti məkanına ucalır. Sizin elə ilk əsərləriniz yalnız doğma Azərbaycanda deyil, bütün sovet məkanında dərin psixoligizmiylə və lirizmiylə oxucuların diqqətini cəlb etdi. Sonra əsərdən-əsərə, kitabdan-kitaba Sizin gözəl istedadanız daha artıq parladı və bir çox öl-

kələrdə əsl ədəbiyyati qiymətləndirən insanların qəlbinə və beyninə yol tapdı. «Dantenin yubileyi», «Beşmərtəbəli evin altıncı mərtəbəsi» insanların hafizəsində dərin izlər saldı. Pyes və filmləriniz yalnız tək bir Sizin yaradıclığınızda nəsə təzə bir şey açmaqdan başqa bizi də özümüzdə də nəyisə kəşf etməyə, həyatın ən vacib məsələləri haqqında düşünməyə sövq edirdi.

Hörmətli Anar! Sizə bildirmək mənimçün xoşdur ki, keçən illərin bütün dram və hadisələrinə baxmayaraq Sizin istedadanız əvvəlki tək Rusiyada və əlbəttə, Rusiyadakı soydaşlarınız tərəfindən yüksək qiymətləndirilir və mən onların hamısının aldından Sizi bir daha yubileyiniz münasibətilə təbrik edirəm.

Hörmətlə,

Məmməd Əliyev,
Ümumrusiya Azərbaycan Konqressinin Prezidenti, Rusiya Federasiyasi İctimai palatasının üzvü, Pusiya Tibb Elmələri akademiyasının akademiki

Əziz Anar! Vaxtın qarşısılanmız gərdişi həyatınızın 70 illini car çəkdi. Bu yetmiş ilin əllisini doğma Azərbaycan ədəbiyyatına təmənnasız xidmətə həsr etmisiniz. İlahinin seçdiyi adamlar hər şeydən əvvəl ölkə, xalq, vaxt qarşısında öz məsuliyyətini duyan şəxsiyyətlərdir. Bu – daimi yarıdıcılıq əzabları deməkdir, yazı masasında bütün ətrafdakı həyatın olması deməkdir. Bu – gecə gündüz qəlbin və beynin çalışması, onları insanlara bəxş etmək – deməkdir.

Sizin əsərləriniz – «Dantenin yubileyi», «Əlaqə». «Beşmərətəbli evin altıncı mərtəbəsi», «Mən, sən, o və telefıon», «Ağ qoç, qara qoç» və başqa povest və hekayələriniz istedadın, zəhmətin, yuxusuz gecələrin, çətin yarıdıcılıq axtarışlarının məhsuludur və onlar haqlı olaraq Azərbaycan ədəbiyyatının qızıl fonduna daxil olaraq müəlliflərini canlı klassik mərtəbəsinə ucaltmışlar. Bir çox dillərə çevrilmiş əsərləriniz dünya ədəbiyyatının malı olmuş və ümumibəşəri əhəmiyyət qazanmışlar.

Yubileyiniz siqlətini əsərlərinizin onlarla cildi, ssenarilərini yazdığınız 15 bədii film, bir çox teatrların repertuarına möhkəm daxil olmuş pyeslərniz, ədəbiyyat-şünaslıq araşdırmalarınız, günün tələblərinə cavab verən publisist yazılarınız və qələminizdən çıxmış çoxlu başqa yazılarınız daha da artırır.

Yübileyinizi qeyd edərək, əziz Anar, Sizə yeni yaradıcılıq uğurları, şəxsi səadət və möhkəm cansağlığı arzulayırıq

Məhəbbətlə,

Tofiq Məlikli

«Ocaq» cəmiyyətinin prezidenti, Azərbaycani Yazıçılar Birliyi Moskva şöbəsinin sədri, Ümumrusiya Azərbaycanlılar Konqressinin vitse-prezidenti.

İlham Bədəlbəyli,
Azərbaycan Yazıçılar Birliyi Moskva şöbəsinin katibi

Əziz Anar,

Yazıçılar İttifaqları Beynəlxalq Birliyinin İcrayə Komitəsi, Sizin dostlarınız və həmkarlarınız bu xoş yubiley gününüzdə Sizi təbrik etməyə şaddır. Siz – məşhur söz ustası, Azərbaycanın Xalq yaşıçısı, dramuturq, senaristsiniz. Əsərləriniz dünyanın bir çox dillərinə çevrilib, 35 ölkədə nəşr olunub. Qeyrikamil dünyamızıının bütün ağrılarını və dərdlərini ürəyinizdən keçirirsiniz. Təsadüfi deyil ki, adınız tərsinə oxunanda rusca RANA – yara kimi səslənir.

Yetmiş yaş – əlamətdar rəqəmdir. Ürəkdən arzu edirik ki, sizin gələcək yaradıcılıq həyatınızda yaralar mümkün qədər az, səadət mümkün qədər çox olsun.

Sergey Mizalkov, Feliks Kuznetsov,
Vladimir Boyarinov, İvan Sabila, Qlan Ohanyan

Əziz Anar,

İsrail Dövlətinin rusdilli yazıçalar İttifaqının İdarə heyəti sizi, həmkarımızı, gözəl yazıçını yetmiş illik yubileyiniz münasibətilə təbrik edir. Sizə möhkəm cansağlığı, rifah, xoş ovqat və əlbəttə, yeni kitablar arzulayırıq.

Yefrem Baux,
İsrail Dövləti Yazıçılari İttifaqları Federasiyasının sədri
Tel-Əviv, 28 mart 2008

Əziz dostum Anar,

Rumıniyadaki oxucularınız və sədaqətli dostlarınız Sizi, Azərbaycan və dünya ədəbiyyatının öncülünü şanlı 70 illik yubileyiniz münasibətilə təbrik edir.

Möhkəm cansağlığı, xoşbəxtlik və soydaşlarınızın və çoxsaylı xarici pərəstişkarlarınızın sevinci naminə yeni yaradıcılıq uğurları diləyirik.

Həmişə Sizin

Dimitru Balan,
Rumıniya-Azərbaycan dostluq cəmiyyətinin sədri

Çingiz Aytmatovun «Veçe» nəşriyyatında Anarın «Vahimə» kitabına yazdığı xoş sözlərə «Litarutnaya qazeta» da qoşulur. Qəzetimizin səhifələrindən uzun illər görkəmli Azərbaycan yazıçısının sözü eşidilirdi və bu söz həmişə oxucuların marağına səbəb olurdu. Amma elə bu gün də -Avroasiya məkanında çox vacib mədəni-tarixi əlaqələr qırılanda da, biz bilirik ki, Kaspi sahillərində Rusiyanın və pus mədəniyyytinin həqiqi dostu yaşayır və işləyir. Ümid edirik ki, onun istedadı bizim hamımıza hələ çox yeni kəşflər bəxş edəcək.

«Literaturnaya qazeta», 19-25 mart, 2008

Hörmətli Anar müəllim!

Bizim çətin zəmanəmizdə, mürəkkəb mühitimizdə 70 il yaşamağın özü bir hünərdir. O qədər də qısa olmayan bu ömrü əqidə və inanclardan üz döndərmədən, vicdanınla kompromisə girmədən, alnıaçıq, sərbəst, xofsuz və minnətsiz yaşaya bilmək isə ikiqat, üçqat hünərdir. Siz bunu bacarmisınız. Və məncə, bir yaradıcı insanın, ictimai xadim və şəxsiyyətin özünə, nəslinə, torpağına, nəhayət, sözə, ədəbiyyata həqiqi töhfəsi də elə budur. Düşünürəm ki, 70 illik yubileyinizə ən böyük hədiyyəni indiyə qədərki fəaliyyətiniz və yaşamınızla Siz özünüz etmisiniz.

Siz 50 ildən çoxdur ki, öz sözünüzü deyir, öz işinizi görürsünüz. Böyük xidmətlərinizi, millət yolundakı fədakarlığınızı, təmiz və namuslu həyatınızı görməyənlər, yaxud inkar etmək fikrinə düşənlər varsa, bu onların problemidir. Sizin əsərlərinizi oxuyanlar, film və tamaşalarınıza baxanlar, çıxışlarınızı dinləyənlər, fəaliyyətinizi izləyənlər üçün heç kimin münasibət və yanaşma tərzindən asılı olmayaraq insan-ların ürəyində yer tapan, sevilən, sayılan, seçilən bir Anar olub, var və olacaq! Yəqin bu da 70 illik ömrün ən gözəl nəticələrindən sayilmalıdır.

Siz fəaliyyətinizin genişliyi və miqyası baxımından Azərbaycanın bəlkə də sonuncu ensiklopedistisiniz. Təbii, bunu da şöhrət naminə, yaxud xoş gündən etməmisiniz. Sadəcə, ehtiyac duyulan hər yerə özünüzü birinci çatdırmağı vicdan borcu saymısınız. Bu çətin, şərəfli missiyanı hələ uzun illər boyu davam etdirəcəyinizə inanıram.

Çünki mədəniyyətimizin, milli varlığımızın Sizə ehtiyacı var! Bunu deməyi bacarmasalar da, insanlarımızın Sizə ehtiyacı var!

Vilayət Quliyev,
«525-ci qəzet», 15 mart, 2008

Посткриптум к семидесятилетию Анара

Одно из последних выступлений Чингиза Айтматова
(в телефильме об Анаре)

Пользуясь случаем, я хочу сказать пару слов по поводу юбилея Анара. Ему где-то в ближайшие дни будет семьдесят лет. Просто так отметить, сказать, что семьдесят лет и т.д. – этого не достаточно – этот человек заслуживает большого общественного внимания и особо литературной среды нашей. Если брать литературу в масштабах бывшего советского времени, во всяком случае в масштабе СНГ, то Анар – один из крупнейших современных писателей. Он не только выразитель своего времени, но и глубокомыслящий, философствующий литератор, и тем самым он отражает возможности и потенциальные ресурсы азербайджанской литературы, азербайджанского языка. В этом смысле он очень наглядная, ведущая фигура современной литературы.

Кроме всего прочего, он известен и как общественный деятель, как один из руководителей писательской среды. Я вместе с ним сотрудничаю, содействую в нашем движении ДА (Диалог Авразии). Это очень масштабное духовное, культурное единение литераторов, деятелей искусства XX и XXI веков. Начинали мы в XX веке и до сих пор ведём свою стратегическую линию на взаимопонимание и единение современных культур, с тем чтобы это стало и нашим общим достоянием, общим вкладом. И чтобы это находило свое отражение в наших национальных культурах и литературах. Исходя из этого, я думаю, что Анар действительно та фигура, которая очень актуальна и необходима в своём плодотворном действии. Поэтому я поздравляю Анара от всей души, как аксакал, как человек, который старше его на многие годы. Но, тем не менее, я чувствую его как ровесника, как сверстника, потому что мы понимаем друг друга с полуслова, и это очень важно. Так что поздравления Анару еще раз, да будет ему свет, солнце и в мировой литературе. Но прежде всего пусть его азербайджанская литература возносится в своих новых современных открытиях. Возносится и углубляется.

Anarın yubileyinə sözardı

Anar haqqında telefilmdə Çingiz Aytmatovun çıxışı
(Bu böyük yazıçının son çıxışlarındandır)

Fürsətdən istifadə edib Anarın yubileyi haqqında bir neçə kəlmə söz demək istəyirəm. Yaxın günlərdə onun 70 yaşı tamam olur. Elə belə «yetmiş yaş» – deyib keçmək kifayət deyil, bu insan daha çox sözə, böyük ictimai diqqqətə, ələlxsus bizim ədəbi mühitin diqqətinə layiqdir. Əgər ədəbiyyatı keçmiş sovet dövrü miqyasında, ya azı MDB miqyasında götürsək Anar ən görkəmli müasir yazıçılardandır. O, yalnız öz zamanın ifadəçisi deyil, dərindən düşünən ədib-filosofdur. Bununla da o Azərbaycan ədəbiyyatının, Azərbaycan dilinin imkanlarını, potensial ehtiyatlarını nümayiş etdirir. Bu mənada o muasir ədəbiyyatın çox əyani, aparıcı fiqurudur.

Bundan başqa o, ictimai xadim kimi, yazıçılar təşkilatının rəhbəri kimi də tanınır. Mən, onunla DA (Dialoq Avrasiya) hərəkatında əməkdaşlıq edirəm. Bu XX və XXI əsr ədəbiyyat və sənət adamlarının geniş miqyaslı mənəvi, mədəni birliyidir. Biz bu hərəkata XX əsrdə başladıq və indiyidək müasir mədəniyyətlərin qarşılıqlı anlaşması və yaxınlaşması yolunda strateji xəttimizi aparırıq. Bundan çıxış edərək, mən belə düşünərəm ki, Anar, doğrudan da bu anlamda çox mühüm və aktual bir fiqurdur. Ona görə də ondan xeyli yaşlı ağsaqqal kimi mən Anarı bütün qəbimlə təbrik edirəm. Yaş fərqimizə baxmayaraq, mən onu yaşıdım kimi qavrayıram, çünki bir-birimizi bircə kəlmədən anlayırıq. Anarı bir daha təbrik edirəm, qoy dünya ədəbiyyatında ışığı, günəşi olsun. Azərbaycan ədəbiyyatı da yeni çağdaş kəşfləriylə yüksəlsin. Yüksəlsin və dərinləşsin.

Олджас Сулейменов.
Выступление в телефильме об Анаре

Дружба народов, это прежде всего дружба людей, конкретных людей. Это не абстракция. И вот Анар как раз и есть та личность, которая представляет азербайджанский народ. Когда я с ним познакомился, я уже знал его фамилию – Рза, Рзаев. Расул Рза – это очень уважаемый мною человек, один из учителей моих. Он много мне подсказал и в литературе и в понимании азербайджанского духа. И я очень рад, что все эти качества передались его сыну Анару. С Анаром мы часто встречались на наших литературных праздниках, я думаю, что в первый раз мы с ним встретились где-то в 75-ом году, когда я впервые приехал в Баку на дни советской литературы в Азербайджане. Тогда были такие праздники, со всех республик приезжали писатели, пили вино азербайджанское, чай в основном, конечно, и немножко вина, ели плов и знакомились. Со многими я тогда подружился, а вот Анар, самый близкий из этой среды, и в дальнейшем мы обнаружили сходство наших мировоззрений, нашего понимания мира, понимания наших народов и места наших народов на планете. С ним интересно всегда говорить. Я знал, что ему не надо много объяснять, и он знал, что мне не надо многое объяснять. И когда допустим, трудности случались в Азербайджане, я его понимал с полуслова, с одного намека. Мы с ним вместе работали в Верховном совете, вместе работали в Союзе писателей СССР. Я очень рад, что судьба встретила нас, надеюсь что – это взаимное обогащание, я по крайней мере, стал богаче, когда познакомился с Анаром, с его литературой, с его изысканиями по Коркуту. Он большой специалист в этой области. И я увлеченно изучал «Деде Коркут», я его читал на русском языке, но какие-то части я и на тюркском читал. А Анар посвятил Деде Коркуту целую книгу.

Очень приятные воспоминания связаны у меня с моим другом Анаром и я очень рад, что ему исполняется семьдесят лет – возраст мудрого мужа. Мы с ним почти ровесники. Я поздравляю его с этим замечательным событием и надеюсь, что и на восьмидесятилетии его я еще смогу сказать о нем и он скажет на моих праздниках. К сожалению, у нас не бывает свободного времени. Мы обычно с ним встречаемся, скажем, в Турции на каком-то мероприятии, когда приглашают его и меня, или в Москве, или еще где-нибудь. Такие встречи необходимы, они еще больше скрепляют нашу дружбу. А так чтобы, просто позвонить, сказать: слушай я приезжаю, готов плов, – я не могу, у меня нет на это времени, и у него на это нет времени. Но такие встречи происходят всё равно.

Anar haqqında telefilmdə Oljas Süleymenovun çıxışından

Xalqlar dostluğu – hər şeydən əvvəl insanların, konkret adamldarın dostluğudur. Bu mücərrəd bir şey deyil. Bax, Anar elə şəxsiyyətdir ki, Azərbaycan xalqını təmsil edir. Onunla tanış olanda artıq familini bilirdim – Rza, Rzayev.

Rəsul Rza çox hörmət bəslədiyim insan, mənim ustadlarımdan biridir. Ədəbiyyatda da, Azərbaycan ruhunu anlamaq baxımından da o mənə çox şey verib. Çox şadam ki, bütün bu keyfiyyətlər onun oğlu Anara da keçib. Anarla tez-tez bizim ədəbi bayramllarda görüşürdük. Düşünürəm ki, ilk dəfə Bakıda, 1975-ci ildə Azərbaycanda sovet ədəbiyyatı günlər keçirilərkən tanış olduq. O vaxtlar belə bayramlar olurdu, bütün respublikalardan yazıçılar gəlirdi, Azərbaycan şərabı və çayı içirdilər, əlbəttə, əsasən çay, amma bir az da şərab, plov yeyirdilər və tanış olurdular. O vaxt çoxlarıyla dostlaşdım, amma onlalrın arasında mənə ən yaxını Anar idi. Sonralar da dünyanı dərk etmək, xalqlarımızı anlamaq, onların planetdə yerini bilmək baxımından bizim dünyagörüşlərimizin çox oxşar olduğunu gördük. Onunla söhbət etmək çox maraqlıdır. Mən bilirdim ki, ona nəyisə izah etmək lazım deyil və o da bilirdi ki, mənə nəyisə izah etmək lazım deyil. Tutalım, Azərbaycanda çətinliklər olanda mən onu bir kəlmədən, bir işarədən başa düşürdüm. Birlikdə Ali Sovetdə və SSRİ Yazçılar İttifaqında işləmişik. Mən çox şadam ki, tale bizi görüşdürdü, ümid edirəm ki, bu qarşılıqlı zənginləşsmədir, hər halda mən Anarla, onun ədəbiyyatıyla, Dədə Qorqudla bağlı araşdırmalarıyla tanış olduqdan sonra zənginləşdim. O, bu sahədə böyük mütəxəssisdir. Mən «Dədə Qorqud»u həvəslə öyrənirdim, onu rus dilində, bəzi hissələrini türk dilində oxumuşdum. Anar isə Dədə Qorquda bütöv bir kittab həsr edib.

Dostum Anarla xoş xatirələr bağlıdır və çox sevinirəm ki, yetmiş yaşı tamam olur. Yetmiş yaş – müdriklik çağıdır. Biz təxminən yaşıdıq. Mən onu bu gözəl hadisəyə görə təbrik edirəm və ümid edirəm ki, səksən illiyində də onun haqqında söz deyə biləcəm və o da mənim bayramlarımda söz deyəcək.

Əfsus ki, bizim boş vaxtımız olmur. Adətən Türkiyədə dəvət aldığımız hansısa bir tədbirdə, ya Morskvada, yaxud ayrı bir yerdə görüşürük. Belə görüşlər vacibdir, onlar dostluğumuzu daha da möhkəmləndirir. O ki, qaldı elə belə zəng edəsən, deyəsən: Bura bax, aşı dəmə qoy, gəlirəm – bu mümkün deyil, buna nə mənim, nə onun vaxtı var. Amma hər halda görüşləmiz baş tutur.

Выступление Ивана Драча на юбилее Анара в Баку 15 марта 2008

Дорогая Земфира, дорогой Анар, дорогие друзья!

Наверное, надо сказать несколько слов и о том времени когда мы познакомились, потому что это было удивительное время и удивительный был у нас директор курсов Михаил Борисович Маклярский. Это был крупнейший советский разведчик, не только автор «Подвига разведчика» – знаменитого фильма. Когда за мной гнались кегебисты из Киева, – он уже умел право на это, – он так положил руку мне не плечо и сказал: Иван Драч – это мой. Таким образом он отсек все напасти и я понимаю он также отсек все напасти и от Анара, и от Максуда и от всех друзей, о которых мы говорили. Это действительно было поразительное время, к нам приходил и Андрей Тарковский, там был и Василий Шукшин, который бросал своим галстуком в кирзовый сапог, Евтушенко приходил к нам, и когда мы заходили в ресторан, он вытаскивал из кармана свой бумажник и давал сто рублей швейцару, а получали мы стипендию сто двадцать. Представляете, как мы смотрели на это.

И смотрите как поменялось время. Тогда Евтушенко мог приглашать нас на свой вечер на стадионе, где собиралась стотысячная аудитория, и даже дипломаты на могли попасть на эту встречу. Любомир Левчев приглашал нас в Софию и вместо того, чтобы говорить о поэзии болгарской, украинской, русской, все время говорил только о Евтушенко, три часа, Евтушенко, Евтушенко, без конца…

А теперь вот, пару лет назад, приехал я в Софию, был вечер Евтушенко, пришло человек двадцать примерно. Вот таким образом изменилась ситуация за эти годы, дорогой Анар, и за это время произошло становление вот этого человека, который называется Анар и юбилей которого мы празднуем. Я в эти несколько дней взял его книжки, которые он мне подарил и сам я привез из Киева. Просматривал и удивлялся, как много он успел. Ведь когда мы кончали курсы, кончалась хрушевская оттопель и начиналось двадцатилетие брежневской зимы, и вместо того, о чем мы все мечтали, кто хотел стать режиссером, кто поэтом, мы вынуждены были нести тяжелейшее бремя этой ситуации. И нам надо было сбыться в это время, и не в какое другое. Другого времени нам не далось. И вот Анар, как это он сумел это сделать и рассказы свои удивительные написать, и новеллы, роман, пьесы, а какие эссе… Я удивляюсь, я поражаюсь его мастерству, и думаю, как он успевает все это делать. Я не успел поклониться великому Феллини, за то, что он нас учил. Анар успел это сделать, он успел написать книжку о Назым Хикмете, кстати я мечтаю получить ее. А сегодня я ходил вместе со своим другом, с которым мы приехали, в музей азербайджанского ковра. Перед тем я прочел его удивительное эссе о ткачихах, которые делали это прекрасное искусство Азербайджана, которое завоевала мир.

Я очень люблю этого человека, я радуюсь, что он у вас есть, я всегда знаю, что если есть Анар – за этим стоит ум, порядочность, совесть и чистота. Я думаю, что ему удалось в какой то мере воплотить в себе тот идеал, о котором мечтал наш Тарас Григорьевич Шевченко. Этот человек – Анар.

2008-ci il 15 martda Bakıda Anarın yubiley gecəsində Ukrayna şairi İvan Draçin çıxışından

Əziz Zemfira, əziz Anar, əziz dostlar!

Yəqin ki, bizim tanış olduğumuz o vaxtlar haqqında bir neçə kəlmə demək lazımdır. Qəribə vaxt idi və bizim Kursların müdiri Mixail Borisoviç Mauklyarski də qəribə bir insan idi. O, yalnız «Kəşfiyyatçının qəhrəmanlığı» kimi məşhur filmin müəllifi yox, həm də çox böyük sovet kəşfiyyatçısı idi. Kiyevdən Moskvayacan KQBeşniklər məni izləyəndə onun haqqı vardı ki, əlini çiynimə qoyub: – İvan Draç – mənimdir – desin. Beləliklə o bütün bəlalarımı başımdan uzaqlaşdırdı və eləcə də bu sayaq bəlalardan Anarı da, Maqsudu da, bütün başqa dostlarımızı da xilas etdi. Bu, doğrudan da, qəribə bir zaman idi. Bizim kurslara Andrey Tarkovski də gəlirdi, Vasili Şukşin də. Şukşin qalstukunu uzunboğaz çəkməsinə atırdı, Yevtuşenko gəlirdi, onunla restorana gedəndə cibindən yüz manat çıxarıb ofisianta verirdi. Bizim təqaüdümüz isə 120 manat idi. Təsəvvür edin ki, biz buna necə baxırdıq.

Görün vaxt necə dəyişdi. Yevtuşenko stadiondakı şeir gecəsinə dəvət edirdi və ora yüz min adam toplaşırdı, hətta diplomatlar belə düşə bilmirdilər. Lübomir Levçev bizi Sofiyaya dəvət edirdi, bolqar, Ukrayna, rus poeziyasından söz açmaqdansa, bütün axşamı Yevtuşenkodan danışırdı – Yevtuşenko, Yevtuşenko, elə hey Yevtuşenko…

İki il bundan əvvəl isə yenə Sofiyaya getmişdim, Yevtuşenkonun gecəsinə təxminən iyirmi adam gəlmişdi. Əzizim Anar, bu illərdə vəziyyət bax beləcə dəyişdi. Bu gün yubileyini bayram etdiyimiz Anarın əsas yaradıcılıq ömrü də bu illərə düşdü. Bu günlərdə onun mənə bağışladığı kitabları və Kiyevdən gətirdiyim kitablarına baxdım və təəccüb qaldım ki, o, nə qədər çox iş görüb. Axı biz Kursları bitirəndə Xruşşov dövrü yumşalma dövrü bitirdi və uzun illərin Brejnev qışı başlayırdı. Arzuladıqlarımızın – kim isə rejissor, kim isə şair olmaq istəyirdi – yerinə biz bu vəziyyətin bütün ağırlığını çiyinlərimizdə daşımağa məcbur olduq. Biz yalnız bu vaxtda yaşamağa məhkum idik, başqa vaxtda yox. Anar bunu bacardı, öz gözəl hekayələrini də yazdı, novellalarını, romanını, pyeslərini yaratdı, hələ esseləri… Onun ustalığına mat qalıram, təəccüblənirəm, düşünürəm: bu qədər işi görməyə necə vaxt tapır. Müəllimimiz saydığımız Felliniyə borcumu mən hələ də verə bilməmişəm, amma Anar bunu edib, Nazım Hikmət haqqında kitab yazıb, bu kitabı səbrsizliklə gözləyirəm.

Bu gün Kiyevdən gəldiyim dostumla Azərbaycan xalçası muzeyinə getmişdik. Bundan qabaq Anarın xalça haqqında mükəmməl essesini oxudum.

Mən bu adamı çox sevirəm, şadam ki, Sizin Anarınız var. Onu da bilirəm ki, Anar deyəndə bu sözün arxasında ağıl, mərdlik, namus, paklıq durur. Mənə elə gəlir ki, Anar bizim Taras Qriqoryeviç Şevçenkonun arzuladığı idealı təcəssüm etdirir.

Выступление Полада Бюльбюлоглы на юбилее Анара в Москве, 23 марта, 2008

Наверное, мы счастливые люди, что живем в одно время с Анаром, дружим, общаемся, бываем вместе в поездках, бываем за дружескими столами, говорим друг о друге тосты. Мы с Анаром проводили очень важные и нужные мероприятия, я, будучи Министром культуры и Анар, как председатель Союза писателей. Анар вообще генератор идей, и очень многие его начинания и инициативы претворяясь в жизнь, имели большое значение. Еще в советское время он написал сценарий о Деде Коркуте. И уже в эпоху независимости Азербайджана Анар выдвинул идею, которую поддержал наш незабвенный Президент Гейдар Алиев, о масштабном, всемирном праздновании юбилея Деде Коркута и по инициативе Анара была издана энциклопедия Деде Коркут, главным редактором которой он является.

2008- ci il martın 23-də Moskvada Anarın yubiley gecəsində səfir Polad Bülbüloğlunun çıxışından

Yəqin biz xoşbəxt insanlarıq ki, Anarla eyni zamanda yaşayırıq, onunla dostluq edirik, görüşürük, səfərlərə çıxırıq, dost məclislərində bir-birimiz haqqında tostlar deyirik. Mən mədəniyyət naziri olan zaman Yazıçılar Birliyinin sədri Anarla bir çox vacib və önəmli ortaq tədbirlər keçirmişik. Anar ideyalar generatorudur, onun bir çox təklif və təşəbbüsləri həyata keçirilib və çox əhəmiyyətli olub. Hələ sovet dövründə o Dədə Qorqud haqqında ssenari yazıb. Müstəqillik illərində isə Anarın irəli sürdüyü və unudulmaz Prezident Heydər Əliyevin dəstəklədiyi ideyaya əsasən Dədə Qorqudun yubileyi dünya miqyasında bayram edildi və yenə də Anarın təşəbbüsüylə «Dədə Qorqud» ensiklopediyası yarandı ki, Anar onun Redaksiya Şurasının sədridir.

Выступление Риммы Казаковой на юбилее Анара в Москве

Дорогой Анар муаллим! Дорогие друзья!

Я начну с признания, что Анар – один из самых выдающихся писателей и культурных деятелей того пространства, которое называлось Советским Союзом. Но есть и личные отношения. Вы знаете, Анар муаллим, как я люблю Азербайджан и как я уважаю и люблю лично Вас. И как для меня дорого то, что вы и сейчас – на вашем семидесятилетии – такой молодой, красивый и шикарный мужчина. Я связана с Азербайджаном давно и, когда я впервые появилась в Баку и уже кем-то была, с какой-то судьбой поэта, но ваше имя уже тогда было легендарным, и я считала, что вы – это вершина, до которой не добраться, даже и мечтать не надо. Потом шли годы, я всегда читала вас. Последняя ваша вещь, которую я прочла, была напечатана в «Дружбе народов» – «Овен белый, овен чёрный». Я была потрясена. Я подумала, что в современной азербайджанской литературе есть вещи которые сильнее, серьёзнее и глубже того, что пишут сегодня русские писатели. Это не в обиду русским писателям. Это доказывает то, что Вы действительно человек мыслящий, понимающий жизнь, глубоко чувствующий проблемы Азербайджана и не только Азербайджана.

Вы – старший в своей писательской семье, вы старший и для меня.

Moskvada Anarın yibiley gecəsində rus şairəsi Rimma Kazakovanin çıxışından

Əziz Anar müəllim! Əziz dostlar!

Mən o etirafdan başlamaq istəyirəm ki, Anar – Sovet İttifaqı adlanan ərazinin ən görkəmli yazıçılarından və mədəniyyət xadimlərindən biridir. Amma şəxsi münasibətlər də var. Anar müəllim, Siz bilirsiniz ki, mən Azərbaycanı necə sevirəm və şəxsən Sizə necə ehtiram və sevgi bəsləyirəm. Mənimçün necə xoşdur ki, indi –yetmişilliyinizdə də siz belə cavan, gözəl və cazibədar kişisiniz. Mən Azərbaycanla çoxdan bağlıyam və Bakıya ilk dəfə gələrkən, artıq o zaman mənim şair kimi adım və taleim vardı – Sizin adınız əfsanəvi idi. Mən elə hesab edirdim, Siz elə bir zirvəsiniz ki, ona çatmağı heç arzulamaq belə olmaz. İllər keçirdi, mən həmişə Sizin əsərlərinizi oxuyurdum. Sizin sonuncu oxuduğum əsəriniz «Drujba narodov» jurnalında dərc olunmuş «Ağ qoç, qara qoç»dur. Bu əsər məni sarsıtdı. Düşündüm ki, müasir Azərbaycan ədəbiyyatında bü gün rus yazıçılarının yazdıqlarından daha güclü, daha ciddi, daha dərin əsərlər var, qoy rus yaşıçıları məndən inciməsin. Bu bir daha sübut edir ki, Siz düşünən, həyatı anlayan, Azərbaycanın və yalnız Azərbaycanın deyil problemlərini dərindən duyan bir insansınız.

Siz yazıçılar ailəsinin böyüyüsünüz, mənim də böyüyümsünüz.

Выступление Мамеда Алиева, академика РАН, Председателя Азербайджанского Конгресса на юбилее Анара в Москве

Сегодня роль писателя в жизни общества несколько девальвировалась. Появились писатели-шоумены, но есть и писатели-тяжеловесы. Вас, Анар муаллим, я считаю тяжеловесом и могу сравнить с Лихачевым. То, что он сделал для русской культуры, вы делаете для культуры азербайджанской. Я встречался с вами неоднократно, но хочу вспомнить один эпизод. О вас, как о писателе еще скажут ваши коллеги, я хочу сказать о вас, как о гражданине. В 90-ые годы, был очень напряженный момент в жизни нашего общества и я оказался в числе инициативной группы, мы искали человека, к которому можно было бы обратиться, чтобы снять напряжение, успокоить толпу. Мы искали вас. Я пришёл к вам в больницу. Вы лежали с перевязанным лицом, у вас было, кажется, воспаление уха. Вы сказали, что я сейчас не могу идти, у меня температура, но вечером вы уже были на площади. Вы сказали свое слово и таким образом мы избежали многих проблем, которые могли бы возникнуть. Такие люди говорят мало, но говорят очень правильно. Такие люди – не только лицо народа, нации, но и честь и совесть народа. Я хочу сказать и о ваших личных человеческих качествах, которые вы проявляли в самые тяжёлые моменты для вашей семьи. Я желаю вам крепкого здоровья, всё остальное у вас есть.

Moskvada Anarın yubiley gecəsində Rusiya Elmlər Akademiyasının akademiki, Azərbaycan konqresinin sədri Məmməd Əliyevin çıxışından

Bu gün cəmiyyətdə yazıçının rolu xeyli ucuzlaşıb. Şoumen yazıçılar meydana çıxıb, amma ağır taxtalı, ağır çəkili yazıçılar da var. Sizi, Anar müəllim, mən ağır çəkili yazıçı sayıram və Lixaçovla müqayisə edirəm. Onun rus mədəniyyəti üçün etdiyini Siz Azərbaycan mədəniyyəti üçün edirsiniz. Mən Sizinlə dəfələrlə görüşmüşəm, amma indi bir epizodı xatırlamaq istərdim. Yazıçı kimi Sizin haqqınızda həmkarlarınız danışacaq, mən isə Sizdən bir vətəndaş kimi danışmaq istəyirəm. 90-cı illərdə cəmiyyətimizin həyatında çox ağır dövr idi, mən təşəbbüs qrupunun tərkibinə düşmüşdüm və biz gərginliyi azalda biləcək, kütləni sakitləşdirməyi bacaracaq bir adam axtarırdıq. Biz Sizi axtarırdıq. Mən xəstəxanaya Sizin yanınıza gəldim. Sizin üzünüz sarıqlı idi, deyəsən qulağınız sətəlcəm olmuşdu. Dediniz ki, hərarətiniz var, gedə bilməyəcəksiniz, amma axşam artıq meydanda idiniz. Öz sözünüzü dediniz və beləliklə biz ortaya çıxacaq bir çox problemlərdən qurtardıq. Sizin kimi adamlar az danışır, amima düz danışırlar. Belə adamlar yalnız millətin sifəti deyil, həm də onun qeyrəti və vicdanıdır. Mən Sizin şəxsi keyfiyyətlərinizdən də danışmaq istərdim, ailənizin ən çətin anlarında özünüzü necə aparmağınızı xatırlayıram. Mən Sizə möhkəm cansağlığı arzulayıram, qalan hər şeyiniz var.

Выступление Главного редактора журнала «Дружба народов» Александра Эбонаидзе, на юбилее Анара в Москве

Мне легко и приятно говорить о прекрасном представителе дружеского народа, замечательном писателе, которого мы сегодня чествуем.

Анар – представитель той плеяды писателей, которые устанавливали тесные контакты между литературами народов бывшего Союза. Я вижу здесь, на сцене, названия произведений Анара, в том числе и повести «Белый овен, чёрный овен», опубликованной в нашем журнале и ставшим матрицей, то есть основным несущим остовым этого номера, повести интересной, серьёзной, глубокой, острой. Но ведь и другие, не названные здесь произведения Анара печатались в нашем журнале. И очень хорошо, что Анар счёл нужным отметить свой юбилей в Москве и московские литераторы нашли нужным широко отметить его юбилей в столице России. То, что эти связи сохраняются – замечательно. Я помню, как мы встретились с Фикретом Годжа, моим приятелем по литинституту в Вашингтоне, и я попросил его дать что-нибудь для нашего журнала. Мы говорили о том, что это противоестественно, нам, близким, родным людям общаться в заокеанской столице. Сейчас, я чувствую, что несколько меняется ситуация. За последние два года наметились положительные тенденции культурного контакта. И Анар – один из лидеров этого культурного сближения, чрезвычайно продуктивного, как для Азербайджана, так и для России. Я рад, что имею возможность от имени журнала «Дружба народов», от московских литераторов приветствовать и поздравить Анара, одного из самых любимых авторов нашего журнала.

Anarın Moskvada yubiley gecəsində «Drujba narodov» jurnalının baş redaktoru Aleksandr Ebonaidzenin çıxışından

Dost xalqın gözəl nümuyəndəsi, görkəmli yazıçı, yubileyini qeyd etdiyimiz Anar haqqında danışmaq həm asan və həm də xoşdur.

Anar keçmiş SSRİ xalqlarının ədəbiyyatları arasında sıx əlaqələr yaradan yazıçılar dəstəsinə mənsubdur. Mən burda səhnədə Anarın əsərlərinin adlarını görürəm. O cümlədən bizim jurnalda nəşr olunmuş «Ağ qoç, qara qoç» povestinin adını. Bu maraqlı, ciddi, dərin və kəskin povest həmin nömrəmizin əsas, təməl materialı oldu. Amma Anarın burda adları görünməyən başqa əsərləri də vaxtilə bizim jurnalda dərc edilmişdir. Çox yaxşıdır ki, Anar yubileyini Moskvada keçirmək qərarına gəlib və çox yaxşıdır ki, Moskva ədəbiyyatçıları onun bu bayramını Rusiya paytaxtında belə geniş qeyd edirlər. Belə əlaqələrin mövcüd olması – çox yaxşıdır. Yadımdadır mənim institut dostum Fikrət Qocayla Vaşinqtonda rastlaşdıq, xahiş etdim ki, bizim jurnal üçün bir şey versin. Amma onu da dedik ki, bizim – yaxın, doğma adamların okeanın o tayında görüşməyimiz qeyri-təbiidir. İndi, hiss edirəm ki, situatsiya bir az dəyişir. Son iki ildə mədəni əlaqələrin müsbət tendensiyaları nəzərə çarpır və Anar həm Azərbaycan, həm Rusiya üçün çox faydalı olan bu mədəni yaxınlaşmanın liderlərindəndir. Şadam ki, «Drujba narodov» jurnalı adından, Moskva ədəbiyyatçıları adından bizim jurnalın ən sevimli müəlliflərindən biri olan Anarı salamlayır və təbrik edirəm.

Выступление члена РАН, Главного редактора журнала «Вопросы истории» Ахмеда Искандерова

Дорогой Анар! Мы с вами не раз встречались, беседовали, хотя не всегда имели возможность поговорить по душам, из-за присутствия других людей. Но тем не менее, с самой первой встречи я уловил, ***кто*** вы и ***что*** вы. Но я всегда стыдился говорить всё то, что я думаю о вас, не потому что этим я как-то смогу повлиять на ваше творчество, но я чувствовал, и сегодня заметил, убедился что, как это свойственно очень крупным, настоящим писателям, вы тоже немного стыдитесь самого себя. Я это понял с первой же встречи, вы настолько скромны, что вы сами по себе, своим существованием, своим творчеством ставите многих в положение, не только друзей, но и читателей, чтобы они не могли прежде всего смотреть на вас, как на великую личность, которых, к большому сожалению, становиться все меньше и меньше и в Азербайджане, и в России.

Ну а теперь о самом главном. Я не могу сказать, что являюсь большим знатоком азербайджанской литературы. Но вот то, что я в связи с вашим юбилеем прочитал, побуждает меня написать о вас, для нашего, именно нашего журнала и донести до русского читателя, для тех, кто интересуются историей, вашу точку зрения на многие исторические события. Вот эта мысль сидит во мне. Я много об этом думаю и очень хочу это сделать. Я очень заинтересован в том, чтобы Анара знали историки, потому что, далеко не все писатели – мыслители, далеко не все писатели обладают таким даром исторического чутья. Важно, чтобы писатель не думал о том, какое место он занимает в литературе, а задумывался над историческими процессами, в которых он участвует. Именно так поступает Анар. И достаточно уже мною прочитанного, чтобы понять, как болит душа этого человека, как он переживает за несправедливость в этом мире, как он чувствует и переживает и пытается ответить на очевидные глупости жизни, на очевидные мерзости, с которыми он сталкивается. Не каждый писатель на это способен. Мне очень понравилась брошюра – «Раздумья об азербайджанстве», в которой наш дорогой Анар пытается понять, какими же ценностями гуманизма обладает Азербайджан, как в среде мировых ценностей следует найти и сохранить что-то своё. Писатель возвышается над всеми остальными и он получает, мне кажется, такую колоссальную внутреннюю силу, какая помогает ему высказать то, что, простой человек, не обладающий этой внутренней силой, сказать не может или не хочет. Я от души поздравляю вас с сегодняшним днем и хочу сказать, что я вас очень люблю, и вас и ваше творчество, и надеюсь это как-то публично выразить.

Rusiya Elmlər Akademiyasının akademiki, «Voprosı istorii» jurnalının baş redaktoru Əhməd İsgəndərovun çıxışından

Əziz Anar! Sizinlə dəfələrlə görüşmüş, söhbət etmişik, amma başqa adamların yanımızda olduqları üçün ürəkdən danışmaq imkanımız həmişə olmayıb. Buna baxmayaraq elə ilk görüşümüzdən mən Sizin kim olduğunuzu sezdim. Amma həmişə Sizin haqqınızda düşündüklərimi deməyə utanırdım, ona görə yox ki, bununla Sizin yaradıcılığınıza təsir göstərə bilərəm, yox, mən hiss edirdim və bu gün də hiss etdim ki, Siz bütün böyuk, və həqiqi yazıçılar kimi bir azca özünüz özünüzdən utanırsınız. Bunu ilk görüşümüzdən duydum, Siz çox təvazökarsınız, varlığınızla, yaradıcılığınızla, yalnız dostları deyil, oxucuları da elə vəziyyətə qoyursunuz ki, Sizə böyük şəxsiyyət kimi baxa bilməsinlər. Belə şəxsiyyətlər isə, əfsus, Azərbaycanda da, Rusiyada da get-gedə az qalır.

İndi isə əsas məsələ haqqında. Deyə bilmərəm ki, Azərbaycan ədəbiyyatının dərin bilicisiyəm. Amma yubileyinizlə bağlı oxuduqlarım məni sövq edir ki, Sizin haqqınızda bir yazı yazım. Özü də məhz bizim jurnal üçün və beləliklə rus oxucusunu, tarixlə maraqlanan hər kəsi Sizin tarxi hadisələrə baxışlarınzla tanış edim. Bu fikir məni məşğul edir. Bu barədə çox düşünürəm və bunu hökmən edəcəm. Mən çox istərdim ki, Anarı tarixçilər də tanısın, çünki yazıçıların heç də hamısı mütəfəkkir deyil, yazıçıların heç də hamısı tarixi belə duymaq fəhminə malik deyil. Vacibdir ki, yazıçı özünün ədəbiyyatda mövqei haqqında düşünməkdənsə iştirakçısı olduğu tarixi proseslər haqqında fikirləşsin. Anar məhz bu cür hərəkət edir. Oxuduqldarım kifayət edir ki, bu adamın ürəyinin necə ağrıdığını hiss edim, bu dünyada ədalətsizlikləri necə ürəyinə saldığını, həyatda rastlaşdığı səfehliklər və murdarlıqlardan necə əzab çəkdiyini bilim. Bu də hər yazıçının işi deyil. Anarın «Azərbaycançılıq haqqında düşüncələri» çox xoşuma gəldi. Bu düşüncələrində Anar Azərbaycanın humanizmin hansı dəyərlərinə malik olduğunu dərk etmək istəyir, dünya dəyərləri içində özününküləri necə tapmağın və qoruyub saxlamağın fikrini çəkir. Yazıçı başqalarından ona görə üstündür ki, o nəhəng daxili gücə malikdir. Bu güc ona imkan verir ki, belə gücü olmayan adi adamın duyduqlarını, amma deyə bilmədiklərini ya demək istəmədikldərini deyə bilsin. Mən Sizi bu günlə ürəkdən təbrik edirəm və demək istəyirəm ki, Sizi çox sevirəm. Sizi də, sizin yaradacılığınızı da. Ümid edirəm ki, bunu daha geniş şəkildə ifadə edə biləcəm.

Выступление писателя Чингиза Гусейнова на юбилейном вечере Анара в Москве

Я Анара помню с семнадцати лет, ему было семнадцать лет. Я был в гостях у великих поэтов Азербайджана Расула Рзы и Нигяр ханум. Нигяр ханум была удивительная женщина. И сейчас, когда школа показывала великолепный спектакль по произведению Анара, написанного в память об отце, в память о матери, мне приходилось некоторые вещи переводить. Это отрывки из «Сизсиз». «Сизсиз»(«Без вас») – одно из выдающихся произведений азербайджанской мемуарной литературы. Эта книга занимает особое место по силе своего эмоционального воздействия.

Уже в самые молодые годы Анара я почувствовал, что это – неординарная личность. Эта личность, которая будет услышана, причем услышана так мощно, что это будет крупнейшее событие в азербайджанской литературе. Это я говорю искренне, это действительно то, что я тогда почувствовал.

Буквально перед тем как придти сюда, мне позвонил сын. Сын бережёт портрет Расула Рзы, который подарил ему лично сам поэт. И я сказал сыну, что иду на юбилей семидесятилетия Анара. И хотя я чуть-чуть старше, но мне как-то не верится, что Анару семьдесят. Сын сказал, передай привет от меня Анару и он мне напомнил, что, как-то в Москве, в очень хорошей компании, мы отмечали 33-летие Анара. Из той компании сегодня нет Акпера Бабаева, Музы Павловой, Владимира Бурича. И сын мой сказал, ты обязательно напомни ему, что мы потом вышли с ним и он мне говорил, да, тридцать три года – это возраст Христа, а что я еще успел сделать? Я должен сказать, что дорогой Анар, сегодняшний день – это праздник азербайджанской культуры. Праздник азербайджанской литературы. Ты очень много сделал для азербайджанской культуры.

Я помню, с первых рассказов Анара в журнале «Азербайджан», я был потрясен. Он потрясал новыми сюжетами, новым жанром, новыми стилевыми открытиями.

И еще я хочу сказать несколько слов о последней его повести «Белый овен, черный овен». Это потрясающее произведение и журнал проявил действительное мужество, опубликовав эту вещь. И здесь Анар выдал синтез утопии и антиутопии.

Так что, дорогой Анар, ты очень много сделал, и я горжусь дружбой с тобой, хотя и между друзьми порой случаются размолвки. Но во всяком случае никто не может отрицать, что Анар – крупнейшее явление в азербайджанской литературе и я хочу сердечно поздравить его.

Moskvada Anarın yubiley gecəsində yazıçı Çingiz Hüseynovun çıxışından

Anarı on yeddi yaşından tanıyıram, onun on yeddi yaşından. Azərbaycanın böyük şairləri Rəsul Rzanın və Nigar xanımın evlərinlə qonaq olmuşam. Nigar xanım qeyri-adi qadın idi. Bu gecə məktəblilər Anarın atası və anasının xatirələrinə həsr etdiyi əsəri əsasında gözəl tamaşa göstərirdilər, mən də qonşularıma bəzi parçaları tərcümə edirdim. Bu «Sizsiz»dən parçalar idi. «Sizsiz» Azərbaycan memuar ədəbiyyatının ən gözəl əsərlərindəndir. Emosional təsir gücü etibarıyla bu əsərin xüsusi yeri var.

Anarın lap gənc yaşlarından dərk etdim ki, bu qeyri-adi şəxsiyyətdir. Bu şəxsiyyəti eşidəcəklər, özü də elə eşidiləcəkdir ki, bu Azərbaycan ədəbiyyatının çox böyük hadisəsi olacaq. Mən səmimi deyirəm, bu, doğrudan da mənim o vaxt duyduqlarım idi.

Bura gəlməyimdən bir az əvvəl oğlum telefon etdi. O Rəsul Rzanın portretini qoruyub saxlayıb, bu şəkli vaxtilə ona şair özü bağışlamışdı. Oğluma dedim ki, Anarın yetmişillik yubileyinə gedirəm. Mən Anardan bir az yaşlı olsam da, heç cür inana bilmirəm ki, onun yetmiş yaşı var. Oğlum dedi ki, Anara salam söylə. O, yadıma saldı ki, haçansa Moskvada, çox yaxşı bir kompaniyada Anarın 33 yaşını qeyd edirdik. O kompaniyadan indi nə Əkbər Babayev, nə Muza Pavlova, nə Vladimir Buriç qalıb. Oğlum dedi mütləq xatırlat ki, sonra biz küçəyə çıxdıq və Anar deyirdi: 33 yaşım var, bu Həzrət İsanın yaşıdır, bəs mən bu yaşda neyləmişəm?

Əziz Anar, deməliyəm ki, sən Azərbaycan mədəniyyət üçün çox iş görmüsən. Bugünkü gün Azərbaycan mədəniyyətinin bayramıdır. Azərbaycan ədəbiyyatının bayramıdır.

Yadımdadır «Azərbaycan» jurnalında Anarın elə ilk hekayələri məni sarsıtmışdı. O, yeni süjetləriylə, yeni janrla, yeni üstub ixtiralarıyla sarsıdırdı.

Bir neçə kəlmə də onun son povesti – «Ağ qoç, qara qoç» haqqında demək istəyirəm. Bu – sözün yaxşı mənasında – dəhşətli əsərdir və jurnal bu əsəri çap etməklə böyük cəsarət göstərmişdir. Anar bu əsərdə utopiya və antiutopiyanın sintezinmi yaratmışdır.

Odur ki, əziz Anar, sən çox iş görmüsən və mən sənlə dostluğumla fəxr edirəm. Düzdür, bəzən, dostlar arasında da anlaşılmazlıqlar olur. Amma hər halda, heç kəs inkar edə bilməz ki, Anar Azərbaycan ədəbiyyatında böyük bir hadisədir və mən onu ürəkdən təbrik etmək istəyirəm.

2008-ci il fevralın 23-də Ankarada Milli kitabxanada Anarın 70 illiyinə həsr olunmuş tədbirdə çıxışlardan fraqmentlər:

Avrasiya Yazarlar Birliyi Başqanı Yaqub Dəliömərogluunun çıxışından

Min illərin sərhəddini mən aşacam
Düşmənlərin acığına yaşamışam, yaşayacam.

Bu şeirində deyildiyi kimi Anar bəy düşmənlərimizin acığına yaşayır, yaşayacaq və adı min illərin sərhəddini aşacaq. Anarın 70 yaşını Türkiyədə bayram etməyimizə razılıq verdiyinə görə ona təşəkkür edirik. Onun yubileyi şübhəsiz Bakıda, Moskvada, Rumıniyada və başqa ölkələrdə qeyd olunacaq, amma bu fürsəti ilk olaraq bizə verdiyinə görə bəxtiyarıq. Çox illər öncə Türkiyə televizionlarında «Dədə Qorqud» filmi göstərilərkən sayın xocamız Əhməd Qabaqlı qəzetlərdə bir sürə yazılar yazmışdı. Bu böyük əsərimizi, böyük mirasımızı bu günün texnolojisiylə, sinema diliylə ekranlara çıxardığma görə Anara təşəkkrür edirdi.

Anar yalnız yazar deyil, toplumun (cəmiyyətin) irəlidəgedən çox önəmli aydınlarındandır. Azərbaycanın latın alfabesinə keçməsi çox böyük tarixi hadisə idi, bu xalqlarımızın daha da yaxınlaşmasına hizmət edən bir işdir. Amma bu işin bir risqi də var. Yeni quşaqlar (nəsillər) əsgi kiril alfabesində yaranmış böyük bir mirasdan ayrı düşə bilərdilər. Bəzi başqa türk cümhuriyyətləri də latın alfabesinə keçdilər, amma Azərbaycan ilk və bəlkə də tək ölkədir ki, əski kiril əlifbasıyla yaranmış böyük ədəbiyyatı yeni latın hərfləriylə yenidən çap etmək haqqında qərar qəbul etdi. Bu işin təşəbbüskarı da Anar oldu. O, Yazarlar Birliyinin təklifini sayın Cümhur Başqanı İlham Əliyevə yetirdi və Cümhur Başqanı bu barədə qərar verdi. Anar Türksoyun yaranmasının da təşəbbüskarlarının biri olmuşdur. Biz Avrasiya Yazarlar Birliyini yaradarkən, «Kapdeş kalemlər» dərgisini basmağa başlarkən Anarın məsləhətlərini, tövsiyyələrini nəzərə alırdıq, o, bu hərəkətimizi yönəldənlərdən biri kimi hər zaman yanımızda oldu. Anarın təşəbbüsüylə Azərbaycanda bir sıra Türkiyə yazarlarının, Türkiyədə bir sıra azəri yazarlarının kitabları basıldı. Bu gün Türk dünyasının bu böyük yazarının doğum gününü qutlarkən ona şükranlarımızı bildiririk.

Sabiq Kültür bakanı (Mədəniyyət naziri) Namiq Kamal Zeybəyin çıxışından:

Burda çıxış edən sayın xocamız Nevzət Kosoğlu mənim məhbəs arkadaşımdır. Həbsdə mən ondan bir qədər uzun zaman qaldım. Məhbəsdəykən sayın xocamız bir so-

ru sordu: Türk millətini bir sözlə səciyyələndirmək olsaydı hansı kəlməni qullanardınız (işlədərdiniz)? Ağlımıza gələn ilk sözlər: «igidlik», «qəhrəmanlıq» oldu. – Xeyir – dedi. – O zaman siz söyləyin, – dedik. O: – «hüzn» – dedi.

Anara baxanda mən hər zaman onun üzündə bu hüznü görürəm. Çox illər əvvəl ilk tanışlığımızda onun içinin hüznlə dolu olduğunu sezdim, sonra kitablarını oxuduqda da bu hüznü gördüm. Amma bu hüznün içindən dərin ehtiras və etiraz çıxır və sonucda oxucusuna böyük zövq verir. Dünyanın qəribə işləri var. Birisinin kitabları çıxır, hətta Nobel də qazanır, amma bəhs olunan şəxsin kitablarını aldım, oxumağa başladım, iki-üç səhifə oxuyub ardını oxuya bilmədim. Amma Anarın əsərləri insanı elə cəlb edir ki, başladınmı, bitirmədən yerə qoya bilmirsən. Anar sadəcə Azərbaycanın deyil, bütün türk dünyasının böyük yazarıdır. Sanırdım ki 60-a yaxın kitabı çıxıb, 90-dan fazlaymış. Əsərləri dünyanın 30 dilinə çevrilib, bunların sırasında mən Türkiyə türkcəsini saymıram. Çünki Azəri türkcəsindən Türkiyə türkcəsinə çevirmək yox, yalnız aktarmaq (uyğunlaşdırmaq) olar. Sənətin çeşidli türlərində əsərlər yaratmış Anar bunların heç birini yazmayıb tək bir kitabı ortaya qoymuş olsaydı yenə də türkçülük tarixinə böyük hizmətlər yapmış olardı. Bu kitab onun tərtib etdiyi «1500 ilin oğuz şeri» kitabıdır. Bu mənim başucu kitabımdır, hər zaman masamın üstündə olan kitabdır, onu dönə-dönə oxuyaraq şeir dünyamıza dalıram.

Anarla bağlı iki konuya (mövzuya) da toxunmaq istərdim. Anar yazır ki, Azərbaycanda doğulub yaşadıqları üçün fars dilində yazan şairləri ədəbiyyat tariximizə daxil edirik və bu doğrudur. Nizami Gəncəvini, Xaqanini Azərbaycan ədəbiyyatından ayırmaq olmaz. İraqda yaşayan Füzuli də Azərbaycan ədəbiyyatına mənsubdur və bu da tamam doğrudur. Anar soruşur: bəs nədən dili dilimizdən olan Yunis İmrə, Pir Sultan Abdal, Qaracaoğlan, Dadaloğlu kimi şairləri ədəbiyyatımızdan dışlayırıq. Axı onlar yaradan dövrlərdə Azərbaycan və Anadolu türkcəsi arasında heç bir fərq yox idi. Eləcə də Dədə Qorqudun dili ortaq dilimizdir. Və özü bu soruya cavab verərək bu şairləri təritib etdiyi qiymətli antolojidə bir araya gətirir, ümumtürk şerinin mənzərəsini yaradır.

İkinci konu Anarın bir şeiriylə, iki misrasıyla bağlıdır.

Mən devrimin əsəriyəm,
Mən devrimin əsiriyəm.

Şairlər hər sözü doğru söyləməzlər. Söz ox kimi kamandan çıxdımı onun hədəfi artıq biz, oxucularıq və onu istədiyimiz anlamda anlaya bilərik. Anar heç zaman devrin əsiri olmamışdır, Sovet dönəmində yazdığı bütün əsərlərini bu gün olduğu kimi basa bilir, çünki onlarda nə sovet propoqandası, nə sovet havası var. Bu isə yalnız böyük sənətçilərə aid olan bir özəllikdir. Belə yazarlardan biri də 70 yaşını qutladığımız Anardır.

Hamımızın, özəlliklə şairlərimizin piri olan Xoca Əhməd Yasəvi yuz ildən artıq yaşamışdır. Anar Dante kimi ömrünün yarısına yetmişdir. O, Dantenin yubileyinə «dəvət» alan adamlardan deyil. Amma, deyim ki, bu əsərin qəhrəmanı da xoş bir adamdır və bu Anarın ən çox sevdiyim və təsirləndiyim əsərlərindəndir.

Mən Anara Xoca Əhməd Yasəvi ömrü yaşamağı diləyirəm.

Sair Əli Akbaşın çıxısından:

Anar milli olmaqdan əvrənsəlliyə (ümumbəşəriliyə) ucalmış yazardır. «Ağ qoç, qara qoç» mənə «Qutadqu biliyi» xatırlatdı. Burada da hökm sahiblərinə, yetgililərə (rəsmilərə), hətta Bələdiyyə başqanlarına tövsiyyələr var.

Belinə sıçrasan işıqlı dünyaya çıxacağın ağ qoçla, insanı zülmət dünyasına aparan qara qoçla bağlı masal (nağıl) bizim Anadoluda da var. Amma Anar bu masaldan çağdaş sorunların çözülməsi üçün çox ilginc (maraqlı) ustalıqla qullanmışdır,

Anarın bütün əsərləri arasında bir əlaqə də görünür. Kiçik «Sayların sərgüzəşti» hekayəsi «Ağ liman»dan xəbər verir. «Sayların sərgüzəştləri»ndə insanların rəqəmləşməsi «Ağ liman»da daha dərin fəlsəfi və toplumsal (ictimai) məna kəsb edir.

Professor, doktor Əhməd Bican Ərcilasunun çıxısından:

Anarın əsərləri Universitelərimizin türkorloji bölümlərində tədris edilir və öyrəncilər arasında böyük ilgiylə qarşılanır. Bu bir cəhətdən də önəmlidir. Bu əsərlərlə orijinalın dilində, yəni – Azəri türkcəsində tanış olanlar bu gün Türkiyə türkcəsinin bu qədər pis işlənməsindən qaynaqlanan bədbin duyğulardan qurtulacaqlar.

Dosent Orxan Söyləməzin çıxısından:

Türkiyədə Anarın çeşidli yayın evləri və çeşidli çevirilərdə yeddi romanı basılmışdır: «Ağ liman», «Beş qatlı evin altıncı qatı», «Bir firsət bulsam» (*«Macal»* – ***red.***), «Dantenin yubilesi», «İlgi bağı» («Əlaqə»), «Sıra selvilərdə bir otel odası» («Otel otağı»), «Ağ qoç, qara qoç». Anarın əsərləri bir nəfəsə oxunan əsərlərdir. Mən illərdir bu əsərlərdən bəhs edərək öyrəncilərimə (tələbələrimə) bu əsərləri oxumağı tövsiyyə edirəm. Öyrəncilərin ən çoz ilgiləndiyi əsər «Beş qatlı evin altıncı qatıdır». Təhminə surəti çox ciddi dartışmalara nədən (səbəb) olur.

Anar haqqında kitabın müəllifi Ayşa Atayın çıxışından:

Anarın yaradıcılığı və ömür yolu haqqında kitabımda ətraflı bəhs etmişəm. Burada onunla ilgili bir neçə bəlgəylə (sənədlə) sizləri tanış etmək istərdim. Bəlgələrdən biri Anarın babası (atası) Rəsul Rzanın ikinci Dünya savaşı zamanı 1942-ci ildə Krım cəbhəsindən eşi (həyat yoldaşı) Nigar xanıma yazdığı məktubdur: «Əgər Anarın doğum gününə gələ bilməsəm, rica edirəm mütləq o günü keçirin. Cijimə mənim adımdan de ki, martın 14-nü boş qoymasın. Özünüz də olsanız yığılın. Anarımı yaxşıca sevindirin. Mən evdə olmasam da, mənimçün bir stul ayırın, qoyun boş qalsın. Mən xəyalımda o məclisdə iştirak edəcəm».

İkinci bəlgə Anarın annesi Nigar Rəfibəylinin elə o savaş illərində yazdığı gündəlikdən səhifələrdir:

1942-ci il 1 yanvar. Səhər oyandığım zaman Anar bəxtiyar bir təbəssümlə mənə baxırdı. Anar! Anar! Hər dərdi bir təbəssümü ilə unutduran Anar! Mən onu geyindirib küçəyə çıxartdım. Bütün günlərim Anarla keçir. Rəsul gedəndən bəri o mənə daha çox bağlanmışdır. Hər gün gəzməyə çıxırıq».

Bir bəlgə də Anarın öz yazısıdır. Önəmli odur ki, 22 yaşında yazdığı bir yazısındandır: «Vaxt bizi məğlub edir, biz vaxta qalib gəlirik. Vaxt müəyyən bir vaxtdan sonra bizi torpağa qatıb vətənimizin ərazisini bir adam cismi qədər böyüdəcəkdir. Əsərimiz, işimiz, yaradıcılığımız necə əhəmiyyətsiz olsa da hər halda bir sözdür, bir qəlbin döyüntüsüdür, təkraredilməz bir səs, bir nəfəs, bir qoxudur. Axı iki eyni adam yoxdur, deməli iki eyni yaradıcıdıq, iş, əməl də yoxdur. Hər kəs öz sözünü, öz fikrin deməli, öz səsini qoyub getməlidir. Səslərimiz havada əriyib gedəcək. Yazıçı xoşbxətdir, onun səsi kağıza yapışır. Vaxt bizə neyləyəcək? Vaxta qalib gəlmək üçün nə isə bir iş görməlisən. Bu gün sonsuz olan bir adam yuz ildən sonra bəşəriyyətin yüz nəfər az olmasının günahkarıdır. Heç bir iş qoyub getməmiş adam insanlığı bir addım geri çəkir. Yazıçı yazmalıdır. İnsanlığı düşünməyib öz fərdini təsdiq edən, «mən»ini ifadə edən, daxilini təsvir edən yazıçı insanlığa ən böyük xidmət göstərir. Özü haqqında kəşf etdiyi hər şey insanlıq elminin bir cümləsidir. 26 may, 1960».

Düşünürəm ki, Sizə ilətdiyim (çatdırdığım) bəlgələr Anarın ailəsindəki münasibətlər haqqında da, Anarın gənc yaşlarından ən ciddi məsələləri düşündüyü haqqında da çox şey deyir.

Kim nə yazmış, nə demiş

«Şəhərin yay günləri» həm düşündürən, həm də həyəcanlandıran tamaşadır və bu tamaşada müəllif fikrinin aydınlığı, onun parlaq səhnə təcəssümü mizanlardan tutmuş aktyor oyunundakı bütün incə ştrixlərə, intonasiyalara qədər hər şeydən hiss olunmaqdadır.

Anarı oxucularımız bir sıra gözəl nəsr əsərlərinin və ədəbi məqalələrin müəllifi kimi tanıyırlar. «Şəhərin yay günləri» M.Əzizbəyov adına teatrın səhnəsində onun ilk addımıdır və çox da uğurlu, sevindirici addımdır. Anar teatra süceti, kompozisiyası bitgin, dili səlis, cazibədar və dramatik konflikti həm həyati, həm də kəsgin olan, sürətlə inkişaf edən dolğun ictimai mündərəcəli dram əsəri təqdim etmişdir. Bu əsər həyat hadisələrini diqqətlə müşahidə edən, onlara öz işıqlı vətəndaş münasibəti olan, onları bədii təfəkkürün süzgəgindən keçirərək tipikləşldirməyi bacaran bir istedadın əsəridir.

Qurulşuçu rejissor Tofiq Kazımov əsəri səhnədə qabarıq, mənalı, təsirli boyalarla canlandırmışdır.

Mirzə İbrahimov,
«Yay günlərinin hərarəti» məqaləsindən. «Kommunist» qəzeti

Fikrimcə «Təhminə və Zaur» son illərin layiqli ədəbi hadisələrindəndir. O, ədəbiyyatın əzəli və əbədi mövzusu sayılan insanın məhəbbət hisslərinə həsr olunmuşdur. Dramın ədəbi mətni, dialoqlar, remarkalar janrın tələbinə uyğun, yığcamdır, mənalıdır. Bütün bunlar Anarın səhnəni yaxşı duyduğunu, professional sənətkarlıqının kamilləşdiyini, bilik dairəsinin genişliyini göstərir. «Təhminə və Zaur» Anar istedadının insanlara yuksək əxlaqi keyfiyyət aşılayan, yaxşı zövq tərbiyə edən sənət yolunda dəyərli nailiyyətidir.

Mirzə İbrahimov.
«İlhamın üfüqləri»

Anar çox gəncdir. Ən gənc yazıçı nəslinin nümayəndəsidir. Özü kimi təsvir etdiyi adamlar da gənclərdir. Oxucuları da əsasən gənclərdən ibarətdir.

O, duzlu, maraqlı hekayələr yazır. Təsvir etdiyi adamların psixoloji aləmini göstərməyi, hadisələrin dərinliyini təsvir etməyi sevir. Bu da Anar yaradıcılığının seçilən xüsusiyyətlərindəndir. Ancaq ən mühümü deyil. Ən mühümü onun yaradıcılığındakı yumordur. Anarın əsərlərindəki şən gülüş, yüngül zarafat hər zaman oxucunun yol yoldaşıdır. Yumoru duymaq, dərindən anlamaq, duzlu sözlərdən, hadisədən, adamdan zövq almaq istedadına sahib olmağı mən hər kəs üçün, xüsusən yazıçı üçün böyük xoşbəxtlik hesab edirəm.

Mən Anarın «Molla Nəsrəddin – 66» başlığı altında toplanmış bir-birilə bağlı olan yumoristik satirik hekayələrini maraqla oxudum.

Yumor onun ən çox «Zəncir» hekayəsində hiss olunur. Qəribə bir formada xalq nağıllarına bənzər bir şəkildə yazılmış bu əsər oxucunu meşşanların, xırda beyinli adamların dünyasına aparır. Bu dünyada hər şey əvəz-əvəzdir.

Yadınızdadırmı, bir xalq nağılında sərçə bir kol tapır, onu təndirdə çörək yapan bir qarıya verib əvəzində çörək alır, qoyunu aşığa verib saz alır və ilaxır...

Yumoristın, satirikin yolu çətin yoldur. Təhlükəlidir. Ancaq işi nəcib və xeyirxahdır. Bu çətin yolu təzəcə addımlamağa başlayan Anara müvəfəqiyyətlər arzulayıram.

Sabit Rəhman

Anarın bir yazıçı kimi yaxşı cəhətlərindən biri budur ki, qələmə almaq istədiyi mövzunu mükəmməl öyrənir, axtarışlar aparır, tədqiqatçı kimi araşdırmalarla məşğul olur və onu bütöv qavradıqdan sonra yazıya başlayır. Biz bunu Mirzə Cəlildən əsər yazmazdan əvvəl «Anlamaq dərdi» və «Dədə Qorqud dünyası» kimi elmi, essevarı, publisist əsərlərin timsalında görürük.

Mənə elə gəlir ki, «Dədə Qorqud dunyası» indiyə qədər «Dədə Qorqud» haqqında yazılan bütün elmi araşdırmalara istinad edilərək, onların əsarət zəncirindən uzaqlaşaraq, müstəqil mühakimələr əsasında yaradılmış emosional, emosional olduğu qədər də elmi bir əsərdir. Bu əsərdə iki cəhət xüsusilə diqqəti cəlb edir. Birincisi, Anar «Dədə Qorqud» oğuzlarının başqa oğuzlardan fərqli olduğunu, öz adət, psixologiya, əxlaq, ailə münasibətləri, məhəbbət və sədaqət anlayışları ilə azərbaycanlı olduqlarını və bunların bizim torpaqda ta qədimdən yaşadığını, bir sözlə, bizim özümüz və kökümüz olduğunu sübut edir. «Dədə Qorqud» bizimdir, onun oğuzları isə əcdadımızdır. Özü də Azərbaycan torpağında eramızın əvvəllərində, bəlkə də daha qədimdə yaşamışlar. İkinci cəhət odur ki, Anar «Dədə Qorqud» dili ilə, «Dədə Qorqud» əxlaqı, psixoloji, etik xüsusiyyəti ilə, indiki azərbaycanlıları müqayisə edərək oxşar cəhətlər, daha dəqiq desək, indinin özündə də yaşadılan cəhətləri axtarıb tapır. Heç şübhəsiz, bu əsər dədəqorqudşünaslığı zənginləşdirəcəkdir.

İsmayıl Şıxlı

Uzun ömrün unudulmaz Anları

Üzeyir Hacıbəyovun zəngin yaradıcılığı təkcə musiqi mədəniyyətimizin deyil, bütünlüklə mədəniyyətimizin və ümumən mənəvi tariximizin bir mərhələsidir. Onun parlaq obrazını sənətin hər hansı bir vasitəsi ilə canlandırmaq, geniş, çoxcəhətli həyat və fəaliyyətini tədqiq və təsvir etmək olduqca məsuliyyətli bir işdir. Böyük bacarıq tələb edir.

Cəsarətlə demək olar ki, Anarın «Üzeyir Hacıbəyov – «Uzun ömrün akkordları» filmi bu tələbə cavab verir. O filmin ssenari müəllifi və rejissoru kimi çətin bir işin öhdəsindən müvəffəqiyyətlə gəlmiş, buna kino, teatr, radio, televiziya, sənət arxivlərində, fonetikalarda, kitablar arasında əzablı, diqqətli, dərin araşdırmalar, aşkarlaşdırmalar aparmaq yolu ilə nail olmuşdur.

«Üzeyir Hacıbəyov – Uzun ömrün akkordları» sovet bədii televiziya filmlərinin arasında uğurlu hadisədir. Azərbaycan kinosunun irəliləyişinə dəlalət edən, tarixi və müasir əhəmiyyəti şəksiz olan baxımlı, maraqlı ekran əsəridir.

Bayram Bayramov

Oxucu xeyir - duası ilə

«Min beş yüz ilin Oğuz şeiri». Antologiya. Tərtibçi, ön və son sözlərinin müəllifi Anar. «Azərbaycan» nəşriyyatı. Bakı, 1999.

Türk dünyasının min beş yüz illik poeziyasına baş vuran bu kitab «Kitabi-Dədə Qorqud», «Oğuznamələr», «Divani-lüğət-üt-türk», «Əxtəri-kəbir» kimi kitablar öğuz tarixini, poeziyasını, dilini öyrənmək baxımından böyük əhəmiyyətə malikdir. Min beş yüz ilin oğuz şeirindən nümunələri özündə toplayan kitab bir institut əməkdaşlarının birlikdə gördüyü və meydana qoyduğu bir tədqiqat külliyatı kimi bir, beş, on, on beş adamın işi deyil. Elə buna görə də (əlbəttə, başqa cür ola da bilməzdi) məlum mənbələrə əsaslanıb. Zor işdir. Bunu mən bir də ona görə dərk edir və oxucunun nəzərinə çatdırıram ki, mənim əlbəttə, kiçik miqyasda bu baxımdan təcrübəm vardır.

Kitabın əsas məziyyətlərindən biri ondadır ki, müasir poeziyamızın qırılmış əlaqələrini bərpa etmək, türk dünyasının poeziya tarixini gözü önündə canlandırmaq əvəzsizdir.

Anar bir institutun işini görmüşdür. 1300 illiyini qeyd etdiyimiz «Kitabi-Dədə Qorqud»dan daha öncələrə əl uzatmışdır. 1500 illik türk dünyasının poeziyasının ağırlığını Anar çiyninə götürmüşdür.

Əzizə Cəfərzadə.
«Ədəbiyyat qəzeti» 19 noyabr, 1999

«Sizi deyib gəlmişəm»... Bu sözlərin kimin dediyini və nə vaxt dediyini hər bir azərbaycanlı bilir. İndi isə bu sözləri M.Əzizbəyov adına Dram Teatrının afişalarında oxuyuruq.

Tamaşaya baxan deyə bilər ki, mükalimələr Cəlil Məmmədquluzadənin, Həmidə xanım Cavanşirin «Xatirələrindən», Sabirin «Hophopnamə»sindən alınmışdır. Bəs yazıçı Anar buraya nə əlavə edib ki?! Elə məsələ də bundadır. Anar Fərhad kimi külüng ça-

lıb, o, nəhəng simaların mükalimələrini, şeirlərini, əsərlərindən parçaları, səhnələşdirilmələri bir mövzu, vahid bir ana xətt ətrafında birləşdirə bilib. Anar bizə Mirzə Cəlilin, Sabirin görüb qələmə aldıqlarını göstərə bilib.

Əsərin səhnə həlli də (rejissor M.Fərzəlibəyov) maraqlıdır. Gözümüz onündə o zamankı xalqı qaldıran iki qanad çanlanır: bu qanadların biri «Molla Nəsrəddin», o biri «Hop-hopnamə»dir. Səhnədə iki sürət xalq üçün yanır: Mirzə Cəlil, Sabir. İki əsl insan zülmətə, cəhalətə, qara buludlara qarşı çarpışır: Mirzə Cəlil, Sabir!

Əzizə Cəfərzadə

«Ədəbiyyatımızın axırıncı on ili ürəyimi vərəmlədib»

– Bir vaxtlar Azərbaycan Yazıçılar İttifaqı deyilən, yazarlara, ev, bağ, maşın verən, əsərlərinin çapına kömək eləyən bir qurum vardı ha, o yenə dururmu?

Əzizə xanım sualdakı incə ironiyanı tutsa da, üzə vurmur və sakitcə cavab verir:

– Anar Rəsulun və Nigarın oğludur, yüksək mədəniyyət sahibidir. Amma ona elə yerlərdən, elə səviyyələrdə təsirlər, hücumlar olur ki… Yadımdadır ki, Yazıçılar Birliyinin sədri vəzifəsinə ikinci dəfə qətiyyən seçilmək istəmirdi. Biz dəfələrlə israr eləyəndən sonra razılaşdı. Bir də təkrar edirəm: bu gün Birliyin, nə də onun sədrinin maddi dayağı var. Bunlar olmayandan sonra, məncə sanballı iş görməkdən danışmağa dəyməz.

Əzizə Cəfərzadə.
«Azadlıq», 20 avqust, 1996

Düşündürən sənətkar

60-cı illərdə ədəbiyyatımıza gələn, ilk əsərləri ilə də diqqəti cəlb edən Anar o vaxtdan bu günə qədər böyük, mürəkkəb və şərəfli yaradıcılıq yolu keçmişdir.

Hekayə, povest, roman, dram, kino-ssenarilər, müxtəlif mövzulu məqalələr...

70-ci illərdə yazılan «Ağ liman» dünyanın bir çox ölkələrində nəşr olunmuşdur.

«Ağ liman»da Təhminə gördüyü yuxunu Nemətə danışır. Ağ limana qırmızı gəmilər gəlir. Əsərdə yazıçı insan həyatındakı məlum qəliblərdən çıxmaq arzusunu əks etdirir.

«Macal»ın əsas obrazlarından biri – Fuad üçün insan ömrü bir bütöv deyil. Ömür bir-birilə əlaqəsi olmayan ayrı-ayrı parçalardan ibarətdir.

Fuadın öz-özünü dinləməyə, özü haqqında düşünməyə nə macalı var, nə həvəsi.

O, dəftərinə yazmışdır: «Filan vaxt, filan saatda «özümlə görüş». Amma o, bu görüşə vaxt tapa bilmir.

«Özüylə görüş»ü gündən günə keçirir.

Beləliklə, qarşımızda zamana hökm edən yox, zamanın əsiri olmuş qəribə bir insan görürük.

«Dantenin yubileyi»ndə vaxtilə tanınmış aktyor olmuş Kəbirlinski – bir gün aldığı dəvətnamədə Dantenin yubileyinə çağırırlar. Dəvətnaməni aldığı zaman onun da sayıldığına sevinir. Bir qədərdən sonra bayaqkı sevincin birdən-birə sarsıntıya çevrilməsi əsərdə çox incə detallarla qələmə alınmışdır.

Göründüyü kimi, əsərdə heç bir faciə, heç bir dəhşətli hadisə baş vermir. Ancaq təmiz bir insanın qəlbən sındırılmasının çox böyük sənətkarlıqla verilməsi, günahsız, zavallı qocanın düşdüyü vəziyyət faciə təsiri bağışlayır.

Sozümün sonunda əsərləri ABŞ-dan tutmuş, Türkiyə, İrana qədər dünyanın həm Qərb, həm də Şərq ölkələrində tanınan qələm dostumuz Anarı 70 illik yubileyi münasibətilə təbrik edir, ona daha böyük uğurlar və yaradıcılıq sevincləri arzulayıram.

Bəxtiyar Vahabzadə.
«Ədəbiyyat qəzeti», 14 mart, 2008

Altmışıncı illərdə ədəbiyyatımıza gələn yeni nəslin içərisində Anarın ayrıca dəst-xətti, ayrıca yeri var. Mən demək olar ki, onun bütün əsərlərini oxumuşam. Anarı bir yazıçı kimi mənə sevdirən əsas cəhət onun əsərlərindəki psixologizmdır. Belə ki, o, yaratdığı obrazların hərəkətlərinə, əməllərinə oxucunu inandıra bilir. Anarın yaradıcılığının ikinci maraqlı və orijinal cəhəti onda lirika ilə yumorun baş-başa gəlməsidir. Onun sırf yumoristik-satirik əsərləri də var. Lakin onun elə əsərləri də var ki, orada yumorla lirika çarpazlaşır. Mənim ən çox sevdiyim və ürək ağrısı ilə oxuduğum «Dantenin yubileyi» belə əsərlərdəndir. Anarın bu yaxınlarda oxuduğum «Otel otağı» əsəri də başqa-başqa aspektlərdə oxucuda təxminən eyni acıma hissini oyadır. «Keçən ilin son gecəsi» teletamaşasını ana haqqında, «Gün keçdi» filmini isə baş tutmayan sevgi haqqında nəsrlə yazılmış poema adlandırardım. Onun yaradıcılığının gözəl xüsusiyyətlərindən biri də sovet dönəmində yazdığı «Yaxşı padşahın nağılı», «Anlamaq dərdi», «Adamın adamı» və bir sıra teletamaşalarında quruluşa etirazını böyuk ustalıqla ifadə etməsidir. Mirzə Cəlil haqqında onlarla elmi tədqiqat işi və məqalə oxumuşam. Amma Anarın «Anlamaq dərdi» essesi Mirzə Cəlil duhasının elə kəşflərinə toxunur və bu yaradıcılıq elə bir səviyyədə təhlil olunur ki, bu təhlil bənzərsiz olduğuna görə tamamilə yenidir. Bu esse mənim gözümdə böyük sənətkarın tamamilə yeni tərəflərini açdı. Əlbəttə, Anar sənətinin daha başqa gözəl keyfiyyətləri də var. Mən yalnız onun yaradıcılığından aldığım təəssüratımı qısaca qeyd etmək istədim. Sözümün sonunda qələm yoldaşımı gördüyüm və göstərdiyim bu uğurlara görə təbrik edir və demək istəyirəm: Əzizim Anar, sən son 30-40 illik ədəbiyyatımızda öz dəst-xəttini qoyan, bu aləmdə özunəməxsus təzə iz açan və bu izin dolaylarında xalqına namusla xidmət edən qudrətli bir sənətkarsan.

Bəxtiyar Vahabzadə

Ziyalı beyni bizim mənəvi sərvətimizdir. Bununla belə milli sərvəti qorumaq, ona qayğı göstərmək də vacibdir. Amma etiraf edək ki, qiymətli adamlarımızı qorumaq, on-

lara qayğı göstərmək bir yana, yuxarıda dediyim kimi, ömrünü millətinin dərdlərini dilə gətirməyə, uzun illər içində yaşadığımız totalitar recimin kökünü baltalamağa həsr etmiş Anar kimi zıyalılarımızı yerli-yersiz sancmağa, özümüzdən incitməyə ehtiyac var idimi? Axı, son 2-3 ildə bəzi qəzetlərimizin işi-peşəsi Anar kimi hörmətli ziyalılarımızı neştərləməkdən ibarət olmuşdur. İstıqlalımızı qazanandan sonra Sovet imperializminin kökünü baltalayan «Adamın adamı», «Anlamaq dərdi». «Yaxşı padşahın nağılı» kimi o vaxt böyük cəsarət tələb edən əsərləri yazmış Anarın xidmətlərini bu gün qiymətləndirmək əvəzinə, cürbəcür atmacalarla onun yersiz «ifşası» ilə məşğul olmaq mədəni xalqa yaraşarmı?

Bəxtiyar Vahabzadə

...Anar ömrünün, enerjisinin, ilhamının və zəkasının baharını yaşayır. O, sinəsi sözlə dolu, istedadlı yazıçımız, ayıq və açıqözlü ziyalımızdır. Mən bu qənaətimi – Anarın «Azərbaycan» və «Novıy mir» jurnallarında böyük Cəlil Məmmədquluzadə haqqında çap etdirdiyi «Anlamaq dərdi» adlı portret məqaləsini oxuyandan sonra bir daha təsdiq etdim. «Sizi deyib gəlmişəm» pyesi isə sübüt etdi ki, fikrimdə yanılmamışam.

Qabil.
«Bizi deyib gələnlərə salam olsun!»,
«Azərbaycan gəncləri», 19 iyun, 1982-ci il

Tənqidçi-ədəbiyyatşünas Bəsti Əlibəyli Anarın 70 yaşı münasibətilə qələmə aldığı kitabda ədibin ümumi yaradıcılığının layiqli, dərin təhlilini verib. Anarın bitkin, yetgin çağında yaratdığı şedevr roman-nağıl «Ağ qoç, qara qoç»un yeni modern metodunun, janr xüsusiyyətlərinin, ideya zənginliyinin üzərində xüsusi dayanıb. Anarın millətin gələcək taleyi ilə bağlı səksəkəsini Rəsul Rzanın «Nigaranlıq» şerində ifadə etdiyi səksəkəylə müqayisə etməsi məni keçmiş illərə qaytardı. Burada mən istər-istəməz, Rəsul Rzanın, Ərağa–Hələb şəhərinə bir aylıq ezamiyyətə gedən bu böyük vətənpərvər şairimizin Nəsimini öz doğma xalqına olduğu kimi tanıtdığını xatırlamaya bilmərəm. İyirminci əsrdəki siyasi vəziyyətindən, özgələşməsindən qəlbi ağrıyan Rəsul Rzadan sonra Rəsul Rza evinin, ailəsinin təfəkkür işığında böyümüş Anarın da yaradıcılığının yetkin dövründə eyni yolla addımlaması həyatın özündən törəyən bir hadisədir. «Ağ qoç, qara qoç» şedevrini yaradan Anarın bədii yaradıcılığının başladığı dövrü xatırlayıram, «Molla Nəsrəddin – 66» adıyla çap etdirdiyi felyetonlar kitabından təxmin etmək olardı ki, Anar kimdir və kim olacaq. Ömrü boyu Cəlil Məmmədquluzadəyə vurğunluğunu sədaqətlə saxlayan ədibin kino aləmində də Mirzə Cəlillə yanaşı. daha iki dahimizə – Üzeyir bəyə, Hüseyn Cavidə müraciəti onun ədəbiyytda böyük amallara xidmət etdiyini sübut edir. Böyük amal böyük şəxsiyyətlərə məxsus xüsusiyyətdir.

Hekayəlrinin, povestlərinin, romanlarnın cahanşhümul ideyaları sırasında ən müdrik əsərlərindən birini doğma Azərbaycana həsr etməsi, geniş əhatəli ictimai fəaliyyə-

ti, qurulataylarda, Milli Məclisdə, ictimai-siyasi tədbirlərdə nitqləri, məqalələri də Anar şəxsiyyətinin böyüklüyünü göstərir. Mən Bəsti Əlibəylinin kitabından doğan arzuya qoşularaq Anara uzun ömür arzulayır, yeni-yeni şedevrlər yaratmasını diləyirəm. O, bu diləyi doğrultmağa qadirdir.

İsa Muğanna.
20 fevral, 2008.
Bəsti Əlibəylinin «Onuncu portret» kitabına ön sözdən.
«Nurlan nəşriyyatı», 2008, Bakı

Anarın Gənc tamaşaçılar Teatrında göstərilən pyesi yalnız teatr tamaşası deyil, həm də Ana haqqında, ana məhəbbəti, ana ləyaqəti, ana qəlbi və ana taleyi haqqında lirik romans təsiri bağışlayır. Hadisələr bir neçə saat ərzində cərəyan edir. Amma tamaşanın təsiri, tamaşadan aldığımız bədii zövq uzun zaman bizi tərk etmir, yaddaşımızda şirin bir xatirə kimi yaşayır.

Əliağa Kürçaylı

«Xəlil Rza Ulutürk Lefortovo zindanında» kitabından

Beşinci gün, 13 təmmuz, 1990. M.Lefortovo zindanı

Konvoy qabağında müstəntiqim Aleksandr Qubinskinin hüzuruna gəlirəm. Salamlaşırıq. Qarşıma bir stəkan çay, iki konfet qoyub deyir:

– İndicə Anar zəng eləmişdi. Sən çayını içincə gəlib çıxar.

Sevincimin yerini möhkəmləndirmək üçün:

– Hansı Anar? – soruşuram. – Mənim qardaşoğlumun da adı Anardır.

– Yox! – deyir. – Sizin Yazarlar Birliyinin sədri, məşhur yazıçı, SSRİ Ali Sovetinin deputatı Anardan gedir söhbət.

Sevincimin yeri möhkəmlənir və birdən-birə bu geniş salon, ağ, ipək pərdəli hündür pəncərələri günəşə açılmış, küncündə yamyaşıl palma dibçəyi qoyulmuş böyük otaq, tavandan asılan büllur çilçıraq nəzərimdə bir az da şəfəqlənir. Dizlərimə taqət, gözlərimə işıq gəlir. Az qala qışqıram ki, Anarın gəlişi mənim üçün Azərbaycanın gəlişi və Azadlıq deməkdir. Çox istəyirəm bu yazıçını. Əvvələn parlaq şəxsiyyətinə, insani fəzilətlərinə, ikincisi sənətkar gücünə görə! «Ensiklopediya» sözü Türkiyə türkcəsində «ansiklopedi» biçimində yazılır. Anar mənim nəzərimdə böyük hərflər ilə yazılmağa layiq ANSİKLOPEDİ hökmündə olan bir qüdrətdir. Elə qələm sahibləri var ki, haqqında bircə epitet deməklə yetinirsən. Anarınsa adı çəkiləndə qazandığı bütün epitetləri tələb edir: yazıçı, şair, publisist, tərcüməçi, dramaturq, ssenarist, rejissor, folklorçu, tarixçi. Üstəlik poeziyanın, rəssmlığın, teatrın, musiqinin, incəsənətin incə bilici-

si. Çağdaş Azərbaycanda bu qədər dürlü idrak sahələrini qavrayan və hər sahədə özünün dürüst, sanballı sözünü deməyə qadir ikinci alim və sənətkar tapmaq çətindir. Stalinizmin hələ tam sınmadığı, ehkamçılığın, qaragüruhun meydan suladığı çağlarda «Qobustan» dərgisinə, süd rəngli ağ kağızda buraxılan, yüksək poliqrafiya mədəniyyətinə malik incəsənət toplusuna redaktorluq etdi. Bu dərginin hər nömrəsinin Azərbaycan ədəbi, elmi ictimaiyyəti tərəfindən necə səbirsizliklə, necə aşıb-daşan sevinclə qarşılandığı unudulmaz. Bunun səbəbini yalnız indi, yavaş-yavaş dərk etməyə başlayırıq. «Qobustan» toplusunun gücü süd rəngli ağ kağızda, ən yüksək poliqrafiya mədəniyyəti ilə buraxılmasında deyildi. Sevincimin başlıca nədəni o idi ki, bu dərgi Azərbaycanda neçə illər boyu hökm edən ehkam-çılıqdan, ruslaşma, simasızlaşma kursundan sonra həmən buzlaşmanı əritməyə doğru tuşlanmış ilk milli şüur çırağı idi. Məsələ yalnız onda deyildi ki, burada, yalnız Anar nüfuzu sayəsində meydana çıxan dərgidə bu çağacan az qala yasaq edilmiş mətləblərə ilk dəfə toxunulur, əsrin əvvəlindən bəri Azərbaycan uğrunda məşəl kimi alışıb yandığı halda, adı, əsərləri və xatirəsi çirkaba atılmış, pantürkçü, panislamçı ləkəsi ilə qaralanmış Əlibəy Hüseynzadə kimi dahilərin, onun hazırda Fransada yaşayan oğlu, məşhur rəssam Turan təki böyüklərimizin haqqında ilk obyektiv məlumat verilir, rəsm əsərlərindən, fikirlərindən örnəklər çap olunurdu. Ən böyük qələbə və jurnalın sevilmə səbəbi bu idi ki, çoxdan bəri milli şüur qaynaqlarına təşnə, tamarzı olan Azərbaycan Türk gəncliyi burada, Anarın nəşr etdiyi topluda özünün bir sıra sorğularına cavab tapırdı.

Anarımız bu kəlamları demək üçün gəlir yanıma, xoş gəlir, səfa gətirir.

Anar qələmindən çıxmış «Sizsiz» sənədli romanı haqqında düşünürəm. Yaxşı ki, bu əzəmətli əsər barədə vaxtında çıxış etdim, «Ulduz» dərgisində məqaləm basıldı. Vaxtında görülən işdən gül qoxusu gəlir. «Sizsiz» ataya, anaya oğul-övlad məhəbbətinin əvəzsiz abidəsidir. «Sizsiz» Azərbaycan Türk ədəbiyyatının iki parlaq nümayəndəsi barədə himndir, dan üzü bahar gülüstanında cəh-cəh vuran bulbül nəğməsidir. Xoşbəxtliyi burasındadır ki, Anar bizim Rəsul Rzanın və Nigar xanımın yaradıcılığını heç bir araşdırıcının, alimin, tənqidçinin bilmədiyi dərəcədə gözəl bilir, onların qələmindən çıxmış bədii varidatın ən yaxşı örnəklərini tanıyır və əzizləyir. Buna görə «Sizsiz» romanı gəncliyin, fəlsəfi düşüncənin, şairliyin aşıb-daşan qaynaqları haqqında şərqidir. Romanın belə demək mümkünsə, bədii diametri Rəsul Rza poeziyası qədər genişdir, zəngindir.

Mən bu düşüncələr içində ikən addım səsləri eşidirəm, qapını açıb böyük salona qədəm qoyan və sürətli adamlar ilə gələn Anarımızdır. Qalxıram. Qucaqlaşıb öpüşürük. Və üz-üzə əyləşirik. O, pəncərə tərəfdədir. Mən də Anarla və günəşlə göz-gözə.

Xəlil Rza Ulutürk

Cəmiyyətdəki insan əlaqələrini, xüsusilə ailə, məhəbbət və məişət incəliklərini əks etdirməkdə ayrıca sərişt əsi olan sevimli yazıçımız Anar özünün bu mövzuda oxucular a çoxdan tanış olan «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanının motivləri əsasın-

da yazdığı «Təhminə və Zaur» adlı iki hissəli pyesini Azərbaycan Dövlət Dram Teatrında tamaşaya qoydurmağı lazım bilmişdir.

Altıncı mərtəbə əslində insanın içəri dunyasıdır. Bu gerçəkliyi unutmamaq şərtilə bildirək ki, pyesin məhəbbətin iki qütbünü təmsil edənlərin adı ilə adlandırılması təsadüfi deyil. Yazıçı-dramaturq məhəbbəti cəmiyyət həyatında ən parlaq hadisə, ən böyük səadət hesab etdiyi üçündür ki, böyük eşq yolçularının adlarını sərlövhə seçmiş və Təhminənin adını birinci yazmağı lazım bilmişdir.

Böyük məhəbbətlər yaranır. Böyük məhəbbətdən əl çəkmək olmaz! Heç bir hərbə-zorba, dedi-qodu, hətta qohumluq silsiləsindən ən yaxın adamların ciddi-cəhdləri belə bu yolda sənin kişi iradəni qıra bilməməlidir! Məhəbbətin hər iki qütbü, ilk növbədə kişi eşqi qorumağa, yaşamağa, təslim etməməyə borcludur. Tamaşanın quruluşçu rejissoru Mərahim Fərzəlibəyli yaradıcı heyəti ilə birlikdə müəllifin bu mühüm məfkurə xəttini düzgün qoruduqları üçündür ki, psixoloji cəhətdən zəngin, unudulmaz, təsirli və orijinal bir tamaşa yarada bilmişlər.

Xəlil Rza Ulutürk,
«Böyük məhəbbəti ləkələyənlər»

Görkəmli Azərbaycan yazıçısı Anarın qələmindən çıxmış «Sizsiz» sənədli romanı müasir Azərbaycan ədəbiyyatının ciddi nailiyyətlərindəndir. Bu əsər göz yaşı və ürək alovundan yaranmış ən nəcib fikirlər, duyğularla yazılmışdır. Anar bu romanında Rəsul Rza və Nigar Rəfibəylinin bədii obrazlarını yaratmışdır. Bu gün ədəbiyyatla azçox əlaqəsi olan, hər iki şairi sevən, oxuyan, onları yaxşı tanıyanlar bilirlər ki, Rəsul Rzanın yaradıcılıq yolu sayılan, seçilən yoldur. Ədəbi gəncliyə qayğı deyəndə ölməz şair düşür yada. O, həmişə haya yetmək, kimisə budrəmələrdən, yıxılmaqdan qorumaq üçün doğulmuşdu elə bil.

Bu əsər dərd, kədər, ağrı haqqında dözüm nəğməsidir. Yüzcə gün ərzində atasını və anasını itirən, bu itkinin böyüklüyünü yalnız ağlı ilə yox, bütün ürəyilə dərk edən, duyan, dərdə dözməyən, dözən övladın bədii etirafıdır.

Müəllifin «Qorxuram qələmim qanaya» sözləri sanki romanın yazılma tərzini, onun necə doğulduğunu müəyyənləşdirir... Əsərin dili çağdaş ədəbi dilimizin inkişafı və zənginləşməsi baxımından da xeyli maraqlıdır. Anarın bədii nəsr dili həyatın və insan varlığının dərin qatlarını öyrənən, ən incə fikir və duyğuları dürüst ifadə etməyə çalışan və buna nail olan realist sənətkarın dilidir. Ədəbiyyatımızın ümumi inkişafında, onun formaca, məzmunca zənginləşməsində misilsiz xidmətləri olan Rəsul Rza, Nigar Rəfibəyli haqqında yazılmış bu roman yüksək bədii keyfiyyətlərilə, yazı tərzi, üslubu ilə də yenidir, maraqlıdır. Mənim yazdıqlarım isə əsərin hər iki qəhrəmanına və onun müəllifinə böyük hörməti olan bir şairin ürək sözləridir.

Xəlil Rza Ulutürk

Anar - deyiləndə

Anar – deyiləndə gözümün qabağına bir Ana yol gəlir. Bu Yol «Keçən ilin son gecəsi»ndən baş alıb, «Otel otağı»na gəlib çıxır. Bu yolda böyük-kiçik yuzlərcə yol və cığır kəsişir. Bu yolu – ayaq üstə təsavvür edə bilsəydik, qollu-budaqlı, çoxşaxəli nəhəng bir ağaca bənzəyərdi. Bir ağac – bir orman! Bu yolu ləngərli, dolu, uzun bir çaya da oxşatmaq olar. Dağlardan, dərələrdən, düzlərdən keçib, dənizə yaxınlaşanda neçə-neçə kiçik çaylara bölünən, delta yaradan bir çaya! O çay – Anar olsa, o delta onun əsərləridir. Dəniz də bizik! Oxucular!

Bu yolla «Dədə Qorqud» «Qobustan»a gəlir.

Dünənimiz, bu günümüz, gələcəyimiz bu yolda görüşür.

Bu yol – «Uzun ömrün akkordlarıdır»! Yazıçının qəlbi ilə oxucular arasında «Əlaqə» saxlayan yoldur.

Anarın dili o qədər aydındır ki, onu ancaq nadan başa düşməz.

Bu dili Anara, anası Nigar Rəfibəyli şirin laylaları ilə, atası Rəsul Rza cəsur misraları ilə öyrədib.

Anarın dili Mirzə Cəlil, Sabir, Üzeyir bəy bulaqlarından su içib. Sözlərini bu bulaqların suyunda suvarıb; bərkidib, polad eləyib.

Anar – deyiləndə «Anlamaq dərdi» düşür yadıma. Dörd bir tərəfdə bu qədər ziyanlı var ikən ziyalı olmaq çox çətindir. Son illərdə başımıza nələr gəlmədi ki!. . «Sizsiz» qalıb el-oba, kənd-şəhər, Ana yurd! «Sizsiz» qalıb qələm, şeir! Sinəmizə çəkilən «Şəhid dağı» hələ də sızıldayır.

Niyyətin haradırsa mənzilin də oradır. Bu yollar səni istədiyin mənzilə aparar. Gəzərsən, görərsən, zəngin olub qayıdarsan, yenə çıxarsan Ana yola. Bu yolu yaradan Anar da həmişə yoldadır. Ana yol – elə Anarın özüdür.

Fikrət Sadıq.
«Ədəbiyyat qəzeti», 20 mart, 1998

O illərdə Anarın «Dörd çahar» hekayəsi çıxmışdı. Mir Cəlal müəllim oxuyub onu deyirdi ki, bu gəncin gözəl yazıçı müşahidələri var.

Nəriman Həsənzadə.
«Ədəbiyyat qəzeti», 13 sentyabr, 1996

– Bu günlərdə qəzetdə Anarı təbrik etmişdiniz. Sizcə, Anarı pisləyənlərmi haqlıdır, yoxsa tərifləyənlər?

– Bizim ona ilişməyə ən azından haqqımız yoxdur. Əvvəla o özündə üç dahi insanı birləşdirir. Rəsul Rza, Nigar Rəfibəyli və Anar. Anarın da ədəbiyyatımızda, publisis-

tikamızda, kinomuzda, dramaturgiyamızda etdiyi xidmətlər göz qabağındadır. Mən şəxsən Anarı çox böyük qiymətləndirirəm və AYB-ə ondan layiqli namizəd görmürəm.

Nəriman Həsənzadə.
«525-ci qəzet», 2 iyun, 2001

Anar - bu adın yetmiş yaşı var

Sən –
Fırtınalı okeanda üzən gəmisən.
Həm də bal arısı kimisən.
Zəhərli atmacalardan
zərrə-zərrə yığdığın şəkərin var.
Bakılılar demiş;
Xeyirxahlıq adlı bir şakərin var.
Hər gün
iki əlin dörd olur,
yaxşılıq etmək üçün.
Görəsən yardım alanlar
Xoşbəxt oldumu dünyada?
Görəsən sənin kimi
yardım edənlər düşürmü yada?
Eh, aşımıza su qatmayım.
Xülasə, söhbəti uzatmayım.
Ömrü əzablı yollar keçib
Özü deyir «pis deyil».
Mazoxist deyil.
Amma işinin yorğunluğundan həzz alandı,
deyir ki,
işdən başqa istirahət yalandı.
Anar, hindular demiş,
badəmiz dolu olsun atəşli Su ilə.
Yetmişin mübarək,
Həştadda görüşmək arzusu ilə.

Fikrət Qoca.
«525-ci qəzet», 15 fevral, 2008

Anarın, Anar yaradıcılığının həyatiliyi, realizmi, əgər təbir çaizsə, bugünlüyü bizə əsl ədəbiyyat haqqında danışmağa tam haqq verir. Anar bir yazıçı, essist və kino xadimi kimi öz yaradıcılığında müasir sənətin bir çox xüsusiyyətlərini birləşdirə bilmişdir, bu sintez eklektik xarakterli deyil, bütövdür, məqsədəuyğundur... Məhz buna görə də bu gün biz ədəbiyyatdan danışanda, müasir Azərbaycan nəsrinin son illərdə keyfiyyətcə yeni bir mərhələyə qalxdığını iqrar edəndə – yeni fikirli, yeni məzmunlu, yuksək realist mövqeli, geniş miqyaslı sənətdən danışmalı oluruq. Bu sənətin ön sıralarında Anar öz səsi və öz nəfəsi ilə uğurlu addımlarla gedir.

Yusif Səmədoğlu

Anarın partiturası

Lüdmila Lavrova. Tanımadığımız tanışımız (rus dilində). Azərnəşr – 2008.

Bu ciddi, sanballı kitab bizi təbəssümlə qarşılayır, mehriban ev yiyəsi qonaqları qarşılayan kimi. Ön səhifələrdə Rüstəm İbrahimbəyovla saqqallı Anarın (Moskva, 1971), ardınca saqqallı Rüstəmin saqqalsız kitab qəhrəmanının (Bakı, 2008) fotoşəkillərini görürük. Daha dəqiq desək, elə cild qabığında Toğrul Nərimanbəyovun çəkdiyi portret istəkli sənətdaşımızın cavanlığını, romantik və təkrarsız altmışıncı illəri xatırladır...

Tiraja baxanda, kitabın «qonaqları» cəmi üç yüz nüsxə ilə məhdudlaşsa da bilirik ki, Anar dünyasının qonaqları, oxucuları, biliciləri, pərəstişkarları qat-qat çoxdur, minlərlə, milyonlarladır. Bu milyonların sırasına milli mədəniyyətimizi sevən bütün soydaşlarımızı, o taylı-bu taylı vətəndə, xaricdə yaşayanları qatmaqla yanaşı, keçmiş sovet məkanının, türk aləminin, Qərbin və Şərqin qədirbilən oxucularını da göz önünə gətiririk. Bu qənaətlə ömrünün yetmişinci aşırımını «indicə» aşmış Anarın xoşbəxt sənətkar olduğunu düşünürük.

Kitab bir ev, ocaqdırsa, bu evin yiyəsi ədəbiyyatımızın, mədəniyyətimizin köhnə, sınanmış, vəfalı dostu Lüdmila Yevgenyevna Lavrovadır. Xalqımızın, vətənimizin dar günlərində də, Sovetlər Birliyi dağılan çağlarda informasiya blokadasına məruz qalanda da, satın alınmış «media naqqaları» bizlərə qara yaxanda da, haqq işimizi nahaq kimi qələmə verəndə də Lüdmila xanım vicdanlı, nadir Rusiya ziyalıları ilə yanımızda olmuş, susmamış, milli mənəviyyatımızın, ləyaqətimizin hayanı kimi çıxış etmişdir.

Elə bu münəvvər sədaqətinə görə də Lüdmila Lavrova halal hörmətimizi qazanmışdır.

Yenicə işıq üzü görmüş kitab onun Azərbaycanın tanıdılmasına verdiyi yeni töhfə, deyərdim ki, yaradıcı hünəridir. Anar kimi çoxcəhətli sənətkar, ictimai xadim, vətənpərvər, eyni zamanda bəşərpərvər şəxsiyyətin fəaliyyətini incələmək, taleyüklü məqamlarını, dönəmlərini açıb göstərmək, mənəvi fəzasını açıqlamaq böyük zəhmət, iti və

sərrast düşüncə tələb edir. Və L.Lavrova bu çətin vəzifənin öhdəsindən uğurla gəlmiş, Anar aləminin zəngin, rəngarəng, simfonik «partiturasını» səsləndirə bilmişdir.

Çingiz Abdullayevin xatirələrindən: O, İspaniyada Anarı dilə tutub (Heminqueyin şakərini də xatırladıb), onu korridaya – öküz döyüşünə getməyə vadar edir, lakin bu qanlı səhnədən onun qələm dostu heç də vəcdə gəlməyib tamaşanı tərk edir... Bu hərəkət öz növbəsində, Fikrət Qocadan eşitdiyim epizodu xatırlatdı: ustad Rəsul Rzanı, gərək ki, Ağdaşın səfalı yerlərində ov səfərinə aparırlar və saçmaya tuş gəlmiş, yaralanıb çırpınan dovşanın əzabını görən istəkli xalq şairimiz əsəbiləşib və bu «tamaşadan» uzaqlaşmağa tələsib...

İspaniya korridası və Ağdaşdakı ov ilə bağlı əhvalatlar ata-oğul təbiətindəki genetik rəhmdillikdən, bəlkə də ovçuluğa aludə olan dostlarımıza bir qədər sadəlövh görünəcək «ifrat pasifizm» kimi sayılacaq keyfiyyətdən xəbər verir. Amma hər bir canlı məxluqa, onların ali sırasında bəşər övladına aman, qayğı və məhəbbət nə qədər çox olsa, bu amansız çaxnaşmalarla dolu dünyamızın işləri yaxşıya doğru daha yeyin gedər...

Anar «partiturası»ndan əxz etdiyimiz bir həqiqət də budur.

Səyavuş Məmmədzadə.
«Ədəbiyyat qəzeti», 4 iyul, 2008

«Otel otağı» povesti yalnız bir insanın dönüklüyü, ikiüzlüyü, etibarsızlığı haqqında, başqa birisinin qızına layıqlı toy büsatı qurmaq naminə xaricdə qazanc axtarmağa məcbur olan bir ziyalımızın üzüntüləri haqqında deyil. Kərim Əskəroğlu obrazı daha dərin, tutumlu, önəmlidir. O, öz ömrünü İstanbulun bir idimsiz otel otağında başa vuracaq, ölümündən sonra isə yenicə kəşf olunmuş asteroidə onun adı veriləcək. Talein acı istehzası. Anarın çıxışlarından bilirik ki, o, ana dilimizi (qəhrəmanı Kərim Əskəroğlu kimi) azəri türkcəsi kimi qavrayır. Anarın və həmfikirlərinin milli dilimizin belə adlanması haqqında təklifi dövlət dili haqqında Konstitusiya maddəsinin axırıncı mətnində əksini tapmasa da, əlamətdar və önəmli cəhət odur ki, yazıçı da, onun türkoloq personajı da azərbaycanlıların və türklərin (vahid etnik ağacın qollarının) dil fərqlərinə də varırlar.

Anarın bu vicdanlı, mərdanə mövqeyində böyük sənətkar və vətəndaş atasının, daima «həqiqəti Əflatundan əziz tutmuş», heç vaxt ötəri populizim naminə həzəratın xoşuna gəlməyə can atmamış atasının amalına sədaqət özünü göstərir.

«Otel otağı»nı oxuyub – görəcəksiniz ki, ədəbiyatımızda hadisə baş vermişdir.

Səyavuş Məmmədzadə.
«Bakiski raboşi», 6 mart, 1996-cı il

Tütün tüstüsünün nazik-nazik, burum-burum naxişları, dalğın sifətin sərrast cizgiləri, sükut, düşüncələr.

Bu dalğınlığın sonu görünmür. Ömür boyu sürən sənətkar düşüncələri. Biz Anarı daha çox belə görməyə öyrəşmişik, – iç aləminə dalmış, diqqətini hansısa məchul mə-

qamda cəmləşdirmiş, düşünən Anarı, çox nadir hallarda dodaqlarına xəfif təbəssüm qonan, bəzən də gülən Anarı…

Məncə, bu ciddiyyət daimi, az qala anadangəlmə məsuliyyət hissindən-həyat, davranış, yaradıcılıq adlandırdığımız nə varsa, onların qarşısında məsuliyyət hissindən irəli gəlir. Söhbətçilik, yəni sadəcə «çənə döymək» ona yaddır. Az danışar, saz danışar. Yazılarında da, çıxışlarında da sözləri qənaətcilliklə, yaxşı mənada xəsisliklə işlədir. Amma bu yalnız zahiri müstəvi, fərdiyyətinin yalnız bir ölçüsüdür. O, istehzalı, hətta sarkastik boyalar da işlətməyi bacarır. Yumor duyumu yetərincədir. Həyatda bir məzəli vəziyyət baş verəndə boğazında qaynayan səsi şaqraq, qalın xallarla ətrafa səpələnir. Küçə qələbəliyində bir qədər zahidanə görkəmi, «fərqli sifət ifadəsi» ilə seçilir, sanki fani vurnuxmadan çəkinərək öz daxili, dərunu havacatını... yaxud öz-özüylə, munis xatirələrlə səssiz həsb-halını qoruyur ...

Siqaret tüstüsü burum-burum burulur, öz axarında düşüncə kimi izlənə bilməyəcək dolaylar cizgiləyir...

Səyavuş Məmmədzadə.
«Bakinski raboçiy», 11 iyul, 1996

İlahi, doğrudan da əməllərin möcüzədir. Çoxdanmı biz Anarın toyunda şənlənirdik, indi isə o, artıq iki qat babadır! Həmin mübarək toy ki, qonaqlarından çoxları da qalmayıb və haqqında xüsusi söz açmağa dəyər. Anarın valideyinləri – Rəsul Rza və Nigar xanım bizi dəvət edərkən dönə-dönə vurğulayırdılar: heç bir hədiyyə-filan olmasın! Nigar xanım üzürxahlıq edirmiş kimi: «Rəsul belə tapşırıb!» – deyir, Rəsul Rza isə «kökündən vururdu»: «Mən poeziyada novator deyiləmmi? Oğlumu da novatorcasına evləndirəcəm!». Yalnız güllər üçün istisna edilirdi.

Günlərin bir günündə artıq orijinal bir nasir kimi özünü tanıtmış paltar asan qadının dilindən respublika mətbuatında çıxış etmiş (məncə, bizim Azərbaycan ədəbiyyatında həm də «yeni dalğa»nın lideri olmuş) Anar məndən «Mən, sən, o və telefon» hekayəsini, o zaman bizdə çox populyar olan, Bakıda köşklərdə «altdan» satılan «Nedelya»ya təklif etməyimi xahiş etdi. Dedi: «mən özüm onu ruscaya çevirmişəm. Amma qoy mənim mətnimi sətri tərcümə hesab etsinlər». Əhvalat axşamçağı olmuşdu, tezliklə Anar makina yazısını göndərdi və mən dərhal oxumağa başladım – bu əsər son dərəcə qatı yoğrulmuş və yığcam idi. Çexovun «yığcamlıq – istedadın bacısıdır» kəlamı hər hansı nasirlərimizdən çox Anara aiddir. Cəmi bir-iki kəlməni düzəldib, gecəyarısı Anara zəng vurdum ki, heç bir sətri tərcümədən söhbət gedə bilməz, o, tam dəyərli tərcümə edib, ona görə də onun razılığıyla imzaladım: «Tərcümə müəllifindir». Beləcə də hekayə «Nedelya»da çap olundu, geniş əks-səda doğurdu. Deyəsən, elə ondan etibarən Anarın həqiqi (və halal) yazıçı şöhrəti başlandı.

Vladimir Qafarov.
«Bakinski raboçi» qəzeti, 3 aprel, 1999-cu il

Qonşu evdə (həmin o Vaqif küçəsindəki təzə binada) gedib Anara baş çəkdim, dedi ki, Cəfər Cəfərov (o vaxt Cəfər müəllimi lap təzəlikcə Mərkəzi Komitənin ideoloji katibi qoymuşdular) sənlə maraqlanır. Rəsul (Anar öz atasına eləcə «Rəsul» deyirdi) iş barəsində (yəni, mənim haradasa qulluq işinə düzəlməyim barədə) sənlə söhbət eləmək istəyir. Havaxt deyirsən, bir yerdə gedək yanına. Bir sözlə, məlum oldu ki, Anar da elə həmişəki Anardır:mənim yolumda özünü fəda eləməyə yenə can-başla hazırdır…

…Bir də, görünür, əvvəlcədən ürəyimə dammışdı ki, mən o nəşriyyatda çox işləyə bilməyəcəm (*Rəsul Rzanın təklifiylə və Cəfər Cəfərovun dəstəyiylə Ə.Əylisli «Gənclik» nəşriyyatının baş redaktoru vəzifəsinə təyin edilmişdi* – ***red.***). Buna görə də orda işləyəcəyim müddətdə heç olmasa ən istedadlı gənc yazıçılardan bir neçəsinin kitabını nəşr olunmasına yaman tələsirdim. Bu işdə çox vaxt Rəsul Rza dadıma çatırdı, çünki nəşriyyatın direktoru mənim fikrimlə hesablaşmağa hərdən məcbur olsa da, hər halda Rəsul Rzanın sözünə qarşı çıxmağa heç vaxt cəsarət eləmirdi.

Əkrəm Əylisli.
«Əylisdən Əylisəcən» kitabından, 1968

Yazıçılar Birlyi özünün indiki halında məndən ötrü çoxdan bitib-tükənib. Buna görə də Yazıçılar Birliyi barədə tez-tez söz deyirdim, fikir söyləyirdim. Bunu isə belə yozurdular ki, Əylislinin ürəyindən Yazıçılar Birliyinin rəhbəri olmaq keçir, buna görə də Anarı orda-burda tez-tez tənqid atəşinə tutur. Sonralar qəzetlərdən mənə məlum oldu ki, hətta Vaqif Səmədoğlu ilə Fikrət Qoca da bu fikirdədir. Bu yerdə, necə deyərlər, mən Qəribi bir balaca ağlamaq tutdu.

Elə buna görə də Yazıçılar Birliyi deyilən qurum məndən ötrü artıq yoxdur və əgər varsa da, bu qurum rəhmətlik Rəsul müəllimin dediyi həmin o «cəhalət ocağı» olaraq, yenə qalmaqdadır.

Biz – Anar da, Yusif Səmədoğlu ilə Fikrət Qoca da, hətta bizdən beş-altı yaş cavan Elçinin özü də – 60-cı illərin ədəbi mühitinin yetişdirmələriyik. Bəli, məndən ötrü də Anar Anardır. Onun obyektiv ləyaqətinə hər hansı bir şübhə oyatmağı mən özüm üçün böyük ləyaqətsizlik sayardım. Ancaq iş başında əvəzolunmazlıq reputasiyasını belə asanca boynuna götürməklə, məncə, Anar ilk növbədə özünə xəyanət eləyir, çünki o özü də gözəl bilir ki, bizim işdə belə bir reputasiyanı adamlar nəyin hesabına olsa da, hər halda məhsuldar əməyin və vicdanlı əmənin hesabına qazanmırlar…. İnsanın neçə-neçə təbii ehtirasının biri də həqiqəti söyləmək ehtirasıdır və Anar ağılda adam bundan xəbərsiz ola bilməz. Mən yalnız öz həqiqətimi söyləyirəm və bu həqiqəti heç vaxt mütləq həqiqət saymıram. Ola bilər ki, ürəyinin bir yeirində Anar mənim barəmdə lap o vaxtından da yaxşı fikirləşir. Və ola bilər ki, biz bir-birimizi həmişəlik itirmişik. Mən öz adımdan indi buna zəmanət verə bilərəm ki, mənim – şəxsi, insani planda – Anarla heç bir düşmənçiliyim yoxdur və heç vaxt olmayacaq.

Əkrəm Əylisli.
1997, mart. (Yazıçılar Qurultayı qarşısında «525» Əkrəm Əylisliylə dərdləşir)

4-5 il bundan qabaq Əylisə getmişdim. Orada Anarı yuxumda gördüm, qayıdanda, daha doğrusu qayıtdığım günün düz sabahısı təsadüf elə gətirdi ki, Akademiyanın köhnə binasında bir böyük tədbir oldu. Biz orada Anarla görüşüb öpüşdük və mən elə bildim bizim aramızda daha heç bir problem qalmadı. Bu yaxınlarda yenə Əylisə getmişdim. Bu dəfə Anarı yuxuda görməsəm də, bir daha təsadüf elə gətirdi ki, qayıtdığım günün düz sabahısı keçmiş 26-lar bağında Anarı hansı tədbirdənsə qayıdan gördüm. Yenə görüşmək ehtiyacı hiss elədim. Görüşdük və onun 60 yaşının «çestinə» bir xeyli «vodka» nuş elədik.

İndi bu iki əhvalatdan özümçün bir məzəli nəticə çıxarıram ki, Anarla tez-tez görüşməkdən ötrü mən bacardıqca tez-tez Əylisə gedib-gəlməliyəm. Ya da elə birdəfəlik gedib Əylisdə lövbər salmalıyam.

Anara və özümə 90 yaş arzulayıram. İnanıram ki, biz bu 90 yaşı mütləq yaşayacağıq və deməli, təmasda olmağımızçün irəlidə hələ 30 il vaxt var.

Yazıçılar Birliyini yerdə qalan üzvlərinin hamısına (yəni hərəsinə) azı 95 yaş arzulayıram. Ondan ötrü ki, Anarla mən bu dünyadan birdəfəlik köçüb gedəndən sonra da, istəyirəm Birlik üzvlərinin bizim münasibətlərdən danışmağa heç olmasa 5-cə il «çisti» vaxtı olsun.

Əkrəm Əylisli.
«Mədəniyyət» qəzeti, 14-17 mart, 1998

İnsanın kimisə olmalıdır, bir hayanı, ya heç olmasa məhrəm bir əşyası – bu tema, müxtəlif şəkillərdə Anarın bütün yazdıqlarından keçir. «Ağ liman» povestində tənha qoca telefonundan ayrılmır, halbuki çoxdanlır ona nə bir kəs zəng edir, nə də o bir kəsə zənc eləyir. Telefon qocanın bir növ hayanıdır, ona ev itinə alışan kimi alışıb. İtdən fərqli olraq telefon hürmür, zingildəmir, dəstəkdən yalnız cavabsız zummerinin uzun səsi gəlir. Ümumiyyətlə Anarın əsərlərində məişətdə istifadə etdiyimiz əşyalar, texniki vasitələr süjetin tam hüquqlu iştirakçıları olur. «Keçən ilin son gecəsi»ndə olduğu kimi onlar bəzən böyük məna daşıyırlar. Anarın təsvir etliyi əşyalar yadda qalır. Onların adı yoxdur, amma taleləri və özəl cəhətləri var. «Al liman»dakı qocanın telefonu «Mən, sən, o və telefon» hekayəsindəki telefonun tayı deyil, onlar da öz sahibləri kimi çox fərqlidirlər. Elə həmin hekayədə təyyarənin uğultusu da qiyabi iştirakçıya çevrilir.

Ömür yolunda da, yaradıcılığında da Anar həyatın onun qarşısına çıxardığı bütün hesabları ödəyir – xeyirxahlığı və məntiqiylə, istedadı və cəsarətiylə.

Vaqif Səmədoğlu.
(«Anlamaq və anlanılmaq istəyən adam»
(«Человек, который пытаеятся понять других и
быть понятым») məqaləsindən.
«Mir literaturı» qəzeti, mart 2008)

Anar… unikal Tənha İntellekt Qitəsidir. Nəinki Azərbaycanda, yəqin ki, bütün dünyada belə adamları barmaqla saymaq olar. Və bu mənada Anar mənimçün ilk növbədə lazımınca istifadə olunmamış Milli sərvətdir.

Xoşbəxt adamdırmı Anar? Yox. Bədbəxt adamdırmı? Yox. Allah adamıdırmı? Bunu bilmirəm. Ancaq tamamilə dəqiq bilirəm ki, ateist alim fanatik dindardan qat-qat artıq Allah adamıdır. Bax, bu mənada, nə ateist, nə də dindar olmasa da, Anar Allah adamıdır. Anarın xeyirxahlığı haqqında, əliaçıqlığı haqqında dastanlar, miflər yarana bilərdi, elədiyi yaxşılıqlarından orda-burda danışsaydı, kütlə qarşısında iki-üç populist çıxışlar eləsəydi…

…Kimsə deyə bilər ki, flinankəs dostuqda Anardan daha möhkəmdir. Mən bunu deyə bilmərəm. Çünki bilirəm ki, yaxınlarımı, dostlarımı nigaran qoyduğum dövrlərdə yer üzündə iki adam başlarını yastıq yerinə telefonunn üstünə qoyublar gecələr. Biri anam, biri Anar…

Yüzlərlə şeirim var ki, onları nəzərimdə oxucu kimi Anarı tutub yazmışam. Onlarla şeirim var ki, onları Anarın zövqünə uyğun, Anar bəyənsin deyə yazmışam. Və bir neçə şeirim var ki, onların Anarıni yerinə yazmışam, onun təbini mənimisəmişəm… Kimsə deyə bilər ki, filankəs Anarı Vaqif Səmədoğludan çox sevir. Mən ölüm inanmayın o kimsəyə…

Vaqif Səmədoğlu.

«Oğuz eli» qəzetinin Anara həsr olunmuş xüsusi buraxılışı, 1998, fevral

Mənim şairlik xronologiyamı Anar məndən yaxşı bilir. Məsələn, mənim yadımdan çıxmış, tamamilə unutduğum dord poemamı Anar mənə verib. Baxan kimi yadıma düşdü. Anarın bu xüsusiyyətini də deyim, qoy bizim cavanlar öyrənsin ki, necə dostluq eləmək lazımdır. Dostluq təkcə sözlə-söhbətlə, yemək-içməklə yox, bax elə bundadı. Hər dost bunu eləyə bilməz. Özü də Anar kimi ictimai nöqteyi-nəzərdən həmişə məşğul olan adam oturub dostun kitabını tərtib eləsin: «İlahi, mən burdayam» kitabının tərtibçisi də Anardı, amma adını bir tərtibçi kimi yazmayıb. Ön sözü də o yazıb. Yığan da Anardı, səhifələyən də Anardı.

Vaqif Səmədoğlu

Anar yaradıcılığının həqiqətən renesans genişliyinin istedad və maraq dairəsindən başqa, mənəvi qaynaqları da var: «özgə» əməllərilə, talelərilə, səyləri ilə bu qədər ürəkdən məşğul olmaq yalnız olumu unutmayan və həyatı sevən adamın işidir.

Anarın şəxsiyyət, sənətkar, ictimai xadim kimi Azərbaycan mədəniyyətində unikallığı aydın həqiqətdir. İstedadın, geniş erudisiyanın, xalqına, ölkəsinə gərəkli olmaq yolunda xidmətin və zamanı son dərəcə dəqiq duymağın belə üzvü vəhdətini mən başqa heç kəsdə görməmişəm.

Rüstəm İbrahimbəyov

Dədəm Qorqud işığında

(Anara açıq məktub)

İstəkli dost!

«Azərbaycan» jurnalının on birinci nömrəsində çap olunan «Dədə Qorqud dünyası» başlıqlı əsərini ürək çırpıntısı və sonsuz zövqlə oxudum. Belə bir əsəri yazmaq üçün sənin cəfalara qatlandığını, bitib-tükənməyən yaradıcılıq axtarışlarının orjinal və gerçək yönünü açıq-aydın gördüm, sevindim, «əhsən» dedim. Son inamım bu oldu ki, belə bir əsəri yazmaq üçün təkcə tarixçi, dilçi, ədəbiyyatçı olmaq azdır, hökmən istedadlı yazıçı olmaq, vətəndaş yazıçı olmaq gərəkmiş! Bütün bu cəhətlərin və yaradıcı şəxsiyyətə gərəkli olan bir çox başqa cəhətlərin səndə çəmləşdiyinə sevindim. Sənin bu əsərində, irəli sürülən davasız-şavasız qəbul olunmalı, boyun əyilməli fikirlər o qədər çoxdur ki, o qədər güclü məntiqə söykənir ki, onlara nə isə artırmaq bu haqda nə isə yəni bir fikir yürütməlidir.

Abbas Abdulla.
«Ədəbiyyat və incəsənət», 27 dekabr, 1985

Anar ədəbiyyata altmışıncı illərin lap əvvəllərində gəldi və yetgin bir yazıçı kimi, tamam yeni bir nəfəslə gəldi. Anarın ədəbiyyatda debütü bizim müasir ədəbiyyatımızdakı ən parlaq debütantlardan biridir…

Anar ən yüksək tribunalarda xalqı, vətəni, sənəti müdafiə etməyi bacaran və bu zaman millətə fəxarət gətirən adamdır. Öz daxilində milli və bəşərini, milli mədəniyyət ilə Şərq və Qərb mədəniyyətini Anar dərəcədə üzvü şəkildə birləşdirən və eyni zamanda qətiyyən kosmopolit yox, milli olan çox az adam tapmaq mümkündür. Bu mənada o, Azərbaycan milli ziyalılıq ənənələrinin yetişdirməsi və davamçısıdır.

Elçin.
Xalq yazıçısı.
Qocalığa hələ çox qalıb. Anarın 60 yaşı tamam olur.
(Elçin. Seçilmiş əsərləri. 6-cı cild. Çinar-Çap nəşriyyatı, 2005)

Anarın «Ağ liman» povestindən bir misal gətirmək istəyirəm. Povestin qəhrəmanı Təhminə bu gün çox yayılmış emansipasiyaya uğramış qadın tipinin nümayəndəsidir: O, elmlər namizədidir, çox gözəl və çox da sərbəst yaşayır, daha dəqiq desək, Təhminə təsadüfi münasibətlərdə öz ifadəsini tapmış bu «sərbəstliyin» əsiridir. O, öz müstəqilliyini əhatə olunduğu adamların, əsas etibarı ilə obıvatellərin gözünə soxaraq, əzablı həqiqilik axtarır. Burada sanki heç bir milli özunəməxsusluq yoxdur.

Biz Təhminə surətinin bu kiçik təhlilində bilərəkdən mülahizələri ümumi şəkildə yürütdüksə də, bir söz çox yerinə düşdü ki, bu da «əzab» sözüdür. Təhminənin öz «emansi-pasiyasını», «modernliyini», məhz əzab ilə, neçə qəlbən, neçə hisslərə qapıla-

raq özünə də dərd etməsi tamamilə milli səciyyə daşıyır. Fransız qadını belə bir «emansipasiyanı», belə bir «modernliyi» təbii ki, heç vaxt özünün əzablı qayğılar mənbəyinə çevirməzdi. Bu yerdə biz məhz şərq sakini, məhz azərbaycanlı qadının daxili aləminin, əzab-əziyyətlərinin şahidi oluruq. Müəllifin məharəti və milli xüsusiyyətlərə sadiqliyi də məhz bu incə mətləbi duymasında və göstərməsində idi.

Elçin

Azərbaycan yazıçısı Anar «Dantenin yubileyi» povestində bir istedadsız aktyoru təsvir etmişdir. Həqiqətən istedadsız, tamamilə! Amma gözlənilmədən qarşımızda rəğbət doğuran bir qəhrəman canlanır. İş ondadır ki, o, teatrı sədaqətlə, heyranlıqla sevir və səhnədən ayrılmasın deyə, həqarətə, kasıblığa, pisikdirməyə dözür. O, teatrdan heç ayrıla da bilməzdi, – bu onunçün ölümə bərabər olardı. İstedadlı və bəxti gətirən adamlarda müvəffəqiyyət bir çox hallarda xudbinlik, özündənrazılıq eqoizm doğurur. Anarın qəhrəmanı isə uşaq kimi təmənnasız, pakdır. Lakin ona açıqca rəğbət bəsləyən müəllif riqqətə də gəlmir: «Saqqalı uşaq» bizi mütəəssir etsə də, acınacaqlı mənzərədir. Anar mürəkkəb bir obraz yaratmış, mürəkkəb situasiyanı göstərmişdir. Belədir «bədii həqiqətin» imkanları. Halbuki həyatda biz belə bir adamdan – istedadsız, yazıqlığına görə saxlanılan, «zəhlətökənin biridir» – deyə, çox güman ki, üz döndərərdik…

Elçin.
«Literaturnaya qazeta». 25 iyul, 1980-ci il

...İstedadlı yazıçıların, mənim nəslimin təmsilçilərinin, məsələn, Anarın təniqidi yazılarını oxuyarkən eyni hissləri keçirirəm. O, çox vaxt hamıya məlum kimi görünən mətləbləri öz baxımından şərh etmək üçün qələmə əl atır. Bu da həmişə təravətli alınır, – eyni zamanda bu bir növ sənin öz fikirlərindir, sadəcə sən onları cəmləşdirib dilə gətirə bilməmisən ya buna macal tapmamısan. Bu yaxınlarda bizim «Azərbaycan» jurnalında Anarın Azərbaycan xalıqının böyük eposu «Dədə Qorqud» haqqında geniş essesini – uzun illərin düşüncələri və axtarışlarının bəhrəsini – oxuyarkən heç də təəccüblənmədim. Bu əsər qədim səhifələri hansısa yeni tərzdə işıqlandırır, bizə, günümüzə yaxınlaşdırır.

Bu sətirləri yazıram və eyni müəllifin Y.Trifonovun «Başqa ömür» povestinə rezenziyasını xatırlayıram. «Drujba narodov»da çap olunmuş bu resenziya başqalarından mühakimələrin aydınlığı və obyektivliyi ilə fərqlənirdi. Qəhrəmanının «başqa ömrü», şəraitin, ətrafındakıların, yaxınlarının ona sırıdığı ömrü yaşamaq məcburiyyətini təsdiqləyirdi. Mənə belə şərh səhih və bəsirətli görünür.

Elçin
«Literaturnaya qazeta». Dekabr, 1986-cı il

Dəqiq yadımda deyil, çapdan yenicə çıxmış hansı kitabımısa Anara bağışlayanda üstündə yazmışdım: «Bu boyda uzaq ola-ola, bu qədər yaxın olduğum Anara…» Sözsüz

uzaq olmağın səbəbi aydındır: Mən kənddə böyüdüm, Anar şəhərdə…Yaxın olmağımın kökü daha dərinlərdədir, məncə, hər halda bu hiss bir başa milli təəssübkeşlikdən gəlir. Yəni, hər ikimizin mənsub olduğumuz xalqa milli duyğularla bağlılığı. Millətini sevən hər kəs, kim olur olsun, Anarı özünə yaxın və doğma hesab etməlidir. Anar haqqında həmişə yazmaq istəmişəm. İndi oturub fikirləşirəm ki, Anar haqqında ümumiyyətlə yazılmayıb. Amma Anar hamımız haqqında yazıb. Böyük ədəbiyyatın, sağlam sözün ən agır anlarında köməyə gəlib. Əsl sözün müdafiəsinə qalxıb. Sonacan da mubarizə aparıb. Anar həmişə haqqın tərəfində olub. Bu duyğu da çox qədimlərdən, onun tərbiyəsindən gələn bir xəttlə bağlıdır ki, bunun çox şərəfli, ləyaqətli davamçısı rəhmətlmik Rəsul Rza idi, Nigar Rəfibəyli idi. Sağlam sözə toxunanlara, ədəbi hadisələrə daş atanlara yerindəcə cavab verərdildər. Anarın da həmişə ictimai-siyasi, ədəbi-bədii hadisələrin diqqət mərkəzində olmağı heç də təsadüfi deyil. Anar olmayanda belə görünən nadir ziyalılırımızdandır. Bu gün Anar bir yazıçı kimi bizim hamımızdan daha çox yaddadır və daha çox «dildə-ağızdadır». Onun «Molla Nəsrdədin – 66» silsilə hekayələri Mirzə Cəlil yaradıcılığının bizim dövrümüz üçün çox gərəkli olan ab-havasını yenidən yaratdı və heç kəsin xəbəri olmadan, heç kəsdən asılı olmadan dildən-dilə düşdü.

Mövlüd Süleymanlı.
(«Oğuz eli» qəzetinin Anara həsr olunmuş xüsusi buraxılışında)

Anar müəllimin nəsr, kino, teatr, mədəniyyət, ümumiyyətlə mətbuat sahəsində gördüyü böyük-böyük işlərin dəyərini çağdaş dövrümüz gərəyincə bilməyib, inanıram ki, gələcək nəsl onun obyektiv qiymətini verəcək. Ancaq bir vətəndaş mövqeyindən yanaşanda istəkli Anar müəllimin Yazıçılar Birliyindəki fəaliyyəti ona görə ürəyimcə deyil ki, ən azı, bacardığı bir sahələrdəki yaradıcılıq töhfələrindən məhrum oluruq.

Natiq Səfərov,
yazıçı, tərcüməçi.
(«Oğuz eli» qəzetinin Anara həsr olunmuş xüsusit buraxılşında)

Anar! Bu söz həmişə yeniliyə, yeni söz yaradıcılığına, qeyri-adi obrazlara çox həssas olan böyük şairimiz Rəsul Rzanın dilində görəsən nə vaxt, hansı məqamda, ovqatının hansı çağında səslənib. Hər halda bu sözün xüsusi isim kimi araya-ərsəyə gəlməsi onun adı ilə bağlıdır və o, «anar» sözünün, «Anar» adının sonralar bu qədər geniş yayılacağını yəqin ki, təsəvvürünə gətirməzdi. Bu gün yurdumuzda övladını «Anar» çağıranların sayı yüzlərlə, bəlkə də minlərlədir. Amma onlardan bircəsi – yazıçı Anar «orijinaldır», qalanlarısa sadəcə onun adaşlarıdır. Anar artıq onların ağsaqqalı, ən böyük adaşıdır.

Anar dünyaya sanki böyük bir misssiya üçün gəlib. Ədəbi aləmdə atdığı ilk addımlarındansa bunun müəyyən əlamətləri duyulurdu. Bir cavan yazıçı kimi əslində özünün də o vaxtlar köməyə, dəstəyə ehtiyacı olsa da, istedadına güvəndiyi daha gənc ədəbi qüvvələrə əlindən gələni edir, üzə çıxmalarına yardımını əsirgəmirdi… O zamanlar

«uğurlu yol»ları ilə xeyli gəncə xeyir-dua verən Rəsul Rza ilə onların arasında əsas əlaqələndirici Anar idi. Böyük şairin Baş redaktor oldubu ASE (Ensikolopediya) bu cavanların işə düzəldilməsində Anarın müstəsna xidmətləri vardı.

S.Ələkbər (Ələkbər Salahzadə).
Missiya adamı. «Qobustan» toplusu, №1, 2008

Anar müəllimlə şəxsi tanışlığımız 1968-ci illərə dayanır. Əvvəlcə atası, böyük şairimiz və ustadımız Rəsul Rzayla birlikdə işləmişəm, sonra da özüylə 1969-cu ildən ta ki, 1993-cü ilə qədər, yəni İstanbula gələnə qədər birlikdə onun yaratdığı və baş redaktorluq elədiyi «Qobustan» sənət dərgisində fasiləsiz işləmişəm. Mən əvvəlcə onun atasının əlindən, sonra da onun əlindən çörək pulumu qazanmışam, nəinki çörək pulumu, hətta ev sahibi olmuşam, maşın sahibi olmuşam və ədəbiyyatda bü gün adım çəkilirsə, bu da onların hesabınadır. Bir Allah bilir, Anarın bir Allahı, mən olan yerdə onun haqqında kimsə ağzıpozuq danışa bilməyib, danışanda da cavabını alıb. Mən atam Məhərrəm kişidən çox sevmişəm və sevirəm onu. Atam məni dünyaya gətirib. Anar mənim dünyada yerimi bəlirləyib.

Tofiq Abdin.
İstanbul, 1998
«Oğuz eli» qəzetinin Anara həsr olunmuş xüsusi buraxılışı

Bəzən Rəsul Rzadan açıq çıxa bilməyənlər «Qobustan» toplusunu hədəf seçirdilər və ağılasığmaz şeylər yazırdılar və özü də elə adamlar yazırldı ki, özlərinin Azərbaycan mətbuatında kim olduqları belə məlum deyildi… Belə bir qənaətim var ki, bu jurnal sanki Anar müəllim üçün nəzərdə tutulmuşdu, çünki o illərdə mənə elə gəlir ki, Anar müəllimdən başqa heç kəs bu curnalı idarə edə bilməzdi, yəni belə savadlı, məntiqdi, Azərbaycan, sovet, dünya sənətini beləcə əhatəli bilən ikinci başqa bir adam vardımı, mən deyə bilmərəm. Anar müəllimin belə bir erudisiyaya malik olduğunu mən sonradan daha yaxından gördüm və sonradan bu elita deyilən adamlara yaxın olduqdan sonra mən belə bir qənaətə gəldim ki, bu toplunu o zaman yalnız və yalnız Anar müəllim çıxara bilərdi.

Anar müəllim o jurnalın o zamanki sahibi və Baş redaktoru olaraq bütün bildiyini bizə verirdi və «xalqa verin» deyirdi…

Bu jurnal yarananda səhv etmirəmsə Anar müəllimin çox gözəl bir işi vardı. O zaman Azərbaygan radiosunda işləyirdi və o günlər üçün bir çox maraqlı verilişlərə imza atırdı ki, onlardan bir çoxu bəlkə indi də yaşamaqdadır. Buna görə də Anar müəllimin iş sıxıntısı yox ildi. Amma Rəsul Ustad bir ziyalı kimi tarixdə qalmağın nə olduğunu bilirdi və Anar bütün yazıçılığı və bütün əhatəli sənəti xaricində daha bir şeyə imza atırdı.

Tofiq Abdin.
«Yaddaşı zorlayan anlar».
«Ədalət» qəzeti, 24 yanvar, 2009

Dəyişməyin çətinlikləri

Günlərin bir günü Qədir Rüstəmov haqqında bir yazı yazıram, yazı artıq «Qobustan» toplusunda çap olunub: adı da beləydi: «Orada darıxmırsan ki, Qədir...».

Yazı çap olundu. Üç aydan bir çıxan bir toplu və həmin yazı Mərkəzi Komitədə çalışan bir məmurun əlinə keçir (o zaman «məmur» demək belə yasaq idi). Tənbəllik eləmədən yazını oxuyur. Qədir Rüstəmovun da təzə-təzə vaxtlarıdı və mən də yazını onlara görə bir az dozasından artıq yazmışam. Yazının pis-yaxşı olması yuxarıda oturan o adamı maraqlandırmır. Amma başqa bir cəhət var ki, bu artıq dozasından yuxarıdır. Mən Anar müəllimin yanındayam. Bu təsadüfü zəng də elə bu zaman olur.

(Burda bir mötərizə acım: Anar müəllimin mənimlə bu gün olan münasibətinin bura qətiyyən dəxli yoxdur, bir insan olaraq münasibətlərin yazı-pozu işinə dəxli olduğunu düşünsəm də, məni tanıyanlar bilsin ki, mənim Anarla bugünkü münasibətim həyatımın ən ağrılı tərəfləridir ki, bunu anlatmaq çox zordur).

Kommunist Partiyasının Mərkəzi binasında oturan adam telefonda Anar müəllimə deyir: «Axı, bu Qədir Rüstəmov kimdir ki, siz onun haqqında bu boyda yazı verirsiniz».

Anar müəllimin rəngi qaçır. Bir xeyli dinlədikdən sonra: «Siz nə zaman «Qobustan» toplusunun baş redaktoru olsanız, o zaman yazıların həcmi məsələsini həll edərsiniz. Hələlik burda baş redaktor mənəm. Başqa sözünüz yoxdur ki…

Pauza.

Dəstəyi asır.

Vəssalam.

Tofiq Abdin.
«Mədəniyyət» qəzeti, 28 dekabr, 2006

Anar adamın hər vaxt dönə biləçəyi, qayıdıb üz tuta biləcəyi bir insandır. Həm də sənə doğma olduqca uzaq, uzaq olduqca yaxın bir insan. Altmış, yetmişinci illərdən keçmiş ədəbiyyat, incəsənət, mədəniyyətlə maraqlanan heç bir azərbaycanlı yeniyetməsi, gənci (təkcə onlarmı?) Anarı dana bilməz. Bir dəfə yenicə varlanıb dingildəməyə başlamış uzaq qohumlarımdan biri məndən: – Anarın nə qədər pulu olar? – deyə soruşanda: – Pulunu deyə bilmərəm, amma respublikada Anar qədər oxucusu, hörməti və nüfuzu olan tanımıram, – dedim.

Anar altmış, yetmiş, səksəninci illərdə yazdığı hər bir hekayə, povest, roman, esse, publisist yazıları, kino, teatr fəaliyyəti, elmi məqalələrini Azərbaycandakı türk oxucusu bayram kimi qarşılayırdı… «Qobustan» incəsənət toplusu Azərbaycan mətbuat tarixində, dilimizin arınmasında, milli dərkin, demokratiyanın inkişafıında, cəsarətin artmasında əvəzsiz rol oynadı. 1988-ci ilə qədər o, bir ziyalı, bir yazıçı, bir vətəndaş kimi artıq öz missiyasını yerinə yetirmişdi.

Azər Abdulla.
«Hər qovulan namərd olmaz» yazısından
«Oğuz eli» qəzetinin Anara həsr olunmuş xüsusi buraxılışı. Mart, 1988

Anarın şeir kitabına ön söz

Mənim əziz dostum, gözəl Azərbaycan yazıçısı Anarın haçansa özünə yazdığı zarafatyana bir şeirində belə misralar var:

«Şairlik bir azardır,
Hərdən-birdən tutandır».

Anar təkcə özünə yox, içi mən qarışıq bir çox dostlara belə zarafatyana şeirlər, parodiyalar yazıb. Və ümumiyyətlə, onun sayca o qədər də çox olmayan şeirlərindəki zarafat yükü, yumor və ironiya bizim bir çox məşhur şairlərimizin cild-cild kitablarından daha artıqdır.

Amma şairliyi, özu demişkən hərdən-birdən tutan Anarın şeirlərindəki yumor və ironiyanın əsil kökü heç şübhəsiz ki, onun parlaq və zəngin nəsr yaradıcılığındadır. Bu şeirlərin bəzilərini, xüsusilə «Əməkdar şair Əhməd Mahir»lə «Gənc şair Dəmir Beton»-un yaradıcılıq nümunələri»ni oxuyanda mənim yadıma ən birinci Anarın 40 il bundan əvvəl yazdığı «Molla Nəsrəddin – 66»sı düşdü. Eyni zamanda «Molla Nəsrəddin – 66»-dan Anarın indiki yaradıcılığına, üç il əvvəl yazdığı «Ağ qoç qara qoç»a gələn apaydın qırılmaz yolu gördüm.

Anar, təbii ki, şəhər yazıçısıdır. Və mən inanıram ki, nəsil-nəsil oxucular üçün bizim yaşadığımız bu Bakı şəhərindən savayı, həm də Anarın yaratdığı, küçələrində onun qəhrəmanlarının gəzib dolaşdığı, evlərində onun qəhrəmanlarının küsüb-barışdığı, sevdiyi, tənhalıqdan əzab çəkdiyi bir şəhər də var. Və çoxları üçün gündən-günə dəyişən və böyüyüb-abadlaşan, amma böyüdükcə yadlaşan bu şəhərdən Anarın əsərindəki – roman, povest, hekayə və filmlərindəki o şəhər doğmadır…

Əgər Anarın çoxşaxəli yaradıcılığını da bütövlükdə bir şəhərə bənzətsək, bu şeir kitabçasını, yəqin ki, o şəhərin ən ucqar məhəlləsinə, hətta mikrorayona oxşatmaq olar. Amma o böyük şəhərin ab-havası bu ən ucqar məhəllədə də duyulur.

Ramiz Rövşən,
«525-ci qəzet», 13 yanvar, 2007

Əzizim Anar!

Yetmiş yaşın mübarək!

Bu təbriki sənə dumanlı bir gecədə yazıram.

Pəncərəmdən baxanda hündür binalarda yanan tək-tük işıqların get-gedə dumana qarışıb necə gözdən itdiyini görürəm.

Mənə elə gəlir ki, bu gün təkcə Bakı yox, bütün Azərbaycan qəribə bir mənəvi-əxlaqi duman içindədi. Bu millətin ruhunda, şüurunda, hissiyatındakı bütün işıqlı nöqtələr yavaş-yavaş bu dumanda əriyib yox olmaqdadı. Və sən bu dumanlı məmləkətdə, hələ də sönməyən, dumanda əriyib-itməyən tək-tük işıqlardan birisən.

Əzizim Anar!

Zaman-zaman sənin hesabına özünü göstərmək istəyən o qədər küləklər sənə hücum çəkib ki. Amma nə bir budağını əyməyə, nə də bir yarpağını qoparmağa gücləri çatıb. Eləcə vıyıldayıb zəhlə töküblər...

Sən ana dilimizin bətnindən doğulan ən istedadlı yazıçılardan birisən.

Sən əsrlər boyu öz yazıb-yaratdıqlarıyla bu dili yaşadanların sırasındasan. Və bu dil yaşadıqca sənin yazıb-yaratdıqların da yaşayacaq.

Buna səni sevənlərin də, sevməyənlərin də şübhəsi olmasın!..

Ramiz Rövşən,
«525-ci qəzet», 15 mart, 2008

Ədəbi həyatda da teatrdakı kimi hərənin öz «ampulası» var və öz təbiətinin ziddinə gedib bundan kənara çıxmaq asan deyil. Mənə elə gəlir ki, Anar ədəbiyyata epizodik, ikinci-üçüncü dərəcəli rollar üçün gəlməyib. Elə bu xüsusiyyət ona həm bədii, həm də elmi-publisist yaradıcılığında mədəniyyət tariximizin ən qaynar nöqtələrinə əl uzatmaq, ən müqəddəs səhifələrini çevirmək haqqı kimi bir mənəvi imtiyaz verib. Anar ilk hekayələrini çap etdirəndən bəri həmnşə diqqət mərkəzindədir. Ancaq onun yaradıcılığına oxucu marağı ilə tənqidçi «marağı» çox vaxt bir-birinin əksinə olub. Oxucuya sevinc gətirən bir çox yaradıcılıq axtarışları və uğurları, tənqidçilər üçün yeni hücum hədəfinə dönür... Buna görə də öz ədəbi taleyini, bugünkü böyük ictimai etimadı, ümumxalq məhəbbətini qazanana qədər o, çətin, dramatik yollardan keçib... Anara etibar etmək olar, yazısında da, ictimai mövqeyində də, danışığında da, sevgisi və nifrətində də... Hansı yerə düşür-düşsün, mədəniyyətimizi ləyaqətlə təmsil edə bilər. Heç bir çətin məqamda öz şəxsi mənafeyini, tərif, adsan, mükafat həvəsini ümumi mənafeyindən üstün tutub ədəbi vicdanına qarşı getməz... Anarın vaxta, vaxtın Anara sədaqəti məni həmişə təəccübləndirir. Anarın vaxta sədaqəti budur ki, o, həmişə hər vaxtın, hər məqamın öz sözünü, doğma, gözlənilən, gərəkli sözünü deyir. Vaxtın ona sədaqəti də budur ki, bizim üçün 24 saat olan gün sanki onun üçün genişlənir. Yoxsa eyni zamanda həm nasir, həm kinodramaturq, həm publisist, həm «Qobustan» kimi bizim mətbuat tariximizdə xüsusi mərhələ təşkil edən jurnalın redaktoru, həm kinorejissor kimi çoxcəhətli fəaliyyətə necə vaxt çatdırmaq olardı? Əgər zamanın yazıçıya belə sədaqəti olmasaydı, o, bütün ədəbi-icimai fəaliyyəti ilə yanaşı Azərbaycanı qarış-qarış gəzib yurdumuzun Naxçıvanı, Qarabağı, Gəncəsi. Şəkisi, Lənkəranı, Qobustanı, İçəri şəhəri haqqında bir-birindən gözəl bədii publisistik nümunələr yarada bilməzdi. Bu kitab həm coğrafi, həm də mənəvi anlamda Azərbaycanın xəritəsidir. Burada vətənlə şəxsiyyət, yurdla yurddaş üz-üzə, ürək-ürəyədir.

Sabir Rustəmxanlı

Anarı Azərbaycanın bir ziyalısı kimi tanıyıram. Mən Rəsul Rzanı çox istəyirəm. Onun dostu da, düşməni də məlum idi. Hamı dost ola bilməz, hamı da düşmən. Rəsul Rza belə hərəkət edirdi. Anar özünü elə aparır ki, ya hamını sevir, ya da ümumiyyətlə, heç kimi sevmir, özünü sevir. Mən istəməzdim ki, onu bugünkü kimi passiv görüm. Mənim mənsub olduğum ədəbi nəsil bir sıra başqa yazıçılarımızla bərabər Anar işığına da baxıb nə vaxtsa düzlənib.

Seyran Səxavət

Əvvəl-axır yazılanlar

Anarın «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanında Təhminənin sirri açılmamış qalır – nə Təhminə bu sirri Zaura deyir, nə də Zaur başqa bir yolla bu sirri öyrənə bilir. Sirr Təhminə ilə qəbrə gedir.

Yazıçılar belə bir üsulla təsvir etdikləri hadisənin reallıq gücünü artırmağa çalışırlar: yəni ki, reallıq o qədər güclüdür ki, mən müəllif ola-ola özüm də onun içinə tam şəkildə girə bilmirəm. Mən də oxucu kimi bunun səbəbini, sirrini bilməyə bilərəm.

Oxucuya «nə isə bir şey» uydurub verməkdənsə yəqin ki, bu müəlliflər daha vicdanlı hərəkət edirlər – oxucunu onun fantaziyasına tapşırırlar. Oxucunu məcbur edirlər ki, özünə qayıtsın, öz həyat təcrübəsini xatırlasın, öz dünənini bir də başa vursun.

Oxucu da müəyyən edir ki, müəllif özü də onun kimi naməlumdan məluma doğru gedən yolun yolçusudur.

Və belə olanda oxucu psixologiyasının əvvəlcədən hazır vəziyyətdə duran şübhə projektoru öz gücünü yavaş-yavaş itirməyə başlayır.

Və oxucu müəllifə inanır. Ədəbiyyat da əslində elə bu zaman yaranır. Onun doğuluşundan sonrakı həyatı belə başlayır.

Kamal Abdullayev.
«Ədəbiyyat və incəsənət», 15 sentyabr, 1989

«Nağıldan nağıla»

Anar bir daha sübut etdi ki, əsl sənətkar eyni zamanda mütəfəkkir və bir az da Qorqudvari «qayibdən xəbər verəndir». Onun «Ağ qoç, qara qoç» əsərindəki birinci nağıl əslində «biz haracan gedə bilərik» sualına cavab oldu. Bu bir işıq toplusudur. Amma işığın içinə düşdünsə sonrası heç də həmişə asan olmur. İşığın içində də, sən demə, azmaq olar, işığın içində qaranlığı unudaraq büdrəmədən, heç kim üçün ən azı darıxdırıcı olmadan irəliləmək və yaxud fırlanmaq olar. Oriyentirlər itə bilər və bilməzsən ki, hara gedirsan, niyə gedirsən...

İşiğa inana bilərsən. Amma İşıq səni aldada da bilər. Bu cür bərq vuranları gərək birnəfəsə oxuyasan. Elə ki dayandın, yenidən hərəkət eləmək müşkülə dönür.

Birinci nağıldan ikinci nağıla keçidi yarıxəyaldan yarıhəqiqətə keçid də adlandırmaq olar. Birnəfəsə deyilmiş monoloqdan (tələsə-tələsə, nəyisə unutsam sonra gec olar və nə vaxtsa virtuallıqdan çıxıb reallığa dönməz, ona görə də tez, bir az da tez, «tez» sözünün özündən də tez!), bəli, monoloqdan tanış ahəngə, bir balaca ləngərə, astaca, (üsulluca!) dialoqa keçid. Tarım çəkilmış ipi birnəfəsə keçən kəndirbaz beləcə öz hündürlüyündən, quş kimi süzdüyü hündürlükdən yerə düşməyə (qayıtmağa) çətinlik çəkir (bəlkə istəmir?).

Ağrını sən öz canındaymış kimi hiss edirsən. Ağrı təsvir olunmur. Qətiyyən! Ağrı barədə söz deyilmir. Amma o var. Qəribə olan isə budur ki, bu ağrı bir az əvvəlki... «sevinci» demərəm, bura ən uyğun gələni «qəhər» sözüdü, əlbəttə, qəhər, bir az əvvəlki qəhəri unutdura bilmir.

Kamal Abdulla,
«Ədalət», 21 iyun, 2008

Anar nəsrinin doğmalığı Bakı küçələrinin hər bir tinində yaddan az qala çıxmaq istəyən, amma heç cür yaddan çıxmayan xatirələrin doğmalığıdır. Sənlə üz-üzə gələn və əsla tanımadığın adamların gözlərinin dərinliyindəki doğmalıqdır. Mən bu doğmalığı hər bir sətirdən, hər bir mükalimdən aydın şəkildə duyuram. Elə də olur ki, hər hansı bir personacın arxasına düşürsən, Anar onunla «öz işini qurtarandan» sonra öz təxəyyülünü işə salmağa çalışırsan. Bu təxəyyül onun hər hansı bir əsərində kifayət qədər qıcıqlandırıldığından onda məsələn, «Ağ liman» əsərindən kənarda potensial şəkildə baş verə biləcək belə bir davranış yolunu cızmaq olar.

Kamal Abdullayev.
Əvvəl-axır yazılanlar. Bakı, Yazıçı, 1990

Anar

Azərbaycanın xalq yazıçısı Anarın
70 yaşı münasibətilə

Görünür nə isə dolaşıq düşüb,
Sözsüz ki, oxşamır gerçək olana;
Deyirlər yetmişə yetişib yaşın,
İnana bilmirəm mən bu yalana.

Ağlını başına yığ, qoca zaman,
Deyəsən sən bizə iş artırırsan...

Ay pəncərə dünya, ay baca zaman,
Gör kimin yaşına yaş artırırsan?!

Nahaq zəhmət çəkib əriyir zaman,
Əgər ağlı olsa gövhəri satmaz.
Baxma ki, göy ilə yeriyir zaman,
Səni qocaltmağa hünəri çatmaz.

Nə olsun il ötür, pərdəni çəkir –
Yananlar günəş tək uca doğulur.
Kimlər ki, anlamaq dərdini çəkir
Min ildi bələyə qoca doğulur.

Seçilmiş bəndənin doğulduğu il
Olmayan rəqəmin civarındadı.
Sənin yaş kağızın arxivdə deyil,
Qədim Qobustanın divarındadı.

İstədim ki, boğum yalanı qında
Onçün gətirmədim gül, sənə qurban!
Sən ki bir dastansan gənclik haqqında;
Həftə sənə qurban, il sənə qurban...

Sabah tək gizlinsən, dünən tək aydın,
Tarixlə qoşayam, nə dərdim, ustad!
Çiynini bir azca düz saxlasaydın
Sənə Dədə Qorqud deyərdim, ustad!

Bir əli alsa da, verir bir əli –
Yaxşı ki, adildi tərəzi çəkən.
Analar ad seçir toydan irəli
Hər həftə yüz Anar doğulur bəlkə.

Kim gedə bilər ki, sən gedən yolla? –
Haqq kişi ən nurlu fanarı verib….
Hər sərvət tükənir, yaxşı ki, Allah
Xalqıma tükənməz Anarı verib!

Vaqif Bəhmənli,
«525-ci qəzet», 19 aprel, 2008

Yaxşı adamın nağılı

Vətəndən min kilometrlərlə uzaqlarda soyuq şimalda, Rıbinskdə «sürgün» illəri. Ömrümün o soyuq illəri hamının, hətta qohum-əqrəbanın, dost-tanışın da canına hopmuş və hamını məndən soyutmuşdu. Nə səsimə səs verən, nə də məni soraqlayan vardı.

Və qarlı, sazaqlı bir gündə, düşərgənin soyuq bir küncündə oturub Rəsul Rzaya məktub yazdığım yadıma gəlir. Məktub yazmağa başlayandan bitirənəcən göz yaşımı saxlaya bilmirdim. Bəlkə də bütün qərib taleyimi ağladım o gün. Nə yazdığım yadımda qalmayıb, bir o yadıma gəlir ki, yazdıqlarımı «konvertə» güclə yerləşdirdim, sübh tezdən bir nəfərin vasitəsilə onu ünvanına göndərə bildim.

Üstündən xeyli keçdi deyə, cavab məktubundan əlimi üzdüm və sonra hər şeyi unutdum. Günlərin birində məni «vaxta» çağırtdırdılar. Məktubu məna uzadıb – «наконец то тебе тоже начали писать» – dedilər. Məktubun üstünə baxanda gözlərimə inanmadım. Məktub Anardan gəlmişdi. Həmin gün ürək edib onu açа bilmədim. Əllərim tutuldu. Məndə bir qorxu, ümidsizlik oyanmışdı; görəsən nə yazıb, haqqımda nə düşünür?

Ömrümün ən qərib, ağrılı-acılı işığı oldu mənə Anar. İnsan ömrünü uçuruma aparan yollar aclıqdan, susuzluqdan, havasızlıqdan doğur, deyərdim. Azadlıq dediyimiz – bir udum hava, bir içim su, bir tikə çörəkdir bəlkə də. Anar olumlə həyat – arasında bir körpü oldu mənim üçün: Azadlıq körpüsü.

Elə bil dünəniydi bütün bünlar, onda Anarın 40 yaşı varıydı.

40 yaşlı Anara bir ömür borcum var və həmişə də təsəllim o olub ki, «borclu borclunun sağlığını istər».

«Yaxşı padşahın nağılı»nı yazmışdı Anar bir zamanlar və mən də 40 yaşlı Anara «Yaxşı adamın nağılı»nı yazacağam günlərin bir günü. Çünki 40 yaşlı Anara bir ömür borcum var və necə deyərlər, borclu-borclunun sağlığını istər.

Zakir Fəxri,
«525-ci qəzet», 14 mart, 1998

Onu bir daha öz ampluasında gördüm

Qırx il müddətində həyat və yaradıcılığını izlədiyim, şəxsiyyətini yüksək qiymətləndirdiyim, daim hörmət və ehtiram bəslədiyim, aramızda münasibətlər olan, təvazökar insan, xalq yazıçısı Anarı o yüksəklikdə bir daha gördüm. Azərbaycan Milli Televiziyasının martın 23-də efirə verdiyi «Zamanla üz-üzə» verilişində Anar müəllim yenə hamımızın tanıdığı yazıçı, şair, publisist, recissor Anar müəllim idi.

Anar müəllimi təkcə yazıçı kimi yox, həm də ictimai xadim, siyasət adamı, böyük təşkilatçı kimi tanıyırıq. O, yüksək məclislərdə, həmişə öz sözü, öz fikri ilə hamının nəzər diqqətini cəlb edir.

Keçmiş SSRİ Ali Sovetinin deputatı olanda Mixail Qorbaçovun «cavabını» verməsini, Azərbaycan Milli Məclisinin deputatı olarkən, ciddi məsələlərin müzakirəsi zamanı

çox qiymətli təkliflərlə çıxış etməsini biz çox görmüşük. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Anar müəllim olmasaydı, bəlkə də indi Yazıçıiar Birliyi yox idi. Xalqımızın böyük oğlu Heydər Əliyevin qayğısı ilə Yazıçılar Birliyi də qaldı, fəaliyyət göstərdi, onun ədəbi orqanları olan «Azərbaycan», «Literaturnıy Azərbaycan», «Ulduz», «Ədəbiyyat qəzeti» kimi mətbu orqanlar da yaşadılar.

Anar müəllimin şəxsiyyəti, həyat və yaradıcılığı haqqında saysız məqalələr, kitablar yazılıb və hələ çox yazılacaq. Mən, yeri gəlmişkən, onun haqqında ürəyimdəki fikirlərinin mində birini yazdım.

Xeyrəddin Qoca.
«Xalq» qəzeti, 27 mart, 2007

Anar: yazıçı və şəxsiyyət ucalığı

Anar ədəbiyyata öz kamil qələmi ilə gəldi. Ədəbiyyatımızı həm mövzu, həm məzmun, həm ifadə tərzi baxımından yeniləşdirən, zənginləşdirən istedadılı sənət adamlarımızdan biri kimi də dərhal mərkəzi planda oldu. Oxucu keçmiş ədəbi stereotiplərdən dərhal ayrılıb, yeni bir aləmə, yeni bir dünyaya düşdü. İnsani hisslər, duyğular, əməllər dünyasına; sən demə adi telefon nömrələri hissləri, duyğuları sehirli bir dünyaya apara bilərmiş. Sən demə, insana ucalıq, şan-şöhrət gətirən zəhmət, əmək, işinə, əməlinə sədaqət, heç də hamının başına tac qoymurmuş. Bu dünyada elə zəhmət adamları, sənət adamları vardır ki, məhz təvazökarlığı, başıaşağılılığı, başqasının mənafeyinə yol açması ucundan kölgədə qalıb, xırda adam hesab olunub, sayılmayıb, hiylə və ironiya hədəfinə çevrilib.

Bu idi o dövrün həyat həqiqətləri və Anar bu həqiqətləri – insan adlanan məxluqun mürəkkəb və ziddiyyətli taleyini gətirirdi ədəbiyyata. Bəli, Anardan əvvəl bu həqiqətləri car çəkən qələm var idi – Rəsul Rza qələmi. Və Anar Rəsul Rza məktəbinin davamçısı kimi yetişirdi.

60-cı illərin ortalarında bədii publisistik üslubumuzda yeni bir işıq parladı. Öz kəskin ironiyası, iti neştəri ilə zamanı, zamandakı saxta münasibətləri sancan gur bir şüa «Molla Nəsrəddin – 66». 28 yaşı vardı onda Anarın, bu 28 yaşlı gəncin qələmində nə qədər yanğın, nə qədər məhəbbət, nə qədər acı gülüş olarmış! Bu qələm saxtakarlıqlara, əli əyriliyə, talançılığa, robotlaşmaya, insanı müsibətlərə salan faktorlara qarşı amansız idi. Sələfi «Molla Nəsrəddin»in ağır və çəkilməz missiyasını götürmüşdü çiyninə… Anar böyük Cəlil Məmmədquluzadənin millət və xalq qeyrəti ilə dolub daşırdı.

Elə yazıçılar var ki, ondan tez doyursan, öyrəşirsən yazılarına. Təzə əsərini əlinə götürən kimi bilirsən ki, nə deyir, nədən danışır. Lakin Anara öyrəşmək mümkün deyil, o həqiqətlərdən yazanda da, fantastikadan yazanda da, mifdən yazanda da yenidir, yenilikçidir, fikir və ideyalar motivləşdiricisidir.

Firuzə Məmmədli.
«525-ci qəzet», 17 aprel, 2008

Qapalı semantika

Dünya şöhrətli xalq yazıçımız Anarın «Beşmərtəbəli evin altıncı mərtəbəsi» əsəri bir çox hallarda «Təhminə və Zaur» adı ilə tanınır. Bu ad simvolizə edilmiş əvvəlki addan daha çevik və yaddaqalan olduğundan əsərdən bu adla bəhs olunması ümumi hal alıb. Lakin burada məsələni adın yadda qalmasından daha çox, məzmun qatındakı hadisələrin önə çəkilməsi ilə də izah etmək olar. Bu isə «Təhminə və Zaur» birləşməsinin sabit birləşmələrə doğru semantik inkişafa üz tutduğunu göstərir.

«Təhminə və Zaur», «Leyli və Məcnun» – bu iki ifadənin tərəfləri arasında paralel açıqlamalar insan, zaman, şəxsiyyət və mühit koordinatlarında «Təhminə və Zaur» birləşmənin daxili qatında maddiləşməkdə olan qapalı dünyaların üzə çıxarılmasına istiqamət verir.

Leylinin kölgəsi təkdir, yeganədir, yeganə olduğu qədər də intəhasızdır. Təhminənin kölgələri çoxdur, konkret zamanda və məkandadır. Leyli təkliyi ilə bir yox, bəlkə yüzlərlə, minlərlə Təhminənin varlığı üzərinə kölgə salır. Təhminənin kölgəsi özünə bəsdir. Leyli keçmişin idealıdır. Təhminə dünənin və bugünün realıdır. Təhminə heç cür Leyli ola bilməzdi. Təhminəni Leyli olmağa qoymayan səbəblər çoxdur. Təhminənin Zaurdan əvvəlki səbəbləri də Zaurun Təhminə qarşısındakı günahını yüngülləşdirmir. Zaur Məcnun da ola bilməzdi. Zauru qara əməllər mücəssəməsi də hesab etmək olmaz. Zaur çıxılmazlıq məngənəsidir, Təhminə ümidsizlik, xamxəyallılıq qurbanı. Leyli günahsızlıq mücəssəməsi, Məcnun dərk olunmaz qurban.

Min illər əvvəl Yer planetində cazibə qanunu çərçivəsində baş verən bir məhəbbət əfsanəsi dövrümüzün reallıqları içərisindən Təhminəni seçdi, Təhminə də gerçəkləşdi.

Leyli sələfimiz, Təhminə müasirimiz, eşidən, görən müşahidə edən isə biz olduq.

Firuzə Məmmədli.
«525-ci qəzet», 13 avqust, 2008

Qayıt Anar...

Bəzən fikirləşirəm ki, Anar Azərbaycanda anadan olmasaydı, Azərbaycan nə itirərdi?. .

O dəqiqə də sualımın cavabını alıram: Azərbaycan Anarı-zəngin düşüncəli, iti ağıllı, istedadlı ziyalısını itirərdi.

Sonra fikirləşirəm ki, Azərbaycanda anadan olmasaydı, Rumıniyada, yaxud Fransada doğulsaydı, Anar özü nə itirərdi?

Yenə cavabı o dəqiqə anlayıram: Yəqin ki, heç nə.

Məmləkəti və milləti üçün elədiyi irili-xırdalı işləri Anar orada görəcəkdi və elə orada da sözünə, fikrinə daim ehtiyac duyulan işıqlı bir adama çevriləcəkdi.

Anar artıq bizdən çox-çox uzaqlarda, heç birimizin əli çatmadığı, səsi yetmədiyi bir yerdə – içinin ən gizlin nöqtəsindədir.

Eynəyinin şüşəsinin o üzündən, olduğundan xeyli kiçik görünən gözləri, danışmağı yasaq olunmuş insanın gözləri kimi narahatlıq və kədərlə doludu. Bu gözlər əslində Anarın elədiklərindən və dediklərindən qat-qat çox deyir. Onların nə dediyini tam dəqiqliyi ilə izah eləmək yəqin ki, bir qədər çətin olar. Dəqiq olanı isə odur ki, Anarın bizə demək istədiyi sözlər çox-çox qəmlidi, açmaq istədiyi mətləblər göz yaşı, kədər və ağrıyla doludu.

Nədi Anarın dərdini açmağa, ağrısını bölüşdürməyə, ürəyindəkiləri deməyə qoymayan?

…Anarı yaxından tanıdığım gündən bu yana – təxminən yetmişinci illərin axırlarından həmişə fikirli görmüşəm. Anar daim fikirdədir – içi yazılarla dolu qara çantası daim çiynində kinostudiyanın yarıqaranlıq dəhlizləri boyu yeriyəndə də, küçələrdə adam dolu izdihamın içi ilə dolaşanda da, səhnədə fəxri qaravulda, yaxud yubiley mərasimlərində dinməz-söyləməz dayananda da, yaxud əslində heç nə deməməkdən ötrü danışdığı anlarda da fikirlər arasında çaşqın vəziyyətdə tək-tənha dolaşmaqdadı.

Bəzən fikirləşirəm ki, bəlkə, evdar qadın səliqəsilə – bir əliylə millətin ocağını qalayan o biri əliylə pəncərəsinə şüşə taxan, çiynini sökük damına dirəyib ayağıyla qapısını açan və elə o cür – kürəyi damda, əli pəncərədə qonaqlarını qarşılayan Anar yorulub daha?.. Bəlkə son illər ölkəmizin başına gələn min bir faciə, qaranlıq burulğanlar Anarın – daim millətinin taleyi ilə yaşayıb-yaradan maarifçi – ziyalının əl-qolunu soyudub və Anar son illərin siyasi ab-havasından kənarda qalan bilmədən hadisələrin axarına uyğunlaşaraq siyasiləşib?!.

Bəlkə də... Amma, tez-tez axşamlar televiziyanın Milli Məclisdən verdiyi reportajlarında, iclas salonunun axır cərgələrində, Y.Səmədoğlu ilə bir, məşhur Xiçkokun «Quşlar» filmində Quşlar arasına gətirilən iki yad quş kimi oturan Anarın orda da olmadığını gün kimi aydın görürəm.

Anarı biz nə vaxt itirdik? Daha doğrusu qorxuyla duyduğum özünəqapılma nə vaxt baş verdi?

Bu barədə çox düşünüb daşınandan sonra bu qənaətə gəldim ki, səksəninci illərdə…

İlk zərbə: – Rəsul Rza və Nigar xanım…

Hər azərbaycanlıya nəsib olmayan Böyük Yetimlik…

Digər, daha ölümcül zərbələr: Ətəyinin bir ucu hələ də ovcumuzun içi ilə sürüşə-sürüşə bizdən uzaqlaşan çiskinli, yaşıl Şuşa…

Və birdən-birə mənəvi dəyərləri alt-üst olub bulanıq göl kimi çalxalanan, guya siyasiləşən, əslində qəlibindən çıxıb tanılmaz hala düşən millət…

O günlər Anarı dəfələrlə sarsıntılı və çaşqınlıq içində gördüm.

Görünür, o illərin hansı döngəsində Anar ilk dəfə milləti, milli mədəniyyəti üçün elədiyi irili-xırdalı işlərin lazımsız, mənasız beyin əziyyəti, heç bir nəticəsi olmayan boş fədakarlıq olduğunu anlayıb.

Bəlkə də tamam ayrı, mənim bilə bilmədiyim daha dərin, daha həllolunmaz faciələri anlayıb Anar?!.

Bu yerə gəlib çatanda ürəyim əzilir, Anarın eynəyinin o üzündən çox-çox uzaqlardan baxan gözlərini görürəm…

Onda telefonun dəstəyini qaldırıb Anara zəng vurmaqdan, «Qayıt, Anar…» – deməkdən özümü zorla saxlayıram.

Axı bilirəm, Anar bir daha qayıtmayacaq…

Afaq Məsud.
«525-ci qəzet, 5 mart, 1998

Yazıçı üçün əsas amıl oxucudur. Sən əgər yazıçısansa birinci növbədə oxucunun tələbatını nəzərə almalısan. Çingiz Abdullayevin əsərləri xarici dillərə tərcümə edilib, onu bütün dünya oxuyur və tanıyır. Ancaq nədənsə, Anarı dünyada kifayət qədər tanımırlar. Halbuki, Anarın mövzuları daha ciddidir, onun yazıçı kimi qaldırdığı problemlər daha aktualdır. Anar kimi yazıçıların əsərləri istər-istəməz oxucunu düşündürür. Ancaq oxucunun düşünməyə vaxtı yoxdur. Oxucu əylənmək, dincəlmək istəyir. Ciddi əsərlərə meylli olmayan oxucunu haqlı olaraq tənqid etmək olar. Amma indiki zamanda bu qaçılmaz faktdır. Bu günün oxucusunu ancaq dincəlmək, əylənmək düşündürür.

Elçin Həsənov.
«Bakı xəbər», 22 fevral, 2005

Anarın yazıçı İsa Hüseynovun 80 illiyi ilə bağlı «Qəribə dünyanı adamı» adlı maraqlı məqaləsi çıxıb, Mənim ürəyimdən keçənlərin hamısı sanki o məqalədə verilib. İlliyüziya və həqiqət arasında yaşayıb-yaradan İ.Hüseynovun ədəbi portreti parlaq, dəqiq və realdır.

Firuz Müstafa.
«525-ci qəzet», 16 yanvar, 2009

Anar bəy bir yazıçı kimi Türk və Dünya ədəbiyyatının tarixi siması olmaqla yanaşı, eyni zamanda Azərbaycan xalqının ziyalılıq nümünəsidir. Onu təkcə oxumaq, rəğbət bəsləmək, sevmək yox, eyni zamanda çox nadir bir mənəvi xəzinə kimi qorumaq gərəkdir. Axı, xalqımızın ikinci bir Anarı yoxdur!

Elçin İsgəndərzadə

Anar – yalnız yazıçı deyil, o, Azərbaycan mədəniyyətində hadisədir. Zəngin yaradıcı təbiəti, dünya mədəniyyətinə, ədəbiyyatına, müsiqisinə, incəsənətinə qeyri-adi bələdliyi ona bütün dünyada Azərbaycan mədəniyyətinin təbliğatçısı olmaq imkani verir. Onun Vətəninə məhəbbəti övladlarımız üçün etalon ola bilər. Azərbaycan dilində

«ziyalı» sadəcə intelligent demək deyil. Ziyalının sanki içindən işıq gəlir. Yadımdadır Qabil və Fikrət Qoca mənə deyirdildər ki, uzun illər boyü yazıçılar təşkilatında yalnız iki əsl ziyalıyla rastlaşıblar: Ənvər Məmmədxanlı və Anarla.

Çingiz Abdullayev.
«Ziyalı» – sadəcə intelligent deyil» məqaləsindən
«Zerkalo» qəzeti, 14 mart, 1998

Anarın miqyası

Anar lap ilk gənclik illərindən yazıçı missiyasını dəqiq anlamış yaradıcıdır. O, yazıçılığı qədər də tədqiqatçıdır, alimdir.

Anar milli örnəyimiz və güvəncimiz ola biləcək hər kəsdən və hər şeydən yazıçı namusu, vətəndaş yanğısı ilə yazıb. Təkcə «Qobustan» ədəbi toplusunun on doqquz ilə kimi baş redaktoru olması (Kimdir toplunun kollektivinin zəhmətini danan?) onun yaradıcılıq axtarışlarının nəticəsidir və böyük mədəniyyət faktıdır.

«Qobustan» yeni üslubda «Molla Nəsrəddin»in varisi kimi çıxış edirdi. Mirzə Cəlilin ağrılarını öz zamanında Anar da çəkib. Yoxsa o, 66-da («Molla Nəsrəddin – 66») və 86-da («Molla Nəsrəddin – 86») mollanəsrəddinlik eləməzdi. Ömrü boyu millət ağrısını çəkən, dərdindən gülən böyük Cəlil Məmmədquluzadənin yaradıcılığını bitdə-bitdə anladan Anarın onun əsərlərinin motivləri əsasında yazdığı kino, telessenarilər, məqalələr, esselər həm dahi sələfimizin yaxından tanıdılmasına, həm də milli bəlalarımızın sağaldılması işinə yönəlirdi.

Mən də ordaydım, bir dəfə Yazıçılar Birliyində Anar gənc şair və yazıçılara üz tutub dedi ki, sadə və anlaşıqlı yazmağa çalışın, elə bilməyin, Azərbaycan oxucularının hamısı bütün mətnləri axıra qədər oxumağa hazırdır.

Onun «Sizsiz» romanında belə bir məqam var:

Yazıçı İmran Qasımovdan sonra Yazıçılar İttifaqının sədri vəzifəsinə namizədlər sırasında Anarın da adı hallanırmış və bunun yataq xəstəsi olan Nigar xanım Rəfibəyliyə də sorağı çatıbmış. Elə olur ki, Mirzə İbrahimov sədr seçilir. Anar bu xəbəri anasına çatdıranda nə baş verir? «Anamın sifətinə çox məmnun və rahat bir təbəssüm qondu. Əlini uzadıb yastığının altından üç manat çıxardıb mənə uzatdı:

– Gedəndə bunu nəzir ver, – dedi – nəzir eləmişdim ki, o yerə səni qoymasınlar».

Ana bu seçimin nə demək olduğunu yaxşı bilirdi. Yazıçılar İttifaqı kimi rəqibli, danışıqlı, dedi-qodulu, həmişə yuxarıların nəzarətində olan, vaxtilə kimlərisə qaldırmaq və yaxud nüfuzdan salmaq üçün alət kimi istifadə edilən, indi yenə söz-söhbəti kəsilməyən bir təşkilata başcılıq etmək zor işdi. Anar özü də hara getdiyini gözünün altına almışdı.

Yazıdan qaçmaq olmazmış. Sonrakı illər və ona olan etimad Anarı Yazıçılar İttifaqının rəhbəri vəzifəsinə gətirdi.

1991-ci ilin martında Yazıçılar Birliyinin doqquzuncu qurultayında o ikinci dəfə bu qurumun sədri seçilərkən yekun sözü belə oldu:

– Bu vaxta qədər necə işləmişəmsə, bundan sonra da elə işləyəcəm. Artıq heç nə vəd eləmirəm.

Yazıçıların sonuncu qurultayında da təkrar sədr seçilən yazıçı yekun sözündə 1991-ci ilin martında dediyi sözləri yenidən yazıçıların yadına saldı. Səsini çıxardan olmadı, deməli, hamı onun fəaliyyətindən razı idi.

Dostum Rafiq Tağının Füzuliyə kəllə atan, Mirzə Cəlilə «ədəbi kollabrasionist», Vaqif Yusifliyə «ilham atlarının mehtəri» deyən vaxtları idi. Hekayələrinin birində mərhum Elçibəyi abırdan salmış, sonra cəbhəçilərin təzyiqilə dala vermiş və ANS-də onun ruhu qarşısında dediyini dəbbələmişdi. Anar müəllim Yazıçılar Birliyinin «Natəvan» klubundakı bir yığıncaqda məqam tapıb Rafiq Tağını sancdı: «Elçibəyin şərəfini qoruyan təşkilat vardı, ona görə mərhumun ruhundan üzr istədin, amma Mirzə Cəlilin arxasında bir qurum olmadığı üçün onun incik ruhundan üzr istəmək yadına düşmədi». Bu, necə də acı bir həqiqətdi. Dünyagörmüş adam sözün vaxtını keçirməz. Anarda da sözü yerində, sərrast demək nə qədər desən...

Bir dəfə yenə «Natəvan»da idik, kiminsə kitabı müzakirə olunurdu. Şair Böyükkişi Heydərli müəllif haqqında çıxışına özünəməxsus pafosla belə başladı:

– Polislər böyük Nazim Hikməti həbsxanaya salarkən onun çəkmələrini soyunduranda gördülər ki, şairin corablarının dabanı cırıqdır (Ah-uflu bir pauza). Bəli, həmişə dahilərin corablarının dabanı cırıq olur!

Görüşdə iştirak edən Anar Böyükkişi qardaşımızın əttökən mülahizəsinə ərklə qulp qoydu:

– Böyükkişi, vallah, bu dəqiqə mənim də bir corabımın dabanı cırıqdır...

Başqa bir dəfə «Natəvan»da şeir günü idi. AzTV-dən də gəlmişdilər, görüşü çəkirdilər. Növbə Gürcüstandan gəlmiş şair Səməd Qaraçöpə çatdı. Onun oxuduğu şeirin hər bəndinin son misrası belə bitirdi:

«Məni də göstərin televizorda!» Şair bu şeirində unudulmuşları, eyni zamanda özünü yada salırdı. Səməd şeiri oxuyub qurtarandan sonra Anar üzünü operatora tutub dedi:

– Bu oğlanı da (Qaraçöpü) çəkin, televizorda göstərərsiniz!

Əjdər Ol.
«525-ci qəzet», 15 mart, 2008

Xalqın yazıçısı

Xalqın yazıçısı olmaq hər şəxsiyyətə nəsib olmur; bənzərsiz şəxsiyyət olasan gərək! Sənin əməllərin də əsərlərin kimi işıqlı olsun, dünyamızın, həyatımızın, insanlarımızın ruhi qidasını artırsın. Düşünürəm ki, bu adı şərəf və ləyaqətlə daşıyan Anar müəllimin gücü və dəyəri də bundadır.

Bizim nəslin əksəriyyəti Anar müəllimin əsərləri ruhunda böyüyüb. Bəlkə bu ruha görədir ki, mən və mənim kimi düşünənlər sağlam həyat tərzimizi hələ də itirməmişik və itirmək də istəmirik.

Mən MK katibinin köməkçisi idim. Şənbə günü olduğundan aparatda tək-tük adam vardı. İş otağımda ikən qəflətən Anar müəllimlə Elçin müəllimi qarşımda gördüm. Onlar son dərəcə həyəcanlı idilər. Katibi soruşdular. O, birincinin yanında müşavirədə idi. Bunu biləndə çox məyus göründülər. Anar müəllim dedi ki, Araz Dadaşzadə Moskvada vəfat edib. Xəstəxanada qalıb. Bizim nümayəndəliyə zəng vurub tapşırmaq lazımdır ki, onun cənazəsinin Bakıya yola salınmasını təşkil etsinlər. Acı və ağrılı olsa da, o vaxt Anar müəllimin də, Elçin müəllimin də, elə mənim də ən çox sevdiyimiz insanlardan biri, Azərbaycan Ensiklopediyasının Baş redaktoru Araz Dadaşzadənin ölümü və onun cənazəsinin Moskvadan gətirilməsi, ailə üzvlərinə təhvil verilməsi ilə bağlı problemlər bizləri sarsıtmış, həyəcana gətirmişdi. Bununla bağlı Moskvadakı bizim Nümayəndəliyi telefon «atəşi»nə tutdum. Həmin anlarda Anarın və Elçinin insani münasibətlərini, dost qayğıkeşliyini duyur, onların narahat, bir qədər də qınayıcı nəzərlərinin müşayiəti ilə nümayəndəliyə «tapşırıqlar» verirdim. O görüş mənə dost və dostluğun nə qədər qiymətli olduğunu anlatdı.

Gözümüzün qabağındaca korifeylərimiz yaşayıb-yaradıb, 70 yaşda belə yorulmaq bilmədən ədəbiyyata, mədəniyyətə, millətə xidmət edirlər. Bu yaşın özəlliyi və gözəlliyi var; bu yaş nə şan-şöhrət, nə dövlət, nə vəzifə, nə tərif, nə də kömək-filan ummur. Bu yaş Adəmin balasından bircə şey umur: diqqət!

Kamran Nəzərli.
«Yeni Azərbaycan», 23 fevral, 2008

Onu təhqir-tənqid edənldər də, tərifləyənlər də onun «çörəyini yeyirlər» və onların yerdəyişməsi də normaldır… Anarın lider olduğu 60-cılar nəsli sovet ədəbiyyatı kimi xarakterizə oluna bilməz. Niyə? Ona görə ki, bu ədəbiyyat sovetizmə xidmət etməyib, həmin ideologiyanın daşıyıcısı olmayıb. Gedin əsərlərini qabağınıza qoyun, bir daha oxuyun. 60-cə illərdə Anarı sovet ideologiyasına əks çıxmaqda (yumşaq şəkildə desək) ittiham edən palaz-palaz yazıların müəllifləri eyni adla sonralar guya azadlıqsevər və demokratik libas geyindilər. Anar isə «sovet» yaşıçısı olaraq qaldı. Anarın ədəbiyyatımızda, bütövlükdə mədəniyyətimizdə gördüyü işin siqlətini Üzeyir Hacıbəyovla müqayisə etsək elə bilirəm ki, mubaliğəyə yol vermiş olmarıq. Mədəni həyatımızdakı boşluqlar (konkret zaman kəsiyində) məhz Anarın qələmiylə doldurulub, onun adıyla təmsil olunub. Teatr, kino, əvəzsiz nəsr nümunələri, esse, xatirə… «Qobustan» jurnalı, ictimai fəaliyyəti… Azərbaycan mədəniyyətində Anar – ən nüfüzlü yazıçıdır, -deyimi ilə, düşünmürəm ki, kimsə mübahisəyə girsin. Bu nüfüz əsərlərindəki vətəndaş mövqeyi, klassik ziyalı əxlaqı, davranışı… və bütün bunların hamısı da əsil-köklə qazanılıb. Ədəbi-mədəni məkanda Anar kimsənin yerini dar eləmir, qazandığı halal-hümmət ədəbi-mədəni çoğrafiyanı da kimsə onun əlinlən ala bilməz. Anar torpağı vətən eləyən

tarixi şəxsiyyət olduğunu çoxdan təsdiqləyib. «Həyatım ağrıyır»… bu ağrılı söz birləşməsi Ənvər Məmmədxanlıya məxsusdur. Anarın xatirələrindən yadımda qalıb. Niyə bu ifadəni yada saldım?Bu ağrılıqda bir ifadə işlətdi Anar. On dörd mart onun doğum günüdür. Təsadüfən bildim və «Vətəndaş həmrəyliyi» qəzetinə bir yazı yazdım. Bax onda Anar elə belə də dedi: «Bu gün həm də Babəkin qətliam günüdür, Kəramət, görəsən, məni qətliamda ittiham etmirlər ki?». Gülümsəmək istədim, guya zarafat eləyirdi, amma bu ağrı-acıda, bu boyda zarafat olar?

Kəramət,
Anar –görünən və görünməyən tərəfləriylə (essevari yazı).
«Mədəniyyət» qəzeti, 18 oktyabr 2008

Milli-mənəvi əxlaqi dəyərlərimizin qorunmiası və yaddaşımıza həkk olunması Anar yaradıcılığınıda öz əksini layiqincə tapıb. Bütün bu keyfiyyətlər Anarın özünün daxili aləmindəki səmimilikdən, xeyirxah insan olmasından irəli gəlir. Məhz bu mənada o dahi klassiklərimizin sırasında dayanır.

Hüseynbala Mirələmov,
Yazıçı, millət vəkili

Mən sənin gözündə tərəzi gördüm

Hörmətli yazıçımız Anarın
70 illiyinə ithaf

Alıb 70 ili çiyninin üstə,
Çəkib daşıdığın yükün mübarək!
Ot kökü üstündə bitər, – deyiblər
Budağın mübarək, kökün mübarək!

Nələri düşündün ömür yolunda,
Düşdün ədalətin, haqqın izinə.
Bir para adamlar güzgülənəndə,
Zamanı güzgü tək tutdun üzünə.

Bəxtin hər deyəndə gülmür ki üzü,
Sətirlər göyərdi ümidlərində.
İsti xəyallarla yazıb «Sizsiz»i
Üşüdün «Şəhərin yay günlərində».

«Gecə zəngləri»nə səksənən adam,
Neçə axşam qalıb, səhər keçməyib.
Daha köks ötürüb, «Gün keçdi» demə,
Keçdiyin ömür-gün hədər keçməyib.

Köksünə sığmayıb eşqinin odu,
Ürəyin bir dünya odmuş, ocaqmış.
Sinəsi xəzinə «Dədə Qorqud»u,
Gör neçə qorqudlar yaşadacaqmış.

Ağa ağ deyənim, qaraya qara,
Nadanın haqqına qərəzi gördüm.
Çoxunun əlində daş-tərəzi var
Mən sənin gözündə tərəzi gördüm.

İllər gülə-gülə qaçsın üstünə,
Xoş ayın, xoş günün, xoş halın olsun.
Ömrün hələ neçə mərtəbəsində,
Təki yaratmağa «Macal»ın olsun.

Alıb 70 ili çiyninin üstə,
Çəkib daşıdığın yükün mübarək!
Ot kökü üstündə bitər, – deyiblər
Budağın mübarək, kökün mübarək!

Fərqanə Mehdiyeva.
«525-ci qəzet», 21 may, 2008

Dünən xalq yazıçısı Anarın 65 yaşı səsiz-küysüz, təntənəsiz ötüb keçdi.

Bir para adamlar qəbul edə bilməsələr də, Anar çağdaş mədəniyyətimizin nəhəng simalarındandır.

…Bununla belə nə vaxtdı mətbuatda, ara söhbətlərində Anar qədər tənqid olan ikinci bir qələm sahibi də yoxdur…

Mənə görə, Anarın bütövlükdə mədəniyyətimizdəki missiyası bir qədər başqadı…

Anar təkcə nəsr yazmaqla məşğul olsaydı, indi cildlərini yığıb-yığışdırmaq olmazdı; Anar özünü ancaq dramaturgiyaya həsr eləsəydi, indi ən məhsuldar dramaturqlardan biriydi; Anar kinonu başlıca yaradıcılıq hədəfi saysaydı, filmoqrafıyası indikindən qat-qat çox olardı... Amma Anar Mirzə Fətəlidən, Həsən bəy Zərdabidən, Mirzə Cəlildən, Üzeyir bəydən, Hüseyn Caviddən sonra... mədəniyyətimizdə yaranmış boşluğu imkanı daxilində doldurmağı qarşısına məqsəd qoyub. Buna nə dərəcədə nail olduğunu aydınlaşdırmaqdan ötrü onun yaradıcılığını küll hallında təsəvvür eləmək lazımdı. Bir həqiqət

də var ki, Anarın əsərlərinin ömrü kimlərinsə münasibətindən asılı deyil, zamandan asılıdı: əlahəzrət Zaman hər şeyi yerbəyer eləyəcək, özüylə sabaha nəyi aparacağını məqsədli-məqsədsiz münasibətlərə ehtiyacı olmadan dəqiqləşdirəcək. Bunu sənətin və sənətdə yaşayan adamların taleyi şübut edir.

Nəriman Əbdülrəhmanlı.
«Avropa» qəzeti, 15-20 mart 2003

Bir yandan da bu yağış...

Bir dəfə necə oldusa Anar məndən soruşdu: – «Suqovuşanı» görmüsən? Yox, – dedim. – Mən apararam səni, axırıncı dəfə ora atamla getmişəm, – dedi.

Anar bizi Sabirabada – «Suqovuşana» apardı. Uzun müddət bir-biri ilə barışmayan bu iki nəhəng çayın tarixi möcüzəsinə xeyli tamaşa elədik. Çoxlu şəkillər çəkdirdik. Cavan şairlərin şəklini Anar öz aparatı ilə çəkdi. İki gün sonra həmin şəkilləri çıxartdırıb xususi zərflərdə bizə verdi.

Anar cavan yazarlar: Səlim Babullaoğlu, Elçin Hüseynbəyli, Əlizadə Nuri və başqa istedadlı qələm sahibləri haqqında yazıb, onlara qayğı göstərib. Anar bu qayğını təkçə ayrı-ayrı fərdlərə deyil, bütov ədəbi mərhələlərə, onilliklərə göstərib, Yazıçılar Birliyini qoruyub saxlayıb və bu Birlikdə ədəbi orqanlar, çap olunmaqdan əlavə onların qonararları, mükafatlar, işçilərin əmək haqları, Prezident təqaüdləri, yubileylər, klassik və yeni ədəbiyyatı qorumaq missiyası, ədəbi tərcümələr, bütün bunlar Anarın ədəbi gəncliyə, bütövlükdə qələm sahiblərinə, xalqa və onun ədəbiyyatına xidmətdir. Eyni zamanda Anar Ramiz Rövşən haqqında yazib. Dünyasını dəyişənlər: Yusif Səmədoğlu, Əli Kərim, Emin Sabitoğlu və neçə-neçə başqaları haqqında yazıb.

Biz çox şeyləri unuduruq. SSRİ xalq deputatı kimi Anarın Qarabağ məsələləri ilə bağlı o vaxt SSRİ rəhbərləri ilə apardığı mübarizəni unuduruq. «Qobustan» jurnalının Azərbaycan mədəniyyətində yaratdığı yeni mərhələni unuduruq. Ötən əsrin 60-cı illərində ədəbiyyatımızda dönüş nöqtəsini yaradanların biri və birincisi Anardır. Mətbuatımızın, ictimai, ədəbi-mədəni fikir tariximizin «Qobustan mərhələsi» hamının yaxşı yadındadır və bu mərhələnin də banisi yenə Anardır. 60-cı illərdən başlayaraq, bugünümüzə kimi mədəniyyətimizdə və ədəblyyatımızda elə bir ictimai, mədəni hadisə yoxdur ki, Anar onunla bağlı olmasın. Anar bütün şəxsiyyəti və ədəbi-bədii təşəkkülü ilə tarixdir. Canlı tarix.

Bir dəfə Yazıçılar Birliyinin ikinci mərtəbəsində Anarın əleyhinə mətbuatda ağzına gələni yazan bir yazıçı bu məsələlərdə özünə haqq qazandıraraq lovğa-lovğa vargəl edirdi. Elə bu vaxt gördü ki, Anar pilləkənləri asta-asta yuxarı qalxır. O birdən belini aşağı əydi, gizlənməyə yer axtardı, axırda koridorun o başına qaçıb Fikrət Sadığın otağında gizləndi. Onun Anarla üz-üzə gəlməyə çəsarəti çatmadı.

Anar bizim müasirimizdir. Anar bizimlə addımlayır. Addımların səsini eşidirikmi? 70 yaşlı həyat, ömür, ədəbiyyat tarixi bizimlə bir yerdədir. Biz onu olduğu kimi görə bilirikmi? O, M.Füzulini, Dədə Qorqudu, Mirzə Cəlili, Hüseyn Cavidi, Üzeyir bəyi qoruduğu kimi, biz də onu qoruya bilirikmi? Bax, gələcək bunu bizdən soruşacaq. Cavab verə biləcəyikmi?

Qəşəm Nəcəfzadə.
«Şərq» qəzeti, 18 mart, 2008

Mənim anlamımda Anar ömürlüyü böyük zəhməti, ağlı, zəkası, həqiqət naminə mübarizəsinin, vicdanlı, namuslu əməyinin bəhrəsidir. İddiadan, mənəmlikdən uzaq çaylar, dənizlər kimidir Anar ömürlüyü. Anarın yanında olub həqiqət naminə getməmək olmaz!

Anarın yanında olub qorxaq böyümək olmaz! Anar dünyaya yeni bir pəncərədir.

Sərvaz Hüseynoğlu.
(«Azad qələm» qəzetinin Anara həsr olunmuş xüsusi buraxılışında) 2008

Mübahisələr Rüstəm İbrahimbəyovla başladı Anarla davam etdi. Səbəbi isə Anarın qələm dostuna hücumların bir qisminin öz üzərinə götürmək istəyi oldu. Həmişə olduğu kimi, bu dəfə də kimlərsə içində yığılmış kin-küdurəti, ağrıları Anara yönəltmək fikrindəydi. Görünür, Anar bu cür adamlar üçün mənfi enerjidən qurtulma obyektidir. Anar «Mubahisəli müsahibəyə münasibətim» adlı məqalə yazdı və Rüstəm İbrahimbəyov yaddan çıxdı. Bu onu bir daha göstərir ki, Anarın sözünün çəkisi ağır, mövqeyi samballıdır.

Kim deyir ki, yel qayadan heç nə aparmır? Anara qarşı yazılan məqalələr onun bir az əsəbindən, bir az sağlamlığından qoparır, millət, xalq naminə görəcəyi hansısa işi ləngidir. Düzdür, Anar güclüdür. Ona görə güclüdür ki, insaflıdır, təmkinlidir, dünya malında gözü yoxdur, özünə və etdiklərinə inanandır. İnanclı adam güclü olur. Və güclüdən umarlar. Lakin bütün ölkənin problemlərini Anar həll eləyəsi deyil ki? Anar millətin ən ağır günlərində nə təmkinini pozub, nə də mövqeyini itirib. Ona görə də onu biganəlikdə, susqunluqda ittiham etmək ən azı inrsafsızlıqdır. O, həmişə öz sözünü deyib. Anar gözünün toxluğu və ziyalı abrıyla biz cavan yazarlara nümunədir.

Elçin Hüseynbəyli.
Anar düşüncəsi və gücü. «525-ci qəzet», 14 noyabr, 2008

Anarı anlamaq zamanı...

«Anar iyirminci əsrdə Azərbaycanın yetişdirdiyi dahilərdən biridir: Mirzə Cəlil, Üzeyir Hacıbəyov və Anar». Bu fikir mənim deyil, mən yalnız onun şərikiyəm. Onu Anarın yaxın dostlarından biri deyib.

Anar təkcə yazıçı deyil, o bir düşüncə sahibidir. Mən bu fikri bir neçə dəfə demişəm və indi də təkrar eləməkdən yorulmuram: Anar Azərbaycan xalqının milli azadlıq düşüncəsinin, milli təfəkkürünün, əxlaqının formalaşmasında ən böyük rolu olan aydınlarımızdandır.

Anar bir proqramçıdır. Millətinin yolunu müəyyən eləyən, onun gələcəyini proqnozlaşdırmağı bacaran yazardır.

Anar vəzifəcə özündən böyüklə necə danışmağın, vəzifəcə özündən aşağıda olanlarla necə davranmağın yollarını bilir. Bizə isə öyrənmək qalır. Hələ iş yoldaşlarından bir kimsə Anarın qəbulunda gözləməyib. Bu o deməkdir ki, Anarın kimdənsə gizli bir işi yoxdur. Çünki o, məmur deyil, daha doğrusu məmur olmaq istəmir.

Adamların əksəriyyəti ona bir büt kimi baxır. Hələ 90-cı illərdə böyük çoxluq Anarı prezident kimi görürdü. Amma Anar da yaxşı bilirdi ki, siyasət tamam başqa meyarları sevir. Mədəniyyət, mənəviyyət siyasətilə kürsü siyasəti, idarəçilik siyasəti arasında çox böyük fərqlər var.

Anar gözütoxluğu öyrənmək istəyənlər, ya heç olmasa məşq eləmək meylində olanlar üçün bir örnəkdir.

Onun gözütoxluğunda bir sufilik, bir ürfanlıq, bir zahidlik var. Bu o demək deyil ki, Anarın həyatdan, insanlardan, dünyadan umacağı yoxdur. Sadəcə o, «nəfslə cihad ən böyük şəhidlikdir» deyimini bir geçəklik kimi qəbul edən, ona tapınan insandır. Çünki bu, bir gen məsələsidir.

Bu yaxınlarda hörmətli professor Yaqub Mahmudlu Az.TV-nin «Səhər» proqramında Azərbaycan tarixilə bağlı xəritəni 60-cı illərdə hansı əziyyətlərlə nəşr etdiklərini danışanda Rəsul Rzanın böyük əməyini, iradəsini vurğulayırdı. Ermənilərin əlinin hər yerə çatdığı bir zamanda bu müşkül bir məsələydi. İnsan kökə bağlıdır. Anar da öz kökünə sadiq ziyalıdır.

Bəzi ağzıgöyçəklər «bizim ədəbiyyatımız Biləcəridən o yana getməyib» – deyə hayqırır və hər bir əsərin dəyərini «Nobel» mükafatı alıb-almaması ilə ölçür. Dünyada bu mükafata layiq olan yüzlərlə yazıçının adını çəkmək olar. Məsələn: Əziz Nesin, Yaşar Kamal, Meşa Selimoviç, Çingiz Aytmatov və s. Amma başa düşmək lazımdır ki, bu da bir siyasətdir və ona sahib olmaq üçün külli miqdarda vəsait, başlicası isə həvəs lazımdır. Yeri gəlmişkən, Anarın həmyaşıdları və dostları Oljas Süleymenov, Çingiz Aytmatov türk dünyası və öz xalqlarının mədəniyyətində qoyduqları izlər baxımından Anarla müqayisəyə gəlməzlər. Anar onlardan daha çox iş görüb, amma onlar rus dilində yazdıqlarından böyük rus-sovet məkanında məşhurlaş-mışdılar.

Ustad yazarımızın oğlu Tural, qızı Günel də yazıçıdır. Onlar haqqında söz düşəndə Anar deyir: «Atam, anam mənə həyatda istədiklərimi verib, amma hər şeyə özüm nail olmuşam. Mən də çalışmışam ki, övladlarıma bacardığım qədər kömək edəm. Həyatda isə özləri özlərinə yer tapmalıdırlar». Onların Yazıçılar Birliyinə üzvlük məsələsindən söz düşəndə «məndən sonra istəyərlər üzv olarlar, istəməsələr yox» deyir.

«İyirminci əsr altmışıncıların, iyirmi birinci əsr doxsanıncılarındır». Bu fikri də Anar deyib. Amma o zaman da bizim ədəbi nəslin bəzi nümayəndələri bu fikri düzgün

anlamamışdılar. Yenə də qisməti, payı zamanından qabaq almaq istəyi, yenə də əlahəzrət şöhrətpərəstlik.

Qulağıma gurultulu alqış sədaları gəlir. Bu, Anarın şərəfinə böyük salonlarda düzənlənən tədbirlərin, onu sevən oxucularının və dostlarının səsidir. Onların arasında mənim də səsimin olmasıyla qürur duyuram…

Elçin Hüseynbəyli.
«525-ci qəzet», 16 fevral, 2008

Niyə məhz Anara?..

Bu, ritorik sual deyil, başa düşənlər üçün onun müxtəlif cavabları var, anlamayanlar üçünsə bu bir müəmmadır. Niyə bu millətin, onun fərdlərinin, hətta xırda-mırda adamlarının işi gətirməyəndə Anar yada düşür? Adamı müxtəlif cür yada salmaq istəyərlər. Alicənablar onu xoşməramla yad etmək üçün, qəlbiqara adamlar qanını qaraltmaq üçün, nadanlar ləkələmək üçün. Sonuncular ədəbiyyat törtöküntüləridir, onların ya ədəbiyyatda, ya da həyatda bəxtləri gətirməyib.

Əvəzolunmaz şəxs yoxdur, təbii, ancaq dostlar, qardaşlar, sabah Anar getsə və kimlərsə Yazıçılar Birliyinin binasını alıb, yazarları pərən-pərən salsa, bunun məsuliyyətini kim daşıyacaq?

Məncə, Anara yerli-yersiz hücumların bir neçə səbəbi var. Ən yumşaq və zərərsiz səbəb ondan ibarətdi ki, hələ də xalq və onun nisbətən fəal nümayəndələri Anara ümid yeri kimi baxır, ölkənin başını qara buludlar alanda, problemlər çoxalanda o yada düşür, çünki uman yerdən küsərlər və bəzən Anarın qınaq hədəfinə çevrilməsi, tənqid olunması bununla bağlıdır. Bayaq dediyim kimi, bu, xoşməramlı tənqid, yaxud umacaqdır. Məsələn, pul kisəsini itirmiş bir rus qadını Anarın yanına gəlib istəyir ki, Anar müəllim göstəriş versin və bu zavallının itiyi tapılsın, Anar da bu dünyada nələr baş verdiyindən xəbərdar olduğundan təəccüblənmir, həmin qadının itirdiyi pulu cibindən ödəməyə məcbur olur, çünki ümidləri öldürmək olmaz.

Anara hücumlar bununla məhdudlaşmır axı, daha qara və bəd niyyətlər var. Kimlərsə onu hər addımbaşı alçaltmaq, ona ləkə yaxmaq istəyir və ondan əl çəkmirlər.

Anarsız Azərbaycan ədəbiyyatı və mədəniyyəti çox kasıb görünərdi. Lakin siyasətdə olduğu kimi, ədəbiyyatda da törtöküntülər var ki, onlar bu ölkəni fəlakətə sürükləyirlər. Onlar üçün nə milli dəyərlər, nə ənənələr qiymətlidi. Onlar öz xəbis eqolarının naminə vətəni də, xalqı da, onun ziyalısını da keçi qiymətinə satarlar. Özü də bunlar əsasən bizim yaşıdlarımızdır. Bu cür adamlarla biz hara gedirik, nə qururuq, mən bilmirəm.

Elçin Hüseynbəyli.
«525-ci qəzet», 3 sentyabr, 2005

Divdən can qurtarmağın yolları

(Anarın «Ağ qoç, qara qoç» əsərini oxuyarkən)

Hələ ki bu yazını qələmə almağa əsas və bəhanə vermiş «Ağ qoç, qara qoç» povest və Anara haqsız hücumlara münasibətlə başlamaq istəyirəm.

Son dövrün olayları, Anara qarşı haqsız hücumlar (haqlı iradlar öz yerində), ona qarşı ədalətsizlik, millətimizin, ziyalılarımızın taleyinə bu cür səriştəsiz, bəzən isə qərəzli yanaşma bir çoxları kimi, məni də cırnatmaya bilməzdi. Və Anar haqqında artıq bir tələbə kimi yox, əli qələm tuta bilən bir yazar kimi indi söz demək istəyi duydum. Ölkənin tanınmış ziyalısı, ictimai-siyasi, mədəniyyət xadimi, hər şeydən öncə isə yazıçısı kimi Anarın bu sözləri eşitməyə və oxumağa tam haqqı çatır və mən onun barəsində söz demək ixtiyarında olduğuma görə qürur duyuram, bir zamanlar qibtə etdiyim yazarla üzbəüz oturub söz demək səlahiyyəti qazandığıma görə də özümü məmnun sayıram.

«Ağ qoç, qara qoç» povesti haqqında bir para qeydlərimi sizinlə bölüşdükdən sonra əsl mahiyyətə varmağa çalışacam.

Mənə elə gəlir ki, (bəlkə də bu həqiqəti hamı başa düşür) Anar bu əsəri yazarkən uzun illərdən bəri Azərbaycan cəmiyyətində gedən proseslərə öz etirazını bildirməklə yanaşı, ziyalılarımızı, siyasətçilərimizi, xalqa dərs demək, ona yol göstərmək iddiasıda olan insanların gözünü açmağa səy göstərib və buna nail olub.

Postmodern üslubda qələmə alınmış (söhbət şərti, dekonstruktiv «postmodern-dən» gedir, əslində isə onun kökü hələ «Molla Nəsrəddin-66»ya və «Adamın adamı» kimi əsərlərə gedib çıxır) birinci nağıl utopik bir cəmiyyət barədədir. İkinci nağıl artıq utopiya deyil, reallığa xeyli yaxındır. Bu nağıl yox, absurd, yaxud sürrealist cizgilərlə cızılan, Azərbaycanın portretidir. Azərbaycan ziyalısı fars, rus, amerikameylli qüvvələrin arasında qalıb, çıxış yolunu axtarır, ancaq tapa bilmir. Şübhəsiz, nağıllara inanmayan insan həm keçmişindən, həm gələcəyindən məhrumdur. Çünki nağıllar gen yaddaşımızın daşıyıcılarıdır və keçmişi xatırlamadan irəli getmək olmaz. Anar bu günün reallığını acı həqiqət kimi oxucuya çatdırmağa çalışır. Əgər belə getsə, Azərbaycan doğurdan real olaraq üç zonaya bölünəcək. Bayaq dediyim kimi artıq bunun işartıları görünməkdədir və bu acınacaqlıdır.

Fəhmi, duyumu olan adam üçün bu əsərdən nəticə çıxarmaq elə də çətin deyil.

Anarın Azərbaycan ədəbiyyatının latın əlifbasına, Tərcümə Mərkəzinin dövlət büdcəsinə keçirilməsində əməyini də bütün bunların üstünə gəlsək, onun xidmətlərini dananları başa düşmək qəlizləşir. Halbuki onun ötən ilin noyabrında parlamentdə çıxışı (Sabir Rüstəmxanlının da ona dəstəyini xatırlayaq), eləcə də digər sərt açıqlamaları bu məsələlərin gerçəkləşməsinə az rol oynamadı.

İndi isə Anarın «Beşmərtəbəli evin altıncı mərtəbəsi» əsərilə bağlı təxminən 20 il bundan əvvəl qələmə aldığım təssürat qeydlərini oxuculara təqdim edirəm.

Anarın Təhminəsi və mən

«Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanını oxudum. Həyəcandan ürəyimin səsini eşidirəm. Neçə gündür siqareti tərgitmişdim, ancaq indi «dəli bir ehtirasla» siqaretin tüstüsünü ciyərimə çəkirəm. Hiss edirəm ki, əllərim əsir və bu saat düşüncələrimi bu ağ vərəqlər üstünə elə tez səpmək istəyirəm ki...

Təhminənin ölümü qədər həyatımda mənə təsir edəsi bir şey olmayıb. Təhminə nə qədər yazıqdır. Bu, Anarın Təhminəsidir. Onun tapıntısıdır. Bu, bir yox, iki Təhminədir. Daxili və zahiri Təhminə. Daxili Təhminə nə qədər təmizdir, ülvidir. Zahiri Təhminə bizə fahişə təsiri bağışlayır. Ancaq hər bir halda mən onu sevirəm. Xüsusən Təhminənin keçirdiyi son günlər, onun həyəcanları, onun əzabları, daxili kədəri, qəmi, dərdi nə qədər bəşəridir. Hələ Zaur, onun sevgisi! Zaur Təhminəni sevirdi və yalnız sevən adam onu başa düşə bilər. Təhminənin ölüm xəbərini eşidəndə Zaur nələr fikirləşmir. Duyduğu ayrılıq hissi – əbədi ayrıllıq hissi necə də dəhşətlidir. Mən təsəvvür edirəm ki, Zaur onda hansı vəziyyətə düşüb. Şok vəziyyətinə. Yaxşı ki, o ölməyib, ürəyi partlamayıb.

Təhminə qeyri-adi bir qadındır. O, əbədiyyət dünyasına həmişəlik əlvida dedi. Küsdü bu həyatdan, birdəfəlik küsdü. Üsyan elədi yaşadığı mühitə, gözlərində apardı nifrəti, kədəri, sevinci və yeganə məhəbbətini.

Anarın Təhminəsi – Zaurun Təhminəsi, oxucunun Təhminəsi və mənim Təhminəm.

Elçin Hüseynbəyli.
«525-ci qəzet», 23 yanvar, 2004

«Ağ qoç, qara qoç»

«Ağ qoç, qara qoç»da Azərbaycanın gələcəyi tamamilə iki fərqli yöndə, proseslərdən asılı olaraq ən müxtəlif, bir-birinə əks qatlarda təsvir edilir.

Əsəri oxuyandan dərhal sonra məndə belə bir fikir yarandı ki, ölkəmiz üçün çox əhəmiyyətli və həssas bir məqamda Anar müəllimin lap bu yaxınlarda tamamladığı əsərini məmnuniyyətlə çap eləmək lazımdır. Ziyalılarımızı biganəlikdə, laqeydlikdə ittihamlayanların günü-gündən artıb-çoxaldığı bir vaxtda Anar müəllim bir hücrəyə çəkilib vaxtını məhz bu əsəri yazmağa həsr eləyib. Fikrimcə, bu elə ən böyük vətəndaşlıq mövqeyi, ən ciddi ziyalı missiyasıdır. Bu əsər həm də çağırışdır – ölkənin gələcəyinə laqeyd yanaşmayan, taleyinə biganə qala bilməyən ziyalı-vətəndaşın çağırışıdır, Azərbaycan ziyalısını ittihamlayanların da, hakimiyyətə susayanların da, hər şeyə biganələrin də eşitməsi, dərk etməsi vacib olan bir çağırış! Və fikrimcə, məhz indi – bədii yazılara marağın azaldığı bir vaxtda diqqəti bu əsərə yönəltməyə, ictimai fikri istər siyasətçiləri, istərsə də sadə adamları düşündürə biləcək bir əsərin mütaliəsinə sövq etməyə böyük ehtiyac var.

Rəşad Məscid.
«525-ci qəzet», 13 sentyabr, 2003

Modern Azərbaycan və «fikir babaları»

Əlli milyonluq Azərbaycan xalqının yalnız səkkiz milyonu Azərbaycan Respublikasında yaşayır və onları bir amal uğrunda birləşdirəcək ideologiya hava, su kimi vacibdir. İdeologiyanı isə ideya adamları yaradır və Anar ideya adamlarından biridir. Anarın elə bədii yaradıcılığı da Azərbaycançılıq ideyasına xidmət edir. Amma bu ideya sistemli şəkildə «Azərbaycançılıq haqqında düşüncələr» və «Ağ qoç, qara qoç» əsərlərində ortaya çıxdı. Mən bu əsərlər barədə «Anarın Azərbaycanı» məqaləsində yazdığım üçün onların üzərində çox dayanmayacağam. Mən də gələcək Azərbaycanı Anarın gördüyü kimi görmək istəyirəm: sivil, qüdrətli türk Azərbaycanı kimi. Xüsusən, kosmopolit sifətli Bakının Anarın «türk Bakısına» çevriləcəyi günü gözləyirəm. Bizim Anarla birgə yaratdığımız Mahmud Kasğari fondu bu amala xidmət edir.

Elxan Zal Qaraxanlı.
«525-ci qəzet», 9 may 2008

Anarın Azərbaycanı

Anarın ictimai-siyasi xadim olaraq göstərdiyi fəaliyyət ölkədəki mənəvi-mədəni situasiyanı təbii axarına yönəltməyə imkan verdi və o, AYB kimi nəhəng bir qurumun monolitliyini saxlamaqla, xaricdən və daxildən düzənlənən mənəvi ekspansiyanın önünə sipər çəkə bildi. Xüsusən Azərbaycan–Türkiyə ilişgilərinin dərinləşməsində Anarın göstərdiyi qeyrət əvəzsizdir. Bütün bunlar böyük zəhmət və vaxt itkisi hesabına başa gəlib və onun yaradıcılığında təsirsiz ötüşməyib. Çağdaş türk ziyalılığının ən xarizmatik fiqurlarından olması və ölkədə milli-mənəvi irsin əsəs qoruyucsu funksiyasını daşıması onu daima antimilli güc sahiblərinin hücumuna məruz qoyur.

Anarın «Ağ qoç, qara qoç» əsəri belə bir şəraitdə yazılıb. Bu günlərdə Türkiyədə və Rumıniyada çap olunmuş bu əsər Anar yaradıcılıgının məntiqi davamıdır. Bəlkə də zirvəsidir. Anarın əsərdən-əsərə formulaşdırmaq istədiyi Azərbaycançılıq ideyası bu əsərdə həllini tapıb. «Ağ qoç, qara qoç» ədəbi əsər olmaqla bərabər, həm də ideoloji əsərdir. Onun unikallığı ideoloji olmasındadır. Əgər M.Ə.Rəsulzadə «Əsrimizin Səyavuşu» əsərində bugünkü Azərbaycanın dünyada yerini müəyyən etməyə çalışmışdırsa, Anarın «Ağ qoç, qara qoç»da təsvir etdiyi Azərbaycan gələcəyin Azərbaycanıdır.

Bu əsərə qədər Azərbaycanın bu gunü və gələcəyi barədə təsəvvurlər dumanlıydı. Sözün düzü, elə bu gün də dumanlı olaraq qalır.

Bəlkə də nə vaxtsa Birləşmiş Azərbaycanın parlamentini formalaşdıracaq insanlar «Ağ qoç, qara qoç» ruhunda böyüyən bir nəsil olacaq və kitabda gostərilən müddəaları qəbul edəcəkləri Ana Yasaya salacaqlar. Tomas Morun «Utopiya»sı müəyyən zaman keçəndən sonra insanların şüurunda elə bir inqilab yaratdı ki, cəmiyyət haqqında-

kı düşüncələrin axarı dəyişdi. Anarın «Ağ qoç, qara qoç»u belə bir utopiyadır. Böyük bir fikir adamın arzularıdır.

Elxan Zal.
«Ekspress» qəzeti, 6 may, 2005

Azərbaycanın Anarı

O, yazıçı kimi də, rejissor kimi də, redaktor kimi də, millət vəkili kimi də, Azərbaycan Yazıçılar Birliyinin sədri kimi də həmişə ictimaiyyətin diqqət mərkəzində olub. 20 ilə yaxın bir müddətdə AYB kimi bir quruma rəhbərlik edib və bu qurum öz mövcudluğu ilə Anara borcludur. Dünya şöhrətli yazıçılar, Oljas Suleymenov və Çingiz Aytmatov hər dəfə Azərbaycana gələndə onun bu xidmətini xüsusi qeyd edirlər və bütün MDB məkanına örnək olduğunu bildirirlər. SSRİ dağılanda mərkəzdənqaçma meyli cəmiyyətin bütün sahələrinə sirayət etmişdi və ölkələr kimi qurumlar da parçalanırdı. Rusiyada Yazıçılar Birliyi bir neçə yerə bölünəndən sonra AYB ətrafında da belə bir problem baş qaldırdı. Xüsusilə, Cəbhə hakimiyyəti dövründə AYB-nin bölünməsi problemi çox aktuallaşmışdı. Həmin vaxt Anarın yazıçı intuisiyası o an üçün ən doğru qərar qəbul etdi. O, sadəcə çıxıb Türkiyəyə getdi və müəyyən bir müddət gözləmə mövqeyi tutdu. Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Anarı Bakıya dəvət etdi və ondan Yazıçılar Birliyinin başında durmasını istədi.

Zəngin təcrübəyə malik dövlət adamı olan Heydər Əliyev hələlik bu vəzifədə Anarın əvəzedilməz olduğunu bildirir. Anarın «əvəzedilməzlər olmur» cavabına isə dahi rəhbər belə cavab verir: «Mən olmayanda gördünmü, ölkə nə kökə düşdü? Bax, sən olmayanda da Yazıçilar Birliyi o kökə düşəcək?» Sonra Heydər Əliyev Anarı özü ilə İtaliya səfərinə aparır və səfər boyu AYB-nin gələcəyini müzakirə etmək üçün yetərli imkan olur. Qayıdandan sonra prezident Heydər Əliyev AYB-nin və onun nəşrlərinin dövlət büdcəsindən maliyyələşməsi barədə sərəncam verir və bu amil qurumun bütövlüyünün saxlanması yolunda çox əhəmiyyətli bir addım kimi tarixə düşür. Bu qədər. Mən bu görüş barədə yazmaya bilərdim, amma son günlər mətbuatda Anar və AYB barədə o qədər yalançı məlumatlar oxumuşam ki, müəyyən məqamların açıqlanmasını zəruri hesab etdim.

Amma məni həmişə bir sual düşündürüb. Nəyə görə müəyyən qüvvələr hədəf kimi məhz Anarı seçib və bu prosesdə kifayət qədər KİV vasitəsi iştirak edir? Normal ölkələrdə belə hallara qarşı istər dövlət tərəfindən, istərsə də ictimaiyyət tərəfindən çox sərt təpki var. Amma bizdə hərə öz çulunu qoruyur, hətta Anarın ətrafı da. Ay cənablar, ay xanımlar, sənətkar milli sərvətdir, onun yaratdıqları da, şəxsiyyəti də yeri gələndə millətə məxsusdur.

Axı Anar sıradan birisi deyil. Onun əsərləri və filimləri ilə Azərbaycanda bütöv bir nəsil yetişib.

XX əsrin ikinci yarısından sonra dünyanın yazıçı elitasına daxil olan bir şəxsiyyətdir. Bugünkü yazıçı elitasının Anara hansı münasibətdə oldugu AYB-nın sonuncu qurultayında Nobel mükafatçısı Orxan Pamukun timsalında göründü. Öz çıxışlarında daha çox qalmaqallarla yadda qalan dünya şöhrətli «postmodernist» Anara xocası kimi müraciət etdi.

Milli mənəviyyatımızı qoruyanların başında bu gün məhz Anar dayanıb. Bu onun taleyidir və boynuna belə bir missiya düşüb. Əlbəttə, bu, çətin missiyadır, bu, beynəlxalq bir sindikatın hədəfi olmaq deməkdir. Ona qarşı bütün murdar vasitələrdən istifadə edilib. Atasına, anasına qarşı ən təhqiramiz ifadələr işlədilib. Nəzərə alsaq ki, Rəsul Rza da, Nigar Rəfibəyli də Azərbaycan ədəbiyyatında dərin iz qoymuş adamlardır, onlar tək Anara yox, millətə məxsusdular, onların hüququnu da millət və dövlət qorumalıdır.

Füzulinin, Nəsiminin, Xətainin, Mahmud Kaşqarinin, Mirzə Cəlilin, başqa dahilərimizin şərəfini qorumaq yalnız Anarın borcudur? Yaxşı, Anar onları qoruyur, buna görə mühafizəkardır, bəs Anarın özünü kim qorumalıdır? Hətta onun rəhbərlik etdiyi böyük bir infrastruktur seyrçi mövqeydə dayanıb.

Bu yazı dərc olunandan sonra yəqin ki, «dostlarım» haray-həşir salacaqlar ki, vay, Elxan Zal da Anara yaltaqlanır. İndidən deyirəm bilsinlər – mən az-az adamlardan biriyəm ki, Anar müəllim mənim üçün heç nə etməyib. Heç mənim buna ehtiyacım da yoxdur. Mən özümə yol açmağı və dolanmağı bacarıram. Amma mən fəxr edirəm ki, bu gün Anar kimi böyük bir şəxsiyyətin yanındayam. Mən Anar və Nizami Cəfərovu Azərbaycan xalqının mənəvi mürşidləri hesab edirəm. Onların düşməni, mənim düşmənimdir, onların düşməni bu millətin düşmənidir.

Elxan Zal Qaraxanlı.
«Ekspress» qəzeti, 13 mart 2008

Anar yaşadığı bütün hakimiyyətlər dövründə ədəbiyyatın cəmiyyətdəki az-çox mövqe və təəssübünü qoruyub saxlaya, istedadını həyatın bütün qütblərinə tuşlaya bilən ayıq yazıçıdı.

Qulu Ağsəs, şair
(«Oğuz eli» qəzetinin Anara həsr olunmuş xüsusi buraxılışı)

Anarı xüsusi təqdim etməyə ehtiyac olmadığından yalnız bunu qeyd etmək istəyirəm ki, Azərbaycan ədəbiyyatının 60-cılar nəslinin qeyri-rəsmi lideri olan məhz bu yazıçı təkcə o vaxtki prozanın estetik yönünü müəyyənləşdirmədi, həm də nəsrindəki formalaşdırdığı dili əgər belə ifadə etmək mümkündürsə, ədəbi azərbaycanın etalonuna çevirdi. Bu dil kökünü, bəzən isə lüğət tərkibindəki sözlərin etimologiyasını «Dədə Qorqud» dastanından və Azərbaycan nəsrinin eyni zamanda Qoqol və Çexov funksiyasını birlikdə həyata keçirən ölməz Cəlil Məmmədquluzadədən götürürdü. Bu dil mə-

həlli sözlər və ləhcələrdən uzaqdı, mütəfəkkir dili idi. Elə «Ağ qoç, qara qoç» povesti – bu dildə yazılmışdı. Mənə görə bu əsər çağdaş Azərbaycan tarixində kənar və sıradan müşahidəçi olmayan bir adamın-mütəfəkkir yazıçı və ictimai xadimin ölkəsi ilə bağlı arzu və narahatlığının bəhrəsi idi. Struktura baxımından əsər Azərbaycan milli bədii düşüncə tərzinin üç əsas qatı ilə bağlıdır və bunlar tarixən olduğu kimi əsərdə də iç-içədir: nağıl, dastan və yazılı ədəbiyyvat qatları – «Məlik Məmməd» nağılı, «Kitabi-Dədə Qorqud» dastanı və Cəlil Məmmədquluzadənin «Anamın kitabı» pyesi…

Səlim Babullaoğlu.
2007-ci ildə oktybarda Moskvada keçirilən «Postsovet məkanında problemlər və onların ədəbiyyatda əksi» mövzusunda seminarda çıxışından.
«Ulduz» jurnalı, №12, 2007

Yazıçılar Birliyinin gərək ki, axırıncıdan əvvəlki qurultayında Anar müəllim əlini stola vurub acıqla dedi: «Necə işləmişəm, elə də işləyəcəm!».

Sağ olsun, sözünün üstündə durdu. Necə işləmişdi, elə də işlədi.

Səməd Qaraçöp,
şair

Alimlər, tənqidçilər

Anarın hekayələri az müddətdə nəinki Sovet İttifaqında, hətta xaricdə də bir çoxlarının diqqətini cəlb etmişdir. Bunun səbəbi üzərində düşünəndə belə bir nəticəyə gəlmək olar ki, gənc istedad ədəbiyyata yeni bir təravət gətirir. Bu təravət milli keyfiyyətlərə malik olmaqla bərabər, bədii ədəbiyyatın ümumi inkişafı, taleyı ilə də bağlıdır. «Asqılıqda işləyən qadın» bizi nəinki yaxşı tanıyır, hətta bizimlə maraqlanır və dərdimizi də çəkir. Bu hekayə Anarın ilk əsərlərindəndir. Bahar mücdəsi gətirən bir hekayədir. «Dantenin yubileyi» bir az sonra yazılmışdır. Buradakı Feyzulla Kəbirlinski ilə sanki biz çoxdan tanışıq. Bu sadə və adi insan mürəkkəb bir varlığdır. «Dantenin yubileyi» hekayəsinin bədii təsiri çox güclüdür. Onun gücü həssaslıqla insan ruhuna dalmaqda, səmimi hümanizmdədir. «Mən, sən, o və telefon» hekayəsində zarafat donüb çox güclü və təsirli bir hadisəyə, bir nağıla, əfsanəyə çevrilir, insan qəlbinin hələ sağalmamış yaralarına toxunur, bakir duyğular, təmiz hislər doğurur. Anarı tanımayan oxucu onun çox gənc. olmasına inanmaz. Çünki, əvvəlan onun toxunduğu məsələlər ancaq zəngin həyat təcrübəsinə malık olan ədibin qələmindən çıxa bilər. İkinci, Anar gənclərdən yazmaqla bərabər yaşlılardan, atalardan, analardan da yazır, qocaların da xarakterini ustalıqla təsvir edir. «Keçən ilin son gecəsin»də Həmidə xalanın bədii surətini müəllif nə qədər canlı və təbii verə bilmişdir. Həyatı həssaslıqla, məhəbbətlə müşahidə etmək, insaı taleyi haqqında əsl bir insanpərvər kimi ciddi və səmimi düşünmək – bu sifətlər Anarı yaşın-

dan böyük göstərir. Bu cəhətdən «Zəncir» hekayəsi öz ideya məzmunu və orijinal forması ilə kamil bir əsərdir. Hekayə ictimai həyatımızda özünə yer tapan cıddi nöqsanlardan birini klassik deyilə biləcək bədii üsulla ümumiləşdirmişdir... Anar istedadlı bir yazıçıdır, onun qüvvətli qələmi daha qüvvətli əsərlər yazmağa qadirdir.

Məmməd Arif

Anar Dədə Qorqud abidəsində irəli sürülən əsas ideyanı düzgün dərk etmiş, Dədə Qorqud adı ilə bağlı tədqiqatlara yaxından bələd olmuş, istedadlı bir yazıçı olduğundan öz ssenarisində bu çətin vəzifənin öhdəsindən müvəffəqiyyətlə gələ bilmişdir. Qorqud ata haqqında saysız-hesabsız əfsanələr yaranmışdır. Lakin bu müdrik insanın obrazı ilk dəfə olaraq ekrana gəlmişdir. Son dərəcə istedadlı yazıçı Anarın ssenarisi əsasında çəkilmiş bu film Azərbaycanda baş verən tarixi hadisələri filosof Dədə Qorqud təhkiyəsiylə, orijinal bir şəkildə tamaşaçıya çatdırır. Mən «Dədə Qorqud» filmini C.Cabbarlı adına Azərbaycanfilm kinostudiyasının böyük müvəffəqiyyəti hesab edir, onun ölkəmizin hüdudlarından xaricdə belə geniş tamaşaçı kütləsi tərəfindən məhəbbətlə qarşılanacağına inanıram.

Həmid Araslı

Ədəbi qeydlər

Hekayəçilikdə oricinal olmaq yeni bədii ifadə üsulları tapmağa alışan başqa bir gənc nasir – Anar hekayələrində şəxsiyyatlərin psixologiyasını əmək fəaliyyətindən və ictimai əlaqələrdən təcrid etməyə daha çox meyl göstərir. Anarın «Taksi və vaxt», «Asqılıqda işləyən qadının söhbəti» hekayələrində psixoloci hallar və onları doğurən səbəblər havadan asılı qalır, insanlarda müxtəlif əhval-ruhiyyə, əxlaq, mənəviyyat və sair yaradan real zəmin oxucu üçün bir sirrə çevrilir. Sanki gənc müəllif real zəmanəni göstərməyə cəsarət etmir. Anar rəmzə, simvola da müraciət edir.

Ədəbiyyatda, yaxşı mənada, psixologizm əhəmiyyətlidir və zəruridir. Lakin bu şərtlə ki, bu və ya başqa bir şəxsi psixologiyanı yaradan real şərait oxucu üçün qaranlıq qalmasın. Çox açıq hiss olunur ki, bəzi gənc nasirlər, o cümlədən də Anar, psixoloci halları yaradan bu real şəraiti təsvir etməyi bir o qədər də əhəmiyyətli hesab etmirlər. Açıq hiss olunur ki, onlar sənətdən, ədəbiyyatdan xəbərsiz olduqları üçün deyil, şüurlu surətdə belə hərəkət edirlər. Bu, düzgün yoldurmu? Bu suala aydın cavab verməliyik.

Gənc nasirlər nə üçün mücərrəd psixologizmə, simvola, rəmzə meyl göstərirlər? Bunun səbəbi vardır: müəyyən illərdə bizim bəzi nəsr əsərlərimizdə əmək prosesini, istehsalatı birinci planda, insanları isə ikinci planda göstərmək kimi ifrat bir meyl əmələ gəlmişdi. Bu meyl yersiz detallara, əhvalatçılığa aparıb çıxarırdı. İnsanlar, insan mənəviyyatı, maşınların kölgəsində görünməz olurdu. Bizə elə gəlir ki, gənc nasirlər bu

nöqsanı təkrar etməmək uçün yeni təsvir usulları, vasitələri axtarmaq istəmiş və bu axtarış yollarında özləri də ikinci bir ifrata yol vermişlər ki, bu da insanı əmək prosesindən, əmək fəaliyyətindən və ictimai-iqtisadi münasibətlərdən təcrid edən mücərrəd psixologizmə meyl yaratmışdır.

M.C.Cəfərov.
«Ədəbiyyat və incəsənət», 28 iyul, 1962

Elmi mübahisə dəlil və sübut tələb edir

Anarın bu məqaləsində ötəri şəkildə bu tezisdən birinin (ədəbiyyatlarımızda sosializm realizmin yaranmasında demokratik tənqidi realizm mərhələsinin əhəmiyyəti haqqındakı fikri) bəyənilməsi tənqidçi Seyfulla Əsədullayevə xoş gəlməmişdir. Belə halda gözləmək olardı ki, Əsədullayev yoldaş bu bərədə özünün antitezisini irəli sürəcək, təzə fikir söyləyəcək və elmi mübahisəyə girişəcəkdir. Lakin o belə etməmiş, hansı bir niyyətlə isə qəribə bir personalizm üsulu ilə əsasız hücuma keçmiş və Anarı «plyuralizm» konsepsiyasının təbliğatçısı», başqa sözlə – dialektik və tarixi materializmə tamamilə zidd olan, varlığın obyektivliyini inkar edən idealist bir fəlsəfi konsepsiyanın müdafiəçisi və güya sovet incəsənəti və ədəbiyyatında bir-birinə zidd məfkurələrin, bir-birinə zidd yaradıcılıq metodlarının yanaşı yaşamasının mümkün olduğunu qəbul edən bir nəzəriyyəçi adlandırmışdır.

Sübutsuz, dəlilsiz tənqidə elmi mübahisə də demək olmaz.

Əgər S.Əsədullayev yoldaşın bu xüsusda təzə fikri, nəzəriyyəsi varsa, heç şübhə yox ki, ədəbi ictimayyətimiz həvəslə həmin fikirləri öyrənib, öz münasibətini bildirər.

M.Cəfər.
«Ədəbiyyat və incəsənət», 19 avqust, 1972

«Adamın adamı» əsərinin tamaşası ilə biz Anarla komediya müəllifi kimi də üzüzə gəlir, onun bu yeni yaradıcılıq müvəffəqiyyətinə sevinirik. Anar ümumiyyətlə müasir həyata müdaxilə edən yazıçılardandır. «Adamın adamı» komediyası ilə onun yaradıcılığının bu xüsusiyyəti yeni bir vüsət almışdır. Müəllifin gülüşü bir qədər tünd və mübaliğəli görünsə də, real və inandırıcıdır. «Əyrizadələrlə» mübarizədə güzəştə, yumşaqlığa yetmək yaramaz.

Abbas Zamanov

Anarın hekayə və povsetləri həmişə maraqla qarşılanır. Bu istedadlı nasirin qələmindən çıxanlar asan, hətta deyərdim ki, «bir nəfəsə» oxunur, amma unudulmur, uzun müddət düşündürür. Anarın qələmə aldığı materail da, yazı üslubu da özünəməxsusdur.

«Ağ liman» «Böyük müəllimim Cəlil Məmməlquluzadənin əziz xatirəsinə ithaf edirəm» – sözləri ilə başlanır. Bu, mənalı bir ithafdır. Təkcə ona görə yox ki, qüdrətli sənətkarın adı ilə bağlı mütərəqqi ənənələrin müasir nəsrimizdə yaralıcılıqla davam etdirildiyini göstərir. Bir də ona görə ki, müəllifin mənəvi qida mənbələrindən birinə işarədir. Anar, hər şeydən əvvəl, bu mübariz ədibin həyata fəal , geriliyin hər cür təzahürlərinə qarqşı barışmaz prinsipiallığından öyrənir. Povestin bu amillərlə müəyynləşmiş özünəməxsusluğunu nəzərə almadan, onu düzgün qiymətləndirmək olmaz. «Ağ liman»dan sonra Anarın çap etdirdiyi hekayələr, xüsusilə «Molla Nəsrəddin – 66» əsəri təsdiq edir ki, o, doğru yoldadır, inamla irəliləyir, inadla axtarır,

Yəhya Seyidov.
«Ümid limanına doğru».
«Ədəbiyyat və incəsənət» qəzeti, 19 dekabr, 1970

Azərbaycan sovet nəsri

Bu yaxınlarda akademik M.Arif Anarın yaradıcılığı haqqında maraqlı bir məqalə ilə çıxış etmişdir və bizim fikrimizcə, o gənc yazıçının yaradıcılığının həm mənfi, həm də müsbət tərəflərini çox obyektivliklə qiymətləndirmişdir. Ancaq mən onu qeyd etmək istərdim ki, Anarın qəhrəmanları həyata elə bil əyri güzgüdən baxırlar. «Ağ liman» povestinin qəhrəmanlar aləmi tamamilə deformasiya və qallyutsinasiyalardan ibarətdir. Onların həyatı yuxu ilə real varlıq arasında cərəyan edir. Yuxuda onlar uzun növbələr, zolaqlı pirjamalar və şlaqbaumlar görürlər, həyatda isə Məmməd Nəsir daim sərxoşdur, idarədə tək-tənha oturub özü ilə nərd oynayır, Səftər gündüzlər rəqəmlər qallyutsinasiya aləmindədir, gecələr isə mənzildə öz telefonu ilə öz nömrəsini yığıb özü ilə danışmaq istəyir. Nemət isə gecə saat dörddə Təhminəyə zəng edib onun gözlərinin rəngini soruşur. Maqnitofon əhvalatı isə həyatın mənasızlığına, bekarçılığına eyhamlardır. Anarın əsərlərindəki bütün qəhrəmanlar, artistlər də daxil olmaqla («Dantenin yubileyi») çox kobud ləhcədə danışırlar, adi sözləri lorulaşdırırlar.

Seyfulla Əsədullayev.
«Ədəbiyyat və incəsənət», 5 iyun, 1971

«Beşmərtəbəlit evin altıncı mərtəbəsi» romanında oxucu yenidən Anarın əvvəlki «Çevrə» (*«Ağ liman»* – ***red.***) povestinin qəhrəmanları Təhminə və Zaurla rastlaşır. Əsərin bütün on səkkiz fəslində onlar məhəbbət əyləncələriylə məşğuldurlar. Anarın qəhramanlarını məişətçilik, xırdaçılıq, həqiqi vətəndaşlıq hisslərindən uzaqlıq səciyyələndirir.

Akademik Məmməd Arif Anar haqqında maraqlı məqaləylə çıxış edib, onun uğurlarıyla bərabər ciddi nöqsanlarınnı da üzə çıxardı.

*(Məmməd Arif məqaləsində Anarın yaradıcılığını yüksək qiymətləndirir və onu haqsız hücumlardan (adını çəkməsə də o cümlədən S.Əsədullayev kimi tənqidçilərdən müdafiə edirdi – **red.**)*

Anarın qəhrəmanlarının ömürlərində heç bir işıqlı, ülvi şey yoxdur.

Anarın «Əlaqə» povestində də məqsəd aydın deyil.

Sərbəst şeirə üstünlük verən Rəsul Rzanı çoxları az qala Azərbaycan şerində yeganə novator sayırlar. Amma onun bir çox «novator» şeirləri yalnız ənənəvi ritm və qafiyələrdən deyil, poetik məzmundan və poetik fikirdən də məhrumdur. Bu cür eksperimentçilik ciddi ideya-bədii qüsurlardan xali deyil. Bu gün də bəzi cavan şairlər «novator» adı çıxarmaq naminə Rəsul Rzanın manerasını yamsılayırlar. Bu isə ciddi ideya-bədii qüsurlara gətirib çıxarır. Bunun bariz nümunəsi gənc şair Vaqif Vəkilovun «Yoldan teleqram» adlı şeir kitabıdır.

Bizim bəzi yazçılar bü tənqidlərdən ciddi nəticə çıxarmaq yerinə tənqidimizi emosional və analitik deyə iki yerə ayırırlar. Anarın «Literaturnaya qazeta»da dərc olunumuş məqaləsi bunun örnəyidir. Bu məqalə diqqətimizi onunla çəkdi ki, müəllif özünü reklamla məşğuldur. O, «öz evində» tənqidə məruz qalan yazıçıların Ümumittifaq tənqidi tərəfindən rəğbətlə qarşılanmasını iddia edərkən ilk növbədə özünü nəzərdə tutur. O, vaxtilə onu tənqid edənlərin üzərinə amansızcasına hücum çəkir. Onu isə ideya-bədii qüsurlarına, estetik idealının qeyri-müyəyənliyinə, sovet adamlarının məişətinin təsvirində naturilastik meyllərə, qəhrəmansızlaşmaya, meşşan düşüncələrinin poetikləşdirməsinə, həyatımızın absurdluğunu, varlığın mənasızlığını iddia etdiyinə görə haqlı tənqid edirdik. Bu məqalədə Anarın nəzəri baxışları bizim tənqidə zərbə vura bilər, sovet ədəbiyyatında müxtəlif metodların olması kimi zərərli fikrə təkan verə bilər. Bu revizionist meyllərə lazımı cavab vermək lazımdır.

Seyfulla Əsədullayev.
«Эстетический идеал и социальная активность писателя»
(«Estetik ideal və yazıçının sosial fəallığı») kitabından.
Bakı, Yazıçı nəşriyyatı, 1982

*(**Anarın şərhi.** «Literaturnaya qazeta»da (10 noyabr, 1971) çap edilmiş və S.Əsədəllayevin qəzəbinə səbəb olan «Размышление над шкалой ценностей», «(Qiymət cədvəli haqqında düşüncələr») məqaləsində belə abzaslar vardı: Məqalələrinin birində Asif Əfəndiyev haqlı olaraq iddia edirdi ki, tənqid poetik olmalıdır. Amma bu doğru fikirdən o, özü üçün qəribə bir nəticə çıxardı: məqalələrini qafiyələməyə başladı. Başqa bir tənqdiçimiz Seyfulla Əsədullayev məqalələrində belə patetik ritorika yoxdur, hər şey çox sadə, bəsit və payız yağışı kimi yeknəsəkdir. Əgər A.Əfəndiyev gənc yazıçılara ironiya və istehzasını əsirgəmirsə, S.Əsədullayev adlı-sanlı, vəzifəli yazıçılara mədhiyyələr söyləməkdən usanmır. S.Əsədllayevin yazılarında başqa bir qüsur da ondan ibarətdir ki, özünün uydurduğu bir fikri kiminsə adına yazır, sonra bu fikri tənqid etməyə*

başlayır. Belə tənqidi fəaliyyəti vaxtilə Məmməd Cəfər Cəfərov və başqaları tərəfindən ifşa olunmsuşdu.

***Redaktordan**: Bu barədə bax Məmməd Cəfər Cəfərovun elə bu kitabda dərc olunmuş fikrinə. Anarın Yazıçılar İttifaqına rəhbər seçiləndən sonra ilk məruzəsindəki sözləri də burada gətirmək yerinə düşər: «Ədəbiyyat və incəsənət» qəzetində, «Azərbaycan» və «Ulduz» jurnallarında çoxdandır Asif Əfəndiyevin imzasına rast gəlmirik. Bilirsiniz ki, vaxtilə Asif Əfendiyev məni də, bir çox başqa yazıçılarımızı da kəskin tənqid etmişdir. Mən bu tənqidlə o vaxt da razı deyildim, indi də mübahisə etməyə hazıram. Amma Asif Əfəndiyevin ədəbiyyata öz baxışı var, öz mövqeyi olan və mövqeyini əsaslandırmağa çalışan tənqidçilərimizdəndir. Onun ədəbi prossesdən kənarada qalması, mətbuatımızda çap olunmaması düzgün deyil).*

«Dantenin yubileyi» povestinin müəllifi Anar rus oxucusuna «Çevrə (*«Ağ liman» –* ***red.***), «Əlaqə» povestləri, «Gürcü familiyası», «Mən, sən, o və telefon» və başqa hekayələriylə tanışdır. Onun ssenariləri əsasında bir sıra filmlər, o cümlədən maraqlı «Dədə Qorqud» filmi çəkilmişdir. «Dantenin yubileyi» və bəzi əsərləri xaricdə də nəşr olunmuşdur.

Müasir Azərbaycan ədəbiyyatı inkişafının yeni mərhələsinə qədəm qoymuşdur və bu ilk növbədə İ.Şıxlı, S.Qədirzadə, İ.Hüseynov, Anar, M. və R.İbrahimbəyov qardaşları, Ə.Əylisli, Elçin kimi istedadlı yazıçıların adlaıyrla bağlıdır.

Seyfulla Əsədullayev.
«Эстетический идеал и социальная активность писателя»
(«Estetik ideal və yazıçının sosial fəallığı») kitabında,
Bakı, Yazıçı nəşriyyatı, 1982

Ağ qoç, qara qoç

– Mən son prezident seçkiləri ərəfəsində «525-ci qəzet»də (16-27 sentyabr, 2003-cü il) Anarın «Ağ qoç, qara qoç» (utopik və antiutopik nağıllar) romanını oxudum. Nağıl üslubunda qələmə alınmış əsərdə Azərbaycan xalqının gələcək taleyinin iki bir-birinə zidd qütblərdə ola biləcəyi ideyası ifadə olunub.

Müəllif ömrü boyu yuxusuz gecələrdə düşüncəsində yaşatdığı, onunla nəfəs aldığı arzularını yaşının müdriklik çağında qələmə almış, onları oxucuları ilə bölüşmək qərarına gəlmiş, bu qədim diyar və xalq haqqında dolğun təsəvvür yaratmışdır. Oxucu bu nağılı qürur hissi ilə tamamlayır, bu hisslərlə yaşayır.

İkinci nağılda biz qorxunc bir dünyaya – qaranlıq aləmə düşürük

Ölkədə vətəndaş müharibəsi başlayıb, küçələrdə barrikadalar qurulub, Bakı üç bölgəyə ayrılıb: Behişti Badi–Kubə, Bakı Kommunası və Bakı Siti.

Mən mətbuatda Anara və başqa görkəmli ziyalılara qarşı etirazları ədalətsiz hesab edirəm. «Ağ qoç, qara qoç» əsəri bir daha Anamın daxili aləminə işıq salır, onun istək və arzularını ifadə edir.

Gəlin, özümüzə və özümüzünkülərə qarşı sərt olmayaq!

Yavuz Axundlu.
«525-ci qəzet», 17 dekabr, 2005

ANAR haqqında danışmaq təkcə ədəbi-bədii proseslərdən söz açmaq deyil, millət, vicdan, Vətən sevgisi, milli qeyrət və taleyimizlə bağlı olmuşlardan və olacaqlardan bəhs etmək deməkdir.

İmamverdi Əbilov

«Kitabi-Dədəm Qorqud» motivləri əsasında Azərbaycan yazıçısı Anar «Dədə Qorqud» adlı povest yazmışdır. Povestini elə qurmuşdur ki, burada qədim abidənin demək olar ki, bütün süjetləri, süjet xətləri, epizodları və hətta ayrı-ayrı motivləri işıqlandırılmışdır. Bununla bərabər povest tamamilə orijinal əsərdir. İlk mənbədəki müxtəlif sujetli dastanlarından bitkin kompozisiyalı əsər yaradarkən Anar böyük məharət göstərmişdir. Faktiki olaraq o, oğuzların epik tarixini ümumiləşdirmiş, onların başına gələnləri, nə sayaq və hansı ideallarla yaşadıqlarını bədii şəkildə mənalandırmışdır.

Xalıq Koroqlu.
filologiya elmləri doktoru

«Sizi deyib gəlmişəm...»

Cəlil Məmmədquluzadə «Molla Nəsrəddin» curnalının ilk nömrəsində həmvətənlərinə belə müraciət etmişdi – «Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!»

«Sizi deyib gəlmişəm...» – ürək yanğısı və kövrəkliklə deyilən bu sözlərdə qüvvətli bir inam və ümid vardı.

C.Məmmədquluzadə haqqında səhnə əsəri yazmaq bədii həlli çətin axtarışlar tələb edən yaradıcılıq vəzifəsidir. Ümumiyyətlə, uzun illərin təcrübəsi göstərir ki, böyük ədəbi şəxsiyyətlərin həyatına, fəaliyyətinə müraciət heç də həmişə nəticələnməmişdir.

Hiss olunur ki, mürəkkəb və çoxsahəli mövzunun dramaturci həllində Anar da böyük çətinliklərlə qarşılaşmışdır. Ancaq o, maraqlı bir üsula – əslində ədibin özünün faydalandığı bir üsula müraciət etmişdir: Molla Nəsrəddin» jurnalının bütün nömrələrinin ilk səhifəsində Molla əmi müxtəlif rəngli şəkillərdə təsvir olunan müasir məzmunlu əhvalatlara, hadisələrə istehza, kədər dolu nəzərlə tamaşa edir, şəkilaltı yazılarda isə onlara öz münasibətini bildirir. Pyesdə də biz C.Məmmədquluzadəni hadisələrin bilavasitə

iştirakçısı kimi yox, hadisələri kənarda seyr edən, mənalandıran, onlara münasibət bildirən personaj kimi görürük.

«Sizi deyib gəlmişəm…» janr etibarı ilə sənədli-tarixi pyesdir. Janrın tələblərinə cavab vermək üçün maraqlı üsuldan istifadə olnmuşdur. Əsərin əksər personacları ədibin öz sözləri ilə danışırlar, başqa tarixi şəxsiyyətlər də eyni üsulla danışdırılır.

Kamal Talıbzadə.
«Ədəbiyyat və incəsənət», 5 noyabr, 1982

Səhnədə inqilabdan əvvəlki Azərbaycanın tragikomik mənzərələrini görürük. Azərbaycan Dövlət Akademik Dram Teatrında yeni tamaşa gedir – «Sizi deyib gəlmişəm». Müəllifi – Anardır. Qəribə olsa da faktdır: səhnədən Anarın öz mətni səslənmir. O tamaşaçıya qeyri-adi quruluşu olan ədəbi montac təqdim edir. Aktyorlar Azərbaycan ədəbiyyatının müxtəlif əsərlərindən parçaları ifa edir, onları yaradan yazıçılar isə pyesin qəhrəmanlarıdır. Çeşidli epizodları və sucet xətlərini maraqlı yaradıcılıq axtarışlar yoluyla üzvü surətdə əlaqələndirmək uğurlu nəticələr vermişdir.

Əziz Mirəhmədov.
«Sizi deyib gəlmişəm». «Pravda». 28 iyun, 1982-ci il

Həyat - yaradıcılıq çeşməsidir

Anar hekayələrində təzə ifadələr işlətməyə səy edir, başqalarından fərqlənməyə çalışır. Bədii yaradıcılıqda bu, yaxşı cəhətdir. Lakin həyatı, zəngin xalq dilini yaxşı bilməmək, dilin duzluluğunu, şirinliyini qavramamaq, onun hekayələrini bəzən təbiilikdən uzaqlaşdırır. Müəllif bəzən yeniliyi, novatorluğu yeni çıxan paltar modalarında, formada, yeməyi hansı ədalarla yeməkdə görür. «Keçən ilin son gecəsi» hekayəsində gənclərin yeni ili necə qarşılamasından söhbət gedir. Tofiq və onun dostları Həmidə xalanın bişirdiyi aşı deyil, «konservdən-zaddan» yeyirlər. Bu mənzərəni görən müəllif belə bir nəticəyə gəlir: «Doğrudan da aşı neyləyirlər? Onlar konserv yeyəcəklər və özlərini sərbəst, xoşbəxt hiss edəcəklər. Burada aş yeyəcəkdilər. Amma özlərini sərbəst hiss etməyəcəkdilər. Bir az yalandan gülüşüb erkən dağılacaqdılar. Həmidə xala düşünür: «Aş və konserv, keçmiş və gələcək, gənclik və qocalıq». Başa düşmək olmur ki, aş nə vaxtdan arxayık yeməklər sırasına keçib və nə üçün adam onu yeyəndə özünü xoşbəxt, sərbəst hiss etmir? Hələ bu da azdır. Nə vaxtdan bəri konserv sərbəstliyin, xoşbəxtliyin, gəncliyin, gələcəyin timsalına, aş isə bədbəxtliyin, yalançılığın, keçmişin, qocalığın və məhdudluğun rəmzinə çevrilmişdir. Müasirliyi səthi başa düşmək, onu bəsitləşdirmək, primitivləşdirmək müəllifin «Taksi və vaxt» hekayəsində də nəzərə çarpır. Burada müəllif Nərgiz haqqında yazır: «Çiyinləri çılpaq idi. O, müasir qızdı. Saçları gödək, danışıq, yaşayış, düşünüş tərzi müasir. Zövqü müasir, gülüşü müasir, şüuru müasir, geyimi müasir».

Həyatı dərindən bilməyəndə, eyni qeyri-təbiilik və sünilik dilə də keçir. Çünki dil fikrin, təfəkkürün ifadə tərzidir və həyatı bilmədən onun gözəlliyini, axıcılığını, poeziyasını, şirinliyini hifz eləmək mümkün deyildir. Anarın hekayələrində belə cümlə və ifadələrə tez-tez rast gəlmək olur.

Qulu Xəlilov.
«Həyat – yaradıcılıq seçməsidir» məqaləsindən.
«Azərbaycan gəncləri» qəzeti

Təbiilik əsas şərtdir

Dramaturq Anar «Şəhərin yay günləri» əsərinin əsasına çox adi, müasir həyati mətləblər qoymuşdur.

«Şəhərin yay günləri» tamaşasının ən uğurlu cəhəti bundadır ki, heç bir süni, qondarma, bayağı hadisə, lövhə, hərəkət gözə dəymir. Hadisələri əvvəldən axıra qədər maraqla izləməli olursan. Və hər şey sənə həyatdakı kimi çox adi, sadə, inandırıcı və təsirli görünür.

Qiyas – H.Turabov kişi nəfsini axıra qədər qoruyur və bəzən zarafata keçib romantik şəkildə arvadının qulağına «sırğalar» asır, boğazına «boyunbağı» bağlayır, qoluna «bilərzik» taxır. Qəzəblənəndə əyriliklə varlanan adamların rəzilliyinə gülür.

Qiyas sürəti ilə əlaqədar onun həyat yoldaşı Dilarəyə istedadlı səhnə ustası Şəfiqə Məmmədovanın ifasına nəzər salmaq maraqlıdır. Ş.Məmmədova adicə rola girmir, o yaşayır, yaşaya-yaşaya yaradır, yarada-yarada ifa edir. Bəzən onun sakit baxışlarında eyhamlı gülüşlərində, təbii təbəssümündə, qışqırtı və qəzəbində elə poetik, incə, dərin mənalar ifadə olunur ki, onu sözlə dəqiq təsvir etmək çətindir.

Teatrın yeni tamaşası, yaradıcı kollektivin bədii nailiyyəti sayılmalıdır.

Qulu Xəlilov

Bu baxımdan Anar daha çox fərqlənirdi. Yazıçı cəmiyyətimizin aparıcı, yaradıcı pafosunu təsdiq və təsbit etməklə bərabər bu «tiplərin» necə ustalıqla fəlakətlər yaratdıqlarını da gözdən qaçırmırdı. Həssas müşahidə, hər təbəqəyə «əl gəzdirmək» onun yaradıcılıq boyalarını artırdı və geniş vüsət almasına şərait yaratdı... Anar onu narahat edən fikirləri «Şəhərin yay günləri», «Beşmərtəbəli evin altıncı mərtəbəsi» kimi ciddi planda yazılmış pyes və romanlarda daha da dərinləşdirdi... Bu da maraqlıdır ki, təxminən on il bundan qabaq yazılmış «Ağ liman» povestində o qədər də qabarıq görünməyən Təhminə 1980-cı ildə çap olunan «Beş mərtəbəli evin altıncı mərtəbəsi» romanında əsas hadisələri özündə birləşdirən dönüş nöqtəsinə çevrilmişdir. Nə üçün?

Təhminəni bir qadın kimi xarakterizə edən əsas sifətlər səmimilik, hər şeyi açıq etiraf etmək, hər cür riyakarlıqdan, ikiüzlülükdən, paxıllıqdan, şöhrət və pulgirlikdən

uzaq olmasıdır... Təhminə kimi qadınları ümumiyyətlə əxlaqsız, pozğun demək olarmı? Qətiyyən! O, açıq-saçıqdır. Bu açıq-saçıqlığı da olmasa pozqunlar, pullular, əyyaşlar onu udarlar... Təhminələr dünyada bir həqiqət tanıyırlar – bu da qəlbin həqiqətidir. Ən böyük xoşbəxtliyi də bunda görürlər. Onların bədbəxtliklərinin də səbəbi elə buradan irəli gəlir. Həyat belələri üçün səadətdir. Bu səadətin mənbəyi isə içkinin təsirilə yaranan şəhvani öpüşlər, görüşlərdir... Bunu da qeyd edək ki, Anar təsvirlərində həmişə Təhminənin tərəfindədir, lakin müəllif onun bəzi nalayiq hərəkətlərinə də bəraət verəndə yazıçı ilə razılaşmaq çətindir.

Qulu Xəlilov.
«Həyatdan gələn səslər» kitabında.
Gənclik. Bakı. 1984

Azərbaycan ədəbiyyatının anar fenomeni

Allahın xoş saatda yaradıb böyük səxavətli, qüvvətli istedad əta etdiyi Anar klassik ədəbi irsimizlə sabahkı estetik fikrimiz arasında mötəbər mənəvi körpü kimi sözün müstəqim mənasında barmaqla sayılan qədər nadir sənətkarlarımızdan biridir. Axırıncı cildi 2006-cı ildə işıq üzü görmüş mükəmməl altıcildliyini bu məqaləni yazmaq ərəfəsində yenidən nəzərdən keçirərkən bir daha inandım ki, yubilyarımız ədəbi yaradıcılığın demək olar ki, bütün forma və janrlarında, həm müasir, həm də tarixi mövzularda, lakin həyatın və toplumun ən aktual mənəvi-əxlaqi problemlərini əks etdirən hekayə, povest, roman, pyes, ssenari, esse, məqalə, rəy, araşdırma, monoqrafiya tərtib və tərcümələri ilə XX əsrin son 40 ilinin, əsrimizin ilk onilliyinin Azərbaycan ədəbi-estetik xəzinəsini xeyli zənginləşdirmiş, onun beynəlxalq aləmdə tanınıb tədqiq olunmasının hüdudlarını əhəmiyyətli dərəcədə genişləndirmişdir.

Artıq hamı etiraf edir ki, Anarın və onun mənsub olduğu yazıçılar nəslinin fəaliyyəti ilə ədəbiyyatımızda yeni bir tarixi mərhələnin ədəbi-estetik dəyərləri, bədii-fəlsəfi meyar və prinsipləri formalaşmışdır.

Anar öz məqalələrində yalnız tənqidçi kimi yox, həm də ədəbiyyatşünas kimi, klassik və müasir ədəbiyyatımızın tarixi və nəzəri problemlərini araşdıran peşəkar bir ədəbiyyatşünas kimi də ardıcıl olaraq çıxış edir. O, Azərbaycan ədəbiyyatının nəhəng klassikləri Nizami, Nəsimi, Xətai, Füzuli haqqında maraqlı məqalələrin müəllifidir. Biz onun «Nizami bizimlədir, burdadır» məqaləsini, «Şairin hünəri» (Nəsimi), «Şairin zəfəri» (Xətai) və «Şairin kədəri» (Füzuli) silsilə məqalələrini burada xüsusi qeyd edə bilərik. Bu məqalələrdə Anar orta əsr Azərbaycan poeziyasının fikri-fəlsəfi və bədii konsepsiyasını, onun poetikasını təhlil etmişdir.

Anarın peşəkar ədəbiyyatşünaslıq araşdırmalarından biri onun «Dədə Qorqud dünyası» (1985) miniatür monoqrafiyasıdır. Bu əsərdə müəllif qədim milli eposumuzun mətninin dərin qatlarına nüfuz edərək dastanın bədii aləmini, ondakı insan xarakterlərinin zənginliyini və dolğunluğunu açıb göstərə bilmişdir.

Anarın bu qəbildən nəşr etdirdiyi digər yazılarında da yazıçı şəxsiyyəti, zaman və sənətkar problemi çox mühüm bir mövzunu, hətta belə demək olar ki, istiqaməti təşkil edir. Biz bunu deyərkən müəllifin «Sizsiz» (1983) və «Mübarizə bu gün da var» (2002) kimi hələlik son monoqrafiyalarını nəzərdə tuturuq. Bu əsərlərin hər ikisini Anar öz doğmalarına – Rəsul Rzaya və Nigar Rəfibəyliyə həsr etmişdir. Biz belə hesab edirik ki, bu əsərlərin hər ikisi həm tədqiqat materialı və baxışı cəhətdən, həm də janr cəhətdən yenidir. Bu əsərlərin janrı barədə bioqrafik monoqrafiya terminini işlətmək daha dəqiq və münasib olardı. Bu əsərlərdə hər iki şairə, onların həyat və yaradıcılıqlarına dair məlum fakt və sənədlərlə yanaşı, indiyədək elmimizə məlum olmayan, ilk dəfə məhz Anarın meydana qoyduğu çoxsaylı faktlar, sənədlər, hadisələr tədqiqata cəlb edilmişdir. Xüsusilə «Mübarizə bu gün də var» monoqrafiyasında R.Rza poeziyasının XX əsr ədəbiyyatında yeri, bədii, fəlsəfi, milli və vətəndaşlıq özəllikləri təhlil və tədqiq olunmuş, ötkəm sübut və dəlillərlə açılıb göstərilmişdir.

AMEA Nizami adına Ədəbiyyat institutunun elmi şurası bütün bu deyilənləri nəzərə alaraq özünün 14 mart 2008-ci il tarixli yığıncağında görkəmli Azərbaycan ədibi, xalq yazıçısı Anara «Nizami adına Ədəbiyyat İnstitutunun fəxri doktoru» adı verilməsi haqqında qərar qəbul etmişdir.

Həm 70 illik yubileyi, həm də bu təzə fəxri adı alması münasibəti ilə mən ölkəmizdə və xaricdə yüz minlərlə oxucusu olan yorulmaz ədibi bir daha ürəkdən təbrik edir, ona uzun ömür, möhkəm cansağlığı, böyük səadət arzu erlirəm.

Bəkir Nəbiyev.
«Ədəbiyyat» qəzeti, 18 aprel, 2008

Anarın çoxcəhətli yaradıcılığı yaxşı məlumdur. O, ədəbiyyatşünaslıq elminin vaxtı çatmış problemlərinin işlənməsi baxımından da ciddi əsərlər yaradır. «Gənclik» nəşriyyatı tərəfindən buraxılmış «Dünya bir pəncərədir» kitabı müəllifin fəaliyyətinin bu cəhəti haqqında xüsusilə aydın və konkret təsəvvür yaradır. Kitabdakı materialın təsnifatı və düzülüşü bütünlüklə ondan Azərbaycan haqqında tədqiqatın maraqlı bir nəticəsi kimi danışmağa imkan verir. «Dədə Qorqud» dastanını müəllif, hər şeydəi əvvəl, əsərin dilinə, məzmununa və şəkli xüsusiyyətlərinə əsaslanaraq, Azərbaycan xalqının yaradıcı duhasının ilk və o vaxtadək ən böyük ifadəsi sayır. Bu parlaq sənət incisində Anar xalqımızın yerini-yurdunu, sözünü-söhbətini, babaların zahiri görkəmlərini və adlarını, silahlarını və çalğı alətlərini... düşüncə tərzini və zövqünü bədii cəhətdən əbədilik təsbit olunmuş görür və şərh edir.

Dərin psixologizm pərdəsində qələmə alınmış «Sizsiz» qeyrətli, qədirşünas bir övladın vaxtsız itirdiyi əzizləri haqqında rekviyemidir, onun yara üstündən yara almış qəlbinin hıçqırıqlı ağrısıdır.

Bəkir Nəbiyev

Anar – iliyinədək milli ruhlu insandır, eyni zamanda bəşər oğludur, cünki varlığında Azərbaycan milli xarakterinin gözəl məziyyətləri cahan insanı cizgiləri ilə heyrətamiz ahəngdarlıqla qovuşur.

Anarın «Gecə düşüncələri»ni oxuyarkən bu qənaətə gəlirsən.

Qarşımızda tamamilə yeni, indiyədək görmədiymiz, bilmədiymiz bir Anar sürəti canlanır. Burada kövrək və həssas, sevən və nifrət edən, sentimental və ayıq, aşıq və qərarsız, istehzalı və tünd çalarlı, ümumiyyətlə isə dünyanın ən həlim insanını görürük!

Dərin yazıçı düşüncələri, əvvəllər kitabdan gələn, sadəlövh, tədricən mürəkkəbləşən, yetginləşən, uzun, çətin qazanılan həyat təcrübəsilə aşılanan və bizi təəccübləndirən, heyrətləndirən düşüncələr...

Tarix, keçmiş, gələcək, siyasət, din, tarixi-fəlsəfi, estetik fikirlər, ilgilənmələr...

«Gecə düşüncələri» – əsrin övladının etirafnaməsi, müəllifin söylədiyi kimi, «bu dünyada səmimiyətin mümkün olacaq dərəcəsində» öz-özüylə apardığı səmimi söhbəti, çox-cəhətl istedad sahibinin son həddə çatan könül açıqlığıdır…

Anar həqiqətən də insanın bir hadisə, əksər qismi suyun altında qalan aysberqə bənzər olduğunu təsdiqləyir. «Gecə düşüncələri»ndə aysberqin gizli qalan hissəsi görüntüyə gəlir. Axı indiyədək oxucu Anarı gözəl povestlər, hekayələr, dəyərli bədii filmlər, parlaq publisistika müəllifi, ictimai xadim, deputat, natiq, Yazıçılar Birliyinin sədri, son zamanlar isə bir şair kimi tanıyır, sevirdi.

Anarı sevirlər! Dostları, yaxınları, oxucuları sevir, xalq sevir! Çünki onun şəxsiyyətində Azərbaycan xalqının ən gözəl milli keyfiyyətləri və cəhətləri, həyatverici və yaradıcı əzmi uğurla təcəssüm olunmuşdur!

Gülrux Əlibəyli.
Tənqidçi, yazıçı, filologiya elmləri doktoru.
«Bakinski raboçiy», 14 mart, 1998

Anarın Azərbaycan Akademik Dram Teatrı səhnəsində tamaşaya qoyulmuş «Şəhərin yay günləri» əsəri həyatımızın ağrılı məsələlərinə, ictimayyətimizi narahat edən mühüm problemlərə toxunur. Bununla yanaşı, bu parlaq, özünəməxsus, çoxqatlı, polifonik bədii əsərdi. Burada həyatdakı neqativ hallar ifşa olunur, yüksək mənəviyyatın, bütövlük, güzəştsizlik, əxlaqi dönməzlik ideyasının təntənəsi ifadə edilir… Bu əsl sovet insanına xas olan məziyyətlərdi. Pyesin mərkəzində belə bir şəxsiyyətin olduqca canlı, təsirli, tipik obrazı durur. Anarın, Tofiq Kazımovun, rəssam Solmaz Haqverdiyevanın, tamaşaya həssas, ifadəli, maraqlı musiqi bəstələmiş Emin Sabitoğlunun, bütöv aktyor kollektivinin xidməti ondadır ki, yüksək və işıqlı idealların təntənəsi, etibar, nəciblik, məhəbbət üzərində qurulmuş pak və təmənnasız insan münasibətlərinin qüdrəti və gözəlliyi haqqında həqiqətlə yoğrulmuş əsər yarada bilmişlər.

Gülrux Əlibəyli.
«Bakinskiy raboçi», 19 yanvar, 1978

Qarabağda musiqini öldürürlər! Hər gün, hər saat, hər an Tanrının yaratdığı xalqa mənsub olan musiqini öldürürlər. Hər xalqın musiqisi isə onun qəlbidir!

Mən bu gün televizor qarşısında əyləşib Xocalının ölü balaları oxuduğu nəğmələri dinləyirəm. Anlayıram ki, on il əvvəl çəkilən, milli obrazımızın banisi Üzeyir Hacıbəyovun böyük hünərinə həsr olunmuş filmə baxıram. Bilirəm ki, filmdə yazıçı və dramaturq Anar yalnız bu unikal şəxsiyyətin yaradıcılığına, musiqisinə hədsiz məhəbbətini deyil, bütövlükdə musiqimizə, sənətimizə sevgisini ifadə etmişdir. Buna baxmayaraq, bir düşüncədən ayrıla bilmirəm ki, səs-səsə verən məhz güllələnmiş, əzilmiş, parçalanmış, amma yenə də ilahi, möcüzəvi qüdrətlə həyata qaytarılmış Xocalı uşaqlarıdır ki, vicdanımıza, insaniyyətimizə üz tutub fəryad qoparırlar: unutmayın, Xocalıda qətlə yetrilən yalnız biz deyilik, mələk səsli günahsız balalar deyil, burada xalqın qəlbini, musiqisini vəhşicəsinə məhv etməyə cəhd göstərmişlər! Anarın filmində «dirilən» qurbanlar, Xocalılar muğamat oxuyur, onların səsləri indi yırtıcı yağıların parçaladığı, əzdiyi, şikəst etdiyi Qarabağın füsünkar təbiəti ilə qovuşur.

Zənnimcə, Anarın «Uzun ömrün akkordları» filmi incəsənət tarixi salnaməsində, elə başlanğıc kadrlarında təcəssüm edilmiş dahiyanə tapılan ideya sayəsində – səfalı təbiətin intəhasız ənginlikləri, şəffaf bulaqlar, dərin dərələr, qədim ağacların yarpaq xışıltıları, pak, büllur, sehrli uşaq səsləri, – bir şah əsər kimi qalacaqdır.

Anar muğamı nəinki bilir, sevir, onu duyur və haqqında gözəl bəhs edir. Daha heç kəs bəhs edə bilmədiyi kimi: «Uzun karvan yolu kimi intəhasız, davamlı əsas ton bir kədərli və məsum səsin min naxışıyla süslənməsi və birdən birə bambaşqa emosional ovqata – rəngə – keçmə, oynaq havacat ritmləri, ürəkdən gələn lirik təsniflər, qəmlə sevincin, bəmlə zilin, şuxluqla toxdaqlığın, biçarəliklə ümidin ötüşməsi. Yalnız əsl müşaiyət ustası təcrübəsiz yeniyetmə xanəndəyə olmazınca yüksək xallardan aşağılara ehmal-ehmal, asta-asta, gözəllik, rəvanlıq qaydalarına riayət edərək enməkdə yardımçı ola bilər!»

Heyrətləndiricidir ki, bu sözlər filmdə elə gözəl, sərrast kinematoqrafik vasitələrlə ifadə olunmuşdur ki, bir dahinin yarandığı köklər, yenilikçi sənətin qaynaqları, ənənə xüsusiyyətləri, sənətkar heysiyyatının formalaşmasında təbiətin rolu və s. haqqında bütöv bir tədqiqatı əvəz edə bilərlər.

Gülrux Əlibəyli.
«Bakinski raboçiy», 1 aprel, 1992

Tanışlığımızın, dostluq-doğmalığımızın qırx illik tarixi olan Anarın «Qobustan» incəsənət toplusuna rəhbərlik etdiyi dövründə Moskva mehmanxanalarında keçirdiyimiz günlərdənmi, «Nəsimi», (*sənədli «Nəsimi» filmi nəzərdə tutulur* – ***red.***) «Dədə Qorqud», «Daşlar danışır» filmlərində birgə çalışdığımız dövrlərdənmi, rayonlarda dağdadaşda keçən günlərimizdənmi, onun yazıçı, dramaturq, rejissor, musiqiçi, alim, sənətşünaslığındanmı, yoxsa böyük insanlığındanmı danışım, bilmirəm, bircə cümlədə onu deyə bilərəm ki, Anar ruhən mənə çox yaxın bir insandır.

Rasim Əfəndi

60 ildə əsrə bərabər ömür yaşayan böyük sənətkarımız Anarın dili haqqında məqalə yazmaq təklifinə razılığımı dərhal bildirdim. …Yazıçının ilk dəfə bu yaxınlarda – 1995-də nəşr olunan ən ilk hekayələrindən olan «İztirabın vicdanı» o zamanlar çap olunsaydı, Anar elə o vaxt dilin fonetik və leksik imkanlarına necə dərindən bələd olması və ondan necə sənətkarlıqla istifadə edə bilməsi haqqında da çox xoş sözlər eşidə bilərdi…. Anar Füzulini araşdırır, bu dahi sənətkarın dilində Gəncə dialektində (yünül – «yüngül» mənasında, «Amma nə deyim, yaman yünülsən, Şəki dialektində (Leyli: Eşqin qılmaz idi kimsə yadın, ha səndən eşitdim indi adın) tapır. Nəyinə lazımdır Anarın bu dialektoloji tapıntılar? Bunlar Anara yəqin ki, müasir bədii dilimizə xalq dili avazını, abhavasını gətirmək və öz əsərlərinin dilinə ***handan-hana, heç vədə, mixeyi, çöllü-biyaban, çiriş, dilim-dilim duman*** kimi şivə sözlərini və ifadələrini gətirmək, onları arxayınçılıqla işlətmək üçün gərək olub.

O, təmkinlə öz fikrini deyir və özünəməxsus güclü məntiqi ilə onu əsaslandırır. «Son vaxtlar Azərbaycan dili haqqında deyirlər ki, guya bu, ləhcədir. Mən bu fikrin qəti əleyhinəyəm. Türkiyədə olarkən dil üzrə mübahisələrdə mənə deyirdilər ki, ləhcə sizin anlamda deyil, ləhcə ayrı şeydir. Mən dedim ki, yaxşı, siz Ukrayna dilinə ləhcə deyirsinizmi? Belarus dilinə ləhcə deyirsinizmi? Yox. Bəs Azərbaycan dili niyə ləhcə olmalıdır? Ləhcə – küçədə, bazarda, evdə danışılan dildir. Bir də bədii əsərlərdə personacların dilində ləhcə ola bilər. Ədəbi dil ləhcə ola bilməz».

Bu Türkiyədə Azərbaycan dilini ləhcə adlandıranlara Anarın cavabı! Söhbətinin kulminasiyasında Anarın gətirdiyi bir bənzətmə də diqqəti cəlb edir: «Azərbaycan türkcəsi ilə Türkiyə türkcəsi iki qardaş dildir. Amma mən həmişə misal çəkirəm ki, Əhməd və Məmməd adlı iki qardaş nə qədər mehriban olsalar da onların hər ikisi nə Əhməd adlana bilər, nə də Məmməd».

Azərbaycan dili qarşısında bir yazıçı kimi, bir ziyalı kimi öz məsuliyyətini heç zaman unutmayan Anar ana dilinə münasibətində həmişə obyektiv və səmimi olmuşdur və səmimidir.

Anarın M.F.Axundova həsr etdiyi «Sübhün səfiri» adlı məqaləsinin sonuncu cümləsi ilə və ona münasibətimi bildirməklə yazımı qurtarıram. Həmin cümlə belədir: «Bu – dahilərin bəxtidir. Dünyaya vaxtından erkən gəlmək, müasirləri arasında qərib kimi yaşamaq, yaşadığı zamanın içində gələcəyin elçisi, sabahın səfiri olmaq…»

Oxuyuram, düşünürəm. Anarın bütün həyatı gözümüni önündən keçir və haqlı olduğuma min dəfə əmin oluram ki, bir olan Tanrı Anarın özünə də məhz belə bir tale verib.

Ağamusa Axundov.
Anarın dil qayğıları (Ağamusa Axundovun «Dil və ədəbiyyat» kitabında. 2-ci cild, «Gənclik» nəşriyyatı, 2003)

Yazıçı və ədəbi proses

(Anarın tənqidi görüşləri barədə bəzi qeydlər)

Anar yazıçı və tənqidçi şəxsiyyətini birləşdirməyə can atır və bu, onun tənqidində subyektiv-emosional başlanğıcı əhəmiyyətli dərəcədə gücləndirir. Tənqid bu formasında Anarın publisist nəsri kimi meydana çıxır C. Məmmədquluzadəyə həsr etdiyi «Anlamaq dərdi», yaxud «Dədə Qorqud» haqqında tədqiqatları da bunun çox gözəl sübutudur.

Ə.Kərim, M.Araz, F.Qoca haqqında (Anarın əlbəttə, başqa şairlər barədə yaxşı, məzmunlu tənqidi yazıları vardır) məqalələrində bu dünyanın poeziyadakı anlamı və duyumu, qalan məqalələrdə, xüsusi ilə «Nəsrin fəzası» iri məqaləsində isə bu dünyanın epik təhlili və tədqiqi izlənir.

Şamil Salmanov.
Azərbaycan Elmlər Akademiyasının Xəbərləri.
Ədəbiyyat, dil və incəsənət seriyası, 1998, №3-4

Sosialist gerçəkliyi şəxsiyyətin hərtərəfli harmonik inkişafını təmin edən makromühitdir (böyük mühit). Lakin onunla yanaşı onun ziddiyyətli təzahürü olan mikromühit (bala mühit) də mövcud ola bilər ki, orada şəxsiyyət öz imkanlarını aşkara çıxara bilməz, istirabları közündə yanar, fəaliyyəti imkanlarının müqabilində çox cılız görünər. Bu kiçik mühitin mövcudluğunu qeyri-mövcudluğa çevirmək üçün biz onun simasını təyin etməli, mahiyyətini aşkara çıxartmalı, qeyri ideallığını, qeyri-estetikliyini təsdiq etməliyik…

Əsrin axınından uzaq düşən mikromühit indiki dövrdə də mövcud ola bilər. Və gənc yazıçı Anar «Ağ liman» povestində belə bir mühiti təsvir etmişdir. Burada əməyin keyfiyyəti duyulmur, durğunluq, pis mənada sabitlik, prozaiklik, standartlıq hökm sürür. Qəhrəmanlar öz həyat tərzi, qayəsi, amalı, etibarı ilə orta, böyük ideallarından məhrum olan cılız düşüncəli, cılız duyğulu adamlardı. Onların həyatı bir-birinə bənzəyən, bir-birindən seçilməyən odsuz-alovsuz günlərin məzmunundan başqa bir şey deyil. Bu mühitdə idrakın, duyğuların üfiqləri dar və məhduddur. Demək olar ki, qəhrəmanların mənəvi aləmi işlədikləri binaya sığır, qanadsız fikirlər binanın pəncərəsindən işıqlı aləmə çıxa bilmir. Durğun gölü xatırladan bu mühitdə demək olar ki, daxili dinamika, dramatizm yoxdur. Adamlar avtomat kimi işləyir, iş arasında bayağı zarafatlar edir, nərd oynayır, futboldan danışır, ara-sıra bir-birinə qonaq gedir, qonaqlıqda cansıxıcı şablon söhbətlər edir və s. Hər şey kiçilmiş, qurumuş, rəqəmləşmişdi. Cansız rəqəmlər fərdi xüsusiyyətlərdən məhrum olan qəhrəmanların daxili mahiyyətini psixoloci təhlilindən daha yaxşı ifadə edir. Çünki onların heç biri həyatda özünü əsl şəxsiyyət, əsl vətəndaş kimi göstərə bilməyib. Bu adamlar mahir bir rejissorun oynatdığı kuklalara bənzəyir. Bu rejissor ətalət, bəsitlik, idealsızlıqdır.

Bəzən biz həm bədii, həm də elmi ədəbiyyatda kollektiv məfhumunu ideallaşdırmaq, hər vaxtı kollektivə bəraət qazandıraraq, bütün günahları fərdin üzərinə atmaq kimi cəhətlərlə qarşılaşırıq… Kollektiv böyük qüvvədir, ancaq yaxşı kollektiv, şəxsiy-

yətin hər tərəfli inkişafını, yüksək ideallarının təsdiqini təmin edən əsil sağlam sovet kollektivi. «Ağ liman» povestində təsvir olunan kollektivin xüsusiyyətlərini dərk etmək üçün, Təhminənin aşağıdakı sözlərinə diqqət etmək lazımdır: «Hərdən düşünürəm, özümü tanımıram, necə oldu ki, bu adamlarla uyuşdum. Uyuşdum yox e, dostlaşdım, mehribanlaşdım, eyniləşdim». İnsanları eyniləşdirən fərdi xüsusiyyətdən məhrum edib meşşanlaşdıran kollektiv pis kollektivdir. Marksistlər inkişaf deyərkən, dialektik, ziddiyətli inkişafı nəzərdə tuturlar… Yazıçının estetik idealı ilə də mən qətiyyən razılaşmıram. Estetik idealı uzaq, ekzotik, sarı, qırmızı qumlarla əhatə olunmuş «Ağ liman»da axtarmaq, əvvələn o qədər də orjinal deyildir. Buna bənzər hallara, həm müasir qərb ədəbiyyatında, həm də rus yazıçısı V.Aksyonovun əsərlərində çox rast gəlmişik. Bu artıq müəyyən bir şablona çevrilib. Digər tərəfdən əgər qəhrəmanlar xəyal aləminə çəkilib orada ideal axtaracaqlarsa, üfunətli mühiti kim tənzimləyəcək, standart və bəsit həyata kim son qoyacaq? Bu cür meylləri mən düzgün hesab etmirəm. Bu nöqteyi nəzərdən İsa Hüseynovun «Kollu Koxa» povesti təqdirəlayiqdir. Burada fərd, şəxsiyyət – əsərin qəhrəmanı Kollu Koxa kinayə üsulu ilə kollektivə güclü müsbət təsir göstərir, onun sağalmasına nail olur, camaatın gözünü açır, ona pisi yaxşıdan seçməyi öyrədir.

«Ağ liman» povestinin əsas pafosu həyatdakı eybəcərliklərin tənqid və ifşasıdır. Eybəcərlik həyatımızın mahiyyətini təşkil etmir. Sosialist gerçəkliyin mahiyyətini əməkdə, ictimai əlaqələrdə, intim münasibətlərdə parlaq təzahür edən gözəllikdə axtarmaq lazımdır.

Asif Əfəndiyev.
Sənət və şəxsiyyət (ədəbi-tənqidi etüd).
«Azərbaycan» jurnalı, №11, 1968

«Ağ liman» povesti haqqında qeydlər

Son illərdə yaradıcılığa başlamış gənc şair və nasirlərimiz ədəbiyyata öz dəsti-xətləri, üslubları, xüsusi yolları ilə gəlməyə çalışır və bu sahədə inadlı axtarışlar aparırlar. Bu olduqca qanuni və təqdirəlayiq bir haldır. Lakin gənclərin axtarışlarından doğan bütün nəticələri qeydsiz-şərtsiz, ictimai rəyin və ədəbi-tənqidi fikrin süzgəcindən keçirmədən qəbul etmək, qüsur və nöqsanlarına etinasız yanaşmaq, həm onların özlərinə, həm də bütünlükdə ədəbiyyatımızın inkişafına mənfi təsir göstərə bilər. Ona görə də bu axtarışların mahiyyəti, məzmunu, estetik prinsipləri, yaxşı və çatışmayan cəhətləri haqqında ətraflı düşünmək, fikir mübadiləsi etmək, açıq danışmaq, gənclərin yaradıcılıq qüv-vələrini daim sağlam, obyektiv istiqamətə yönəltmək lazımdır. Bu yaxınlarda «Azərbaycan» jurnalında çap olunmuş «Ağ liman» povestinin məzmunu bu məsələnin nə qədər ciddi və təxirəsalınmaz olduğunu bir daha təsdiq edir.

Lakin açıq demək lazımdır ki, «Ağ liman» povesti Anarın bir yazıçı kimi getdikcə yetkinləşdiyini göstərsə də, onun oxuculara təqdim etdiyi fikir və duyğuların ictimai mahiyyəti, ümumestetik təsiri heç də sevindirici deyildir. Nə üçün? Bu suala daha aydın cavab vermək üçün gəlin «Ağ liman» povestinin özünə, orada təsvir olunan adamların həyat tərzinə, əqidələrinə, mənəvi-əxlaqi baxışlarına müraciət edək.

«Ağ liman» povestinin qəhrəmanları insanların dost, qardaş olduğu, qurub yaradan, daim irəliləyən bir cəmiyyətin ümumi mübarizəsindən, məqsəd və qayələrindən kənarda təsvir edilmişlər. Onların heç, biri həyatdan gəlməyib və bu günkü cəmiyyətimiz üçün səciyyəvi adamlar deyildir. Onların bu inamsızlığı özlərinin düşgün, cılız, bayağı mənəvi aləmləri, şəxsi subyektiv keyfiyyətləri ilə bağlı olduğu üçün çox kiçik və məzmunsuzdur. Bununla belə bu adamların düşüncələri arxasında zərərli, bizə yad olan bir ideologiya, dünyabaxışı durur. Başda Nemət və Təhminə olmaqla əsərin qəhrəmanlarının düşüncələri, nidaları, işarələri təkrar-təkrar deyir ki, həyatda nizam-intizam, hamı üçün qəbul olunmuş qayda-qanunlar, məişət və əxlaq tərzi insanı bezikdirir, yorur, onun həyatını məzmunsuzlaşdırır, şəxsi, fərdi hisslərini öldürür. Povestdəki açıq-saçıq naturalist səhnələr, onun qəhrəmanlarının xarakterindəki əcayiblik, çaşqınlıq, küskünlük də məhz bu zərərli dünyagörüşün estetik prinsipləri, estetik anlayışı ilə bağlıdır. Sənətdə, bədii yaradıcılıqda bu estetik prinsipi müdafiə edənlərə görə həyat hadisələrini, insanları müəyyən qayda-qanuna tabe etmədən ictimai vəzifədən, qayələrdən, idealdan kənarda, sərbəst təsvir etmək lazımdır. Lakin belə uzağı görməyən müəlliflər unudurlar ki, öz qəhrəmanlarını hər cür ictimai idealdan, siyasatdən kənarda təsvir edərkən onları nə qədər miskin, alçaq, gülünc bir vəziyyətə salırlar. «Ağ liman» adamları məhz belə yanlış bir təsəvvürün və dünyagörüşün qurbanı olmuşlar.

Povestin məzmunu, təsvir üsulu aydın göstərir ki, yazıçı sosializm realizmindən uzaqlaşdıqda, həyatı və insanları dərindən-dərinə öyrənmədikdə, zamanın nəbzini tutmadıqda necə yanlışlıqlara gedib çıxa bilər.

İdeyaca ciddi nöqsanları olan «Ağ liman» povestini oxuculara təqdim etmiş «Azərbaycan jurnalının redaksiyası isə gənc müəlliflərə tələbkarlıq göstərmək kimi mühüm vəzifələrini unutmuşdur.

Xalid Əlimirzəyev.
«Kommunist» 11iyun, 1967

Üçüncü on ildir ki, Anarın nəsri məhz belə bir iri hərfli Zamanla həmahəng bir marafonda özünəməxsus ədəbi nəfəs və ehtirasla iştirak edir, mənəvi, əxlaqi və ideoloci həyatımızda həqiqətin, aşkarlığın, yeniləşmənin nüfuzu artdıqca bu nəsrin bədii aktuallığını və sosial təsir gücü, çoxalır. «Ağ liman»dan başlayan çətin yol, hələ adsız üfüqə, ünvansız və sahilsiz dənizə kəşfiyyat səfəri davam edir...

Yaşar Qarayev

Anarın anlamaq poeziyası

Mənim düşüncəmdə Anar, birinci növbədə, ədəbi vətəndaşlıq örnəyidir – Mirzə Cəlil, M.Ə.Sabir, R.Rza kimi. Belə insanları ilə vətən, millət oz Məcnunlarına qovuşur, onların vurğunluğuna aşiq olur. Bu gün vətən, millət Məcnunu olmağa, yəni özünü elə göstərməyə, demək istəyirəm, nə var ki! Anar imperiya hədəsi başının üstündə Domokl qılıncı kimi dayananda vətəninə, millətinə Füzulicəsinə Məcnunluqla sözünü deyib. Bunun üstündə onu sözü bütün məhkəmə qərarlarından yuxarıda dayanan «Kommunist» qəzetində öz Leylasına həsrət qoymaqla hədələyiblər, «öz» tənqidçilərimizin, «milli imzalarımızın» qələmi ilə qılınclayıblar, «ad batırıb nan alanlarımızın» əliylə onu susdurmaq istəyiblər. Ancaq Anar dayanmayıb, susmayıb, yoluna davam edib, istədiyini yazıb, «mən gedərsəm, məramım yenə dünyada durar» düşünərək məramını deyib. Anar bu günkü xalq yazıçısı mərtəbəsinə, gəzdirdiyi «İstiqlal» ordeninə gətirən uzun yolu kef çəkə-çəkə gəlməyib, sovet labirintlərinin düyünlərini açа-aça, bu yola döşənmiş «sosializm realizminin» tikanlı məftilləri üstündə yeriyə-yeriyə gəlib. Füzulinin bir beyti yadıma düşür. «Çəkdi Məcnun ayağın badiyədən, leyk verir qanlı güllər ayağından çəkilən xar hənuz». Anar da belədir: hələ də onun ayağından tikanlar çəkilir və yeri qanlı güllər açılır…

Anar iliyinəcən milli ideoloqdur. O, ideya yazıçısıdır. Onun bədii əsərləri oxucularında həm yüksək estetik zövq yetişdirir, oxucularını böyük, bəşəri dünya ədəbiyyatının oxucusu kimi hazırlayır, həm də onlarda millətin övladı olmaq ideyası yaradır, millətə, vətənə, dövlətə isti sevgi aşılayır. Bu yolda onun öyrəndiyi, görüb-götürdüyü böyük Azərbaycan ədəbiyyatı olub, dahi sələfləri olub. Hamısını sevib, ancaq Mirzə Cəlili örnək seçib. C.Məmmədquluzadə «gözünü açanda dünyanı qaranlıq görüb». Anar dünyaya gözünü açanda Rəsul Rza evinin işığına baxıb. Mirzə Cəlil ədəbiyyata gəlib ki, bu qaranlıqdakı millətinin şüuruna işıq versin. Anar Rəsul Rza evinin işığında oxuyub, öyrənib, eşidib və Nəsimi, C.Məmmədquluzadə, M.Ə.Sabir, R.Rza döyüşkənliyinə yiyələnib.

Azərbaycanı tarix boyu qılınc sahıbı sərkərdələri ilə bərabər və onlara arxa olaraq ziyalıları yönəldiblər, yaşadıblar. Anar H.Zərdabi, M.Şahtaxtlı, Ə.Ağaoğlu silsiləsindən gələn ziyalılarımızdandır. Anar Yazıçılar Birliyinin sədrliyinə namizəd göstərilərkən mərhum şairmiz Qabilin dediyi söz yadımdadır. Əlbəttə, cəmiyyətimizə Nəsimiçilik aşılayan, poeziyasında böyük ideyaların təbliğatçısı olan xalq şairimiz Anarın şəxsiyyətini nəzərə çatdırmaq üçün özünü inkar etdi, dedi ki, mən cildlərlə kitabların müəllifiyəm, filan, filan işlər görmüşəm, ancaq özümü ziyalı saymıram – Anar ziyalıdır, bizim İttifaqa ziyalı sənətkar lazımdır. Gələn yüksək qonaqların qarşısına ziyalı ədib çıxmalıdır, İttifaqın sözünü mötəbər kürsülərdə ziyalı sənətkar söyləməlidir. Bəli, böyük yazıçımız Anar böyük ziyalıdır. Həmişə olduğu kimi, bu gün də millətimizin cəmiyyətimizin ziyalıya ehtiyacı var.

Tofiq Haciyev.
«Ədəbiyyat qəzeti», 14 mart, 2008

Anarın üslubu sinkretikdir. Onun üslubunda üç dəsti-xətt var... Anarın «Sizsiz»i sənədli nəsrin etalonudur, bütün parametrləri ilə, o cümlədən dili ilə. Bu Anarın birinci üslubudur, yəni uslubunda birinci dəst-xətdir. Yaradıcılığa bu üslubda başlayıb, bu gün də davam edir. Onun ömürlük üslubudur. Anarın ikinci üslubu mollanəsrəddinçi yönündədir. Bu, nisbətən sonra, 60-cı illərin ortalarında üzə çıxıb, konkret əsərlərindədir. Daha dəqiq: «Molla Nəsrəddin – 66» bədii silsiləsindədir.

Anar həmişə cəsarətli yazıçı olması ilə seçilib: o, bu cəsarəti «Molla Nəsrəddin» məktəbindən öyrənib, öz evlərində də o, həmişə cəsarətin şahidi olub.

Anarın üçüncü üslubu folklor biçimdədir. Daha dəqiqi: «Dədə Qorqud kitabı»nın dil-üslub xüsusiyyətləri bu dəst-xəttin əsasıdır. Bu dil yazıçının «Dədə Qorqud» kinodastanındadır. O, dastanın dilini, ahəngini qoruyub saxlamışdır.

Tofiq Hacıyev

Başqa janrlarda yazdığı əsərlərdə olduğu kimi, pyeslərində də Anar həmişə çox ciddi ictimai-əxlaqi məsələlər qaldırır, müasirlərimizi düşündürən mənəvi problemlərin bədii həllinə nail ola bilir. «Ötən ilin son gecəsi», «Qaravəlli», «Adamın adamı», «Şəhərin yay günləri» pyesləri onun bir dramaturq kimi getdikcə inkaşaf etdiyini, həyatın dramatik cəhətlərini bitgin sücet və maraqlı kompozisiyada təqdim etməkdə püxtələşdiyini, adi hadisələri ümumiləşdirərək qüvvətli ictimai mündərəcənin ifadəsinə çevirə bildiyini göstərir. Bu əsərlər eyni zamanda onun yaradıcılıq palitrasının zənginliyini, həyat materialına müəllif münasibətindən asılı olaraq satirik, lirik, psixoloji inikas üsullarına müraciət etdiyini, çox vaxt bu üsulların vəhdətinə nail olduğunu da sübut edir. Anarın pyesləri həmçinin hadisə və obrazlara münasibətdə vətəndaşlıq mövqeinin fəallığı ilə səciyyələnir. Sənətkar mövqeyinin fəallığı cari ildə tamaşaya qoyulmuş «Şəhərin yay günləri» pyesində çox qabarıq nəzərə çarpır. Bu fəallıq əxlaqi idealın daşıyıcısı olan əsas qəhrəmanın obrazında ifadə olunmaqla yanaşı, daha çox həyatın mənfi təzahürlərinə qarşı emosional inkar mövqeyində dayanan müəllif münasibətində özünü göstərir.

Müəllifin «Adamın adamı» komediyasındakı kəskin satiradan, bədii şərtilikdən fərqli olaraq, «Şəhərin yay günləri» pyesində həyati hadisələrin təsviri, obrazların psixoloji təhlili üstünlük təşkil edir… «Şəhərin yay günləri» pyesi dramaturgiyamızın şəksiz nailiyyətlərindəndir.

Arif Səfiyev
(Ədəbi proses–66, 77 məcmuəsindən «Elm» nəşriyyatı,
Bakı, 1978. «Dramaturgiya bölməsi)

«Molla Nəsrəddin – 66» silsiləsinin, şübhəsiz ki, ən yaxşı və məşhur novellası «Zəncir»dir. Sonralar müəllif onu muəyyən qədər təkmilləşdirərək, «Qaravəlli» pyesini yazmışdır. Həmin pyes «Teatr» jurnalında çap olunub, Ümumittifaq komediya müsa-

biqəsində mükafata layiq görülüb, Bakıda Kukla və Moskvada Miniatür teatrında tamaşaya qoyulub. Daşkənddə isə bu əsərin motivləri üzrə musiqili komediya belə yaranıb.

Araz Dadaşzadə

Anarın hədəfləri kimlərdir? Qorxaqlar və yaltaqlar, rüşvətxorlar və müftəxorlar, sözbazlar və yerlibazlar, mənsəbpərəstlər, riyakarlar, böhtançılar... Yazıçı bu tipləri özünəməxsus şəkildə ifşa edir, lakin çılpaq nəsihətamiz – didaktik tənqiddən qaçır. O, öz sələfləri Mirzə Cəlil və onun silahdaşlarının yolunu davam etdirərək yenilikçi bir satirik-yumoristik üslub yaratmışdır desək, yəqin ki, çox da mübaliğəyə yol vermərik. «Sizi deyib gəlmişəm» pyesi Anarın başqa satirik əsərlərindən tamamilə seçilir. Pyesdəki sarkazm, düşündürücü gülüş onu Saltıkov-Şedrın, Mirzə Cəlil, Sabir gülüşü ilə yaxınlaşdırır, doğmalaşdırır. Anar artıq ədəbiyyatın yetkinlik pilləsinə qədəm qoymuşdur. Lakin onun qələmi həmişəcavandır. Çünki onun nəbzi qurub-yaradan, düşünən, axtaran insanların, müasirlərinin nəbzi ilə birgə döyünür.

Araz Dadaşzadə

Yetmişinci və səksəninci illərdə Azərbaycan mədəniyyətinin refleksiyası (özünütəsviri və özünütəhlili) daha çox Anarın vasitəçiçiyi ilə həyata keçirilir. Mən əminəm ki, (mənim yanıldığımı deyən əks – müddəaçılarla da söhbətim olub) gələcəkdə də Azərbaycan mədəniyyətinin bu illərdə özduyumunu Anarın mülahizələri əsasında müəyyənləşdirəcəklər.

Rəhman Bədəlov

Anarın «Ağ liman» povestinin qəhrəmanlarından olan Təhminənin davranışı da hədsiz sərbəstliyi ilə seçilir. Təhminə surəti ilə yaxından tanış olduqca, onun daxilindəki ikinci «mən»in insani cizgilər baxımından zəngin və səmimi olduğunu yəqin edirsən. Bu «mən» saflığı, əxlaqi paklığı zahirdə yox, batində, insanın təbiətində axtarır, odur ki, özü barədə əsassız şayiələrə, dedi-qodulara biganəlik göstərir. Anar «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanında da Təhminə obrazına qayıtmışdır. Yeni əsər qəhrəman haqqında həmin təsəvvürümüzü daha da möhkəmləndirir, zənginləşdirir. Roman bizi Təhminənin yaşayış, düşüncə tərzi, daxili sarsıntıları, kövrək hissləri, intim dünyası ilə yaxından, bilavasitə tanış edir. Təhminə həmçinin mühitin ona münasibəti, onun haqqında mühakimələri fonunda konkret göstərilir.

Anarın «Gürcü familiyası» hekayəsinin qəhrəmanı Əsmər də Təhminə kimi bədbəxt taleli qadınlardandır. O, ərindən xəlvət bir günlüyə Moskvadan Bakıya gəlir ki, ilk sevgilisi Oqtayla görüşsün, onun ad gününü təbrik etsin. Lakin əsəri oxuduqca hiss edirsən ki, müəllifin məqsədi heç də qeyri-adi görüşün zahiri cazibədarlığının təfsilatlı təsviri ilə oxucunu əyləndirmək deyil. Oqtay Əsmərin sifətiinə süni ifadə vermək, masqalanmaq məharətini dönə-dönə qeyd edir. Ancaq o, görüş günü Əsmərin sifətindəki, göz-

lərindəki yeni bir masqanın arxasında gizlənmiş həqiqi ifadəyə diqqət yetirsəydi, eyni ilə kinoda gördüyü ölümə məhkum yapon pilotlarının uçuşdan qabaq sifətlərinə qonan dəhşət ifadəsini görərdi. Beləliklə, bu qəribə ad (*Kamikadze sözü nəzərdə tutulur* – ***red.***) əsərdə dərin, düşündürücü bir məna kəsb edir və biz müəllifin daxilən narahat, yalnız məhəbbəti, gözəl həyatı qəbul və təsdiq edən yeni bir qəhrəmanı ilə rastlaşırıq. Gördüyümüz kimi həyatda bəxtləri gətirməmiş bu sürətlərdə cəlbedici cəhətlər az deyildir. Bunlar ləyaqət hissi güclü olan surətlərdir, onların mənəvi tələbatı yüksəkdir və münaqişə də məhz bu əsasda meydana çıxır.

Akif Hüseynov.
«Müxtəlifliyin birliyi» kitabında.
Bakı, Yazıçı 1983

Anar yaradıcılığının ən qüvvətli cəhəti məhz bu insan dəyərlərini açmaq, özü də o insanların öz gözləri, öz ölçüləri ilə açmaqdır. Anarın obrazları mənfilik, müsbətilik və təmtəraqlı konfliktlər xatirinə qəlibə salınan ekzotik nümunələr deyillər, onlar sırf real insandırlar və hər konkret situasiyada öz real insan xislətləri ilə çıxış edirlər. Anar polifonik yazıçıdır.

Aydın Məmmədov

Anarın əsərlərində insan təkdir, tənhadır, amma boş deyil. «Otel otağı»nı oxuyanda mən istər-istəməz Kafkanın «Proses», «Qala» əsərlərinin mütaliəsi vaxtı keçirdiyim hissləri yaşadım. Bizim hər birimiz otel otağında yaşayırıq, kimimiz bunu dərk edirik, kimimiz yox. Anarın yazıçı istedadının gücü bir də onunla seçilir ki, həyatın əbədi tragizminin təsviri barışmazlığın faydasızlığının qorxusunu, xofunu yaratmır, əksinə, məhz barışmazlığın faydasızlığını dərk etməklə yaşamağın zəruriliyinə və gözəlliyinə inam yaradır… Anarı sevənlər çoxdur, amma ondan xoşu gəlməyənlər də var. Haqsız tənqidlərdə, atmacalarda bəzən onu Bitov və s. kimi yazıçı olmağa cəhddə qınayanlarla əlaqədar günlərin bir günü Anar dedi: «Niyə məhz Bitov, bəlkə mən Mamin-Sibiryak olmaq istəyirəm». Əslində bu acı bir gülüş idi: «Mən elə Anaram». Onu məhz ömrü boyu Anar olaraq qaldığına görə sevirlər, ondan bir də məhz ömrü boyu Anar olaraq qaldığına görə xoşları gəlmir…

Nə yaxşı ki, Anar varmış, yoxsa Gülrux xanım Əlibəyli demişkən, həyatımızda böyük bir boşluq olardı.

Arif Əmrahoğlu
«Mən ömrümün çoxunu öz içimdə yaşamışam»
(müəllifin «Dünənimin sözləri» kitabında. Bakı, «Elm» nəşriyyatı 2006)

Mənim tanıdığım Anar

Anar mənsub olduğu ocağın ənənələrinə sədaqətini birmənalı şəkildə qoruyub saxlayan, ata-anasını nümunə ola biləcək dərəcədə istəyən, onların varlığı ilə iftixar hissi keçirən övladlardan biridir. Ən başlıcası isə, Rəsul Rzanın və Nigar Rəfibəylinin ədəbi irsini onun kimi incəliyinə qədər bilən ikinci bir insan, hətta tədqiqatçı belə təsəvvür etmək çətindir.

Onunla işlədiyim illər ərzində R.Rza, N.Rəfibəyli haqqında yazılmış tədqiqatların səviyyəsindən narazı qaldığını görmüşəm, amma onlar haqqında kiməsə mövzu verilməsi üçün ağız açdığının şahidi olmamışam. Sadəcə olaraq, material üçün müraciət edən heç bir tədqiqatçını əliboş qaytarmayıb. R.Rzanın 5 cildliyini hazırlayırdıq. Mən təklif elədim ki, onun Leninə həsr etdiyi poemanı çoxcildliyə salmayaq. Qəti etirazını bildirdi: «atam-anam yazdıqlarını artıq yazıblar, məndən sonra üzə çıxacaq heç bir yanlışa yol vermək istəmirəm, yeganə arzum onlar haqqında həqiqəti eşitmək və oxumaqdı. Məni ən çox ağrıdan məndən narazılığa görə ata-anamın məqsədli təftişə, bəzən də təhqirə məruz qalmasıdı».

Bu müddət ərzində bir dəfə görmədim ki, istənilən hər hansı bir siyahıya onların adını Anarın özü yazsın. Onu övlad kimi belə tanıdım.

Səhər tezdən zəng elədi, Yusif (Y.Səmədoğlunu nəzərdə tuturdu) rəhmətə gedib, özümü çox pis hiss edirəm, dedi. Təcili Birliyə getdim. R.Rza, N.Rəfibəyli dünyasını dəyişəndə mən onu yaxından görməmişdim. Amma həmin gün onu elə bir vəziyyətdə gördüm ki, ata-anasının ölümünündə də məhz belə olacağı ağlıma gəldi. Eyni halı Araz Dadaşzadə, Emin Sabitoğlu dünyasını dəyişəndə də müşahidə elədim...

Həmişə cibinin düşməni olubdu. Adını çəkmək istəmədiyim Birlik üzvlərinə, maddi yardım üçün gələn təsadüfi adamlara Birlik çox vaxt kömək edə bilməyib, Anar müəllim öz cibinə əl atıbdı. Bəzən üstündə nəzərdə tutduğu qədər məbləğ olmayanda yanındakılardan borc alıb, amma gələni naümid qaytarmayıbdı. Onun sozüdü: konkret bir xahişlə gələni başa düşürəm. Eləsi də var ki, içəri girən kimi deyir: heç bir xahişim yoxdu, heç nə istəmirəm. Bu sözü eşidəndə canıma üşütmə düşür, bilirəm ki, xalq şairi, xalq yazıçısı fəxri adını istəməsə də, ən azı ömürlük təqaüd istəyəcək. Belə hallarda sərtliyindən qalmadığının da dəfələrlə şahidi olmuşam. Az-az göstərdiyi boz üzlə deyibdi: ayıbdı, bütün bunlar filan-filan kəslərin halal haqqıdı, onlar dura-dura sənin üçün belə bir məktubu heç vaxt yazmaram.

Onun yanındaydım, bir nəfər qəbula gəldi. Söhbətə uzaqdan başladı, Anar müəllimin xoşuna gələcəyi qətiyyəti ilə Ə.Əylislinin əleyhinə danışmağa başladı. Anar müəllim çox sərt şəkildə sözünü ağzında qoydu: Əkrəm böyük yazıçıdı, sən hansı haqla elə sənətkar haqqında hədyan danışırsan, sən heç onun kəsilən dırnağı deyilsən. Sonra uzun müddət özünə gələ bilmədi: gör nə günə qalmışıq, kim kimi bəyənmir. Bir dəfə yenə onun otağına yığışmışdıq, xeyli adam vardı, müasir ədəbi prosesdən, o cümlədən Yazıçılar Birliyinin üzvü olmayan qüvvələrdən söhbət gedirdi. Mən də fikrimi bildirdim və dedim ki, onların arasında istedadlı yazarlar çoxdu. Sözümu qurtarmamış məclisdəkilə-

rin bəziləri üstümə elə hücuma keçdilər ki, özüm özümdən şübhələndim: ilahi, görən mən indiyə kimi xəbərim olmayan hansı günahın sahibiyəm. Anar müəllim gördü ki, deyəsən, bunlar məni mənən məhv etməyə çalışırlar, söhbətə qarışdı: bu yazığın üstünə niyə düşürsünüz, nə dedi axı? Sonra yenidən yanına getdim, məni xilas elədiyi üçün təşəkkürümü bildirdim. Gülərək dedi: «fikir vermə. Onlar elə bildilər ki, sən adlarını çəkdiklərindən bəziləri məni tənqid etdikləri üçün sənin üstünə düşməkləri xoşuma gələcək. Onların bəziləri vəzifədə olanda məni tənqid edirlər, amma bunların bir çoxu sədrlikdən çıxandan sonra məni tənqid etməyə başlayacaqlar».

Onu insan kimi, sədr kimi belə tanıdım.

Arif Əmrahoğlu.
«Xəzər», 15 mart, 2008

Bu hal da yaxşıdır ki, Anar işlətdiyi sözlərin hər iki variantını verir: anım – assosiasiya, xatırlama, danılmaz – inkareldilməz, ötücü, keçəri – müvəqqəti, yozum – təfsir və s.

Şübhəsiz, yeni sözlərin, termminlərin yaradılmasında, təbliğində Anarın redaktorluğu ilə çıxan «Qobustan» jurnalnın xidməti çox qiymətlidir Yazıçının öz fikrini də xatırlayaq: «Mən özüm də çox gözəl bilirəm ki, uğurlu – müvəffəqiyyətlini, ellik – ictimaiyyəti, görünməmiş – fövqəladəni, bağlı – əlaqədarı tam, yüz faiz əvəz etmir, bu kəlmələr bir-birinin yüzəyüz qarşılığı deyil. Ancaq nənə elə gəlir ki, dilimizə doğma olan bu sözlər dilə yatmayan, qəliz tərkibləri, çətin tələffüz olunan yabançı kəlmələri əvəz etdikcə onların, yəni bu doğma sözlərin məna çalarları da get-gedə genişlənər, daha geniş məzmun, anlam əhatə edər, tutumu artar».

Sabir Bəşirov.
«Anar» kitabından, Bakı, 1994

Sabah qatarının sərnişini - I

Dünyanın istənilən məmləkətində, istənilən şəhərində kürsüyə Anar çıxıb beşcə dəqiqə danışsa, Azərbaycana rəğbət, ehtiram oyadar, Azərbaycanlı zəkası haqda üstün təsəvvür yaradar. Çünki düşüncənin bu qatı dünyəvidir. Bir halda ki, örnək budur, gərək səmtimizi də ona sarı götürək. Hər sahədə olduğu kimi bu yöndə də ləngiyirik.

Alimlik müdriklikdir və Anarın da ən xırda yazısından tutmuş ən iri əsərinəcən müdriklik nəbz kimi vurmaqdadır. Və Anar belə müdrik yazmağa yaşı 50-ni, 60-ı haqlayandan sonra çatmayıb. Ən müdrik əsərlərindən biri olan «Anlamaq dərdi»ni yazanda sütül oğlandı. Təfəkkür sütül deyildi. Beyin cavankən qocaydı, düşüncə gənckən ağsaqqalyana idi...

Universitetin ədəbiyyat fakültəsini bitirib Nizami Muzeyində işə başlayan Anar Rabindranat Taqora həsr edilmiş bir sərgi hazırlayıbmış, üstündən 40 iləcən vaxt keçir. Muzeyin yaşlı əməkdaşları indiyəcən o sərgidən danışırlar.

Anar «Qobustan»ı yaratdı və bu toplu 70–80-ci illərdə əsrin əvvəlində «Molla Nəsrəddin»in, «Füyuzat»ın yerinə yetirdiyi qədər faydalı işlər gördü və şübhə yox ki, bu ünvan mətbuat tariximizdə daimi qalacaq. Amma nə qədər maneələr, nə qədər dərə-təpələr aşmaq lazım gəldi «Qobustan»ı yaşatmaqçün!. .

Dilin təmizliyinə çalışdı – «pantürkist» dedilər. Azərbaycanın keçmişini, dəyərlərini yerli-yataqlı tanıtmaq, təbliğ etmək üçün əlləşdi – «millətçi» dedilər. O indidir ki, bir adama «millətçi» demək onu öyməg sayılır. Sovet əyyamlarında «millətçi» kəlməsi damğaya bərabərdi (öz aramızdır, o vaxt başqalarına söyüş əvəzi «millətçi» deyib ləkələmək istəyənlərin çoxu bu deyim günümüzdə sərfəliləşəndə bir andaca çönub oldular ən atəşin «millətçi»lər. Anarsa elə həmin Anardı).

Anarın gördüyü yaxşı işlər, nəhayət, o həddə çatdı ki, o deyinənlər, o hərzə danışanlar, o xəbis tənqidçilər, o rəzil danosçular qaldılar nəcib işlərin yaratdığı zirvənin dibində. Səsləri batdı.

Amma hələ də tək-tək və Anar özü demiş «cüt-cüt» qımıldananlar var.

…Di gəl, Anar da bekar dayanmır axı – yenə əvvəlki sədaqətlə öz nəcib əməllərinin ardıncadır…

Rəfael Hüseynov.
«Zaman» qəzeti, 5 yanvar, 1999

Sabah qatarının sərnişini - II

98-in martında Akademiyanın Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyində Anarın 60 yaşı qeyd edilirdi, onun haqqında keçmiş iş yoldaşları, alimlər, dostları ürək sözlərini söyləyirdilər və axırda, Anar özü tanışdı. Qayıtdı ki, haqqımda deyilən bunca tərifləردən cuşa gələrək əvvəl istədim yekə bir nərdivan tapım, gedim çıxım muzeylə üzbəüzdəki bağda ucalan Nizami heykəlinin yanına. Sonra fikirləşdim bu ağ olar, istədim bir az balaca nərdivan tapıb, qalxıb dayanım muzeyin qarşısındakı altı klassikin heykəlinin böyründə...

...Zarafata saldı, yubiley çıxışlarının onu bir az sıxan tərif dalğasından canını belə qurtardı. Amma zarafat zarafatlığında hər yaradıcının pyedestal üzərində olması da, hər halda özünə görə, izinə görə payına düşəsi aşağı-yuxarı bir yeri var axı!

İndi – altmışını adlayandan sonra Anarın məqamı haradadır?

O sözləri ki, indi mən burada Anar haqqında yazıram, onları həqiqət yox, tərif hesab edənlər də şübhəsiz ki, tapılacaq (biri elə Anar özü). Qəribədir. Klassiklər haqqında indi nə qədər öygülü söz desən danışıqsız qəbul edirlər. Əmma qoyan olmur. Amma

öz çağlarında bu həqiqətləri onlara eşitdirməyə sanki, qıymayıblar, daha çox tənqidlərə məruz qoyublar. Bir adam canlı klassikdirsə, niyə onun klassik olduğunu bəyan etməyə simiclik göstərməliyik? Yaratdıqları və şəxsi nümunəsi ilə axırıncı üç on il içində bir məktəbə çevrilmiş Anarın canlı, cavan, daimi inkişafında olan klassikliyini niyə etiraf etməyək?! Son üç on il ərzində Azərbaycan gəncliyinin ədəbi-mədəni zövqünə Anar qədər çox əhəmiyyətli və müsbət təsir göstərmiş şəxsiyyət olmayıb. Anarın atası Rəsul Rzanın Azərbaycan poeziyasında yeni ruhun, yeni deyiş tərzinin şəkillənməsinə, irəlləyişinə, ümumi gəncliyin düşünmə səviyyəsinə təsiri dərindir. Lakin Anarın münbit təsir dağlarının qapsadığı çevrə qat-qat geniş alındı. XX yüz ildə Azərbaycan ziyalılığının tarixini seyr edərkən Anardan miqyaslı, Anardan çoxşaxəli, Anardan üstün olacaq sima gözə dəymir. Anar məktəbdir. Və özünü elə bu məktəbin yetirməsi sayanlar onlarla, yüzlərlədir (Əslində həmin məktəbin yetişdirilməsi olan, ancaq bunu etiraf etməyənlər, etiraf edənlərdən çoxdur).

Rəfael Hüseynov.
«Zaman» qəzeti, 12 yanvar, 1999

Anarla üz-üzə

Oxuduqlarımı oxumuşdum, oxumadıqlarımı da indi oxudum və istədim ki, bu kitabın məndə oyatdığı təəssüratları yazıya köçürüm. Ancaq gördüm ki, bu, asan iş deyilmiş – alınmır, çətinlik çəkirəm. Olsun ki, bu kitabdakı hansısa yazı haqqında – bir yazı haqqında – söz açmaq, fikir söyləmək daha asan olardı. Yazıdan yazıya adlandıqca, içərimdə o qədər rəngarəng, müxtəlif, bir-birinə oxşamayan duyğular, düşüncələr, anımlar oyanıb ki, onların hamısını belə tezliklə, isti-isti kağıza almaq çox çətindir. Amma indiki halda mənə elə gəlir ki, bu kitabdakı bir yazı haqqında nəsə deyib o birilərindən heç nə deməsəm, haqqında söz demədiyim yazılara yox, ən əvvəl, elə özümə, üstündən söz demədən ötüb-keçdiyim yazıların məndə oyatdığı işıqlı, təmiz, duru yaşantılara dönük çıxmış olacağam. Ona görə də lap əvvəldən Qobustandan başlayıram. Daha dəqiq «Qobustan»dan başlamaq istəyirəm. Yəni ulu babalarımızın, əcdadımızın ilk yerləşkəsi, ilk məskənlərindən olan, ən əski sənətimizin örnəklərini qorudub-yaşadan, göyün altındakı daş muzeyindən – Qobustan qayalıqlarından deyil, incəsənət toplusu «Qobustan»dan, o topludan ki, Anar onun təməlini qoyub və artıq 17 ildir ki, bir yazıçı, jurnalist-tədqiqatçı, sənətşünas və nəhayət əsil vətəndaş qeyrəti və ləyaqəti ilə o jurnala başçılıq edir.

O deyim tərzi, o yazı manerası ki, «Dünya bir pəncərədir» kitabının əvvəlindən-sonunacan oxucunu cazibəsində saxlayır, onu sevindirir, heyrətləndirir, düşündürür. Bu gün belə – mətbuatımızda, efirimizdə, cavan nəsil arasında bəyənilməkdə, təqdir olunmaqda, öyrənilməkdədir. Bu gün 80-ci illərin ikinci yarısında məhz bu cür insani ger-

çəkci deyim tərzi, Avropa və dünya ölçülərinə cavab verməkdə qadir olan yazıçı vərdişləri, ədəbi mühitimizdə öncül yer tutmağa, ülgüyə çevrilməyə başlayır. Bu gün məhz bu yola, bu tərzdə yazmaq gözlənilməz, qəribə yox, qanuna uyğun, arzu olunan vacib hal kimi qavranılır. Amma 17 il əvvəl «Qobustan» toplusunun ilk nömrəsi çıxanda bu mətbuat pöhrəsinə «Almanax» yox, «toplu» deyilməsindən tutmuş, irili-xırdalı məqalələrəcən çox şey – höcətlər, iradələr, tənqidlər, hücumlarla qarşılanıbdır. İllər ötdükcə o höcətlər, o iradçılar, o tənqidçilər, o «hücumlar» nəhayət ki, bu yolu doğrudan da düzgün, gərəkli, zəruri olduğunu başa düşdüklərindənmi, ya sadəcə əsassız umulmaz cəhətlərindən usandıqlarındanmı, yavaş-yavaş soyudular.

Lüzümsüz əngəllərlə üzləşə-üzləşə öz haqq yolunu, öz düzgün, faydalı istiqamətini təsdiqləmək üçün illər gərək oldu.

«Dünya bir pəncərədir» kitabını oxuduqca, səhifə-səhifə, il-il çevrildikcə görürəm ki, son 20 ildə Anarın yazı tərzi, üslubu, fikrini ifadə etmək usdadlığı az dəyişib. Bu gün olduğu kimi, 20 il qabaq da Azərbaycan dilinin bütün zənginliyindən son dərəcə ustalıqla istifadə edə bilirmiş. Bu gün olduğu kimi 20 il qabaq da yazdığı hər sözü son dərəcə yerində işlədirmiş. Və ən adi sözün, belə bütün dadını, duzunu, şirəsini, tamını fikirlərinə yaraşdıra, qovuşdura bilmiş. 20 il əvvəl də Dədə Qorqudu sevirmiş və 20 il əvvəl də indiki kimi səmimi, ürəkdən qopub, ürəyə dönən sözləri ilə Qorquddan yazıb oxucusunu heyran qoya bilərmiş. Ancaq «Qorqud dünyası» essesini Anar 20 il əvvəl yox, ötən il yazıb. Düzdür, bundan əvvəl Qorqud haqda kinossenari yazıb, o ssenari əsasında film çəkilib, Dədə Qorqud boylarının təməlinə söykənərək, rus dilində uşaqlar üçün bir əsər yazıb Moskvada çap etdirib. Və Dədə Qorqudla ilk təmasında yalnız 30-32 il keçəndən sonra özü üçün bu dastanda sual-tapmaca, müəmma olan çox nöqtələr dolayısınca, üç on illik boyu düşünəndən, axtarışlar aparandan sonra 1985-ci ildə «Qorqud dünyası» əsərini qələmə aldı.

Dünya Qorqudşünaslığında bu günəcən yüzlərlə əsər yaranıb. Sanki deyilməli sözlərinin çoxu deyilib. Ancaq Anarın «Qorqud dünyası»nı oxuyanda xüsusən o köhnə elmi-araşdırmaları oxuyub Anara çatandan sonra görürsən ki, bu əsər Qorqudşünaslıqda yeni mərhələdir. Burada elmin onlarca yeni, bakirə sözü var. Dastanın kökləri, təşəkkülü, xalqımızın mənşəyi, şeirimizin qaynaqları uzaq əsrlərin məchulluğunda itən ibtidası haqqında vacibdən vacib kəşflər (məhz kəşflər) var.

Öyrənmək çətindir, ancaq öyrədə bilmək ondan da müşküldür. Bu kitabda Anarın Qarabağ, Naxçıvan, Şəki, Köhnə Bakı… Azərbaycanımızın hər daşı bir tarix, hər çiçəyi bir kitab olan qədim torpaqları haqqında yazıları var. Anar bu yerləri gəzib-dolanıb və yeri düşəndə adicə bir çiçəyi görmək, o çiçəyin adını öyrənmək, ətrini duymaq, hansı dərdlərə dərman olduğunu bilmək üçün, Şuşanın dumanlı, çiskinli dağlarına da qalxıb. Və indi o, öyrəndiyini, bir el bilicisindən, bir ağsaqqaldan eşitdiyini yazılarında elə zərif, elə yapışıqlı söz donunda təsvir edir ki, oxucu da o çiçəyi unutmur. Oxucu da öz doğma yurdunun daha bir daşını, daha bir çiçəyini, daha bir müdrik sözünü öyrənir, yadda saxlayır, sevir.

Qonaq olduğu o yerlərdə Anar həmişə tək bir yazıçı, müşahidəçi olaraq qalmır. Şəhərdən gəlmiş hörmətli yazıçıya ağız açan, xahişlər edənlərin sözünü lazimi ünvanlara çatdırıb, camaatın, el-obanın çox istəyini imkanı, nüfuzu çevrəsində həyata keçirmək üçün çalışır, səy göstərir. Həm yazılarında, həm ictimai fəaliyyətində və bu məqamda əsl xalq elçisi ifadəsi Anarın bütün başqa ziyalılıq dəyərlərinə əlavə olunmalı, ən layiqli deyimdir.

Bu kitabda Nazim Hikmət, Cəfər Cəfərov, Mikayıl Rəfili, Sabit Rəhman, Əli Kərim, Əltoğrul Cavid, Vaqif Mustafazadə… haqqında yazılar var.

«Dünya bir pəncərədir» kitabını oxuyurdum. Bir ilıq yaz gecəsində oxuyurdum və həmin hissləri təzədən yaşayırdım. Yenə Anarla üz-üzə dayanmışdıq.

Və mən çox sevinirəm ki, indi bu yeni, bu dəyərli kitab Azərbaycanımızın hər tərəfində yayılıb, gözəl sənətə, yüksək ədəbiyyata layiqli qiymət verməyə qadir, minlərlə oxucu Anarla beləcə üz-üzə dayanıb, onu dinləyir.

Rəfael Hüseynov.
«Azərbaycan Gəncləri», 19 aprel, 1986

Rəsul Rzanın 70-80-ci illərdə qələmə aldığı bir silsilə şerləri var... Bu şeirlər silsiləsinin curnalistikamıza, publisistikamıza, memuar ədəbiyyatımıza çox faydası yetdi. İşıqlı köməyi dəydi. Və nəsrimizdə həmin istiqamətin ən ilkin, ən ardıcıl, ən istedadlı davamçılarından biri Anar oldu. Ona görə yox ki, Rəsul Rzanın oğludur. Ədəbiyyatda hansı yolun yolçusu olmaq, kimdən və nədən yazmaq məsələsini insanın iradəsindən asılı olmayan daxili bir cazibə idarə edir.

Rəfael Hüseynov

Görkəmli nasirimiz Anarın «Otel otağı» povesti ilə hələ il yarım bundan əvvəl, əlyazması şəklində tanış olmuşdum. «Otel otağı»nın bir oxucu, bir ədəbiyyat adamı kimi son illərdə məni ən çox duyğulandıran, ən çox kövrəldən və düşündürən bədii sənəd olduğunu etiraf etməyi özümə borc bilirəm.

Anarın povestində bu günümüz üçün vacib olan çoxlu problemlərə toxunulmuşdur. Müəllifin uğurla bəhrələndiyi assosiativ-xatırlama üsulu və «Şüur axını» prinsipinə əsaslanan təhkiyə bu problemləri tarixi fonda, sosial və fəlsəfi aspektdə izləməyə imkan yaratmışdır. Anar sanki nəsr yaradıcılığında arzuolunmaz fasilənin meydana çıxdığı bu neçə ildə deyə bilmədiklərinin hamısını bu əsərin səhifələrinə gətirməyə çalışmışdır. Digər tərəfdən «Otel otağı» yazıçının istər Türkiyə ilə, istərsə də müasir Azərbaycan həyatı ilə bağlı kifayət qədər geniş müşahidələrinin, ədəbi materiallarının olduğundan xəbər verir və ümid etmək istərdim ki, həmin müşahidə və materiallar tezliklə bədii təxəyyül süzgəcindən keçərək maraqlı, düşündürücü, lazımlı əsərlərə çevriləcək.

Vilayət Quliyev

Tənqidçi sənətkarlığı və yazıçı fərdiyyəti

Bəzən bunun əksinə olan hallar da görürük: yəni yazıçıya öz yaradıcılıq prinsipləri mövqeyindən yanaşmaq əvəzinə, bu prinsiplərin özləri tənqid hədəfinə çevrilir. Bu qəbildən olan təhrif və səhvlərə Qəzənfər Talıbovun «Gənc nasirlər haqqında bəzi qeydlər» («Ulduz», № 11, 1974) adlı məqaləsində təsadüf olunur. Mübahisəli fikirlərlə dolu olan bu məqalədə oxuyuruq: «Anar itirilmiş adamların: məmmədnəsirlərin, səfərlərin tərəfindədir. Onların taleyi üçün ağrıyır». Yazıçı qayəsinin belə təhrif etmək olarmı? Meşşanlığı, mənəvi boşluğu, cılızlığı ifşa – Anarın ən əsas mövzularından biri olduğu halda, Q.Talıbov nəyə əsaslanaraq onu məmədnəsirlərin müttəfiqi elan edir? Təəssüf ki, məqalədə heç bir tənqidi qeyd əsaslandırılmır. Müəllif yazır: «Anar xarakter etibarilə insan psixologiyasını təhlil edən yazıçı deyil». Yaxşı olardı ki, müəllif akademik M.Arifin Anar haqqında yazdığı məqaləni xatırlayaydı, tənqidimizin ağsaqqalının bu yazıçının psixologizmi haqda dediyi fikirləri yada salaydı. «Dantenin yubileyi» məgər Kəbirlinskini tədqiq edən psixoloci etüd deyildir? Q.Talıbovun subyektiv yanaşdığı «Ağ liman» povestindəki «psixoloci təhlili» görməməsi də təəccüblüdür. Qəribədir ki, tənqidçi personajların mövqeyi ilə yazıçı mövqeyini qarışdırır, məqalədə ayrıca bir surətin mülahizələri Anarın şəxsi mülahizəsi kimi məzəmmət edilir. Bu, tənqidi nüfuzdan salan faktdır.

Rəhim Əliyev.
«Ədəbiyyat və incəsənət», 17 iyul, 1976

Anlamaq dərdinin içində

Xalq yazıçısı Anara yubiley məktubu

Yüz yerdə dediyim sözü burada da təkrar etmədən ötüşə bilmirəm: Anar Azərbaycan milli ziyalılığının emblemidir. Mən bu fikirdəyəm və bu fikrimin üzərində ömrümün sonunadək dipdiri, canlı surətdə dayanacağam. Yəqin oxucu sual vermək istəyir: Niyə belə düşünürəm?!. Müxtəsər cavab verim...

1) Anar şəxsiyyəti ilə yaradıcılığı bir-birini tamamlayan yazıçıdır.

2) Bu gün yazıçı mövqeyinin (ümumən ziyalı mövqeyinin) çətinləşdiyi, mürəkkəbləşdiyi bir dövrdə Anar öz şəxsiyyətinə sadiq ən dürüst yazıçı, ən nəcib ziyalıdır.

3) Anar Tanrının ona bəxş etdiyi istedadın qədrini bilən, onu son damlasına qədər işlədən, sözün əzabı ilə sınağa çəkən bir yazıçıdır.

4) Anar böyük türkçü və böyük azərbaycançıdır. O, Azərbaycan torpağı üstündə dayanan canlı türkçülük abidəsidir. Bununla da o müasirlərinə, hərbi dillə desəm, kimə baxıb necə düzlənməyin yönünü nişan verən milli fikir və böyük sənət zirvəsidir.

5) Müasirlərim içərisində klassik bədii-fəlsəfi ənənələri, epos mədəniyyəti və epos təfəkkürünü, ötəkinin tarixi-mənəvi təcrübələrini yeni bədii-fəlsəfi təfəkkürün ar-

senalına gətirən, müasir ədəbi düşüncənin xidmətinə təslim edən ikinci belə yazıçı tanımıram.

6) Anar (və mən özüm də!) XX əsrin adamıdır. Əminəm ki, o, XXİ əsrdə də müdrik bir kahin kimi bənzərsiz əsərlər yaradacaq. Fəqət Anar XX əsr Azərbaycan bədii nəsrinin böyük rüknüdür. Əgər lazım gələrsə, mən onu yalnız Cəlil Məmmədquluzadə ilə müqayisə edə bilərdim. Mirzə Cəlil və Anar XX əsrin ədəbi başlanğıcı və sonucudur. Böyük nəsr poetikası bu iki imza arasında hüdudlanır.

7) Anar XX əsrin böyük dramaturqu deyil. Çünki bu sırada Mirzə Cəlil, Ü.Hacıbəyli, H.Cavid, C.Cabbarlı və İ.Əfəndiyev var. Amma – Anar XX əsr psixoloji dramaturgiyasının yaradıcısıdır. «Şəhərin yay günləri», «Səhra' yuxuları», «Sizi deyib gəlmişəm», «Qaravəlli» buna misal ola bilər. Anar teatrda tarixiliklə müasirlik arasında mənəvi körpünü sınmağa, qırılmağa qoymayan dramaturqdur.

8) XX əsr keçmiş sovet məkanında yeni yazıçı tipi yetişirdi. Bunlar həm yazıçı, həm ssenarist, həm rejissor, həm də öz filmlərinin aktyorları oldular. V.Şukşin, Ç.Aytmatov, Maqsud və Rüstəm İbrahimbəyovlar və Anar belə yaziçı idi. Yazıçı-ssenarist məsələsi məlumdur, problem deyil. Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinə Anar həm yazıçı, həm ssenarist, həm rejissor kimi daxil oldu. Bu onun ilahi tərəfindən bəxş olunmuş istedadının çoxcəhətliliyini əyaniləşdirən faktdır.

9) O, Azərbaycanda yazıçı-tənqidçi tipinin ən parlaq nümayəndəsidir.

10) Anar nəinki nəsrə yeni poetik fiqurlar, həmçinin tənqidə yeni estetik meyarlar gətirmiş yazıçı və filoloji təfəkkür sahibidir. Anarın nəsri 60-cı illər nəsrinin baş xəttidir. «Ağ liman»dan başlanan yol uğurlu oldu, onlarla hekayə – «Taksi və vaxt», «Asılqanda işləyən qadının söhbəti», «Keçən ilin son gecəsi», «Mən, sən, o və telefon», «Gürcü familiyası», «Dantenin yubileyi» və nəhayət, «Molla Nəsrəddin – 66» möcüzəsi yarandı.

11)Anarın və müasirlərinin yaradıcılığında ilk dəfə ədəbiyyatda insan amili sovet ədəbiyyatının – qondarma sosializm realizminin tələbi olan ictimai borc amilini üstələdi. Küllən sovet ədəbiyyatının ictimai-siyasi ruporu olan müsbət qəhrəman bu ədəbiyyatda gülünc bir müqəvvaya, qəhrəmansızlığın sinoniminə çevrildi. Onun yerini mürəkkəb xarakterə malik, yalnız öz qəlbinin səsinə qulaq asan insanlar tutdu. «Ağ liman», «Macal», «Əlaqə», «Şəhərin yay günləri», «Beşmərtəbəli evin altıncı mərtəbəsi», «Otel otağı» əsərinin qəhrəmanları iyrənc zəmanəyə qarşı təmiz ürəklərini qoydular və məhz Anarın yaradıcılığında kiçik insanın təmiz ürəyi qloballaşan dünyanın böyük rəzalətlərinə qalib gəldi.

12) «Ağ liman», «Beşmərtəbəli evin altıncı mərtəbəsi», «Macal», «Əlaqə» və «Yaxşı padşahın nağılı» – bu əsərləri ayrıca qeyd etmək istəyirəm. Bunlar Anara böyük yazıçı şöhrəti gətirən əsərlərdir. Bir az obrazlı, bir az da əziz dostum Anara məhəbbətlə desəm, 60-cı illər Azərbaycan nəsri «Ağ liman»dan yol aldı, «Beşmərtəbəli evin altıncı mərtəbəsi»nə qalxdı, bütün 60-cılarla «Əlaqə»yə girdi.

13) Anar böyük millətsevər, vətənsevər və dövlətkeşdir. Yadımdadır ki, M.S.Qorbaçovun dovründə SSRİ-nin ən ali məclisində o, əsl türk cəsarəti, türkün yenilməz ru-

hu ilə sinəsini irəli verib Qarabağ problemi ilə bağlı həqiqətləri onu törədənlərin üzünə çırpdı, o tribunadan bütün dünyaya millətinin həqiqətini bəyan etdi. Bu gün demokratiyanın verdiyi imkandan sui-istifadə edib, Anarı cırmaqlayan, ona qara yaxanlar bunları unutmasın gərək. Adlarının çəkilməsini layiq bilmədiyim adamların, xüsusən özü bir sətir yazmayıb, heç kimi bəyənməyən fikri qoca «Gənclərin» Anarın (eləcə də digər ziyalıların!) əleyhinə yazdıqlarını mən «Qələm ifrazatı» hesab edirəm. Onların içi bu ifrazatla doludur…

14) Anar tarixlə nəfəs alan, türk dünyasında özünə – layiqli yer tutan, Azərbaycan mənəviyyatını bütün dünyada şərəfləndirən yazıçı, mütəfəkkir və ictimai xadimdir.

Mən fəxr edirəm ki, onunla bır epoxada yaşayır, onunla ünsiyyətdə olur, dərdləşə bilirəm. Anar Tanrının bizim xalqa, türk millətinə, öz ailəsinə bəxş etdiyi nadir bir şəxsiyyətdir. Bizim ən böyük hunərimiz odur kı, biz onu bilək. Anar hər cür əyalət düşüncəsindən uzaq, milli mənafeləri uca tutan, sivil bəşəri meyarlarla düşünən, Azərbaycan ədəbiyyatı və mədəniyyətini dünya standartları səviyyəsinə qaldırmağa nail olan qüdrətli Azərbaycan yazıçısıdır.

Nizaməddin Şəmsizadə.
«Ədəbiyyat» qəzeti, 14 mart, 2008

Anarın sözü gedən milli ideologiyanın oluşmasında çox böyük rolu olmuşdur. Hələ sovet dövründə «Milli ocaq» olaraq tanınan Rəsul Rza və Nigar Rəfibəyli ailəsində yetişmiş və 60-cılar olaraq adlandırılmış yenilikçi, milli və modern bir estetik sistem yaradanların lideri olan Anar çeşidli məqalə və çıxışlarında «türk ədəbiyyatı» ideyasını dəstəkləmişdir. Azərbaycanda latın əlifbasına keçilməsində, dilimizin adının türkcə olmasında, ümumən türkçülük ildeyasına keçilməsində müstəsna xidmətləri olan Anar «bir millət, yeddi dövlət» amalını «kültür, sənət, dil, ədəbiyyat» cəbhəsindən dəstəklədi və bu sahədə bir ziyalı mübarizəsi verən Mirzə Cəlil və Əlibəy Hüseynzadənin, digər bir deyişlə «Molla Nəsrəddin» və «Füyüzat»« dərgilərinin fikir mücadiləsini davam etdirdi. Böyük fikir mücadiləsinin bir parçası olan «Min beş yüz ilin oğuz şeiri» antalojisi (hazırlayan, Ön söz və Son sözün yazarı Anar) adlı əsər yalnız Azərbaycan üçün deyil, Türk dünyası üçün də faydalı və qiymətlidir.

Kamil Vəli Nərimanoğlu.
«Bin beş yüz yılın oğuz şeiri» məqaləsindən.
Ankara, «Türk ədəbiyyatı». dərgisi, yaz, 2000

Anar Azərbaycan ədəbiyyatının qurucularından, eyni zamanda liderlərindən biridir. 60-cı illərin ədəbiyyatı Azərbaycanın müasir siyasi fikrinin bünovrəsində dayanır. Çünki Azərbaycanın istər müstəqilliyiylə, istər demokra-tikləşməsiylə, istərsədə Qərb və Şərq dəyərlərinin bir araya gətirilməsiylə bağlı indiki bu duruma gəlib çıxan yolların hamısı o vaxtkı dövrün bədii fikriylə sıx əlaqədədi. Bu mənada Anarın baş redak-

tor olduğu «Qobustan», onun «Anlamaq dərdi», «Ağ liman», «Molla Nəsrəddin-66» və başqa əsərləri, hekayələri bu fikrin yaradılmasında, formalaşmasında güclü rol oynayıb. Anar xüsusi istedadı olan nasirdi. Onun nəsri insanın psixologiyasını, daxili çəkişmələrini, ziddiyyəti, insan və həyat fəlsəfəsini təfərrüatı və dolğunluğuyula ifadə edir.

Anarı həm də ona görə çox sevirəm ki, dünyanın müxtəlif tribunalarında çıxış etməklə mənim millətimin başını uca edib, inanıram ki, bundan sonra da xalqıma başucalığı gətirəcək.

Kamil Vəli Nərimanoğlu

Qara saçlı ağsaqqal

Azərbaycan xalqının müqəddəs sənət və ziya ocağı Rəsul Rza və Nigar Rəfibəyli ailəsində 50 il bundan qabaq mart ayının 14-də dünyaya gələn Anar, sözün əsl mənasında xoşbəxt idi. Xoşbəxt idi ona görə ki, bu ocaqda iki böyük şair yaşayırdı, bu evin müqəddəs kitabları Füzuli və Sabir idi. Bir də ona görə xoşbəxt idi ki, bu oğlan uşağı iki böyük sənətkarın bir varlıqda birləşmiş gələcəyi, arzusu idi. Anarı yetişdirən bu mühit onun «Sizsiz»ində öz real əksini tapmışdır.

Anar xalq və tarix qarşısında cavabdehliyini bütün məsuliyyəti ilə duyan, dərk edən, bunu öz yaradıcılığı ilə təsdiq edən sənətkardır. Yazıçının «Dünya bir pancərədir» monumental əsəri buna tipik nümunədir. Bədii-publisistik əsərlər toplusu olan bu kitabda biz sənətkarın araşdırıcılıq istedadını, novatorluğunu, başlıcası isə vicdanlı ziyalı yanğısını görürük. Xalqın mənəvi mədəniyyətini bütövlüyü ilə dərk edən və onun hər bir zərrəsinin dəyərini, qiymətini bilən yazıçının əsərində milli heysiyyət ümumbəşəri duyğularla çulğalaşır.

Anarın bədii yaradıcılığı ilə ictimai fəaliyyəti bir-birini təbii şəkildə tamamlayır. Onun 20 ilə qədər baş redaktor olduğu «Qobustan» incəsənət toplusu Azərbaycan dilinin saflığı üçün, Azərbaycan publisistikasının demokratikləşməsi üçün, xalqın mənəvi sərvətinin öyrənilməsi, toplanması və dünya mədəniyyəti kontekstində dərk edilməsi üçün çox iş görmüşdür. Hazırda Azərbaycan Yazıçılar İttifaqının birinci katibi kimi fəaliyyət göstərən Anar ölkəmizdə yenidənqurmanın ab-havasını Yazıçılar İttifaqında təbii və gerçək şəkildə yaratmaq, ədəbi gəncliyin layiqincə yetişməsi, bir sözlə, bədii söz ustalarının zamanın tələbinə uyğun fəaliyyəti üçün əlindən gələni əsirgəmir.

Anarın ictimai, ədəbi fəaliyyəti partiya və hökmətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. Orden və medallarla təltif olunan yazıçı «Azərbaycan SSR əməkdar incəsənət xadimi» kimi Fəxri ada layiq körülmüş, respublika Dövlət mükafatı laureatı adını almışdır.

Kamil Vali Nərimanoğlu.
«Kommunist», 15 mart 1988

Mənim tanıdığım Anar

1965-ci universitetin ədəbiyyat fakültəsinə daxil oldum.

Öz həyatımı yaşayırdım. Həmin illərin bir günündə «Ağ liman» adlı romanı oxudum.

...Çox rahatlandım. İçimə qəribə bir sakitlik, ahəng çökdü. Artıq bir il şəhərdə yaşasam da, hələ də mənə uzaq olan bu şəhəri «Azərbaycan» curnalının səhifələrində – «Ağ limanda» tapmışdım.

Mən Anara «Anar müəllim» deyərkən mənim yolumu – yönümü böyük ədəbiyyata çevirən yazıçını, ziyalını düşünürəm. Və bunun üçün ona həmişə minnətdaram.

Adamlar öz ata-analarının və Zamanın övladıdır – bu ifadədəki gerçəyin sübuta ehtiyacı yoxdur.

İnsan öz zatının, yeddi arxa dönəninin yekunudur – özü də nisbi yekunu, həm də davamçısıdır. Əgər Anarın təmizliyindən, namusundan, səmimiyyət və qeyrətindən söhbət gedirsə – bu şübhəsiz, qan yaddaşı ilə qırılmaz şəkildə bağlıdır. Əgər söhbət qələmdən, təbdən, ilhamdan, yaratmaqdan gedirsə, bu da nəsildən, soydan gələn təməldir. Rəsul Rza və Nigar Rəfibəyli Anarın valideynləridir, Anar bu ailədə doğulub, boya-başa çatıb, özünü, varlığını dərk edib.

Rəsul Rzanın sakit, təmtəraqsız, qayğılı, dərdli, sevincli evi, sevgi dolu, səmimiyyətlə dolu evi Anarı Anar edən ilk məktəb olub: «Sizsiz» əsərində Rəsul Rza evinin varlığı, mahiyyəti necə varsa, elə də təsvir edilib. O ailədə boyuyən övlada nə əlavə etmək olar ki?

Sovet məkanındakı o zamankı mübarizənin əsas kanallarında Anarın tutduğu mövqe yalnız milli-demokratik mövqe deyildi, eyni zamanda rejim şərtlərini qəbul etməyən yazıçı-ziyalı mövqeyi idi.

Anarın «Anlamaq dərdi» essesi fəlsəfi-publisist etiraf, ictimai-bədii pamflet idisə, «Molla Nəsrəddin – 66» satirik hekayələr silsiləsi, «Sizi deyib gəlmişəm» pyesi bədii-poetik dirilmə, Mirzə Cəlillə qan-can yaxınlığı, yeraltı çayların uzun zamandan üzə çıxması və eyni aramlıqla, duruluqla axıb getməsi milli varlığın, milli mədəniyyətin, ana dilinin yeni təsdiqi idi.

Mənim tanıdığım Anar mənim həyatımın, yaşadığım 52 ilimin əziz adamıdır.

Öyrəndiyim «Dədə Qorqud» üçün, sevdiyim Mirzə Cəlil üçün, vurğunu olduğum Üzeyir bəy üçün, Səttar Bəhlulzadə, Vaqif Mustafazadə, Xudu Məmmədov üçün Anara minnətdaram.

Yeni ədəbiyyat zövqü və daşıdığım, sahib olduğum düşüncə üçün Anara borcluyam, mən tanıdığım Anara... hamısını demədim. Yaşayırıq, yazırıq, yaşayacağıq və yazacağıq.

Kamil Vəli Nərimanoğlu.
«525-ci qəzet», 14 mart, 1998

Anar müəllimin 60 yaşı

Yazıçı Anarın 60 yaş tamam oldu. İlahi, nə tez gəldi bu 60 yaş. Rəhmətlik Rəsul Rzanın 60 yaşı elə bil dünən olub. Qəbri nurla dolmuş Nigar xanımın 60 yaşından da elə bil üç gün keçib.

Zamanmı bizi qovur?

Bizmi zamandan qaçırıq?

Azad fikrin çayxana dövrünü, meydan dövrü əvəz etdi. Sonra parlament dövrü yetişdi.

Və yenə...

Anar bu azad dövrün özünü yaratmaq üçün dünyaya gəlib. Dünyaya gəlib ki, millətə pis deyənlərin yadına Mirzə Cəlili, Üzeyir bəyi, Sabiri, Əli bəyi salsın. Gəlib ki, ana dilimizi bəyənməyənlərə «Dədə Qorqud»u anlatsın. Bir də gəlib ki, uzun gecələrin sakitliyində ürəyindəkiləri bizə danışsın. Sevgi haqqında, vətən və vətəndaşlıq haqqında, insan ürəyinin min bir yolu haqqında söhbət eləsin.

Yazıçı Anarın 60 yaşı dup-duru təmiz əxlaqın, təmiz ailənin, təmiz ürəyin 60 yazı, 60 qışıdır.

60 illik ömrün mənası və fəlsəfəsi də elə budur.

Başqa nə lazımdır ki…

Kamil Vəli.
«İntibah» qəzeti, 20 mart, 1998

Ölməzlik dastanı

«Dədə Qorqud» dünyasını oxuduqca anlayırsan ki, dil nə qədər böyük sərvətdir və tarixdə olub dildə yaşamayan heç nə yoxdur.

Müəllif «Dədə Qorqud»u araşdıra-araşdıra bizim günlərə gəlir. Azərbaycan kəndlərində, Ermənistan və Gürcüstan ərazisində azərbaycanlılar yaşayan obalarda, oymaqlarda Dədə Qorqud dili ilə danışan çobanları, bu sayaq dil-üslubu yazıb-yaradan yazıçıları nümunə göstərir və belə bir ibrətli nəticəyə gəlir ki, Dədə Qorqud dünəndən bugünə və bugündən sabaha mənəvi körpüdür. Bu mənəvi körpünü görməmək mümkün deyil, dərk etmək, duymaq isə zəruridir.

«Dədə Qorqud»un şeir sistemindən danışan müəllifin etnogenizislə bağlı çıxardığı nəticələr inandırıcı və məntiqidir.

Başqa oğuznamələrlə aparılan müqayisələri çox maraqlıdır və əminik ki, alimlərimiz həmin müqayisələri daha geniş aspektdə mənalandıracaq, bədii sözün qan qohumluğundan doğan həqiqətlərə bir daha qayıdıcaq.

* * *

«Sizsiz» iki böyük sənətkarımız: Rəsul Rza və Nigar Rəfibəyli haqqında yazılardır.

Rəsul Rza və Nigar Rəfibəylinin sənət taleləri, zəngin, mənalı ömr yolları, hamını yandırıb-yaxan ölümləri – Azərbaycan ədəbiyyatının fonunda, bu mənzərənin içində verilmiş və fərdi olanla ictimai olan incəliklə birləşdirilmiş, vəhdətdə təqdim olunmuşdur. Fəlsəfi bir ahəng əsəri əvvəldən sonacan müşayiət edir, sənədli faktlar yeni məna alır və ədəbi həyatın gündəlik cizgilərinə belə işıq salınır. Oğul məhəbbətini Azərbaycan yazıçısı Anarın vətəndaş məhəbbəti tamamlayır və oxucuda qəribə duyğulara, müqəddəs hisslərə çevrilir, «ölüm» kəlməsini «ədəbiyyata qovuşmaq» ifadəsi əvəzləyir son ucu ölümlü dünyanın işığı, günəşi oxucunun ürəyinə hopur.

Doğrudan da dünya bir pəncərəymiş… Bu pəncərədən baxmışların qəbri nurla dolsun. Bu pəncərədən baxa-baxa yazmışlara eşq olsun. Bugün onların hamısının böyük ruhu qarşısında bağır basıb baş endiririk.

Kamil Vəliyev

İndi yalnız Azərbaycanda deyil, ümumittifaq və dünya səviyyəsində hörmətli sənətkar, ictimai xadim kimi tanınan, sevilən Anarın ictimai fəaliyyəti də, ədəbi yaradıcılığı da dolanbac yollardan keçə-keçə saflaşmış, durulaşmış, indiki yetkinliyə çatmışdır.

«Ağ liman» romanı 1966-cı ildə «Azərbaycan» curnalında çap olunanda ədəbi mühitdə sanki «partlayış» oldu. Tənqidçilərin müxtəlif fikirləri, baxışları bir həqiqəti təsdiq edirdi ki, ədəbiyyatımıza insana həyan olan, mənəvi dayaq olan əsər gəlib. Xüsusən gənclik bu əsərdə öz duyğu və düşüncələrinin əks-sədasını tapdı. Zaman hər şeyə gec-tez ədalətli qiymətini verir. Təxminən 20 il sonra «Ağ liman»ın ardı – «Beşmərtəbəli evin altıncı mərtəbəsi çap olunanda ədəbi tənqid bu əsəri bütövlükdə layiqincə qiymətləndirdi. Xarici ölkə tənqid və ədəbiyyatşünaslığında da yüksək qiymətləndirilən bu roman məhəbbət haqqında müasir dastandır. Anar xalq və tarix qarşısında cavabdehliyini bütün məsuliyyəti ilə duyan, dərk edən, bunu öz yaradıcılığı ilə təsdiq edən sənətkardır. Yazıçının «Dünya bir pəncərədir» monumental əsəri buna tipik nümunədir. «Dədə Qorqud dünyası»nın elmi və yaxud publisistik əsər olduğunu demək çətindir. Ancaq bu əsəri xalqımızın həqiqəti haqqında ürək sözü olduğunu demək çətin deyil. Bu əsərdə Azərbaycan xalqının mənəvi genişliyini, humanizmini, tarixən qərəzsiz xalq kimi ucalığını, sərtliyini, kövrəkliyini, sadəliyini «Dədə Qorqud» vasitəsilə sübut edir.

Kamil Vəli Nərimanoğlu

Ədəbiyyatımızda Anar zirvəsi

«Molla «Nəsrəddin – 66» klassik satira ənənəsi ilə çağdaş ciddi ədəbiyyatın vəhdətindən yoğrulmuş yeni tipli satiradır. Bu, böyük ustad Mirzə Cəlilin sənət ənənələrinin, yaxud «Molla Nəsrəddin» jurnalının yenidən dirçəldilməsi və ya çoxillik fasilədən sonra olduğu kimi bərpası demək deyildi. Bu, – möhkəm təməl və movcud ənənə zəminində ədəbiyyatda yeni dövrün mollanəsrəddinçiliyinin yaradılması demək idi. Və o

vaxt cəmi 30 yaşında olan Anar parlaq istedadın məhsulu olan bu satirik hekayələr silsiləsinə görə Azərbaycan ədəbiyyatının yeni dövrünün Molla Nəsrəddini olmaq səlahiyyətini qazana bilmişdir.

Ümumiyyətlə, xalq yazıçısı Anar Azərbaycan ədəbiyyatında ciddi problemlər qaldıran, milli oyanışa və gedişata təsir göstərən vətəndaş yazıçı kimi tanınır. Heç şübhə yoxdur ki, səksəninci illərin ikinci yarısında meydanlarda ən böyük güc, enerji kimi çağlayıb-qabaran milli-azadlıq düşüncəsini hazırlayıb ərsəyə gətirən yazıçıların sırasında Anar ön cərgədə dururdu.

Yeri gəlmişkən, böyük Mirzə Cəlil sənəti və Anar münasibətləri haqqında söz deməyə ehtiyac vardır.

Anar və altmışıncı illər nəsli özlərinin ədəbi mövqe-lərini həm müəyyən etmiş, həm də möhkəmləndirmişdir. Məsələnin başqa bir qiymətli cəhəti də ondan ibarətdir ki, Mirzə Cəlilin şəxsiyyəti və irsinin vulqar-sosializm tipli təqdimatdan fərqli olan real, gerçək təbliği və dərki yollarında Anarın xidməti sayəsində böyük demokrat ədibə milli və gerçəkçi mövqedən yanaşmağın əsası qoyulmuşdur. Bəlkə belə demək daha münasib ola bilər ki, Anar milli və ictimai problemləri qüdrətli vətəndaş-yazıçı Mirzə Cəlil Məmmədquluzadəyə istinad edərək, söykənərək, ondan öyrənərək, orijinallıqla, onu təkrar etmədən, özünəməxsus tərzdə ifadə etmək bacarığını, məharətini sübut etmişdir.

Onun «Sizi deyib gəlmişəm» pyesində bütün fikir və ideyalar Cəlil Məmmədquluzadənin və müasirlərinin dilindən olduğu kimi səsləndirilmişdir. Burada Anarın xidməti təkcə Mirzə Cəlilin və müasirlərinin çoxcəhətli fəaliyyətlərini tarixi-ədəbi qaynaqlar əsasında dərindən öyrənməklə bitmir. Fikrimizcə, «Sizi deyib gəimişəm» pyesindəki ən mühüm cəhət XİX əsrin sonu, XX əsrin başlanğıc illərinin hadisə və ideyalarının yetmişinci illər də sanki olmuş əhvalatlar kimi səsləndirilməsindən ibarətdir. Bundan başqa, Anara məxsus olan «Molla Nəsrəddin – 66» hekayələr silsiləsinin sadəcə adında deyil, dahə çox ruhunda əsl vətəndaş yanğısından və təbii millət sevgisindən yoğrulmuş mollanəsrəddinçilik ab-havası yaşamaqdadır. Mirzə Cəlilin ömür və sənət yoluna həsr olunmuş «Anlamaq dərdi» essesi isə yazıçı və zaman probleminin düşünülmüş elmi-ədəbi dərki və qabarıq ifadəsi idi. Bu qiymətli əsər Azərbaycan ədəbi ictimai fikrində «Mirzə Cəlil – necə varsa» təqdimatının birinci sənət proqramı, bəlkə də ilk ciddi manifestidir.

Böyük Mirzə Cəlilə həsr olunmuş «Qəm pəncərəsi» filmində də tarixiliklə müasirlik vəhdətdə təqdim olunmuşdur. Bu uğurlu film-portret Mirzə Cəlilin yalnız sənət uğurlarını deyil, cəmiyyətin müxtəlif qütblərindən gələn ağrılarını da bütün təbiiliyi və aydınlığı ilə əks etdirir.

Cəlil Məmmədquluzadə və Anar bağlılığı və əlaqəsi də eyni mənaya və məzmuna malikdir. Üzeyir Hacıbəyovun XX əsrin əvvəllərinin yeni «Leyli və Məcnun»unu yaratdığı kimi, Anar da 70-80-ci illərin orjinal Molla Nəsrəddinnaməsini yazmışdır.

«Nigarançılıq» filmi Mirzə Cəlil – Anar münasibətlərində yeni mərhələdir. Xalq yazıçısı Anar burada Cəlil Məmmədquluzadənin «Nigarançılıq», «Qurbanəlibəy», «Qu-

zu» və «Usta Zeynal» hekayələrinin motivi əsasında, bu məsələlərin hamısının ana xətlərini birləşdirən tam, bütöv və yeni bir əsər yaratmağa müvəffəq olmuşdur.

İsa Həbibbəyli.
«Yeni Azərbaycan» qəzeti, 27 aprel, 2004

Yolçu yolda gərək!

Xoşbəxt taleli sənətkardı Anar. Təkcə Azərbaycanda yox, onun hüdudlarından kənarda da sevilir, oxunur...

Amma Azərbaycanda daha çox sevilir. O qədər sevilir ki, bir neçə aylığa Türkiyəyə yollananda da Anarsızlığa gileylər, qınaqlar səsləndi.

Təbii ki, bu yazıda mən Anardan bir dramaturq və publisist, tənqidçi və ssenarist kimi söz açа bilərdim. Amma buna nə ehtiyac? Onu bilirəm ki, dramaturq Anar «Şəhərin yay günləri»ndən sevilir, ssenarist Anar «Uzun ömrün akkordları»nda etiraf olunub, publisist Anar özünün kəskin, sərt yazıları ilə çoxdan diqqəti cəlb edib (məmləkətimizin hər bir ağır anında xalqın üz tutduğu beş-on yazıçı varsa, biri də Anardır və bu çətin anlarda o, xalqının qəzəbini, hiddətini, etiraz sədasını vaxtında ifadə edib), bir ictimai xadim kimi də fəaliyyəti bəyənimlidir.

Anarın ömür yolunu tam səciyyələndirən istedad sözü ilə yanaşı ŞƏXSİYYƏT sözünü də bura qatıram. Anar şəxsiyyətdir! Ucada görünən, yeri bilinən şəxsiyyət!

Neçə illərdir ki, o, Azərbaycan Yazıçılar Birliyinə rəhbərlik edir. Müxtəlif nəsildən olan yazıçılarla dil tapmaq... Belə çətin və ağır zamanda imkan daxilində onların hər birinin qayğısına qalmaq... Ən əsası Yazıçılar Birliyini qoruyub saxlamaq... Bunlar Anarın xidmətidir. Təmkinliyi, daxili mədəniyyəti, yüksək təşkilatçılıq bacarığı bu çətin işdə onun daimi yol yoldaşıdır.

Vaqif Yusifli,
Filologiya elmləri namizədi.
«Panorama» qəzeti , 7 mart, 1998

«Biz həmişə zərərçəkən rolunda çıxış eləmişik»

Qəribə də olsa o illərdə filoloci gəncliyin idealı Əbülfəz deyil, Anar idi. Biz dissident hərəkatını o vaxt lazımınca dərk etmirdik. Dissident xəyalatı bizim üçün əlçatmaz, «o uzaq, yaşıl ada» kimi bir şey idi. Mövqeyə qaldıqda məni vətəndaşlıq heysiyyəti və bu heysiyyəti yazı və çıxışlarında ifadə etmək bacarığı cəzb edirdi. Anar bu işin öhdəsindən çox yaxşı gəlirdi. Onun mətbu sözü milli-mütərəqi rəyin formalaşmasına əsas-

lı kömək edirdi. Məsələn, «Gəzməyə qərib ölkə...» adlı yazı ilə biz əmin olduq ki, görkəmli ziyalılarımızın mühacirət odisseyası olub. Basmaqəlib ustalarının, mədhiyyəçi və bahariyyəçilərin zümzümələri ilə müqayisədə Anarın çıxışları əsl inqilab idi.

Nazif Ələkbərli.
«Müstəqil» qəzet, 10 mart, 1993

Həyatın dramatizmi

Anarın dramaturgiyası haqqında düşüncələr

Bu cəhət şübhəsiz ki, Anar dramaturgiyasının mövzu-məzmun baxımından novatorluğunu şərtləndirir. Ədibin nəsr əsərləri kimi, dramaturgiyası da gecikmiş, ömrünü bitirməkdə olan, ənənəvi mövzularda yazılmamış, əksinə, onun qələmində ilk baxışda adi görünə biləcək məsələlər sənətin qeyri-adilik məqamına qaldırılmışdır. Müəllifin dramatik müstəviyə çıxardığı həyat materialının dərinliyinə, kökünə, mahiyyətinə varmağı, onu bütün yönləri, şaxələri, aspektləri ilə göstərə bilməyi əsərlərinin canlılığını təmin etmişdir. Onun əsərlərinə baxıb da təsvir olunanlara biganə münasibət bəsləmək mümkün deyildir.

Pyes, komedıya, radiopyes, telepyes və s. – Anarın dram əsərlərinin janrca rəngarəngliyini göstərməkdədir. «Keçən ilin son gecəsi», «Şəhərin yay günləri», «Səhra yuxuları» kimi pyeslər milli ədəbiyyatımızda ciddi dram janrının təkrarsız örnəklərindəndir. Müəllifin komediya janrında yaratdığı nümunələr də özünəməxsusluğu ilə seçilməkdədir. Bu mənada ədib «Adamın adamı», «Sizi deyib gəlmişəm», «Qaravəlli» və s. kimi əsərlərilə komediya canrına yeni çalarlar gətirmişdir.

Anarın dramaturji əsərlərində milli düşüncəni narahat edən ən mühüm məsələlərə diqqətin çəkildiyini görməmək mümkün deyildir. Dramaturqun əsərləri mahiyyətcə xalqımızı qayğılandıran ciddi mənəvi-əxlaqi və sosial-siyasi problemlərə söykənməkdədir. Səciyyəvi cəhətlərdən biri dramaturqun qaldırdığı problemləri qarışıq və qovuşuq məcraya yönləndirə bilməsi, onları biri-birinə bağlayan müştərək cəhətləri arayıb-axtarması, əlaqələndirə bilməsidir. Dramaturq sovet siyasi rejiminin qurduğu saxta stereotiplərə, qəliblərə, şablonlara uymamış, konyukturaçılığa qarşı sərt müqavimət göstərmiş, bütün məqamlarda sənət mövqeyindən və milli məfkurədən çıxış etmişdir.

Vaqif Sultanlı,
Filologiya elmləri doktoru, professor.
«Xəzər» qəzeti, 24 dekabr, 2005

Anar ədabyyatımızın aparıcı qüvələrindən biridir. O yazıçı kimi bütün zamanlarda sözünü deməyə cəsarət tapmışdır. Mən Anarı siyasət prizmasından dəyərləndirənlə-

ri o qədər də haqlı hesab etmirəm. Çünki o, elə fərdi xarakterə və yaradıcılıq dünyasına malikdir ki, heç bir zaman aktiv siyasətin içərisində ola bilməz. Lakin yazıçılıq özüözlüyündə zamanla, mühitlə, hakimiyyətlə müxalifətçilik olduğundan Anarın müxalifət movqeyində durmamasına heyrət edirəm.

Vaqif Sultanlı,
filologiya elmləri doktoru, professor

Rəsul Rzanın «Gözəl dost» adlı oçerkini oxyanda dərin hisslər yaşamışam. Cənubda işləyən Sovet Azərbaycanı ziyalılarının Təbrizdən ayrılma mərasimini əks etdirən həmin oçerk hər dəfə məni gövrəldir. Mən xüsusilə bizim klassik irsin ekran taleyini görəndə kövrəlirəm. Anarın «Qəm pəncərəsi» filminiəki təsirli məqamlar məni duyğulandırır. Eləcə də «Uzun ömrün akkordları» filmi. Onları hiss-həyəcansız, göz yaşlarsız izləmək mümkün deyil.

Cəmil Həsənli,
tarixçi alim, millət vəkili.
«Yeni müsavat» qəzeti, 20 yanvar, 2009

40 ildən artıqdır ki, R.İbrahimbəyovun qurduğu bədii dünyanın sakinləri Anar müəllimin dediyi kimi, özləri öz içlərində «insanda insanlıq axtarışına» çıxıblar, onlar əhatə olunduğu mühitdən, zamandan və çoğrafiyasından asılı olmayaraq yaşadıqları dünyada da insan axtarırlar…

…Yeri gəlmişkən həmin vaxtlar «Ultimatum» pyesinə ultimatumlar veriləndə Anar müəllimin «Liteaturnaya qazeta»da müdafiə xarakterli gözəl bir yazısı dərc olunmuşdu. Hələ bundan əvvəl «9-ci Xrebtovıda» povesti haqqında da çoxsaylı tənqidlər çıxanda elə həmin qəzetdə Anar müəllim son dərəcə maraqlı arqumentlərlə Rüstəm müəllimin bu «başı bəlalı» əsərini müdafiə etmişdi…Anarın «Qəm pəncərəsi»ndən süzülən və yağış suyundan daha çox göz yaşı damcılarına bənzəyən həzin, həzin olduğu qədər də təsirli filmindən sonra R. İbrahimbəyovun «Cəlil sayağı» pyesi Mirzə Cəlil irsinə qayıtmağın çox oricinal formasını, tarixlə müasirliyin eyni sücet xəttində uğurlu şəkildə birləşdirilməsini özündə ehtiva edir.

Cəmil Həsənli,
«İşığa doğru gedən adam»(Rüstəm İbrahimbəyov – 70) məqaləsindən.
«Azadlıq» qəzeti 4, 5 fevral, 2009

Çox zaman deyirlər ki, aşkarlıq və yenidənqurma adlanan dövrdə bir sıra xalqlarda, xüsusən də ruslarda və pribaltikada totalitarizm dövründə çap üzü görə bilməyən çoxlu bədii əsərlər ortaya çıxdığı halda, bizim demək olar ki, belə sandıq ədəbiyyatımız ortaya çıxmadı. Bu sözlərdə müəyyyən həqiqəit olsa belə tamamilə razılşamaq da olmur. Ona görə ki, indi-inldi aydın olar ki, bizdə də həmin o illərdə çap olunmamış, işıq üzü gör-

məmiş bir xeyli əsər varmış. Məsələn, yazıçı Anar bir neçə il əvvəl bir sıra sandıq hekayəsini dərc etdirdi, yaxud şair Vaqif Səmədoğulunun 70-80-ci illərdə yazılmış bir çoz şeirləri oxuculara təqdim olundu. Bizə elə gəlir ki, məsələ heç də sayda, kəmmiyyətdə deyildir. Yəni adını çəkdiyimiz bu iki istedadlı sənətkarımızın ortaya çıxardığı maraqlı və oricinal əsərlərəri tamamilə kifayətdir ki, bu məsələdə bəzən hiss etdiyimiz natamamlıq kompleksindən qurtularaq, özümüzü qınayıb, özgəsinə qibtə etməyək.

Anarın hələ 58-ci ildə yazdığı və 30 ildən sonra çap etdirdiyi üç sandıq hekayəsi ilə tanış olduqda bu qənaətimiz daha da möhkəmlənir.

Nurlana Əliyeva.
«Anar-şəxsiyyət və sənətkar» kitabından.
Bakı, «Təhsil» nəşriyyatı, 1999

Sabit, möhkəmlənmiş düşüncə tərzinin dəyişilməsi, yeni idraki «variantların» qəbulu və təsdiqi, şübzhəsiz, üzün sürən prosesdir. Ancaq necə olursa-olsun, bu dəyişkənliyi görmək, yaratmaq lazımdır. Anarın «Əlaqə» povestinin də diqqət obyekti, əsasən bu məsələlərdir. Povestdə şəhərdən ayrı, tənha binanı xatırlayırsınızmı? Mən deyərdim ki, əsərin ən böyük müvəffəqiyyəti fərdiyyətçi tələbənin başına gələn hadisələrin məhz bu tənha binada təsvir edilməsidir. İnsanlarla hərtərəfli ünsiyyətdən məhrum olar gəncin başına gələn bu qəzavü-qədər belə məkanda təsvir olunmalı idi! Şəhərdən, binalardan əlaqəsi kəsilmiş bu tək bina, adamlardan ayrı düşmüş tənha gənclə digər planetlərin canlı varlıqları ilə əlaqəsi olmayan tənha yer kürəsinin uyğun vəziyyətini qabarıq göstərmək üçün ən tutarlı simvolik obyektdir. Belə əlaqələndirmənin sayəsindədir ki, povestdə möhkəm, bitgin ideya-kompoziya bütövlüyü yaradılmışdır. Əgər məhdud, dar çərçivədə insan (konkret olaraq tələbə) başqaları ilə əlaqə yarada bilmirsə, insanların toplusu-cəmiyyət, nəhayət Yer kürəsinin sakinləri də digər varlıqlarla əlaqə yarada bilmir. İnsanlardan ayrı düşmüş tələbə – binalardan ayrı düşmüş bina, planetlərdən ayrı düşmüş planet. Gözəl məntiqi əlaqədir.

Rahid Ulusel.
«Qırıq xətli telefonların əlaqəsi» məqaləsindən

Anarda pəncərə bir simvol kimi başqa dünya ilə əlaqə vasitəsidir, əlaqə yaratmaq imkanıdır («Dünya bir pəncərədir…», «Qəm pəncərəsi»).

Anar qəhramanları hər yerdə əşyaların, predmetlərin arasındadırlar. Küçələrin, vitrinlərin, taksilərin işığından tutmuş divarların bəzədilməsinə qədər hər şey etikdir, yəni Azərbaycan insanının davranış və yaşam üslubunu müəyyənləşdirir. Anarın dünyasında təsadüfi heç nə baş vermir. Hər bir hadisənin öz məntiqi var. Sücet məntiqi tale məntiqini tamalayır. Taleyin mistikası mifoloci təsəvvürlərlə bağlıdır. Telefon, radio, teleqram, təyyarə və s. işarələr vacib sücet funksiyalarını yerinə yetirir. Təsadüfi telefon bağlantısı olacaq haqqında bilgi verir. Anaran mətnlərində öncəgörənlik duyğusu (stixiyası) hökm sürür. Bəlkə böyük yazıçının fantastikaya, antiutopiyaya meyli də həmin hissiyyatın diqtəsidir?

Anar fəlsəfəsində insan yalnız təbiətdə yox, tarixdə yaşayan varlıqdır. Qəhrəmanların peşə yönümü, ömür-yaşam tərzi, nitqi də bunu təsdiq edir.

Onu bir filosof kimi, yazıçı kimi ağrıdan odur ki, müasir dünyada adamlar bir-biriylə əlaqələrini dramatik şablon kimi qururlar. İnsanlar qapalı məkanda, bir-birindən təcrid olunmuş halda yaşamağa məhkumdurlar.

Anar Azərbaycan mədəniyyət (ədəbiyyat) tarixinin, ictimai fikrinin canlı simvoludur. Şəxsiyyəti və yaradıcılıq taleyi ilə mədəniyyətimizin taleyi ilə bağlıdır. Bu çox yazıçıların psevdopeysac fəlsəfəçiliyindən, «kənd iddilliyasından» fərqli olaraq, Anar milli mədəniyyətin dönüş nöqtələrini, ağrılı problemlərini həssaslıqla duyur və təqdim edir. («Kitabi Dədə Qorqud», Mirzə Cəlil, Üzeyir Hacıbəyov…) Anarın fəlsəfəsitndə milli mədəniyyətin dönüş nöqtələri məhz şəxsiyyətlərlə bağlıdır.

Ədəbiyyatımzın Anar fəzası… Bu, metafora deyil, gerçəklikdir.

Rüstəm Kamal.
Anar fəzası. «Mütərcim» jurnalı, № 1 2008

Anar 60-70-ci illərin gəncləri üçün beləcə paradiqmatik oldu. Düzdür, biz Anar kimi saqqal saxlamırdıq, siqaret çəkəndə Anarı düşünübən çox siqaret çəkmirdik. Ancaq onun intelektual ədası, dil cesti çoxlarımıza keçdi.

XIX yüzilin axırında Azəri ruhu çox dramatik gərginlikdə Azəri olmaqla yanaşı moderni (çağdaş) adam tipi axtarışındadı. Bu axtarışlardan XX yüz ilin ortalarında ən güclüsü, məncə Anar oldu.

Anar dramatik adamdı. Mən də istəyirəm onun haqqında bir az dramatik danışım.

XX yüzilin fantaziyasında insanın yaratdığı robotların insana qarşı qiyamı arada bir dəbdəydi. Bu universal problemlə, məncə, Anar da rastlaşıb, yəni onun da yaratdıqlarının qiyamı olub.

Neçə-neçə nəsillər Anarın paradiqmaliyində formalaş-mışdı. O da bu və ya başqa şəkildə öz paradiqmalarına qiyamçı olan yetirmələrlə rastlaşdı.

Bir az da aydın olsun deyə, indiki mətbuatı və oxucunu misal gətirirəm. Sovet dövründə, aşkarlıq çağında Anar kimi beş-on yazarımız və intellektualımız dünyamıza yeni fikirlər göndərdilər. Beləcə, mədəniyyətdə yeniliyə tamarzı insanlar yetişdi. Sonralar yeniliyə tamarzı oxucuların qiyamı baş verdi. Onlar yeniliyin məntiqi axırınacan getdilər. Fikir yeniliyindən daha asan həzm olunan skandallara, krossvordlara üz tutdular. Həmin intellektualların yazılarına isə maraqlar azaldı. Beləcə, 5-10 nəfərin yaratdığı çağdaş oxucu öz yazarına qiyama qalxdı. Və əslində, bu yaxşı oldu. Yaradıcı adam bazarla oynamağı, ağır mühitdə qələbə çalmağı bacarmalıdı. Məncə, biz «70-cilər»in Anara qarşı qiyamı olub. Bunda qanqaraldıcı şeylər çoxdu. Ancaq bəlkə də, 100 ildən sonra Anardan çox dərin bir şey yazmaq istəyən araşdırıcı Anardan gözəl kəşflər edəcək.

Niyazi Mehdi

Anar müəllim dəyərli esselər, maraqlı xatirələr müəl-lifidir. Belletristikasına söz ola bilməz. Nəsri də öz yerində.

Ədəbi lider, YB-nin sədri münasibətimə gəlincə...

Anar müəllimin məqsədyönlü fəaliyyəti sayəsində bu gün tipik Azərbaycan yazıçısı, geniş ictimaiyyətimizin nəzərində təxminən onun ən uğurlu qəhrəmanlarından saydığım Surxayzadə kimi canlanır... Vaxtilə, sovet dövründə YB-nin qurultaylararası müddətdə plenumları əsas idi və burda Azərbaycan Yazıçıları təkcə ədəbiyyatda yox, həm də respublikada baş verən hadisələrə ən fəal münasibət bildirirdilər. Bu, bir növ Azərbaycan yazıçılarının ən yüksək tribünası sayılırdı. Anar müəllim YB-ə sədr gələndən sonra nə oldusa, plenumlar təcrübəsindən tamamilə imtina edildi. Nəticədə Azərbaycan yazıçıları 91-92 və 93-cü illərdə başımıza gələn müsibətlər barədə cəmiyyətə söz deyə bilmədilər. Bu, çox müəmmalı məsələ idi. Ola bilər ki, Anar müəllim yazıçıları siyasətdən kənar etmək istədi. Əslində yazıçıların ictimai həyatımızdan bu cür çıxdaş olunması cırtdan partiyaların yaranmasına səbəb oldu. Son qurultaydakı fəaliyyətini isə mən, ümumiyyətlə, Anar müəllimə yaraşdırmıram.

Nizaməddin Mustafa

Azərbaycançılıq məfkurəsində yoğrulmuş yazıçı

Anar 60-cı illər Azərbaycan ədəbiyyatına yeni ab-hava getirmiş yazıçılar nəslinə məxsus olmaqla öz yaradıcılığında bəşəriliklə milliyi bir vəhdət halına salmış, milli şüurun oyanışında və xalqımızın dünyada tanınmasında əvəzsiz xidmət göstərmişdir. O, XX əsrdə Azərbaycan xalqının yetişdirdiyi görkəmli ziyalılardan biridir. Heç şübhəsiz ki, burada Anarın valideynlərinin, əsil-nəslinin də rolu az deyildir. Anar bir ziyalı, fərd, dövlət xadimi, ədəbiyyat və mədəniyyət adamı kimi Azərbaycanın ilk müstəqil hökumətində, Xalq Cümhuriyyətində nazir vəzifəsi tutmuş və sonra repressiya qurbanı olmuş ana babası Xudadat bəy Rəyfibəylinin, Məmmədxanlılar nəslindən olan ata babası İbrahim Məmmədxanlının, bir sözlə, Bayat boyundan, Şahsevən tayfasından olan Məmmədxanın, anası Nigar xanımın, atası Rəsul Rzanın genini yaşadır. Onun xarakterində nəslinə məxsus ağayanalıq, gözütoxluq, maarifçilərə məxsus ziyalılıq vardır.

1. Yaradıcı adamlara, qələm sahiblərinə doğmalıq, səmimilik və s. Rəsul Rza 37-ci ilin repressiyasında qələm dostlarının heç biri barəsində bir kəlmə də olsun namərd söz deməmişdir. Baxmayaraq ki, onun ömrü Cavid kimi, Seyid Hüseyn kimi, Mümtaz kimi, Müşfiq kimi, 1937-1938-ci illərdə qırıla bilərdi. Onun sədaqəti, səmimiyyəti, mərdliyi, kişiliyi qırılmadı, sınmadı. Bu keyfiyyətlər onun oğlu Anara da pay kimi verildi və burada genin rolu danılmaz oldu.

2. Anarın anası Nigar xanım Rəfibəyli XX əsrin Azərbaycan qadın şairləri içərisində öz dəst-xətti olan istedadlı şairlərimizdən biridir. Onun istedadı Rəsul Rzanın nüfuzu-

nun yüksəlməsinə, ən çətin məqamlarda onun yanında olmasına, onun ən sədaqətli həyat dostu olmasına bağlıdır. Anar anası Nigar Rəfibəylinin bu mənəvi keyfiyyətlərini övlad kimi öz əməlində yaşadır, yaxınlarına, dostlarına bir pay kimi verir.

3. Rəsul Rza yenilikçi olmuşdur. Onun tərcümeyi-halının hər hansı bir məqamında mövcud olan mübarizlik yeniliyin özündən qaynaqlanmışdı. Anar da XX əsrin 60-70-ci illərində ədəbiyyata, mədəniyyətə gəlmiş istedadlı bir nəslin nümayəndəsi kimi, obrazlı şəkildə desək, başdan-ayağa yenilikçidir. O, əsrin 60-70-ci illərində ədəbiyyatda o dövrün adamlarının xarakterini, daxili aləmini, cəmiyyətdəki naqis-likləri dərindən əks etdirməyi müvəffəqiyyətlə bacarmışdır. Bu mənada Anarın «Şəhərin yay günləri» pyesində qaldırılan məsələlər ədəbi-bədii düşüncəmiz tarixində yenilikdir. «Dədə Qorqud» filminin çəkilişi yenilikdir. Elə «Ağ liman», «Beşmərtəbəli evin altıncı mərtəbəsi», «Macal», «Yaxşı padşahın nağılı», «Səhra yuxuları», «Sizsiz» əsərləri də həyat və onun mənası, yaxşılıq, pislik, xoşbəxtlik, əxlaq və s. məsələlərin qoyuluşu, həlli baxımından ədəbi-bədii düşüncə tariximizdə yenilikdir.

Anara Azərbaycan sözüylə yanaşı, türk sözü də olduqca doğmadır. Azərbaycanda Türkiyəyə olan məhəbbətin mərkəzində kimlər dayanır sorğusunu etsək, heç şübhəsiz, burada Anarın adı birincilər sırasında olacaqdır. Anar «Türkün türkdən başqa dostu yoxdur» sözlərini birdəfəlik unutmaq şərtilə türkçülük ideyalarının dirçəlməsində filoloji düşüncə sahibi olan ziyalılarımızdan biridir. Anar azərbaycanşünaslığın əsas qayəsində nəyin dayandığını və necə dayandığını yaxşı bilir. O, bu gün türkçülük ideyalarının dirçəlməsini təbii hal kimi qəbul edir. Ancaq onu da qəbul edir ki, bu işdə ifrata varmaq olmaz.

Anar azərbaycançılıq məsələləsində elə bir meyar seçir ki, onu heç kim inkar edə bilməz. Anar Türkiyəni ikinci vətəni sayır. O, yazır: «Türkiyəni ikinci vətənim sayıram.

Birinci vətənimdə – Azərbaycanda gördüyüm naqisliklər, çatışmazlıqlar haqqında tənqidi, satirik yazılar yazdığım kimi, ikinci vətənimdə bəzi xətaları müşahidə etdikcə, sözünü tutmayan, vədinə əməl etməyən, havayı söz danışan adamlarla rastlaşdıqca bu barədə susmaq istəmədim. «Muhakkak görüşürüz» hekayəsi də bu hisslərdən yaranıb. Məncə, vətəni sevmək – onu hər cür qüsurlardan, boşboğaz adamlardan xali görmək istəyidir. Və qələmi bu məqsədə yönəltməkdir».

Əslində, Ananın azərbaycançılıqla bağlı mövqeyi Azərbaycan ziyalısının ideal düşüncə tərzidir. Bu, Azərbaycan ziyalısının dünyanı milli, irqi, dini maraqlarına görə idarə etmək istəyənlərə qarşı cavabıdır. O, yazır: «...dilimizin tarixi kökləri baxımından qazax ya başqırd mənə nə qədər yaxın olsa da, ayrı dil sistemində danışan talışdan, ləzgidən ya kürddən yaxın deyil. Əsrlər boyu adət-ənənələri, məişət özəllikləri, əxlaq anlayışları, nəhayət, mətbəxləri bir olmuş tat, avar mənə eyni dil sisteminə malik olduğum xakasdan, ya yakutdan doğmadır. Ailə bağları da azəri türklərini çuvaşlarla, ya tuvalılarla deyil, talışlarla, kürdlərlə, ləzgilərlə və özünə qürurla «Azərbaycanlıyam» deyən bütün başqa millətlərlə bağlayır. Tarixi araşdırmalar, dil, ədəbiyyat tədqiqatları baxımından son dərəcə önəmli olan bir sahə – türkçülük məkanı bizi azərbaycançılıq məkanından ayıra bilməz. Azərbaycan türk dünyasının bir parçasıdır, amma Azərbay-

canın içində ayrıca bir Azərbaycan dünyası da var və bu dünyada türk olmayan azərbaycanlılar da layiqli, şərəfli yerə malikdir».

Anar bəlkə də bu dünyaya neçənci dəfədir ki, gəlib. Əlbəttə, həmişə «sözünün qədrini bilmək, düşünmək, daşınmaq, yüz ölçüb, bir biçmək, bəzən yersiz tənələrə tuş gəlmək və sair və ilaxır – bütün bunların hamısı onun taleyi olmaqla Anarın neçənci dəfə dünyaya gəlişi barəsində fikir yürütməyə əsas verir. Bəlkə də «Dədə Qorqud» filminin ssenarisinin məhz Anar tərəfindən yazılması onun bizə məlum olmayan ruhunun-genetik yaddaşının diktəsi ilə bağlıdır. Bəlkə də «Gecə düşüncələri» adlı əsərində qələmə aldıqları birinci, ikinci, üçüncü… ruhunun müasiri olduğumuz Anara məcburən yazdırdıqlarıdır.

Buludxan Xəlilov.
«Azərbaycan» jurnalı, №7, 2008

Yaxşı nağılın padşahı

«Gənclər» Teatrı. Yeni tamaşa. Anar, «Yaxşı padşahın nağılı» (iki hissəli pritça). Quruluşçu rejissor – Hüseynağa Atakişiyev.

Bir dramaturq kimi Anarın satirik yaradıcılığa onun pyeslərində həllini tapıb və Azərbaycan teatr prosesində özünə layiq yer tutur. Anarın satirik üslubu prinsipial olaraq milli «gülüş mədəniyyəti»ndən karnaval estetikasından qaynaqlanır: «Zəncirbənd» («Qaravəlli») və «Adamın adamı» komediyalarının ədəbi yaradıcılıq genezisi birbaşa milli gülüş stixiyasına bağlı olduğundan satirik hədəf də aktual olduğu qədər ümummədəni və ədəbi məna kəsb edir. Mirzə Cəlil satirik üslubunu yeni tarixi dövrdə canlandıran Anar onu öncə «Molla Nəsrəddin – 66» əsərində sınaqdan keçirib. Uzun illər ədibin irsini mükəmməl öyrənəndən sonra Anar «Sizi deyib gəlmişəm» pyesini və daha sonra «Qəm pəncərəsi» ssenarisini yazmış və film də çəkmişdir. Anarın satirik yaradıcılığının bu bölümünün maraqlı mətləbi odur ki, burada üç qatlı struktur müəyyən etmək mümkündür: Mirzə Cəlil milli gülüş stixiyasından faydalanaraq mövzuları yazılı ədəbiyyata gətirdi, onun irsi üzərində elmi-yaradıcı iş aparan Anar ədibin mövzularını yeni çağın problemləri ilə çulğaşdırmağa müvəffəq oldu. Beləliklə, mədəniyyətimizdə «zaman zənciri» bərpa olundu ki, bu da Anarın mədəniyyətimiz üçün gördüyü böyuk işlərin arasında ən böyük xidməti sayılmalıdır.

...Resenziya üçün bir qədər uzun olan bu girişin yalnız bir məqsədi var: istəyirik ki, oxucuya aydın olsun – «Yaxşı padşahın nağılı» adlanan tamaşa, sözsuz ki, Anarın ədəbi əsərinin üzərində qurulub amma «nağıl»ın dramaturci və təbii ki, səhnə həlli teatra məxsusdur.

Məryəm Əlizadə.
«Xalq» qəzeti, 24 sentyabr, 1999

Biz, siz, Anar və teatr...

Anarın dramaturji və teatr fəaliyyətinə başladığı 60-cı illərin teatr prosesini incələyəndə belə bir qənaətə gəlmək olur: o illərin teatr prosesinin Anar kimi yaradıcı şəxsiyyətə ehtiyacı var idi və Anar həmin ehtiyacı ödəməkdən ötürü teatra gəldi.

Bəs, Anar özü «kimi deyib gəldi» Azərbaycan teatr sənətinə? Bax, bu sual isə artıq mücərrəd deyil, çünki onun həllindən hər bir dramaturqun yaradıcı taleyi asılıdır. Yəni əsərlərin tamaşaçı ürəyinə yol tapacaq, yoxsa…

Anarın yazdığı dram əsərlərini, onların səhnə təcəssümünü və sonsuz tamaşaçı məhəbbətini bir araya gətirəndə sənətçinin yaradıcı prinsipi aşkarlanır.

Buradaca qeyd eləyim ki, Anar bir dəfə seçdiyi prinsipdən dönmədi: yazdığı bütün əsərləri dar, məhdud bir qrup üçün (kənd..., şəhər..., millətçi..., sosialist..., intellektual..., «qara camaat...», avanqardist..., mühafizəkar..., və s. və i.a.) deyil, bütün çağdaşlarına anlaşıqlı olmaq və təsir etmək istəyirdi. Və ona görə də Anarın hər yeni səhnə əsəri milli mədəniyyət və incəsənətin hadisəsinə dönürdü. Və bu gün də Anarı teatr sahəsində gözləyənlərin sayını və tərkibini teatr prosesi təyin edir...

Teatr Anardan ötru bir pəncərədir – bu pəncərənin şüşələri bəzən tutqunlaşır, bəzən çatlayır, bəzən qırılır, bəzən bu pəncərədən soyuq sızır, bəzən isə baharın ilıq nəfəsi... Amma hər zaman Anar bu pəncərədən dünyaya, insanlara, özünə (!) inamla baxır.

Anarın bütün personacları əslində tənhadır, amma bu tənhalıq üzücü, faciəvi deyil, çünki özləri kimi tənhalığın qədrini bilən insana rast gəlmək ümidini itirmirlər.

«Adamın hər işdə adamı gərək» gülməcəsi Anarın «insanın hər zaman insanı olsun» arzusunun bir üzüdür…

Anar da, teatrımız da əsrimizin son illərində sanki nəfəs dərmək üçün, olub-olan olacaqları daha aydın görməkdən ötrü «fasilə» elan etmişlər: Anar son illərdə teatr üçün yazmır. Anarın yeni dram əsəri yalnız öz vaxtını gözləyir…

...Anar da, teatrımız da əsərin son illərindəki bütün sarsıntılara baxmayaraq, mədəniyyətimizə, incəsənətimizə, insanlarımıza lazımdır.

Buna şubhə olmamalıdır, əks halda cəhalət qumları məmləkətimizi səhraya döndərərək hamımızı qarışıq və vahiməli yuxulara qərq edəcəkdir...

Bu isə Dədə Qorqud..., Füzuli..., Xətai..., Mirzə Cəlil..., Üzeyir bəy kim böyük şəxsiyyətlərin işıqlı xatirəsinə xəyanət olacaqdır.

Amma olmayacaqdır: əsrimizin son illəri yeni əsrin ümidlərini də üzə çıxartdı.

Teatrda bu ümidləri gerçəkləşdirə bilənlərin sırasında 60 yaşlı müdrik, dünyanın acısını-şirinini bolluca dadmış vətəndaş, insan, sənətçi Anarın yeri gözümüzün önündədir!

Anar bəy, ad günündə ən layiqli hədiyyəni özünüz bağışlaya bilərsiniz: gəlin Teatra, çıxın səhnəyə, göydən ulduzları qopardıb səpələyin məmləkətimizə…

Qoy işıqlansın!

Məryəm Əlizadə.
«Xalq» qəzeti, 14 mart, 1998

«Üns» teatrında Xalq yazıçısı Anarın yubiley gecəsi möhtəşəm keçdi. Fasiləsiz iki saat davam edən gecə sanki bir nəfəsə başa çatdı. Bu iki saat – bir ömür yolu qədərdi. Heç bir rəsmiyyət yox idi. Bu gecə – yüksək mənəviyyatın örnəyi idi, aristokrat Anarın bütün həyatına uyğun olan bir nəciblik hökm sürürdü gecədə. «Üns» teatrının rəhbəri, professor Nərgiz Paşayeva doğru qeyd etdi ki, «70 yaş Anarın yox, vaxtın yaşıdır. Anar kimi insanlar bizdən də cavandırlar, çünki həyatı və həyvatda maraqlı nə varsa hamısını dəyərləndirməyi bacarırlar».

Anar xarizmalı və Anar səviyyəli insanlar üçün 70 yaş kədərli rəqəm deyil. Bu bizə, müasirlərinə həyatı necə mənalı yaşamaq dərsi verən bir ömürdür. Anar XX əsrin tanınmış yazıçısı idi, amma XXİ əsrdə də yazıçı kimi özünü təsdiq etdi. «Ağ qoç, qara qoç» – bunun ən bariz nümunəsidir. Hər bir azərpbaycanlının öz Anarı var, Mənim sevdiyim Anar «Gecə düşüncələri»nin müəllifi Anardır. Fikrimcə Anarla tanış olan hər kəs ədəbi dahiylə, işıqlı şəxsiyyətlə, istedadlı dostla rastlaşdığına görə xoşbəxt olmalıdır.

Şəlalə Həsənova.
«Anarın yubileyinə söz ardı».
«Zerkalo» qəzeti, 20 mart, 2008

İçinə yığılmış yay: «Otel otağı» və ya bir cəngə yovşan

Anarın «Otel otağı» povestin çap edilən kimi, «Azərbaycan» jurnalının 1996-cı ildən 1-3 nömrələrində, bundan sonra isə müəyyən fasilələrlə bir neçə dəfə oxumuşam. Bu əsəri Anarın yaradıcılığında, nəsr poetikasında əsas əsərlərdən biri hesab eləməyim bu gün onun haqqında söz demək ehtiyacını doğurdu. «Otel otağı» həmişə mütaliə edilən, insanı darıxmaqlıqdan çıxaran, ona təsəllii verən, məmləkətimiz üçün müəyyən mətləbləri çox dürüstlüklə açıqlayan... bir əsərdir. Mənə elə gəlir ki, bir söz adamı kimi Anarın illər uzunu dediyi, yazdığı və ya belə deyək, yazmaq istədikləri də bu əsərdə mükəmməl poetik strukturda təqdim olunur. Əsərin poetik strukturunda ilk baxışdan çox adi, ancaq həm də mahiyyəti etibarilə qəribə, ələ gəlməyən, sözlə təsviri çətin olan bir mətləb var: bu qəlib elədir ki, toxunan kimi fəryad qoparır, xatirələr, yaddaşın qaysaq bağlayan yeri diksinir, oyanan hisslər ürəyə ağrını da, xoşbaxtlığı da birdən, qəfildən gətirir, zamanların arasından keçən tül pərdə şəffaflıqdan «cırılır», ağrıyla sevincin birbirinə qarışıb yaratdığı tufandan bir anın içində insan ölə bilər – nəfəsini dərmək istəyəndə, «yaşamaq istəyirəm» demək istəyəndə, «döşəmədən tavana qədər sükutun içindən» çırpınıb çıxmaq istəyəndə. Hər şeydən öncə ona görə ki, hadisənin özü, onun yaratdığı energetika sahəsi yaşamaq üçün yox, sadəcə keçmişdə baş verən olayların dərinliyində – mistika yuxusunun içində nəyisə götürüb yola davam etmək üçündür.

Cavanşir Yusifli.
«525-ci qəzet», 7 yanvar, 2006

Otel otağı!… Azərbaycan ədəbiyyatının, mənim fikrimcə, keçən əsrin sonlarına doğru gəlib çıxdığı (kəşf etdiyi) ən mükəmməl obrazdır, son əlli il ərzində bizim ədəbi-bədii (ola bilsin ki, hətta ümumən ictimai fikrimiz) bundan daha mükəmməl, daha həyatı, daha təsirli bir obraz yaratmamışdı.

Anar əvvəlki əsərlərində olğuğu kimi, 90-cu illərdəki əsərlərində də satirik, komik yaradıcılığını davam etdirir. «Mühakkak görüşürüz – mütləq görüşərik» hekayəsində, «İlin fəsilləri, yaxud qovluğun içindəkilər» sənədli fantaziyasında, «Nigarançılıq» telepovestində ictimai həyatın gülüş doğuran səhnələri, güclü satirik, yaxud komik obrazlar yazıçının cəmiyyətin sosial psixologiyasına ustalıqla nüfuz etdiyini, gözə görünən və görünməyən eybəcərliklərini sənətkarlıqla açıb göstərdiyini deməyə imkan verir…

Anarın «Ağ qoç, qara qoç»u siyasi nağıldır…Və bu nağıllarda «Birləşmiş Azərbaycan Respublikası» siyasi metaforası bizim tarixi ideallarımızın ifadəsi, əsrlərlə aparılmış xarici (və daxili!) mübarizələrin, mücadilələrin başlıca məqsədi kimi olduqca canlı, olduqca gözəldir. Və mənim bu nağıla inanmağım gəlir…Çünki Anara inanıram…

Anarın elmi-intellektual, ictimai-siyasi fəaliyyətini yalnız mükəmməl bir Azərbaycan ziyalısının maraq dairəsinin genişliyi, yaxud səviyyə yüksəkliyi ilə izah etmək olmaz… Onun Azərbaycan dili, ədəbiyyatı, mədəniyyəti barədə araşdırmaları onu bir dilçi, ədəbiyyatşünas, mədəniyyatşünas-sənətşünas kimi səciyyələndirməyə imkan verir. Anarın iki iri həcmli kitabdan ibarət olan «Min beş yüz ilin oğuz şeiri» antologiyası da, şübhəsiz, bu sahədəki araşdırmaların son sözü, yaxud yekunu olmaq iddasında deyil. Bununla belə, etiraf etmək lazımdır ki, türk şeirinin indiyə qədər bu həcmdə, bu mükəmməllikdə və bu keyfiyyətdə bir antologiyası hazırlanıb nəşr edilməmişdi. Anarın gördüyü işi görkəmli türkoloq, ədəbiyyatşünasların – Firudin bəy Köçərlinin, Salman Mümtazın, Rəşid Rəhməti Aratın, Agah Sirri Ləvəndin, Əhməd Kabaklının, Cavad Heyətin, Əhməd Bican Ərcilasunun… işləri ilə müqayisə etmək mümkündür. Və həmin müqayisədə Anarın ilk üstünlüyü ondan ibarətdir ki, antologiyasında eramızın 1 minilliyinin ortalarından bu günə qədər türk şeirinin demək olar ki, bütün əsas yaradıcılarını əhatə etmişdir. İkinci üstunlüyü isə, mən onda görürəm ki, Anar müasir dünya ədəbiyyatşünaslığının tədqiqat metodlarından, xüsusilə tərtibçilik sənətkarlığı üsullarından daha uğurla istifalə etdiyinə görə, türk şeirini çoğrafi deyil, daha elmi olan tarixi- etnokulturoloci prinsiplə təsnif etmiş, onun differensasiyası tarixinin kifayət qədər aydın mənzərəsini yarada bilmişdir.

Nizami Cəfərov.
«Azərbaycan ədəbiyyatının komandanı».
«Azərbaycan» jurnalı, №3, 2008

Anarın yaradıcılığına, ədəbi-intellektual və ədəbi-ictimai fəaliyyətinə Azərbaycan ədəbiyyatı tarixinin müasir dövrünün, yaxud bir neçə dövrünün deyil, bütövlükdə həmin tarixin ümumi fonunda baxmaq (və bu cür miqyaslı baxış zamanı çatdığını etiraf etmək)

lazım gəlir… Ədəbiyyvat tariximizə az-çox bələd olan bir adam kimi mən artıq bir neçə ildir ki, həmin həqiqəti demək istəyirəm.

Anar dövrü…Hər şeydən əvvəl ona görə ki, Anar 60-cı, 70-ci, xüsusilə 80-cı illərdən başlayaraq Azərbaycan ədəbi-ictimai təfəkkürünün fövqünə qalxa, Azərbaycan vətəndaşının ruhunu oxşaya bildi… Onun milli olduğu qədər də modern bədii-estetik yaradıcılıq məharəti respublikada böyük rezonans yaratdı. Anarın qələmindən çıxan elə bir hekayə, povest, roman, dram, ssenari, publisisistik yazı olmadı ki, cəmiyyətin, ədəbi-ictimai mühitin diqqətindən kənarda qalsın, xalqın sosial-mənəvi dünyagörüşünün yeniləşməsinə bu və ya digər dərəcədə təsir etməsin.

Mən elə bir yazıçı təsəvvür edə bilmirəm ki, özünə qədərki ədəbiyyatın elmi ilə Anar qədər dərindən məşğul olmuş, Azərbaycan ədəbiyyatı haqqında onun qədər söz demiş olsun… Dədə Qorquddan başlamış Səməd Vurğuna qədər ədəbiyyat tariximizin, demək olar ki, bütün zirvə, korifeyləri haqqında yazmış, onların yalnız Azərbaycanda deyil, ölkəmizdən çox-çox kənarlarda da tanınması üçün həmişə ürəkdən çalışmış Anar varisi olduğu Azərbaycan ədəbyyyatı tarixi qarşısında övlad borcunu yalnız ləyaqətlə ödəməklə kifayətlənməmiş, eyni zamanda həmin tarixi özündə canlı (və yaradıcı) bir şəkildə təzahür etdirməyin klassik təcrubəsini vermişdir. Azərbaycan Yazıçılar Birliyini və onun orqanlarını son dövr tariximizin keşməkeşlərindən, hər cür dağıdıcı təzyiqlərdən qoruyaraq günümüzə gətirib çıxaran, müasirlərindən fərqli olaraq, yalnız öz yaradıcılığının deyil, bütövlükdə ədəbiyyatın təəssübünü, qeyrətini təkcə sözdə deyil, işdə də çəkən böyük yazıçı Azərbaycan ədəbiyyatının komandanı səviyyəsinə yüksəldi, öz ədəbi-ictimai fəaliyyəti ilə elə bir məktəb yaratdı ki, onun davam etməməsi, sadəcə olaraş mümkün deyil… Azərbaycan ədəbiyyatı tarixinin Anar dövrü davam edir…Və bu dövrün ədəbi-estetik tipologiyasını, ideya-məzmun, poetika-forma özünəməxsusluqlaqlarını, intonasiyasını 80-ci, 90-cı illərdə olduğu kimi 2000-ci illərdə də məhz Anar – yaradıcılıq tərcümeyi-halının birinci yarım əsrini başa vurub ikinci yarıməsrini yaşayan böyük yazıçı-mütəfəkkir (və onun ədəbi məktəbi) müəyyənləşdirir.

Anar yüksək ziyalı mədəniyyəti, həqiqət axtarışı, mənsub oldğu dövrün (və cəmiyyətin) daxili aləminə nüfuz etməyi, onun arxitektonikasını görməyi bacaran yazıçı-intellektual xarakteri ilə seçildi. Nə «aşağılardan, nə də «yuxarı»lardan heç bir təzyiqi qəbul etmədi:nə ədəbiyyatın yaşlı nəslinin pedantizminə, nə də gənc nəslin anarxiyasına dözmədi. Və bu mübarizələrdə qazandıqlarından müqayisəyə gəlməyəcək qədər dost itirməkdən də çəkinmədi. Çünki o bu dünyaya (və ədəbiyyata) konyuktura üçün deyil, xüsusi missiya ilə, – dövr yaratmaq üçün gəlmişdi…

Nizami Cəfərov.
«Etiraf zamanı, yaxud Azərbaycan ədəbiyyatı tarixinin Anar dövrü».
«Pəncərə. Mədəniyyətə baxış» jurnalı, mart, 2008

Yazıçı üçün həmişə milli xarakteri, fərdi özünəməxsusluğu, başlıcası isə, sözün geniş mənasında dünya ilə konfliktə girməyə meyli olan həssas insan mövcüddur – Anar bu İnsanı (faktik olaraq Azərbaycan insanının) qarşısıalınmaz bir maraq və ehtirasla tədqiq edir və onun içinləki gizli sirrləri, mübhəm fikirləri, hissləri aşkarlayır.

Cəmiyyət fəlsəfəsindən insan fəlsəfsinə (müxtəlif təzahür formalarında) keçidin, elə bilirəm ki, ən professional ifadəsini Azərbaycan ədəbi-ictimai fiikrində məhz Anarın yaradıcılığı verir – bu baxımdan, nə qədər təmtəraqlı səslənsə də, Anar Azərbaycan ekzistensializminin ən böyük nümayəndəsidir.

Nizami Cəfərov.
«Seçilmiş əsərləri», II cild, Bakı,
«Elm» nəşriyyatı, 2007

Anar müasir Azərbaycan ədəbiyyatı, mədəniyyəti tarixinə hər şeydən əvvəl novator bir sənətkar, ictimai fikir tarixinə novator bir mütəfəkkir kimi daxil olmuşdur – onun sənətkarlığı ilə mütəfəkkirliyi arasında elə bir əlaqə var ki, sənətkarlığını mütəfəkkirliyi, mütəfəkkirliyini isə sənətkarlığı tamamlayır. Azərbaycan insanını Azərbaycan cəmiyyətinin (ümumən cəmiyyətin) total ictimai siyasi psixozundan xilas etmək yazıçını bu günlərdə çapdan çıxmış «Otel otağı» kimi, 60-cı illərdə (yaradıcılığa başlayandan bəri) yazdığı, demək olar ki, bütün əsərlərinin əsas ideyasını təşkil edir.

«Otel otağı» kitabı bir daha göstərir ki, Anar 60-cı, 70-ci, illərdə olduğu kimi, 90-cı illərə də Azərbaycan ictimai-ədəbi həyatının önündə gedir, cəmiyyətdə baş verən hadisələr, Azərbaycan insanının düşdüyü sosial-mənəvi problemlər onu həm bir yazıçı-publisist, həm də bır yazıçı-filosof olaraq get-gedə daha dərindən maraqlandırır, yaradıcılığının miqyasını genişləndirir, metodologiyasını mükəmməlləşdirir, dünyanın ən böyük yazıçıları sırasına çıxarır – təfəkkürün səviyyəsi ilə, emosiyanın gücü ilə, üslubunun böyüklüyü ilə...

Nizami Cəfərov

Bir ömrün akkordları...

Anar olmasaydı Azərbaycan indi bizim bildiyimizdən şübhəsiz ki, xeyli dərəcədə fərqli olacaqdı.

Anarın 65 yaşı tamam oldu.

Bu yazının ərəfəsində yadıma Anarla çoxlu yaşantılarım düşür və sayğılı oxucunu yoracağımdan ehtiyat etsəm də hər halda, bu ildönümü ərəfəsində «nə üçün bütün bunları gedib Anarın özünə demirsən?» – sualına müxtəsər də olsa cavab vermək istəyirəm.

Səksəninci illərin əvvəllərriydi. İçərişəhərdə Novruz bayramı mərasimi düzənlənmişdi və biz, İncəsənət İnstitutunun bir qrup tələbəsi Qoşa Qala qapısının yaxınlığında

bir azdan başlanacaq tədbirə tamaşa etmək üçün bir araya gəlmişdik. Partiya yetkililəri, hökumət böyükləri də ordaydılar və qəfil həmin istiqamətə gələn Anar hamının, həm də həmin hökumət böyüklərinin diqqətini cəlb elədi. Anara salam vermək üçün ona tərəf yönələn rəsmilərin yanından başqa bir dünyaya qapılmış dalğın bir Anar heç kəsə məhəl qoymadan Nizami muzeyinin tini ilə üzü aşağı keçib getdi və bu şahanə gediş heç kəsin diqqətindən yayınmadı.

İndi Anarın 65 yaşı tamam olur.

Onda Anarın 44 yaşı vardı.

Bu gün Anarı hədəfə götürənlər Anarın o zamankı yaşındadılar və müstəqil bir dövlətdə, sözə və düşüncəyə heç bir məhdudiyyət qoyulmadığı indiki zamanda dünyanın bütün yollarını məsafə anlayışı mənasında heçə endirən internet şəbəkəsinin varlığı müqabilində bir addım da olsun məsafə qət edə bilmirlər.

Və sanki ona görə bu məsələləri qət edə bilmirlər ki, Anar maneəsi var. Amma hətta ortada Anar maneəsi olsa belə, bir zaman onların kiçik qardaşları yerində olan Anar indiki Anar səddindən daha keçilməz olan sərhədləri bir göz qırpımında aşıb Moskvada «Anlamaq dərdi»nin nisgilin əhalisi yüz milyonun aşqın dövlətin insanı ilə bölüşə bilərdi.

Onun simasında Azərbaycan dovrünün bir sıra həlledici məqamları öz əksini tapmaqdadır. Etiraf etsək də, etməsək də, Anar məsələn, Yerevandan və Moskvadan baxanda Bakıda görünən ötkəm milli şəxsiyyətlərimizdən biridir və Anarın ədəbi-ictimai nüfuzunun qorunması artıq fərdi deyil, ümumazərbaycan ideoloji müstəvisinin probiemidir.

«– Anar Rəsul Rza haqqında yazır» – deyirsən.

Anarın «Sizsiz»indən sonra bir nəfərin dediyi və heç vaxt unuda bilmədiyim qapqara bir sözü xatırlayıram: «Zalım oğlu, elə bil, təkcə bunun dədəsi ölüb» – həmsöhbətim eynilə belə demişdi və qəribədirki, həmin idbar qısqanclıq duyğusu indiyə kimi rəngini və məzmununu dəyişmədən Anarın yaxşı oğul tərcümeyi-halını qarabaqara iziəməkdədir.

Anar atası Rəsul Rzadan qabaq böyük dədəsi Qorqud haqqında, mənəvi dədələri Mirzə Cəlil və Üzeyir bəy haqqında da yazıb, özu də ümumazərbaycan əhəmiyyətli əsərlər hasilə gətirib.

Anar atasının məzarı barədə də yazıb, amma daha qabaqlar Sofi Həmid aramgahındakı mistik cazibəni qəbristan kontekstindən ayırıb, Azərbaycan türkünün həyata, sabaha işıqla dopdolu nəzərlərini işıqlı rənglər və həyat fəlsəfəsi müstəvisinə çıxarıb yazıb.

90-cı ildə Qorbaçov onun haqq səsini susdurdu, mikarfonunu söndürdü, 2000-ci ildə içərimizdən kimsə onun və Rəsul Rzanın «Bakı səmasında qəzaya uğramış təyyarəsinin qara qutusunu» axtarır. Anar 1990-cı ildə Qorbaçovla dirəşdi, indi demokratiyanın Qorbaçov havasında yetişənlər onun qara qutusunu axtarır.

Anarın qara qutusu Azərbaycan mədəniyyətinin son otuz illik dövrünün səmasındadır və Allaha şükür ki, hələ də öz yerində, yəni millətin yaddaşındadır.

Anar 90-cı illərdə Türkiyəyə gedibmiş.

Anar 90-cı illərdə həm də Türkiyədən qayıtmışdı.

Və Azərbaycan mühacirət ədəbiyyatının Türkiyədən gətirdiyi örnəklərlə milli ədəbiyyatımızın daha konseptual tədqiqinə rəvac verən məlhəmi Anar idi.

Etiraf etsək də, etməsək də Anar bəyin gördüyü işlərin miqyası öz siqlətinə və keyfiyyətinə görə müasirlərindən heç kəslə müqayisəyə gəlmir, özündə daha böyük düşüncə və istedad miqyasını ehtiva edir, son otuz illik ədəbiyyat və mədəniyyət tariximizin bütün ərazilərinə yansıyır. Mircavadın, Vaqif Mustafazadənin və həm də bu gün, onu sevməyənlərin hər birinin tərcümeyi-halında Anardan bir nişanə, bir əlamət var və bütün bunları düşünərək bir də onu demək istəyirəm ki, indi Anara qarşı çıxanları bütovlükdə Mircavada, Vaqif Mustafazadəyə, varlığı Azərbaycan cəmiyyətinə ilk dəfə Anarın araçılığı ilə aşılanmış Səlim Turana, Ərtoğrol Cavidə qarşı çıxmış kimi qınayıram.

Azər Turan.
«Yeni Azərbaycan», 16 mart, 2003

«Qobustan» dönəminin Anarı fikir tariximizdə Əli bəy Hüseynzadənin ardıcılı kimi qalacaq. Ancaq o, Azərbaycan təəssübkeşi Mirzə Cəlilin də ən sədaqətli və etibarlı varisidir. Daha doğrusu, Əli bəylə Mirzə Cəlil bizim çağdaş Anarın varlığında qaynayıb-qarışıb, birləşir...

Bir böyük haqqını da heç kəs dana bilməz ki, Anar müasir Azərbaycanın məfkurəvi qurucularından biridir. Onun tənha qalması, təklənməsi Vətən məfkurəsinin zədələnməsinə səbəb ola bilər. Və bu mənada Anar tənha ola bilməz və tənha qalmamalıdır. Anara atılan daşlar Dədə Qorquda, Füzuliyə, Mirzə Cəlilə, Üzeyir bəyə toxunub sonra Anara dəyir. Yaxud əksinə. Zədələnəndə onlar bir yerdə zədələnirlər. Onlar bir yerdə zədələnəndə təkcə Azərbaycan deyil, Azərbaycanda mövcud olan uca milliyyət düşüncəsi zədələnir.

Böyük bir düşüncə çevrəsini yaradıb ona öndərlik edən Anar abidə şəxsiyyətlərimizdəndir... Hər tərəfdən baxanda görünən Azərbaycandır. Dünyanı qapsayan düşüncə tərzi tükənməz maarifçilik zövqü, təkrarsız ziyalılığı, böyük ədibliyi, diplomatik tövrü, mükəmməl şəxsiyyəti ilə o və Vətən anlamının sinonimini təşkil etməyi bacaran bu mütəfəkkür müasirimiz yüz ildə bir yetişən misilsiz Anardır. İllər ötüb keçəcək, Azərbaycan özünün Anar dövrünü hər zaman qürurla xatırlayacaq.

Azər Turan.
«Abidə insan-türkün Anarı» məqaləsindən.
«525-ci qəzet», 21 fevral, 2009

Anarın zəngin bir sənət-mədəniyyət zirvəsinə doğru getdiyi, özü də indiki və gələcək nəsillər üçün tarixi-mədəni əhəmiyyət kəsb edən ömür yoluna işıq salmaq lazım gəlir. Layiqli övlad kimi mənsub olduğu toplumun dünyada tanınmasında əlindən gələni əsirgəməyən, formalaşmasında fəal iştirak etdiyi çağdaş cəmiyyətimizin ədəbi-mədəni, estetik-fəlsəfi, ictimami-siyasi düşüncəsini istiqamətləndirən intellektual şəxsiyyəti və

çoxçalarlı fəaliyyfəti barədə hərtərəfli mülahizələr yürütmək, sözsüz ki, çətindir. Fəqət, çağdaş milli sivilizasiya tariximizin müəlliflərindən biri kimi xalq yazıçısı Anarın millətimizin ictimai-siyasi, ədəbi-mədəni həyatındakı rolu və xidmətlərinə vaxtında, özü də qədərincə qiymət vermək də çox vacibdir.

Aydın Xan (Əbilov),
kulturoloq.
«Milli yaradıcı intellektuallığın Anar zirvəsi»
(Xalq yazıçısı Anarın yaradıcılığı ətrafında kulturoloji gəzişmələr)
(Müəllifin «Kulturoloji – alternativ düşüncələr» kitabında.
«Elm» nəşriyyatı, 2006)

Nəinki tanış ola bildiyim dünya ədəbiyyatı nasirləri, hətta müasiri olduğum Azərbaycan yazıçıları arasında dünyagörüşümün, bədii-estetik zövqümün formalaşmasına Anar qədər təsiri olan yazıçı çox az olub…

Anarın son nəsr əsəri – «Ağ qoç, qara qoç» utopik və antiutopik nağıllardan bəhs edən və həcmcə o qədər də böyük olmayan yazı elə bil ki, təsadüfən yarandı. Müəyyən fasilədən sonra bir neçə il əvvəl bədii nəsrə dönən yazıçının sözügedən əsəri dərc olundu və dərhal da böyük əks-səda doğurdu. Əsər haqqında çoxsaylı təriflərlə bərabər, çoxsaylı haqsız tənqidlər də yazılırdı. Bu gün Azərbaycan mətbuatında elə bir xaos, özbaşınalıq, qanunsuzluq – mən bu sözlə ilk növbədə daxili tələbatdan doğan, daxili senzorun diktəsi ilə müəyyənləşən qanunların pozulmasını nəzərdə tuturam, yəni söhbət vicdansızlıqdan gedir – hökm sürür ki, hətta Allah özü belə göydən yerə ensə və öz yaradıcılıq məhsulunu ortalığa qoysa, hər şeyin üstündən qara xətt çəkməyi vərdişə çevirənlər ona da dodaq büzərlər.

Anarın «Ağ qoç, qara qoç» əsərinin özəlliyi ondadır ki, dünya utopik və antitutopik ənənəsini sintez edən yazıçı ancaq utopik yaxud ancaq antiutopik əsər yazmayıb, utopiya və antiutopiyanı paralel zamanlarda mövcud olan məkanlar kimi qələmə alıb. Bunlardan birincisi, şübhzəsiz ki, insanın daxili dünyası, arzu və idealları, ikincisi isə onunla daban-dabana zidd olan gerçəklikdir. Əsərdə qarşılaşan utopiya və antiutopiyanın timsalında əslində insanın daxilindəki zaman-məkanlarla «xarici» zaman-məkan qarşılaşırlar və onlar arasındakı antoqonizm «Ağ qoç, qara qoç»a açıq-aşkar bir faciəvi ton verir…

Əsəd Cahangir.
«Ağ saç, qara saç» kitabından.Bakı, «Nurlan», 2006

Dünya şöhrətli yazıçı, həvəskar şair

Üşaqlıqdan sözə vurulan, gəncliyini sözlə yoğuran, ömrünün hər anında sözə sədaqətlə yazıb-yaradan Xalq yazıçısı Anarla hər dəfə rastlaşanda düşünürdüm ki, iki şairin ülvi sevgisindən doğulan bu insan niyə şair yox, yazıçı olub? Bu yaxınlarda Anar müəllim mənə «Şair olmaq bir həvəsdi» adlı şeirlər kitabını verəndə təəccüblənmədim. Anar mənim aləmimdə həmişə şair idi. Haqqında «Anlanılmamaq dərdi» adlı kitabımı yazanda da onun bütün yaradıcılığını oxuyub bəzi şeirlərilə də tanış olmuşdum. Amma Anarın nəsr əsərlərindəki poetika, publisistikasındakı poeziya, kinolarındakı şeirlər də düşündüklərimi təsdiqləyirdi.

Müəllifin Şuşa nisgili də, Zəngilan həsrəti də təsirli obrazlarla obrazlaşıb. Bir şeirdə Şuşa dərdini, sinə dağı olan torpaq itkisini yaşayaraq, sonda «Hökmən görüşəcəyik sabah Cıdır düzündə» ümidlə səbr edirsə, digərində Zəngilanı görmədiyini bildirir. Təəssüf hissi ilə Azərbaycanı qarış-qarış gəzdiyi halda, bircə Zəngilanda olmadığını qeyd edir və sonda «Mən gedəcəm Zəngilana. Gedəcəm axı... Gedəcəm axır... « hökmünü verir. Bu şeirdə bir güclü etiraf var:

Atlarımız yəhərsizmiş,
Üzəngisiz, kəmərsizmiş,
Maşınımız təkərsizmiş,
Əsgərimiz təpərsizmiş,
Sərhədimiz çəpərsizmiş,
Yurdumuz Kəlbəcərsizmiş,
Ana, deyim, dilim yansın,
Sənin oğlun hünərsizmiş.

Lakin növbəti bənddə şair yenə də ümidlənir və vətənə müraciət edərək deyir ki, küsmə, ana, övladından bezmə, az qalıb bir gün öz gözünüzlə görəcəksiniz ki, atlarımız yəhərlidir, üzəngili, kəmərlidir, əsgərimiz təpərlidir, «Ana, məndən arxayın ol, Sənin oğlun hünərlidir».

Ümumiyyətlə, Anarın şeirlərində diqqəti çəkən ən səciyyəvi cəhət səmimilikdir. Anar şeiri şair olmaq üçün yazmayıb. Sadəcə, nəsrə sığmayan duyğularım misralayıb, bu şeirlər alınıb. Burada hər bir zümrədən olan adam zövqünə gorə şeir tapıb oxuya bilər. Bəlkə elə əsl şairlik də budur.

Sona Xəyal.
«Kaspi» qəzeti, 14 mart, 2008

Jazıçı və folklor

Anar xalq ədəbiyyatından gələn bu motivlərlə kökləyib əsərlərini. O, xalq ədəbiyyatı əsasında yaratdığı sənət əsərlərində istədiyinə naıl olur. Yüksək bədii ümumiləşdirmələr, yüksək ideyalar, zəngin yazıçı təxəyyülü, sənətkarın demək istədiyi fıkir xalq ədəbiyyatı fonunda, onun obraz, motiv, süjet və qaynaqlarından yararlanmaqla yüksək keyfiyyətlərə malik sənət əsəri kimi oxucu qarşısına qoyulur. Min-min illər öncə yaradılan bu eposlardakı milli birliyə çağırış simvolları Anarın əsərində mükəmməl bir süjetə çevrilir.

«Dədə Qorqud»un yaşını, kökünü, bu kıtabı yazan müəllifin adını, onun şifahi, yoxsa yazılı sənət əsəri olmasını, folklor dəyərləri üzərində epos şəklinə düşməsini və s. məsələlərin araşdırılması tədqiqatçıların diqqət mərkəzində durur. Bütün bunlar Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə məhəbbət üstündə köklənib. Tarixçi onu tarixi baxımdan, ədəbiyyatşünas onun sənətkarlıq məziyyətlərini, folklorşünas onun folklor görüşlərini tədqiq etdiyi kimi, yazıçı Anar da «Dədə Qorqud»a hər aspektdən-elmi, ədəbi, bədii aspektdən yanaşır. Azərbaycan xalqı onun ssenarisi əsasında çəkilmiş «Dədə Qorqud» fılmiylə sanki «Kitabi Dədə Qorqud» dastanlarını yenidən kəşf etdi.

Anar xalqrmızın qüdrətli söz abidəsi «Kitabi-Dədə Qorqud» dastanlarını ekranlaşdırmadı, əksinə, əvvəlcə onu realist bir qələmlə povest materialına çevirdi, əsərdə qoyulan, mövzu-ideyalara toxunmadan dastana yeni çalarlar gətirdi, on iki boyu bir süjetin daxilində həm mövzu cəhətdən, həm də ideyaca ümumiləşdirdi və bütün boylarda qoyulan mərdlik, qəhrəmanlıq, vətənpərvərlik, azadlıq, bərabərlik, milli ideyalarını qorumaq şərtilə türk dünyasının əzəli, əbədi birlik haqqında düşüncələrini, istək və arzularını yenidən reallaşdırmağa səsləmiş olur.

Gülxani Pənah.
«Kredo», 20 mart, 2008

Mübarək macal

Seçki başa çatdı. Anarın parlamentə namizədliyini verdiyi 88 saylı Göyçay seçki dairəsindən ANAR yox, başqası seçildi. Bəs indi Anarın mənim müdafiəmə ehtiyacı varmı? Əşhədən və əşhədən. İndi bir xalq olaraq bizim ANAR kimi müdafiə sipərinə ehtiyacımız var və mən o sipəri dəyərləndirə bilmədiyimiz üçün Anara üzr məktubu yazıram.

Sağ olsun hökuməti, keçirtdiyi parlament seçkiləri mənim tərəddüdlərimə, ehtiyatkarlığıma son verdi. Ata-baba yurdunuz Göyçayın balaca «padşah»ından, buyruqqulu 5-3 dairə seçki komissiyası üzvündən səslərini qoruya bilməyən göyçaylıları da sağ olsunlar, məni ayıltdılar ki, Anarı vaxtında qorumaq lazımdır; heykəlləri, Fəxri Xiyabanları dövlət bizsiz də qoruyur. Anarı sağlığında bəzən mirvarini balıqqulağı parıltısına dəyişən, pafosa, bəlağətə, 1 kilo yağa, 5 «Şirvan»a, qır asfalta aldanan sadəlövh cəmiyyət içində dəyərləndirmək, anlatmaq lazımdır ki, yerləri dəyişik salmasınlar; millət onsuz da gectez öz böyüklərinə tapınır, yerlərini, mərtəbələrini bilir.

2003-cü ildə Azərbaycanın mərhum prezidenti Heydər Əliyev dünyasını dəyişəndə Siz «525-ci qəzet»də «Qalib gəldi, qalib getdi» adlı bir esse yazdınız. Sağlığında, hakimiyyətdə olanda onu tərənnüm edən yüzlərlə hesablanmış difiramblar yazılsa da, ölümündən keçən müddətdə mən hələ də bu səmimiyyətdə, bu kədərdə və Heydər Əliyevin tarixdəki yerini bu qədər aydınlıqla göstərən, xidmətlərini dəyərləndirən ikinci bir yazıya rast gəlməmişəm. Özü də bu sadəcə, Sizinlə dost olmuş dövlət rəhbərinə şəxsi sayğı borcu deyildi. Heydər Əliyev hakimiyyətinə, siyasi fəaliyyətinə birmənalı münasibət bəslənməyən cəmiyyətdə Sizin «Qalib gəldi, qalib getdi» esseniz toplumu sayğıya, ehtirama və etirafa dəvət edir, yol göstərirdi.

Bundan daha öncə isə Heydər Əliyevin səhhətinin pisləşdiyi, prezident seçkilərinə hazırlıq getdiyi, ölkədaxili siyasi proseslərin partlayış həddinə çatdığı vaxtda «Ağ qoç, qara qoç» adlı çox dəyərli bir əsər yazmaqla seçiləcək yolların Azərbaycanı hara aparacağını göstərmişdiniz.

Siz 1987-ci ildən 2005-ci ıl 6 noyabr seçkilərinədək deputat mandatı daşımısız. Azərbaycan SSR Ali Sovetinin, SSRİ Ali Sovetinin sessiyalarında, SSRİ Ali Sovetində, SSRİ Xalq Deputatları Qurultayında həmin mandatdan məkrli imperiya siyasətinə qarşı silah kimi istifadə etmisiz. Zorla cəlb edildiyimiz Qarabağ müharibəsi, başımıza gətirilən Xocalı və 20 yanvar müsibətləri, Azərbaycan həqiqətləri bu dövr deputat fəaliyyətinizin əsas hədəfləri olub. İki çağırış Azərbaycan Milli Məclisində isə stabil qanunvericiliklə məşğul olmuş, dövlət dili, tarix və mədəniyyət abidələri, muzey, kino, folklor və digər mədəniyyət sahələri üzrə strateji qanun layihələrinin hazırlanmasına bilavasitə rəhbərlik etmisiniz.

Bunları xatırlatmaqla demək istəyirəm ki, Sizin parlamentarlığınızdan, ictimai fəaliyyətinizdən Azərbaycan xalqı, yalnız və yalnız qazanıb. Bəs ədəbiyyatımız, bəs yazıçı Anar da qazanıbmı? Mən bu suala birmənalı şəkildə – yox – deyirəm. Çünki qəti əminəm ki, «Otel odası», «Vahimə», «Qırmızı limuzin», «Ağ qoç, qara qoç» macal tapıb yaza bildiklərinizin cüzi bir hissəsidir. İctimai işlər, mübarizə, parlament kimi qeyri-yazıçı fəaliyyətləri yazıçı Anarın neçə-neçə monumental romanlarını, unikal hekayələrini əjdaha kimi üdub. Və siz özünüz də bunu bilirsiz. Bilə-bilə də itkiyə getmisiz; Ədəbiyyatı xalqın ayağına vermisiz. O xalqın ki, dünya duracaq olsa, heykəlinizin ayağına gül səpəcək. Mirzə Fətəlinin, Mirzə Cəlilin, Üzeyir bəyin ayağlarına səpdiyi güllər kimi.

93-cü ildə Türkiyədə yaşayarkən qürbət dolu bir şeir yazmışdınız:

«Gəl qoşulaq durnalara,
Vətən sarı uçaq, uçaq...»

Mənə belə gəlir ki, son 15 ildə ictimai qarğaşalardan macal tapıb həqiqi yazıçı ömrü yaşamamanız da bir başqa cür qürbət idi. Sağ olsun baiskarları ki, Sizə qürbətdən Ədəbiyyat Vətəninə dönməyə macal verdilər.

Bəsti Əlibəyli.
«525-ci qəzet», 19 noyabr, 2005

«Açar mətnin özündədir» (Cak Derrida) fikrinə əsaslansaq Anarın «Ağ qoç, qara qoç» utopik və antiutopik nağıllarının açarı elə əsərindən götürdüyümüz «nağıl həyatdan daha gerçəkdir» ifadəsindədir. Mətndə təqdim edilmiş bu cümlə kifayət edir ki, bütünlükdə onun məğzini, yazılma məqsədini, strukturunu və ümimiyyətlə mənasını dərk edəsən. Əsərdə utopik nağıldan daha artıq antiutopik nağıl gerçək təsir bağışlayır. Söhbət reallıq qatından gedir. Nağıl kimi təqdim edilən əsər elə nağıl sücetinin üzərində qurulub və bu iki hissə çılpaq həqiqətlərin, bir çox siyasi proseslər, cəmiyyət, dövlət və hakimiyyətlə bağlı düşüncələrin, həmçinin mədəniyyətimiz haqda fikirlərin söylənməsi üçün vasitə rolunu oynayır. Təkcə Azərbaycanın yox, dünyəvi proseslərin istiqamət xətti də bu hissənin reallığına oxucunu daha çox inandırır. Çünki əsər nə vaxtsa ola biləcəklərdən yox, artıq olanların təsvirindən ibarətdir.

Nərgiz Cabbarlı.
«Yeni əsrimizin nəsrində yeni olan nədir?» məqaləsindən.
Müəllifin «Yeni nəsil ədəbiyyatı –2» kitabında.
«Qanun» nəşriyyatı, 2008.

Müasir dünyanın xəyal və gerçəklikləri

(Anarın «Ağ qoç, qara qoç» romanı fonunda)

Xalqının sevincini və kədərini çiyinlərində daşıyan, doğma Vətəninin, millətinin, ana dilinin qorunması üçün həmişə fədakarlıqla çalışan sevimli yazıçımız Anarın məhz belə həssas bir dönəmdə qələmə aldığı «Ağ qoç, qara qoç» əsəri son dövr nəsrimizin ən böyük hadisələrindən biri hesab edilə bilər. O, yaşı insanlığın yaranma günündən sayılan folklora, daha doğrusu, xalq müdrikliyi ve fəlsəfəsinə söykənərək şahid olduğu bütün gerçəklikləri dəyərləndirmiş, Azərbaycanın gələcəyini gözləyən olayları özünəməxsus bir üslubda qələmə almışdır.

«Məlikməmmədin nağılı»nda əfsanəvi Zümrüd quşu Məlikməmmədin işıqlı dünyaya çıxmasına kömək edir. Bəs, Azərbaycan necə, ona da kimsə kömək edəcəkmi? Buna yalnız öz gücümüzlə nail olacağımıza inanan yazıçı onun yollarını da göstərir: «Əvvəla, ağ qoçu qara qoçdan seçə bilmək lazımdır. Sonra da sıçrayıb ağ qoçun belinə minəndə elə möhkəm oturmalısan ki, səni qara qoçun belinə ata bilməsin».

Yazıçının narahatlığına əsas var. Biz son yüzillik tariximizdə istər Cənub, istərsə də Şimali Azərbaycanda dəfələrlə işıqlı dünyaya düşüb, yenidən onu itirərək, qaranlıq dünyaya qayıtmışıq. Lakin, nə yaxşı ki, ən azından əsər ümidverici sonluqla bitir: «Məlik qumların üstüylə qoçlara tərəf addımlamağa başladı. İndi lap aydın görürdü, Özü də orda tək bir qoç qalmışdı: ağ qoç. Amma Məlik irəlilədikcə elə bil o da uzaqlaşırdı».

Anar «Ağ qoç, qara qoç» əsəri ilə gələcəyin yalnız öz əlimizlə qurulacağına, Dərbənddən Həmədanacan, Qazaxdan Qəzvinəcən qürurla himni dinləyən milyonlarla fira-

van insanların Vətəni bütöv Azərbaycanın yaranacağı günə oxucusunu inandırır. İnam isə qələbənin əsas şərtidir.

A.Həsənqızı.
«Xəzər» qəzeti, 11 oktyabr, 2005

Anar bir ədəbi-ictimai xadim və xalqının milli taleyinə dərin tellərlə bağlı olan qeyrətli vətəndaş yazıçı kimi əsərləri ilə zamanın bütün problemlərinə müdaxilə etməkdən çəkinmir. Onun bədii irsi bizi yaddaşın və tarixin dərslərindən uzaş düşməyə qoymur. Sənətkar bütün mümkün vasitələrindən istifadə edərək ruhumuzu mənəvi dəyərlərlə qidalandırır, daha doğrusu , bizi daim gözəllik və həqiqət axtarışına səsləyir.

Fidanə Musayeva.
«Anarın bədii nəsrində xarakter problemi» kitabından.
Bakı, «Elm» nəşriyyatı, 2003

Anar insanın yazıçısıdır. Onun nəsrinin tipoloci əsasında özünü və cəmiyyəti «anlamaq dərdi»nə mübtəla olmuş qəhrəman durur. O qəhrəman ki, mənəvi əxlaqi aşınmalara və xaosa məruz qalmış cəmiyyət ilə əks qütbdə dayanır.

Məsudə İslamzadə.
«Azərbaycan «Yeni nəsr»inin dili və üslubu
(Anar, Elçin, Ə.Əylisli, S.Azərinin nəsr əsərləri əsasında)
Bakı, «Çaşıoğlu» nəşriyyatı, 2008

İşiqlı sabaha doğru

Ədəbiyyatımızda çox önəmli bir yer tutan xalq yazıçımız Anarın «Ağ qoç, qara qoç» əsəri məni valeh etdi.

Yaşadığımız bu çətin, keşməkeşli, problemlərlə dolu həyatda xalq yazıçısı Anarın belə möcüzəli əsərinin meydana gəlməsi məni bir tədqiqatçı kimi çox sevindirir. Bu əsər dəyərli yazıçımızın ancaq özünün bələd olduğu gizlin dünyasının bütün aləmə səs sala biləcək hayqırtısıdır: yatmışları ayıltmağa, ayılmışları isə mübarizəyə çağırır. Yerinizdə mürgüləməyin, oxuyun, dəyərlənin, gələcəyə, işıqlı sabahınıza inamla, vuqarla addımlayın!

Sevinc Muğanna.
«525-ci qəzet», 6 noyabr, 2004

Sənət adamları

Alovlanan tonqallar

Folklora yaradıcı münasibət bəsləyən, ondan dövrün tələblərinə uyğun şəkildə bəhrələnən istedadlı insanlarımızdan biri də Anardır. Əsrlərin sınağından çıxmış «Kitabi Dədə Qorqud» motivləri əsasında ssenari yaratmaq, sözün həqiqi mənasında, məsuliyyət, yazıçı hünəri istəyirdi.

Ssenari müəllifi dastanın boylarını, əlaqədar rəvayətləri, xalq deyimlərini diqqətlə öyrənmiş, onun mətninə yersiz aludəçilik göstərməmişdir. Anar çoxplanlı eposu olduğu kimi ekrana köçürmək məqsədi güdməmiş, onun bəzi sucet xətlərindən, qəhrəmanlarından imtina etmiş, əsərin əsas ideyasına sadiq qalaraq daxili çəkişmələri, müharibə dəhşətlərini, bununla əlaqədar faciələri ümumiləşdirmiş, nəciblik, xeyirxahlıq ideallarını ön plana çəkmişdir. Ssenarinin bədii dili – səlisliyi, canlılığı və poetikliyi tamaşaçıların diqqətnni cəlb edir ki, bu da filmin emosional təsir qüvvəsinin gücləndirir.

Film çox uğurlu finalla qurtarır – xalq yenilməzliyinin təntənəsilə! Daxili çəkişmələr, düşmənlərin həqarəti, qarəti xalqın inamını, yenilməzliyini qıra bilmir. Tural və Azər xalqı tarixi gerçəkliyə aparan, nəsillər arasında mənəvi bağlılıq yaradan rəmzi qüvvələrdir.

«Dədə Qorqud» «Azərbaycanfilm» studiyasının nailiyyətidir. Bu əsər tarixi janrda yaradılmış kino sənətimizin diqqətəlayiq nümunələrindən biri kimi qiymətləndirilə bilər.

Rza Təhmasib,
Rejissor, Xalq artisti

Mən yüksək şəxsiyyətli, sevimli şairimiz rəhmətlik dostum Rəsul Rzanın oğlu, mənimlə müqayisədə gənc dostum Anarı ona görə sevirəm ki, o, atasından gələn bir çox insanı keyfiyyətləri keşməkeşli dövrlərdən keçirərək özündə yaşada bilib, öz zəhməti, öz çalışqanlığı hesabına biliyini, səviyyəsini artıraraq kamil bir insan, çoxcəhətli yaradıcılığı olan həssas, duyğulu bir sənətkkr və yüksək mədəniyyətli dövlət xadimi olub.

Tofiq Quliyev.
Bəstəkar, Xalq artisti.
(«Oğuz eli» qəzetinin Anara həsr olunmuş xüsusi buraxılışında)

«Azərbaycanfilm» studiyasında yaranmış və Mərkəzi Televiziyayla nümayiş etdirilmiş filmin ssenari müəllifi və rejissoru Anardır. Film bəstəkarın yaradıcılığının dərin xəlqi kökləri, onun doğma torpaqla üzvü bağlılığını nümayiş etdirir. Xatirələrin, tarixi sənədlərin bədii kinoyla bağlanması bəstəkarın talei, Azərbaycan musiqi-səhnə sənətinin inkişaf yolları haqqında düşüncə filmi yaratmağa imkan vermişdir.

Rəşid Behbudov,
SSRİ Xalq artisti.
«Pravda» qəzeti, 15 fevral, 1983

Mən Anara hörmət edib, ona görə çox sevirəm ki, o, həm istedadlı yazıçıdır, daha geniş mənada sənətkardır, həm də mənim dostum rəhmətlik Rəsul Rzanın oğludur. Ona bütün işlərində Allahdan uğurlar diləyirəm.

Mikayil Abdullayev,
Xalq rəssamı

«Gün keçdi» filminin ssenarisini Anar öz lirik hekayəsi əsasında yazıb. Səmimiyyətlə və həssaslıqla işlənmiş bu hekayə ilə Ümumittifaq oxucuları «Literaturnaya qazeta»nın səhifələrində tanış olmuşlar. Təbiidir ki, oxucuların rəqbətini qazanmış bir hekayə əsasında film yaratmaq ideyası razılıqla qarşılandı. Hekayənin ssenari üçün material verən səhifələri filmin ən yaxşı epizodlarını təşkil edir, bu epizodlarda hekayənin öz ruhundan doğan bir təbiilik, zəriflik və həssaslıq var... Recissor Arif Babayev ssenarinin ən yaxşı epizodlarını ekrana köçürərkən həssaslıq göstərmişdir.

Həsən Seyidbəyli,
Xalq artisti.
Azərbayan kinosu – 71.
«Ulduz» jurnalı, № 7, 1972

Müasir həyat haqqında pyes axtarışlarımızda bizi nasir və dramaturq Anarın «Şəhərin yay günləri» əsəri cəlb etdi. Ədəbiyyatımızda gənc nəslin ən maraqlı nümayəndələrindən olan Anarın yaradıcılığı teatr kollektivimizin diqqətini çoxdan çəkmişdi. Ümid edirik ki, bu müəlliflə görüşümüz məhsuldar olacaq və gələcək əməkdaşlığımızın təməli qoyulacaq.

Tofiq Kazımov,
Xalq artisti.
Teatrın bədii rəhbəri və baş rejissoru.
«Teatr» jurnalı, №9, 1977

Anarın «Torpaq, Dəniz, Od, Səma» ssenarisi məni yeniliyi ilə cəlb etdi. Bu həm olduqca müasir, həm də dərindən xəlqi əsərdir. Əsər folklol obrazlarıyla aşılanıb. Orijinal və dürüst kompozisiyası, qəhrəmanların çox ifadəli obrazları var. Ekranda canlanldırmaq üçün gözəl materialdır, amma bunu həyata keçirmək də asan olmaycaq. Hər novella bitkin sujetə malik olmaqla bərabər filmin ümimi fikrinin də simvolik ifadəsidir – bu fikir insanların işıqlı arzuları, humanist cəhdləri və xeyirli işləri haqqındadır. Bütün bunlar da nəsldən nəslə keçir, dəyişir və babada, oğulda, nəvədə hər dəfə yenidən təkrar olunur.

Şamil Mahmudbəyov.
«Torpaq, Dənizi, Od, Səma» filminin quruluşçu rejissoru

Tallin, Moskva, Roma, Paris və dünyanın bir çox böyük şəhərlərində olmuşam və oradan Azərbaycana baxanda həmişə Anarı görmüşəm.

Toğrul Nərimanbəyov,
Xalq rəssamı

Böyük məmnuniyyətlə bu işə girişdim. Birincisi mənə yaxın olan zəngin Azərbaycan fokloruyla təmasda olacağıma görə. İkincisi, Anarla – hər şeydən başqa nadir maarifçilik bacarığına malik olan yaşıçıyla – əməkdaşlıq etməyi sevirəm. Bax bu səfər də Anar bizim ədiblərin çoxdan etməli olduqları işi gördü, Azərbaycan xalqının ulu əcdadları – oğuzların qədim abidəsini «Kitabi Dədəm Qorqud»u geniş oxucu kütləsi üçün (həm də yalnız yeniyetmələr üçün deyil) maraqlı bir formada yenidən işlədi. Mən işlədi deyirəm, çünki Anar dastanın bütün əsas süjet xətlərini və hətta epizodlarını əhatə etdi, amma onun povesti orijinal əsərdir, dastandan fərqli olaraq vahid kompozisiya əsasında qurulub, hadisələrin dəqiq inkişafı, aydın ifadə olunmuş ideyası var.

Toğrul Nərimanbəyov.
«Literaturnaya qazeta», 22 iyul, 1981

Bəllidir ki, poeziyamızla müqayisədə prozamızın yaşı azdır. Buna baxmayaraq XX yüz ildə nəsrimizdə fərəhli hadisələr olub. Onların içərisində Anarın özünəməzxsus yeri var.

Arif Məlikov,
SSRİ Xalq artisti

Anar həyatda, sənətdə heç kimə bənzəmir, ədəbiyyatımızda onun özünəməxsus yeri və dəsti-xətti var. Hər hansı bir əsərini oxuyanda bilirsən ki, bu, Anarın qələmindən çıxıb. Elə özünün çəkdiyi filmlər də adi bədii filmlər deyil. Bunlar həm də görkəmli sənətkarlarımız haqqında monumental tədqiqat əsərləridir.

Mən Anarı yazıçı kimi çoxdan tanıyıram. Mən çox rejissorlarla işləmişəm. Amma Anarda başqalarından fərqlənən cəhətlər görmüşəm. Çəkiliş meydançasında çox danışmaqla, obrazı aktyora uzun-uzadı başa salmaqla işi yoxdur. O, baxışları ilə, iki gəlmə sözlə aktyoru inandırır. Mən Anarla fəxr edirəm. Moskvada yaşlı nəsldən olan ədiblərin ona necə hörmət və izzətlə müraciət etdiklərini görəndə ürəyim dağa dönürdü...

Həsən Məmmədov,
Xalq artisti

Mən çox sevinirəm ki, Anar kimi adamla bir şəhərdə, bir zamanda yaşayıram. Anar geniş qəlblidi. O büsbütün, başdan ayağa yaradıcı adamdı. Əxlaqı, mənəviyyatı o dərəcədə yüksəkdi ki, adam onun yanında səhv etməyə qorxur. Anar yüksək prinsiplərin, tələblərin adamıdı. Ancaq o özünə daha çox tələbkardı.

Anar maraqlı yazıçıdı, bu günün reallığını bəşəri tələblər çərçivəsində qələmə alır.

Eldar Quliyev,
Kinorejissor, Xalq artisti.
«Mədəniyyət» qəzeti, 14-17 mart, 1998

Anarın bizim kinematoqrafiyadakı rolu olduqca böyükdür. Onun yaradıcı kimi iştirakı ilə çəkilən filmləri sadəcə olaraq sadalamaq belə çətindir. Hələ demirəm ki, bu, yalnız kəmiyyətinə deyil, həm də geniş bədii diapazonuna, dövrü, xarakterləri, janrları, əhval-ruhiyyələri əhatə etməsinə görə uzun bir siyahıdır... Bir sözlə, analitik yazıçı-publisist, kinoşunas olsaydım, onun haqqında kitab yazardım, sadəcə qəzet məqaləsi yox. Xoşbəxtəm ki, hələ gənclik illərində, bizim nəsil üçün çox şərəfli olan 60-cı illərdə Anarla işləmək səadəti mənə də nəsib olmuşdur.

Yazıçı, kinematoqrafçı Anarın bizim mədəniyyətin ən gözəl simalarından olduğunu bildirməklə necə deyərlər, Amerika kəşf etmirəm. Onun canlı ensiklopediya, parlaq erudit, həqiqi orqanik ziyalı kimi bizim mənəviyyatımızın, dilimizin və tariximizin mühafizəçisi olduğunu bildirməklə də eləcə. O, çox qeyrətli valideynlərin (Allah Nigar xanıma və Rəsul müəllimə qəni-qəni rəhmət eləsin) çox qeyrətli ovladıdır. O, öz torpağının, öz xalqının oğludur. O, vətəndaşdır. Elə bir hal xatırlamıram ki, Anar öz qayğıları qeydinə qalaraq dostlarının, ictimaiyyətin, milli ədəbiyyatın, teatrın, kinonun, yetişməkdə olan nəslin, tələbələrin taleyini, bütövlükdə maarifin qayğılarını bir dəqiqə unutmuş olsun. Mən bu tükənməz insanın hansı potensiala malik olduğunu bilirəm və görürəm. İnanıram ki, qarşıda onu bu vaxta kimi yaratdıqlarından da çox kitablar, filmlər, festivallar, sürəkli alqışlar gözləyir.

Oqtay Mirqasımov,
kinorejissor, Xalq artisti.
«Yazıçı olsaydım onun haqqında kitab yazardım»
(«Kino» qəzetinin Anara həsr olunmuş xüsusi buraxılışında). Mart, 1997-ci il

Anarın «Şəhərin yay günləri» həm yazılış üslubu, mövzusu, psixoliji dərinliyi, konflikti ilə Tofiq Kazımovun yaradıcılıq üslubuna, sənət prinsiplərinə uyğun olduğundan onun ciddi marağına səbəb oldu, ciddi səylə əsər üzərində yaradıcılıq işinə başladı. 1977-ci il dekabrın 16-da ilk tamaşasının göstərilməsinə nail oldu. Repertuarda öz yerini möhkəm müəyyənləşdirən və uzun müddət tamaşaçı alqışları altında göstərilən «Şəhərin yay günləri» Azərbaycan hökuməti tərəfindən də yüksək qiymətləndirildi, respublika dövlət mükafatına layiq görüldü. 1980-cı ildə Tofiq Kazımov dünyasını dəyişdi. Bu vaxt «Şəhərin yay günləri» xeyli vaxt idi ki, göstərilmirdi. Lakin bu tamaşanın göstərilməsinə olan ehtiyac aydın hiss olunurdu. Tamaşanın bərpası, məşqlərin yenidən aparılması Anarla mənim öhdəmə düşdü. Tamaşada cəmi iki obraz dəyişilmişdi. Qiyas Zeynallı rolunu Həsən Turabovun əvəzinə Rafael Dadaşov ifa edirdi. Dilarə rolunu mən – Amaliya Pənahova ifa etmişdim. «Şəhərin yay günləri» pyesinin 1983-cü ildəki tamaşasındani sonra Anar «Təhminə və Zaur» pyesi ilə teatra gəldi. Açığını deyim ki, bəlkə də Azərbaycan teatrında ürəklərə, hisslərə bu qədər güclü təsir göstərən az əsər oynanılmışdı. Neçə vaxt ardı-arası kəsilmədən, mütəmadi göstərilən bu tamaşaya bilet tapmaq mümkün deyildi. Mən Təhminəni bütün varlığıma elə hopdurmuşdum ki, onu necə var idi eləcə də görürdüm, hiss edirdim, duyurdum və yaradıcılıq imkanlarımdan istifadə edib onu olduğu kimi – yaxşı və pis cəhətləri ilə birlikdə bütöv bir xarakter kimi səhnədə canlandırmağa səy göstərirdim.

Amalya Pənahova,
Xalq artisti.
(Müəllifin «Obrazın yaranma prosesində aktyorun ikinci plan duyumu və onun təcəssüm vasitəsi» kitabında.Bakı, Şirvannəşr, 2005)

İndi də portretin sonuncu cizgisi – Eminin yazıçı Anarla dostluğu haqqında. Bu dostluq onların atalarının, Azərbaycanın iki görkəmli mədəniyyət xadiminin – Sabit Rəhmanla Rəsul Rzanın yaxınlığından, dostluğundan bəhrələnmişdir. Mən Eminlə Anarın dostluğunda böyük və dərin məna görürəm. Axı Anar yüksək dərəcədə mədəni insandır, gözəl nasirdir, ədəbiyyatşünasdır, eruditdir, onunla dostluq etmək hər kəs üçün asan deyil. Belə bir dostluq adamı ucaldır və nəcibləşdirir, kamilləşdirir və qarşıya tələblər qoyur. Bu iki adamın məhz belə tələbkar dostluq telləri ilə bir-birinə bağlanması mənim nəzərimdə onların yüksək bəşəri keyfiyyətləri üçün ən yaxşı meyardır.

Firəngiz Əlizadə,
Bəstəkar, Xalq artisti

Yaradıcılığımın böyük bir hissəsi Anarla bağlıdır. Biz Anarla «Dantenin yubileyi»ni çəkməyə başladıq. Anar o vaxt 2 illik Ali rejissorluq kursunu bitirdikdən sonra kinostudiyada ilk filmini başqa bir rejissorla çəkməliydi, o vaxtlar qayda belə idi. Ona görə də filmə ikimiz birlikdə rejissorluq edirdik. Artıq ikinci filmimizdə o ssenari müəl-

lifi, mən isə rejissor idim. 1980-cı ildə «Ötən ilin son gecəsi», 1987-ci ildə isə «Şəhərin yay günləri» filmi belə yarandı. Anar haqqında bir də onu deyə bilərəm ki, o, böyük yazıçıdır. Filmləri isə ədəbiyyat kinosudur – kinoda bu da bir üslubdur. Və bir rejissor kimi onun ekranda öz dəsti-xətti, öz üslubu mövcuddur.

Gülbəniz Əzimzadə,
Kinorejissor.
«Onun filimləri ədəbiyyat kinosudur». «Kino» qəzet

Bu yaxşıdır, Anar!

Əsl ziyalı öz sözü, əməli ilə millətinə bağlı olur. Anar məhz belə şəxsiyyətlərindəndir. Onun yaradıcılığı – bədii və publisistik əsərləri kinofilimləri xalqına xidmət etmək nümunəsidi… Anar həm yaradıcılığı, həm də siyasi fəaliyyəti ilə həmişə fəal olmuş və onun bir deputat kimi ən yüksək tribunalardan əsl həqiqəti söyləməsi bizim bədnam qonşuların heç vaxt xoşuna gəlməmişdir. Əgər Anar kimi ziyalılar aramızda çox olsaydı, ermənilər heç vaxt bizə qarşı cəsarət eləyib hücum çəkməzdilər.

80-ci illərin ortalarında mən Leninqradda Repino yaradıcılıq evində fantastik filmlər üzrə seminarda iştirak edirdim. Orada məşhur fantast-yazıçılar A. və B. Struqatski qardaşlarına oxumaq üçün Anarın «Əlaqə» povestini verdim. Onlar əsəri yaxşı qarşıladılar. A. Struqatski kitabın üzündə bu sözləri yazdı: «Eto xoroşo, Anar!». Bəli, Anar yüksək səviyyəli professional yazıçı və millətini sevən adamdır. Belə bir şəxsiyyətlə «Əlaqə» bədii filmi üzərində birgə işləmək mənim üçün xoş idi. Bu film mənim bədii kinoda debütüm və ümumiyyətlə Azərbaycan kinosunda ilk fantastik canrda çəkiləcək kino əsəri olacağına baxmayaraq Anar öz əsərini ekrana çıxarmağı mənə etibar etdi.

Cahangir Zeynallı,
Kinorejissor.
(«Kino» qəzetin xüsusi buraxılışı, Mart, 1997)

Nə ilkin, nə sonuncu…

«Anarofobiya»

Çağdaş mədəniyyətimizdən ötrü yeni görünən bu psixopatoloji terminə sayın Anar bəyin öz yazısında rast gəldim, amma və lakin müəllif müəyyən səbəblərdən onun tam açıqlamasını vermədiyinə görə bu işi öhdəmə götürürəm: böyuk xeyri olmasa da, zərəri də böyük olmaz, deyə düşünürəm.

...Psixiatriyada «fobiya» (yunanca *rhobos* – xof. *qorxu*...) – subyekti müəyyən (fobik) şəraitdə bürüyən konkret məzmunlu qorxuların üzücü, təngə gətirən, qeyri-adekvat duyulması kimi təyin olunur. Çeşidli fobiyalar var: misal üçün «nozofobiya» – azarlamaq xofüdursa, «sosiofobiya» – kütlə qarşısında çıxış etmək qorxusudur; məkan qorxuları da maraqlıdır: «klaustrofobiya» qapalı, «aqrofobiya» isə açıq məkanların dərkedilməz xofudur. Əksər hallarda peşəkar psixoterapevtik müdaxilədən sonra fobiyalar keçib gedir.

Mədəniyyətimizdə də çeşidli fobiyalar var olmaqda ki, onları «ziyalıfobiya», «istedadfobiya», «uğurfobiya», «kübar-fobiya», «ulufobiya» adlandırmaq mümkündür, hər konkret, tarixi dönəmdə fobiya konkret bir ünvanla müəyyənləşir. Çox uzağa və ya dərinə varmadan doğmaca mədəniyyətimizin bitməkdə olan XX əsrinə mənəvi-mədəni təmayüllü psixoterapevtik nəzər salsaq «Cəlilofobiya», «Sabirofobiya», «Səmədofobiya», «Rəsulofobiya» və neçə-neçə bu xassəli fobik epidemiyaların «bərqini» açıq-aşkar görə bilərik.

Bütün bunları nəzərə alanda sayın Anar bəyin öz adını daşıyan fobiyaya təəccüblənməsi bir qədər anlaşılmaz olur. «Anarofobiyanın» baş qaldırıb yayılmasına mane olan şərtlər varmı əcaba? Yoxdur! Odur ki, rahatlıqla bəyan edə bilərik: tarix davam edir!

İndi isə konkret olaraq «Anarofobiya»nı götürək və bu mərəzin açıqlamaya mümkün olan səbəblərini və ya «üç qaynağı, üç tərkib hissəsi»ni araşdıraq.

1. «Uman yerdən küsmək»

Kifayət qədər uzun müddət Anar bəy mədəniyyət və incəsənətdə çalışan çoxlarımızın uman yeridir. Aydın məsələdir ki, hər kəs Anar bəy kimi mürəkkəb bir şəxsiyyəti duyub-anladığı kimi təsəvvür edir və bir insanoğlu kimi Anar bəyin bu və ya başqa əməli, sözü, fikri yaratdığımız «Anar görkü» ilə düz gəlməyəndə dərhal ondan küsürük. Normalda bu hal mədəniyyətdən örtü faydalı olur: gərgin, amma və lakin səmərəli dartışmaların sonucunda daha önəmli qanaətlər mənəviyyatımızı xeyli zənginləşdirmiş olur.

Əks halda küsülülük qeyri adekvat dəyərləndirilir və budur: küsən subyektfobiyaya tutulur…

2. «Ortababların xəstə qisas ehtirası»

Görkəmli sənətçi, parlaq və mürəkkəb ictimai fiqur, maraqlı və cazibədar insan kimi Anar bəy mədəniyyət meydanına ayaq basdığı gündən çoxlarımızçün mədəniyyətimizin danılmaz faktı, sayılan olayı olduğundan təbii olaraq fərqli münasibət doğurmaqdadır. Kimimiz ona kənardan baxıb da işlərindən zövq alır, çoxumuz onunla hər hansı təmas və ünsiyyətdən faydalanaraq dərin minnətdarlıq hissini duyur, bəzilərimiz isə təbii həsəd və paxıllıq duyğusunu cilovlaya bilməyib də «Anarofobiya» uçurumuna yuvarlanırıq. Bir qayda olaraq yalnız ortabablar xəstəliyin basqısına tab gətirməyib də onu iyrənc əməllərlə bəlirdirlər: istedadsızlar yerini yaxşı tanıyır, istedadlılar isə Anar bəyin mədəniyyətimizdəki yerini aydın görür… Atalar çoxdan xəbərdarlıq edib: dad ortababın əlindən!...

3. «Krılov babanın sindromu»

«Fil və Moska» təmsili yadınızdamı? Özünüzdən qat-qat yekə olan filin üstünə şövqlə hürən Moska adlı köpək bu əməlinin məqsədini soruşanlara beyinlə cavab verir: «Görüb-eşidənlər düşünsün ki, Moskaya baxın – qosqocaman Filə hürürsə, demək, güclüdür o...».

Uzunmüddətli müşahidələrimə görə, «Anarofobiya»ya tutulmuşların bir hissəsi məhz bu məqsədlə münasib bir yerdən Anar bəyə qarşı «hücumları» imitasiya edir. Onlara fikir yetirib də hər hansı, lap elə «poşol!» formasında cavab verəndə Moskalar məmnun olur: yəni ki, Fil məni gördü, adımı çəkdi, mən də varam! Mən də varham! Ham! Ham! Ham!

Anar bəyin varolmasının etgisindən yaranan «fobiyanın» məmləkətimizdə tam əksi də mövcuddur: gözəlim Azərbaycanın o taylı torpaqlarında saysız-hesabsız «Anaroman», «Anarofil», «Anarpərəstlər» gerçək bir qüvvədir və onlara işarə kifayətdir ki, düşmənlərin üstünə cumub da vətəndaş müharibəsindən az qorxulu olmayan mədəniyyətiçi savaşa başlasınlar.

Fərdi yaradıcılıqla yanaşı milli mədəniyyətimizin problemlərini həll etməyi özünə borc bilən Anar bu işə bəy nəvəsi kimi girişdi, bəy oğlu bəy kimi davrandı və XX əsrin ikinci yarısı Azərbaycan mədəniyyəti və incəsənətində bu ada layiq olan kişilərimizin ön sıralarında yeni yüzilliya qürurla yeriməkdədir.

Amma və lakin qorxuram ki, Anargilin yaş nəsli məmləkətimizə «mədəniyyət bəylərini» bəxş edən sonuncu generasyondur…

«Bizlər və Anar»

...Anarın adı hallanan bir neçə məqalə ətrafında müzakirə-mübahisə zamanı çılğın opponentlərimizdən biri cumdu bu sətirlərin müəllifin ustünə:

– Yəni ela çıxır ki, Anar toxunulmazdı?! Anarı tənqid etmək olmaz?! Anarın heç bir səhvi yoxdur?! Ona olan münasibət gözünüzü tutub, «Anar» mifindən başqa heç bir şey görmürsünüz və başqalarına mane olursunuz!

«Tənqid»ə gəldikdə isə canım, Anar və Anar səviyyəli kişilərimiz tarix boyu ilk addımlarından başlayaraq Dunyamızın sonuna qədər elə tənqid altında var olmağa məhkumdurlar! Çünki hər bir sözləri, əməlləri, hərəkətləri hamıdan ötrü açıqdır, hamı onları tənqid etmək haqq və hüququn sahibidir – başqa cür təyininə görə ola bilməz. Əks təqdirdə, «Anar və biz» (sən... mən... oxucular... dinləyicilər. . tamaşaçılar... «şünaslar»... dostlar... düşmənlər... və s. və s. və i.a.) sistemliyi işləməz və demək ki, Anar yalnız dar bir sahədə, sadəcə, mütəxəssislər üçün maraqlı bir məkanda, özüyçün fəaliyyatdə bulunmaqdadır.

O zaman Anarın hər əməlində səhv axtarmaqdan vaz keçəcəksən, çünki daha mürəkkəb məsələlər səni ruhlandıracaq: hər şeyə, o cümlədən Anarın özünə mədəniyyət tarixi prizmasından baxanda adam daha məsuliyyətli mətləbləri seçməyə başlayır və anlayır ki, məhz bu qutlu məsuliyyət mənəvi-mədəni tariximizi yaşadan ulularımızın birinci və başlıca səciyyəsidir.

O ki qaldı Anarın səhvlərinə… Yazıçılar qurultaylarının birində məhz Anar məruzəsində sənətkarın səhv etmək hüququndan söz açmış və cavabında Birinci Katibdən sərt replika eşitmişdir. Odur ki, öz səhvlərini Anar səndən-məndən öncə va daha dərindən, daha amansızcasına anlayıb da dəyərləndirir: əks təqdirdə, bu gün Anardan şən, firavan həyat sürən bir başqasını tapmazdın. Eşitməmiş olmazsan: «anlamaq dərdi» deyirlər «anlamaq keyfi» yox...

...Hə, gəlib çıxdıq «Anar mifi»nə! Bax, burada sənlə razıyam, burada mübahisə üçün yer yoxdur: haqlısan – mədəniyyətimizdə artıq «Anar mifi» yaşamaqdadır ki, bir çox xoşagəlməz olayların gizli səbəbi məhz bu fenomenin içindən qaynaqlanır.

Anar fenomenini bizdən də aydın anlayıb da var güclərilə onu dağıtmaq şövqündə olanları görürük, çeşidli vasitələrə əl atıb da özlərinə mif yaratmaq çabalarında vurnuxanları da görürük və bu cəhdlərin tarixi perspektivlərini də apaydın görürük. Ona görə yox ki, bu dərəcə itigözlü və ya uzaqgörənik, əsla! Sadəcə, tariximizi babat bilirik, arxivlərdə az-maz eşələnmişik və analitik bacarığımız yox deyil.

Anardan fərqli olaraq bu məsələlərə daha sakit baxırıq, çünki onun ağrı-acıları da bizdən ötrü bir növ mücərrəd kateqoriyalardır: yəni ki, çox yaxşı bilirik ki, canlı insanın diriykən mədəniyyət mifinə dönmək prosesi heç zaman ağrısız olmayıb.

İştə, sevgili Anar bəyə verə bilacəyimiz təsəlli də bu...

Vaqif İbrahimoğlu,
Rejissor.
«Musavat» qəzeti, 8-9 iyul, 1999

Aydın Talıbzadə: 2000-ci il dekabrın 31-də «Azadlıq» qəzeti Azərbaycanın müxtəlif fikir işçilərinə belə bir sualla müraciət etmişdi: «Ötən yüzillikdə ziyalıların simvolu kimdir? Nə üçün?» Həmin sorğuya Vaqif Səmədoğlu, Rəhman Bədəlov, Fərhad Bədəlbəyli, Rafael Hüseynov və mən cavab verib demişdik ki, Üzeyir bəy Hacıbəyli. Anarsa bu sualı özünəməxsus bir oricinallıqla cavablandırmışdı və söyləmişdi: «Mən. Çünki buhəqiqətdir. Mən sağam və görməli olduğum işləri görürəm» Konkret və dəqiq, konkret və birmənalı definisiya, təyin.

Ramiz Həsənoğlu: Bəlkə bu Anarın zarafatıdır?

Aydın Talıbzadə: Qəbul edirəm, onün fikrinin həqiqətini də qəbul edirəm. XX əsrin ikinci yarısında Azərbaycan mədəniyyəti tarixində Anar şəxsiyyəti məhz Üzeyir bəy şəxsiyyətinin davamı kimi «oxunur», təbii ki, öz miqyasına görə. Anarın mənəvi hüququ çatır bunu deməyə. Anar bunu deyə-deyə öz şəxsiyyətiylə bağlı səslənəcək fikirlər üçün bir sərhəd zolağı, məna hüdudu, məna sferası cızır. Odur, mər düşünürəm ki, Anara ən düzgün qiyməti elə Anarın özü verib.

Ramz Həsənoğlu: Mən də bunu qəbul edirəm. Anar mənim üçün təkcə dost deyil, təkcə yazıçı, dramaturq, ssenarilər müəllifi deyil, təkcə milləti qaranlıqlardan aydınlığa aparan ziyalı deyil. Mən Anara borcluyam və minnətdaram. Anarı yaşadığı zaman

formalaşdırmışdı, məni Anarın düşüncələri formalaşdırdı. Hardasa Azərbaycan ədəbiyyatı məndən ötrü Anardan başlayır… Nə yaxşı ki, mənim dostum Anar var.

Aydın Talıbzadə: Anardan bir daha olmayacaq. Əfsus ki, gün keçdi Ramiz. Biz danışdıq, amma Anarı heç təbrik eləmədik.

Ramiz Həsənoğlu: Necə yaşayıbsa, elə də yaşasın və qoy həyat onu incitməsin.

Aydın Talıbzadə: Yazıçılar Birliyi Anara, Anar Yazıçılar Birliyinə yaraşır. Anar Azərbaycana yaraşır.

Ramiz Həsənqoğlu: Əla! 70 yaşın mübarək, Anar!

İçərişəhər və Beşmərtəbə.

*(Xalq artisti, rejissor **Ramiz Həsənoğlu** ilə sənətşünas* **Aydin Talibzadənin**
Anarın 70 illik yubileyinə ünvanlanmış söhbətindən fraqmentlər)
«Azərbaycan» jurnalı №3, 2008

Siyasi xadimlər

Anarı yaxşı tanımaq üçün onunla şəxsən tanış olmaq şərt deyil. Amma Anarı şəxsən tanıyaraq onun biliyinin, intellektinin genişliyinə valeh olmamaq mümkün deyil.

Bir dəfə Bəxtiyar Vahabzadə ilə Azərbaycan ədiblərini fərqləndirən cəhətlər haqqında dost söhbəti edirdik. Söhbət Anardan düşəndə Bəxtiyar Vahabzadə cəsarətlə dedi: «Onun geniş miqyaslı biliyi məni heyrətləndirir».

1983-cü ildə mən Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində ideologiya məsələləri üzrə Katib işləyərkən, qərar qəbul olundu ki, Bakıda Xalça üzrə ilk Beynəlxalq Simpozium keçirilsin. Bir çox tədbirlər nəzərdə tutulmuşdu. Çox sayda xarici qonaqlar gəlməli idilər. Mənə belə gəldi ki, xalçamız və xalçaçılığımız haqqında populyar bir yazı bu tədbirin iştirakçılarını daha məlumatlı edə bilər.

Ona görə də belə bir yazının kimin tərəfindən yazılmasını bir müddət götür-qoy edəndən sonra belə qərara gəldim ki, bunu Anar edə bilər. Anarı dəvət etdim və gələcək yazı haqqında öz düşüncələrimi ətraflı ona söylədim. Anar dinmədən, bir sual belə vermədən, heç bir emosiya bildirmədən məni dinlədi və yazacağını vəd edib, durdu ki, vaxt azdır, gedim başlayım. Mən Anarın yazısının uğuruna inanırdım, amma reaksiyasının belə emosiyasız olduğundan bir az narahat oldum ki, birdən Anar tamam başqa tərzdə yazar. Üstündən bir neçə gün keçdi (Bəli, yanılmadım «bir neçə gün»). Anar Mərkəzi Komitəyə «Xalçanın hikməti» adlı yazısını gətirdi. Oxudum və valeh oldum. Mən arzuladığım məqamların həkk olunması öz yerində, Anar o dərəcədə həssaslıqla xalçanın və xalçaçılığın milli düşüncəmizlə bağlılığını əks etdirmişdir ki, sanki bu yazıya o illərlə hazırlaşıb. Bir neçə günə Nazim İbrahimovla birlikdə bu əsəri nəfis şəkildə nəşr etdirdik. Anar mənim üçün əziz xatirə olan bu kitabı müəllif avtoqrafı ilə bağışladı. «Доро-

гому Гасану Азиз оглы, инициатору и вдохновителю этой небольшой книги и многих других больших и нужных дел. На добрую память от автора».

Bax belə Anarın yaradıcılığında aktuallıqla əbədilik bir düyünlə bağlıdır.

Azərbaycanda yeni ruhlu «İncəsənət» jurnalının buraxılması qərara alınanda, ona ən layiqli rəhbər Anar sayıldı. Jurnalın yeni adının da, konsepsiyasının da müəllifi Anar oldu. Anarın düşüncəsinin, qeyrətinin, zövqünün məhsulu olan «Qobustan» toplusu uzun illər Azərbaycan oxucusunu məftun edib, ağır şəraitdə milli düşüncəmizin formalaşmasında əvəzsiz iz buraxıb. «Qobustan» Sovet dövründə «rəsmiləşmiş dissident» curnalı kimi yaşamaqda davam edirdi.

Milli düşüncənin inkişafının müxtəlif təzahürləri var. Bir çox alimlərimiz Sovet dövründə xalqımızın iki dahiyanə əsərini «Molla Nəsrəddin» və «Füyüzat» curnallarını qarşı-qarşıya qoyaraq, bir çox hallarda, milli düşüncəmizə zidd olan nəticəyə gəlirdilər. Bunlardan hansı xalqın düşüncəsinə daha yaxındır sualını – «Molla Nəsrəddin» – deyə cavablandırırdılar. Anar isə bunların ikisinin də eyni yolun yolçusu olduğunu daim iddia edib. «Millət nə dərəcədə tənqid və ifşa yolu ilə tərbiyələnirsə, elə o dərəcədə də müsbət milli obrazların nümunəsi ilə tərbiyələnə bilər» formulunu əsas götürüb.

Sovet dövrünün ən çətin və ən ağır dövrlərində Nəriman Nərimanovun obrazı xalqımız üçün «millətsevərliy»in parlaq nümunəsi idi. Ona görə də bu «nərimanlaşmaq» ifadəsi «millətsevərlər» üçün bir tərəqqi formulu olduğu qədər «beynəlmiləlçilər» üçün tənəzzül formulu kimi qiymətlən-dirilmişdir. Anarı bu reaksiyanın birincisi ruhlandırdı, ikincisi isə çəkindirmədi. Anar rəhbərlik etdiyi «Qobustan» toplusunda İsa Hüseynovun yazısında «Gənclərimiz nərimanlaş-mışdır» ifadəsini vermişdi.

Sovet ideologiyasının özünəməxsus bir maarifləndirmə stereotipi var idi. Bütün ideologiyalarda olduğu kimi, bu da icazəsi olan və olmayan mövzular sistemindən ibarət idi. Hətta icazəli mövzuların daxilində də, qadağa sərhəddi var idi. Anarın maarifçiliyini fərqləndirən cəhət odur ki, o, bir çox hallarda «icazəli mövzuların» «qadağa sərhəddini» keçməyə meyl göstərərək uğurlu nəticələr əldə edirdi. Bu, özünü bir çox sahələrdə büruzə verirdi.

Bir dəfə Cəlil Məmmədquluzadədən söhbət düşəndə Bəxtiyar Vahabzadə dedi ki, Mirzə Cəlilin dahiliyini tam dərk etmək istəyən Anarın onun haqqında yazılarını da oxumalıdı. Anarın Mirzə Cəlilin yaradıcılığına həsr olunmuş «Anlamaq dərdi» yazısı bizim rəsmi ədəbiyyatşünaslığımızın stereotiplərinə zidd olduğundan əvvəlcə Azərbaycanda deyil, Moskvada «Novıy mir» jurnalında dərc edildi. Daha sonra «Azərbaycan» jurnalının baş redaktoru İsmayıl Şıxlı öz məsuliyyəti ilə o məqaləni çap etməklə Mirzə Cəlil dünyagörüşünə yeni baxışa yol açdı.

Cəlil Məmmədquluzadənin «Anamın kitabı» əsərinin güya ki, türkçülüyə qarşı yönəldiyi təbliğ olunarkən, Anar həmin kitabın məhz azərbaycançılığa doğru yönəldiyini açıb göstərə bildi.

Sovet ideologiyası «Kitabi-Dədə-Qorqud»u sadəcə bir ədəbi əsər şəklində görməklə kifayətlənmək istəyirdi, Anar isə Dədə Qorqud obrazını kitabdan ucaldaraq bizim milli düşüncəmizin aparıcı obrazı səviyyəsinə qaldırdı.

Sovet ideologiyası türkçülüyü elmin bir dilşünaslıq qolu kimi görməklə kifayətlənmək istəyirdi, Anar isə türkçülüyü milli düşüncəmizin aparıcı amili səviyyəsində görürdü.

Düşünəndə ki, niyə Sovet İttifaqının tənəzzülü məhz 80-cı illərin ortalarına təsadüf etdi, mən belə qənaətə gəlirəm: bunun əsas səbəblərindən biri də odur ki, məhz bu zaman 60-cılar nəsli Sovet ideologiyasının əsasını təşkil edən ədəbiyyatda və kinoda hakim mövqedə olub, kəsərli söz dedilər. Bu nəslin həmin mövqeyə çatmasında və İstiqlal yolunda öz cəsarətli sözünü deməsində Anarın xidməti əvəzsizdir.

Anar siyasətçi olmaq iddiasında heç bir zaman olmayıb. Anarın gücü ondadır ki, o, siyasətə təsir edə bilən ziyalı sözünü həmişə deyib. Anarın «Azərbaycançılıq» əsəri bu qəbildəndir. İndi məndə olan məlumatlara görə, Anar «XX əsr xatirələr və düşüncələr» əsəri üzərində işləyir. İnanıram ki, hələ çox nəsillər bu əsər vasitəsi ilə bizim nəslimizin sözünü və ruhunu duyacaqlar.

Həsən Ə.Həsənov,
Keçmiş MK katibi, Baş nazir,
Xarici İşlər naziri, hazırda Macarıstanda səfirimiz.
Bakı şəhəri, 6 yanvar, 2002

«Otel otağı»ndakı zaman kəsiyi

«Otel otabı» kiçik bir əhvalatın təsviri ilə bitmir, böyük bir tarixi dövr ərzindəki həyatın bir kəsiyidir. Bu kəsikdə çox şeylər gözə çarpır, ən başlıcası isə tariximizin və bu günümüzün bizi utanmağa məcbur edən geniş kaleydeskopu verilmişdir.

Mahir bir rəssamın bir fırça yaxması da əsərin mahiyyətini açmağa kömək etdiyi kimi, az sayda bədii ştrix hadisələr barədə iri tarixi kitablardan çox şey deyə bilir. Filmdə də biz ötəri də olsa yaxın keçmişimizdə baş vermiş və hələ də yoxa çıxmayan eybəcərlikləri – acı insan talelərini, xəbisliyin, ikiüzlüyün sosial mimikriyanın nümunələrini, dövrün sosial sifarişlərinin necə canfəşanlıqla yerinə yetirilməsini müşahidə edirik. Onun yaradıcıları cəmiyyətimizin anatomiyasına yaxşı bələd olan təbiblər kimi çoxdan əziyyət verən xoralarla yanaşı son dövrlərdə meydana gələn xəstəlikləri göstərərək haray çəkirlər ki, əgər əsaslı müalicə olmasa, onu yaradan şərait aradan qaldırılmasa bu ən azı mənəvi aləmi məhv edə bilər.

Filmdə totalitar quruluşun eybəcərlikləri, onların hətta təmiz, saf uşaq aləminə təcavüz etməsi göstərilir. Balaca Kərim mühitin yaratdığı qorxunun təsiri altında atasının radioqəbuledicidə yad hesab olunan dalğanı dəyişdirdikdən sonra onu söndürməsi-

ni görmüşdü və özüdə bunu təkrar edirdi ki, birdən qonşuların və ya «dostlar»ın yanında qəbuledici işə salınarsa «düşmən» dalğasının dinlənilməsi sirri açılmasın. Yaxud, türkün tarixi barəsində öz tədqiqatlarını elan edən adamı, elmdəki naşılar düşmən deyə qələmə verib, onu məhv edə bilirdilər. Bu təkcə elm sahəsinə aid deyildi, həyat bütünlükdə salındığı çərçivədən kənara çıxa bilməzdi.

Filmin personacı Kafkanın məşhur qəhrəmanı kimi bu çıxılmazlıq ucbatından qırxayağa çevrilməsə də, artıq bu qardaş ölkədə də özünün heç kəsə lazım olmadığı qənaətinə gəlir.

Filmin ən böyük dəyəri bizi düşünməyə vadar etməsidir. Rasim Ocaqov – Anar dueti, adların yerini dəyişdirmək də olar, həmişə dadlı meyvə verən ağaca bənzəyir və belə ümid yaranır ki, mövsümlərin sayı artacaq və davam edəcəkdir. Onlar dövrü, hadisələri fəlsəfi baxış obyektinə çevirməklə bizi də həyatı düzgün dərk etməyə dəvət edirlər, çünki bir nəfərin üstündə çalınan rəmzi zəng və ya yasın duası ümumən ləyaqətlilərə vurulan zərbədən xəbər verir. Aktyor Fəxrəddin Manafova gəldikdə, o, psixoloci tragik oyunu ilə mövzunun açılmasına xeyli köməklik göstərir. Filmin musiqisi də qayəsi kimi bizi qəmgin düşüncələrə dalmağa məcbur edir. Film bizi öyrədir, əsəblərimizi tərsinə sığallayır, bizi ayıq salır. Adamı təhlükədən çəkindirənlərə isə yalnız minnətdarlıq hissləri bəslənməlidir.

Telman Orucov,
Keçmiş MK katibi, Ali Sovetin keçmiş sədr müavini
«525-ci qəzet», 6 yanvar, 2001.

Ədəbi körpülər

Bu insan bütün Azərbaycana tam yeni, tam özünəməxsus bir adla doğulduğu kimi, onun yazdığı bütün əsərlər də istinasız olaraq Azərbaycan ədəbiyyatı üçün yeni oldu, özünəməxsus oldu. Sanki valideynləri onu Azərbaycan üçün yeni olan bir adla adlandırmaqla, onun üzərinə də xüsusi bir missiya qoymuşdular – sən heç kəsin yoluyla getməməlisən, atdığın hər addımla yeni bir cığır açmalısan, yeni söz, yeni səs, yeni hava olmalısan. Və bu gün artıq tam əminliklə demək olar ki, Anar üzərinə düşən bu vəzifəni, bu missiyanı vicdanla, ləyaqətlə, həm ailəsinə, həm də mənsub olduğu xalqa, vətənə məhəbbətlə, tam artıqlamasıyla yerinə yetirib. Və mən bu yerdə üzümü ulu əcdadımızın – adımızı verib yaşımızı gizlədən Qorqud dədəmizin sərrafı, xiridarı olan ən qoca Anarımıza tutub demək istəyirəm: öz adına layiq olmaq, öz adını doğrultmaq hər kəsə nəsib olmur. Siz bunu bacardınız – adınız halalınız olsun! Heç zaman unutmadınız, unudanlardan olmadınız; hər zaman andınız və xatırladınız ki, ananız Nigar xanımdır, atanız Rəsul bəy! Onların arzularını çin edib, istəklərini gözlərində qoymadınız – onlara, nəslə-nəcabətə, Vətənə layiq bir övlad oldunuz!

Nəhayət bu yerdə öz tərəfimdən sizlərə bir sirr açım: mənim yeganə oğlumun da adı Anardır – ən gənc Anarlardan biri də bu gün bizim ailəmizdə böyüyür.

Sual oluna bilər – nəyə görə tərcümə üçün biz Anarın məhz bu əsərini seçdik – «Ağ qoç, qara qoç»?

Anar öz bədii təxəyyülünün, fitri istedadının gücünə bizi məsələnin son dərəcə sadəliyinə, işıqlı və zülmət dünyaların astanasında dayandığımıza elə ustalıqla, elə real şəkildə, elə sevinc və nikbinliklə, elə təşviş və həyəcanla inandırır ki, bu səmimiyyətə şübhə edə bilmirik. Anarın təxəyyülündə yaratdığı həm işıqlı, həm də qaranlıq dünya o qədər real təsir bağışlayır ki, adam bu gerçəkliyin bir addımlığında dayandığını hiss edir və müəllifin lirik və utopik adlandırdığı bu nağıllar adamı bir yandan sevindirdiyi kimi, bir yandan da təşvişə, vahiməyə salır. Daha çox vahiməyə salır və sətirlərin arxasından özü görünməyən sənətkarın sanki sivil bəşəriyyəti silkələyib oyatmağa çalışan səsini, narahatlığını duyursan. İnanırsan ki, sənə söylənilənlər nağıl yox, acı reallıqdır.

Eldar Həsənov,
Keçmiş baş prokuror, hazırda Rumıniyada səfirimiz.
«Ədəbiyyat» qəzeti, 15 oktyabr, 2004

Jurnalistlər

Məşhur «Beş mərtəbəli evin altıncı mərtəbəsi» romanı bir sıra Avropa dillərində nəşr edilib. Müəllifin başqa əsərləri də çox populyarlıq qazanmışdır. V.Şekspirin «Fırtına» pyesinin gözəl tərcüməsinə görə Anar mükafata da layiq görülmüşdür.

Azərbaycan Akademik dram teatrında tamaşaya qoyulmuş «Şəhərini yay günləri» pyesi böyük müvəffəqiyyət qazanmışdı. Amma bu əsər səhnəyə çıxmazdan öncə Qlavlitin kəskin müqavimətiylə rastlaşmışdı. «Neqativ ümumiləşdirmə» kimi onun elan olunmuş premyerasını qadağan etmək istəyirdilər. O vaxt mən Mərkəzi Komitədə işəlyirdim, məsulliyyəti öz üzərimə götürüb premyaranın baş tutmasına israr etdim. Heydər Əliyevdən xahiş etdim ki, gəlib şəxsən tamaşaya baxsın. Taşamaşaya baxandan sonra müəllifi və yaradıcı kollektivi böyük uğurla təğbrik etdi, tapşırdı ki, əsər rus teatrında da tamaşaya qoyulsun.

«Dədə Qorqud» ssenarisinin ərsəyə gəlməsində də çox çətinliklər meydana çıxdı. Bu çətinliklər bəzi elmi işçilərin iradlarıyla bağlı idi.

Xüsusi qeyd etmək istəyirəm ki, Anar ilk Azərbaycan incəsənət toplusu «Qobustan»ı nəşr edəndə də çox senzura çətinliklərilə rastlaşırdı.

Azad Şərif,
jurnalist, o illər Azərbycan KP MK-nın
Mədəniyyət şöbəsinin müdiri

Məndən soruşanda ki, nəyə görə Azərbaycanda dissidentlər olmayıb, mən həmişə cavab verirəm: Ona görə ki, biz dissident yox, istedad axtarırdıq. Anarın «Keçən ilin son gecəsi» adlı elə ilk hekayəsi gənclər qəzetində alt-üst edilmişdi. Partiya fəallarının yığıncağında Anarı Qara Qarayev müdafiə etdi. O dedi: Mən çox istedadlı yazıçı Anara qarşı haqsız tənqidləri qətiyyətlə pisləyirəm»

Azad Sərif,
«Zerkalo» qəzeti, 20 dekabr, 2007

Anarın şərhi: *Qara Qarayev məni «Kommunist» qəzetində «Ağ liman» povestim haqqında kəskin tənqidi məqalə çıxmasıyla əlaqədar Partiya fəalları yığıncağında müdafiə etmişdi. «Keçən ilin son gecəsi» adlı ilk hekayəm isə «Azərbaycan gəncləri» qəzetinlə daha əvvəllər kəskin tənqid edilmişdi.*

Anlamaq dərdi...

SSRİ xalq deputatı seçilənə kimi mən Anarın çoxsaylı pərəstişkarlarından biriydim, onu yaxından tanımırdım, onunla heç bir ünsiyyətdə olmamışdım. Qələmindən, çıxan bütün yazıları oxumağa çalışırdım.

Sənətkarın şəxsiyyətini onun yazılarından da öyrənmək mümkündür. Mən Anarı yazıçı kimi də, vətəndaş kimi də, insan kimi də ancaq və ancaq əsərlərindən tanıyırdım. Bir də küçədə rast gəlmişdim ona, universitetdə təhsil aldığım illərdə isə «Şəhərin yay günləri» əsərinin müzakirəsi zamanı görmüşdüm.

Tasadüf elə gətirdi ki, mən iş yerimi dəyişməli oldum, Anar SSRİ xalq deputatı seçildi. Həmin vaxtlar üzügülən, dodağı qaçan adama qəzəblə və heyrətlə baxırdıq. Həmin vaxtlar ağrıdan başqa (Qarabağ ağrısı) hiss tanımadığımız vaxtlar seçkilər keçirildi. Neçə demokratik və ya qeyri-demokratik yolla keçirilməsinə toxunmadan indi ancaq onu deyə bilərəm ki, Anarın SSRİ xalq deputatı seçilməsi çoxlarının ürəyindən oldu. Çoxları təskinlik içində nəfəslərini dərdilər: deputat korpusu içində xalqın əzabını, əziyyətini, faciəsini öz əzab-əziyyəti, öz faciəsi kimi yaşayan, millətin adından danışmağa qadir, layiqli adamlarımız vardır. Unutmamalıyıq ki, Anar siyasətçi deyil, Anar yazıçıdır. Lakin son iki ildə Anarın deputat kimi fəaliyyəti əvəzsizdir.

SSRİ xalq deputatlarının birinci qurultayından sonra Anara münasibət müəyyən mənada dəyişdi. Bu da haradasa təbii ndi. Çünki xalqımız hər şeydən əlini üzmüşdü, çünki xalqımız bütün respublika rəhbərliyinin görə bilmədiyini Anardan gözləyir və umurdu. Hər şeyə qadir Anar illüziyası qəflətən dağıldı, adamlar son ümidlərini də itirdilər, məlum oldu ki, Anar sehrbaz deyil, onun «sim-sim qapını aç» hökmü yoxdu.

Ermənilərin iki-üç qatı düşməni varsa, onlardan biri Ziya Bünyadov, ikincisi Anardır («Moskva» mehmanxanasında erməni artisti – SSRİ xalq deputatı Xoren Abramyanın ona hörmətlə yanaşmasının, Anarla ehtiyatla danışmasının da şahidi olmuşam, bədxah qonşularımıza kəskin, lakin təmkinlə cavab verməsinin də). Xeyli vaxtdır ki, dünya miqyasında onu «vurmaq»la məşğuldurlar. Bu zərbələrin əksini ermənilərin bütün qəzetlərinin səhifələrində görmək olar. Bütün yaradıcılığı boyu insana hörmət, sevgi ideyasını təbliğ edən Anar özünün bu kredosunu pozmadı: ləyaqətini saxladı, amma ləyaqət görmədi, yüksək mədəniyyət nümunəsi göstərdi, mədəniyyətsizliklə toqquşdu, normal insani obyektivliyin əvəzinə iyrənc subyektivliklə, açıq-aşkar ayrı-seçkiliklə və ən başlıcası, dərdə biganəliklə qarşılaşdı. Yəqin ki, yadına atası R.Rzanın bir fikri də düşdü – dərdimi kimə deyim, dünya dolu adamdı.

Anar deputat kimi fəaliyyətinin ilk günündən oyuna düşdü. Oyun yazıçı Anara nə qədər mənfi təsir göstərdisə vətəndaş Anarı iradəisndən döndərmədi. Xalq əksər hallarda deputatların fəaliyyətinin televiziyaya baxmaqla və çıxışlarını oxumaqla qiymətləndirirlər. Bir çox deputatlar məhz bundan istifadə etməklə siyasi kapital yığırdılar. Mümkün qədər tez-tez, mümkün qədər kəskin danışmağa meyl göstərirdilər. Bunların əksəriyyəti durğunluq deyilən dövrdə də həyatda bir cür, tribunada (xitabət kürsüsündə) isə başqa cür yaşayan və danışanlar idi.

Deputatın, xüsusən, bizim denutatların fəaliyyətini ancaq və ancaq iclaslardakı çıxışları və ya heç çıxış etməməyi ilə qiymətləndirilənlər böyük səhvə yol verirlər. Unuda bilmərik ki, Ermənistanda Azərbaycana ilk qaçqınlar gələndə ilk pənahları Yazıçılar İttifaqı, Anar olub. Onlar Anar deyib gəlirdilər… Anar da əlindən gələni əsirgəmirdi. Bütün bunlar məlum həqiqətdir və bunların üstündən xətt çəkə bilmərik.

İşimlə əlaqədar tez-tez – Moskvada deputatlarımızla ünsiyyətdə olmuşam. Onların fəaliyyətinin də, fəaliyyətsizliyinin də şahidlərindən biriyəm. Həmin ağır günlərdə mən Anar qədər işləyən, çalışan ikinci bir deputat yadıma sala bilmirəm. Anar başqa deputatlarımız üçün çıxışlar yazırdı, şəxsi əlaqəsi olan deputatlarla söhbətlər aprırdı. Bəzi deputatlarımız (dili bilmədiyini, yorğunluğunu... bəhanə gətirməklə) Moskvada zülmlə təşkil edilmiş müxtəlif görüşlərdən imtina edəndə qabağa düşən Anar olurdu. Özü də Anar çalışmırdı ki, gördüyü işlərin sorağı Azərbaycana çatsın. Çalışırdı ki, «həqiqətin» erməni versiyası tədricən də olsa, damla-damla da olsa dağılsın, çoxüzlü həqiqətin əvəzinə yeganə həqiqət dünyaya yayılısın. Müəyyən iş görüldü. Anar demişkən «Əgər SSRİ xalq deputatlarının birinci qurultayında ermənilərin gündəliyə beş məsələ daxil etmək istəyi baş tutmamışdırsa bu da bir sıra deputatlarımızın səyi nəticəsində hasil olmuşdu».

Eşitmişəm ki, yanvar faciəsininin ilk günlərində Yazıçılar İttifaqının iclası keçirilən zaman Anar rəhbərlikdən imtina edib. Ağsaqqal A.Zamanov ona atasının-anasının əziz ruhuna and verməklə fikrindən daşındırıb. Həmçinin də, xalq yazıçımız İsmayıl Şıxlı. Qanlı, məlum yanvar günlərində «Kommunist» nəşriyyatının fəhlələri ilə görüşdə xalqımızın dərdinə şərik olanlardan biri, qazax şairi Olcas Suleymanova sual vermişdilər ki, çoxları kimi yazıçı-dramaturq Anar da partiya sıralarından çıxdığını bəyan etmişdir. Anarın bu hərəkətinə necə qiymət verirsiniz?

O.Süleymenov demişdi: «Partiya Qorbaçov demək deyil, məncə əsl kommunistlər partiya bileti daşıyanlardan qat-qat azdır. Sağlam düşüncəli, təmiz, vicdanlı, xalqını sevən, lazım gələrsə onun xoş sabahı naminə canını belə əsirgəməməyə hazır olan yüzlərlə, minlərlə oğul və qızlarımız var. Mən onları kommunist sayıram. Nəzərə alsaq ki, cibimdə partiya biletim, fəxri adlarım, vəzifəm olmasa yüksək tribunalardan nəinki xalqımın istək və diləyini çatdırmağa, cəsarətli söz deməyə, hətta iclas keçən binaların həndəvərinə də məni yaxın buraxmazdılar. Bu baxımdan Anarın hərəkətinə bəraət qazandırmıram. Anarın mart ayında ittifaq hökumətinin, mərkəzi ünvanına söylədiyi tənqidi çıxışı həmin fikrə sübutdur.

«Pantürkizim», «panislamizm» – diplomlu alimlər, mötəbər ziyalılar tərəfindən tənqid olunanda Anar min əziyyətlə «Qobustan» jurnalı çıxarırdı və dilimizin azərbaycanlaşdırılmasına çalışırdı: «Azərbaycan iri addımlarla addımlayanda» Anar «Yaxşı padşahın nağılı»nı yazırdı…

Balaş Abbaszadə,
«Respublika» qəzeti, 14 noyabr, 1990

Anar mənim gəncliyimdir. Qismətim belə gətirdi ki, Azərbaycan dili mühitində böyümədim. Rus məktəbində oxuyurdum, hamımız beynəlmiləlçi tərbiyənin bəhrələriydik. Amma biz Anarı oxuyurduq. Deyə bilərəm ki, Azərbaycan ədəbiyyvatı mənim həyatıma Anarla daxil oldu. İndiyə qədər onun ilk yazılarının təsiri yaddaşımda canlıdır: bu nə isə təzə bir şey idi, sosialist realizminin dar çərçivəsinə sığmırdı. Anar nəsri nəsə başqa bir ədəbiyyatın rəmzi idi. O pambıqçıların əmək qələbələrindən, neftçilərin igidliyindən yazmırdı, balaca adamı, onun problemlərini, çətinliklərini qələmə alırdı. Bir də məhəbbətdən yazırdı… Anara qədər Azərbaycan nəsrində heç vaxt məhəbbət haqqında belə azad, sərbəst yazmayırdılar. Anar mənə deyirdi: «Sən əsl dostsan, səmimi surətdə deyirsən ki, Yazıçılar Birliyi sədrliyindən get, bu mühit səni yaradıcılığından ayırır, Amma axı biz başa düşürük ki, Birlik dağılsa, curnallırımız da bağlanacaq, qocaları, cavanları qoruyan da olmayacaq».

Doğrudan da Birliyini qorunub saxlanmasıı da, curnalların, «Ədəbiyyat qəzeti»in ən çətin zamanlarda çıxması da Anarın böyük xidmətidir. Sovet dövrünün sonlarında Anarın köməyiylə Xalq cəbhəsinin bir sıra üzvünü həbsxanalardan azad etmək mümkün oldu. Birliyi parçalamağa, binanı mənimsəməyə cəhdlər olurdu Anarın müdrikliyi bu intriqalara qalib gəldi. Anar – postsovet məkanında da, türk dünyasında da, Türkiyədə, Şərqdə, İranda da tanınan şəxsiyyətdir. Onun şöhrəti, nüfuzu ədəbiyyatımızı beynəlxalq təcriddən xilas edir. Böyük oxucu kütləsi üçün o kumir idi, 60-cı lləririn axırlarında – 70-ci illərin əvvəllərində yeni doğulan körpələrə Anar adını vermək kütləvi hal aldı, Anara qədər bu ad yox idi. Anarın iki dildə yazması həm rus dilində oxuyanları cəlb edir, həm də əsərləri xalq arasında, rayonlarda geniş yayılırdı. Anar rusdilliləri və Azərbaycandilliləri birpləşdirən füqurdur. Onun mədəniyyətimizə töhfəsi indiyəcən yetərincə dəyərləndirilməyib.

Mənə danışırdı ki, 90-cı illərdə Birliyin rəhbərliyindən getməyə qəti qərar vermişdi. Amma Heydər Əliyev xahiş edib ki, getməsin…Anara qarşı mətbuatda ləyaqətsiz hücumlar başlananda fikirləşib ki, getsəm deyərlər təzyiqlərdən çəkinib getdi. Prinsipə görə qalmaq qərarına gəldim.

Dostu Ramiz Rövşən Anarı Ocağın qoruyucusu adlandırır. Mən əlavə edərdim: o hamımızın ümumi mənəvi yaddaşının qoruyucusudur.

Elmira Axundova,
«Yaddaşın qoryucusu».
«Bakinskiy raboçiy» qəzeti, 15 mart, 2008

Anarların ən qocası

Bu, danılmaz faktdır ki, ötən əsrin 60-cı illərində Azərbaycan ədəbiyyatında duyulan yeni ab-havanın müəlliflərindən birincisi məhz Anar olub.

Anarın əsərləri niyə sevilirdi? Bədii nəsrdə yeni fəlsəfi məzmun həm forma, həm də janr baxımından əlvanlığı ilə seçilirdi. Mənəviyyat mövzusu ön plana keçmişdi. Anarın təqdimindəki obrazların sinəsində ürək döyünürdü.

Rəsul Rza və Nigar Rəfibəyli. Belə bir ədəbi mühitdə böyüyən Anar heç ola bilməzdiki, şeir yazmasın. Nəsr əsərlərinin dili də onun şairliyindən xəbər verirdi. Amma şeirə, sənətə olan ciddi münasibət, məsuliyyət Anarı uzun müddət şeirlərini üzə çıxarmağa imkan verməyib. Biz oxucular ötən il Anarın «Şeir yazmaq bir həvəsdi» adlı şeirlər kitabını vərəqləyəndə həm təəccübləndik, heyrətləndik, həm də sevindik ki, Moşusayağı şairlərin çoxaldığı bir zamanda Anar kimi sanballı bir yazıçı məhz ömrünün müdrik çağında şeirlərini üzə çıxardı. Halbuki onun ssenarisi əsasında çəkilən filmlərdə, tamaşa və qaravəllilərdə oxunan nəğmələrin mətn müəllifi Anar özü olub. Amma heç harada adı çəkilməyib, bu barədə söz açılmayıb. Yazını Anarın şeiri ilə başə çatdırırıq:

İllər keçdi bir an kimi,
Cəllad yoxdu zaman kimi, –
Həyat bir yuxuymuş demə,
Bizə gəlir olmuş kimi.

Qədim bir türk şərqisində deyildiyi kimi, «Gələn gedir, gedən gəlmir, əcəb sirr». Bütün baş verənlər həqiqətən olmuş kimidir. Elə sizin yaradıcılığınız da, şəxsiyyətiniz də.

Flora Xəlilzadə,
«Azərbaycan» qəzeti, 14 mart, 2008

20 il bundan qabaq «Sovetskiy pisatel» nəşriyyatı SSRİ oxucularına gözəl Azərbaycan yazıçısı Anarin kitabını təqdim etdi. Kitab eyni adlı roman kimi «Beşmərtəbəli evin altıncı mərtəbəsi» adlanırdı. Bu roman nəinki «qocalmır», o, bu gün belə aktualdır. Haçansa Anar valideynlərinə təşəkkür elədi ki, onu Azərbaycan məktəbində oxudublar və bu da onun milli yazıçı kimi yetişməsinin rəhni olub. Anarın dediyinə hörmət etməmək olmur, amma həyat və onun öz əsərləri birmənalı şəkildə sübut etdi ki, Azərbaycan yazıçısı olmaqla bərabər, o milli arealdan çox uzaqlara çıxıb, başqa xalqlar və millətlər üçün də «özününkü» olub. Beləliklə o həm milli, həm də fövqəlmilli yazıçıdır. Öz xalqının milli koloriti və mentalitetini əks etdirən süçetlərdən istifadə edən Anar planetin müxtəlif dillərində danışan oxucuları üçün də maraqlıdır. Özü də bu maraq artıq bir neçə nəsil boyu davam edir. Bu da Anarı çağımızın ən görkəmli yazıçılarından hesab etməyə əsas verir. Anar bu əsərini sosializmin «durğunluq dönündə» yazıb, elə bir dövrdə

ki, ideoloji ehkamlar hər şeyə hakim idi. Bax bu şəraitdə Anar elə bir şedevr yaratdı ki, mühitin tam gerçəkliyini əks etdirdi. Və bunu dolayı yolla yox, bir başa etdi.

T.Atayev.
«Şəxsiyyət azadlığı və ya məhəbbətdə seçim hüququ.
«Dünən, bu gün, sabah». «Exo» qəzeti, 19 iyul, 2008

Anlamaq dərdi və yaxud arğac olmaq yaman dərddi

Kənd sevgimiz bütün şair və yazarlarımıza qarşı saf, təmiz və namlı idi. Sonralar kənddə inandıqlarıma şəhərdə inamımı itirdim. Əvvəl inamım, sonra ümidlərim inandığım peyğəmbər kimi (əstəğfürullah) sandığım bəzi kitab müəlliflərinin, bəzi qəzet redaktor və şöbə müdirlərinin (əslində, onlar mənim üçün şair və nasir idilər) bəzi institut, universitet müəllimlərinin ucuz mənəmlikləri, saxta vəzləri, riyalı və təmənnalı baxışları hesabına ayaqlara düşüb çilikləndi. Lakin mən bütün keçilməzlikləri Anarla keçdim…

Bilməzlik ilə halı xoş olanlar Anara, Anar zirvəsinə baxanda papaqları başlarından düşür. Və papaqlarını qabaq-larına qoyub fikirləşməkdənsə, Anara hədyan deyib, hərzə-hərzə zirvəyə daş atırlar. Elə bil şabaş atırlar. Anarı da qınayırlar ki, daş saxlamır, bu talant ətalı və xətalı cənablar.

Anar Yazıçılar Birliyindən getsə, gec gəlib tez öyrənən yeni janr «dahiləri» bir-birlərinin ətini şişə çəkərlər. Yollar yol olub gedir, biz yola gedə bilmirik.

Eldar Səfa Şahvələdli.
«Aydınlıq», 15 oktyabr, 2005

Ədəbiyyatımızın, günümüzün, güzəranımızın meyarı Anar, 17-sində 70-i, 70-ində 17-si gülümsəyən Anar, salamun-əleykum!

Bahırımız Anarla başladı. Allah bu ili ömrümüzə yazmasın!

Anar bu gün də Tural bəyin, nə də Günel xanımın Anarıdır. Anar bu gün xalqımıza məxsusdur. Xalqımızın Anarıdır.

Xalqımızın bir adı da Anardı.

Anar yaradıcılığını dünya oxuyur. Dünya Anarı, Anar da dünyanı tanıyır.

Anar millətin ziyalısıdır.

Anar irsi, Anar yaradıcılığı hələ bir çox qələm tutanların çörək ağacıdır; kimi baş atmaqla, kimi daş atmaqla yeyir.

Təqdimolunmazlar Surxayzadənin uşaqlıq dostlarıdır.

Bəli, Anar müəllim, kişilik öz vətənində özün olub qalmaqdır. Bu həm də xoşbəxtlikdir, səadətdir.

Anarlar ordusu adından hörmət və səmimiyyətlə,

Eldar Şəfa Şahvələdli.
«Haqqın məhkəməsi», 17 aprel, 2008

Ləyaqət

Ana – ilk, ilkinlik.

Anadan, ana soyundan başlayıram.

Ana babası – Azərbaycanda ilk siyasi partiyanın yaradıcısı, el ağsaqqalı.

Ana tərəfdən babası – Azərbaycan Demokratik Respublikasının ilk səhiyyə naziri, Gəncənin general-qubernatoru.

Atası – xalq şairi, ölkənin ən ali mükafatlarının sahibi, dövlət adamı, deputat.

Anası – xalq şairi, el arasında tanınan, sevilən sənətkar.

Özü – otuz yaşından ölkədə yeganə özgün dərginin baş redaktoru, on ildən çox müddət ərzində ölkə yazıçılar təşkilatının başçısı, deputat, fəxri ad sahibi...

Beləsinə «Xoşbəxt adamdır, iqbalı üzdə olan adamdır» – deməyib, bəs, neyləyəsən?!

Amma burası da var ki, bu «taleyi xoşbəxt adam», «iqbalı üzdə olan dam» eləcə məşəqqətli, əzablı ömür yiyəsidir ki, durub. Özüdə bu əzab-əziyyətli ömrü təkcənə yaşamayıb. Ata tərəfdən ulu babası ömrünü çar zindanlarında bağışlayıb; ana tərəfdən babasını sovet hökuməti gullələyib; atası atasız böyüyüb, ağlı kəsəndən ömrünün son günlərinəcən ardı-arası kəsilməyən, yersiz-əsassız badalaqlara, arxadan endirilən namərd zərbələrinə tuş olub; anası dünyadan «xalq düşməninin qızı» kimi köçüb.

Mən – adi bir oxucu, nəslinə heç bir yaxınlığı olmayan vətəndaş kimi – yaddaşımın saxlanclarında ilişib qalan faktları xatırlayıram: gərək ki, 67-ci ildir; «Ağ liman» adlı ilk povesti, ilk irihəcmli əsəri, səhv eləmirəmsə, curnalda nəşr olunub. O vaxtkı «Kommunist» qəzetinin üçüncü səhifəsində, üç sütunluq tənqidi yazı verilib. Oxuyursan və bircə ona şükr edirsən ki, indi 67-ci ildir – 37-ci il deyildir: yoxsa bu «tənqid»dən sonra gənc nasirin izi-tozu da qalmazdı;

70-ci illərin əvvəlləridir. O dövrün «partiya artilleriyası» – «Kirpi» jurnalı ona «Qobustan»ın jurnalmı, toplumu, almanaxmı olmasından dərs deyir; daha yuxarılar isə toplunun üzqabığında dərc edilmiş rəsm əsərində Nəriman Nərimanovun İ.Lenindən bir çiyinmi, yarım çiyinmi irəlidə təsvir olunmasını əldə dəstavuz edərək, ona siyasi sayıqlıq barədə mühazirə oxuyurlar;

1990-cı ilin Yanvar müsibəti baş verir və ... cəmi iki il əvvəl xalqa «Millətin vicdanı» kimi təqdim olunan, üçcə ay əvvəl Moskvada, SSRİ xalq deputatlarının qurultayında Mixail Qorbaçovun üzünə «Azərbaycan suveren respublikadır – suvenir respublika deyildir» – kəlmələrini çırpan kəsi «partiya biletini atmadığına» görə «demokratik mətbuat» səhifələrində məhşər ayağına çəkirlər; daha üç il keçir – onu İstanbulun Memar Sinan Universitetində üç-dörd, aylığa mühazirələr oxumağa dəvət edirlər, Bakıda isə rəsmi dövlət qəzetində tutmuş «qəzetcik»lərə qədər hamısı «Vətənin ağır günündə Vətəndən niyə qaçdın?» – deyə ağız-ağıza verirlər; daha dörd il keçir – bu dəfə onu vəzifədən dördəlli yapışmaqda, Yazıçılar Birliyini həmkarlar ittifaqının ... ilk təşkilatına çevirməməkdə ittiham edirlər, özü demişkən, heç olmazsa, «Şəhidlər dağı» adlı kitabının varlığın-

dan, işıq üzü görməsi faktından xəbəri olmayanlar da «Bu ağır günlərimizdə niyə çəkilib bir kənarda durmusunuz?» – deyə ona tənə edirlər.

Yaddaşımın saxlancından bu adda-budda faktları sadalayır, əsli-nəcabətilə bağlı məlumatları təzədən yada salır və bu yaxınlardakı görüşlərinin birində yarızarafat-yarıciddi dediyi bir fikri xatırlayıram – təxminən belə: «Mənim əleyhimə yazılan yazıları toplamışam, təxminən 900 səhifədir; 1.000 səhifəyə çatanda nəşr etdirəcəyəm».

Budumu «taleyi xoş gətirən adam», «iqbalı üzdə olan adam?»

Təxminən 30 il əvvəl yazdığı, nəinki dövr üçün, elə indinin özü üçün də cəsarətli söz nümunəsi olan essesini belə adlandırıb: «Anlamaq dərdi». Bundan da ağır dərd olur: anlanılmamaq dərdi.

Çox-çox üzr istəyirəm, manə elə gəlir ki, ona anlanılmamaq dərdi, «bu insanxanada» (R. Rza) tənha olmaq dərdi qismət olub. «Şəhidlər dağı» kitabının üzqabığına baxa-baxa birdən alnımı soyuq tər bürüyür: təsvirdəki... dağ (qora) silueti – kitab 20 Yanvar şəhidlərinə ağı olduğu halda – anlanılmamağın rəmzi deyilmi?

Bu gün ANARın 60 yaşı tamam olur. Doğum günün mübarək, əsrdaşım, soydaşım, qardaşım!..

Şakir Yaqubov.
Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi.
«Səhər» qəzeti, 14 mart, 1998

Nəbi Xəzri Burla xatunu düşmən ayağına gətirir...

Yazıçı Anar «Dədə Qorqud» filminin ssenarisini qələmə alanda tarixi həqiqətlərə toxunmadan, boyda yazılanlara boya-rəng yaxmadan qələmə almışdı. Qələmə almışdı və üstündən illər keçdikcə də adiləşmir, tamaşaçını öz cazibəsində saxlaya bilir. Bu, yazıçının uzaqgörənliyi idi, filmin sonunda Alp Aruzun Qazan xanın üstünə qoşun çəkməsi epizodunu, yəqin ki, xatırlayırsız. Yazıçı bununla nə demək istəyirdi? Sovet ideologiyasının hakimi mütləq olduğu bir zəmanədə qardaşın qardaşa qılınc çəkməsi yarısı şimalda, yarısı cənubda boyunduruğa salınmış bir millətə, iki qardaşa nə demirdi?.. Nə pıçıldamırdı?.. Bilən bilir...

Bəs Nəbi Xəzrinin «Burla Xatun»u tamaşası nə deyir? Sözün düzü, hələ də bizə aydın deyil.

Bizə elə gəlir ki, bu cür əsər, bu cür tamaşa «Dədə Qorqud» üçün qiymətli töhfə ola bilməz və olmayacaq.

Töhvə
«Şans» qəzeti, 24-25 iyun

Anardan sonrakı ədəbi nəslin ondan yaxşı, ondan pis, ona bab əsərlər yazacağına da inanıram, iyirminci yüzilin ikinci yarısı üçün Anarın zəngin ədəbi irsinin ədəbiyyatşünaslıq etalonuna çevriləcəyinə də…

Laura Cəbrayıllı.
«Oğuz eli» qəzetinin Anara həsr olunmuş xüsusi buraxılışı

Kim nə deyir desin, mən Anar müəllimin xətrini çox istəyirəm. Bugünki heç bir hərəkəti, özü demiş iynəli sözü «Ağ qoç, qara qoç», «Anlamaq dərdi», «Dantenin yubileyi», «Beşmərtəbəli evin altıncı mərtəbəsi», «Dədə Qorqud» kimi onlarla gözəl əsərin müəllifi olaraq ona hörmət bəsləməyimə əngəl ola bilməz. Amma 70 illik yubileyində elə mənə verdiyi müsahibəsində çox gözəl bir cümləsini ona xatırlatmaq istəyirəm: «Həyat 70 yaşdan sonra başlayır». Bəli, heç olmasa «yeni həyat»ınzı cavanlardan özünüzə düşmən yaratmaqla keçirməyin, hörmətli Anar müəllim. Və onların yazılarının, sizə qarşı verilən musahibələrinin monitororinqini keçirməyə həsr etdiyiniz enercini lütfən yeni bir «Ağ liman» yaratmağa yönəldin. Biz sizin gözəl əsərlərinizi gözləyirik, tikanlı cavablarınızı yox.

Sevinc Telmanqızı.
«Yenə həmin Anar müəllim barədə…», «Yeni Müsavat» qəzeti, 14 noyabr, 2008

Anarın, Ramiz Rövşənin… dost müdafiəsində öz imzaları (açıqlamaları yox ha!) ilə iradə ortaya qoymalarından məmnun qaldım. Və dərhal əlavə edim ki, heç vaxt Anar və ya qeyri ziyalının yaşadıqları mühitin eyğbəcərliklərinə qarşı çıxış etmədiyi fikrində olmamışam. Onlar həmişə öz sözlərini deyiblər. Yeni nəsldən fərqləri ondadır ki, bu simaların etiraz formaları tamam başqadır. Məsələn, əgər Anar «Yaxşı padşahın nağılı»nda eybəcər reallığı təqdim edirsə və 40 ildən sonra da recim mahiyyəti dəyişməyibsə, yenidən həmin hekayəsini dərc etdirməlidir, yoxsa təzədən «Yaxşı padşahın nağılı»nı yazmalıdır? Yaxud, faciələrimizi – zamana uyğunlaşıb bütün dövrlərdə, dəyişən situasiyalarda vəzifəsini qoruyan simasız elm fədailərinin əsl ziyalı üstündə qələbəsini və bu qələbənin mahiyyətində dayanan siyasi gerçəkliyi bir neçə il öncə «Otel otağı»nda ifadə edən Anardan başqa nə istəməliyik ki? Adam xarakterindəki üsyankarlığı ədəbi mühitiin çərçivələrində ortaya qoyursa, ondan, tuğaq ki, piketə çıxmağı gözləmək məntiqlidirmi?

Fərhad Bədəlbəylinin dosta görə sinəsini bunca qabağa verməsindən isə təkcə məmnun qalmadım, həm də izah edə bilməyəcəyim qürur hissi yaşadım… 37-ci il çoxdan bərpa olunub, Fərhad bəy! Bu repressiya dalğası vaxtaşırı sizləri də sarıb… Böyük adaşım Anar deyir ki, bizlərə qarşı aparılan kampaniyanın başında məhz korrupsionerlər və rüşvətxorlar dayanır. Düz deyir…

Anar Niftəliyev.
«37-ci il çoxdan bərpa olunub», «Azadlıq» qəzeti, 14 noyabr, 2008

Mən, sən, o və Anar

Bir oxucu kimi Ramiz Rövşəni Azərbaycanın yaşayan ən böyük şairi, Anar isə həyatda olan böyük yazıçısı sayıram.

Dünya ədəbiyyatmdan az-çox oxumuşam, vaxt tapdıqca da oxumağa çalışıram. Dünyada çox istedadlı yazıçılar var və onların əsərləri hər yerdə əl-əl gəzir. Azərbaycanın da zamanıında böyük yazıçıları, şairləri olub, bizi dünyada tanıdıblar. Amma müasir dünya ədəbiyyatı, məşhur bir ləti-fədə deyildiyi kimi, yerində durmadığından biz ona çatmaqda çətinlik çəkirik. Belə bir vaxtda Anar kimi bir yazıçının mövcudluğu Azərbaycan ədəbiyyatı üçün başucalığıdır. Təbii ki, bu sırada Əkrəm Əylisli və başqaları da var.

Məncə, Anarın yaradıcılığında qiymətləndirilməli olan əsas məqamlardan biri onun əsərlərində hamının öz istədiyini tapa bilməsidir. Eyni zamanda, Anarın əsərləri bütün nəsillər üçün cəlbedici, oxunaqlıdır. Anar həm də Azərbaycan ədə-biyyatına şəhər havasını gətirən yazıçılardandır. Hansı ki, Bakının yaxşı vaxtlarından bəhs edən həmin əsərlərin özləri, onların əsasında çəkilən filmlər zaman nə qədər dəyişsə də, həmişə aktualdı. Anarın əksər əsərləri insanın illər öncə müxtəlif məkanlarda, müxtəlif şəraitlərdə və situasiyalarda çəkdirdiyi köhnə şəkillər kimidi. Necə ki, uzun illər sonra köhnə şəkillərə baxıb nəyisə xatırlayırsan, eləcə də Anarın əsərlərini oxuyub nəyisə, kimisə xafırlamamaq mümkün deyil. Bu baxımdan Anarın əsərləri həmişə diridi.

Bu gün bəzi yazı-pozu əhli Azərbaycan ədəbiyyatının, xüsusən də 60-cıların yaradıcılığının Biləcəridən o yana keçmədiyini iddia edir. Amma təkcə elə Anarın ABŞ, Almaniya, Kanada, Yaponiya, Finlandiya, Polşa, Macarıstan, İsveçrə, Bolqarıstan, Estoniya, Türkiyə, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Hindistan, İran da daxil olmaqla, dünyanın müxtəlif ölkələrində 50-dən artıq kitabı çap olunub. Bu Azərbaycan ədəbiyyatının dünyaya çıxması deyil?

Odur ki, olanımızı qılınclamaq, «Azərbaycan ədəbiyyatı dünyaya çıxa bilmir» deyib, səs-küy salmaq lazım deyil. Azərbaycan ədəbiyyatı dünən də olub, bu gün də var, sabah da olacaq və yaxşı ədəbiyyat dünyanın harasında olursa-olsun, özünə oxucu tapacaq.

Yetər ki, ortaya sanballı əsər qoymağı bacarasan. Anar zamanında bunu bacarmış yazıçılardandır.

Zabil Müqabiloğlu.
«Yeni Musavat», 3 mart, 2008

«Anara qarşi çixanlar ədəbiyyatimiza yad olan insanlardir»

Yazıçılar Birliyinin mətbuat xidmətinin rəhbəri Ədalət Əsgəroğlu ilk əvvəl sədr Anarın İçərişəhərin satılmasında iştirakı barədə ittihamı cavablandırdı:

«Vaqif Nəsib yaxşı bilir ki, İçərişəhər söhbətlərində Anar müəllim nə qədər təəssübkeş olub və İçərişəhərə qarşı olan müdaxilələrin qarşısını neçə dəfə alıb. V.Nəsib İçərişəhərdə yaşadığı halda indiyə qədər orada hansısa memarlıq abidəsinin söküntüsü-

nə qarşı niyə yazıçı olaraq etiraz səsini qaldırmayıb? Amma Anar müəllim «Qobustan» jurnalının baş redaktoru olduğu vaxtlarda İçərişəhərin tarixi muzeyə çevrilməsi təklifini dəfələrlə irəli sürüb və bu gün də sözünün üstündə dayanır. Anar müəllim Milli Məclisin üzvü olduğu vaxtlarda da İçərişəhərin qorunması, orada yeni tikililər tikilməsinə qarşı çıxanlardan olub. V.Nəsib yaxşı bilir ki, İçərişəhər söhbətində ona heç kəs inanmasa da, amma abidələrlə bağlı söküntülərə həssaslıqla yanaşan Anar müəllim tez reaksiya verəcək. O zaman V.Nəsibin ürəyindən olacaq ki, Anar ona cavab verdi. Anar əhəmiyyətsiz adamlara cavab verməyəcək.

Yazıçılar Birliyinin idarə heyətinin və Beynəlxalq Ədəbiyyat Fondunun üzvü Səlim Babullaoğlu isə Anarın sədrlikdən uzaqlaşdırılması təşəbbüsünə aydınlıq gətirdi: «Bu, kənarlaşması iki halda ola bilər. Fövqəladə qurultay çağrılıb qərar qəbul edilə bilər və həmin qərara görə Anar sədrlikdən kənarlaşdırıla bilər. Amma unutmaq lazım deyil ki, Anar YB-nin sədri vəzifəsinə qurultayda bir səs istisna olmaqla yekdilliklə seçilib. Bu gün Anarın istefasını tələb edən insanların sırasında Anar müəllimə səs verən, yaxud bitərəf qalan iştirakçılar olub. Anarın İçərişəhərin satılmasında əli olmasına gəlincə isə, bunu birinci sinfə gedən şagirdə desən gülməyi gələr.

«Ulduz» jurnalının redaktoru Elçin Hüseynbəyli isə öz ünvanına səslənmiş iradlara belə münasibət bildirdi: «Şəxsən mən o cür bisavad, ədəbiyyatımıza, mədəniyyətimizə düşmən kəsilən adamların mətbuat səhifəsinə cixmasına təəssüflənirəm.

Anar müəllimin ailəsi haqqında söylənən fikirlərə münasibət bildirib söyləmək istərdim ki, tale məsələsində insanlar bir-birinə sataşmasalar, yaxşıdır. Tale insanlara ilahidən verilir. Mən Anar müəllimin oğlunun yerinə olsaydım, atamdan inciyərdim ki, Azərbaycanda bu qədər dəyər sahibi, imkanları ola-ola nəyə görə onun oğlu səfir işləməməlidir? Anar müəllimin bir sözü var: övladlarıma deyirəm ki, atam, anam mənim üçün hər imkanı yaradıblar ki, mən yaxşı yaşaya bilim. O da övladlarına tövsiyə edib ki, əxlaq və mənəviyyatım dairəsində sizə şərait yaradacam ki, oxuyub mənsəb sahibi ola biləsiniz. Bir insanın ki, atası oxumuyub, istedadsız olub, həyatda heç bir mövqe tuta bilməyib bu adamın təbii ki, övladı da cəmiyyətdə yer tutmağa cətinlik çəkəcək.

Tədbirdə V.Nəsib mənim nadan olduğumu söyləyib. Mən nadanlığımı göstərmək üçün ağsaqqal adama qarşı hansı hərəkəti etməliyəm ki, sözünü həqiqətə çevirim? Mənim haqqımda bu fikirləri söyləyən adam o qədər həyasız və savadsızdır ki, hekayədə söhbətin atanın körpə uşağı öpməsindən getdiyini anlamayıb. O adamın əbləhliyi ondadır ki, yazıçının əsərindən bir ifadəni konteksindən çıxarıb təhlil edir.

«Çörəyi dizinin üstündə olmağı və nankorluğu ilə ad çıxaran Vaqif Nəsib yazıçıların Məmməd Arif adına kitabxanasının talan edildiyini deyir. Əgər Vaqif Nəsibin onunbunun hesabına içdiyi araqdan başı açılsaydı, gəlib birliyin dördüncü mərtəbəsində yerləşən kitabxanamızla tanış olardı. Vaqif Nəsib istemal etdiyi içkilərin təsiri ilə yalanlar uydurur» bu sözlər isə Yazıçılar Birliyinin (YB) yaydığı bəyanatdandır.

S.Mövsümova.
«Paritet» qəzeti, 30 sentyabr, 2006

Anarın sonralar mübarizələrdə, çəkişmələrdə keçən taleyini göz önünə gətirəndə o məsum uşağa həsr edilmiş bu şeirlərin təsir gücü daha da artır.

Yazıçı sözü zamanda ərimir, əksinə zamanı özündə əridir. Və heç şübhəsiz ki, Anarın son kitabındakı bu şeirlər də əlli ildən sonra ən azı yazıçının tərcümeyi-halının, yaşantılarının, ovqatının mücdəsi kimi gələcək azərbaycanlı oxucuya çox mətləblər pıçıldayacaq...

Gündüz.
«525-ci qəzet», 7 aprel, 2007

Sözün sehri və ya qələmə gecikmiş düşüncələr

«Filan söz məni yaman tutdu». Xoşum gəlir bu ifadədən. Sözün adamı tutmağı yaman olur.

«Sizsiz» bir qədər gec oxudum amma, güc oxudum. Oxumadım, hava kimi ciyərlərimə çəkdim, bir içim su kimi içdim, ürəyim, «uf», demədi ki, demədi.

Son zamanlar onun bostanına atılan daşlardan mənim də xəbərim var. Onun bostanı Söz bostanıdır. Ora atılan daş yerə düşməz. Mən o daş atanları xarakterizə etmək fikrində deyiləm. Sadəcə olaraq həyatda öz sözü, qələmi, əməli və işi ilə, rəftarı, həyata və insanlara münasibətilə – varlığı ilə sözünü deyib, özünü təsdiq, sübut etmiş bir şəxsiyyətə nahaq həmlə sahiblərini adlandırmağa söz tapmıram. Bir yazıçının və ya şairin əsərini tənqid etmək üçün ümumiyyətlə, ondan yüksəkdə olmalısan ki, tənqid etməyə haqqın olsun.

Elnaz Eyvazlı.
«525-ci qəzet», 15 oktyabr, 2005

Zaman və sənətkar yaxud anlamaq dərdi

«Zamanla üz-üzə» verilişinin ilk qonağı xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri, ictimai xadim Anar idi. Veriliş canlı ünsiyyət formasında nəzərdə tutulmuşdu. Verilişin hazırlanmasına Anarın yaradıcılığını dərindən bilən, onunla yaradıcılıq ünsiyyətində olan Ramiz Həsənoğlu başçılıq etsə də, görüşə gələn hər bir şəxs Anara müstəqil sual verə, ondan zəmanəsinə, dünənə və sabaha münasibətini öyrənə bilərdi.

«Zamanla üz-üzə» verilişində toplaşanların sualları fonunda Anarın verdiyi cavablarla zamanın yazıçı və ziyalısının portreti açıqlandı.

O, milli-mənəvi dəyərlərə bağli sualları da cavablandırdı. 1937-ci il hadisələrinə ehtiyatla yanaşmağı, repressiyadan yaxa qurtaranları bu gün repressiya etməyin, günahlandırmağın özünün də bir repressiya olduğunu xatırlatdlı. Sonra «Gecə düşüncələri» əsərindən söhbət açdı. Qloballaşma ilə bağlı milli-mənəvi dəyərləri qorumağa çağırdı.

Belə bir dövrdə dilimizi, əxlaqımızı qorumağın vacibliyini vurğuladı. Bildirdi ki, vaxtilə Amerika kəşfiyyatının rəhbəri Alen Dalles ölkələri işğalçılıq siyasətindən daha ağır bir vasitə ilə almaq metodunu irəli sürmüşdü. O, xalqın mənəviyyatını əlindən almaq, onların arasında narkomaniya, alkoqolizm, əxlaqsızlıq yaymaq, milli dəyərləri məhv etmək yolu ilə köləyə çevrilmək, ölkələrini əlindən almaq siyasətini irəli sürürdü. Təəssüf olsun ki, düşüncə tərzləri bu nəzəriyyə ilə üst-üstə düşən, öz xalqının milli-mənəvi dəyərlərini danan belə insan-larla biz rastlaşırıq. Bu gün tariximizi dananlar, muğamımızı dananlar, klassikləri dananlar az deyil. Vətəndaşlıq mövqeyindən çıxış edən yazıçı, bu təhlükəyə qarşı bütün cəmiyyəti mübarizəyə çağırdı. Elə bilirik onun bu çağırışı «Zamanla üz-üzə» verilişinin bütün yaradıcı heyətinin istəyi və görüşə gələnlərin arzusu ilə qovuşurdu. Bu, eyni zamanda, verilişin aparıcı xəttini təşkil edən anlamaq dərdindən xəbər verirdi.

A. İsmayıloğlu.
«Ədəbiyyat qəzeti», 30 mart, 2007

Sovet senzurasından milli Dədə Qorqud «çıxarmış» sənətkar...

Təkcə «Dədə Qorqud» kimi möhtəşəm bir dastanın ssenariləşdirilməsi Azərbaycan kino tarixində hadisəyə çevrildi. Azərbaycan mədəniyyəti tarixinə Anar, həm də, kinorejissor kimi daxil oldu. Qədim eposların ekranlaşdırılması dünya kino sənəti tarixində bəlli bir hadisədir. Etiraf etməliyik ki, Anar möhtəşəm «Dədə Qorqud» eposuna yeni bir nəfəs verdi. Onun tarixiliyini qoruyaraq müasir sənət zirvəsinə qaldırmağa nail oldu.

Yazıçının sovet dövründəki bədii yaradıcılığı və bu əsərlərin ekran təcəssümünün gerçəkləşdirilməsi o dövrün ideologiyası ilə sıx bağlı olan senzura ilə mübarizə şəraitində keçmişdir. Senzura ilə mübarizə, daha doğrusu, senzuradan yayınmaq, senzuranı azdırmaq vasitələrindən biri də Ezop dilidir ki, Anar bu vasitədən çox ustalıqla istifadə etməyə nail olmuşdur.

Zülfiyyə Eldarqızı.
«Bakı xəbər», 30 mart, 2008

Gəlin ədəbiyyatımızı qoruyaq

Mənim bu mövzuya toxunmağımla elə düşünməyin ki, «AYB» rəhbərliyinin gözündə ucaltmaq istəyirəm. Əsla! Mənim nə «AYB»-dən, nə də ki, rəhbərliyindən heç bir umacağım yoxdur. Heç onları şəxsi olaraq, tanımıram da. Sadəcə bu mövzudan yazmaq, bu mövzunu qəzetmizdə işıqiandırmaq başlıcası mənim qələm əhli olmağımdan, bu prosesləri kənardan müşahidə etməyimdən irəli gəlir ki, mən də öz fikirlərimi bu yazı ilə ictimaiyyətin nəzərinə çatdırmaq istəyirəm.

Əvvəlcə onu qeyd edim ki, bəzilərinizbildirirsiniz ki, «AYB» gənclərin irəliləməsində onlara şərait yaratmır. Əvvəla onu deyim ki, bu fikirlərdə yanılırsınız. Məsələ heç də siz düşündüyünüz kimi deyil. Mən bir seyrci kimi deyə bilərəm ki, AYB-də gənclərə verilən şərait heç bir əlaqədar qurumda görünmür. Bu yöndə aparılan işlərin başında dayanan Anar müəllimin də əməyi göz qabağındadır. Məsələyə obyektiv yanaşanda heç də sizin danışdıqlarınızın doğru olmadığı aşkarlanır.

Anar müəllim də, Fikrət müəllim də və başqa rəhbər işçilər də hər zaman çıxışlarında özlərinin mətbu orqanlarında gənclərə böyük yer ayrılmasını tələb edirlər və demək olar ki, müəyyən çətinlikləri çıxmaq şərti ilə bu tələblərə əməl edilir. Qaldı sizin tələbinizə ki, sədr, Anar müəllim istefaya getməlidir. Bu tamamən məntiqdən kənar bir fikirdir. Çünki əgər siz, biz gəncləri nəzərdə tutub deyirsinizsə ki, gənclər rəhbərlikdə təmsil olunmalıdır, sizə deyim ki, elə sizlə birgə biz gənclər də hamımız Anar müəllimin yerini tutmaq üçün, gərək Anar yaradıcılığının, Anar məktəbinin yolunu keçək, bu məktəbdən bəhrələnək. Amma bu gün səmimi olaraq qeyd etməliyik ki, heç birimiz bu səviyyəyə layiq deyilik. Ola bilər ki, bizlərdən hansımızsa o vəzifədə əyləşə bilək, ancaq biz Anar ola bilmərik. Anar bir əzəmətli çinardı və biz də hamımız bu çinarın ətrafında dayanmışıq. Biz ondan bəhrələnirik.

Gərək hamımız bu reallıqla barışaq ki, bu gün bütün dünyada Anar müəllim bir türk yazıçıs kimi dərin sayğı ilə qarşılanır. Onur bütün əsərləri nəinki Azərbaycanda, bütün dünyada sevə-sevə oxunur. Bütün bunlar hamısı kimlərin fəxridir? Əlbəttə ki, Azərbaycan millətinin. Çünki istənilən ölkədə Anar müəllimin adı çəkilərkən Azərbaycan yada düşür. Bu bizim fəxrimiz deyilmi? Əgər başqa ölkələrin Anar müəllim kimi ədibi olsaydı, inandırıram sizi ki, elə sağlığında ona altundan heykəl qoyardılar. Amma onu da gözəl bilirik ki, Anar müəllimin şəxsiyyətində olan o saflıq, əsərlərində olan o, əvəzolunmazlıq, nəinki altunla, dünyanın heç bir qiymətli əşyası ilə əvəz oluna bilməz. Anar müəllim ədəbiyyatımızın canlı tarixidir. Gəlin boş-boş mübahisələr qaldırmaqdansa, bu tariximizi qoruyaq.

Zaur.
«Azad qələm», 1 sentyabr, 2006

«Cavid ömrü» filmi haqqında

Filmin rejissoru Ramiz Həsənoğludur, baş rolda məşhur Rasim Balayev çəkilir. Filmin produsseri Rasim Həsənov dedi ki, ssenarinin müəllifi Anardır, amma o, bütün çəkiliş prosessini öz nəzarətində saxlayırdı. O yalnız çəkiliş meydançasında deyil, montaj zamanı da fəal iştirak edirdi. Odur ki, «Cavid ömrü» filmini həm də Anarın filmi hesab etmək olar.

«Hüseyn Cavid» filminin təqdimatı
«Şərq-Qərb» festivalında olacaq». «Zerkalo» qəzeti, 25 avqust, 2007

Festivalın dördüncü gününün əsas hadisəsi «Cavid ömrü» filminin təqdimatı oldu. Bu çox keyfiyyətli işdir. Filmdə Cavidin eyni adlı əsərinin qəhrəmanı İblis obrazı çox maraqlı təqdim olunur.

Nurlana. «Bakı kinofestivalının sadə şeyləri.
«Cavid ömrü»ndən «Flandriya»ya qədər. «Zerkalo» qəzeti, 11 sentybr, 2007

Festivalda rejissor Ramiz Həsənoğlunun Anarın ssenarisi üzrə çəkdiyi «Cavid ömrü» filminə əlahiddə maraq ondan göründü ki, bu filmin nümayişi zamanı «İbrus» teatrının salonu ağznacan dolu idi və çoxları iki saat ayaq üstə qalıb filmi seyr etdi. Böyük Cavid haqqında film bugünkü Azərbaycan gerçəkliyində layiqli hadisədir. Filmdə kinematoqrafik əllamələr yoxdur – o, çox ətraflı salnamədir, Cavidin yaşayıb yaratmağa məhkum olduğu zamanın bütün parodokslarını açıb-tökən salnamə. Bu məhz bugünkü tamaşaçıya çox gərəkli olan əsərdir, çünki «dəymə mənə, dəymərəm sənə», «mənim nə işimə» davranışının nəyə gətirib çıxardığını aşkar göstərir. Hadisələrin panoramını gözlərimiz qarşısında canlandıran Anar və Rasim Həsənoğlu kommunizm quruculuğu macarasına inanmış adamların öz xalqının cəlladlarına çevrilməsini çox incə şəkildə açırlar. Film namussuz, əxlaqsız adamların insan sifətini itirmiş kölələrə çevrildiyini əyani şəkildə nümayiş etdirir. Butün bunları xatırlatmaq bü gün çox əhəmiyyətlidir.

«Cavid ömrü».
«Exo» qəzeti, 11 sentyabr, 2007

1992-ci ildə Mən TV-yə qayıdandan sonra Novruz bayramı ərəfəsində başımızı sındırırdıq ki, nə göstərək, heç kəs narazı qalmasın. İki seriyalı «Üzeyir Ömrü» filmini verməyi qərarlaşdırdıq. Nəticə qeyri-adi uğurlu oldu. Filmdə həm musiqi vardı, həm də əsl vətənpərvərlik. Yazıçı Anar «Üzeyir ömrü», «Qəm pəncərəsi» filmlərini yaratmaqla maarifçilik işinə böyük töhfə vermişdir. Məhz bu yolla gedərək gənclərəmizə siraət etmiş yalançı dəyərlərlə mübarizə edə bilərik.

Elşad Quliyev.
«Biz – günəş övladlarıyıq. Azərbaycana yeni telekanllar lazımdırmı?
Bu barədə və özümüz haqqında bir az danışaq», «Zerkalo» qəzeti, 1 sentyabr, 2007

Bu yaxınlarda çoxdan gözlədiyimiz film – yazıçı Anarın ssenarisi əsasında görkəmli rejissor Ramiz Həsənoğlnun çəkdiyi «Cavild ömrü» teleekranda göstərlidi. Bu filmlə Anar Üzeyir Hacıbəyov və Cəlil Məmmədquluzadə haqqında çəkdiyi filmlərin maarifçilik xəttini davam etdirir və Cavid taleyinin bütün faciəvi keşməkeşlərini göstərir. Bir neçə nümayişdən sonra «Cavid ömrü» filmi hələ də birmənalı qarşılanmayıb, amma artıq müsbət rəylər var. Bu təbiidir, nə qədər tamaşaçı varsa, o qədər də rəy olur. Tarixdə neçə dəfə olub ki, hər bir yeniliyi top-tüfənglə qarşılayıblar, sonralar isə bu əsərlər millətin sərvəti kimi qiymətləndirilib. Şəxsən mən ona sevinirəm ki, ilk dəfə bədii filmdə

Cavidin faciəvi taleyinin kino versiyası öz əksini tapıb. Bu filmə laqeyd baxmaq olmur, o qəlbimizin ən yaralı tellərinə toxunur. Aktiyor tapıntıları çox uğurludur. Bütün bunlar filmin müvəffəqiyyətidir. Açığını deməliyik ki, bizi – Hüseyn Cavidi, Əhməd Cavadı, Mikayıl Müşfiqi sevən insanları film həyəcanlandırır. ağladır, düşünməyə vadar edir və burda ayrı söhbət ola bilməz.

Elşad Quliyev. «İblis».
«İblis cəhənnəmdədir ya içimizdədir?», «Zerkalo» qəzeti, 12 oktyabr, 2007

«Cavid ömrü» filmində Anar faktların, gerçəklərin stixiyalı axınına qarşı durdu, bir film çərçivəsində Azərbaycan ziyalısının salamat obrazını gələcəyə ötürmək kimi dəyərli və ümummilli mənafeyə söykənən işin öhdəsindən gəldi.

Fıilmlə bağlı şahidi olduğum bir neçə məqamı yazmağı özümə borc bilirəm. Bir dəfə Cavid yadigarı Türan Cavid üzündəki çox-çox məmnun və mütəəssir bir ifadəni gizləməyərək bu gün ona Anarın zəng vurduğunu söylədi. Anar ona:

– Cavid haqqındakı filmin ssenarisini yazmağı mənə tapşırıblar – demişdi və əlavə etmişdi ki, halallıq verirsinizsə işə başlayım». – Siz nə dediniz? – deyə Turan xanımdan soruşdum. – Nə deyəcəm? Dedim ki, sən yazmasan, bəs kim yazacaq?

«Sən yazmasan, bəs kim yazacaq» kimi həyəcanlı razılığın və halallığın arxasında ciddi bir tarix dayanırdı. XX yüzil Azərbaycan mədəniyyətinin ictimai fikrə həm də kino vasitəsilə təqdimatında əvəzsiz xidmətləri olan Anar Cavid ocağına çoxlarının bildiyindən daha məhrəm bir adam idi. O qədər məhrəm ki, Ərtoğrul Cavidin qırx il örtülü, bağlı qalmış arxivini açmağı Turan xanım ona etibar etmişdi və Cavidin istedadlı oğlu barədə Anarın çox dəyərli və təkrarsız bir yazısı o vaxt «Ədəbiyyat və incəsənət» qəzetinlə dərc olunmuşdu. Anarın valideynləri Cavidin yaxın əhatəsində olanlardandı, onunla məhrəm münasibətləri vardı. Ramiz Həsənoğlunun valideynləri də bir vaxt Cavidin tələbələri olmuşlar. Beləliklə «Cavid ömrü» sonuncu Cavidin halallığı və xeyir-duası ilə yaradılmış bir filmdir. Və məncə məhz bu amil filmin tamaşaçı rəğbəti ilə qarşılanmasını təmin edən əsas səbəblərdən biri kimi qəbul olunmalıdır.

Filmin uğurlu kadrlarından biri də Mir Cəfər Bağırovu əks etdirən epizodlardır. Anar Cavidi Mir Cəfər Bağırovla üz-üzə qoymur. Başqalarından fərqli olaraq Bağırovu İblis enercisinin çırpıntıları içərisində təqdim etmir. Hətta Bağırovun özünün belə Cavidə gizli rəğbətini qabardır. Və bu, məncə çox mühümdür. Bəlkə elə düşünmək də mümkündür ki, 1937-ci il Azərbaycanda bir-birinin qanını içməyə hazır olan adamların deyil, bir-birinin təəssübünü çəkən adamların iztirabları ilə müşayiət olunub.

«Cavid ömrü» filminin ictimai dəyəri onun bədii dəyərindən az əhəmiyyətli deyil. Elə buna görə də o, eyni zamanda yaddaşa, yaddaşın bərpasına, qorunmasına çağırış zəminində yaradıldı.

Azər Turan.
«Cavid ömrü» resenziyasından, «Naxçıvan» qəzeti, 25 oktyabr, 2008

«İblis»

Baxışdan sonrakı qısa fikir paylaşmasında «İblis» Anarın trilogiyasının üçüncü filmi kimi dəyərləndirildi. Doğrudan da bu qənaətdə böyük bir həqiqət var. Yəni, indiyə qədər Anarın Mirzə Cəlil haqqında «Qəm pəncərəsi» filmi var idi. Bu filmin həm ssenarisini yazmış, həm də quruluşçu rejissoru olmuşdu. Sonra Üzeyir Hacıbəyov haqqında «Üzeyir ömrü» filmi yarandı. Bu filmin də həm ssenarisi, həm də rejissurası Anara məxsusdur və hər iki ekran əsəri bədii-sənədli səciyyə daşıyır.

Eyni səciyyəli üçüncü film isə haqqında danışdığımız «İblis»dir (*Filmin adı «Cavid ömrü»dür – **red.***).

«Qəm pəncərəsi», «Üzeyir ömrü» və «İblis» trilogiyasına ilk baxışda milli mədəniyyətimizin, ədəbiyyatımızın, mənəviyyatımızın onurğa sütunu olan böyük şəxsiyyətlər haqqında portret filmlər kimi də yanaşmaq olar. Amma mənə belə gəlir ki, bu məhdud bir qiymət olardı. Çünki sözügedən filmlər yalnız Üzeyir Hacıbəyov, Mirzə Cəlil, Hüseyn Cavid, haqqında onların həyat və yaradıcılığı haqqında deyil. Öndə qeyd etdiyimiz kimi həm də o sənətkarlar və onların yaşadığı mühit və zaman haqqındadır. Üç böyük insanın ömür prizmasından təxminən eyni zamanda baxışdır.

Mirzə Cəlil də, Hüseyn Cavid də onları yaradıcılığa sövq edən ehtiras, milli kimlik, milli və daxili azadlıq, hansı ideyalara qulluq etmək baxımından bir-birinə çox doğma yazıçılardır. Fəqət, eyni məqsədə, eyni amala müxtəlif yollarla gedən yazıçıdır.

Və Anarın özünün də yaradıcılığı həmin yolun, həmin amalın davamıdır. Bütov bir yüz il-iyirminci əsr yaşanıb və bitib. Əgər bu dövrü bir kitaba bənzətsək, görərik ki, əsrin kitabının əvvəlinci səhifələri Mirzə Cəlillə, Cavidlə bağlıdırsa, 60-cı illərdən üzübəri olan səhifələrinin bağlı olduğu yaziçılardan biri, bəlkə də birincisi Anardır. Və Anarın portret-panoram səciyyəli üç filminin əhəmiyyəti yalnız onların Mirzə Cəlil, Üzeyir Haçıbəyov və Hüseyn Cavid haqqında olması deyil, həm də bu filmlərin müəllifinin Anar olmasıdır. Bu mənada ki, Anarın millətimizin böyüklərinə, tarixi şəxsiyyətlərinə münasibəti həm də onun özünün kimliyini, şəxsiyyətinin miqyasını müəyyənləşdirir.

Bəsti Əlibəyli.
«525-ci qəzet», 18 avqust, 2007

Anar imzası ekranda: «Gün keçdi»dən «İblis»ə qədər

Xalq yazıçısı Anarın Azərbaycan kinosunda özünəməxsus dəst-xətti var. Anar kinoya gələndə artıq nəsrdə özünü təsdiq edən, dramaturgiyada sınaqdan çıxan peşəkar bir yazıçı idi və «Molla Nəsrəddin – 66» kimi uğurlu bir əsərin müəllifiydi.

Moskvada ali ssenari və ali kinorejissorluq kurslarını bitirən Anar bir-birinin ardınca «Torpaq. Dəniz. Od. Səma», «Gün keçdi», «Dədə Qorqud», «Dantenin yubileyi»,

«Ötən ilin son gecəsi», «Üzeyir ömrü», «İmtahan», «Qəm pəncərəsi», «Əlaqə», «Təhminə», «Otel otağı» kimi sevilən bədii, «Dəniz», «Qobustan», «Bu, Səttar Bəhlulzadədir», «Daş saat», «Bu, Cavaddır» və başqa sənədli filimlərə imza atdı.

Anar özünü Azərbaycan kino tarixində publisistik fılmlər müəllifı və rejissoru kimi də təsdiq edib. Onun müəllifliyi və rejissorluğu ilə çəkilən iki fılmi – «Üzeyir ömrü», «Qəm pəncərəsi» xatırlamamaq mümkün deyil.

Anar bu paralellərlə həm Üzeyir dövrünün, həm də Anar dövrünün istedadlı sənət adamlarını tarixiləşdirə bildi. Filmin bir uğuru da onda idi ki, Qədir Rüstəmov, Ramiz Quliyev və başqaları kimi böyük musiqiçilər burada yer alaraq son dərəcə effektli bir filmin ərsəyə gəlməsində mühüm rol oynadılar. Bədii kadrların sənədli lentlərlə əvəzlənməsi bəzən müəllifin (Tofiq Mirzəyevin) hadisələrə müdaxiləsi və hər hansısa bir tarixi olayı nəql etməsi filmin dəyərini aşağı salmadı, əksinə, ona öz canrına uyğun bədii dəyər verdi.

Anar «Üzeyir ömrü»nün uğuruna arxalanıb eyni janrda qələmə aldığı başqa fılmin çəkilişlərinə başladı. «Qəm pəncərəsi» adlanan bu film də yuxarıdakı film kimi kinopublisistika janrında lentə alındı. Həsənağa Turabovun yaratdığı unudulmaz Mirzə Cəlil obrazı isə filmin əsas uğurlarından biri oldu. Müəllif bu filmdə əsasən Mirzə Cəlilin yaratdığı obrazları, onun felyetonlarının qəhrəmanlarının və yenə də ənənəsinə sadiq qalaraq Mirzə Cəlil dövrünün qarışıqlığını, ziddiyyətlərini ön plana çıxarmağa çalışdı. Filmdəki hadisələr bütövlükdə dahi dramaturqun və millətin sevən bir insanın həyatda gördüyü və içində yaşadığı məqamları əks etdirdi. Filmdə Anarın rejissor işi də xüsusilə fərqlənir. Oyun səhnələrindəki mizanlar, kadrların dolğunluğu, hadisələrin ardıcıllığı və aktyorlarla iş son dərəcə peşəkar bir kinorejissorun kamera arxasındakı fəaliyyətindən xəbər verir.

Anar hələlik son olaraq özünün bu janrdakı trilogiyasının dairəsini yaxınlarda tamamlanmış və kino mütəxəssisləri tərəfindən uğurlu sayılan «Cavid ömrü» – «İblis» filmi ilə qapatdı.

Cavid obrazını Nəsimi, Babək, Beyrək kimi möhtəşəm rolları ilə milli kinomuzun tarixində yer tutan xalq artisti Rasim Balayev yaradıb. Cavid xarakterinin incəliklərini, onun türk dünyasına sarsılmaz sevgisini, gördüyü işə hörmətini, ailəyə dərin məhəbbətini və qırılmaz əqidəsini qabarıq verməyə çalışan Rasim müəllim özünün tarixi obrazlar kolleksiyasına yeni və gözəl bir obraz da əlavə etdi. Filmin süjet xətti inkişaf etdikcə, hadisələr və konfliktlər bir-birini əvəz etdikcə Rasim Balayevin ifasında yaddaqalan bir Cavid obrazının şahidlərinə çevrilirik.

Filmin rejissoru, uğurlu televiziya tamaşaları ilə şöhrət qazanmış Ramiz Həsənoğludur. Rejissor müxtəlif teletamaşalarda istedadına və bacarığına yaxından bələd olduğu fərqli nəslin aktyorlarını filmə dəvət etməklə, yəqin ki, belə ağır filmdə qeyri-peşəkarların gücünə arxalanmaqdan çəkinib. Mütləq mənada demək mümkündür ki, elə bunun nəticəsində filmə çox maraqlı aktyor heyəti toplaşıb. İrili-xırdalı obrazların, demək olar

ki, hər birində insan xarakteri, onun mənəvi və zamandan gələn qeyiri-insani keyfiyyətləri açıqlanır.

İblis obrazının və bununla yanaşı filmin özündən gələn bütün iblislərin obrazını yaradan Məhəmməd Səfanın işi üzərində ayrıca dayanmağa dəyər. Aktyor baş rolun ifaçısı kimi eyni zamanda fərqli xarakterli bir-neçə obraz yaratsa da, dəyişə, başqalaşa bilməsi, obrazdan-obraza keçidlər etməsilə seçilir.

Əyyub Qiyas.
«525-ci qəzet», 4 oktyabr, 2007

Cavidin uğurlu ekran ömrü

Bu günlərdə xalq yazıçısı Anarın ssenarisi əsasında rejissor Ramiz Həsənoğlunun çəkdiyi «Cavid ömrü» filminin ilk nümayişi keçirildi. Mənim fikrimcə, filmin yaratdığı ilkin qənaət belə oldu ki, Anar bununla Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov ömrünə caladığı ekran həyatına daha birini – Hüseyn Cavid ömrünü əlavə etdi. Anar bir daha sübuta yetirdi ki, o, bütün varlığı ilə yaradıcı insandır və onu Azərbaycan ədəbiyyatının, mədəniyyətinin taleyi, probiemləri hər zaman düşündürməkdədir.

Anarın uğuruna şərait yaradan əsas cəhətlərdən biri bundan ibarətdir ki, o, mövzunu dərindən bilir. Çünki filmdə baş verən hadisələr onun da ailəsindən, doğmalarından yan keçməyib. 1937-ci ilin «qara yeli» onun ailəsinin başı üzərindən hələ 20-ci illərdən əsməyə başlayıb. 1920-ci ilin may ayında babası Xudadat bəy Rəfibəyli Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri kimi bolşevik-daşnaklar tərəfindən güllələnib. Anası Nigar xanım Rəfibəyli «Musavatçı qızı» adı ilə və Müsavatın gizli «Gənc Azər» təşkilatının üzvü kimi daima təqib olunub. Atası Rəsul Rza isə «yenilikçi' şeirlərinə görə sovet tənqidinin daimi hədəflərindən birinə çevrilib. Bütün bunlar imkan verib ki, Anar ssenaridə stalinizmin, o qəddar rejimin mahiyyətinin açılması, konkret faktlar və görüntülərlə tamaşaçıya çatdırılması üçün təsirli məqamlar seçə bilsin.

Sonda qeyd etmək istərdim ki, belə filmlər çox çəkilməli və təkrar-təkrar nümayiş olunmalıdır. Sovet rejiminin cürüklüyünü, insanlıq üçün təhlükəlililyini məhz belə filmlərlə indiki və gələcək nəslə göstərmək mümkündür. Bütün bunlar həm də qanlı bir tarixdən ibrət dərsi götürmək vasitəsidir.

Nəsiman Yaqublu,
Tarix elmləri namizədi.
«525-ci qəzet» 22 sentyabr, 2007

«Cavid ömrü» filmi təqdim olundu

Avqustun 15-də xalq yazıçısı Anarın ssenarisi əsasında tanınmış kinorejissor Ramiz Həsənoğlunun çəkdiyi «Cavid ömrü» filminə ictimai baxış keçirildi. Filmdə görkəmli Azərbaycan şairi və mütəfəkkiri Hüseyn Cavidin keşməkəşli yaradıcılıq və ömür yolunun ayrı-ayrı məqamları, 1937-ci ilin günahsız qurbanları olmuş istedadlı ədəbiyyat və incəsənət xadimlərinin başına gətirilənlər öz əksini tapmışdır. Yaradıcı heyət repressiya dövrünün acınacaqlı məqamlarını bir yerə cəmləyərək, onların hamısına eyni zaman məsafəsindən diqqət yetirməyi, baş verənləri anlatmağı əsas məqsəd kimi götürmuş və bu münasibət filmin uğurlu ekran həyatını təmin etmişdir. Filmdə Xeyirlə Şərin əbədi mübarizəsi aparıcı xətt kimi götürülub və repressiya olaylarının fonunda «İblisə uymuş bəşəriyyətin» üzləşdiyi xaos ustalıqla canlandırılmışdır.

Dərin təəssüratlarla izlənən «Cavid ömrü» filmi sona yetdikdən sonra tanınmış ədəbiyyat və incəsənət xadimlərindən: şair Sabir Rüstəmxanlı, şair Ramiz Rövşən, teatrşünas alim İlham Rəhimli, telejurnalist Qulu Məhərrəmli, kinoşünas Aydın Kazımov, «Ədəbiyyat qəzeti»nin baş redaktoru Ayaz Vəfalı və başqaları çıxış edərək film haqqında təəssüratlarını bölüşdülər. Vurğulandı ki, real şəxsiyyətlər haqqında bədii film çəkmək çətindi. Ona görə ki, uyğun aktyor seçimi etmək, real hadisələri obyektiv şəkildə işıqlandırmaq çox çətindi. Bu film az qala unudulmaqda olan tarixi bütün gerçəklikləri ilə yaddaşlara qaytarır. «Anar müəllimin maarifçi təbiəti, ziyalılığı bu filmin baxımlı, düşündürücü olmasını təmin edib» (S.Rüstəmxanlı), «Bu film əbədi iblislik haqqında acı bir elegiyadı (İ.Rəhimli), «Cavid ömrü»ndə zamanın ziyalıları ciddi sınağa çəkdiyi həyatın sərt həqiqətləri fonunda verilir və bu əbədi mövzunun həmişə aktual olduğu bir daha təsdiqlənir» (A.Vəfalı), «İblislik duyğularının daşıyıcıları dəyişir, əməllər, mahiyyət qalır» (Q.Məhərrəmli).

Sonda çıxış edən xalq yazıçısı Anar ssenari üzərindəki işindən danışaraq filmin yaradıcı heyətinə öz dərin təşəkkürünü bildirdi.

S.Hüseynoğlu.
«Ədəbiyyat qəzeti», 17 avqust, 2007

Bu millət həmişə 37-ci ildə yaşayıb

...Bir neçə gün əvvəl «Cavid ömrü» filminə baxdım. Yeni filmin bədii-estetik keyfiyyətləri barədə danışmaq istəmirəm – ayrı yazının mövzusudur. Yalnız onu deyə biləram ki, Anar Hüseyn Cavidin mühitini, ən əsası isə onu ələ verən həmkarlarının psixologiyasını çox gözəl ifadə edə bilib.

Ən unikal detal isə «vətən xaininin ailəsi» kimi H.Cavidin xanımının ev-eşiyindən didərgin salandan sonra sığındığı uçuq-sökük komada ona göstərilən qonşu münasibə-

tinin filmdəki ifadəsidir. Dünənə qədər H.Cavidə ucadan-uca və əlçatmaz kimi baxan şəxslər indi qonşularına çevrilən Cavid yadigarlarına gün verib, işıq vermirlər, addımbaşı onları təhqir edirlər.

H.Cavidi satan alçaq həmkarları nəsə umurdular Cavid ədəbi mühitdən gedəndən sonra onların imkanı genişlənəcəkdi, parlaya, tanına, mənsəb sahibinə çevrilə bilərdilər; Abbas Mirzəni söyüb-döyən, təhqir edən azərbaycanlı müstəntiq bu qədər namussuzluğun müqabilində vəzifə sevgisini təmin edəcəyini düşünürdü... Bu alçaqların çirkin niyyətləri vardı və onu həyata keçirmək üçün rəzillik edirdilər, bəs, Cavid yadigarlarına zülm edən qonşular nə qazanırdılar? Onlara tapşırıqmı gəlmişidi ki, Ərtoğrulu, Turanı gözümçıxdıya salsınlar?

Yox!

Onlar Cavid ailəsini təhqir etməklə repressiv aparat rəhbərlərindən mükafatmı alacaqdırlar?

Yenə də yox!

Onlar yalnız canlarında, qanlarında olan yaltaqlığı, nökərçiliyi, iliklərinə qədər işləyən həsədi ortaya qoymaq üçün fürsət tapmışdırlar – vəssəlam! Ona görədir ki, repressiya illərində təkcə Azərbaycandan 2700, bütün keçmiş sovet respublikasından cəmi 2200-ə qədər ziyalı və ədib güllələnmişdir. Yəni, bütün SSRİ-də məhv edilən ziyalıların yarıdan çoxu azərbaycanlılar idi. O ziyalıları satanlar kimlər idi?

Özümüz!

Anar Niftəliyev.
«Azadlıq» qəzeti, 27-28 yanvar, 2008

«Cavidin Həyati yüzdə-yüz faktlara söykənməklə yazilib»

Mehriban Ələkbərzadə: «Anar müəllim bundan sonra yazmasa da, Azərbaycan ədəbiyyatında Anar kimi qalacaq».

«Cavid ömrü» filmi ətrafında müzakirələr səngimir. Sanki sahibinin keşməkeşli həyatı filmin taleyindən yan ötmür. Film haqqında müxtəlif rəylər səslənir, fikirlər toqquşur, mübahisəli məqamlar yaranır. Filmin rejissoru da, ssenari müəllifi də, baş rolun ifaçısı da özlərinə tuşlanmış ittihamları dəf etmək və yeri gəldikcə qarşılıqlı ittihamlar söyləməklə məşğuldurlar.

Rejissor Mehriban Ələkbərzadəninsə qəti fikri budur ki, kimsə onu peşə etikasını pozmaqda ittiham edə bilməz.

– Sizin rejissor işi və aktyor seçimi ilə bağlı müəyyən iradları nə üçünsə filmin ssenarisinə də aid edildi…

– Halbuki mən orada ancaq hörmətimi bildirmişdim. Eynilə bu sözləri işlətmişdim ki, ssenari məni qane etdi. Və demişdim ki, Anar ən azı Rəsul Rzanın oğludur. Həmin illərdə nə baş verib, necə baş verib, 1937-ci ilin stenoqramları onun əlindədir və o bunları oxumaya bilməzdi. Ən azı ailədə bunları bilməyə bilməzdi. Ssenaridə faktlar lazımınca əksini tapıb. Bu, ssenari haqqında müsbət fikir üçün yetərli deyilmi? Söhbət Cavid həyatından gedirsə, ssenaridə Cavidin həyatı yüzdə-yüz faktlara söykənməklə yazılıb. Mənim cavab axtardığım başqa sual idi; Cavid yaradıcılığında öz şəxsiyyətini təsdiq etdimi? Mən bu suala cavab axtarırdım, halbuki film Cavidin həyatı haqqında idi. Sadəcə, mən əlavə olaraq bu rakursun da işlənməsini istəyərdim. Bu gün Anar müəllimin 70 illiyidir. Mən Anar müəllimi orta məktəbdən indiyə kimi oxuyuram və Anar sevdiyim müəllifdir. Həqiqətən də böyük səmimiyyətlə bunu deyirəm və Anar müəllimə öz xoş arzularımı çatdırıram. Anar müəllim bundan sonra yazmasa da, Azərbaycan ədəbiyyatında Anar kimi qalacaq. 60-cı illərin ən üsyankar, ən fəlsəfi, ən publisistik və ən çox faktlara söykənən müəllifi kimi qalacaq. Mən Anar müəllimi 70 illiyi münasibətilə tabrik edirəm. Və vaxtilə nəşr etdirdiyi «Qobustan» jurnalına görə öz təşəkkürümü bildirirəm. Yazıçı Anar eyni zamanda Azərbaycan kinosu tarixində özünəməxsus yer tutan bir sıra filmlərin ssenari müəllifidir. Mən «Gün keçdi» filmi və «Şəhərin yay günləri» ilə bağlı Anar müəllimlə araşdırma aparmışam və mən onun ozamankı prinsipiallığına hətta həsəd apardım. Və mən güman etmirəm ki, Anar müəllimin yaradıcılığını müzakirə etmək üçün bu gün meydana çıxacaq kimsə olsun. Mən Anar müəllimin mənim barəmdə «yaradıcılığı və ya başqa nə iləsə bağlı kölgəli fikir söyləmək istəyib və ya söyləyib» fikrini ağlına gətirməsini qətiyyən istəməzdim. Əsas budur. Əslində mən düşünmüşdüm ki, 70 illiyinə sənədli filmlə münasibətimi bildirim, nəsə alınmadı. Nə Vaxtsa yəqin mən onun hansısa əsərini lentə alacam, inşallah.

Mələhət.
«Şərq» qəzeti, 14 mart, 2008

Cavid ömrünün ekran həyatı

Xalq şairi, Milli Məclisin deputatı Sabir Rüstəmxanlının da ürək sözlərini, təəssüratını dinlədik:

«Mənim Tanrım gözəllikdir, sevgidir» etiqadı ilə yaşayıb-yaradan Hüseyn Cavidin, onun qələm dostlarının – Əhməd Cavadın, Mikayıl Müşfiqin, Abbas Mirzə Şərifzadənin, Salman Mümtazın və başqalarının başları üstündə Damokl qılıncı kimi asılan sərt rejim haqlı olaraq tamaşaçılar tərəfindən nifrətlə qarşılanır. Tarixi həqiqətlərə uyğun çəkilmiş bu ekran əsərində tamaşaçı Hüseyn Cavidi ağır, dözülməz vəziyyətdə də müdrik, dərin düşüncəli, dözümlü görür. Zamanın iztibarlarına, məşəqqətlərinə tab gətirmiş,

əyilməmiş, sınmamış Mişkinaz xanımın, Ərtoğrulun, Turan xanımın ən çətin məqamlarda belə qürurlu olmaları diqqət çəkir, yadda qalır. Film «İblisəmi uymuş bəşəriyyət?» – sualına tam, dolğun, əhatəli cavab verir. Neçə-neçə yaddaqalımlı televiziya filmlərinin, verilişlərinin quruluşçu rejissoru Ramiz Həsənoğlunun, ssenari müəllifi Anarın birgə yaradıcılıqları uğurlu bəhrə vermişdir.

Əməkdar incəsənət xadimi, professor İlham Rəhimlinin fikri isə qısa oldu: «Bu ekran əsəri əbədi iblislik haqqında acı, amma real bir elegiyadı».

Telman Mehdixanlı.
«Azərbaycan» qəzeti, 6 sentyabr, 2007

Lyudmila Lavrovanın «Tanımadığımız tanış» kitabından

(Azərbaycan ziyalılarının kitab müəllifi ilə söhbətlərindən)

FİKRƏT QOCA: Siz elə bilirsiniz Anarı tanıyırsınız?

Anarı tanımaq asan deyil, asan adam deyil. Anar hamı üçün açıq qapıdı. Amma Anar o qapıdan içəridə – öz içində çox gizlindədir. Adama uyuşandı, danışar, gülər, lətifə söyləyər, çoxlu dostları-tanışları var. Amma diqqətlə baxsan, görərsən ki, tənhadı, təkdir. Nə olar, bu da qorxulu şey deyil. Allah da təkdir.

Bilirəm ki, Anar məni özünə dost sayır. Elə mən də onu özümə çox yaxın adam sayıram. Amma onun arxası, güvəndiyi biz – dostları-tanışları deyil, özüdür. O heç kimə, heç nəyə güvənmədən hər kəsə kömək etməyə hazırdır. Kömək də edir. Onun təbiəti budur, belə yaranıb. O yalnız özünə güvənir, özünə arxalanır. Kənardan baxanlara elə gələr ki, çox yumşaq adamdı, ona nəyi desən, elətdirmək, dedirtmək olar. Əslində, Anarın içində bir polad oxu – «mənı» var. Mən elə bir vəziyyət görməmişəm və inanmıram ki, elə vəziyyət ola, Anarı öz içindəki «mənindən» bir zərrə kənara çıxara bilə.

Görsə ki, üç yüz, beş yüz adam toplaşıb, fikir verməyib keçib gedə bilər. Görsə ki, beş min adam yığışıb, dayanar, mətləbi öyrənər. Özünün burada nə qədər gərəkli olduğunu, yerini müəyyən edər, ya qalar, ya da gedər. İnsan çoxluğuna görə yox, «palaza bürün, elnən sürün» deyiminə görə yox, özünün gəldiyi qərara görə hərəkət edər. Çox vaxt deyirlər ki, dövlət adamıdı. Bəlkə də dövlət adamıdı, amma məmur deyil, çünki icraçı deyil, insandı. Uzun illərdir bir yerdə çalışırıq. Məni həmişə təəccübləndirən onun bu qədər işi necə çatdırmasıdır. O qədər xahişlə gələnlər olur... Maraqlı budur ki, o xahişlərin heç biri yadından çıxmır. Nə vaxt vaxt tapıb yazır, bilmirəm. Amma bütün verdiyi sözlərə, görəcəyi işlərə çatışır. Xalq yazıçısıdı, Millət vəkili, Milli Məclisdə komissiya sədri idi. Bir dəfə şəhərdə maşınımız söndü. Sürücü dedi ki, maşını itələmək lazımdır ki, işə düşsün. Anar sakitcə maşından endi, ikimiz maşını itələdik. Ətraf dolu adam idi. İşarə etsə, maşını əllərində qaldırıb aparardılr. Anarda yekəxanalıq, lovğalıq, özünü çəkmək yoxdur.

Azərbaycan azadlığını və müstəqilliyini qazananda çox qəribə bir dövr idi. Adamların astarı üzünə çıxırdı, elə qəribə sifətlər alırdılar, elə dəyişirdilər, adam öz gözünə imanmırdı. Anar müvazinətini itirmədi, necə vardı, elə də qaldı. Sovet dövründə də o daxilən azad, sərbəst idi, indi də elədir. Lap dünya baş-ayaq olsa, o, olduğu kimi qalacaq. Həyat və Anarın həyatı çətinləşə bilər, yungül-ağır sınaqlardan keçə bilər, onun təbiəti dəyişməz qalacaq. O öz inamına, inancına zindanda da sadiq qalacaq. Yaradıcılığında da zamana görə dəyişmir, güzəştə getmir. Özünə, istedadına, yaradıcılıq prinsip-

lərinə həmişə sadiq olub. Gənclik illərində Anara ağır faciə üz verdi. Atası da, anası da az vaxt içində dünyasını dəyişdi. Bu qəfil olmadı, üç-dörd ayın hər anı bu zərbənin hədəsi altında yaşanıb. Elə bu vaxt Anar yaradıcılıqla daha çox məşğul oldu. Üzeyir Hacıbəyov haqqında gözəl bir film çəkdi. Elə bu vaxtlar sonralar əllərdə açıq yara kimi göynədə – göynədə oxunan «Sizsiz» romanı yazıldı. Anar bilirdi ki, bu ağır faciədən çalışıb çıxmağın yeganə dərmanı daha çox məşğulluq, yazmaq, yaratmaqdır.

Söhbət yoldaşı kimi çox rahat adamdır. Heç vaxt öz dərdini-sərini həmsöhbətinin üstünə yağdırmır. Açılıb tökülmür. Onun başqasını dinləyə bilmək bacarığına, söhbəti aparmaq mədəniyyətinə, məharətinə həmişə valeh olmuşam.

Necə tanış olduq? Mən Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda oxuyurdum. Yay tətilindən qayıtmalı idim. Ona kimi də Anarla tanış idik, amma elə-belə. Həyatımın gərgin dövrü, çox çətin dövrü idi. Anar Yazıçılar Birliyində mənə yanaşdı. Mənə bir məktub verdi. Dedi: «Rəsul göndərib». Mən məktubu açıb gördüm içində pul var. Başımı qaldırdım, Anar yox idi. O zaman İnstituta qayıtmağa yol pulum yox idi. Sonralar başa düşdüm ki, pulu Rəsul Rza yox, elə Anar özü verib mənə. Bu gün də Anarın varlığına görə mən ürəkliyəm. Bilirəm ki, çətin anda arxalanacağım bir insan var. Bir cəhətini də deyim. Anar özünütəbliği bacarmır, ümumiyyətlə, belə hay-küyü boş şey sayır. Lev Tolstoyu məgər reklam eləyirdilər? Deyəcəksiniz, indi zaman başqadır. Boş sözdür, zaman həmişə zamandır, hərəkət-dədir. Zaman, dövran acizlərin bəhanəsidir. Zaman, vəziyyət, siyasət iş görə bilməyənlər üçün yaxşı bəhanədir.

Əslində, nə lazımdı: gərək butun ruhunla, ürəyinlə, ucalasan, Allaha yaxınlaşasan, aşağıda baş verənlərə də, lap özünə də, oradan – yuxarıdan baxasan. Düşünürəm ki, Anar belə insanlardan biridir. Elə ona görə indi valideyinlər öz oğluna «Anar» adını keyfiyyət nişanı kimi verir.

AFAQ MƏSUD: Anarın yaradıcılığıyla tanışlığım şəxsi tanışlığımızdan əvvəl olmuşdur. Onun dil səlisliyi tutdu məni. Öz nəsrimin dili çətin dildir. O isə təbii təhkiyə istedadına malikdir. Ən dərin mətləbləri elə sadə ifadə edir ki, sıravi oxucuya da anlamlı olur və hökmən təsirləndirir. Bu böyük məziyyətdir.

Bir şəxsiyyət kimi də mən onu çox dəyərləndirirəm. Mən kinostudiyada işləyirdim, artıq hekayələr yazırdım, Anar isə artıq tanınmış qələm sahibi olaraq Hacıbəyov haqqında film çəkirdi. Heç bir umacağım olmadan ona ikinci kitabımın əlyazmasını verdim və o, mənim üçün gözlənilmədən ön söz yazdı. Mən, Tərcümə Mərkəzində çalışdığım, istedadlı türkoloq, qəza ucbatından faciəvi şəkildə həlak olmuş Aydın Məmmədovdan sonra Mərkəzə başçılıq etdiyim dövrdə də bizim dostluq münasibətlərimiz davam etdi… Mərkəz bir çox çətinliklərlə üzləşirdi və Anar hər dəfə köməyini, dəstəyini əsirgəmirdi.

İnsanlar vəziyyətə uyğun olaraq, elə vəziyyətin içində də dəyişirlər.

Anar heç vaxt öz yanaşmasını, baxışlarını dəyişmir. Tutalım, mənə bəzən elə gəlirdi ki, o, hansı məsələdəsə haqsızdır, illər ötdükcə məlum olurdu ki, məhz o haqlıdır. Müdrikliyi sayəsində, o, düz yolu seçməyi bacarır və hər şeyin əsl qiymətini bilir.

Qatmaqarışıqlıq, cürbəcür başqalaşmalar, zövq özbaşınalığı, ədəbiyyat çəkişmələri, didişmələri… zamanla-rında Anar sanki bu mühitin fövqündə duraraq mənəvi-mədəni məkanı qoruyub saxlayır.

ARİF ƏMRAHOĞLU: Mənim üçün Anar milli Azərbaycan xarakterinin ideal təcəssümüdür. Kökləri doğma torpaqda, uca budaqları isə mədəniyyət aləminə – şumerlərdən tutmuş günümüzədək uzanır. O, ensiklopedik bilgiyə malikdir, bu onun öz iti zəkasının və fərqli xalqların, ölkələrin rəngarəng mədəni təcrübəsini öyrənmək həvəsinin bəhrəsidir. Baxın, o, oğuz şerinin ikicildliyini nəşr etdirir, Dədə Qorquddan yazır, eyni zamanda da başqa dillərdə əsla səsləndirilə bilməyəcək kimi görünən rus poeziyası dahilərinin lirik incilərini dilimizə çevirir…

Anarın bir cəhəti də var ki, qeyd olunmalıdır. O da intellektual mətanətidir. O, heç vaxt özgəsinin rəyinə, yeri gəldi-gəlmədi, uyuşmur, küləkdən asılı fluger kimi öz baxışlarını dəyişmir. Və heç vaxt haqqında bəzən mətbuatda çap olunan cəfəng iftiralara cavab verməyi özünə rəva bilmir. Bununla belə, özünü qüsursuz saymır. Özü dediyi kimi, «yalnız ölülər səhv etmir».

Anar gözəl müsahibdir. O, eşitməyi, dinləməyi bacarır, öz rəyini, mühakiməsini israrla sırımaq vərdişindən xalidir, hərçənd onun yanaşmalarının dərinliyi, ənginliyi heç bir təzyiqsiz-filansız inandırır.

Əminəm ki, haqsız, əsassız polemikada onun xətrinə dəymiş və sonra da gəlib barış əlini uzatmış hər kimsəni o qardaşcasına qəbul edə bilər. Anar dost itkisinə dəhşətli dərəcədə acıyar, haçansa qəlbinə toxunmuş adamın qarasını heç vaxt qamçılamaz…

Və heç vaxt heç bir intriqaya qoşulmaz, dedi-qodular onda ikrah doğurur.

MANSUR VƏKİLOV: Yadımdadır hələ Ali Sovetin deputatı olanda onu ittiham edirdilər ki, guya Azərbaycanın maraqlarını çox da səylə müdafiə etmir. Amma bununla belə rəqiblərin, cürbəcür «…yanlar»ın sırtıq canfəşanlığını Anara xas olan möhkəm mövqenin təmkinli ifadəsilə çaş çalırdılar. O zaman Ali Sovet (*SSRİ Ali Soveti* – ***red.***) səsinin yoğun yerinə salanların bazarı misalındaydı. Ziyalılıq, incə təbiətlilik Anarın ümdə keyfiyyətidir, hərçənd bu əqidə möhkəmliyini istisna etmir. Ziyalılığını dayaz düşüncəylə üzüyumşaqlıq, zəiflik kimi yozurdular. Xatırladığım rəsmi dava-şavalarda Jirinovski təkin qalmaqallı naqqal populist kimi görünmək üçün çox da ağıl lazım deyil.

Amma respublikanın taleyüklü məsələlərinə gəldikdə, Qorbaçovla Anar kimi sərt danışmaq hər adamın işi deyil.

Qorbaçov dəm vururdu ki, güya çox böyük qanlar axmasın deyə az qan axıdılmasını üstün tutur. Və nələr baş verdi? (*Söhbət 1990-cı ilin Qanlı yanvarından gedir* – ***red.***). Ritorik sualdır… Anar üçün hər bir insan şəxsiyyəti əvəzsizdir… Hətta kimisə bəyən-

məsə də, ona yuxarıdan aşağı baxmır, alçaltmağa, incitməyə yol vermir. Bu, əlbəttə ki, ailə tərbiyəsinin nəticəsi, ən əvvəl, yəqin anasından gələn həlimlikdir. Nigar xanım gözəl şairə olmaqla bərabər, rəhimdil münəvvər qadın idi. O, ətrafdakıların qəlbini isindirən rəvan, həyatverici nur saçırdı. Anar xasiyyətindəki möhkəmlik isə atası – Rəsul Rzadandır. Yeri gəlmişkən, hər şey «Sizsiz» kitabından aydınlaşır; məncə bu misilsiz əsərdir, – oğul yaşantılarının səmimiyyəti, öz soyu-nəslinə sədaqət, yaradıcı vergisinə görə şükranlıq duyğuları etibarilə.

Bu yaradıcılıq duyumu, qığılcımı Anardan qızı Günelə keçib. Nə gizlədim, mən onun ilk kitabının çap olunmasına şəkklə yanaşdım. Amma oxuyarkən onun nəsr dilinin təbiiliyindən, orcinal sücet bolluğundan, ovqat rəngarəngliyindən məmnun oldum.

…Yazıçılar Birliyinə başçılıq etməyə başlayanda Anar burada qarşılıqlı anlaşma, hörmət-nəcabət atmosferi yaratmağa ümid bəsləyirdi… Heyhat! Hətta istedad əsər-əlamətilə təsdiqlənməyən iddiaların toqquşması, mətbuatda yer tapan naşı və həyasız hücumlar onu göynətdi, hərçənd, o, həmişə özünü ləyaqətlə aparır, xırda höcətləşmələrə qoşulmur, yalnız sarkastik, istehzalı, bəzən hekayə şəklində («Səmimi etiraf») cavab verməyi rəva bilirdi.

SƏYAVUŞ MƏMMƏDZADƏ: Bakıda 90-cı ilin yanvarında törədilmiş qırğından sonra SSRİ Ali Sovetinin iclasını xatırlayıram. Azərbaycan təmsilçilərinə heç söz də vermədilər. Deyəsən, rus kinorejissoru Qovoruxin yalan-palan «tüstüsü»nü azca sovuşdura bildi. İgityan, Starovoytova kimilər meydan oxuyurdu. Bu qalmaqalda Anar kürsüyə yönəldi. Qorbaçov tribunanı tərk etməyi tələb etdi… səs-küy davam edir, «cəfakeş» ermənilərin havadarları «gensek»ə züy tuturdular. Sonralar Anar Qorbaçovla görüşüb fəndgir «demokratı» qısnamışdır: bəs necə olur ki, Bakıda basqın baş verən zaman 15 minlik daxili qoşun əsgərləri ola-ola min nəfər basqınçının qarşısını ala bilmədilər? Axı hər basqınçıya qarşı 1,5 silahlı əsgər var idi. Bəs niyə müdaxilə etmədilər. Qorbaçov öz rolunu davam edərək suala sualla cavab verir: «Doğrudan da, niyə?..» O, ağır günlər idi… Amma Anarın haqqımızı, həqiqətimizi lazımi yerdə lazımi şəkildə deyəcəyinə həmişə əmin olmuşam.

Hələ Bakı universitetində təhsil alarkən, o, diqqətimi cəlb etmişdi. Şəxsi tanışlığımız Moskvada, mən Ədəbiyyat İnstitutunda oxuduğum vaxt baş verdi. İlk hekayələrini ruscaya sətri tərcümə etməyimi xahiş etdi. Hekayələrin Azərbaycan dilində oricinalı («Ötən ilin son gecəsi», «Paltarasan qadın» və s.) ilk «arıq» toplusunda çıxdı və mən bir Moskva jurnalında resenziya çap etdirdim.

Tanışlığımız ülfətə, dostluğa çevrildi və mən daima Anarın dəstəyini hiss etmişəm.

Bizim, xalqımızın dar günlərində o haqqın naminə öz kəsərli, tutarlı sözünü demişdir.

Anarın nəsr əsərləri dərin məzmunla kamil forma vəhdəti, üslub sərrastlığı, zərif ovqat və intonasiya çalarları ilə cəlb və cəzb edir. Bədii düşüncə axarını çox vaxt xəfif təbəssüm, məharətlə işlətdiyi istehza, satira, sarkazm boyları isidir və əlvanlaşdırır. Onun satirası sosial məna daşıyaraq qəzetlərin son səhifəsində oxucunu sadəcə əylən-

dirmək üçün verilən məzəli əhvalatlar deyil. Anarın satirik sucetlərində böyük partlayıcı qüvvə var. Satirik nəfəs onun siyasi-fəlsəfi məna kəsb edən «Ağ qoç, qara qoç» romanında da duyulur. Ümumiyyətlə, Anar yaradıcılığında dünya ədəbiyyatının bədii təcrübəsindən uğurlu bəhrələnmə, milli zəminlə, Mirzə Cəlil kimi böyük sələflərin ənənələrinin çağdaş varlığımızla bağlı olaraq davamı, gəlişməsi ilə parlaqcasına qovuşur…

ÇİNGİZ ABDULLAYEV: Anar – görkəmli şəxsiyyətdir. Hansı mənada? Fikrimi açıqlayıram. «Beşmərtəbəli evin altıncı mərtəbəsi» Anarın əlimə keçən ilk kitabdır. O vaxt cavan idim, insanlar arasında münasibətlərin, kişi-qadın arasında ünsiyyətin yaşantılarını izləmək xüsusən maraqlı idi. Həyata təzəcə qədəm qoyanda, başqalarını tanımağa, dərk etməyə başlayanda, oxşar əhvalatlar baş verir… Olan işdir. Dünyanı başqa təcrübə, fərqli baxış vasitəsilə dərk edirsən.

Sonralar onun filimlərinə baxdım. Bir dəfə özünün film çəkilişini apardığını gördüm, o vaxt saqqal buraxmışdı, əfsanəvi fiqur kimi görünürdü. Bir gün onu küçədə görüb özüm də bilmədən, yəqin, bir saat olar ardınca getdim… On altı il birgə işləsək də, yalnız bu yaxınlarda həmin «izləməni» etiraf etdim.

Bəlkə kiməsə öyünmək kimi görünsə də, deyə bilərəm ki, heç kəs, hətta ən yaxın dostları da, bəlkə ömür yoldaşı istisna olmaqla, onu mənim qədər yaxşı tanımır. Axı Yazıçılar Birliyində neçə ildir birgə işləyirik, o, 87-ci, mən – 88-ci ildən… Bu uzun, keşməkeşli yolu – sovet dövründən bugünədək birgə keçmişik. Nə gizlədim, mən onu heyranlıqla müşahidə etmişəm.

Onun bütövlükdə mədəniyyətdə rolu misilsizdir. Belə dəyərləndirmə onun ürəyincə deyil, çünki fikrincə yazıçı yalnız öz kitablarına görə dəyərləndirilməlidir. Onun üçün əsas odur ki, bir yazıçı kimi özünü təsdiq edib ya yox. Mən isə onun mədəniyyət daşıyıcısı rolundan danışmaqda heç bir qəbahət görmürəm. Məsələn, o, nəhəng ikicildlik – oğuz poeziyasının 1500 ilini əhatə edən toplunu tərtib etmişdir. Belə bir zəhmətin yükünü hər bir elmi-tədqiqat institutu da qaldıra bilməzdi. Bizlərdə başqa bir adam tanımıram ki, yalnız Azərbaycan, Türkiyənin deyil, bir çox başqa ölkələrin də poeziyasına belə yaxşı bələd olsun. O isə fəaliyyətinin bu çeşidli sahəsinə bir hünər kimi baxmır. Bilavasitə yaradıcılıqdır onun həyatı, talei, qayəsi və bu da yazıçılığa ya sadəcə bir peşə, ya da heç bir məsuliyyət tələb etməyən məşğuliyyət kimi baxıldığı dövranda…

Deyəndə ki, məhz onun kimi tolerant, dözümlü adam Yazıçılar Birliyi sədri vəzifəsində olmalıdır, Anar inciyir. Sonuncu qurultay ərəfəsində mən hətta hamıya üz tutub bəyan etmişdim ki, Anar getsə, burada otuz-qırx saniyə, işdən çıxmağım barədə ərizə yazmağım üçün qalacağam. Zənnimcə, elə sədrimiz olmalıdır ki, ən azı ona hörmət bəslənilsin, daha yaxşısı onunla fəxr edilsin.

Anarı kimlə əvəz edəsən ki, heç birinin Azərbaycan mədəniyyətinə verdiyi töhfə onun səviyyəsinə çatmır? Amma belə yanaşma da onun xoşuna gəlmir…

Yazıçılar Birliyi yalnız onun səylərinə görə salamat qaldı. 92-ci ildə hər şey dağılırdı. O isə bacardığı, əli çatdığı hər yerdə sponsor yardımı axtarıb qəpiyinədək Birliyin hesabına köçürürdü. Özüm şahidi olmuşam.

Danılmazdır ki, Anarın ədəbi uğurları önəmlidir. 60-cı illərdə onunla yanaşı İbrahimbəyovlar qardaşları, Ə.Əylisli, Elçin, İ.Məlikzadə kimi parlaq qələm sahibləri meydana çıxmışlar… Lakin Azərbaycan mədəniyyəti, vurğulayıram – mədəniyyəti üçün onların gördükləri Anarın əməlinin yarısı qədər də deyil. Bu mənim şəxsi qənaətimdir.

Onun genişdən geniş dünyagörümü, onun türk aləminə, başqa xalqların mədəniyyətinə baxışları mədəni ilgilərimizin inkişafına önəmli təsir göstərmişdir. Müəyyən dönüş, taleyüklü məqamlarda o, respublikamız üçün çox önəmli məqalələrini operativ şəkildə, birbaşa rusca, məsələn, «Literaturnaya qazeta» üçün yazırdı. Bundan əlavə, Anar başqa xalqların musiqisinə, rəssamlıq sənətinə, fəlsəfəsinə bələdliklə fərqlənir. Əvvəllər belə bilicilərə ensiklopedik savadlı adam deyirdilər. Və mən ikinci belə bir adam görmürəm. Bəli, indi hamı şekspirlər, tolstoylardılar, amma, mübaliğəsiz, XX əsrdə əslində heç bir soydaşımız respublika mədəniyyəti üçün bu qədər iş görməyib.

Heç kəs inkar edə bilməz ki, son yüz ildə Azərbaycan tarixində görkəmli nasirlər olmuşdur. Amma şəxsiyyət miqyasına görə Anar yazıçı anlamından daha böyük hadisədir.

İlk görüşümüz Yazıçılar birliyində, 1988-ci ilin sentyabrında olmuşdu. Mənim 29 yaşım vardı. Məni təşkilat katibi vəzifəsinə məsləhət görmüşdülər. O zamanlar bu, ədəbi mühitdə şahlıq kimi bir şey idi. Məndən başqa həmin vəzifəyə respublika hökümətindən bir neçə nazir də iddiaçı idi. Anar mənim namizədliyimə üstünlük verdi. Bilmirəm, hansı cəhətlərimə görə bəyənmişdi. Biz onunla bu ərəfədə söhbətləşdik, bəlkə də energetika öz rolunu oynamışdı, necə deyərlər, «faza»mız üst-üstə gəlmişdi və sonrakı əməkdaşlığımız illərində aramızda bir dəfə də umu-küsü, ixtilaf olmamışdır.

…Birliyin ağır günləri idi. Elə məqam oldu ki, ünvanımıza hədələyici məktublar gəlirdi. Nə isə, yamanlıqları xatırlamağa dəyməz.

Amma sonuncu partiya qurultayından əvvəlkini yada salmalıyam. Artıq seçkilər mərhələsi çatmış, siyahılar hazırlanmış, çap edilmiş, ardınca avtomatik minvalla səsvermə olacaqdı, heç kim siyahıları çək-çevir etmirdi. Birdən Anar yerindən qalxıb deyir: «Mən hesab edirəm ki, bu siyahılar kəmdir. Mərkəzi Komitənin tərkibində mütləq yazıçı Elçin və anlaşılmaz səbəblərə görə siyahıya qatılmayan Elmlər Akademiyasının prezidenti olmalıdırlar. Mən siyahıya əlavə edilməsini və yenidən səsverməyə qoyulmağını, mənim də MK tərkibindən çıxarılmağımı xahiş edirəm, çünki buna razılıq verməmişəm».

Bir səs-küy qalxdı ki! O zamankı ikinci katib V.Polyanıçko ağzını mikrofona tutdu: «İstəmirsə – lazım deyil. Bu saat onu çıxardarıq».

Bu, görünməmiş hərəkət idi. Və neçə min adam toplanmış Lenin sarayında beş nəfər yerindən qalxıb «hakimi-mütləq» Polyanıçkoya etirazını bildirdi. Mən də qalxdım. İnanın ki, bu çox çətin idi… Təsəvvür edirəm ki, Anara belə bir bəyanatla çıxış etmək nə qədər zor idi… Hər halda, məsələni səsverməyə qoydular və Anarın təklifi qəbul olundu. Bu, Azərbaycan kompartiyası tarixində ilk hadisə idi ki, bulletenlər yenidən çap olundu…

Onun Parisdə YUNESKO-da aparılan danışıqlarda şahidi olduğum davranışı da unudulmazdır. 1996-cı il idi. Böyük Füzulinin yubileyi yaxınlaşırdı; məlum olduğu kimi Füzuli yalnız azəri türkcəsində deyil, farsca da yazıb yaratmışdır. Həmin məşvərə-

tə bizim mədəniyyət nazirimiz, baş nazirin müavini qatılmış, İrandan da böyük nümayəndə heyəti iştirak edirdi. Birdən iranlılardan biri Anara üz tutub təxminən belə «havaçatı» çaldı: «Anar müəllim, sizlər neçə illər boyu Rusiya hakimiyyəti altında olmusunuz, bu necə də bədbaxt məmləkətdi, axı onların nə mədəniyyəti, nə ədəbiyyatı, heç nəyi yoxur…» Anar bozarsa da, təmkinlə dilləndi: «Mən diskusiyanı hansısa müəyyən çərçivədə apara bilərəm, lakin siz Rusiyada ən böyük mədəniyyət və ədəbiyyat yaradıldığı halda, rus xalqının mədəniyyəti, ədəbiyyatı yoxdu deyə cəfəng iddialar səsləndirirsinizsə, mən sizinlə daha danışıqlar apara bilmərəm…» Ayağa qalxıb məclisi tərk etdi… Bu səviyyə onun deyildi… Bütün Fransa kanalları bunu yayımladı…

Anar dövlət dili haqqında qanunun qəbul edilməsinin təşəbbüskarıdır. O, ana dilin xalq yaşamına daha dolğun nüfuz etməsini, işlədilməsini, demək olar ki, tələb edirdi. Və bu mövqeində heç bir millətçilik nəfəsi duyulmurdu, heç bir konyunktur təmənna yox idi.

…Anar xasiyyətinin daha bir nəcib cəhəti: o, heç vaxt kimisə alçatmağı özünə rəva bilməz. Birgə işlədiyimiz on altı il ərzində o, bir dəfə də olsun amiranə tərzdə məni öz kabinetinə çağırmayıb. Oncə mütləq xəbər alacaq: «Vaxtın varmı? Gələ bilərsənmi? Zəhmət olmasa, işin qurtaranda, gəl». Mən isə oğlu yerindəyəm. Təpədən dırnağadək ziyalıdır, bununla belə cürbəcür yaramazlara, xəbisliyə, yalana qarşı barışmazdır. Onun mətanəti xüsusən Qarabağ müdafiəsi məsələsində özünü göstərdi. Qarabağlı olmasa da, bəzi qarabağlılardan daha artıq yurdun təəssübkeşidir. Üzeyir Hacıbəyov haqqında film çəkildiyi kövrək xatirələrlə bağlı olduğu Şuşa onun üçün doğma şəhərdi. Bütün bunlar onun yaradıcılığında, yaşamı və yaşantılarında öz əksini tapır.

Yaxın ünsiyyətdə olanda, hiss edirsən ki, Anar, eyni zamanda, qəlbinin dərin qatlarında cərəyan edənləri düşünür. Bu şəxsi qayğılar, gündəlik işlərlə bağlı deyil. Onun anası dəhşətli faciənin acı-ağrısını yaşamışdır: atasını güllələmişdilər. Lakin ana həyatdan küsmədi, ürəyində kin-küdurətə yer vermədi, daxili nurunu qoruyub saxladı. Bu ailənin salnaməsində başqa faciəvi məqamlar da olmuşdur. Ömrü-boyu ayrılmayan valideyinləri ayrı-ayrı qəbristanlara torpağa tapşırılmışlar… Hansısa üzdəniraq məmurun hökmü beləymiş… Bu övlad ürəyinə yara deyilmi? Mən Anar ovqatında hökm sürən, üstünlük kəsb edən ahəngi müəyynləşdirmək üçün söz tapa bilmirəm. Davamlı göynərti, kövrəklikdirmi? Yaxud çexovsayağı kədərdimi? Bəlkə də xeyir-şər savaşında hər yasaq vasitəyə əl atan şərin (xeyir bunu rəva bilməz) qalib gələcəyi gümanından doğan məyusluqdur? Amma əslində belə deyil!

Onun varlığında bir günəşli Mosart başlanğıcı, ilahi nurun bir zərrəsi də var!...

O, qisasçılıqdan uzaqdır, bağışlamağı bacarır…

FƏRHAD XƏLİLOV: 60-cı illərdə Anar Bakı küçələrindən keçəndə hamı tanıyırdı onu. Yəni yazıçı kimi lap təzə-təzə başladığı zaman. Mən də elə o vaxtlardan tanıyıram onu.

Bir dəfə, 70-ci illərin əvvəlləri idi. İkilikdə şəhəri gəzib-dolanıb, Anargilə getdik. Unudulmaz bir təəssürat: qapısı hamının üzünə açıq olan gözəl ocaq! O vaxt mən bir təzə əsərimi sərgiləmişdim. «Çağırış» adlanırdı, böyük səs-küy doğurmuşdu. Bir dəstə adamı nəhəng kütlə əhatəsində təsvir etmişdim. Tablonun dinamikası elə idi ki, tamaşaçı sanki izdihamın uğultusunu eşidir, bu kütlə başçılarının dilə gətirdikləri etirazı, harayı duyulurdu… Tənqidçilər buna ilişdilər: yəni bu rəssam nəyə səsləyir, kütlələri haraya çağırır? O dövrdə kütlələr etiraz etməli deyil, «partiya xəttini» dəstəkləməli idi…

Anar isə dərhal mənim tərəfimi tutdu…

Canlı düşüncə, açıq fikir nəbzi daima duyulan dostların, məsləkdaşların dairəsi həyatımda mənə dəfələrlə ürək-dirək vermişdi. Təbii ki, bu dairəyə Anar daxil oldu və illər ötdükcə əzizləşdi, məhrəmləşdi. O, bir insan kimi, vətəndaş kimi, yazıçı kimi, hər hansı cəmiyyətdə əlamətdar fiqurdu, o, yüksək mənəvi, yaradıcı enerjini əxz edir, birləşdirir. Onun şəxsiyyəti yalnız Bakı, Azərbaycan məkanı ilə məhdudlaşmır.

Daha mühüm məqam nədir? Biz nəhəng ictimai təlatümü, sıçrayışı yaşadıq, bir çoxları sarsılıb sındı, o cümlədən mənəvi-əxlaqi baxımdan da, Anarda isə mən belə bir əyilmə-sınma görmürəm, hərçənd çox sınaqlar düşmüşdür qismətinə. Yazıçı sənətdaşları tərəfindən də yetərincə acı-ağrılar görüb. Həmişə də ictimai problemlərin içində olub, kənara çəkilməyib, şəxsi qayğılarını bəhanə etməyib…

Müharibə saçlarını ağardıb, yaralarını artırıb…

Anarla mənim ictimai fəaliyyət yollarım 88-ci ildə, Qarabağ alovlananda çarpazlaşdı, qovuşdu. Peterburqa, mədəniyyət günlərini ilk dəfə onunla birgə səfərə yollanmağımız yadımdadır; qayıdan kimi də bizi birbaşa Mərkəzi Komitəyə apardılar, – Qarabağ hadisələri başlanmışdı. Qara günlər gəlirdi üstümüzə. Amma Anar Anar olaraq qalırdı.

«Otel otağı» bizim nələr çəkdiyimizdən həssas oxucuya çox mətləbləri anladar. Ayıq-sayıq vətəndaş təəssübkeşliyinə görə Anar ölkədəki vəziyyət müqabilində iqtidarın hərəkətlərinə qarşı biganə qala bilməzdi. Əleyhinə çıxış etdiyimiz hakim ideologiya, məsələn, mənə təmamilə yad idi. Paradoks ondadır ki, biz indi onun müsbət cəhətlərini də görürük. Keçmişdə hardasa bizim üçün nisbətən asan idi. Biz respublikanın inkişafı naminə çalışır, ideologiyaya satılmırdıq. İndi isə gənclər qarşıdurma xəttinin haradan keçdiyindən baş açа bilmirlər…

Anar ailəsinin örnəyi, onun olduqca yüksək mənəvi, mədəni aurası çağdaş soydaşlarımız üçün ibrətamiz ola bilər. …Anar bu mənəvi aləmdə yaşamışdır. Və həqiqi sənətkarlar aləmində həqiqi sənətkar kimi də qalmış, çətin olsa da, bu onun dünyabaxışını müəyyənləşdirmişdir. Bizim gözümüzdə o, bütöv bir şəxsiyyət, ziyalı etalonu olmuş və olmaqdadır. O, heç vaxt bir artıq-əskik hərəkətə, nataraz danışığa yol verməz. Mən heyranam ona.

O, bir yazıçı kimi illər ötdükcə daha dərin, daha miqyaslı qatlara varır. Təsadüfi şeylər yazmır. «Otel otağı» – taleyinin davamıdır. «Beşmərtəbəli evin altıncı mərtəbəsi» – sərlövhə özü də sənətkar tapıntısından xəbər verir. Bu obrazlı başlıq özü ilə heyrətamiz assosiasiyalar silsiləsini çəkib gətirir. Klassik şərq poeziyasında da, rus ədəbiyyatında da («Ölü canlar») bu səpkili obrazlar var.

Anarın esseləri də xoşuma gəlir. Onun xasiyyətinin əsas cəhəti ətrafdakılarına qədirbilənliklə yanaşmaqdır.

Lakin onun təbiətinin bəzi özgürlüklərini mən sözlə ifadə edə bilmirəm. Onları fəhmən qavrayıram.

Anar varlığında yazıçı, yoldaş, dost, vətəndaş, ər, ata – bütün bunlar ahəngdar vəhdətdə qovuşur. O, dünyaya xaos gətirən deyil. Eyni zamanda seyriçi yox, fəaldır. Və fəaliyyət göstərərək, zor işlətmir.

…Yaşa dolduqca hər şeyin, o cümlədən vaxtın da qədrini bilirsən.

Sadəcə – Anar var və bu varlıq səni isidir.

VAQİF SƏMƏDOĞLU: Birinci sinifdə mən konservatoriya nəzdindəki onillik məktəbə getdim. Orada da artıq ikinci sinifdə oxuyan Anarı gördüm. Müəllimlər onu fərqləndirir, ondan söz açırdılar. Görkəmli ifaçılıq qabiliyyəti göstərdiyinə görə deyil, – onun şəxsi özgünlüyü, davranışı, – təmkinliyi, ləyaqəti diqqəti cəlb edirdi. Biz, demək olar ki, bir yerdə boya-başa çatmışıq.

Anar heyrətamiz düzgünlüyü ilə fərqlənir. Bizim rəhmətlik riyaziyyat müəllimimiz həmişə, bütün siniflərdə onu örnək kimi göstərərdi. O, çox uğurla riyaziyyatla, fizika ilə məşğul olurdu, çoxları da onun bu yolu seçəcəyini güman edirdilər. Atası onun geoloq olmağını istəyirdi. Yazıçılıqdan hələ söhbət getmirdi.

Əsl, ciddi dostluğumuz məktəbdən sonra başladı. Anar ədəbiyyata alüdə oldu, musiqi məşqlərindən tamam əl çəkdi. Azərbaycan Dövlət Universitetinin fiololoci fakültəsinə daxil oldu. Bizim öz kampaniyamız yarandı, – Anar, mən, bəstəkar Emin Sabitoğlu, Rəhman Bədəlov (o, indi fəlsəfə sahəsində çalışır) və rəhmətlik Araz Dadaşzadə. Liderimiz Anar idi. Mən isə musiqi təhsilimi davam edir, konservatoriyanın fortepiano şöbəsində çalışırdım, mənə az qala Emil Gilels gələcəyini vəd edirdilər… Alınmadı…

Görünür, bununla bağlı Anar nəisə qabaqcadan duymuşdu, çünki sənət, ədəbiyyat haqqında söhbət düşəndə hər dəfə məni ədəbi tənqidlə məşğul olmağa təhrik edir, deyirdi ki, mənim ədəbiyyat haqqında maraqlı mülahizələrim var. Amma tale elə gətirdi ki, mən şeir yazmağa başladım, şair oldum.

Azərbaycan heç bir zaman ədəbi istedadlar sarıdan qıtlıq çəkməmişdir. Şairlər sarıdan – qədimdən bəri, nasirlərdən də – iki yüz ildi. Anarı mən mədəniyyət tariximizdə yalnız iki fiqurla – Mirzə Fətəli və Üzeyir Hacıbəyovla müqayisə edə bilərəm.

Yazıçı, dramaturq, ictimai xadim, hətta kinorejissor Anar haqqında çox yazırlar. Onun istedadı çoxşaxəlidir və bu vüsətli istedadın bir çox cəhətləri, açığını deyim, hələ də tələb olunmamış qalır. Onun istedadının maarifçilik yönü isə hələ də incələnməmiş və təəssüf ki, layiqincə dəyərləndirilməmiş bir qat kimi qalır.

Bəzən kiminsə haqqında deyirlər ki, taleyi belə gətirdi, elə gətirdi… Mənim taleyim Anarla bağlıdır. O, məndən bir yaş böyükdür və ən əvvəldən, məktəb illərindən, erkən çağlardan onun liderlik keyfiyyətləri üzə çıxdı, hərçənd buna can atmırdı da.

İndiyədək nəsə yazdığım-yaratdığım zaman əlim birdən birə hansısa misranı pozur, – niyə, nə üçün? Çünki ürəyimə damır ki, yazdığımı Anara oxuyanda, o, filan yer

pisdir deyəcək. Fəhmən, bilaixtiyar onunla özümü yoxlayıram, o mənim üçün bir növ kamertondur.

Amansızcasına öz şəxsi vaxtına qəsd edərək, öz yaradıcılığı hesabına Anar Azərbaycan söz sənətinə çox-çox xidmətlər göstərmişdir. İndi isə öz səhhətinin hesabına… Fədakarlıq onun təbiətinə xasdır, təsadüfi deyil ki, ən çox sevdiyi şeirlərdən biri Pasternakın «Sənətin məqsədi – fədakarlıqdır…» misrası ilə başlayan şeiridir.

Moskvada onun ətrafında azadsevər, dissidentlik üstə köklənən bir mühit yaranmışdı. O, yataqxanada yaşamırdı, otaq tuturdu və orada mən bir çox münəvvər adamlarla tanış olmuşdum. Onun qonaqları Yunna Morits, Alla Axundova, İvan Draç, Yuri Klepikov, İlya Averbax, Manana Andronnikova kimi şəxsiyyətlər olurdu. Ciddi, mənalı söhbətlər səhərədək uzanırdı.

O, böyük dostdur. Sadəcə dost yox, açığını deyim, bunu əvvəllər heç vaxt etiraf etməmişdim, mən Anarla adi, məişət ölçüsündə cəmi üç-dörd il dostluq etmişəm. Sonrakı münasibətlərimiz dostluq anlamına sığmayaraq hansısa yeni bir keyfiyyətə keçmişdir, – bəlkə də böyüklü-kiçikli qardaşlıq deyim, yaş fərqimiz az olsa da, mənəvi müstəvidə onu atalıq mərtəbəsində görürəm… Yox, dəqiq ifadə edə bilmirəm, amma bu artıq sadəcə ülfət deyil. Bəlkə də qəlbən doğmalaşmışıq? Ömrümün elə çağları olub ki, mən həqiqətən uçuruma yuvarlanıb məhv olurdum. Bilirəm ki, Anar bu halətimə anamdan az yanmırdı. O da yuxusuz gecələr keçirir, məni arayır, axtarır, mənim naçarlığımdan, divanəliyimdən üzülürdü. Amma o, kənara çəkilmədi. Bəli, yalnız iki insan hamıdan çox mənə can yandırırdı, bir Anar, bir də anam… Mən taleimə şükr eləyirəm ki, mənim Anarım var. Onsuz mənim həyatım ayrı cür olardı, məşəqqətlərə məruz qalardı…

Düşünürəm ki, onun zəkası, biliyi, yüksək insani məziyyətləri dövlət işlərinə yetərincə cəlb edilməmişdir. Milli Məclisdə o, hər təşəbbüsünü həyata keçirə bilmədi.

Yazıçıların problemlərindən söz açaraq, heç kimin pisliyinə yazmadı, heç kəsin tərəfindən də pislənməsindən qorxmadı. Digər tərəfdən, heç kəsə də əsası olmadan ona qarşı çıxış etməyi məsləhət görmürəm, – prinsipial məsələlərdə o, güzəşdə gedən deyil, nə övladları, nə ömür yoldaşı, nə dostları onu dilə tutub buna məcbur edə, əqidəsindən dönməyə vadar edə bilməz.

Anarın atası ilə mübahisə etdiyinin şahidi olmuşdum, özü də polemikanı bacaran atası ilə…

O, avropalıdır. Milliliyi avropalıqla hansısa anlaşılmaz tərzdə əxz edə, uzlaşdıra bilir. Və bu, qondarma avropalılıq, moda deyil. Onun şəxsiyyət miqyasıdır.

80-ci illərin sonlarındakı dönüş məqamında Yusiflə mən Azərbaycan Xalq cəbhəsinin qurucularından idik. Qarabağ hadisələrinin qızğın çağında, 90-cı ildə Anar Azadlıq meydanında çıxış edirdi. Yadımdan çıxmaz: beş yüz min nəfərdən az olmayan izdiham və mikrofon qarşısında duran Anar. Onun bir kəlamı məni heyrətə gətirdi: «Mən heç vaxt yuxarıların təzyiqinə tabe olmamışam və sizin də təzyiqinizə tabe olmayacam! Yəni Ali Sovetdə lazım bildiyimi edəcəyəm, əyilməyəcəm…».

Diqqət yetirin, axı onun qarşısında yarım milyon qızışmış, coşmuş, ilk dəfə birləşmiş azərbaycanlı var idi… Amma onun cəsarətinə heyrətim çox çəkmədi, bir dəqiqə sonra anladım ki, bu – Anardı.

Biz onunla ətrafdakılara sanki eyni gözlə baxırıq. Bonn şəhərində o məni bir neçə kilometr çəkib apardı ki (taksi tapa bilmədik), «Bethoven-haus» konsert salonu qarşısındakı böyük bəstəkarın heykəlini göstərsin. Bu, öz quruluşu və düşüncə hədəfi baxımından dahiyanə, heyrətamiz bir əsərdir. İlk nəzərdən üst-üstə qalanmış açıq rəngli bozumtul kərpiclərin yığını kimi görünsə də, təxminən on metr aralandıqda Bethoveni görürsən. On beş metrlik aralıya çəkiləndə ya da yaxınlaşanda yenə də kərpic qalağı görürsən… Yəni, müəyyən baxış nöqtəsini tapmaq lazımdır. Mən bu abidəni Kioto şəhərindəki ehramların birində məşhur on iki sal daş düzümü ilə müqayisə edərdim: onların hamısını, ümumən görmək üçün saatlarla baxış nöqtəsini axtarmalı olursan.

İnsanlar da beləcə – varlığını, mahiyyətini bütövlükdə görmək üçün mövqe tapmalısan. İllah ki, Anar kimi insanın. Hətta deyim ki, Anarın çoxsaylı cəhətlərini görmək üçün yəqin bircə nəzər nöqtəsi çatmaz. Anarın varlığındakı «daşları» bir rakursdan sezmək müşküldür.

FƏRHAD BƏDƏLBƏYLİ: Anarın iç aləmində coşqun ehtiraslar, təlatümlər olduğunu təsəvvür edə bilmirəm… O, təbiətcə təmkinli, nəzakətli inşandır, hansısa şeirində hətta öz yaradıcılıq işini uşaq təbəssümü ilə müqayisə edir. Lakin refleksiya onun güclü cəhətidir.

Elə Yazıçılar Birliyinin özündə nə qədər haqsızlıqlara dözməli olur… Qələm əhli üçün əlləşib-vuruşub sosial imtiyazlar almağa nail olsa da, bunu tezcə də unudurlar və umu-küsülər, qarayaxmalar başlayır. Xatırımdədır, Anar belə münasibətlə dəfələrlə rastlaşmışdır. Yaxşı ki, naşükürlüyü o, şairin məşhur kəlamına riayət edən kimi qarşılayır: «Təqdiri, təkfiri laqeyid qarşıla, axmaqla heç zaman bəhsə girişmə…». O, belə adamdır, belədir onun «havacatı»…

Qara Qarayevin də elə bir xüsusi, iddialı pafosu olmayıb, talei də çətin sınaqlarla üzləşib, onun adına nələr yapmamışlar, qarasınca nələr deməmişlər… Hərçənd, Qarayev daha impulsiv idi. Anar daha təmkinlidir.

Bizim atalarımız dost idilər. Anar yaşca məndən böyük idi və mən uşaqlıqda ona ehtiramla baxırdım. Dostluğumuz isə 60-cı illər, Azərbaycan mədəniyyətinin yüksəliş dövrünə təsadüf edir, – o zaman Maqsud, Rüstəm, Əkrəm çap olunmağa başladılar. Arif Məlikovun premyeraları səhnədən səsləndi, Qarayevin Üçüncü simfoniyası meydana çıxdı. Maraqlı kinofilimlərimiz yarandı. Bu, sonralar «altmışıncılar» adlanan nəslin pərvazlanması idi.

Vaxt var idi, biz rəhmətlik Elmira xanımın (Anarın baldızının[1]) evinə yığışıb incəsənətdən, yaradıcılıqdan mübahisələr edər, söhbətlər çağdaş varlığımızdan cücərən refleksiyalar qatılardı; biz, yaxşı mənada, solçulardıq, nonkonformistlərdik…

…Anarın təbiətində yumorla faciəviliyin paradoksal uzlaşması var. Yumoru həlimdir, kinli-küdurətli deyil, amma çox acı-ağrılıdır… O, incə sataşmaları xoşlayır, insanlara,

[1] *Elmira Səfərova — tanınmış pianoçu, pedaqoq, Azərbaycan Konservatoriyasının professoru olmuşdur (red.).*

hansısa olaylara çox sərrast, dəqiq ad verməyi bacarır… Faciəvilik isə qan yaddaşındadır. Otuzuncu illərdə onun da, mənim də ailəm, bir çox başqa ocaqlar kimi, represiyaların Damokl qılıncı altındaydı. Rəsul Rza daima təhlükə kölgəsini duya-duya yaşayırdı…

…90-cı illərdə isə Anar millətçilərlə, yəni bütün dünya klassik irsini rədd etməyi tələb edən, mövqeyini tamam dəyişən sabiq «beynəlmiçilər»lə üzləşməli oldu. Və etiraz səsini ucaltdı, bəyan etdi ki, milli təəssübkeşlik pərdəsi altında nadanlığı təbliğ etmək rəzalətdir. O, həmişə əsl vətənpərvər olmuş və heç vaxt bunu gizlətməmişdir. Odur ki, hər hansı dövrdə çətinliklərlə rastlaşmışdır… Kimlərsə etiraz edə bilər: bəs vəzifələri, fəxri adları, dünya boyu səfərləri necə olsun? Bəli, bunlar da olub, amma bu ömrünün zahiri, üst qatıdır. Hər bir dərin hissiyyatlı, zəngin mənəviyyatlı sənətkar kimi çox mətləblərdən agah olub «anlamaq dərdi»ni çəkən insan kimi, onun da taleyi keşməkeşli olmuşdur.

Öz dramatik əsərlərində Anar bəlkə də ilk dəfə rüşvətxorluğu – bu ictimai bəlanı cəsarətlə tənqid atəşinə tutan yazıçımız oldu. Belə düşünmək olardı ki, axı yüksək savadlı-bilikli, estet, mənəviyyat xiridarı ola-ola nəyinə gərək belə eybəcərliklərlə vuruşa qatlaşıb aşağılara enəsən, otur özünçün lirik rübabını çal, esse yaz, fikir uçuşlarından, fəlsəfi pərvərişlərdən həzz al…

Amma onun üçün cəmiyyətin mənəvi əxlaqı, vətəndaş saflığı daha vacib idi, o, xalqın necə, nələrlə yaşadığına biganə qalmayan cəsur vətəndaş idi.

Sosial duyum, vətəndaş təəssübkeşliyi onda çox bariz ifadəsini tapmışdır. Və bu heç də hansısa ideoloci təsirlər sayəsində deyil, – bu, mədəniyyətdə insanpərvərlik, ümumbəşərilik ənənələrinin davamıdır. Axı, nə gizlədək: lirik-sentimental, dayaz, şit səhnə əsərləri yazan müəlliflərimiz az deyildi: filankəs filankəsi sevir, «getmə gözümdən, gedərəm özümdən» və sairə. Anardan əvvəl müşahidə etdiyimiz kəskin sosial, realistcəsinə yanaşma olmamış, buna əl atmamışlar, necə deyərlər, baş qoşmamışlar. Anar bu bayağılığa qarşı çıxış etməkdən çəkinmədi. Bu, həmişə sosial fəallıq baxımından daha radikal olan gənclərin ürəyincə idi. Anar cavan nəslin qarşısında danılmaz nüfuz sahibi idi.

Anar praktiki olaraq yaradıb bəslədiyi «Qobustan» dərgisi o dövrün mədəni məkanında tamamiylə yeni söz oldu.

İndinin özündə də müxtəlif yaşlı adamlar Anarın yanina məsləhət-məşvərət üçün gəlirlər. Amma ən dəhşətli səhnələri 1989-cu ildə gördüm. İlk qaçqınlar axını… axı onlar hökümət idarələrinin qapısına üz tutmamışdılar… Var-yoxunu itirmiş, əzilmiş, xəstəhal, əli uşaqlı zavallılar… Və onlar birbaşa Yazıçılar Birliyinə üz tutur, pənah gətirirdilər, çünki yaşadıqları ölkənin iqtidarından əlini üzmüşdülər, haqq-ədalət gözləmirdilər. Yerli hakimiyyət də onların başının altına yasdıq qoyub aldadırdı. Onlar Anarın yanına gedir, Anar da saatlarla onları qəbul edirdi, hər gün on, on beş, iyirmi biçarəni… Birlikdə bacardıqlarını əsirgəmirdilər, əncam axtarırdılar, baş sındırırdılar, pul yığırdılar, ayin-öyün toplayırdılar. Onda mən başqa Anarı görürdüm – «əgər hökümət onlara yardım göstərə bilmir ya istəmirsə, gəlin biz, yazıçılar əlimizdən gələni edək, darda qoymayaq insanları!» yana-yana deyən Anarı. Sözdən, təskinlik, ürək-dirək verməkdən baş-

qa o, praktiki işləri təşkil etməyə çalışır, kiməsə məskunlaşmaqda köməklik göstərir, kiməsə işə düzəlməkdə… Mənim heç ağlıma gəlməzdi ki, o, belə qətiyyətli inzibatçı olsun. Mən vətəndaş Anarı, hətta o qara günlərdə də nifrəti, kini bütün xalqa şamil etməkdən çəkindirən, bu bəlanı törədənlərin bir faşistləşmiş mərdiməzarlar güruhu olduğunu vurğulayan Anarı gördüm… Hətta o ağır şəraitdə də başıbəlalı, olmazın zülmə məruz qalmış didərginləri bir təhər toxdatmağa çalışır, başılovlu, dağıdıcı nifrətə deyil, anlaşmağa çağırır, səsləyirdi. Açığını deyim ki, mən bunu bacarmazdım. Bunun üçün böyük vətəndaş mərdanəliyi gərəkdir. Bu bədbaxt insanlar acı-ağrılardan, çəkdikləri zülümlərdən, itkilərin dərdindən qana-qan deyir, qisasçılıq hissindən alışıb yanıdılar. O isə bu zavalların aqressiv kütləyə çevrilməsinin qarşısını almağa can atır, başa salır, anladırdı… Hər bir yaralı insanın qəlbində insaniyyət arayır, mərhəmətə arxalanırdı. Kaş o vaxtlar dövlətin başında belə bir şəxsiyyət duraydı…

Bir insan kimi Anar haqqında onun ən çox sevdiyim «Dantenin yubileyi» əsəri çox şeyləri açıqlaya bilər. Mən burada Çexov xəttini duyuram: balaca, sadə bir insana qarşı dərin kədərlə aşılanmış sonsuz canıyananlıq, məhəbbət. Ədəbiyyata bir qədər o yana, ötəsinə baxsaq, görərik ki, Anar Puşkinin «Stansiya baxıcısı», Qoqolun «Şinel»inin sadə, sıravi insanlar haqqında can yanğısı və məhəbbətlə yazmaq ənənəsini davam edir… Belə bir qəhrəmanın faciəsi izzəti-nəfsin zərifliyi, asanca yaralana bilməsidir. Hətta, mənə elə gəlir ki, onda Anarın hansısa cəhətləri, məsələn, ürəknazikliyi əks olunmuşdur…

Anarı ön cərgələrə can atan kimi təsəvvür etmək mümkün deyil. Halbuki, elə ədəbiyyat bəndələri var ki, həqiqi xidmətlərindən asılı olmayaraq yalnız və yalnız qabağa düşməyə, ön planda olmağa üstünlük verirlər. Belələri az qala hamam otağına da pencəyinin yaxasında deputat nişanıyla daxil olurlar. Bir anlığa belə öz şəstini itirməkdən ehtiyat edirlər…

Anar adətincə hardasa kənarda, aralı oturub özünü gözə soxmağa çalışmır. Amma qeyri-iradi olaraq baxışlar onu axtarır, ona yönəlir. Mən bunu dəfələrlə müşahidə etmişəm. Ümumiyyətlə, özünü, öz kitablarını irəliyə dürtmək, kimisə dirsəkləyib özünə yol açmaq onun təbiətinə təmamilə ziddir. Eləcə də mənzil, maşın bəhsinə girmək, sponsor axtarışlarında dəridən-qabıqdan çıxmaq… O, heç vaxt özünü «satmır». Halbuki, bugün, bu sahədə «fəallar», aqressiv bəndələr xüsusən nəzərə çarpır. Anar da belələri ilə üzləşməli olur.

«Sizsiz» kitabı başqa bir Anardan xəbər verir. Hərdən yaradıcılığında bu qədər ağrının haradan qaynaqlandığını düşünürdüm. Təbiətindənmi? Ya ölümlə öz haqq-hesabındanmı?

Elə ailələr var ki, valideyinlərə münasibət, hörmət-izzətli, istiqanlı olsa da, sakitcə axarıyla axır. Anarda başqa cürədir. O, bütün varlığıyla, canıyla, qanıyla bağlıydı ata-anasına. Mənən, ruhan, psixoloji, profosional-sənət baxımından bağlıydı, bu mənada onlar bir bütöv varlıq kimiydilər. Ölüm həmişə qəfildən haqlayır… Anası dünyasını dəyişdiyi gündəki Anarı xatırlayıram… Bəli, bu başqa Anar idi… Bəlkə yenidən tanıdığım Anar.

Qızı ata yolunu seçib, istedadlı nasirdir, parlaqcasına yazır, o, bu ailənin davamıdır… Onda atasının cizgilərini sezirəm.

İndi bir çox cavanlar kapital dünyasının mənfur azarlarına yoluxmuş, amansızlıq, qəddarlıq… qazanc, gəlir naminə dostluqdan da keçə bilərlər, satqınlıqdan da çəkinməzlər… Anar ailəsi bambaşqadır. Ali nəcabət ocağıdır! Ömür yoldaşı Zemfira xanım Azərbaycan musiqisi üzrə mütəxəssis, görkəmli alim-tədqiqatçıdır; evlərində çoxsaylı parlaq rəssamlıq əsərləri, gözəl kitabxana, dünya kinamatoqrafının şah əsərlərinin toplusu var. İndi axı tabloları sadəcə satın almırlar, onlara bahalı əmlak, kapital kimi baxırlar. Anarın evində, ata ocağında olduğu kimi, əsər toplamaq nəfəs almaq kimi təbii idi; onlar mədəniyyətlə nəfəs alır, yaşayırlar.

80-ci illərin sonları, 90-cı illərin əvvəllərinə təsadüf edən dəhşətli dövrdə Anar tam qüvvəsilə öz mübarizliyini göstərdi. Qorbaçov qarşısında, bədxah naqqalların cövlan etdiyi Ali Sovetdə Azərbaycanın haqqını, mövqeini müdafiə etdiyi məqamlarda o, dönməz idi, barışmaz idi. Hamıya isbat etdi ki, əqidə mehvəri sınmazdı, əyilməzdi. Eləcə də əyalət millətçiliyi ruhunda heç bir çıxışı yadıma gəlmir. O, heç vaxt belə səviyyəyə enməmişdir. O, insanları, onların dərdini, iztirablarını düşünərək, şovinistlərin sayaqlamalarından, çığır-bağırından uzaq idi, bununla belə böyük vətənpərvər olaraq qalırdı.

Onun bütün çıxışları yadımdadır, bəzən də onu qınayırdılar ki, niyə belə «yumşaq» çıxış elədin? Amma o, başqa cürə bacarmırdı, yəni tənə-təkfirə əl atmırdı, həmişə sağlam düşüncəyə, düşünüb-daşınmağa səsləyirdi. Onun aləmində xalqların yaxşısı-pisi yoxdur, belə cəfəng fikri o dilə də gətirə bilməzdi, eləcə də kürsüdə, soydaşlarının xoşuna gəlsin deyə, boğazını yırtıb döşünə döyməz, mərəkə qoparmazdı.

Ümumiyyətlə o başqa təbiətli, başqa auralı insandır. Azərbaycanlı olaraq Litva şairəsi, alman yazıçısı ya moskvalı heykəltəraşla yanaşı duranda təbii görünür… Öz yaradıcılıq kainatında o, cahan adamıdır, bütün böyük sənətkarlar kimi – harada doğulduğundan asılı olmayaraq… Bu da onun mübarək cəhətlərindən biridir.

MAQSUD İBRAHİMBƏYOV: Mənim nəslim otuzuncu illərdəndir, mən 35-ci ildə dünyaya gəlmişəm.

Qırx iki il əvvəl Anarla tanış olmuşam və həmin vaxtlardan bəri o, diqqətimi cəlb etməkdədir.

İlk dəfə Moskvada, Ali ssenari kurslarında görüşdük. Havada azadsevərlik, açıqfikirlilik ruhu dolanırdı, biz yaxın ünsiyyətdə olur, o vaxt geniş tamaşaçılar görə bilmədiyi filmlərə baxır, öz etüdlərimizi yazırdıq, onları da ölkənin ən intellektual sənətçiləri, yaradıcı başbilənləri dəyərləndirirdilər. Bizə verilən təqaüd normal dolanışığımıza bəs eləyirdi. Unudulmaz çağlar idi…

Anarda mənim xüsusən bəyəndiklərim nələrdir? Onda hər şey incə zövqlə cilalanmışdır, bu mənim üçün çox vacibdir. Və bütün bu ötən illər ərzində o, bir dəfə də olsun yolundan sapmamışdır, Xalq Cəbhəsi hakimiyyətə gələndə ictimai iqlim misli görünməmiş ajiotaj həddinə çatdı. Qeyd etməliyəm ki, ortalama-statistik milli demokrat oğ-

rusayağı və yalançı bir məxluqdur və belələri iqtidara sahib olanda, özbaşınalıq baş alıb getdi. Amma Anar daima özünü saleh, abırlı adam aparmalı olduğu kimi apardı, o vaxt da Əliyevin möhkəm hakimiyyəti dövründə də Anar səbatlı insan olaraq qaldı. Zahirən yumşaq, loyal kimi görünsə də, bir dəfə də olsun hər hansı konyunktur şirniləndirməyə uymamışdır. Möhkəm şəxsiyyət özülü içində, dərinlikdə gizlədilmişdir.

Baxın, məsələn, boğaz yırtırdılar, çığır-bağır salırdılar ki, Yazıçılar Birliyi nəyimizə gərəkdir?

Necə yəni, nəyimizə? Bu ki, apaydındır, maraqlar üzrə klublar varsa, niyə də yazıçıların öz ocağı olmasın? Yazıçılar evlərinə vergilər şamil edilmirdi. Yazıçılara hörmətlə, ehtiramla yanaşırdılar. Hətta tiran, diktator, xalqların qənimi də sənət adamlarına inayət göstərirdi...

...Azərbaycanda oxucunun yoxa çıxdığını deyən varsa, ağ yalandır. Oxuyan elə indi də oxuyur, uşaqları da mütaliəyə həvəs göstərir.

Puşkini də, Çexovu da, Mopassanı da oxuyurlar. Yeri gəlmişkən, Anarı da...

...Nələr çəkdiyinin bahasına olsa da, Anar dözüm gətirdi. Yazıçılar birliyinin bağlanmasına yol vermədi. Yazıçılar qurultayına bir səlahiyyətli quldurbaşı soxulub qələm sahiblərinə nə və necə etmələri olduqlarından «dərs verəndə» də, Anar səbrini basıb dözdü... Belə şey də baş vermişdi... Və biz bu vəzzariyyətə qulaq asmalı olduq, mən də oturub susurdum, Anar da... Müsibət idi... Buna baxmayaraq, əlimizdən gələni elədik.

Anar mənim üçün mən onunçün olduğumdan daha yaxşı dostdur, o, dostluğun qədrini bilir. Vəfalıdır, vəfadardır.

Bu həqiqətdir.

Diqqətcil, nəzakətli, deyərdim ki, kövrək, səmimi canıyananlığa qadirdir. Pessimist demək olarmı ona?

Eh, həyatın elə dönəmləri olur ki... «Sizsiz» kitabı nəhəng şəxsi mənəvi sarsıntıdan yaxa qurtarmaq, bu dərdi ilahi müstəviyə keçirmək cəhdidir… Yox, oradakı bədbinlik deyil, müdriklikdir. Yəqin o, bir çoxlarından əvvəl, məndən əvvəl ölüm haqqında düşünməyə başlamışdır. Bu da müdriklik əlamətidir.

Onun parlament fəaliyyəti çox səmərəli olmuşdur. Milli Məclisdəki deputatlar müxtəlifdir. Bəziləri öz deputatlığından sırf praqmatik məqsədlə, öz firavanlığı naminə faydalanırlar.

Mədəniyyət üzrə Komissiyanın sədri olaraq, Anar fəal işə qatılmış, daima çox gərəkli və faydalı təkliflər irəli sürmüş, nəticəyə nail olmaq üçün səylərini əsirgəməmişdir. O öz borcunu yerinə yetirirdi.

İstərdim ki, bilməyənlər nəhayət anlasınlar: deputatlıq yazıçıya yox, cəmiyyətə yazıçının deputatlığı lazımdır. Çünki yazıçı yetişmiş problemləri, ümumi prosesləri başqalarından daha əhatəli, daha iti gözlə görür. Anar gördüklərini görən yoxdur, əksəriyyət ayrıntıları, iqtisadiyyatı, hüquq pozun-tularını və s. görür. O, isə bütöv mənzərəni görür. Sabah hansısa «yağlı» yerə buraxılacağına söz verib bu gün kimisə tərifləməyə vadar etmək olmaz onu. Kimisə müsbət dəyərləndirirsə, demək həqiqətən də belə düşünür. Odur ki, onun sözünə, etibar var.

İctimai sahədə Anarın ən mühüm son uğurlarından biri klassikanın yenidən nəşr olunmasıdır. Belə bir layihənin yükünü qaldırmağa az adamın gücü çatardı. Çünki bu mətləbə ciddi bələd olan da azdır. Anar isə ən başlıca keyfiyyətlərə – estetik zövqə, istedada bu ya digər əsərin, sənətkarın önəmliliyini anlamaq qabiliyyətinə malikdir.

…Aravuranları, intriqabazları görməyə gözü yoxdur.

Pərdəarxası çəkişmələrə, badalaq vurmağa nifrət edərək o heç bir «donos» niyyətli «kollektiv çağırışları» yaxud qarayaxma yazıları imzalamayıb, vəzifə sahiblərinin «qılığına» girməyə cəhd göstərməyib. Hər şey haqqında öz adından öz fikrini söyləyir, heç kəsə həsəd aparmır və dözümlülüyünü, tolerantlığını aləmə car çəkmədən özünü əsilzadə kimi aparır.

NİGAR ƏLƏKBƏROVA. Mənim elmi işim kulturologiya və fəlsəfə arasındakı sınırdadır. Hazırda Azərbaycan Respublikası Prezident nəzdində Dövlət İdarəçilik Akademiyasının polintologiya və siyasi idarəçilik kafedrasının professoruyam. Anar yaradıcılığıyla tanışlığım ailəsiylə tanışlığımdan sonra olmuşdur. Mənim xalamın Nigar xanım və Rəsul Rzayla münasibətləri vardı. O, məni onların bağına apararDı, həmin bağ indi də qalır, hərçənd baxımsız vəziyyətdədir. Amma o zamanlar gül-çiçəyə qərq olmuşdu. Mənim üç yaşım vardı və o əlvan güllər, o güllər dənizi yadımdadır... Mən otağa girdim. Anar masa arxasında oturub nəsə yazırdı. Və bu mənim onunla ilk görüşüm idi. Ümumiyyətlə bu ailə ilə bağlı xatirələrim qırıq-qırıqdı, o bağ gülləri isə həmişəlik yadımda qalıb... Xalam məni agah eləyirdi «Bax, bu bizim məşhur yazıçımız, şairimizdir...» Bir dəfə onlar bizə qonaq gəldilər.Yaxınlıqda yaşayırdıq. Çox işıqlı, ürəkaçan gün idi. Məhz həmin gün Nigar xanım vəcdə gəlib birbaşa qaya daşının üzərində ev haqqında şeir yazmışdı. Bizim Buzovnadakı bağımız sahilyanı qayalığa çıxırdı, aşağıda da dəniz...

Anarın nəsr əsərləri konservatoriyada tarixi-nəzəriyyə fakültəsində oxuduğum zamanlarda mənəvi aləmimə daxil oldu.

Anar müəllimlə yaxından tanış olmaq mənə ilk dəfə onu gördüyümdən çox-çox sonralar nəsib oldu, biz parlamentdə 1995-2000-ci illərdə əməkdaşlıq etdik. Anar polikultur, yəni çeşidli mədəniyyətlər təcrübəsini əxz etmiş şəxsiyyətlərdəndir, onu sirf şərq adamı adlandırmaq olmaz. O, özünü rus mədəni məkanında da sərbəst hiss edir, onun yaradıcılığı, ictimai və siyasi fəaliyyəti geniş yanaşmalarla fərqlənir; özünü siyasətçi saymasa da, hesab edirəm ki, fəaliyyəti siyasi çalar daşıyır. Onun gördüyü işlər sadəcə sənət əsərləri yaratmaqla məhdudlaşmır, eyni zamanda mədəniyyət sahəsində dövlət siyasətinin qanunvericilik baxımından təmin edilməsində fəal iştirakı bilavasitə siyasi fəaliyyət deməkdir. Beləliklə, Anar siyasətçi, həm də yaxşı siyasətçidir. Bununla yanaşı, qeyd etmək istəyirəm ki, bir qayda olaraq, yaradıcı şəxsiyyətin özü və sözü, mənəvi varlığı və həyatda, məişətdə davranışı, insanlarla canlı ünsiyyəti fərqlənir. Məncə, Anar müəllim mütləq bir harmoniya timsalıdır. O, böyük hərflə yazılan İnsandır, yalandan tamamiylə xali olan insan.

Addımbaşı kələk gəlməklə, yalançılıqla üzləşdiyimiz zamanda bu nadir keyfiyyətdir. O, bir şey deyirsə, vəd edirsə, sözünün üstündə durur, vədini əmələ yetirməyə çalışır, hərçənd, aydındır ki, hər şey ondan asılı deyil.

O, incə, hissiyyatlı, səmimi insandır. Zahirən fikri dağınıq, ətrafa diqqət yetirməyən kimi görürsə də, bu yanlış təssüratdır. Əsərlərini oxuyanda hansısa ayrıntıları necə də dəqiq sezdiyinə heyrətlənirsən.

1995-ci il idi – müstəqil Azərbaycanın parlamentinin ilk çağırışı ili. Budur, ünlü, samballı yazıçımız gəlir, birinci iclası aparır və mən onun bir etirafını yaxşı xatırlayıram: «Mən bir gənc parlamentarıyam». Bu da əlamətdar məqamdır. Parlamentin ilk iclasının Azərbaycan mədəniyyəti və incəsənətinin təmsilçisi tərəfindən açılması isə əlamətdar hadisədir.

Parlamentdə Anar müəllimlə əməkdaşlıq etdiyimiz dövürdə biz səkkiz qanun keçirdik, on birinin layihəsini hazırladıq. 1995-2000-ci illər üzrə ən vacib hesab etdiyim qanunlar mədəniyyət haqqında, ardınca – mədəniyyət abidələrinin qorunması, daha sonra – şəhərsalınma, memarlıq, muzeylər, kitabxanalar haqqında, arxiv işi haqqında qanunlar… Anar əməyinin bəhrəsi, təşəbbüsüylə qəbul edilən ən taleyüklü qanun Azərbaycan dövlət dili haqqında qanundur.

O, tariximizin gözəl abidəsi İçərişəhərin qorunması üçün də böyük səylər göstərmiş, çıxışlar etmiş, mübahisələrə qatılmış, hətta xüsusi komissiya yaradılmasına nail olmuşdur.

Bununla belə, o, səs-küylü adam deyil, «külüng çalmaq»dan çəkinmir. Bir deputatlıq müddətində səkkiz önəmli qanun hazırlayıb keçirmək çox yaxşı nəticədir!

…Anar obrazı mənim aləmimdə hansı musiqi ilə ilgilənir? Məncə, sirri-sehrli, dərin Hendellə… Musiqi ilə deyil, fəlsəfə dünyası ilə müqayisə edilsə, daha çox Kantın «özünəqapanmış varlığ»ını xatırladır. Unikal bir şəxsiyyətdir. Xoşbəxtəm ki, onunla əməkdaşlıq etmişəm. O, insanları necə də həssaslıqla duyur, həmişə xoşgörülü olsa da, qapalı insandır, qəlbini yetənə-yetməyənə açan deyil. Eynilə də başqasının iç aləminə birdən ikiyə girişmir.

Təbiətcə mübariz olsa da, «meydan» tipli mücahidlərdən də deyil, yəni alovlu natiq, tribun deyil, yox, Anar başqa ruhlu mübarizdir, daxili mənəviyyat fədaisidir.

RASİM OCAQOV: Altmışıncı illər mənim üçün Anarı kəşf etməyimlə əlamətdardır. Mən dərhal onun nəsr üslubunu xoşladım, mövzuların cəsarətli seçiminə heyrətləndim. O illərdə biz kitab oxumaqdan doymazdıq, bizi istedadlı yazıçılar dalğası – İsa Hüseynov, Maqsud və Rüstəm İbrahimbəyovlar… adlar kəhkəşanı… – qoynuna alıb apardı.

«Çevrə» (*«Ağ liman»* – ***red.***), «Beşmərtəbəli evin altıncı mərtəbəsi» birnəfəsə oxunurdular.

İxtisasca mən kinooperatoram, müstəqil film çəkməyə 1972-ci ildə başlamışam. Yəqin, mən bəxti gətirmiş adamam, çünki Anar, Rüstəm kimi sənətkarlar mənimlə yanaşı yaşayıb-yaradıblar. Sənətim mənə Anarla yaxından ünsiyyətdə olmaq imkanı verdi.

Onu deyim ki, mən italyan neorealizmi, Fransanın «Yeni dalğa» filmləri üstə köklənmişdim və Anarın nəsrinin inşası, ən kiçik ayrıntılaradək tanınan gerçəkliyin fantastik ünsürlərlə qovuşması xoşuma gəlirdi, hərçənd özüm sərt realistəm «Beş mərtəbəli evin altıncı mərtəbəsi» povesti əsasında «Təhminə» filminin çəkilişi mənim öhdəmə düşdü. Deyəsən, mən müəllifi və tamaşaçıları qane etdim, film yaxşı qarşılandı. İndinin təbirincə, film «smotribelnı»(«baxımlı») alındı, indiyədək TV onu tez-tez göstərir. Ssenarini Anar yazmışdı. Bu iş onda uğurlu alınır, o, kino «materiyası»nı incəliklə duyur. Əməkdaşlığımız belə başlandı. Mən teatrda onun pyeslərinə baxdım və onunla işləmək həvəsinə düşüb özüm ona üz tutub təklif elədim ki, ssenari yaz, gəl birgə film yaradaq. Öncə mən Rüstəm İbrahimbəyovla çalışmışdım. Onun doqquz ssenarisini çəkmişəm.

Anara, necə deyərlər, risqə gedib müraciət etdim. Bir yazıçı, bir insan kimi rəğbət bəsləyirdim ona. Təklifimi qəbul edəcəyinə çox da ümidim yox idi, lakin gözlənilmədən bəyəndi. Gələcək işin cürbəcür detallarını, personacların xarakterlərini incələməyə başladıq, lakin düşüncələrimdə Təhminənin əzabları hər şeyi üstələyirdi…

Nəhayət, Anar ssenarini gətirdi. Oturub oxumağa başladım və belə bir finalla rastlaşdım. Əsərin qəhrəmanı Təhminəni sanki ölümündən sonra küçədə gedən görür, ardınca cumur, izləyir, beşinci mərtəbənin «altıncı mərtəbəsinə» qalxmağa çalışır… və bu an Təhminə qeyb olur… Anarı kinoda da müəyyən şərtilik, sirr, müəmma cəlb edirdi… Bu meyl məndən uzaqdır. Və mən öz finalımı təklif etdim. Mən məhəbbət haqqında film çəkmək, qəhrəmanın böyük sevginin qədrini bilmədiyini göstərmək istəyirdim; yalnız sevdiyi qadının ölümündən sonra o, bir acı fikrindən sarsılır: o, sevgilisini itirir, özünü də itirmişdir. Qol-qanadı sınmışdı… Biz mübahisə etdik və axırda Anar mənim niyyətimi qəbul etdi, belə sonluqla razılaşdı…

Üstündən xeyli vaxt keçəndən sonra onun ssenarisi üzrə başqa bir filmi – «Otel otağı»nı çəkdim. Bu olduqca dərin əsərdir. Filmin necə alındığını demək mənim işim deyil, amma materialın özü mənə çox yaxın idi. Mənim bütün filimlərimdən bir ideya, bir fikir keçir, vicdanlı, nəcib insanlara bu dünyada yaşamaq çətindir… Anar belə bir situasiyanı parlaqcasına göstərir: əvvəllər qəhrəmanı türkçülükdə ittiham etmiş bir personaj 90-cı illərin əvvəllərində bağırır ki, biz türklərlə qan qardaşı, bir millətik, dilimiz birdir, türkləri bəyənməyən düşmənimizdir…

Bu film üzərində işləyərkən biz Anarla dərhal «dil tapdıq». O, hətta çəkilişlərə də gəlmirdi, aramızda tam etibar yaranmışdı, o, «sən recissorsan, məsləhət sənindir» deməklə kifayətlənirdi.

Anar «Gecə düşüncələri»ndə necə deyir? «Mənim gecə əndişələrim müharibə illərinə təsadüf edən uşaqlığımla bağlıdı, pəncərələrin işıqdan qapanması yaddaşımda – qara xəbərlər, itirilmiş şəhərlərdən, düşməni irəliləməsindən təntənəli-matəm məlumatlar verən radionun qara «boşqabı» ilə ilgilənir…» O, zamanı sözdə saxlamağa çalışır… Bəs kino özü də saxlanılmış zaman deyilmi?..

VAQİF İBRAHİMOĞLU: Ondan başlayım ki, indi hər bir ideyanın, hər bir konsepsiyanın yaşamaq haqqı var. Çox şükür ki, biz nəhayət milli mədəniyyət məkanında azad yaradıcı realizasiya imkanı qazanmışıq.

Ancaq yada salaq ki, hələ 70-ci illərdə türk mifologiyası vasitəsilə öz köklərimizi dərk etmək meyli yaranmışdır. Az qala iki yüzillik boyu bizləri gah Qafqaz tatarları, gah da türk adlandırırdılar, sonra «azərbaycanlılar» kimi gözəl ad meydana çıxdı. Ziyalılar qarşısında çox ciddi məsələ – özümüzü identikləşdirmək məsələsi dururdu. Bu özünü dərketmə prosesində Anarın nəhəng xidməti var. Qonşu Türkmənisatanda «Dədə Qorqud» eposu feodal-bəy ideologiyasının daşıyıcısı damğasıyla yasaqlandığı halda, Anar bu dastanın Azərbaycan tarixi-mədəni məkanına qatılmasına nail oldu. – özü də ilk dəfə olaraq adaptasıyasını yaratdı. Ardınca film çəkildi, insanlar bizim oğuz, yəni türk etnosunun bir qolu olduğumuzu bildilər. Mənim işimdə qeyri-adi dərəcədə Anar fiquru vacibdir. Bu, elə bir nisbətdir ki, yaratdıqlarını sanki onunla tutuşduraraq gerçəkləşdirirsən. O, tamamilə pafossuz adamdır. Amma məncə cəmiyyət onun haqqında pafosla söz açmalıdır. Mənim üçün Anar bir insan olmağından daha çox bir hadisədir.

Onun sanki iki qatı vardır, biri milli aləmə, o birisi qərb aləminə mənsubdur. Və bir əsər yaratmağa başlayaraq, o, bu iki başlanğıcın uzlaşmasını, qayə və vəzifələrinin oxşarlığını, illah ki, düşüncə hədəfinə işləyəcək vasitələrin oxşarlığını görməyə bilməz.

O, daima başqa mədəniyyətlərə birinci olaraq «pəncərə» açmış, o cümlədən dzen-buddizm, ekzistensializm, ədəbiyyatda, kino sənətində yeni təmayüllər haqqında söz açmış, bir çox şeyləri bizə rus mədəniyyəti vasitəsilə çatdırmışdır. Kimsə öz sahəsində filizqazan kimi dərin qatlara varır, büsbütün gözdən itir, əlaqələri də görmür. Anar isə, hava səyyahı kimi, yuxarılardan, ucalıqdan, doğma mədəniyyətinə gözəl bələd olduğu fəzalarından baxıb uzaqlarda baş verənləri görür, bilir. O, bizim mədəni kontekstimizi o qədər başlanğıclarla zənginləşdirmiş ki, sonralar özü də bunları «becərməyə» macal tapmamışdır. Açıb səxavətlə bölüşür – götürün, düşünün, yazın...

Bir neçə il bundan qabaq ona qarşı həqarətli kampaniya aparmağa çalışanları cin atına mindirən nə idi, cırnadan nəyidi? – dönə-dönə düşünürdüm. Yəqin, cavabı belə ola bilər. İndi yaşı qırxı haqlamış bir çoxları milli mədəniyyət, milli ideyalar aləminə Anarın vasitəsiylə varmışlar; onlar ona səcdə qılırdılar. 80-90-cı illərin qovşağında məlum hadisələr baş verəndə, Anar onlara fəal qatılmadı, Xalq cəbhəsi hərəkatına qoşulmadı. Rəqiblərinin bədxahlığında siyasi məqamlara, inciklik də vardı; hamısının ürəyindən keçirdi ki, insan tezcə yanıb külə dönsün, sonra onu səcdəgaha çevirsinlər. El içində məsəl var, deyirlər, filankəs atasını öldürüb ki, sonra goruna and içsin... Belə «alovlu inqilabçı»lardan birisi hətta Anara yazmışdı ki, mən uşaqlıqda dağda-dərədə dolanıb sizin Dədə Qorqudunuzu oynayırdım, sizin öyrətdiyiniz filan-filan şeylərə əməl edirdim, indi isə siz... və sairə və ilaxir.

Mən bu barədə böyük bir məqalə yazmalı oldum və məqalə bizim ən müxalif qəzetimizdə çıxdı, yəni müxaliflərin öz içindən etiraz səsi ucaldı və bir müddət hər şey sakitləşdi. Amma mən yenə də «niyə»nin cavabını düşünürdüm. Ona görə ki, o, çox parlaqdır, aristokratdır, ona görə ki, dövlətçidir, boş-boş danışmağı xoşlamır, həddən ar-

tıq çox işlər görüb. Onun nəhəng işlək dövrü olmuşdur. Amma neçə-neçə mətləblərdən ciddi-cəhdlə, istedadla söz açaraq, o heç vaxt ifrata varmır, cızığı aşmırdı. Dissidentlik başlanan yerdə ayaq saxlayırdı. Amma xeyli «xam torpaq»olduğu mədəniyyətimizə nəzər salın: bax, bu birinci şumlanma, qoy lap bircə, ikicə şırım olsun, – hər yerdə Anarın izi var. Belə hünər çox-çox iddialı adamlarda hanısısa qısqanclıq doğurmazmı? O, bircə hərəkətlə mədəni kontekstə növbəti tamamilə yeni bir ideyanı atırdı. Bu ideyalar dissertasiyalarda qalaraq soluxmurdu, onlar yaradıcı əməldə yaşayırdılar; bizim humanitar sahəmizdə az rəf tapılar ki, orada Anarın işarəsi olmasın. Hansısa məqamda, hətta öz yaradıcılığının ziyanına olsa da (mən bunu əməlli-başlı anlamırdım), o öz öhdəsinə nəhəng bir missiyanın yükünü götürmüşdü. Diskussiyaların birində mən ətrafdakılara təklif etdim: indiki qırxyaşlılardan kimlər başladıqları zaman Anara üz tutmayıbsa əl qaldırsınlar. Belələri, demək olar ki, yox idi. Kimisə dəstəkləməyə, qorumağa, yazısını çap etdirməyə gəldikdə, köməyini əsirgəməzdi, – haqlı olaraq düşünürdü ki, yaradıcı adam üçün özünü təsdiqləməyə imkan olmaması ölüm hökmü kimidir.

Bizim ilk normal dərgimiz «Qobustan» – Anar deməkdir. Onun sevgi haqqında pyesi – madam Bovarinin parafrazı, bizim şərq ölkəmiz üçün narahat mövzu olsa da, anşlaqlarla gedirdi. Tamaşaçılar axın-axın gəlib Zaurla Təhminənin aqibətinə ağlayırdılar. Və bu da bizim sönük, ehtiyatlı, kiflənmiş sovet ədəbiyyatında, sevənlərin yalnız bir-birinin əllərindən tuta bildikləri, sonra da pambıq üzrə planı yerinə yetirməyə tələsdikləri zamanda baş verirdi.

Anara qarşı qısqanclığın səbəbi, zənnimcə psixopatoloci haldır, ona bağışlaya bilmirdilər ki, o, kəndirbaz kimi müvazinatı saxlayaraq, bütün təhlükələr və bütün şirnikdirmələr arasından keçməyi bacarmışdır. Ucqar kəndlərdən yanına müəlliflər gəlirdilər ki, hansısa hekayəsinə görə təşəkkürlərini bildirsinlər, dərd-sərlərini bölüşdürsünlər. O da Mərkəzi Komitəyə, nazirliklərə üz tutur, yardım göstərirdi.

Və birdən xalq kütlələri üsyana qalxanda insan izdihamı gecə və gündüz meydanlardan çəkinməyəndə, gurultulu çıxışlar səslənəndə o, kütləyə qatılmadı. Amma Anarla bağlı mübahisələr olanda mən onun ən qatı opponentlərindən soruşuram: deyin görüm, Anar gəncliyindən bəyan etdiyi hansı məramına xilaf çıxıb? Otuz yaşında təsdiqlədiklərinə qarşı harda zidd gedib? Tapın görüm, tapsanız onda mən birinci olaraq daş ataram ona…

O, həmişə dövlətçiliyin tərəfdarı olmuş, həmişə inqilabların əleyhinə olmuş, həmişə hər hansı ziddiyyətlərin mədəni, halal yolla çözümünü arzulamış, o, heç vaxt Heydər Əliyevə siyasi rəğbət bəslədiyini gizlətməmişdir. Bir tarixçi kimi o, xalq hərəkatının labüdlüyünün ardınca da qan tökülməcəyini anlayır. Və ona israrla: «sən barikadalara getməyə borclusan!» və s. deyənlərdən yenə də soruşuram: «Kimə borcludur?». Həm də bizdə elələri vardı ki, barikadalara çağırıb sonra da aradan çıxıb gizlənirdi…

Anar heç vaxt sözünə xilaf çıxmayıb. O, özü-özünə adekvatdır, ardıcıldır, ged-gedə seyrələn, azalan saf ziyalıların dairəsini təmsil edir. O, burada, bizimlədi, halbuki asanca çıxıb gedər, haradasa məskən sala bilərdi. Çox vaxt ona zarafatla deyirəm: sənin tam haqqın var ki, «Azərbaycan mədəniyyəti-mənəm» bəyan edəsən. Yəni özünəvurğunluq,

özündən müştəbehlikdən söhbət getmir, doğrudan da, hara baxırsan, onun əli var, izi görünür. Elə bir sətri, elə bir kəlamı, epizodu yoxdur ki, onun üçün özünə bəraət qazandırmalı, «zəmanə beləydi» – deməli olsun…

Mən «Gürcü familyası»nı oxuduqda Anara həmişəlik vuruldum. Bu hekayənin səlis, saf Azərbaycan dili məni sarsıtdı. İncə qələmlə işlənmiş personaclar. Olduqca maraqlı situasiya. Bu insanlar, onun qəhrəmanları, elə bil əsas qayəsi neft, pambıq, kolxoz olan ölkəyə çox da xas deyildilər. Daha bir hekayə də xoşuma gəlir, hətta onu səhnəyə keçirmək istəyirdim – «Paltarasan qadın». Çox teatra uyğun əsərdir.

…Hətta ona qarşı müxalif əhvala köklənənlər də, ədəbi gənclik də ondan nəşət tapmışdılar. Bəzən fikirləşirsən ki, Anarla cəngə çıxmaq sizin xörəyiniz deyil. Kimsə nəsə yazıb özünü novator sayır, Anar isə dərhal dəqiqləşdirir, sənin yazdıqların dadaistlərdə olmuş, o birisinə – buna «niçevok»larda rast gəlinir… O, mədəni fəzanı bütövlükdə görür. Yəni nə yazırsan yaz, yarat, maşallah, bərəkallah, amma unutma ki, göydən düşməmisən, sənin sələflərin olub.

Bəzi müəlliflərə xatırlamalı olursan; bax, sən bu üsuldan faydalanırsan, xəbərin varmı ki, Anarın hekayələrinin birində həmin vasitə kəşf olunub, sən onun «şinel»indən çıxmısan…[1] Gəl boynuna al ki, belədir.

Altmışıncı illərdə Anarın başladığı yeniliklərin böyük siyahısını tutmaq olar, məsələn, ilk məhkəmə oçerkini daxil etməklə. Bizdə belə bir canr yox idi: Lakin Anar heç vaxt sələflərin xidmətini öz adına yazmağa yol verməyib. O, iti gözlə dünya kontekstini görür. Bununla belə ədəbiyyatımızda ilk esse məhz Anar qələminə mənsubdur, indən belə nə qədər yazırsan yaz, – roman-esse, filan-filan, amma Anarın Azərbaycanda bu janra yol açması danılmazdı. Bəlkə mən özüm də bunu istəməzdim, lakin Azərbaycan mədəniyyətində bir çox başlanğıc nöqtələri məhz onun qələmi ilə qoyulmuşdur. Və bu zənginlik çoxlarını rahat qoymur; həm də indi nə istəyirsən yapıb nəşr etmək olar, o isə senzura yasaqlarını keçmək üçün baş sındırmış, məharətini işlətmiş, daima öz loyallığını nümayiş etdirməli olmuşdur. Mən onun gördüyü işlərin siyahısını tutmağa çalışanda, çaş-baş qaldım, elə bu vaxt özü zəng vurdu, ona dedim: «Sizin yeganə görmədiyniz iş, yəqin, bir yaxşı futbol reportajıdır...».

RAMİZ RÖVŞƏN: Altımışıncı illərdə bizdə çox maraqlı ədəbiyyat meydana çıxdı. Ümumiyyətlə, çox mütaliə etsəm də, bu örnəklər fərqli idi, azadlıq havasından bir udum dadmış insanların ədəbiyyatı idi. Anar dərhal diqqətimi cəlb etmişdi. «Gürcü familyası», «Telefon», ardınca «Molla Nəsrəddin-66», «Ağ liman»... Yaradıcılığına hopmuş azadlıq duyumu, ruhu məftun edirdi. «Ağ liman»da o, insan həyatına iki dairə müstəvisində baxmağa dəvət edirdi: bir dairə ətrafındakı mühitdür ki, insan bu dairəni hududlarından çıxmağa qadirdir. Bir başqa dairə də insanın özündə, içində var ki, ondan çıxmaq müşgüldür. Bu da ən dəhşətlisidir. Anar oxucuya hər şeyi xırdalamır, «dərs demir», öyrətmirdi, onun nəsrinin məğzi-məzmunu özü özlüyündə insan həyatının başlı-

[1] *Dostoyevskinin «Biz hamımız Qoqolun şinelindən çıxmışıq» məşhur kəlamına işarədir (red.).*

ca mənası, qayəsi haqqında düşündürürdü. Cavabı da baha başa oturan azad iradə və seçim olurdu.

Anar ilk başlanğıcdan XX yüzilliyin ən aktual mövzularna – tənhalıq, özgələşmə, qeyri-kommunikabellik, konformizm kimi mətləblərə toxunurdu. O, bizlərdə əsl şəhər yazıçılarından biridir. Ondan əvvəl şəhər həyatından nəsə bir maraqlı, dərin ədəbiyyat gözə dəymirdi. Erkən Rüstəm İbrahimbəyov da şəhər mövzusunda yazirdı. Amma o, həyətdən, məhəllədən yazırdı. Bu da bir növ balaca kənd idi. Anarda başqa cürdür. Onda məhəllə, kənd rolunu bir növ idarə oynayır, personajların işlədikləri və bir-biri haqqında hər şeyi bildikləri, bununla belə çox tənha, qərib olduqları idarə.

Azadlıq və çıxılmazlıq xətti bizim dövrümüzdə «Otel otağı» povestində davam edir. İnsan azadlığa qovuşmuş ölkədə qərarsız qalır və... ölür... azad ölkədə azadlıq tapa bilmədən, hansısa dairədən çıxır və ölür... Kədərli hekayədir. İndi-indi aydın olur ki, qapalı, konserv bankasında olduğu kimi yaşadığımız dünyadan başqa bir dünya da varmış və budur, qapaq açıldı, amma açığlığa çıxan insan heç də yüngünləşmədi, qol-qanad açmadı, daha xoş yaşamadı, başqa əndişələr, başqa dərdlərlə üzləşdi... Anarın «Vahimə» hekayəsi dərin mətləblərə toxunur. Heç kəs ciddi iddiya edə bilməz ki, azadlıq qeyri – azadlıqdan asandır, dəyişən dünyada seçim qarşısında durursan və bu heç də asanlıqla başa gəlmir. Anarın hekayələrində, xüsüsən, erkən yazıdıqlarında xoşuma gələn bir oyun ünsürü var ki, bu milli nəsrimiz üçün səciyyəvi deyil. Sonralar oyun elementi tənhalıq mövzusuna ilmələnir. Bu baxımdan Anar novatordur bizim üçün. «Ağ qoç...»da, son zamanların nəsrində bir nigarançılıq, hansısa taleyüklü bəla ehtimalı oxunur... Əlbəttə, belə metamorfozanın dərindəki səbəbləri yalnız yaşın yüküylə bağlı olmasa da, bu da var, – oyuna həvəs qalmır. Anar – hansısa yeni mərhələdədir. Əvvəllər əsərlərinin hətta ən dramatik məqamlarında belə bir yüngüllük duyulurdusa, indi həmin yüngüllük qalmayıb. Düzdü, bizim heç birimizdə də, bu qalmayıb. 60-cı illərdəki Anarın vizual obrazı yaddaşımda apaydın həkk olunub, onun surəti də, onun həmişəki çantası da göz önümdədir... O, vaxtlar maraqlı şairlər, nasirlər bol olsa da, Anar onların arasında xüsusən fərqlənirdi. 60-cı illərin, gəncliyin bir növ timsali kimi...

OKTAY MİRQASİM: Anara münasibətdə, məncə Şərq adamının hissiyyat özünəməxsuzluğu üzə çıxır, – heyranlıqdısa, ən coşqun ifadəsini tapır, eləcə də neqativ emosiyalar... Amma Anar doğrudan da yüksək dərəcəli dəyərləndirmələrə layiqdi.

Onun fəaliyyəti, həyatı əməl faydası əmsalının azlığı ucbatından çox ağrılı, dramatikdir. Bizdə belə bir deyim var: iynə ilə gor qazmaq. Yəni məqsədə çatmaq üçün nəhəng səylər görməli olursan. O, «stoik»dir, inadkar stoik, onun məqsədi, qayəsi yüksək və nəcibdir. O, cahanşümül miqyasda yaranan çox çətin bir durumda maarifçiliklə, mədəniyyətin qorunub-saxlanması ilə məşğuldur.

RAMİZ RÖVŞƏN: Anarın şəxsiyyəti, fəaliyyəti heykələ layiqdir. Yazıçılar Birliyinin aqibətilə bağlı əhvalatı götürün. Əlbəttə, bu təşkilat, bir növ atavızmdır: amma, axı

bizim birliyimiz heç kəsə mane olmur və çoxlarına yardımçı olur. Bu təqdirdə Anar nəyə qarşı durur? Yalnız – unutqanlığa, ədəbiyyat tarixini kiminsə özündən başlamaq cəhdinə qarşı deyil, – elə mafiyoz işbazlar var ki, sadəcə binanı ələ keçirməyə can atırlar. Yazıçılar ocağının, gəlib sadəcə oturub nəfəsini dərə, söhbətləşə biləcəyin ocağın Anar tərəfindən qorunması alqışlanmalıdır. Anar – ocağın çırağyandıranıdır.

OQTAY MİRQASİM: O, həssas izzəti-nəfsli olsa da, əsla aqressiv deyil, ona hətta çox haqsız münasibət bəsləyənə qarşı cəza metodlarına əl atmır. Olur ki, bir bəndə ondan hər şeyi alır, yaradıcılıq həyatına vəsiqə, nəşriyyatda patronac, məsləhət, tövsiyyə… və s. sonra dönük çıxır. Əfsus ki, Anar xəyanət acı-ağrısını çox yaşamışdır. Lakin heç vaxt, heç kimlə böyük imkanları olsa da, haqq-hesab çürütməyə cəhd göstərməmişdir. Heç kimdən qisas almamış, əsl ziyalı kimi hərəkət etmişdir.

Onun timsalında həqiqi ziyalı təbiətinin nəsillər boyu yetişdiyi proseslərdə hansı sirrin gizlənməsi yaxşı görünür. Bu cəhd onun davranış tərzində sezilir: o, hamıyla, istər sürücü olsun, istərsə də nazir, ideal ədəb-ərkanla davranır. Onu çoxları üçün yeni anlam olan demokratiyaya öyrətmək lazım deyil. Demokratiya onun qanındadır.

RAMİZ RÖVŞƏN: Anarın bir nadir isedadı da var-dostluq istedadı…

OQTAY MİRQASİM: …Həm də «gör məni – görüm səni» mənasında olmayan dostluq. O, hansısa bəxti gətirməmiş ləyaqətli adamla «münasibətlərimi hələlik kəsirəm» deyə öz nüfuzunu qorumaq üçün (axı o siravi şəxs deyil, cəmiyyətimizin tanınmış liderlərindən biridir) cürbəcür bəhanələr gətirməz. Hətta bu etibarına görə müəyyən rahatsızlığa, risqə getməyə üstünlük verər. Heç bir şəraitdə Anar vətənpərvərliyi ucuz popilist «şəbeh», özünüreklam vasitəsinə çevirməmişdir. Əksinə, 90-cı illərin əvvəllərində o, bizim bəzi «xalq rəhbərləri»ni bu «şakər»dən əl çəkməyə çağırmışdır.

Bilirəm ki, Rusiyada bəziləri onu Bakıda baş vermiş basqınların qarşısını almamaqda günahlandırmışlar. Amma belə qənaətə gəlməzdən əvvəl həmin hadisələrin həqiqi səbəbləri, şəraitini aydınlaşdırmaq lazım idi. İndiyədək Azərbaycandan xaricdə çıxan müxtəlif nəşrlərdə başımıza gələn bəlaların təhrif olunmuş yozumu ilə rastlaşıram. Və əmin deyiləm ki, kiminsə yanlış təsəvvürlərini dəyişdirə biləm…

Həqiqətən baş verənlər haqqında biz Ramizlə həm şəxsi təcrübəmizdən, həm də şahidi olduğumuz hadisələrin məntiqi olaraq hasil edilən yetərincə faktlar gətirə bilərik. Ən əvvəl, biz də, Anar da körpəlikdən beynəlmiləlçilik ruhunda tərbiyə almışıq və hansısa etnik qruplara qarşı kin-küdurət azarına düşməmişik. Eyni zamanda təbii milli ləyaqət duyumu da bizə xasdır.

Ermənistan-Azərbaycan münaqişəsi qızışdığı dövrdə Anar dəfələrlə tələsik addımlardan çəkinməyə çağırmışdı. Bundan əlavə hadisələrin özü də çox müəmmalı sxem üzrə cərəyan edirdi.

Anarı kənara çəkilməkdə qınamaq ağlasığmazdı. Rusiyada, elə bütün dünyada da böyük bixəbərlik inersiyası hökm sürməkdədir. O ki, qaldı mətbuata, qələm əhlinin həqiqətin üstündən sükutla keçmək və miflər yaratmaq bacarığı yaxşı məlumdur.

RAMİZ RÖVŞƏN: Anar həmişə zorakılığın əleyhinə olub. Qara Yanvardan sonra o, dəfələrlə bunların təxribat olduğunu bəyan edib. Ziyalilarimızın beynəlmiləlçiliyini vurğulayıb. Əlbəttə, məkrli ssenari düşünülmüşdür. Kimə sərf eləyirdi? Təbii ki, bizə yox, elə onlara da… Faciədir…

OQTAY MİRQASİM: Mədəni əlaqələr sahəsində nəyi təmamilə itirməmişiksə, qoruyub-saxlaya bilmişiksə, bu da Anarın xidmətidir. 90-cı illərin ortalarında Bakıya, Füzuli yubileyinə sabiq ittifaq respublikalarından neçə-neçə gözəl söz ustaları, mətbuat təmsilçilərinin gəlməsi üçün Anar nə qədər zəhmət çəkdi, səy göstərdi. Hələ başqa xarici qonaqları demirəm. Bu dünya müqyaslı tədbir idi.

Onun timsalında heyrətamiz tərzdə ənənə səbatlığı və novatorluq uzlaşır. Mənə elə gəlir ki, Anar bütün yaradıcılığı boyu novator və modernist olmuşdur. Biz tanış olan zaman elə həmin cəhd məni cəlb etdi. Tanışlığımız təyyarədə olmuşdur. Moskvadan vətənə uçurduq, mən Ümumittifaq dövlət Kinematoqrafiya İnstitutunda, o Ali ssenari kurslarında oxuyurdu.

Anar, – belə demək olar! – ensiklopedistdir. O, dünya mədəni irsindən ən yaxşı nə varsa əxz etmişdir, öz milli, doğma irsini də unutmur. Bununla yanaşı, kimisə təkrarlaması, kiminsə epiqonu olmasına dəlalət edən bir hal da yadıma gəlmir. Bəlkə burada yüksək mənliyi, yaradıcı ləyaqəti rol oynayır. Heç vaxt kimdənsə, nəyisə yaradıcılıq mənasında «özəlləşdirməyi» özünə rəva bilməyib. Eləcə də kinoda. Bizim studiyamızda ilk müstəqil əsərim, tələbə işlərindən savayı, Anar və M.İbrahimbəyovla bağlıdır. Biz dəniz, balıqçılar haqqında bir film çəkdik.

Əslində, Anar sənədli kinonu partiya sifarişi, təbliğat vasitəsi sayanların təsəvvürünü dağıtdı. Bu, canlı insanı nəfəslə aşılanmış, hər hansı plakatlıqdan xali ilk sənədli kino hekayəti idi. Sonralar Qobustan haqqında film üzərində çalışdıq. Biz onu məlumatlandırıcı, ya elmi-populyar səpgidə çəkmədik. Zaman haqqında, ədəbiyyat haqqında, bəşər mədəniyyətinin qədim örnəklərinin çağdaş günümüzlə bağlılığı və bu ilgilənmədə baş verən paradokslar haqqında fəlsəfi yönümlü ekran əsəri yarandı. Mənə Anarın «Dantenin yubileyi» bədii filmində çəkilmək də müyəssər oldu, – orada baş qəhrəmanın antipodu, «papasının gül oğlu»nun rolunu oynadım…

RAMİZ RÖVŞƏN: Tragik hekayədir, çox xoşuma gəlir... Bir balaca adam, istedadlı olmasa da, qəlbi məhəbbətlə doludur. Onun halına yanırsan... Film uğurlu alınmış, onu mərkəzi televiziya da göstərmişdir. Anar kino sahəsində çox dəyərli işlər görmüşdür. Mirzə Cəlil, Hacıbəyov, Cavid haqqında gözəl filimlər... Onda mədəniyyətimizin

ana xəttini saxlamaq əzmi çox güclüdür. O, bu işləri görməsəydi, hökmən hansısa tellər qırılacaqdı...

Bir neçə il bundan əvvəl toplumu hazırlayırdım, gördüm ki, sən demə, Anar hekayələrimi tərcümə edibmiş. Ümumiyyətlə, əsərlərimi tanınmış moskvalı tərcüməçi Tamara Kalyakina ruscaya çevirirdi. Anardan xahiş etməmişdim. Diqqətlə, ciddi-cəhdlə tərcümələri nəzərdən keçirib necə də sevgi ilə işləndiklərini aşkar etdim. O zaman Anar populyarlığının zirvəsində idi. İşi-gücü başından aşırdı, məni isə əməlli-başlı tanımırdılar, illah ki, nəsrimi. Demək o, gecələr yuxusuna haram qatıb bu işə qatlaşmışdı. Bax, onda bu nəcib səxavət özü bəyəndiklərini başqalarına da tanıtmaq, sevdirmək həvəsi xasdır. Özünün yazmadığı bir yaxşı yazını başqalarına çatdırmaq istəyir, qoy insanlar daha çox keyfiyyətli əsərlər mütaliə eləsinlər…

Anarın, Əkrəmin, Vaqifin, mənim hər hansı əsərlərimizin dərhal geniş oxucu auditoriyasında yayıldığı zamanlar yadımdadır.

…Azərbaycan xalqının mədəniyyətinin varlığında yalnız Anar yaradıcılığı deyil, bütövlükdə Anar qalacaq. Deməzdim ki, tək yazıçı kimi. Bizim hər birimiz zamana hansısa öz surətini həkk edir, biz zaman içində, zaman da bizim içimizdə yaşayır. Anar şəxsiyyətində qədimlərdən başlayaraq sürəkli tarixi zaman parlaqcasına əxz olunmuşdur. Onun yaradıcılığı oradan qaynaqlanır… yazının bütün material qaynağı yalnız o özüdür. Bu mənada Anarın materialı çox zəngindir və mən istərdim ki, o bütün bunları qələmə alsın. İnşallah…

OQTAY MİRQASİM: Mən gələcəyə nikbin baxıram, problemlər yetərincə olsa da. Mənim nikbinliyim bir sıra amillərdən irəli gəlir və onun təsdiqləyən bir dəlil də odur ki, mən Anarın həmvətəni və müasiriyəm. Onunla dostluq etməyi, onun xalqımın, cəmiyyətin etalonlarından biri olaraq – mənimlə yanaşı, eyni coğrafi və mənəvi məkanda yaşaması ürəyimi fərəh hissi ilə doldurur.

Yaradıcılığımın xoşbəxt səhifələrindən biri odur ki, tələbə teatrının səhnəsində onun demək olar ki, buffonada səciyyəli «Zəncir»ini tamaşaya qoymuşam və həmin buffonada cəhətini qabardmağa cəhd etmişdim. O, tamaşaya baxıb bəyənəndə sevincim yerə-göyə sığmırdı, sonralar bu tamaşaya görə respublika müsabiqəsində birinci yeri qazandıq… Amma onun təqdiri hər şeydən dəyərli idi. Axı o, ustaddır, öz fəaliyyətində, ədəbiyyatda kamilliyə nail olmağı sevir. Nə yazırsa, istər öz dövrünü qabaqlayan mistik «Əlaqə», istər kəskin satira, sərrast publisistika, ya tarixi-fəlsəfi yönümlü nəsr olsun – hər əsərində mənəvi paklığa və məhəbbətlə çağırış duyulur. Ramiz Rövşən demişkən, o – məhəbbət adamıdır…

RAMİZ HƏSƏNOĞLU: Anarın ilk dəfə məni ən çox təsirləndirən əsəri Mirzə Cəlil haqqında «Anlamaq dərdi» oldu…

Bu yazıçını mən Anarın qavramı yönüylə dərk etməyə başladım. Məni qəlbimin dərinliklərinədək sarsıtdı, böyük şəxsiyyət, görkəmli sənətkar ömrünün dar günlərində,

qıtlıqdan, soyuqdan əzab çəkərək, buxarı da öz əlyazmalarını yandırıb-alışdırmaq məcburiyyətində qalmışdı… Bu barədə elə acı-ağrı ilə yazılmışdır ki, Anarın göz yaşlarını orada duymaq olardı. 1990-cı ildə «Anarla üz-üzə» filmini çəkdiyim zaman, Anarın Mirzə Cəlilin ev-muzeyinə gəlməsinə aid epizod nəzərdə tutulmuşdu. Amma iş elə gətirdi ki, çəkiliş muzeyin təmir olduğu vaxta təsadüf etdi.

Buna baxmayaraq, çəkiliş aparmağı qərara aldıq. Və gözlənilmədən bu baxımsızlıq, narahatlıq şəraitində Anarın fiquru üzvü şəkildə onun Mirzə Cəlil güzəranı, talei haqqında fikirləriylə bağlandı.

Onun yazdıqlarında daha bir güclü təəssüratım «Ağ liman» povestidir. Mən tənqidçi, ədəbiyyatçı olmasam da, hesab edirəm ki, bizim şəhər nəsrimiz Anarın «Ağ liman»ından cücərib. Əsər, səhv etmirəmsə 65-ci ya 66-cı ildə yazılmışdır. Mənim hətta bu əsəri TV-da tamaşaya qoymaq fikrim vardı, əfsus ki, nəsə mane oldu… Öz mənəvi həyatımı onun əsərləri olmadan təsəvvür edə bilmirəm, onun şəxsiyyəti də mənə munisdir. O, Azərbaycan ziyalılarının «vizit kartı»dır. O, sanki həqiqi ziyalı yükünün nə olduğunu göstərmək üçün aramızda zühur etmişdir. Ələlxüsus, keçmiş sovet əyyamında ona hansı yarlıkların yapıldıqlarını nəzərə alsaq, o, millətə nə ola biləcəyini, məhz nə olduğunu deyil, ola biləcəyini göstərmək istəyirdi. Onun bütün ictimai təşəbbüsləri, əməlləri də – «Qobustan» dərgisi, maarifçilik fəaliyyəti – buradan qaynaqlanır… Ağzıgöyçəklər mızıldanırdılar: noolsun ki, «papasının balası»dır, asfalt üstə boy atıb… Buradan belə bir sual doğur: Anara ata-anasının ona verdiyi imkanlardan sadəcə bəhrələnməyə nə vardı ki, əylən, gəz, kef elə özünçün, «ortada yeyib qıraqda dolan»….

Amma o, hansı işlərə, zəhmətə qatlaşmadı, hətta öz yaradıcılığının hesabına ədəbiyyatın, incəsənətin neçə sahəsində qələmini sınamadı… Maarifçilik amalını hər sahədə önə çəkir, hətta kino sənətində də. Kino əsərləri sırasında «Dantenin yubileyi» filminin ayrıca yeri var. Lakin o da dərin əxlaqi-mənəvi ibrət kəsb edir… Hüseyn Cavid haqqında filmlə Anar özünəməxsus trilogiyanı – Hacıbəyov, Mirzə Cəlil, Cavid – sona yetirmiş olur…

İş gedişatında çox vaxt, tam inandığı məsələlərdə güzəştsizdir, zərrə qədər də güzəştə getməz.

Tanışlığımız 1975-ci ildə oldu. Azərbaycan televiziyasında çalışırdım. O vaxt Anar artıq radiodan ayrılmış, «Qobustan»ın baş redaktoru olmuşdu və həmin vaxt gözəl bir hekayə – «Mən, sən, o və telefon»u yazmışdı. Hələ biz cavan recissor ikən (29 yaşım vardı), mən bu hekayə əsasında telefilm-tamaşa çəkdim. Ssenarini Anar özü yazmışdı. Baxış çox uğurlu keçdi. Bir il sonra onun radiopyesi əsasında Mirzə Cəlil haqqında «Dindirir əsr bizi» filmini çəkdim.

Mirzə Cəlil haqqında film kurs işim idi, – o vaxt Leninqradda qiyabi təhsil alırdım, rejissor Leonid Karasikin qrupunda. Film 1976-cı ildə efirdən keçdi, ertəsi günü də… maqnit lentini pozdular. O dövrə görə əsər həddən artıq «sərt» göründü, elə indinin özündə də Mirzə Cəlil heç də hamı üçün «sərfəli» deyil… Qoqol kimi… Bir növ güzgüdür. Güzgüdə, özünü olduğu kimi görmək kimə lazımdır? Qorxuludur axı… Maqnit

lentin pozulduğunu təsadüfən aşkar etdik. Kim əmr vermiş, kim qol qoymuş buna, hələ məlum deyil.

1978-ci ildə əvvəl novella şəklində yazılmış, sonra pyes variantında uğur qazanmış «Ötən ilin son gecəsi»ni çəkdim. Bu əsər fondlarda saxlanır, ildə ən azı bir dəfə onu göstərirlər. 1981-ci ildə Anar gözlənilmədən parlaq «çaşbaşlıqlar» komediyasını – «Evləri köndələn yar»ı yazdı. Əsər «kult» səviyyəsinə qalxdı. Bir çox dialoqlar, deyimlər dillərə düşdü. İndiyədək ona həvəslə baxırlar; Ryazanovun «Taleyin istehzası» kimi onu yeni il ərəfəsində göstərirlər. Anarla yaradıcı təmaslarımda 80-ci illərin sonunadək fasilə oldu; ardınca onun haqqında portret-film çəkdim. Adı məzmunundan xəbər verir «Anarla üz-üzə». Biz tamaşaçını sənədli filmləri adətən müşaiyət edən kadrarxası mətndən mümküncə ayırmağa çalışdıq. Anar özü-özü haqqında, həyatı, nəsli, soyu, dolayısı da Azərbaycanın müvafiq zaman kəsiyində tarixi haqqında danışır. Mən onunla tək qaldıqda yaradıcı yaşantıları, davranışı, motivlərini, məqamlarını tutmağa, izləməyə çalışmışdım. Deyəsən, qismən də nail olmuşdum. Mürəkkəb dövr idi. Qarabağ… 20 Yanvar hələ baş verməmişdi… Anar hər işi görməyə macal tapmadığına görə üzülürdü, üstəlik ona cürbəcür həqarətli məktublar göndərirdilər, sağdan da, soldan da, az qala divan tutmaqla hədələyirdilər. Mən hətta ondan xahiş etmişdim ki, evin girişinə daxil olanda ətrafına göz gəzdir…

Filmdən söhbətimə azca ara verim… Hər xalqın tarixində elə şəxsiyyətlər olur ki, onların fəaliyyəti, hər hansı addımı dərhal həmin xalqın həyatında, taleində iz qoyur, əks-səda doğurur. İnandırıram sizi, bizdə iki-üç nəfər belə şəxsiyyət var… Tutaq ki, sabah Anar çağırsa – yüz minlərlə insan meydana axışıb gələr. Bunun səbəbi böyük etimaddır. Bəxtiyar Vahabzadə də belə etimad sahibidir. Bütün ictimai hərəkatlarımız, partiyalarımız, Anarı öz cərgələrinə cəlb etməyə arzulamışlar. O isə heç kimə qoşulmamış, öz sənəti, işi ilə qalmış. Öz vicdanıyla yekdil olmağa çalışmışdır.

Belə bir ictimai diqqət təzyiqi altında yaşamaq olmazınca ağırdı. Anar öz təvazökarlığı sayəsində bir çox şirnikdirmələrdən vaz keçə bilmişdir. Bir də onun üzləşdiyi çətinlik iki mədəniyyət zəminində tərbiyə olması ilə bağlıdır. O, Şərqi, Şərq ədəbiyyatını, incəsənətini, musiqisini gözəl bilməklə yanaşı Avropa mədəniyyətinin ən müasir təmsilçisidir və buna görə də dayaz düşüncəli tənqidbazlar tərəfindən haqsız iradlara dözməli olur.

Müsahibələrində ictimai həyatdan darıldığını dəfələrlə etiraf etmişdir. Hardasa gözdən itməyi, qeyb olmağı, oturub yazmağı arzulayır. Amma hətta, belə gərgin rejimdə yaşadığına baxmayaraq yaradıcılığında yeni cığırlar açmaqdan qalmır. «Ağ qoç, qara qoç» ədəbiyyatımızda tamamilə novatorçu bir istiqamətdir.

Bütün bu söylədiyim keyfiyyətlər onun zahiri görkəmində öz əksini tapmaya bilməzdi. O, sanki ucsuz-bucaqsız səhra boyu addımlayır. Bu yaxınlarda onun on ildən əvvəl çəkildiyi filmə baxıb tamamilə başqa Anarı gördüm. Bugün o, qədim müdriklər misalındadır, zaman ona birbaşa toxunub keçmişdi. …Onun məsləhətilə Mirzə Cəlilin «Kamança» pyesinə müraciət etdim və 1992-ci ildə eyni adlı televiziya filmini tamaşaya qoydum. Bu əlamətdar əsərdi, Anar özü də ona dəfələrlə üz tutmuşdur. Əfsuslar olsun

ki, filmi göstərməyə məsləhət görmədilər. Anar böyük humanistdi və dünyanı məhz insanpərvərlik baxımından qavrayır. «Kamançа»dan az qala on il sonra o TV-da maraqlı bir layihəni – «Dədə Qorqud»un ekranlaşdırılmasını təklif etdi. Və biz onunla bu eposun televersiyasının iki seriyasını, iki boyu üzə çıxardıq. Təəssüf ki, bu işi davam etməyə vəsait tapılmadı. Deyə bilmərəm ki, tez-tez ünsiyyətdə oluruq, amma həmişə bir işi əmələ yetirəndə yadımda saxlayıram ki, onu Anar görəcək. Mənim üçün bu vacibdir. Bəzən öz işimə onun gözlərilə baxmağa çalışıram. Mən gördüyüm işlərin hər birini bəyənəcəyini demək olmasa da, mənə bircə onu bilmək bəsdir ki, sənin işinin keyfiyyətinə, ustalığına həqiqi qiymət verəcək bir insan var.

RAFAEL HÜSEYNOV: Xəyalən Anarı göz önümə gətirəndə mən nəyi görürəm ilk növbədə? Ayrı-ayrı, çox bəyəndiyim, ürəyimcə olan əsərlərini deyil, – qarşımda geniş, ləngərli bir çay sularını axıdan, durğunlaşmağa qoymayan, irəliyə çəkib aparan qıcov canlanır… Belə bir çaydır Anar. O çayı da mütəhərrik edən böyük yazıçı, tarixçi, mütəfəkkir əzmidir, doğma xalqın ən yaxşı mədəniyyət örnəklərini mənalandırılmasına, zaman boyu yaşadılmasına yönəlmiş əzm… Onun yaradıcılığının hər bir zərrəsində bu ümumi istiqamət duyulmaqdadır. Onun filmlərini götürək… Mirzə Cəlil haqqında, Ü.Hacıbəyov haqqında – «Uzun ömrün akkordları»nı – özü ssenari müəllifi də, rejissoru da olduğu filmi, Azərbaycan kinosunun klassikası! Burada Azərbaycanın tarixi də, ruhu da var. Əvvəlcə bu mövzularda məqalələr, esselər yazmışdı. O, işə əsaslı yanaşır. Anarın hər bir işi ensiklopediyadır, xalqımızın mənəvi sərvətini öyrənmək üçün dərslikdir. Onun yaradıcılıq bioqrafiyasında «Dədə Qorqud» da, Cavid də var. Belə qəhrəmanlarının dairəsi böyük olmasa da, bunlar millətin dayağı, rəhnidir. Təmənqoyanlarıdır. Bizim təfəkkürümüz, mədəniyyətimiz bu şəxsiyyətlərə, onların əsərlərinə söykənir. Anar onların dəyərini anlayır, onları sadə, siravi insanlara yaxınlaşdıraraq xalqın iç qatından boy atdıqlarını göstərir.

Cavid haqqında filmlə Anar böyük azərbaycanlılar haqqında silsilə əsərlərini tamamlamış kimi oldu. O, Cavidin bütövlükdə ömür yolunu, yaradıcılığını nəzərdən keçirir. Hər nəyə müraciət etsə kompleks yanaşmadan faydalanır. Fərqli cəhətlərdən, fərqli şəkildə mədəniyyət və incəsənət azmanlarımızın xatirəsini əbədiləşdirir.

Mənim Anara marağım məktəbdən başlayır. «Molla Nəsrəddin-66» povestini, ardınca satirik hekayələrini oxudum. Ədəbiyyatımızda tarixən gözəl satiriklər olsa da, bu kitab yazılış incəliyi və müşahidə dərinliyi ilə heyrətləndirdi. Mən özüm də yazmağa başladığımdan bədii ifadə forması mənim üçün maraqlı idi. Sonra onun psixoloji hekayələrini oxudum, – Azərbaycan dilində parlaq nəsr örnəkləri idi. Mən oxumaqdan doya bilmirdim, həzz alırdım... «Gürcü familyası», «Dantenin yubileyi» novellaları yalnız Azərbaycan ədəbiyyatı miqyasında şedevrlər deyil.

Amma mənim ən çox sevdiyim əsər Anarın özüdür. Onun düşündükləri, onu həyacanlandıran mətləblər mənim üçün dəyərlidir, gələn dəfə yeni əsərində nəyə müraciət edəcəyini səbrsizliklə gözləyirəm. Hətta cavan yaşlarında da müdrük idi. 1969-cu il-

də Mirzə Cəlil haqqında yazdığı «Anlamaq dərdi»ndə yetgin bir şəxsiyyətin düşüncələri səslənir, halbuki otuz yaşı təzəcə ötmüşdü.

O, ünlü, professional filosof, parlaq alim ola bilərdi, o, analitik zəka sahibidir. Hər bir deyimi, hər bir misrası, dostuna zarafatla yazdığı kiçik bir bənd olsa da, məncə, incidir, şedevrdir, zaman özü bunu təsdiqləyəcək. Lakin həyatında, yaradıcılığında mərhələ çəkili əsərlər var. «Dədə Qorqud dünyası» bu qəbildəndir. Bu, xalqımızın soykökünə həsr edilmiş bir çox elmi araşdırmalara təkan vermiş samballı, ciddi əsərdi. Burada yazılı qaynaqlara yeni yanaşma metodları, orta əsr mətnlərinin sirlərinə açarlar təklif edilmişdir. O, mədəniyyətimizin ən qədim abidəsini elmi baxışla deyil, yazıçı fəhmilə (bu isə çox uzaqları görməyə qadirdir) nəzərdən keçirmiş, incələmişdir. Mütəxəssislər bu araşdırmaya görə ona doktorluq elmi dərəcəsi verilməsini təklif etmişdilər.

Ömrünün əsas əməllərindən biri oğuz poeziyası örnəklərinin toplanmasıdır. O, bir müddət əvvəl işıq üzü görmüş, 1500 illik dövrü əhatə edən həmin şeirlərin ikicildlik antologiyasının tərtibatçısıdır. Burada ən qədim çağlardan üzü bəri türk xalqlarının poetik yaradıcılığı sərgilənmişdir.

Anarın yerində bir başqa, onun kimi çeşidli səpgidə, istedadla yazmağa qadir adam olsaydı, bu qədər üzüntülü zəhmət tələb edən işə qatlaşmazdı, bu müddət ərzində öz əsərlərini yaza bilərdi. Anar isə ömrünün neçə ilini, enercisini bu əmələ sərf etmişdir. Axı bir-iki şeir seçmək üçün neçə kitabi, neçə cildi ələk-vələk etməli, arıtlamalısan, bu heç də mexaniki iş deyil.

Bütövlükdə ikicildlik Anar şəxsiyyətinin möhürünü daşıyır. Bu kitab onun mədəni-maarifçilik fəaliyyətinin tacıdır. Bir çox fikirlər, ideyalar orada dilə gətirilməsə də, nəzərdə tutulur. Məncə, burada Anarın dahiliyi ondadır ki, sanki özü heç nə yazmadan, heyrətamiz dərəcədə çox şeylər deyib. Və bu yazılmadan deyilənlər həcmcə həmin iki cildə sığmır. Yəqin düşünən oxucuya ünvanlanan bu mətnaltı bildilmələr yeni kitablara, yeni incələmələrə zəmin yaradacaq. Yəqin, onlar Azərbaycanda yaradıcı fikrinə özünəməxsus qaynaqlar tapan yeni Anarların meydana çıxmasına yardım göstərəcək, yol açacaq.

Anar kimi insanlar haqqında söz açanda, onların fəaliyyətinin hansısa aspektini fərqləndirmək mümkün deyil. Allah onları yaradır ki, alın yazısında sayılan əməlləri oluşdursunlar… Onun bütün əsərləri, kitabları sanki bir-birini tamamlayır, inkişaf etdirir. Və belə bir şəxsiyyətin əhəmiyyəti kompleks halında, bütöv görüntüdə anlaşılır.

Dünya ədəbiyyatında ümumbəşəri önəm daşıyan şah əsərlər var, niyə də Azərbaycan oxucusu onları öz ana dilində oxumasın? – Anar belə yanaşmanı ömrü boyu nümayiş etdirir. Türkdilli əbədi irsə gəldikdə də, ona təzə nəfəs verməklə, klassik sənətkarlara nəzirələr silsiləsi yaradır. Türk poeziyası örnəklərini götürüb onlarla səsləşən düşüncələrini nəzmə çəkir. Klassiklərə bizim müasirimiz, yeni əsrin insanının orijinal və cəsur etirafları kimi qavranılan bu şeirlər həm zəmanəmizlə səsləşir, həm də keçmişlə ilgiləri yaşadır, böyük ustadların mənəvi enerjisini bizlərə çatdırır.

Orta əsrlərdən bəri dünyada məhşurlaşmış «Leyli-Məcnun» haqqında nakam məhəbbət dastanı Anar yaradıcılığında özünəməxsuz faciəvi sevgi romanı – Təhminə ilə Zaur haqqında sujetdə başqalaşmış təcəssümünü tapır. Gözəl müasir dildə yazılmış ro-

manda eşq və məhəbbət mövzusu yeni şəkildə canlandırılır, bununla yanaşı, həqiqi sevgi yaşantıları eyni paklığı, eyni kövrəkliyilə duyulur.

Anarın əsərləri bütövlükdə bir-birini tamamlayaraq yüksək milli mənəvi inkişaf ideyasının ünsürlərini təşkil edir.

Onun da, mənim də doğma qardaşımız yoxdur; mən onu özümə doğma qardaş sanıram, o da mənə qardaşcasına yanaşır. Onun kimi adamlar nadirdi. O, heç vaxt yalnız dostunu deyil, tanımadığı adamı da darda qoymaz. 1988-ci ildə televiziyada Anarın 50 illiyinə həsr edilən veriliş hazırlamışdım; o verilişdə belə bir fikir söyləmişdim ki, Anar, ola bilsin, yurdumuzda yeganə adamdır ki, tutalım, gecə vaxtı hər hansı bir ucqar kəndimizdə elə birinci qapını döyüb Anar olduğunu desə, ona sevinclə qapını açıb qəbul edərlər. Sonralar çoxları mənə yanaşıb haqlı olduğumu deyirdilər.

Anar Azərbaycanın hər bir guşəsində doğma adamdır, hamı onu tanıyır, hörmət bəsləyir, sevir. Respublikada onu tanımayan, əsərlərini oxumamış bir nəfər də təsəvvür etmək çətindir. Bir tərəfdən, o, böyük şairin, Azərbaycan poeziyasında yeni təfəkkür banisinin oğludur, digər tərəfdən onun anası Nigar Rəfibəyli də ünlü şairəmiz, incə, zərif lirika yaradıcısıdır.

Öz xalqı uğrunda, öz prinsipləri yolunda mübarizə aparan Anar bu əzmində atasına bənzəyir, yumşaqlığı, rəhmdilliyi isə anasından gəlir. Hər bir insan üçün xoş söz tapa bilər. Bu ailənin şəcərəsinə yaxşı bələdəm, böyük həcmli bir kitab yazmışam bu nəslin nümayəndələri haqqında. Rəfibəylilər ailəsi sovet Azərbaycanında yeganə ailədir ki, doqquz dəfə repressiyalara məruz qalmışdır!

Anarı düşünəndə bəlkə də yeganə müqayisə ediləcək şəxsiyyət – Üzeyir Hacıbəyov yadıma düşür. Belə görkəmli şəxsiyyətlərdə milli ruhun hansısa cövhəri cəmləşir. Bunu, dostu olduğun üçün demirəm, bu bir həqiqətdir. Nə qədər ki, Anar yanımızdadır, bunu dərk etməyənlər tapılır… Böyüklüyü yaxınlıqdan duymaq çətindir… Zaman məsafəsi gərəkdir… Millətin ruhu. Anar bu sönməz nuru yaşadan, gələcəyə aparanlardan biridir.

Xaricdə yazılanlar

Türkiyə

Bir çox Azərbaycanlı şair və yazıçıların əsərləri Türkiyədə nəşr edilmişdir. Müasir şairlərdən Bəxtiyar Vahabzadəni və Nəbi Xəzrini, yazıçı Anar Rəsuloğlunu yaxından tanıyırıq.

Türkiyənin Baş naziri MƏSUD YİLMAZİN rəsmi səfəri zamanı Bakıda çıxışından.

«Xalq qəzeti», 6 aprel, 1996

Önəmli və dəyərli Azərbaycan aydını Anar mənə bir kitab vermişdi: «Min beş yüz ilin oğuz şeri». Diqqət edin, yalnız türk və azəri şairlərinin deyil, yer üzündəki bütün türk şairlərinin antolojisi. Bizdə boylə bir əsər yox. Ürəyimdə bir həyəcan duydum, düşündüklərimi açıqca söylədim: «Siz bizdən artıq türksünüz!»

Atilla İlhan.
«Yaşasın Şərq inqilabının başçısı».
«Cümhuriyyət» qəzeti, 30 iyun, 2004

Anar Azərbaycanın içində və xaricində tanınan məşhur yazıçıdır. Kitabları bir çox xarici ölkələrdə nəşr edilib. Çox sevilən bir insandır. Bu sevgi atasından qalmış, amma özü də şəxsiyyəti, əsərləri ilə azəri xalqının qəlbində yer tutmuşdur. Küçə ilə gedirik, hər kəs onu tanıyır, hörmətlə salamlayır. Anar eyni zamanda Sovetlər Birliyi parlamentosunda Azərbaycanın təmsilçisidir. Üç ildir Azərbaycan Yazarlar Birliyinin birinci katibi, yəni sədridir. Türkcə ən düzgün danışanlardandır. Yazdıqları latın əlifbası ilə nəşr olunarsa, şubhə yox ki, ölkəmizin ən çox oxunan, sevilən yazarlarından biri olacaqdır.

Oktay Akbal.
«Bakıdan izlənimlər». «Hürriyyət» qəzeti,
24 yanvar, 1990-cı il

Anarın burada bir pyesi oynanılmış. Bizi saat səkkizdə teatra dəvət elədi. Tamaşaya baxmağa üçümüz getdik. Vera, Adil Yəhyayev və mən. Tamaşanın adı: «Şəhərin yay günləri». İki pərdəli bir əsərdir. Ətrafındakı adamların təhriki ilə pis işlərə sövq edilən namuslu bir adamın mübarizəsidir: arvadı belə onun tərəfində deyil. Amma adam in-

san olmağın məsulliyyətini daşımaqdadır. «Mən bu uyğunsuz işi görsəm o zaman həyatın mənası qalarmı? İnsan olmağın mənası qalarmı? Gələcək insanlar mənə nə deyər?».

Birdən Vera əyilib qulağıma dedi:

– Mən də sənin kimi birinci dəfədir ki, Azərbaycan teatrına baxıram. Düzü, bu qədər gözəl oynayacaqlarını gözləmirdim.

Danışa-danışa mehmanxanaya sarı gedirik. Yolda Anar bir dostuna rast gəlir, bizi tanış eləyir: Əkrəm Əylisli. Hamımız bir yerdə mehmanxanaya gedirik. Veranın otağında bir stol hazırlayıblar. Keçib süfrədə əyləşirik. Bunlar şair ruhlu insanlardır: ağızlarından şeir tökülür. Daha çox xalq şeirlərini sevirlər. Hamısının da içində insan sevgisi var, hələ bizlərə qarşı... Artıq sözə ehtiyac yoxdur, bir sözlə məni çox xoşbəxt elədilər.

A.Qədir.
«15 gün Sovet İttifaqında»

Dostluq münasibətləriylə bağlı olduğum Anarın və Elçin Əfəndiyevin yaradıcılıqlarına hörmət bəsləyirəm. Anar çox istededlı yazıçıdır, onunla ünsiyyətdə olmaq çox xoşdur.

Orxan Pamuk,
«Sevgili Bakıya ithaf» («Посвящение любимому Баку»).
«Exo» qəzeti. 24 avqust, 2005

Tanınmış şair Rəsul Rzanın və şairə bir ananın oğlu olan Anar 1934-cü (səhvdir, düzü – 1938) ildə Bakıda doğulmuşdur. «Dantenin yubileyi», «Ağ liman», «Molla Nəsrəddin – 66» adlı əsərləri ilə tanınmışdır. Özəlliklə sonuncusu çox sevilmiş. Bildiyiniz Nəsrəddin Xocanın azərbaycanlısı olan Molla Nəsrəddin 1966-cı ildə yaşasaydı nələri dilinə gətirərdi, nələrə gülərdi? Müəllif bunları izləyir. Nə yazıq ki, nəşr olunmuş səkkiz kitabı olan yazarı yetəri qədər tanimırıq.

Fakir Baykurt.
«Yeni gün» qəzeti, 4 iyun, 1975-ci il. İstanbul

Çağdaş türk dünyası ədəbiyyatından türk oxucularının da yaxından tanıdığı üç ad: Aytmatov, Anar və Annaqulu Məhəmməddir

Doğan Hızlan,
Türkiyə tənqidçisi

21 iyunda televiziyada «Dədə Qorqud»u Azərbaycanda yaradılmış film kimi seyr etdik. Hər şeydən öncə bu filmi yaradan azəri qardaşlarımıza təşəkkürümüz var. Nədən? Ən azı bizim görəcəyimiz işi gördükləfri üçün və bizə «Dədə Qorqud» kimi bir dastanımızın var olduğunu xatırlatmaları üçün. Soyumuzun fəzilətlərini, igidliklərini, mərasim-

lərini, Allaha və dövlətə hörmətlərini, yalana nifrətlərini, cihadlarını, təmiz eşqlərini bir müqəddəs əfsanə atmosferi içində bizə anlatdıqları üçün. Oğuzların vətən sevgisi, torpaq sevgisi yaxşı göstərildiyi kimi, saf və təmiz dindarlıqları da dilə gətirilə bilərdi. Ancaq azəri soydaşlarımız haqlı olaraq deyə bilər ki: «Biz kiçik qardaşlarıq. Dini və millətləri rədd edən yabançı bir recimdə biz bunu elə bildiksə, yenə də böyük hünər və uğur sayılmalıdır. Daha gözəlini, daha yaxşısını biz əlbəttə sizdən gözləyirik. Sizin rejissorlarınız, aktyorlarınız, bəstəkarlarınız hardadır?» «Dədə Qorqud»un 12 boyunu bir araya gətirib, dünyanın ən gözəl dastanlarından birini ondan çıxaracaq şairləriniz, ədiblériniz hardadır? Niyə baxmırsınız soyunuz oğuzların o eşsiz dillərinə, mərasimlərinə, inanclarına? Yoxsa sizi də «əcəl alıb, yer gizləmişdir?»

Əhməd Kabaklı.
«Gün işığında Dədəm Qorqud» «Tərcüman» qəzeti, 1983

Neçə il qabaq İstanbul sinemalarında bir film göstərilmiş, böyük marağa səbəb olmuşdur: «Spartak» filmi.Televizyonda Azərbaycanda çəkilmiş «Dədə Qorqud»a baxdığımda eyni səhnə, daha böyük əxlaqi dəyərlər, hüdudsuz bir fədakarlıq gördüm. Azərbaycanda çəkilmiş filmi seyr edərkən bunu düşündüm: «Mən ki, Dədə Qorqudu neçə dəfə oxuyub, ondan neçə dəfə bəhs etmişəm, mən belə min il öncə yazılmış bu kitabda oxuduğum səhnələri «Spartak» qədər dəyərləndirə bilməmişəm. Deməmişəm ki, «Bunu mənim Dədəm Qorqudumdan almışlar». Bəli, «Dədə Qorqud» filmi göstərdi ki, bizim nağıl dediyimiz və ya elə deməyə məcbur edildiyimiz «Dədə Qorqud»da 16 dövlət qurmuş bir millətin mənəvi zənginliklərinin hamısı var. Elə əxlaqi bir mühtəva var ki, insanlığın hamısına yetər və artıq da qalar. Haramzada olmayan türk milləti əslini heç bir zaman inkar etməz və bir gün görərik ki, Azərbaycanla Türkiyənin babası eyniymiş: Dədəm Qorqudumuz…

Ergün Gözə.
«Dədə Qorqud», «Tərcüman» qəzeti, 1983

Televiziyada ara-sıra da olsa milli mədəniyyətimizlə bağlı əsərlərin tanıdıldığına şahid olur, sevinirik. Keçənlərdə qəzetlərin televiziya güşələrində «Dədə Qorqud» adını oxuyunca qürbətdə bir dostun səsini duymuş kimi sevindim. Türk ədəbiyyvatının şah əsərlərindən biri olan «Dədə Qorqud»un Azərbaycanda filmə alınmış bir neçə hekayəsi ekrana gəlirdi. Bu müdhiş bir şeydi! Filmi, «bu nöqsanı vardı, burası yanlışdı» deyə tənqid edə bilərik. Fəqət, ən önəmlisi bu əsərin ekrana gələ bilməsi, Azərbaycanda, bizim imkanlarımıza sahib olmayan qardaşlarımızın bizə öz nöqsanımızı, öz qəflətimizi xatırlatmalarıdır. Biz daha yaxşısını, daha mükəmməlini yarada bilərik, amma etmirik, hətta bu qəflət səbəbiylə gözəli çirkinləşdirməkdə də əməlli ustayıq.

Sevinc Çokum.
«Dədəm Qorqud», «Yeni düşüncə». 8 iyul, 1983

Türk kültür tarixinin ən böyük və dəyərli əsəri olan «Dədəm Qorqud»un filmə alınıb televiziyada göstərilməsi böyük bir sənət və kültür hadisəsiydi. Bu əsərin Azərbaycanda yaradılmasının maddi tərəfdən önəmi olacağı kimi, mənəvi yöndən də ayrıca bir əhəmiyyəti vardır. Azərbaycan dəmir pərdə arxasındakı bir türk yurdu olmasana baxmayaraq, orada millə kültürə bizdən daha artıq və ciddi ölçülərdə xidmət edildiyi gözdən qaçmamalıdır. Bu əsərin filmə alınması, ekrana gətitrilməsi azərbaycanlı qardaşlarımız üçün İstiqlal dərəcəsində mənəvi həzz verəcək bir hadisədir.

Niyazi Yıldırım Gəncosmanoğlu.
«Dədəm Qorqud». «Yeni düşüncə», 8 iyul, 1983

1960-cı illərdə ədəbiyyat dünyasına daxil olan Anar çağdaş Azərbaycan ədəbiyyatınının, özəlliklə müasir hekayənini ən böyük ustasıdır. Anar dünya klassiklərində gördüyümüz kimi mükəmməl texnikaya və detallara xüsusi yer verən bir üsluba sahibdir.

Hal-hazırda Anar Azərbaycan və Türk dünyası üçün özəldir. Onsuz türk dünyasının intellektual sistemində əksiklik olar.Azərbaycanın bu ağır keçid dövründə Anara böyük ehtiyac vardır. Onun «mənə deyil, millətə lazım ol» meyyarı Azərbaycanın birlik və bərabərliyi üçün ən önəmli düsturdur. Türk dünyasında ona böyük bir inam vardır və gələcəkdə də türk dünyası ziyalılığının zirvəsində mütləq Anar olacaqdır.

Fikrət Türkmən,
professor, doktor.
«Elm qapılarında bir yazar dost – Anar», «525-ci qəzet», 25 iyun, 2005

«Otel otağı» romanının qəhrəmanı Kərim elə bir nəslin, daha doğrusu elə bir sosial tipin rəmzidir ki, nə sovet dövründə, nə bağımsızlıq dövründə praktik insan ola bilmir. O, konformist olmağı, qəbul olunmuş davranış qaydalırıyla uyuşmağı, hər hansı cəmiyyətin ruhuna riyaət etməyi bacarmır. O, sovet dönəmində türkçülüyü damğalayan, indi isə aşırı türküçü olmuşların riykarlığını qəbul edə bilmir. Nə yazıq ki, biz Türkiyədə Azərbaycan aydınlarını heç zaman dəyişməyən əqidələrinə görə yox, indi söylədikləri yalançı və boş laflarına görə dəyərləndiririk. Bunun səbəbi odur ki, bir-birimizi, adamlarımızı yaxşı tanımırıq. «Otel otağı»nın əsas fikirlərindən biri budur.

Erdal Doğan.
«Xəyallar şəhərimə salam» məqaləsindən. «Radikal» qəzeti, 22 avqust, 2000

Anar bu gün dünya çapında tanınan ən məşhur Azərbaycan yazıçısıdır. May günlərində Anar Türkiyəyə gəlmişdi, Nazım Hikmətin dostu, yeni Azərbaycan şeirinin yaradıcılarından biri, atası Rəsul Rzanın arşivindən Nazım Hikmət fonduna, böyük şairimizlə bağlı xeyli sənəd hədiyyə etdi. Həmin günlərdə Anarla geniş söhbət etdik.

İrfan Ciftçi,
Şair, ədəbiyyatşünas.
Anarla söhbət. «E» dərgisi», İstanbul, iyun 2000

Anarın ən məşhur «Beş qatlı evin altıncı qatı» romanından danışmazdan öncə demək gərəkdir ki, bölgənin başqa xalqlarıyla müqayisədə azərbaycanlılar ən çox mütaliə edən xalqdır və bu da yazarlara daha böyük sorumluluq yükləyir. Azərbaycanda yazarlara yalnız hörmət bəsləmirlər, həm də onları daima müşahidə edirlər, onlardan həyatın bütün sorunlarına cavab gözləyirlər. Anarın əsərlərinin obrazları məhz elə toplumun bu suallarına cavab verir. İnsanlar arasında əlaqə, ünsiyyət onu ən çox maraqlandıran prolemlərdəndir. İlk povesti «Ağ liman»dan başlayan bu təmayül «Beş qatlı evin altıncı qatı» romanında davam və inkişaf etidirilir. İlk zamanlar cəmiyyətin müəyyən qism tərəfindən qəbul olunmayan, «yuxarıların» təzyiqinə məruz qalan Anar yolundan dönmədi və indi onun açdığı yollarla daha gənc nəslin yazarları addımlayır.

İldəniz Qurtulan.
«Beş qatlı evin altıncı qatı» romanının
Türkiyə Mədəniyyət Nazirliyi tərəfindən nəşrinə ön sözdən, 1994

Anar, Elçin, və Yusif Səmədoğlu, əgər belə demək olarsa, sovet dönəminin burjuaziyasına mənsubdurlar, yəni əsl şəhərlidirlər. Kənd həyatını bilməyən bu yazıçılar əsərlərində əsasən şəhər sakinlərinin həyatına müraciət edirlər. Oxuculara mənim tərcüməmdə təqdim etdiyimiz «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanı mənəvi və sosial məsələlərə həsr olunmuş əsərdir. Maraqlı bir üslubda qələmə alınmış bu romanın Azərbaycan ədəbiyyatında özəl yeri var.

Yusif Gədikli.
«Beşmərtəbəli evin altıncı mərtəbəsi» kitabına yazdığı ön sözdən.
18 aprel, 1994, İstanbul

Anar çağdaş Azərbaycanını irəlidəgedən yaşarlrındandır. «Ötükən» yayın evi bir necə il öncə onun «Beş mərtəbəli evin altıncı mərtəbəsi» romanını basmışdı. İndi də «Dədə Qorqud» kitabını basır. Anarın «Dədə Qorqud»unu meydana çıxarmaqla «Ötükən» yayın evi mədəniyyətimizə böyük xidmət göstərmiş olur.

Osman Fikri Sərtqaya.
İstanbul niversitetinin türkoloji araşdırmalar institutunun başqanı.
Anarın «Dədə Qorqud» kitabına ön sözdən. İstanbul, 1999

Mənim qeydlərim Anarın «Ağ qoç, qara qoç» kitabıyla bağlıdır. Bu kitab Soljenitsinin «Qulaq takım adaları («Apxipelaq Qulaq»), Artur Köstnerin «Zülmət və ədəbiyyat», Çingiz Dağçının «Qanlı illər», Dostoyevskinin «Ölülər evindən yazılar» kitablarıyla bir sıradadar. Bütün bu kitablar dəhşətlərin sənədli şəhadətidir.

Firat Qızıltuğ,
yazıçı, alim.
«Ağ qoç, qara qoç» məqaləsindən. «Türk ədəbiyyatı» jurnalı. İyun, 2004

Hörmətli Azərbaycan yazıçısı Anarla onun Yazıçılar Biliyindəki iş otağında görüşdük.O ilk baxışda çox təmkinli, hətta bir az soyuq adam təsiri bağışlayır. Amma çox tez başa düşürsən ki, bu zahiri təmkinin arxasında çox həssas, incə qəlbli, ehtiraslı şəxsiyyət dayanır. Bu qədər məziyyətlərə malik olan şəxs bu qədər təvazökardır və bu da çoxları üçün örnək ola bilər. İlk gənclik məhəbbəti, indi həyat yoldaşı Zemfira xanım – müsiqişünas alimdir, bir çox kitabların müəllifidir. Ömürləri boyu onlar yalnız ailə bağlarıyla deyil, həm də dərin mənəvi əlaqələrlə bir-biriniə bağlıdırlar.

Azərbaycan ədəbiyyatının heç bir çərçivəyə sığmayan qiymətli bir şəxsiyyətiylə tanışlığımdan qürur duyuram.

Yasemin Bayer,
araşdırıcı, tərcüməçi.
«Azərbaycan klassiki Anar» məqaləsindən. «Ataköy» qəzeti

«Otel otağı»nin qəhrəmanı Kərim sovet vaxtında türkçülükdə ittiham olunmuş namuslu alimdir. Atası Çopur Cabbarın xəbərçiliyiylə həbs olunmuş, Sibirə sürgün edilmişdir. Sovet vaxtında «türk» sözünü ittiham kimi istifadə edən həmin bu Cabbar indi bağımsızılıq dövründə meydanda Türklük haqqınlda alovlu nitqlər söyləyir. Son illər Türkiyəyə ayaq açan insanlar arasında Kərim kimi türk dostlarını, Çopur Cabbar kimi saxta «türkçülərdən» ayırmağı bacarmalıyıq. Bu baxımdan «Otel otağı» tamamilə gerçək bir hadisə təsiri bağışlayır.

Mühsün Öztürk.
«Aksyon» jurnalı, 3-9 fevral, 2001

Anar 60-cı, 70-ci illdərdə həmişə həqiqət yazdığı kimi 80-90 illərdə də yalnız gerçəyi yazır. Türkiyədə bu yaşıçının çox ktabı çıxıb.Bu kitablara nəzər salanda görürük ki, onlar ən azı iki cür müxtəlif çevirmə üsullarıyla çatdırılıb. Anarın əsərlərinin çoxunun tərcüməçisi İldənihz Qurtulan yazıçının dilini çağdaş türk dilinin leksikasına uyğunlaşdırırsa, başqa çeviricilər, özəlliklə Yusif Gədikli maksimum dərəcədə Azərbaycan leksıkasını, Azərbaycan orijinalının əsas cəhət-lərini qoruyub saxlamağa çalışır. Bu ən çox «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanının iki müxitəlif Yayın evində İldəniz Qurtulanın və Yusif Gədiklinin fərqli tərcümələrində özünü göstərir.

Mehman Musaoğlı.
«Anarın əsərləri türk dilində» məqaləsindən.
«Türksoy» dərgisi, yanvar, 2004

«Otel otağı» kitabında Anar ustalıqla bizi Azərbaycan cəmiyyətiylə tanış edir. Anar üslubunun bütövlüyü məharətlə qurulmuş dialoqlarda da görünür. Qəhrəmanların fərdiyyətini açarkən o, daxili monoloqlardan da bacarıqla istifadə edir. «Otel otağı»nın dərin mənası var. O bizi Azərbaycan çətin dönəm məqamında bizi öz ölkəsiylə tanış edir.

Anar bir detalla keçmişlə gələcəyi birləşdirə bilən yazıçıdır. Müəllif bizə Yol və Ölüm əhvalatını danışır. Anarın bu əsərində əsas motivlərdən biri Yol, səfər motivi-arzular şəhərinə aparan Yolun təsviridir. Amma əsərdə bu yol Heçliyə, Ölümə aparan bir yoldur. Bu həm Azərbaycan, həm Türkiyə cəmiyyətlərini yaxşı tanıyan müəllifin əsəridir. Bu əsəri oxuyanda bir daha əmin olursan ki, dərin fikir yalnız uğurlu bədii həll üçün yox, ümumən həyatı dərk etmək üçün də vacibdir. Anar çağdaş cəmiyyətin həyatı haqqında romans yaradıb. Bu romans Qoqolun ironiyisı, Çexovun qüssəsi, Tomas Mannın intellektual düşüncələriylə səsləşir. Mən Azərbaycanın milli şairi Rəsul Rzanın oğlu Anara – aramıza xoş gəldin – deyirəm.

Firudin Andaç,
Tənqidçi.
«Uzağı yaxın yapan yazıçı» məqaləsindən.
«Cümhuriyyət» qəzeti, 16 noyabr, 2000

Bakıda bir payız axşamı, Xəzərdən əsən külək saçlarımızı qarışdırarkən çağdaş Azərbaycanın ən məşhur və ən çox sevilən yazarı Anar mənə Boris Pasternakdan etdiyi tərcümələrini oxudu. Mən başqa dilə çevrilərkən heç bir gözəlliyini və özəlliyini qeyb etməyən şerin tərcmüsindən sarsılmışdım. Bir neçə il sonra Ankarada Anara həsr olunmuş bir toplantıda çıxış edərkən mən dedim ki, yazarın öz xalqına, onun ədəbiyyatına ən böyük xidməti ondan ibarətdir ki, doğma dilinin imkanlarını açа bilsin. Pasternak kimi mürəkkəb üslublu şairi Azəri türkcəsində «danışdıra» bilən adam öz xalqına əvəzsiz töhfə vermiş olur.

Ataol Bəhramoğlu.
«Arkadaşlarım Azəri yazarları» məqaləsindən.
«Cümhuriyyət» qəzeti

Anar nəhayət dostlarının israrlı təşəbbüslərindən sonra öz veb-saytını açdı. Romançı kimi də, şair kimi də öz əsrinin övladı olmaq hər sənətkara nəsib olmur. Anar bu mənada unikal yazardır. Keçmişdə Sovet Birliyinin bir parçası olan Azərbaycanda o, bəzən ironik şəkildə, bəzən Kafka üslubunda bu cəmiyyətdə insanların yabançılaşmasını, tənhalığını təsvir edirdi. O illərdə yazılmış və Türkiyədə «Bir fürsət bulsam» adıyla nəşr olunmuş «Macal» romanında o insanı robota çevirən sovet həyat tərzini amansızcasına tənqid edirdi. Saytında son zamanlar yazdığı «Vahimə» hekayəsi də yerləşdirilib. Mən bu hekayəni Anar yaradıcılığının zirvəsi hesab edirəm.

İrfan Ülkü.
«Anar. Əsrin insanı olmaq» məqaləsindən.
«Yeni çağ» qəzeti, 17 oktyabr, 2003, İstanbul

Ağzında daima qəlyan tutan Anar heç kəsin dərk edə bilmədiyi fikirlərə qərq olmuş görkəmiylə Qafqaz Buddasını andırır. Türkiyədə «Sıra səlvilərdə bir otel odası» adıyla nəşr olunmuş «Otel otağı» romanı mənə çox böyük təsir etdi. Bədii əsər kimi də, ictimai həyatın faktı kimi də. «Otel otağı» L.Tolstoyun «İvan İliçin ölümü» əsəriylə müqayisə oluna biləcək bir ustalıqla yazılıb. Amma məsələ yalnız əsərin bədii məziyyətlərində deyil. O, Türkiyənin Azərbaycanla və başqa türk respublikalarıyla münasibətlərinin ən acı gerçəklərini işıqlandırmaq baxımından da çox önəmlidir.

İrfan Ülkü.
«Sıra selvilərdə otel odası» məqaləsindən.
«Orta Doğu» qəzeti, 28 dekabr, 2001, İstanbul

Azərbaycanın ən sevilən yazarı, Türkiyədə də ən çox oxunan Azəri romançı, türk dünyasına qayğısı və sevgisiylə tanınan Anarın son romanı «Ağ qoç, qara qoç»a gəlirsək bu əsər siyasi romanın bütün özlliklərini daşıyır. Anar bu romanıyla yalnız Azərbaycanın deyil, bütün türk dünyasının gələcəyinə işıq tutur, bizləri xəbərdar edir. Bu mənada «Ağ qoç, qara qoç» diqqətlə düşünərək oxunulmağı gərəkən bir çağdaş türk nağılıdır və millətin gələcəyinə uğurlu bir bələdçidir.

İrfan Ülkü.
«Orta Doğu» qəzetində «Ağ qoç, qara qoç»un dərc olunmağa başlanmasına təqdimat. İstanbul.
«Orta Doğu» qəzeti, 2 sentyabr, 2005

«Çağdaş Azərbaycan ədəbiyyatının ən önəmli təmsilçilərindən, dünya səviyyəsində şöhrətə sahib olan Anar sənətini siyasətə alət etmədən yaşadığı dönəmə, Azərbaycan türklüyünün 1960-dan sonrakı sosial həyatına ayna tutmuş usta bir yazıçıdır. Hekayə, roman, senaryo yazarı olaraq ölkəsində qalıcı bir çığır açmış, eyni zamanda bir çox dilə çevrilən əsərləriylə dünyada ölkəsinin sənət elçisi olmuşdur.

Fatma Ozkan,
professor, doktor

Çox yönlü bir sənətçi olaraq diqqəti çəkən Anar hekayə və povestdən romana, esse və məqalədən araşdırmalara, pyeslərdən ssenarilərə, hətta şeirə qədər ədəbiyyatın çox çeşidli növlərində əsər yaratmış və bunların hər birində uğurlarını isbat etmiş bir şəxsiyyətdir. Anarın kədərləri, həsrətləri, eşqləri, daxili hissləri, yalnızlığı və cəmiyyətlə barışmazlığı əsərlərində əks olunduğu üçün onlar ümum-bəşəridir.

Ədəbi həyatında daima özünü aşmaq, yeniləşmək cəhdlərində olduğunu gördüyümüz sənətçi ortaya qoyduğu əsərlər yalnız öz sənət həyatı üçün deyil, ümumən Azərbaycan ədəbiyyatı üçün də ilk və orijinal olmaq xüsusiyyətini qorumuşdur. Bir çox bö-

yük sənətçinin əsərlərində olduğu kimi Anarın əsərlərində də forma və janrlar arasındakı sərhədlər aradan qalxmaqdadır.

Ayşe Atay.
«Beş qatlı evin altıncı qatındakı adam: Anar. Həyatı, sənəti və hekayələri» kitabından. Ankara, «Bengu» nəşriyyatı, 2008

Anarın otağına yanaşırıq. Bizi gözləyir. Yerindən qalxır, mehriban valideyn gözləriylə bizə baxır. Çox diri və təcrübəli gözləri var. Dediyi sözlər qəlbimin içinə qədər işləyir, məni müstəqilliyi uğrunda illərlə mübarizə apardığım Azərbaycana daha da yaxınldaşdırır. O anlarda özüm özümə deyirəm: «Bax, Orxan, heç bir şey cavabsız qalmır. İllər boyu xarici məmləkətlərdə yabançı kimi yaşadın, amma indi Vətənin səni dəyərləndirir». Anar bəy Yazıçılar Birliyinin qırmızı kitabçasını mənə təqdim edərkən bu mənim bütün varlığımı alovlandırır.

Orxan Aras,
Almaniyada yaşayan yazar.
«Bakış» qəzeti

Bir yazar düşünün. İlk dəfə gəlir başqa bir ölkəyə. Getdiyi yerlərdə sormaq, öyrənmək istədiyi şeylərin başında öz ölkəsinə göstərilən maraq gəlməzmi? Öz ölkəsinin ədəbiyyatı nə ölçüdə bilinir, hansı əsərlər çevrilir, çevrilən əsərlər necə qarşılanır? Bir müddətdir ölkəmizdə qonaq olan gənc Azərbaycan yazıçısı Anar da belə etmiş. Dolaşdığı kitabçılarda, getdiyi yayın evlərində gözləri hər zaman ölkəsinin ədəbiyyatından bir örnək aramış. Amma boşuna. Təəccüblə görmüşdür ki, Amerikan ədəbiyyatından neçənci dərəcəli bir yazarın əsərləri var. Buna qarşılıq tək bir Azərbaycan əsəri yox. Üzülmüş. Söhbətə başlarkən öncə bu üzüntüsünün altını cızır.

Kamal Özərin Anarla müsahibəsi.
«Cümhuriyyət» qəzeti, 9 iyun, 1975-ci il. İstanbul

Modern Azəri ədəbiyyatının məhsullarından türk oxucusu o qədər də xəbərdar deyildir. Çevrilən kitabların sayısı üçü-beşi keçməz. Son olaraq Simavi yayınları arasında Anar Rəsuloğlunun «Ağ liman» adlı romanı nəşr edildi (1991).

Bu roman sovet cəmiyyətinin kolxoz ədəbiyyatından dişarı çıxmağa çalışan bir fərdin həmləsidir bəlkə, Ancaq romanın nəşr olunduğu il 1967-dir. O vaxtdan bəri körpulərin altından çox sular axdı. Bu günlərdə əsən fərdiyyəçi ruzgarlar Anarda olduğu kimi bütün sovet ədəbiyyatı və sənətində gözlənilən dəyişikliklərin mücdəçisi ola bilər. Anarın romanı bürokratik ictimai quruluşun yeknəsəkləşdirdiyi insan həyatındakı sıxıntılara bir ağ liman xəyalı ilə təsəlli verir. Bu ağ limanda lövbər salmış qıpqırmızı gəmilər Batının azad nəğmələr söylənən dənizlərinə doğru üzüb gedə biləcəkmi?

Mustafa Qutlu.
«Ağ liman», «Derçan» dərgisi. Oktyabr, 1991-ci il. İstanbul

Həyat bir tanrı yazısıdırmı, yoxsa bizim seçmək haqqımızı tanıyırmı? Özəlliklə çağımızda həyat tərzimizə təsir göstərən siyasi sistemlərin, bəlkə də sistemsizliyin arasında insanın vəziyyəti necədir? Azəri yazar Anar turkcəyə çevrilən ilk romanı «Ağ liman»da həyatın mənası, varlığın dəyəri, zəmanəmizin çıxmazları içindəki insandan bəhs edir. «Ağ liman»ın qəhrəmanı Nemət günümüzün ortaq qəhrəmanlarından biri. Nemət nəşriyyatda tərcüməçi kimi çalışmaqdadır. Nəşriyyatdakı mühit pozulmuş bir cəmiyyətin göstəricisidir. İşlər qaydasında gedir kimi görünsə də, çalışanlar bir-birindən xəbərçilik edir və bu mənəvi iflas ümümidir. Anar yaşadığı cəmiyyətə, mühitə özəl bir ittiham verməkdən daha çox müxtəlif cəmiyyətlərin hər cür sistemdə insanı azad davranışdan məhrum edən faciələri göstərməkdədir.

Adnan Özyalçınər.
«Yazılan pozulmazın» hekayəsi».
«Kitab» – «Cümhuriyyət» qəzetinin həftəlik ədəbi əlavəsi, avqust, 1991-ci il

Qonşu ölkələrin ədəbiyyatını heç tanımırıq. Ancaq bir ölkənin ədəbiyyatını tanımaq, o ölkənin insanlarını, həyat biçimini bilməkdir. Azərbaycan yazarlarından Anar bu kitabı ilə bizə Azərbaycan ziyalılarının dünyasını tanıtdırır. Ömrü boyunca üç dəfə əlifba, yeddi dəfə imla dəyişikliklərini yaşamış bir korrektorla birlikdə bu ölkənin tarixinə dalırıq. Bu romanda eşq də həmişə olduğu kimi önəmli və qaçılmazdır. Həyatın mənasını arayan bu insanları, folklor ünsürləri ilə süslənmiş dili sevəcəksiniz.

«Ak qadın» dərgisi, sentyabr-oktyabr, 1991-ci il

Çağdaş Azərbaycan romançılığının ən ünlü təmsilçisi olan Anar «Ağ liman»da günümüzün azəri cəmiyyətinə güclü və dərin bir baxışla yanaşır. Son dərəcə hərəkətli və kinematoqrafik olan təhkiyəsi daxili monoloqlarla, geri dönüşlərlə və modern bir roman quruluşu ilə zənginləşdirilmişdir. «Yağış kəsdi», «Molla Nəsrəddin» və «Beşmərtəbəli evin altıncı mərtəbəsi» kimi əsərlərin müəllifi olan Anarın pyesləri və ssenariləri var. Əsərləri çeşidli xarici dillərə çevrilmişdir.

«Güney» qəzeti, 10 avqust, 1992-ci il. İstanbul

Anar Rəsuloğlu Quzey Azərbaycanın gənc yazarlarindandır. Cəlbedici bir üsluba, dərin, qüvvətli anlatmaq qabiliyyətinə sahib olan Anar Rəsuloğlu əsərlərində milli fikri izləməkdə və bilxassə Stalin devrini acı bir dillə ifadə etməkdədir. Bu baxımdan «Ağ liman» da maraq doğura biləcək bir əsərdir. «O gecənin səhəri» hekayəsində də eyni ruhu və üslubu bulacaqsınız.

Əhməd Biçan Erçilasun.
«Türk ədəbiyyatı» dərgisi. 1982, №108

Çağdaş Azərbaycan ədəbiyyatının bütün dünyada tanıdılmasında böyük payı olan yazarlardan Anarın doğumunun 50-ci ildönümüdür. Anar gənc yaşlarından qələmə sarılmış, qısa zamanda da Azərbaycan ictimaiyyətinin diqqətini çəkmişdir. Anar qorqudşünasların Azərbaycandakı güclü bir davamı olaraq Azərbaycan mədəniyyətində bir abidə kimi yüksəlməkdə, Türkiyə və Azərbaycan arasındakı mədəniyyət körpüsünün təməllərini qorumaqdadır.

Yavuz Onk.
«Anar». «Tanıtım» dərgisi, № 42, 1988-ci il

Anar çox yönlü bır yazar olaraq diqqəti çəkir. Geniş bilikləri və dərin mədəniyyəti onun insan problemi üzərində işləməsini təmin etmişdi. Anar mövzularını və qəhrəmanlarını çağdaş Azərbaycan həyatından almasına baxmayaraq, bu hüdudlar içərisində qalmamış, millidən bəşəri olana qədər yüksələ bilmiş, həm çağdaş Azərbaycan insanını, həm də zəmanəmizi anlatmağı, canlandırmağı çoxtərəfli bir şəkildə ifadə etməyi bacarmışdır.

Əli Yavuz Akpinar.
«Yeni Türk İslam Ensiklopediyası».
Ankara, 1995-ci il

Anar modern Azərbaycan ədəbiyyatı içində önəmli bir mövqeyə sahibdir. Oxumağa həvəsli olan Azərbaycan toplumunda Anarın hər əsəri öz-özünə bir ədəbi hadisədir. Üslubu və təhkiyəsi çox cəlbedici və maraqlıdır. Anar axıcı üslubu, canlı xarakterləri və sağlam roman qurğusu ilə Modern Türk ədəbiyyatının güclü və işlək qələmlərindən biridir. Onun əsərlərində lirizm və dərinlik görünür. Modern Türk ədəbiyyatı Çingiz Aytmatov, Çingiz Dağçı, Anar və daha neçə romançının yazdıqları və yazacaqları əsərlərlə daha da zənginləşəcəkdir.

Professor, doktor Bilkə Erçilasun
«Azərbaycanda güclü bir səs:
Beş qatlı yapının altıncı qatı» məqaləsindən

Şimali Kipr Türk Respublikası

Anarın «Beşmərtəbəli evin altıncı mərtəbəsi» kimi oricinal ad daşıyan romanı sovet dövrü Bakısını tanımaq və bu günümüzlə müqayisə etmək baxımından diqqəti cəlb edən əsərdir. O dövrdə insanlar arasında münasibətlər, ictimai dəyərlər, insanların həyatı, baxışları, hadisələrə münasibəti əsərdə öz ifadəsini tapmışdır… Bu mənzərənin reallığına oxucu inanır, yaşadığı şəraiti əsərlərində çox real bir şəkildə əks etdirməyi bacaran Anar kimi bir yazıçının qələmindən çıxanlara kimsə şübhə etmir. Nümunə üçün «Otel otağı» adlı əsərinə də nəzər sala bilərik. Ankara-İstanbul arasında avtomobil yolundan başlayan bir səfərin bütün detallarının reallığa çox uyğun bir şəkildə anlatdığına şahid olacaqsınız. İstanbulu küçə-küçə öyrənmək üçün bir tədqiqat qaynağı olaraq yenə eyni əsərdən istifadə edə bilərsiniz. Bütün prospekt, küçə, dayanacaq, liman adları hamsı həqiqətdir.

KAFİYƏ YİNANC. «Beşmərtəbəli evin altıncı mərtəbəsindən 1965-ci il Bakısının sosial-mədəni görünüşü» məqaləsindən. Məqalə Şimali Kiprin «Turnalar» («Durnalar) dərgisində 2007-ci ilin aprel-iyun sayında dərc olunmuşdur. «Kredo» qəzeti, 22 dekabr, 2007

Rusiyada yazılanlar

Anar öz sənətdaşları arasında incə analitikdir. Onun yazısının sıx-sıx qrafik cizgilənməsi, demək olar ki, rəngli yaxmalara lüzum qoymasa da bununla belə sözün çalarlanması necə də intensivdir!.. Düşüncənin təmkinli sərrastlığı və utancaq bir bəsirət onun unikal usta olduğuna dəlalət edir… Onun ağrısı üstüörtülüdür. Qəlbinin dərinliklərinə basılmış, gizlədilmiş və işıqlı zəka tərəfindən az qala tamam pərdələnmiş olsa da, bu səbəbdən daha güclü, – gözlənilməz və dəhşətli sarsıntı törədir…

L.Anninski.
«Dairənin genişlənməsi».
«Literaturnaya qazeta», 16 may, 1984-cü il

…O, nağılçı olsa da mövcud reallıqdan uzaqlara uçmamağa çalışır. Öz «ərazi bütövlüyü»nü bərpa etmiş və «qabaqcıl ölkələr» sırasında öz yolunu tapmış Azərbaycan firavanlığını təsvir edərək Anar bu yolda alınmış qanlı yaraları nəinki unutmur, əksinə, xatırladır. İlk əvvəl bu Qarabağdır. Qarabağ problemini yalnız iki tərəfli yolla, yəni həm Ermənistandakı «ata-baba yurdlarına» qayıtmış azərbaycanlıların, həm də «Qarabağ ermənilərinin hüquqlarını» «eyni dərəcədə təmin etmək»lə çözmək olar. İndiki canlı klassikin sovet dövründə uşaqlıq, gənclik və cavanlıq çağlarında keçdiyi beynəlmiləlçilik məktəbi heç də hədər getməyib. O, gələcək, arzulanan harmoniya mənzərəsində Türkiyə tərəfindən tikilmiş möhtəşəm məscidlə yanaşı xristian qaqauzlar üçün kiçik kilsəni də, karaimlər üçün sinaqoqanı da, Buddapərəslərin – Tuvanın töhfəsi olan ehramı, yakut şaman ocağını da nəzərdə tutur.

Tarixçi Anara haqqı verilməlidir: Azərbaycan xalqına tutulan qanlı divanlar siyahısı sovet hakimiyyəti dövründəki represiyalarla məhdudlaşmayıb. Başqa mərdiməzarları da, orta əsr fanatiklərinədək, ehtiva edir. İstiqbalda canlanan həyat («bəxtəvərlik nəşəsi») mənzərəsinə də diqqət yetirək. Yeni Azərbaycan turistlər məkkəsinə çevrilib. Dağların saf havası, şəfalı bulaqlar, xizək sürənlər, ovçular, alpinistlər üçün açılan geniş meydan… Beşulduzlu otellər… başqaları üçün daha ucuz mehmanxanalar… Turistlər çaş-baş qalıb, bilmirlər, şirniyyat dükanına, ya suvenir köşkünə baş çəksinlər. Hər kəsin istəyincə ləziz nemətlər, yadıgar əşyalar, döymə işləri, xalçalar, ipək parçalar…

…Nağılçı qələmi ilə müharibəsiz, inqilabsız, vur-tutsuz, aclıqsız, nifrətə, xəyanətə yer olmayan bəxtəvər həyat mənzərələri sərgilənir…

Diqqət! İndi əsas əmma səslənəcək.

«…Amma qəribədir ki, bu əlvan bayram mənzərələri əhatəsində… birdən izaholunmaz bir kədər çulğayır adamı…»

Burada qəribə nə var ki? Bir yazıçı, hətta nağıl yaradan yazıçı əslində, elə onu nağıl yaratmağa vadar edən ağrıdan yaxa qurtara bilərmi? Və onun kədəri, yəni bunca izaholmazdırmı? Axı o səbəbdən məşhur yazıçı olmuşdur ki, beşmərtəbəli evin üstündə ömrü-boyu ünyetməz, əlçatmaz «altıncı mərtəbə»ni axtarmışdı. Və təməl səbəbləri axtararkən qan sızan yaraları görmüşdü. Adların magiyasına inanan rus oxucuları qoy məşhur ədəbi ada çevrilmiş pasport ismini «Anar»… sağdan sola oxusunlar.[1]

Bu, yeni həyat haqqında düşüncələrdən yaralı bir qəlbin nə kasıb-küsübü, nə səfil, nə də ümumən zavallı olmayan, suvenirlər və şirniyyatlar doldurulan «turist Məkkə»sinin nağılvari mənzərəsində toxdaqlıq tapmağa can atmasıdır…

«…Zavallılar yoxdursa, hamı xoşbəxtdirmi?.. Solaxay sualın cavabı da müəmmalıdır:

– Xalqın başına bəla gələndə (tutaq ki, şeytan əməllərinə qoşulan bolşeviklərin hakimiyyəti kimi), hamı bədbəxt olur, amma xalq şeytanları qovub firavanlığa yetəndə insanların xoşbəxt olub-olmamasından baş açа bilmirsən. Bu yazı-pozu dəryasında sarsıdıcı etirafa, göz qamaşdıran düşüncə nuru ilə qəlbini riqqətə gətirən bir əsərə rast gəlmirsən. Bəlkə bu tox güzəranın əcr haqqıdır?

Belə düşüncə kəşfindən diksinmiş kimi, Anar aşağıdakı kimi özünüsəciyyələndirmə ilə qorunur: «Kimsə… çoxdan unudulmuş Anar adlı bir yazıçını xatırladı. Həmin Anar ki, qocaların söylədiklərinə görə o vaxtlar Yazıçılar Birliyinə başçılıq etmiş, sonra da ömrünün axırına qədər Suraxanı–Əzizbəyov marşurut avtobusunda konduktor işləmişdir…»

Bax, bu «həmin Anar»la mən qətiyyən razılaşmaram, çünki bu özünüsəciyyələndirmə intonasiyasında məzələnmə çalarları sezirəm, çünki bu məzələnmə arxasında ağrı duyuram, ən başlıcası ona görə ki, Anarın artıq çiçəklənən müstəqil Azərbaycan dövründə yazdığı kitablarda da heç bir kütləvi bəxtəvərlik çağında belə, sən demə sovuşmayan, eyni nigarançılıqla aşılanmış mətləblərə rast gəlirsən.

…Qarşıdakıları düşünərək dərindən köks ötürən Anar nağılını yeni minvalla davam edir və bu məqsədlə ağ qoçdan qara qoçun belinə atılır.

«Ağ qoç, qara qoç» povestində utopiya (ağ zona) və antiutopiyaya (qara zona) təsvir olunur.

Qara zona (daha doğrusu, üç qlobal inkişaf ssenarisi sayına görə üç qara zona) ağ zonadan ayrılmış və öz içində də keçilməz sınırlar, uca hasarlar nəzarət-buraxılış məntəqələriylə çəpərlənmiş, hər zona üzərində də öz bayrağı dalğalanır: islam zonası üzərində yaşıl, kommunist zonası üzərində – qırmızı, «amerikan» zonası üzərində – mavi (ulduzlu-zolaqlı, naxışlarından vaz keçərək, Anar Qərb obrazını «bircinslilik» rəngi ilə nişanlayır).

…Yaşıl zonada da, elə bil qan iyi gəlmir. Amma burada hava çatışmır. Ölkəni boğan üç zonadan bu variant, yəqin, ən qorxulusudur.Bəlkə ən müəmmalı olduğuna görə. Bura qəliz şəkildə, yəni tanış təbliqat işarətləri, olmadan cizgilənmiş, bu səbəbdən də sədalövh bəndələr üçün daha təhlükəlidir.Yəqin bu zonada «genetika və dinamika»nı,

[1] *«Anar» tərsinə oxunanda rusja «yara» mənasını daşıyan «rana» sözünə çevrilir (red.).*

qütblərarası gərginliyi (sünnilər–şiələr, İran–Turan) anlamağa kömək edən struktur sədlər, daxili sinirlər var, lakin Anar bu strukturların dərinliklərinə, varmır; o, bədii yolla bütün bu zonanı bircə qüdrətli, tutarlı detalla möhürləyir, daha doğrusu, sanki kəməndlə boğazlayır: sərnişin şələ-küləsini ələk-vələk eləyən gömrükxanacı... Onun çantasından qalstuk çıxarır, bir qalstuk da qəhrəmanın boynudandır və «deklarasiya»ya yazılıb:

– Sənə bir şeytan xaltası bəs deyil?

Bu sualdan mən özüm də boynumda yaxalığmı boşaltmaq istədim... bədii effekt budur!

Anarin nəsrində bədii effekt geopolitik mənzərənin yekunu sayəsində deyil, qəribə tərzdə, ona rəğmən yaranır. Ağıl çərçivəsinə sığmayan bir istedad möcüzəsi kimi. Yazıçının intellektual saxlancında tarixi biliklər, emblematik nişanlar, yadigar işarətlər çoxaldıqca, oxucunun boynunda çıxılmazlıq düyünü daha da sıxılır: zamandan yaxa qurtarmaq, dəhşətdən qurtulmaq, hamıya sirayət etmiş fatal qanmazlığı aradan götürmək mümkün deyil.

...Bir çərək əsr bundan əvvəl Anar (onda hələ ümutiffifaq miqyasda tanınmış sovet yazıçısı) xalçaçılıq sənətinə himn bəstələmişdi – «Xalçanın midrikliyi»ni yazmışdı və belə bir epizod söyləmişdi:

Azərbaycanlı mahir xalçaçı qadın heyrətamiz dərəcədə gözəl bir xalça toxuyur, bu əsəri Monreala, ümumdünya sərgisinə göndərirlər, toxucuya isə dəqiq surətini sifariş edirlər. Nə olsa yaxşıdır? Usta qadın imtina edir: təkrar mümkün deyil. Sap hər necə olsa öz bildiyi kimi «yeriyəcək». Hətta usta var gücüylə nəzərdə tutulan naxışı güdməyə çalışsa da. Bax, elə budur yaradıcılığın möcüzəsi! Sap canlıdır!

Azadlıq yalnız «xalta» hüdudlarında gerçəkləşdiriləndə məna daşıyır, xaltasız isə ümumiyyətlə hər şey – sistem də, onun inkarı da dağılır. İlbəil zəruriliklə cizgilənmiş zonalarda təcrübə toplansa da, istedad sapı özü bildiyi kimi uzanır və insan qəlbini ictimai labirintdən çəkib çıxarır – hər dəfə də gözlənilməz halda.

Həqiqi yazıçıda bu vergi məhvedilməzdir və yazıçıya qismət olan ömür boyu öz işini görür.

P.S. Bu il Anar öz yetmişilliyini qeyd edir. «DN» redaksiyası yubilyarı ürəkdən təbrik edir və möhkəm əminliyini bildirir ki, o, bu yaş həddini aşıb uzaqlara, Azərbaycan və dünya ədəbiyyatı naminə, üz tutacaqdır.

Lev Anninski.
«Drujba narodov», №3, 2008

1970-ci ildə «Ağ liman» povesti (ruscaya tərcümədə «Kruq») ümumittifaq oxucu auditoriyasında gözlənilmədən güclü əks-səda doğurdu. O vaxtdan bəri Anarın adı sovet ədəbiyyatı xəritəsində cizgilənmiş yeni istiqamətlə ilgilənir. İlk povestlərinin biri, «Danteni yubileyi»ndə (gözəl, sərrast yazılmış) Anar «alçaldılmış və təhqir olunmuş»[1]

[1] *Dostoyevskinin eyni adlı əsərindən gələn ifadədir (red.).*

«balaca adamın» – hər yetənin sıxışdırdığı biçarə artist fiqurunu təsvir edir. Bu vəziyyətin rus baxımından bütün mümkün qavrama variantlarını xəyalən yaddaşımda canlandırıram: məhv edilmiş istedad, qiymətləndirilməmiş şəxsiyyət, haqsız gözümçıxdıya salınan sənətkar… Anarda başqa vəziyyətdir. Feyzulla Kəbirlinski açıq-aşkar istedadsızdır. Odur ki, burada ona qarşı ədalətsizlik yoxdur və buna görə üsyan və çırpıntı da yoxdur. Ancaq anlamaq dərdi var. Müdriklik acısı var. Mövcud vəziyyətin labudlüyünün etirafı var.

Anarın son povestlərindən biri «Əlaqə»dır. Qəribə, məncə tam alınmamış, lakin Anar düşüncəsinin inkişafı baxımından maraqlı əsərdir… Anarın davamlı süjeti – dairədən kənara çıxmaq cəhdlərinin puç olmasıdır. Bircə gecə vaxtı Təhminəni telefon zəngi ilə oyatmağa cürəti çatan Nemətin gülünc cəhdi kimi. Yeri gəlmişkən, Anarın telefon kimi bir detala bağlılığı, yəqin, izahat tələb edir. Eyni detalın məsələn, Qrant Matevosyanda necə boyalanması ilə müqayisə edək. «Hak»dan ruhun hər hansı üzülüşməsini faciəvi sayan Matevosyan üçün telefon – absurd, süni ünsiyyət, saxta əvəz rəmzidir. «Ruh və hak» münaqişəsinə deyil, sosial-psixoloci təmaslara, insan bağlantıları, ilmələrinə üz tutan Anar üçün telefon bu əlaqələrin rəmzi ünsiyyət kanalı, ümid nişanıdır… «Macal»ın qəhrəmanı Fuad, barışaraq, təslim olaraq, ümumi qaçhaqaça qoşulacaq və ayılmağa, ətrafa baxmağa, «öz-özüylə görüşməyə» bir saniyə də vaxt qoymayacaq. Fərdin «dairə» konformluğuna qarşı qıyamı yatızdırılacaq. Amma kənardan yox, içəridən, fərdin özünün ayıq düşüncəsi sayəsində, – dairədən, «zəncir»dən, ənənəvi təmasdan kənarda o… yolunu azacaq. Anar da bilir ki, hətta onun ən güclü qəhrəmanı, ümidlərinin təmiz, qələminin ən yaxşı bəhrəsi Təhminə də dairədən çıxa bilməyəcək. Axı o niyə belə dərrakəlidir? Ona görə ki, öz üsyanının hədər olduğunu anlaya bilsin. Ayıq bilik, acı bilik, «sonrakı ağıl» – Azərbaycanın «yeni nəsri»nin mühüm cəhətidir. Və onun əsas analitiki Anarın önəmli cəhətidir. Mənim də Anarın incə və insanpərvər nəsri ilə kontaktımın harada qırılmasını oxucu hiss edir. Anar üçün adiliyin bir dairəsindən çıxmaq o biri adilik dairəsinə qatılmaq risqidir. «Beşmərtəbəli evin altıncı mərtəbəsi» altdakı beş qatın səpgisində olan daha biridir. Dairədirmi? Ürəyimdən bir dəlibaşsayağı qıy vurmaq, fit çalmaq, harada olduğunu unudanlara xox gəlmək keçir… susuram. Bu məndə imrulsiv haldır. Ağılla hər şeyi anlayıram. Ürəyimlə də. Çünki Anar həqiqəti sarsıdıcı kəskinliklə çatdırır. Onun ləngərli nəsrində elə bir «not» var ki, təsvir-təhkiyə cizgiləri, fonu arasından birdən sanki elektrik cərəyanı kimi vurur, radiasiya saçılır. Artıq tərk edilmiş Təhminə gecənin tənhalığında musiqiyə qulaq asır, sonra isə Zaurun telefon nömrəsini yığıb səssizcə dəstəyi maqnitofona yaxınlaşdırır, Zaur isə xəttin o başında, hər şeyi anlayıb səssiz qulaq asır. Lal vidalaşma… onun yolu həyata doğrudur: barışmaq, evlənmək, sanballaşmaq. Təhminənin yolu – ölümədir. Bu səhnədə nəsə bir vəcd ovqatı var: şərab, musiqi… Telefon olmasa, deyərsən, cənnətdəki huri-mələkdir. Yaxud həyat bu telefon məftiliylə axıb gedib, bircə dekoru qalıb. Məhz bu acizanə, ornamental, «oriyental» final səhnə axarından Anardan mənə bir ağrı cərəyanı keçir. Onun ağrısı üstüörtülüdür, qəlbinin dərinliklərinə basılıb gizlədilmiş və işıqlı zəka tərəfindən az qala sözlərlə pərdələnmişdir, ona görə daha güclü, gözlənilməz və dəhşətli çalır. Biz necə

də fərqli, hədsiz dərəcədə fərqliyik: romantik və praqmatiklər, xəyalpərəst və qurucular, üsyançılar və külüng çalanlarıq.

Ağrıdır bizi doğmalaşdıran.

Lev Anninski.
«Локти и крылья» («Dirsəklər və qanadlar»).
Moskva, «Sovetski pisatel», 1989

Sovet İttifaqı qeyb olmasaydı, mən deyərdim ki, Anar özünü təkrarlayır. Vaxtilə Edqar Po dünyasından birbaşa «Beşmərtəbəli evin altıncı mərtəbəsi»nə köçən müəmmalı möcüzələr, məşhul müsafirlər və şairə kabuslar 80-ci illərin ortalarında məşhur bakılının əsərlərində möhkəm məskunlaşmışdılar. Onu əvvəlkitək müntəzəm oxusaydım, sovet dövrünün sonlarında yazılmış, «Əlaqə» ilə müstəqilliyyin ilkin çağlarındakı «Vahimə» arasında fərqi duymazdım: eyni «dumanlı nigarançılıq hissi», «əvvəldən məchul qalanların» eyni əndişəsi, səbəbi məlum olmayan və ona görə də tükürpəşdirən «irreal təhlükələr»... Otuz il əvvəl gənc Anara Molla Nəsrəddin xələfi şöhrətini qazandırmış sarkazm axarında da gözlənilməzlik hiss etməzdim, – «İlin fəsilləri»ndə də eyni təpər, eyni nişangah, bəlkə bircə satira hədəfi – yoldaş Stalinin kultu illərində onu vəsf edən, «yumşaq hava» illərində həmin yoldaşı tapdayan, durğunluq illərində «Azərbaycan geniş addımlarla irəliləyir» deyə təkrarlayan buqələmun – 1992-ci ildə növbəti dəfə başqalaşmışdır: «kommunizmi» tapdayıb and içir ki, «anadangəlmə türkcü» olmuşdur… Bu ədəbi «qəhrəman» kim bilir daha hansı hoqqalar çıxaracaq, – Anar öz üslubuna sadiqdir.

Buna görə bu gün də iyirmi iki il əvvəl Anarın yazdığı «sənədli hekayə» sarsıdıcı təsir göstərir və fəlsəfani vəhy kimi oxunur.

Gün kimi aydın «Gecəyarısı əhvalat» məhkəmə prosesi haqqında sənədli hesabat adlansa da, əslində cinayət işi əsasında gözəl yazılmış filosofema, varlığın dibindən qaynaqlanan dəhşəti dərk etmək cəhdidir. İki cavan heyvərə tanımadıqları bir adamı öldürməyə şərtləşirlər (o da müharibə əlili, on bir uşağın atası çıxır), nə var, nə var, maşınını satmaq istəyirlər.

Haçan? Necə? Hansı səbəbdən? – Anar göynəyir. – Nədən «pul hökmranlığı haqqında zəhərli ideya» bəzi cavanların şüuruna hakim olmuşdur? Axı onlar mühəribələrdən amansızlaşa bilməzdilər, qismətlərinə ictimai-siyasi çaxnaşmalar düşməmiş, həyatda çox da çətinliklər görməmişdilər. Bəs nədir səbəb?..»

1974-cü ildə belə yazır Anar. Ardınca da: «Bizdə belə dünyagörüşü üçün nə fəlsəfi, nə psixoloji, nə də ictimai zəmin var…»

Köhnə hekayədən belə müfəssəl sitatları onların necə köhnəldiyini göstərmək üçün deyil, əksinə, bugün onların 1974-cü ildəkindən fərqli səsləndiyi üçün gətirirəm. O zaman elə görünə bilərdi ki, Anar ortodoksal mülahizələri senzuranı sakitləşdirmək üçün deyirmiş. Bugün çoxdankı mətni təkrar nəşr edərək, o, bütün bunları qaralayıb çıxara bilərdi.

Həmin mülahizələri qaralamayıbsa – bu, belə qaralamaları prinsipcə əskiklik sayan yazıçının yalnız mərd hərəkətləri deyil, həm də onun uzaqgörənliyinə dəlalət edir. Çünki bu mülahizələr bu gün heç də diqqəti yayındıran ya sakitləşdirici fənd kimi deyil, gözlənilməz maraqla qarşılanır.

O zaman bu mülahizələr hamıya məlum, trivial, dekorativ, real məna daşımayan şeylər kimi idi.

İndi isə, sistem dağıldıqca, – onlarda itirilmiş reallıq nəzərə çarpır.

Lev Anninski.
«Görüşün şərhi», «Drujba narodov» jurnalı, №12, 1996

Anarin «Çevrə» povesti iki nəzər nöqtəsindən

Povestin adı simvolik və çoxmənalıdır. Bu əsər, sosioloji dillə desək, şəxsiyyət və sosial nəzarət haqqındadır. Anarın povestinin bədii cəhətlərindən danışmayacam. Bir oxucu kimi əsər məni tamamilə qane edir. Problemin yaxşı qoyuluşu onun həllinin yarısıdır. Yazıçı tərəfindən problem yaxşı qoyulmuşdur. Özü də Azərbaycan materialı əsasında. Sosioloqun nəzərinə çarpır ki, əsər qəhrəmanlarının – böyük şəhər insanlarının münasibətləri şəhər üçün çox da səciyyəli deyil. Və onların ünsiyyət dairəsinin darısqallığı, qonşuluğun çox böyük rolu, böyüklərə xüsusi hörmət-izzət və bu kimi həyat tərzinin bir çox başqa cəhətləri – bütün bunlar tipik kənd cəmiyyətinin əlamətləridir. Bu ənənəvi cəhətlərin xüsusən yaşarılı olduğu Şərqin də təsiri aydın duyulur. Lakin həmin xüsusiyyətlər heç də qabardılmırlar.

Viktor Perevedentsev.
«Çevrə»nin çoxmənalılığı»

Qəribədir ki, sosioloq povestdə onun qəhrəmanının nəsil şəcərəsini tapmamışdır. Hərçənd, bu qəribəlikdən daha çox ardıcıllıqdır: axı sosioloqa görə povestdə mətnaltı qat çatışmır! Məncə, əksinə, qəhrəmanın məhz nəsil şəcərəsi aydındır, ona görə də Anarın povestində mətnaltı qat da yetərincədir… Mətnaltı qat, yəni nəzərdə tutulan və üstüörtülü qat, povestin qəhrəmanı Nemət Namazovun əslində kimliyini büruzə verir… Anarın povesti «birdən düşünməyə» (ya «anlamağa») başlayan və öyrəşmədikləri bu əhvalın yükünü çəkən insanların müfəssəl təsvirilə xüsusən maraqlıdır… Beləliklə, V.Perevedentsevin povestə verdiyi qiymətlə razılaşaraq, onun rəyilə, yəni zahiri, üstə görünənlərin daxildə, dərində, başlıca olanları aydın cizgiləməməsi haqqında mülahizələri ilə razılaşa bilmərəm.

Dmitri Urnov.
«...Yaxud inersiya üzrə çoxmənalıq»

Rezüme əvəzinə (redaksiyadan)

Beləliklə, iki nəzər nöqtəsindən – sosioloqun və tənqidçinin baxımında «Çevrə» povestinin incələnməsi bizə nə verdi? Müəllif bir növ qapalı dairədə yaşayan insanları parlaq işıqda göstərə bilmişdir. V.Perevedentsev dediyi kimi, povestdə «şəxsiyyət və sosial nəzarət» problemi qoyulmuşdur. Lakin bu problem yalnız qoyulmuş, onun həlli azca, həm də qəliz cizgilənir. Əsərin güclü cəhətlərinə aludə olan V.Perevedentsev onun zəif cəhətlərini nəzərdən qaçırmış, halbuki sonuncularla povestin tənqidçi D.Urnovun qeyd etdiyi başqa nöqsanları da bağlıdır.

«Literaturnaya qazeta», 4 avqust, 1971

Azərbaycan yazıçısı Anarın vaxtilə çox fərqli rəylər doğurmuş «Çevrə» povesti, yəqin ki, oxucunun yadındadır. Dünyanı, insanı şablon formullarla dərk etməyə və müstəqil düşüncəni onlarla əvəz etməyə meyl müasir varlığa həssaslıqla yanaşan yazıçı Anar üçün elmi-texniki inqilab əsrinin xatalı ifrazı, yalnız «Çevrə» də deyil, daha sonrakı «Əlaqə» povestində də rast gəldiyimiz problemdir. Hadisələri bir növ «Çevrə»nin xəttini davam edən «Beşmərtəbəli evin altıncı mərtəbəsi» adlı yeni romanında da, köhnəlik-yeniliyin mürəkkəb dialektikasında Anar insaniyyət sınağından çıxa biləcək, bu keyfiyyəti açıq, tam və azad oluşdura biləcək məqamları incələməyə çalışır.

Həssas psixoloq olaraq, Anar bizi ərli qadına vurulan və sevgi ilə də qarşılanan iyirmi dörd yaşlı qəhrəmanının yaşantıları, şübhələri və üzüntülərinin aləminə aparır. Lakin yazıçı sadəcə bir məhəbbət əhvalatını, Leyli-Məcnun sevgi mövzusunun daha bir variasiyasını deyil, sosial-psixoloji roman yaradır… Daima şaiyələr, qiybət, bayağı insanların dedi-qodusunun hədəfinə çevrilən, lakin öz simasında müəllifin baxımından daxili sərbəstliyi və mənəvi dərinliyi qovuşduran Təhminə həlak olur.

Beləliklə, bais mühitdir. Amma tək mühit yox, – bununla məhdudlaşmaq Anar üçün stereotipə uymaq olardı. Romanda qısqanclıq yalnız sevgi yaşantılarının bir təzahürü deyil, yazıçı onu sosial-psixologiyanın hadisəsi kimi tənqid edir. Bu başqasının uğurlarına, xidməti və ictimai mövqeinə, əlaqələrinə qısqanclıqdır.

Paxıllıq yox, məhz qısqanclıq.

Y.Şklovski.
«Dairədən dışarıda»,
«Literaturnaya qazeta», 16 yanvar, 1980

Mənə elə gəlir ki, Anarın «Əlaqə» povesti yalnız dışplanetlilər problemi ilə bağlı deyil, bəlkə də bu bağlılıqdan ən az asılı olan mülahizə və suallara təhrik edir… «Əlaqə»nin mövzusu – bəşər ünsiyyətinin illüziyalılığı ya gerçəkliyi (təbii ki, onun «yer kürəsi variantında») özü-özlüyündə müəllifin hələ «Çevrə» povestindən düşündürür və müasir «Şəhər nəsrində», Anarın nəsri daxil olmaqla, gərgin bədii axtarışlar meydanı yaradır. Lakin, zənnimizcə, Anar bu zonaya öz sonuncu əsərini qatmağa nail olmamış-

dır. Bədii şərtilik qanunları üzrə bacarıqla inşa edilmiş povest bu baxımdan ədəbiyyatın bəzi təmayüllərini, laborator təcrübəsini əks etdirir. Lakin belə hallarda da, fikrimcə, oxucu ilə bu dəfə müəllif müvəffəq olduğundan daha dolğun təmas yaratmaq üçün çalışmağa dəyərdi.

Vadim Kovski.
«Əlaqə axtarışlarında…»
«Literaturnaya qazeta», 14 fevral, 1979

İş belə gətirdi ki, Anarın povesti haqqında V.Kovskinin məqaləsini mən povestin özündən əvvəl oxudum… V.Kovskinin sərbəst, təmkinli, xeyirxah tonla yazılmış məqaləsi Anarın mətninə üz tutmayınca tamamilə inandırıcı görünür. Sözün qısası, povestdə heç bir kosmik kontaktlardan söhbət getmir, – bəs onda nədən? Araşdırmağa çalışaq… Mətnin təhlili göstərir ki, yazıçı heç də tənqidçinin ona aid etdiyi məqsədləri izləmir. Yazıçı paradoksal, açıq-aydın şərti formada tamamilə real – insan və dünya, insan və kainat əlaqəsinin dolğunluq problemini qoyur ki, bu dolğunluğu yalançı elm mifləri ilə yüklənmiş şüur məhdudluğu əngəlləşdirir. Və bu fikrini çatdırmaq üçün yazıçı tamamilə yetkin, mütənasib fantastik povest formasını yaratmışdır.

Alla Latınina.
«Fikir üçün forma» «Literaturnaya qazeta» №7, 1979

Povest «Əlaqə» adlandırılmış və bu kəlmədən gələn, mətndə təsadüf edilən sözlər – əlaqəsizlik, yerdənkənar sivilizasiyalarla əlaqələr – müəllif tərəfindən vurğulanır. Tələbə ətrafdakılara ünsiyyət tapmırdı, insanlara yovuşmurdu, onlarla çətinliklə dil tapırdı, qeyri-kommunikabel idi… Və burada Anarın elmi fantastikadan ictimai duruma, hədsiz ibrətinə saldığı körpü görünür – insan özgələşməsi bax, belə sonuclana bilər, həqiqi əlaqələrin pozulması, xaos, çaşqınlıqla; şəxsiyyətin təcridləşməsi onun suqutuna sürükləyir. Şəxsiyyətin təhlükəli özgələşməsi tələbənin tək bəlası deyil, həm də günahıdır… Və bu «Əlaqə»nin finalında xüsusən özünü göstərir. Oxucu anlayır ki, nəticə tamamilə başqa cür olmalıdır və onun tələbə ilə razılaşmaması məhz istənilən bədii effektdir.

A.Boçarov.
«Bədii həqiqətin çətin yolları. Yarğan yerində»
«Oktyabr» jurnalı, №9, 1979

Gülmək istəyirsinizmi? Şən adamla tanış olmaq istəyirsinizmi? Bakılı yazıçı Anarın «Molla Nəsrəddin – 66» hekayətlərini oxuyun.

Mən Anarı heyif ki, az tanıyırdım və heç də yumoristik bir yazıçı kimi yox. Məsələn, gözəl lirik hekayə – «Mən, sən, o və telefon» – sonralar kinematoqraf tərəfindən amansızcasına korlanmış hekayə – ona mənsubdur. Bu səbəbdən də onun şən hekayələri mənim üçün həqiqətən xoşbəxt bir kəşfdir.

Anarın hekayələrində məzəli ciddiyyət yaxud, ciddi məzəlilik var. Yazıçının bəhs etdiyi mətləblər doğrudan da çox vacib və ciddidir. Amma onlar haqqında o məzə tərzində danışır, çünki gülüş və satiranın, yumor və zarafatın da islah olduğuna əmindir. Və haqlıdır.

Anar – ağıllı, maraqlı müsahib, hekayətçidir. Hiss olunur ki, o, çox bilir, çox şeyləri görüb, çox şeylər barədə düşünür. O, öz xalqını, öz torpağını, öz tarixini sevir. Zəhməti, zəhmət adamlarını sevir. Həyatımızda yumor hava kimi lazımdır. Mən çox şadam ki, bir zarafatçıl və istedadlı insanla tanış oldum.

Nikita Boqoslovski.
«Zarafatla ciddi mətləblər haqqında»,
«Literaturnaya qazeta», 19 dekabr, 1970

Bugünkü kukla teatrı mövzuca önəmli, teatrın ifadə imkanlarını nəzərə almaqla yanaşı müasir bir pyes arzulamaqdadır. İstedadlı Azərbaycan yazıçısı Anarın bu səpkili dramaturgiyaya müraciət etməsi təbii maraq doğurur. Onun yeni «Qaravəlli» komediyası Abdulla Şaiq adına Kukla teatrı üçün yazılmışdır. Satirik formadan bacarıqla, istedadla faydalanaraq, Anar təsvir edilən əhvalatların komizmini qabardır: hazırcavab deyişmələr, vaqiatda məharətlə açıqlanan komediya qəhrəmanlarının çoxsaylı xarakterləri özü-özlüyündə bir süjet cizgiləyir. Öz pyesi üçün Anar qədim Azərbaycan el tamaşası növünü – qaravəlli formasını seçmişdir… Anar dramaturgiyasının obrazlı təbiəti T.Məhərrəmovanın rejissura-sında bədii hədəfin anlaşılmasına əsaslanan üzvi təcəssümünü tapmışdır.

Leonid Xayt.
«Zamanı tanımaq üçün».
«Teatr» jurnalı, №6, 1977

Anarın qəhrəmanları həyatın ön səhifəsində deyil, haradasa aralıqda, səhnənin ucqarlığında yerləşir, səhnə arxasından boylanırlar. Onlar özləri də ətrafdakılar da yerlərinin necə görgüsüz olduğunu anlayırlar. Onların qarşısında alabəzək, səsli-küylü həyat keçsə də axarının yalnız qiraqları onlara toxunur. Və bu toxunmalar heç də həmişə sevincli, işıqlı olmur, daha çox ağrı gətirir…

Cavan yazıçı bu insan talelərində nə axtarır-arayır? Yalnız «Balaca adam»ları qorumağın nəcib pafosudurmu onun qəlbinə hakim olan? Bəli, qorumaq da var, amma bu kiməsə yazığı gəlməkdən doğan iltifat, alicənablıq deyil, – Anarın qəhrəmanları özləri o qədər ləyaqət, xeyirxahlıq göstərirlər ki, bəxti gətirmişlər də onlara qibtə edə bilərlər. Yazıçı öz qəhrəmanlarına iltifat göstərən kimi yanaşmır, onların vəziyyətinə bəraət qazandıra biləcək üstünlüklər axtarmır ki, çəkdikləri məhrumiyyətləri, üzüntüləri «tarazlaşdıra» bilsin. Yazıçı onlara tam hörmətlə yanaşır və bu hörmət ciddidir.

Anar Feyzullanı (*«Dantenin yubileyi»nin qəhrəmanını* – ***red.***) nə müdafiə, nə də ittiham edir. O, xarakteri müxtəlif müstəvilərdə incələyir və eyni zamanda bu insana onunla qarşılaşan adamların fərqli baxışlarını açıqlayır. Xarakter, beləliklə, həm tutarlı, həm dolğun alınır.

Həm tənqidçi, həm də nasir kimi Anar özünün geniş mənəvi və bədii baxışa malik sənətkar kimi göstərir. Öz tələbatının səviyyəsində durmaq məsul vəzifədir. Bu, həm də tələbatın özünün bədii təcəssümü tapdığı minvalla zənginləşməsi deməkdir. Bu mənada Anar ciddi etimad doğurur. Və bunun rəhni dayazlıqda olmayan, ciddi məsələlərə, yaşantılara üz tutmasıdır.

İ.Borisova.
«Ciddi haqq-hesabla».
«Drujba narodov» jurnalı, №8, 1970

Anarın fərqli janrlarda yazılmış əsərlərindən tərtib olunmuş yeni kitabı nəinki yazıcı haqqında təsəvvürümüzü ğenişləndirir, həm də yaradıcılığının hansısa cəhətlərinə bir növ güzgü tutur. Artıq oxuculara məlum olan «Dantenin yubileyi» və «Çevrə» hekayə və povestindən başqa, topluya satirik yazıçı Cəlil Məmmədquluzadə haqqında oçerk, «Molla Nəsrəddin – 66» hekayələr silsiləsi daxil edilmişdir.

Və qəribədir ki, artıq məlum olan köhnə əsərlər təzələlərilə yanaşi oxunanda əvvəlkindən fərqli təəssürat doğurur. Bir-birilə yanaşı yer tutan taniş povestlər isə birdən daxilən uzlaşır, sanki yeni bir rakurs yaranır və qəhrəmanları bütün mürəkkəb tale dolanbaclarıyla başqa cürə görürsən. Həyat haqqında düşünən yazıçının vətəndaş mövqeyini də daha aydın izləyirsən.

«Bəxti gətirməyənləri», faciəviləri onların, belə deyək, məişət variantında araşdırmağa meylli Anarı Məmmədquluzadə taleyinə cəlb etməliydi. Bir insan kimi Anar onun mərdliyi, mətanəti, heyrətamiz istedad və paklığına valehdi. Professional baxımdan onun yazıçı taleinin daxili mürəkkəbliyi və saysız dolanbacları, «anlamaq dərdini»n yükünü necə inadkarlıqla, fədailiklə daşıması düşündürür.

Son iki-üç il ərzində tənqidçilər Anarın nəsrini tez-tez yada salırlar. Xüsusən «Çevrə» və «Dantenin yubileyi» povestlərinə görə yazıçının danılmaz istedadı qeyd edilərək, məncə, haqlı olaraq nəsr əsərlərinin kəm cəhətləri haqqında da – bir qədər üslub qəlizliyi, gəlişi gözəl deyimlər, ritorikaya gətirib çıxaran yazılış tələsikliyi və s. haqqında deyilirdi. Bütün bunlar hələ aradan götürülməlidir…

Kitab isə yazıçının mənəvi konsepsiyasının, «adi» insanın güzəranına nüfuz etmək, bu aləmin mürəkkəbliyini, qəhrəmanın tükənməmiş əxlaqi potensialını, başqa cürə – daha önəmli, parlaq, ləyaqətli ömür sürməyə səmimi şəkildə, bəzən də dərk edilmədən can atmasını duymaq əzmini izləməyə imkan verməsinə görə əlamətdardır.

Q.Petrova.
«Novıy mir» jurnalı, №1, 1974

Ötən ilin axırlarında «Molodaya qvardiya» nəşriyyatı Azərbaycan nasiri Anarın ilk dəfə rus dilində «Dantenin yubileyi» adlı toplusunu buraxmış, az sonra «Literaturnı Azərbaycan» «Molla Nəsrəddin – 66» novella silsiləsini çap edir, bu ildə «Drujba narodov» öz səhifələrində Anarın «Çevrə» povestinə yer verir. Beləliklə, əvvəl Anarla bircə yaxşı «Mən, sən, o və telefon» novellası vasitəsilə tanış olan rus oxucusu indi yazıçının yaradıcılığı haqqında yetərincə geniş təsəvvürə malikdir. Anarın zahirən, bəsitsayağı, sadə görünən nəsri-məhz bu sadəliyin təmtəraqdan, ifrat ornamentalizmdən uzaq olması, bayağı, bir qədər qıcıqlandırıcı – təsvir üsulundan çəkinməsi sayəsində daxilən çox polemikdir. Bu polemiklik qəhrəmanın – adi, siravi, «bəxti gətirməmiş» bir adamın seçilməsində də özünü göstərir. Belə qəhrəmana maraq ümumən sənətin, ədəbiyyatın, o cümlədən Azərbaycan ədəbiyyatının axtarış yönümünə daxildir, – bu gün burada Anara da, onun ədəbi yaşıdlarına da önəmli təsir göstərmiş XX əsrin parlaq nasiri Mirzə Cəlil Məmmədquluzadənin hümanistik ənənələri nəzərə çarpacaq dərəcədə duyulur.

Lakin zənnimcə bizim günümüzdə yazıçı baş tutmamış bir tale faktının təsdiqlənməsi ilə məhdudlaşa bilməz. Bu faktın təhlili, vəziyyətdən çıxış yolunu axtarmaq vacibdir. Anarın «Çevrə» povesti məhz buna həsr olunmuşdur.

«Çevrə» yalnız Nemət haqqında deyil, daha bir neçə insan talei haqqında hekayətdir. Anarın xidməti ondan ibarətdir ki, insan əməllərinin, hərəkətlərinin çoxçeşidliyini göstərərək, o, həm də qəhrəmanların müəyyən ümumi cəhətlərini də ustalıqca, incə açıqlayır.

Əsərdə bütün varlığını həsr etdiyin məhəbbətin, əməlin həqiqəti var. Və bir də yaşamın, ailə həyatının, səadətin yanlış görüntüsü var. Bunu xüsusi kəskinliklə Nemət anlamışdır, – Dadaş üçün, mötəbər qohumları üçün qurduğu şam süfrəsində, – xüdpəsəndlik, bayağılılıq, meşşanlıq «yarmarkasında». «Çevrə»nin son səhifələri satiranın «muskullu» enerjisini gözəl duyan bir nasir qələmi ilə yazılmışdır (Anarın «Molla Nəsrəddin – 66» silsiləsi də qeyri-adi yumorist, satirik istedadından xəbər verir). Və Nemət xüsusi aydınlıqla həyatının mənasızlığını gördüyü həmin məqam onun qələbəsinin rəhni, yeni həyatının başlanğıcıdır. Hayıf ki, Anar sonadək bu səhnəyə etibar etməyib «Çevrə»ni qəhrəmanın qəşəng yuxusuyla – mavi dəniz, ağ liman, al yelkənlərlə tamamlamışdır. Bu gözəl, lakin nədənsə süst görünən yuxu-xəyal mənə elə gəlir ki, maraqlı povestə lazımsız bir sentimental xal gətirir.

V.Lavrov.
«Zvezda» jurnalı, №12, 1970

Mən onunla Nazim Hikmətgildə tanış oldum. Bir az beli bükük, sifətinin cizgiləri iri, bir qədər qaşqabaqlı və özünə qapanmış kimi görünən cavan idi. Nəzakətlə, həm də ləyaqətlə davranırdı. Hiss olunurdu ki, tanınmaq hələlik onun başlıca hədəfi deyil. Başlıcası yaxşı yazmağı öyrənmək, ustalığa yiyələnməkdir. Nazimə diqqətlə qulaq asır, bütün müddətdə oturuş pozasını dəyişmirdi.

O vaxtdan sonra gözümə dəymədi. Yalnız bu yaxınlarda, adı orda-burda nəzərə çarpmağa başlayanda, «Mən, sən, o və telefon» hekayəsi əsasında film ekrana çıxanda onu xatırladım. Tərcüməçi İqor Peçenev məni yenidən onunla tanış etdi. Nazimgildə necə var idi, elə də qalmışdı, az danışırdı. Mən onu «tərpəşdirməyə» çalışsam da, baş tutmadı. «Molodaya qvardiya»da nəşr olunmuş «Dantenin yubileyi» adlı nazik toplusunu yadigar qoyub getdi. Kitabı oxudum, məni təsirləndirdi, xüsusən eyni adlı povest.

Bu, bir yaşlı uğursuz aktyorun kədərli tarixçəsidir. Bu, çoxdan rəhimdillik hissini itirmiş, insafı, ləyaqəti unutmuş qudurğan və lovğa adamlar haqqında acı hekayətdir. Anarın qəm-kədəri fəaldır. Ona görə də qəzəbnakdır. Mənə bir qədər soyuqqanlı görünən adam, coşqun hissiyyatlı, ətrafda bütün baş verənlərdən səmimən təsirlənənmiş şəxs imiş. Bəli, məhz belədir Anar. Onun vətəndaş təssübkeşliyi – təmtəraqlı, bəlağətli deyil, odur ki, həqiqi vətəndaşlığı oxucunu həyəcanlandırmaya bilməz.

Anarın sətirləri arxasında böyük nikbinlik, haqq-ədalətə, saxta yox, həqiqi mərhəmətə inam duyulur. Və – həyata vaqifliyi. O, azad və pak məhəbbət, məcburiyyətsiz, candərdi olmayan nəvaziş carçısıdır. Onun yazıçı təxəyyülünün uçuşu poetikdir, ucadır. Bu baxımdan «Gürcü familyası», «Asqılıqda işləyən qadının söhbəti» və onu məşhurlaşdıran «Mən, sən, o və telefon» hekayələri gözəldir. Cavan ola-ola, o, qocalığın nə olduğunu dərk edir və yalnız «Dantenin yubileyi»ndə deyil, «Ötən ilin son gecəsi»ndə də qocalılığın hayanı kimi çıxış edir.

A.Tverskoy.
«Dantenin yubileyi», «Yunost» jurnalı, №5, 1970

Azərbaycan nasiri Anarın adı oxucular arasında 60-cı illərin sonlarından etibarən, ilk «Çevrə» povesti çıxandan bəri məşhurlaşmışdır. Ardınca gələn «Əlaqə», «Beşmərtəbəli evin altıncı mərtəbəsi», «Macal» bu məşhurluğu təsdiqlədi, genişləndirdi, yazıçının yaradıcılığını rus nəsrində Y.Trifonov və A.Bitov, Litvada M.Slutskis, Gürcüstanda – T.Çiladze, Özbəkistanda T.Pulatov tutduqları sıraya daxil etdi.

İroniya ondan ibarətdir ki, yazıçının istedadı, «şəhər» nəsrini «mövzu xırdaçılığında», «psixoloji əllaməçilik»də ittiham edən o zamanki tənqidlə polemikada formalaşırdı.

Yazıçının bu yaxınlarda Bakıda çıxan yeni kitabı – «Otel otağı» – göstərir ki, Anar ədəbiyyatda özünəməxsus yol tutmaq haqqını qoruyub-saxlamışdır. İnsan əməlləri, hərəkətləri, faktlar onun üçün bugun nə dərəcədə müdhiş görünsə də, yalnız «varlığın zahiri pantomiması» olaraq qalır.

Kiçik «Otel otağı» povesti başdan-ayağa ədəbi və tarixi assotsiatsiyalarla, İstanbulun olduqca canlı görüntülərilə, qəhrəmanın fəlsəfi düşüncələri ilə ilmələnmişdir. Amma bütün bunlar hərəkəti ağırlaşdırmır, üzvi şəkildə təhkiyə fakturasına hoparaq, öz xalqının faciəsi ucbatından birbaşa ürəyindən yaralanmış bir insanın ömür və ölümü haqqında tarixçəyə gərginlik aşılayır.

Povestin finalı bir qənaət hasil etməyə əsas verir ki, yenə də, başqa şəraitdə olsa da «Çevrə» qalib gəlir. Lakin nədənsə böyük Nəsiminin misraları yada düşür: «Məndə sığar iki cahan, mən bu cahana sığmazam…»

Anarın «bu cahana sığmayan» qəhrəmanına bircə «ilahi dairə»yə, öyrəşdiyimiz dünyanın ötəsinə çıxmaq qalır, həmin dairəyə ki, ömründə ilk dəfə İstanbul dalanlarını dolana-dolana haqqında düşüncələrə qatılır.

Və ucuz bir otelin fantastik otağında baş verən ölümü fani, məşəqqətli dünyadan qurtuluş kimi deyil, məchulluğa yönələn bir körpü kimi qavranılır.

L.Lavrova.

«Məchulluğa gedən körpü». «Literaturnaya qazeta», 25 sentyabr, 1996

«Bizim şəhərdə bir ziyalı adam varmı?»

Mərkəzi qəzetlərin birinə məktub gəlmişdi. «Ziyalılığın nə demək olduğunu bilmək istərdim, – oxucu soruşurdu. – Mən vilayət şəhərində yaşasam da, tanışlarımın arasında ziyalı adam olduğuna əmin deyiləm. Partiya işçisindən soruşdum: «Bizim şəhərdə heç olmasa bir nəfər ziyalı adam varmı?» O, fikirləşib cavab verdi: «Güman ki, yoxdur». Eyni sualı keçmiş müəllimimə verdim. O, düşünmədən: «Əlbəttə, yox», dedi. Bax, belə… Soruşmaq istəyirəm, ziyalı adam nə deməkdir, ziyalı olmayandan nə ilə fərqlənir, doğrudurmu ki, ziyalılıq hökmən qandadır və nəsildən-nəslə keçir?»

«Necə də qəribədir – düşündüm, – tanışlarımın arasında həkimlər, pedaqoqlar, fiziklər, yuristlər var…

Ziyalılara gəldikdə isə… Məgər biri də tapılmadı?»

Və burada Anar yadıma düşdü, ilk dəfə bu adı beş il əvvəl eşitmişdim. Çardjou şəhərinin musiqi-dram teatrında «Şəhərin yay günləri» («Лето в городе») pyesi gedirdi. Mən pyeslə tanış deyildim, dramaturqun adını birinci dəfə eşidirdim. Bu adın səslənməsi xoşuma gəldi. Atasının adı, soyadı olmadan sadəcə «Anar»… Tamaşa xaotik, nataraz olsa da… teatrı mütəəssir halda tərk etdim. Əsər, onun qəhrəmanı Qiyas və nəinki bu xarakteri, həm də yaşca atası yerində olan bir insanın zahiri görkəmini də yanılmadan duyub açan cavan aktyor xoşuma gəldi.

…Hələ 1977-ci ildə Anar cəmiyyətin yoluxduğu və heç də bəlasız olmayan bir azarı ifşa edən fars – buffonada ruhunda «Zəncir» pyesini yazmışdı. «Zəncir» Azərbaycan Kukla teatrında və Moskvanın Miniatür teatrında tamaşaya qoyulmuşdu. «Şəhərin yay günləri» Bakıda, Leninakanda, Qazanda, Çardcouda göstərildi. Lakin Moskvada, Leninqradda ona qarşı laqeyd qaldılar. 1970-ci illərin dramaturgiyasının dildən zirək qəhrəmanları arasında abırlı-hayalı Qiyas Zeynallı itib-batdı.

70-ci illərdə yazıçıları, rəssamları həyatda müsbət qəhrəmanları axtarıb tapmağa səslyirdilər. Yəqin, qabaqcıl sağıcılar, inşaatçılar, həm də bizim eyiblərimizi pərdələmək üçün lazım idi. Pərdələyirdilər də. Anar isə heç bir naqisliyi «yamamırdı». Və onun qəhrəmanları Qiyas kimi kütlə içində gözdən itirdilər.

«Beşmərtəbəli evin altıncı mərtəbəsi» povesti Azərbaycanda «bestseller»ə çevrildi. Kitab əldən-ələ keçir, bir nəfəsə oxunur, səhifələri yeyilib-sökülürdü. Rəylər haçalanırdı. Kimi povesti şərtsiz qəbul edir, kimi də etirazını bildirirdi. Xüsusən Təhminə ətrafında qızğın mübahisələr gedirdi.

«Təhminə və Zaur» tamaşası Bakıda – Dram teatrda hər dəfə anşlaqla gedir (recissor M.Fərzəlibəyov). Bakıda olarkən Anarın necə gərgin həyat keçirdiyinin şahidi oldum. «Qəm pəncərəsi» filminin səsləndirilməsi, «Qobustan» curnalının növbəti sayının buraxılışı və tamamilə gözlənilmədən – günbə-gün gənclər üçün televiziya proqramlarının baxışı. Anar Ümumittifaq televiziya festivalı münsiflər heyətinin sədri olaraq, bütün proqramlara baxmalı idi. Mənim ovqatım pozulur. Bakıya Anarla söhbətləşmək, ünsiyyətdə olmağ niyyətilə gəlsəm də, alınmır. Anar dostlarıyla görüşməyə təklif edir. Razılaşıram – niyə də yox?

Görüşə Azərbaycan Gənc Tamaşaçılar teatrının baş rejissoru Azər Nemətov, teatrşünas Elmira Əliyeva, sənətşünaslar Tamilla Yusifbəyli, Fərman Rzayev gəlmişlər. Onların Anar haqqında söylədikləri:

– Anar hər bir təşəbbüsü dəstəkləyir. Onun beşiyi üstə durur… Belə də demək olar: bir ev tikiləndə Anar birinci sıranı özü hörür. Amma kimsə ikinci, üçüncü qatı da hörməlidir…

– Mənim üçün Anar müasir Don Kixotdur, yox, yox, mən onu idealist saymıram. Anar həyatı gözəl bilir, bütün ölçülərilə. Amma Don Kixot kimi hərəkət edir. Hər hansı şəraitdə yalnız düzünü deyir. Yumşaqlıqla, xeyirxaqlıqla, kiminsə xətrinə dəyməməyə çalışaraq, amma yenə də həqiqəti deyir. Hətta hamı susanda da, qalanları «hə» deyəndə «yox» deyə bilir və əksinə… Bax, elə bunu donkixotluq adlandırıram. Biz hamımız Anarın mətbuatda, televiziyada çıxışlarını səbirsizliklə gözləyirik. Yeri gəlmişkən, Anar ayda iki dəfə televiziya proqramını apardığını sizə deyibmi? Rus dilində Azərbaycan ədəbiyyatının ən yaxşı əsərlərindən bəhs edir. Onun varlığında maarifçi ruhu yaşayır. Əd-əbiyyatı, musiqini, təsviri incəsənəti gözəl bilir və yalnız milli çərçivədə yox. «Qobustan» dərgisi Anarı ideyasıdır.

Moskvadan qayıdıb haçansa haqsız incidilmiş sənətdaşlarını başına yığaraq birlikdə işləməyi təklif edir. Anar sözün ən yaxşı mənasında ziyalıdır. Hamımız üçün çətin olan 70-ci illərdə Anar yalanın, sözlə əməl arasında ziddiyyətin insan mənəviyyatını necə korladığı haqqında düşünürdü, yazırdı. Bu gün biz hamımız həqiqətə, fəallığa, səmimiyyətə qəlbdən can atanda, Anar başqa şeyləri xatırladır, – deyir ki, insan ən kövrək, ən zərif varlıqdır və hər hansı ehtiyatsız sözdən, haqsızlıqdan məhv ola bilər. Anar arzulayır ki, saysız-hesabsız qayğılar içində biz bu həqiqəti unutmayaq.

…Mən vilayət şəhərində – mərkəzə ünvanlanmış məktub göndərilən şəhərdə ziyalı, olub-olmadığını bilmirəm. Onu bilirəm ki, Bakıda belə bir insan var.

Anna Zemnova.
«Teatr» jurnalı, №8, 1987

«Dantenin yubleyi»nin baş qəhrəmanı haçansa özünə təmtəraqlı «Kəbirlinski» təxəllüsünü yapmış qoca aktyorun həyatında belə bir məqam heç vaxt olmayacaq (*söhbət qəhrəmanın həyatında baş verə biləcək dönüşdən gedir* – ***red.***), çünki o, aciz, müti olmaqla yanaşı həm də tamamilə istedadsızdır. O dərəcədə ki, adi replikanı da lazımınca tələffüz edə bilmir.

Yenə də, «Bağ ev»ində olduğu kimi, bu dramda heç kimin günahı yoxdur. Yəni bizi, əlbəttə, qoca aktyorun hədəf olduğu kobudluq, nataraz atmacalar acıdır, ona yazığımız gəlir. Amma yazıqlıqla, necə deyərlər, uzağa gedə bilməzsən. Məgər Kəbirlinskinin bir sadə cümləni qəribə ulartıyla səsləndirməsindən acıqlanan, hətta üstünə qışqıran tamaşa rejissoru haqlı deyilmi? – bunun ucbatından «Çar Edip»in mürəkkəb məşqini dəfələrlə dayandırmalı, fərsiz aktyoru aktyorluq sənətinin əlifbasını dəfələrlə öyrətməli olur. Məgər Kəbirlinski kimilərin tamaşanı əngəlləşdirdiyini deyən cavan, tələbkar tənqidçi haqlı deyilmi? Bəli, şübhəsiz, onlar haqlıdırlar. Amma axı teatrdan ayrılmaq istəməyən filmin qəhrəmanı da öz aləmində haqlıdır! Haçansa uşaqlıqda səhnə onu ovsunlamış, o da bər-bəzəkli, naxışlı, arxa tərəfindən «həyat qısa, sənət daimidir» yazılmış arabanın ardınca cumub atılaraq minmiş. Beləliklə həyatını, gələcəyini teatrla bağlamışdı. Onunmu günahıdır ki, istedad sarıdan bəxti gətirməmişdi? Araba dalınca düşən uşaqların qabiliyyətlərini yoxlamağa həmişə macal olmurdu, teatrın «ayaq açdığı» ilk günlərdə isə cəsarət və həvəs istedadı əvəz edirdi. Bəs indi, ömür-gün ötmüş, sənəti-peşəni dəyişmək daha gec olduğu halda neyləsin Kəbirlinski?

Filmin müəlliflərinə haqq qazandırılmalıdır, – onlar heç nəyi malalamadan, bəsitləşdirmədən, tamamilə çıxılmaz vəziyyətdən bir çıxış tapmağa çalışmışlar. Axı talant məsələsi ən müşkül problemlərdəndir, – bizim o cavan sərt tənqidçi yüzlərlə ağıllı-başlı məqalə yazsa da, istedadsızı istedadlıya çevirə bilməz. Madam ki, problem həllolunmazdır, bəlkə ona heç girişmək də lazım deyildi? Nə gizlədim, baxış gedişatında dəfələrlə belə fikirlər ağlıma gəlirdi. Mənə elə gəlir ki, Kəbirlinskinin rolunu ifa edən aktyor Həsənağa Turabov daima bir sıxıntı hiss keçirir. İstedadsız bir bəndə rolu oynamaq onun üçün necə ağırdır, sadəcə fiziki baxımdan ağırdır, qamətini düzəltmək, bu mənfur mutilik yükünü atmaq, heç olmasa bircə replikanı səhnədə normal, təbii, istedadlı tərzdə olmasa da, heç olmasa əməlli-başlı səsləndirməklə öz fərsiz qəhrəmanının dadına çatmaq ürəyindən keçir. Amma olmaz – onda bu bambaşqa film, başqa əhvalat olardı. Müəlliflər isə məhz seçdikləri tarixçəni söyləmək haqqında israrlıdırlar. Tədricən bunda müəyyən bir məntiq olmasını anlayırsan. Problem kəskin qoyulsa da, bilərəkdən kəskinləşdirilsə də, axı vəziyyətdən sadə, həyati çıxış yolu vardı, – məgər Kəbirlinski teatrla üzülüşmədən elə buradaca özünə səhnəyə əzab-əziyyətlə çıxmaqdan başqa bir peşə tapa bilməzdimi?

Çoxları belə də edirdi. Həm də, Kəbirlinski obrazında göstərildiyi kimi, aktyorlar arasında istedadsızlığına belə qatı-xalis təzahürünə az-az təsadüf edilir, – uzun illər boyu səhnədə keçirilən həyat ərzində necə olsa da bir qığılcım, bir sənət işartısı üzə çıxır. Və bu sənət işartısı ötəri replikaları babat səsləndirməyə tamamilə yetərli olur. Lakin hər

halda, problem polemik kəskinliklə ortaya çıxarılsa da – məgər sənətkar yetkinliyi, cəsarəti, temperamenti, təcrübəsi məhz bu cür problemlərə qatlaşmaqla bərkimirmi, formalaşmırmı?

T.Xloplyankina.
Kinoşünas.
«Molodyoj Azərbaycana», 6 sentyabr, 1979

Anarın «Ağ liman» adlı, dərin fəlsəfi povesti ziyalılar haqqında, onların xalqın qarşısında vəzifəsi, görəvi, həyatda tutduqları mövqe haqqındadır.

Y.Lopatina.
«Dərin qazma».
«Literaturnaya qazeta», №3-1, 1969

«12 stul klubu»nda bugünkü debyut bir qədər qeyri-adidir: «LQ»nın 16-cı səhifəsində ilk dəfə çıxış edən şöhrətlənməyi arzulayan bir səriştəsiz gənc deyil, yüksək səviyyəli professional, ən məşhur Azərbaycan yazıçılarından biri Anardı *(bu məlumat düzgün deyil. Bu çıxışdan 27 il əvvəl 1969-cu il, yanvarın 15-də «LQ»nın 16-cı səhifəsində Anarın «Zəncir» adlı satirik hekayəsi dərc olunmuşdur –* ***red.***). O, çox da cavan deyil… Oxucularımıza bugün təklif edəcəyimiz saysız-hesabsız «şpion» romanlarına, «Lubyanka[1] haqqında dedektivlərə», yenilməz çekistlər və s. haqqında sicilləmə yazılara parodiyadır.

Hərçənd müəllif özü başqa fikirdədir, öz parlaq, iti atmacalı, tikanlı, bəzən də acı, amma olduqca gülməli parodiyasını o «məhəbbət və ülfətlə» öz sənətdaşı Çingiz Abdullayevə həsr edir; Anarın etirafına görə, onun romanları «kəskin süjeti, dinamizmi… maraqlı informasiya ilə məni bəzi kədərli məqamlarımda ağır düşüncələrdən, bədgümanlardan ayırmışdır».

Anarın öz dostuna yazdığı kimi, bu Abdullayevə parodiya deyil, «mənim tərəfimdən absurda çatdırılmış stilistikanın, fəndlərinin imitasiyası, bir növ ədəbi zarafatdır». Bizə isə elə gəlir ki, Anarın əsərinin hədəfi daha genişdir, o, oxucular arasında bunca populyar janrda yazan çoxsaylı müəlliflərin ştamplarını, fəndlərini, qəhrəmanlarını, situasiyalarını lağa qoyur. Bizim «Stullarımız»da debyutunuz mübarək olsun, əziz və hörmətli Anar!

Vladimir Volin.
«On iki stul klubu»nun növbətçi inzibatçısı.
Anarın «Paqonlu kabuslar» hekayəsinə yazılmış təqdimat sözündən.
«Literaturnaya qazeta», 16 oktyabr, 1996

[1] *«Lubyanka» — keçmiş sovet DTK binası yerləşdiyi meydanın adıdır (red.).*

Bir neçə il əvvəl Anarın «Mən, sən, o və telefon» hekayəsini oxumuşdum. Və uzun müddət, səslənib sona yetən nəğmədən qalan təəssürata oxşar hislərlə yaşamışdım. Hekayə həm acı, həm işıqlı idi. Təsadüfən bir-birini tapmış iki gəncin talei, punktirlə cizgilənmiş hadisə sırf Bakı materialı üzərində qurulsa da, o, hər hansı başqa şəhərdə, hər hansı ölkədə baş verə bilərdi, çünki səadət arzusu, munis könül axtarışları ümumbəşəri mövzudur.

Larisa İsarova.
«Dairədən sıçrayış» məqaləsindən, «Literaturnaya qəzeta»

Anar qəhrəmanı əhatə edən mühitin təsvirində çox dəqiqdir. Anarın povestində detalların, epizodların rəmzi mənalandırılmasına yönələn yazılış manerası şərait inersiyasının rolu haqqında bir qədər mübaliğələşdirilmiş təsəvvürə xidmət edir. Anar sanki insan qəlbini çulğalamış yad qatları dəlib keçməyə, batininə yetməyə çalışır. Və üzə çıxan həmin batinilik qəhrəmanın üzərində bütün qondarmalıqları, mənəvi-əxlaqi ideala yad olanları silib-süpürür.

Sonluğun xəyaliliyi Anarın povestinin səslənməsini zəiflətsə də bu povest maraqla oxunur, personajların aqibəti haqqında da düşünmək maraqlıdır. Müəlliflə mübahisə etmək istəyi baş qaldırsa da, bu kitabın düşünüb-daşınmağa meydan açmasından irəli gəlir.

L.Terakopyan.
Anarın «Ağ liman» povestinə «Özünü tapmaq» resenziyasından.
«Drujba narodov», №9, 1968

Teatr təcrübəsində belə hallar çox olur: Teatr institutunu yenicə bitirən, bir qayda olaraq, eyni sinfin məzunları gənc aktyorlar öz teatrlarını yaratmaq həvəsinə düşürlər. İki il əvvəl Bakı İncəsənət İnstitutu aktyorluq fakültəsinin məzunları «QİTİS» (*Dövlət Teatr İncəsənəti institutu* – ***red.***) bitirmiş cavan rejissor V.Abbasovla birlikdə rayon mərkəzi Şəkiyə gəldilər. Gənc kollektivin talei mühüm dərəcədə qızğın və olduqca həssas tamaşaçılarilə canlı təmas yarada bilməsindən asılı idi. Anarın «Adamın adamı» əsərinin – müasir Azərbaycan komediyalarından ən maraqlılarından birinin – Şəki truppasının növbəti tamaşa üçün seçməsi də təsadüfi deyildi. Bu, publika qarşısında uğur qazanılacağına ümid verirdi, həm də yaxşı bir tamaşa yaratmağa zəmin yaradırdı, çünki əsər bir çox dramaturci məziyyətlərə malik idi. Tamaşa elə qoyulmuş və oynanılmışdır ki, sanki gənc ifaçılar xoşladıqları həmin janrın verdiyi imkanların heç birindən vaz keçmək istəməmişlər. Anarın komediyası şəkililərə çox şey vəd edirdi. Əsər Azərbaycanın meydan tamaşaları manerasında, qaravəlli ənənələri ruhunda yaradılmışdır. Tamaşa öz rəngarəngliyi, boya zənginliyi, musiqi, rəqs, kuplet – söyləmə bolluğu və bir teatral «özba-

şınalığı» ilə heyrətləndirir ki, bu da səxavətlə paylanılmış istedadın şıltaqlıqlarını cilovlamaq istəməyən aktyorlar üçün səhnə yaşamının, deyəsən, yeganə, rahat üsuludur.

Polina Aleksandrova.
Anarın «Adamın adamı» pyesinin Sabit Rəhman adına Şəki teatrında tamaşası haqqında «Komediya janrında» adlı məqalədən.
«Teatr» jurnalı, №12, 1997

Axı bütün bunlar olmuşdur, həm də çox uzaq keçmişdə deyil, iyirmi il bundan əvvəl. Qəzetlərdə alt-üst edən məqalələr də, məruzələr də, danlaqlı abzaslar da. İradlar yağmur kimi yağırdı. Qəhrəmanlar elə deyil, konfiliktlər belə deyil, gənclər belə deyil, yaşlı nəsil elə deyil və s. və i.a. Nöqsanlar qatılaşdırılıb, məişət qabardılıb, psixoloji hoqqabazlıqlar… Anar da bunları dəf edirdi. Bacardıqca, gücü çatınca, yox, özünü deyil, prinsipi qoruyurdu. Sənətkarın öz sözünü deməyə, eksperimentə, üslubu təzələməyə olan haqqını. Onun qulağını doldururdular: həqiqi qəhrəman – fəaldır, mübarizdir, haqlı olduğuna inamlıdır. Anar cavab verirdi: «Mənə elə gəlir ki, «çox düşünüb-daşınan, şübhə edənlər bir fərli iş görməyə qadir deyil» kimi bəsit fikirlə məhdudlaşan «obivatel» formulasına qarşı etiraz etmək vaxtı yetişib. «Reflektirlik», «özünəqapanma», «özünüseyretmək» və s. kimi yarlıklardan əl çəkmək, belə kəlmələrlə düşüncə əzmini, könül narahatlığını damğaladığımızı anlamaq vaxtı yetişib».

Bəlkə bu Azərbaycan ədəbi durumunun özünəməxsusluğu, onun xüsusi gərginliyidir? Əsla belə deyil. «Şəhər nəsri» adlandırılan ədəbiyyat az qala hər yerdə sərin qarşılanır, şübhələrlə, şərtlərlə qavranılırdı. Moskvada uzun müddət Y.Trifonov, Litvada M.Slutskis, Gürcüstanda T.Çiladze, Azərbaycanda Anar «qıcıqlandırıcı» müəlliflər olmuşlar. Və danlaqlar hansı fərqli donda olursa da, bir məqamda qovuşurdu: mövzu xırdalığı, «sızlayan» qəhrəmanların təsviri. Bir sözlə, magistral yoldan ayrılma, kənarlaşma, periferik problematika.

Amma olan-olub. Bugünki aksiomlar dünən hələ aksiom sayılmırdı. Onlara yetmək, çatmaq, onları qavramaq gərək idi. Bir nasir kimi Anar sxemlərə, məddahlıq ətalətinə qarşı, bəlağət, təmtəraq, «saxta ehtiraslı, saxta emosialı, meşşan təbiətli, qondarma rastlaşmalar, mənfur mərdimazarlar və idillik qəhrəmanları olan melodramı» dəbə salan yalançı «Şərq» ənənəsilə daha çılğın, daha davamlı polemikada formalaşmışdı.

L.Poşexonov.
Anarın «Seytnot» kitabına Son söz. Moskva, 1989

…Dünən axşam vaxtıyı yazıçı və filosof Anarla, rəssam Toğrul Nərimanbəyovla süfrə başında keçirdik. Karvansarayın (İçərişəhər) həyətində yer tutmuşduq, – qədim zamanlarda bura Hindistandan gələn atəşpərəstlərin mehmanxanası olmuşdur.

Müsahiblərim Azərbaycanın elitasındandırlar. Nərimanbəyovun babası Bakının bələdiyyə başçısı olmuşdur; oradan qayıdarkən Anarın valideyinlərindən xəbər verən «Burada şair Rəsul Rza və şairə Nigar Rəfibəyli yaşamışlar» yazılı xatirə lövhəsi vurulmuş binanın yanından keçdik. Gör necə kökü varmış Anarın, necə nəsilli-əsilli ziyalıdır. Elə onun adı da ad deyil, musiqidir! Sən demə, belə bir ad yoxmuş, onu Anarın valideyinləri icad etmiş və ilk dəfə işlətmişlər. İndi isə çoxlarına bu adı qoyurlar.

Anarın söylədiyinə görə, «Toğrul, Mircavad çəkdikləri şəkli xalça kimi qururlar… Şəkil fəzasını onun bütün «boşluqlarını», açıq güşələrini mümküncə doldururlar – nə olursa-olsun, sifət, kvadrat, oraq, budaq, qıvrım xətlər, təki boşluq, sükut, pauza olmasın. Hər şey hayqırır, alışa-alışa, günəşləşə-günəşləşə…»

Anarın «Xalçanın müdrikliyi» essesini oxumağa başlayaraq bəri başdan duyuram ki, çox-çox gözəl və doğma yerlərlə rastlaşacam. Elədir ki, var; Anar xalçanın Azərbaycan torpağını başdan-başa əhatə edən proyeksiyasından başlayır, – təyyarədən baxanda bu torpaq özü də bir xalça kimi görünür. Sanki qədim nağıllardan gələn mifoloci «uçan-xalı» anlamı əyaniləşir.

Srağa gün, konsertə getməyə hazırlaşarkən Anarın ömür yoldaşı Z.Səfərovanın mənə bağışladığı «Üzeyir Hacıbəyovun musiqi-estetik baxışları» adlı kitabını oxuyurdum. Və özüm üçün bir mühüm məqamı əxz etdim: «Muğamat melodiyası – Z.Səfərova yazır, – xalq mahnı melodiyasından daha çox imkanlara malikdir….

Muğamatda melodiya sıx-sıx metrik taktlarla, sezurlarla (nəfəsdərmə, aravermə – red.) məhdudlaşdırılmamış, xalq mahnıları üçün səciyyəvi olan qısamotivli bölgüləşdirmə, variantlılıq… ona xas deyil».

Georgi Qaçev,
filosof və kulturoloq.
Dünyanın milli obrazları
«Qafqaz» kitabından. «İzdatelskiy serviz», Moskva, 2002

Diqqət, anlaşılma yalnız qocalara deyil, cavanlara da lazımdır. Anar insan ömrünün bu məqamlarına çox həssasdır. Az qala elə ilk əsərlərindən insan qəlbinin yaşantıları, təbii insan səadətinin mahiyyəti onun bədii maraq hədəfinə çevrilir. Anarın povestlərində təmənnadan, cürbəcür sərtilikdən, buxovlayıcı mühavizəkar təsəvvürlərdən xali münasibətlərin romantikası təsdiq edilir…

Onillik Anarın «Çevrə» («Ağ liman») povesti ilə açılmışdır. Ümumittifaq tənqidi tərəfindən əsər heyranlıqla qarşılanmışdır. Povest haqqında çox söz deyilmiş, yazılmış, təkrarlamağa ehtiyac yoxdur. Lakin heç kəsin demədiyi bir məqam haqqında deyilməlidir… Mən povestin İsa Hüseynovun «İllər və dəqiqələr» hekayəsinə yaradıcılıq baxımından yaxınlığını nəzərdə tuturam. Ən əvvəl əsərlərin daxili qayəsi – illər boyu sürən, sönük yaşam və həyat dəqiqələri, bəsirət dəqiqələri, heyhat ki, daha heç nəyi dəyişə bilməyəcək dəqiqələr… Lakin İsa Hüseynov münasibətlərin məqamlarını vurğulayaraq problemi qoyursa, Anar onu dərinləşdirərək, inkişaf etdirərək, çağdaş Azərbay-

can ziyalılar həyatının bütöv bir qatına güzgü tutur, əxlaqi-sosial baxışlar, köhnə təsəvvürlər, yanlışlıqlar, aludəçilik və snobizm qatılmaqla işıqlandırır. İsa Hüseynovun qoyduğu problemi Anar qəzəbli antimeşşan pafosu ilə kəskinləndirərək, cəmiyyətin mənəvi yaralarını dəqiq işarətləyir, insanların sağlam ruhunu içindən gəmirən yaraları. Anarın povestindəki problemlər Azərbaycan yazıçılarının sonrakı əsərlərində – Maqsud İbrahimbəyovun «Ondan yaxşı qardaş yox idi», Çingiz Hüseynovun «Məhəmməd, Məmməd, Məmiş» povestlərində, eləcə də Elçinin hekayələrində inkişafını tapır.

Svetlana Əliyeva,
Tədqiqatçı, ədəbiyyatşünas.
«İnsan dəyişən dünyada» kitabından, Bakı, «Yazıçı», 1980

«Dantenin yubileyi» filminin qəhrəmanı «kiçik» aktyor Feyzulla Kəbirlinski öz sənətinə yüksək mənəvi tellərlə bağlıdır. Anar situasiyanı gərginləşdirərək öz yapışıqlı və riqqətləndirici qəhrəmanını doğrudan da tamamilə istedadsız, bacarıqsız aktyor kimi göstərir və «istedadsız» aktyoru H.Tura-bov ekranda öz böyük istedadının bütün parlaqlığıyla təqdim edir. Kəbirlinskinin sənətə məhəbbəti təmənnasızdır, fədakarca-sınadır, amma qarşılıqsızdır, buna görə də hardasa faciəvidir. Lakin sənətə belə təmənnasız bağlı adamlar olmasaydı, sənətin özü də olmazdı. «Dantenin yubileyi» filmi öz işığı ilə bu adi həqiqəti bizə bir daha duydurur.

V.Bojoviç.
«Adi həqiqətlər» və insan ləyaqəti haqqında».
«Sovetskaya kultura» qəzeti. 17 iyun, 1980-ci il

Müstəqil dövlətlətlər birliyi ölkələri

Mar Bayciyevlə Anardan çox şey gözləyirəm. Səhv etmirəmsə 68-ci ildə «Novıy mir»də çıxan «Anlamaq dərdi»i essesindən sonra bu istedadı tanımışam.

Çingiz Aytmatov.
«Mən «Manasın» oğluyam. Şahmar Əkbərzadə ilə müsahibə.
«Azərbaycan gəncləri» qəzeti. 7 noyabr, 1982

Bu gün Orta Asiya və MDB ölkələrinin çoxunda Yazıçılar Birliyi fəaliyyət göstərmir. Azərbaycan Yazıçılar Birliyinin fəaliyyət göstərməsi və bu günə kimi də öz ənənələrini saxlamasını görmək mənim üçün olduqca sevindiricidir. Əgər Anar olmasaydı Azərbaycanda Yazıçılar Birliyi dağılmışdı. Mən istərdim ki, Azərbaycandakı kimi birliklərin hər bir ölkədə fəaliyyəti bərpa olunsun.

Çingiz Aytmatov.
«Anar olmasaydı Yazıçılar İttifaqı dağılmışdı…»
«525-ci qəzet», 16 sentyabr, 2006

Belə ağır zamanda azərbaycanlı həmkarlarım özlərinin Yazıçılar Birliyini bir yaradıcı təşkilat kimi qoruyub saxlaya bilmişlərsə, bu möhtəşəm binanı əldən verməyiblərsə, üstündə böyük söz sənətkarlarının imzası cızılmış tribunanı dağıtmağa qoymamışlarsa, başda Anar olmaqla onların hamısına çox minnətdaram. Anar özünün həm ədəbi-mədəni aləmdəki, həm cəmiyyətdəki, həm də dövlət-hökumət nümayəndələri arasında nüfuzuyla Azərbaycan Yazıçılar Birliyini qoruyub saxlamağa müvəffəq olub. Mən sizin yazıçılara olunan dövlət qayğısını – hələ dahi Heydər Əliyevin zamanından verilməyə başlanan Prezident təqaüdlərinin, rəsmi adların təqdim edilməsində Anarın böyük rolundan danışmaqla vaxtınızı almaq istəmirəm. Anar, bütün görülən işlərə görə çox sağ ol!

Oljas Süleymanov.
Bakıda Birinci Beynəlxalq rus kitabı
festivalı günlərində Yazıçılar Birliyində çıxışından.
«Ədəbiyyat qəzeti», 22 sentyabr, 2006

Dədə Qorqudla bağlı bu günə qədər səngiməyən mübahisələrdə mənə ən yaxın Anarın mövqeyidir. O, alimlərin ağızlarında saqqız kimi çeynədikləri məsələyə yeni

baxışla yanaşdı və Oljas Süleymanovun «Az i Ya» əsərinə bərabər olan «Dədə Qorqud dünyası» essesini yaratdı.

Timur Pulatov (Özbəkistanın Xalq yazıçısı)
«Anarın mövqeyi mənə hamsından yaxındır» yazısından.
«Bakinskiy raboçiy» qəzeti, 5 aprel, 2000

Türk xalqları dünya səviyyəsində tanınan şəxslər yetişdirdi. Çingiz Aytmatov (Qırğızstan), Muxtar Şaxanov (Qazaxstan), Anar (Azərbaycan) və s.Bu gün onlar ön sıralarda bulunan dünya yazarları arasındadırlar.Onlar bizləri dünyaya tanıtmağa çalışdı və çalışırlar.Belə bir tanıtma uğrunda dünya ədəbiyyatının Olimp dağına çıxırlar.

Yunus Kandimov,
Krım-tatar yazıçısı

Deməliyəm ki, Azərbaycan ədəbiyyatı, həm klassik, həm müasir ədəbiyyatı Gürcüstan sakinlərinə yaxşı tanışdır. Onu demək kifayətdir ki, 79 Azərbaycan yazıçısının əsərləri gürcü dilinə çevrilmişdir.

Şəxsən məni gözəl bir insan olan Anarla az qala otuzillik böyük dosluq bağlayır. Mən bunu çox əziz tuturam.

Quram Pancikidze.
«Bakinski raboçi», 24 yanvar, 1996

Anar sözün əsl mənasında müasir yazıçıdır. Bizi narahat edən problemlərə, hamımızı düşündürən problemlərə toxunan yazıçı öz mətnlərində köhnə formalara üz tutmur. Tarixi realizmin nailiyyətlərini çağdaş həyatın aktual problemləriylə sintezdə çatdırılması Anarın səciyyəvi cəhətidir, «Ağ liman»ın hər bir fəsli özü-özlüyündə bitirilmiş bir əsərdi. Hər bir surət üçün Anar münasib bədii ifadə vasitələri tapır. İncə psixoloji «Dantenin yubileyi» povestində Anar ictimai-əxlaq problemlərlrinə başqa nəzər nöqtəsindən yanaşır. Yazıçı böyük həssaslıq və ustalıqla personajın daxili aləmini açıqlayır. Yalnız Azərbaycanda deyil, onun hüdudlarından kənarda da məşhur olan «Mən, sən, o və telefon» hekayəsində böyük lirizm və səmimiyyətlə ifadə olunmuş insan davranışının daha bir xəttini izləyirik.

Stepan Topçyan,
Tənqidçi, ədəbiyyatşünas.
«Yaradıcılıq yollarında» məqaləsindən,
«Ədəbiyyat və incəsənət» qəzeti, 12 aprel, 1975

***

İnsan qorxu və terror atmosferinə qarşı durmağa qadirdi. A.S.Puşkin adına Moldaviya Akademik teatrının Azərbaycan nasiri və dramaturqu Anarın «Səhra yuxuları» pyesi üzrə tamaşası məhz bu barədədir. Pyesin zahiri xətti sırf detektiv səciyyəlidir. Lakin, süjetin belə detektivsayağı inkişafı pyesin daxili, həqiqətən dramatik xəttini – şəxsiyyətlə dövlət polis sistemi arasında qarşıdurmanı – daha da gur işıqlandırır. Tamaşanın finalı Anarın siyasi dramının qayəsini xüsusən qabarıq göstərir. Və bizim zənnimizcə, Anarın kəskin publisistik səhnə əsəri MADT-nın quruluşunda tələbkar Moskva tamaşaçısının mühakiməsinə təqdim edilməyə layiqdir.

M.Çimpoy,
Tənqidçi – Moldaviya Yazıçılar İttifaqının sədri.
«Səhrada yuxular» məqaləsindən,
«Sosialistiçeskaya Moldaviya» qəzeti

Xarici mətbuat səhifələrində

Almaniya Demokratik Respublikası mətbuati:

Mətnin bir yerində biz sanki Göte qəhrəmanı Qrethenin nəğməsini eşidirik. Bu mahnı Tulsdakı kral haqqındadır, məşuqəsi ölüm ayağında ona qızıl qədəh verir. Niyə içimizdə bu sətirlər səslənir? Axı «Faust»da vəsf olunmuş hökmdarla Anarın qəhrəmanlarını muxtəlif dünyalar ayırır: sonuncular bugünkü Bakıda yaşayır, sevir və ölürlər. Görünür ədəbi motivlərin oxşarlığı bu emosional assosiasiyalara və həyəcanlara səbəb olur. İndiyə qədər bizdə Anarın «Mən, sən, o və telefon» hekayəsi və «Əlaqə» povesti tanınırdı. Bu romanı isə gözlərimizi yaşardır, yazıçı bilərəkdən şüurlu surətdə «sentimentallıqa» haqq qazandırır. Onun üçün duyğusallıq həyatda və ədəbiyyatda təsvir olunan ictimai hadisələrə qanuni əlavədir. Roman iri şəhərdə faciəvi sonluğu olan romans kimi səslənir. Bu kitabı oxumağı məsləhət bilirik.

Mixael Farenholts.
«Azərbaycan yazıçısı Anarın duyğularla dolu nəsri».
«Lyaypsiqer folkşaytunq» qəzeti. Leypsiq,
Avqust, 1983-cü il

Qırx beş yaşlı Azərbaycan yazıçısı Anar yaxşı oxunağlı romanında aldadılmış bir eşqin tarixçəsini danışır. Şərq koloriti, əxlaqi dürüstlük, təhrif olunmamış gerçəklik bu kitabın əsas səciyyələridir. Anar əsərin əvvəlindən parlaq səhnələr yaradır.

Taqe Zommerfild.
«Qısa bal ayı». «Yunqe Valt» qəzeti.
Berlin, 12 aprel, 1983-cü il

Azərbaycan yazıçısı Anarın romanı gözəl ədəbi əsərdir, ona görə ki, əvvəla o gerçəkliyi əks etdirir, ikincisi də oxucuda ideal haqqında fikirlər oyadır.

«Gerçəklik və ideal». «Zonntaq» qəzeti.
Berlin, 3 aprel, 1983-cü il

Azərbaycan ədəbiyyatında yeni istiqamətin aparıcı nümayəndələrindən biri də Anardır. Onun 1967-ci ildə çap olunmuş «Ağ liman» povesti bu orijinal yazıçının «yeni nəslin» nümayəndəsi olmaqla yanaşı həm də mahiyyət etibarı ilə «yeni nəsr» yaratmaq

yolunda ilk addımlar atdığını göstərdi. «Ağ liman»ın ardı kimi düşünülmüş «Beşmərtəbəli evin altıncı mərtəbəsi» əsəri Anarın düzgün yolda olduğunu bir daha sübut etdi.

Əsərin rus variantı ilə əlyazması şəklində tanış olan ilk alman oxucuları, birinci növbədə Leypsiq universitetinin rus və sovet ədəbiyyatı kafedrasının və «Folk und Veld» nəşriyyatı sovet ədəbiyyatı şöbəsinin əməkdaşları Anarın yeni romanı haqqında olduqca yuksək fikirdədirlər.

Əminik ki, «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanı alman dilində çapdan çıxdıqdan sonra istedadlı Azərbaycan nasiri bizim respublikamızda da «öz» oxucusunu tapacaq. Həm də bu oxucular yüzlərlə, minlərlə deyil, milyonlarla olacaq. Anarın çoxşaxəli istedadı buna tam təminat verir.

Friderike Buxner,
Alman ədəbiyyatşünası.
Berlin

Almaniya Federativ Respublikası

Anarın əsəri dəqiq nəql edilmiş faciəli sonluğu olan acı eşq tarixçəsidir. Ancaq «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanının məzmunu yalnız bu deyil. Bu roman 70 illik sosializmə baxmayaraq sovet cəmiyyətinin dəruni burcua mahiyyətini göstərir. Köhnəlmiş mənəvi dəyərlərə arxalanan cəmiyyətdə məhəbbət məğlubiyyətə düçar olur. Azərbaycandakı indiki həyəcanlandırıcı hadisələrə və aşkarlığa görə Anarın romanının almancaya yeni tərcüməsi xüsusi aktuallıq kəsb edir. Sovet müəllifinin böhran regionunda hadisələri təsvir edən ictimai tənqidi romanı ədibin ciddi uğurudur.

Ştefan Proys.
«Şərqdə məhəbbət». «Qezlarin saytunq».
12 may, 1989-cu il

«Bunlar olub» demək istəyirsən. Amma hər halda bu roman yenidir və onu oxumağa dəyər. Bu onunla əlaqədardır ki, sovet yazıçısı Anar məhəbbət macərasının cərəyan etdiyi ictimai mühiti təsvir edir. İslam ənənələri və 60-cı illərin sosialist gerçəkliyi – bundan daha ziddiyyətli bir şey düşünmək olarmı?

«Arsburqe Alqemayne» qəzeti.
17 mart, 1989-cu il

Məhəbbət problematikasının arxasında Anar köhnəlmiş ənənələri və əxlaqi təsəvvürləri, hərisliyi, varlanmaq ehtirasını tənqidi şəkildə əks etdirir. Cəmiyyətin qəbul etmədiyi bir eşq. Romanda bu sosialist cəmiyyətdir. O cəmiyyət ki, gizli yerlərdə ört-

basdır edilən qadağaları, ənənələri – əslində xırda burcua əxlaqı və sosialist mifidir. Ustalıqla yazılmış bu ictimai-tənqidi romanın məziyyətləri var. Ancaq müəllif məhəbbət tarixçəsinə çox tez-tez müraciət edir.

«Sosialist mifi». «Velt» qəzeti,
Berlin. 24 iyun, 1989-cü il

Ustad Füzulinin ənənəsilə

Azərbaycan nasiri Anar Federativ Respublikanı gəzir

Almaniya Federativ Respublikasında çıxan çoxtiraclı «Almaniya və dünya» qəzeti 21 aprel 1989-cu il tarixli nömrəsində Azərbaycan Sovet Yazıçıları İttifaqının birinci katibi Anar haqqında curnalist Volfqanq Qünter Lerxin məqaləsini dərc etmişdir.

Frankfurt, 20 aprel. Bu günlərdə ilk dəfə olaraq Azərbaycandan gəlmiş nasir Anar əsərini oxumaq üçün respublikanı gəzməyə çıxmışdır. Anar öz Qafqaz vətənində nəsrlə və səhnə əsərlərilə diqqəti cəlb edir. Buna baxmayaraq o, başqa bütün Azərbaycan yazıçıları kimi Avropada hələ o qədər tanınmamışdır. Bu cümə günü yazıçı Frankfurt şəhərində öz əsərindən ilk nümunələr oxuyacaq. Azəri xalqının türkcə danışan və yazıb-yaradan müasir yazıçıları öz əsərlərində əsrlərdən bəri uzun sürən islam orta çağ dövrünə qədər olan keçmişlərinə nəzər salmağı bacarırlar. Qərb türk azəri dialektində yazıb yaradan böyük klassik Məhəmməd İbn Süleyman Füzuli XVİ əsrdə osmanlı türklərin hökmranlıqı dövründə romantik poeziya dastanı adlanan «Leyli və Məcnun» əsərini yaratmışdır.

Frankfurtda «Dağyeli» nəşriyyatı türk ədəbiyyatından nümunələr dərc etməkdə necə deyərlər püxtələşib. İndi həmin nəşriyyat Anarın əsərini nəşr edib. Bu «Beşmərtəbəli evin altıncı mərtəbəsi»dir.

Əsərdə Bakıda yaşayan cavan bir qadının məhəbbət əhvalatından söhbət gedir, onun azad həyat mühitinə islamın köhnə adət və ənənələri dərin iz salmış, xarici aləmlə münaqişə yaratmışdır. Anar bu əsərdə başqalarında olduğu kimi «Müasir dövrün» əsrlər boyu davam edən mərkəzi Asiya türk xalqlarının adətilə toqquşmasını gözəl təsvir edir. Bu kitab, qazax, özbək, uyğur dillərindən və eləcə də başqa türk müəlliflərindən edilən tərcümələrin bir növ başlanğıcı sayılır.

Avstriya

İki romanın mütaliəsi ilə mənim Azərbaycan barəsindəki təsəvvurum xeyli dəyişdi. Bunlar Bakıda həvəslə görüşmək istədiyim müasir yazıçılardan Anarın «Beşmərtəbəli evin altıncı mərtəbəsi» və Elçinin «Ağ dəvə» romanlarıdır. Son vaxtlar Azərbaycan

ədəbiyyatından yalnız bu əsərlər tam halda alman dilində çap olunub və hazırda onları alman dilli kitab bazarında əldə etmək mümkündür. Bu əsərlər məni elə ilk cümlədən heyran etdi və mən bu ölkə haqqında oxuduqlarımı sonradan öz gözlərimlə gördüm.

Öncə oxuduğum Anarın ilk dəfə 1979-cu ildə Bakıda çapdan çıxmış «Beşmərtəbəli evin altıncı mərtəbəsi» romanı oldu. Əsər sovet dövründə Azərbaycanın gündəlik həyatından çıxan problemlərdən, ənənəvi və əxlaqi şərq təsəvvürlərinin korrupsiya və möhtəkirliyə qurşanmış həyat tərzi ilə qarşılaşmasından bəhs edir.

Ölkənin bu gün demək olar ki, ən tanınmış yazıçısı, esseçisi və dramaturqu sayılan və beş yuz nəfərədək üzvü birləşdirən Azərbaycan Yazıçılar Birliyinin sədri olan Anarın iş otağı Bakının mərkəzində çoxmərtəbəli monumental bir binadadır. Nəhayət ki, Füzuli günlərindən sonra onunla görüşmək imkanı əldə edə bildim.

İlk əsərlərində siyasətlə öz arasında məsafə saxlamağa çalışan Anar yenidənqurma islahatlarının tərəfdarlarından olmuşdur. Onun ilk kitablarında Azərbaycanda sovet həyat tərzinin kəskin analizi var. O, bu gün də ictimai dəyişiklik-lərin diqqətli müşahidəçisidir. Və bu zaman o, kəskin mövqe və mövzulardan heç də çəkinmir. Anar ənənəvi Asiya epik nəqletmə dərki ilə ədəbiyyatın Qərbə xas olan texniki üsul və formalarını ustalıqla əlaqələndirməyi bacarır. Yaxın Şərq ölkələri ədəbiyyatları həmişə bu ənənəvi təhkiyə tərzində qaldıqları halda, Azərbaycan ədəbiyyatına ölkədə baş verən tarixi dəyişmələr nəticəsində rus və Avropa ədəbiyyatı da əhəmiyyətli də-rəçədə tə'sir etmişdir. Lakin Anarın əsərlərində həmişəki kimi yenə də Şərq müdrikliyi motivləri özünü biruzə verir. O tez-tez Şərqin böyuk şairlərinin fikirlərinə müraciət edir. Onun kitabları bir çox dunya dillərinə tərcümə olunaraq Türkiyə, ABŞ, Yaponiya, Hindistan, Fransa, Almaniya və digər ölkələrdə nəşr olunmuşdur.

Uli Rotfus.
«Azərbaycan-odlar yurdu»

İsveçrə mətbuatı:

Bu nakam bir məhəbbət haqqında Azərbaycan romanıdır. Məşhur və hörmətli nasir, esseist və dramaturq Rzayev geniş ictimaiyyətə Anar adı ilə tanışdır. Onun «Beşmərtəbəli evin altıncı mərtəbəsi» adlı acı məhəbbət tarixçəsi alman dilinə tərcümə olan vaxt hadisələrin cərəyan etdiyi region dünya qəzetlərinin birinci səhifələrində yer aldı. Əvvəllər çoxlarının tanımadıqları yerlər orada baş verən milli münaqişələr nəticəsində dünya kütləvi informasiya vasitə-lərində hallandırılmağa başlandı. Bu romandan «oralarda niyə xalqlar bir-birini öldürür?» sualına cavab tapa bilməyəcəyik, amma bu əsər bizə çox şey haqqında məlumat verir. Aktual siyasi yeniliklərin şərhi üçün bu roman yaramır, amma oradakı dünyanın bizim təsəvvür etdiyimizdən qat-qat zəngin, çoxcəhətli və təzadlı olduğunu dərk etmək işində bu əsər siyasi situasiya haqqında ən müfəssəl hesa-

bat qədər əhəmiyyətlidir. Anarın əsəri hər halda məhəbbət romanıdır – nə az, nə çox. Əbədi bir mövzuda – məhəbbət mövzusunda roman yazmaq isə hər yazıçının həyatında zirvə məqamıdır. Bu əsərdə həqiqi hislərin, emosional gərginliyin təsviri çox uğurludur.

«İslam ənənələri və kommunizm arasında».
«Noys Surixer saytunq» qəzeti, Surix. 7/8, 1990-cı il

Fransa

Gənc nəsl beynəlxalq səhnədə ən yaxşı Azərbaycan romanlarını yaradan Anarın əsərləriylə yetişirdi. Onun kitabları rus, bolqar, alman, ingilis, fransız dillərinə çevrilib «Beş mərtəbəli evin altıncı mərtəbəsi» romanı Bakının son illərdə ən müasir məhəbbət macərasını əks etdirir.

«Anka» fransız jurnalı. Paris

İsveç

Stokholmda Anarın «Dədə Qorqud» povesti nəşr edilmişdir. Kitab İsveçdə yaşayan azərbaycanlılar tərəfindən nəşr etdirilmişdir. Nəşri hazırlayan Əhəd Əşriz yazır: «Dədə Qorqud» kitabını kiril əlifbasında böyük çətinliklə və həm belə böyük maraqla oxudum. Ədəbi baxımdan kitab ən yüksək səviyyədə yazılmışdır. Bizi Azərbaycanlıların tarixi, eposu, kökləri ilə tanış edən bu kitabı ömür yoldaşımla tərcümə etdik».

Kitaba «Dədə Qorqud» povestiylə yanaşı Anarın «Dədə Qorqud dünyası» essesi də daxil edilmişdir.

Macarıstan mətbuatı:

Bir dəfə səhər erkən, saat dördün yarısında Təhminə öz yuxusunu həmkarı Nemətə borc verir: bu yuxuda dəniz sahili var, ağ liman var və uzaqda qırmızı gəmilər görünür. Macar oxucularını gənc Azərbaycan yazıçısı Anarın əsərlərilə tanış etməyə dəyərdi. Yuxarıda xatırlatdığımız poetik yuxu yalnız Anarın lirik meylinə dəlalət etmir – axı onun atası da, anası da şairdir. Həm də Azərbaycan ədəbiyyatının qədim ənənələrinə bağlıdır. Azərbaycan yazıçısının bu maraqlı, dərin, təravətli povestilə bizi canlı tərcümələrilə M.Herinq və A.Vandor tanış etdilər, Anarın tərcümeyi-halı haqqında isə L.Zaxemskinin kitaba yazdığı son sözdən məlumat aldıq.

«Müasir kitabxana» seriyasında nəşr olunmuş bu kitab ənənələrin və müasir həyatı yeni ifadə vasitələrilə təsvir etmənin özünəməxsus qarışığıdır. Povest qədim şairlərdən

sitatlarla, milli həyatın adətlərilə doludur və bununla bərabər bütün müasir insanlara xas olan tənhalıq, əlaqəsizlik hissləri də açıq duyulur.

«Madyar Namzat» qəzeti

Anar çoxcəhətli istedaddır, həmişə öz aktual niyyətlərinin təcəssüm olunması üçün ən münasib sənət növünə müraciət edir. Ən çox onu kino və nəsr cəlb edir. «Ağ liman» povestinin üslubu da kinematoqrafa yaxın olan ifadə vasitələrilə səciyyələnir. Anar dialoq ustasıdır. Eskizvari qısa və eyni zamanda ekspressiv, gərginləşmiş təsvir ustasıdır... Əsərin qəhrəmanı Nemət Namazov dərin qəlb böhranı keçirir. Onu əzən öz güzəştləri və bununla bağlı boşluq, tənhalıq duyğularıdır. Ancaq Anar tənhalıqdan necə xilas olmalı sualına da cavab verir. İnsan öz həyatını dəyərləndirmək və dəyişdirmək cəsarətinə malik olmalıdır. Anar inkisarı xəyala uğramış insanları daha çox təsvir eləsə də pessimist deyil. O öz qəhrəmanlarını dərin humanizm duyğularıyla yaradır. Əsərlərində çoxlu rəmzi elementlər olsa da, Anar formullar, düsturlar yaratmır, o canlı, dəyişən, inkişaf edən və formalaşan insanları meydana çıxarır. Onun təsvir metodu psixoloci cəhətdən dəqiqdir.

«Könnüvvilas» («Kitablar aləmində») həftəliyi

Anarın povesti vağzalda yuxuyla başlayır və baş qəhrəmanın yuxusuyla bitir. Povestin əsl adı «Çevrə»dir. Macarca «Ağ liman» adı bir qədər sentimental əhval-ruhiyyə oyadır. Yaxşı yazılmış məhəbbət səhnələrində də bir qədər sentimentallıq duyulur, amma kitabın əsas və daha əhəmiyyətli hissəsi sübut edir ki, müəllif ağlayıb-sızlayan sentimentallığa aludə deyil, onun emosionallığı özünəxas olan üzvü və mərdanə keyfiyyət daşıyır. Müəllıf suceti ciddi və sərt qurur, üslubu lətifdir, povest fransızsayağı asan oxunulur. Müəllifin incə psixoloci duyğusu ondan görünür ki, Nemətlə Təhminə birbirinə aşiq olmurlar. Povestin ayrı-ayrı hissələri müstəqil novellalar kimi yazılıb. Onlardan biri – «Tənhalıq tilsimi» müasir sovet nəsrinin ən gözəl humanist imkanlarını ən kamil formada ifadə edir.

Zoltan İslai.
«Kanuvek» («Həyat və ədəbiyyat») qəzeti

Hüseyn Abbaszadə və Laslo Zaxemskinin tərtib etdikləri «Uçan boşqab». Müasir Azərbaycan hekayələri, «Avropa» nəşriyyatı, Budapeşt) antologiyası macar oxucularını müharibədən sonrakı Azərbaycan nəsriylə tanış edir. Kitabda 15 müasir yazıçının 22 hekayəsi toplanmışdır. Hər bir antologiyada olduğu kimi burada da hekayələrin hamısının səviyyəsi eyni deyil. Bununla belə kitabda oxucuları bir neçə əsl şedevr sevindirir. Antologiyanın ən yaxşı əsəri Anarın «Dantenin yubileyi» povestidir. Povestdə müəllif cavabı çox ağır və çətin olan bir məsələni qaldırır.30 ildən artıq teatrda işləyən Feyzulla istedadsızdır, teatrın inkişafına mane olur. Onunla necə hərəkət etməli?. Cavab, sanki aydındır: belə artıq yükdən xilas olmaq, yəni onu işdən çıxartmaq lazımdır. Amma burda

humanizm məsələsi ortaya çıxır. Hümanizm antihumanizmə çevrilir, bu ziddiyəti çözmək isə qeyri-mümkündür. Anarın povesti məhz bu barədədir və məhz buna görə o çox gözəldir. Povest diqqətimizi həqiqətin birmanlı olmadığına çəkir.

Maqda Ban.
«Odlar yurdundan hekayələr» məqaləsindən

Rumıniya

Zəngin həyat təcrübəsi, Azərbaycan cəmiyyətinin sovet sisteminin totalitarizmindən azadlığa, real demokratiya, çiçəklənməyə doğru mürəkkəb keçid yoluna dərindən bələd olması və vətəninin sosial və siyasi problemləri ilə yaxından tanış olması Anara həqiqi bədii panoram yaratmağa imkan verir. Və hər bir obyektiv oxucu bu mənzərə qarşısında laqeyd qala, onu həyəcansız seyr edə bilmir. «Ağ qoç, qara qoç» əsəri ilk səhifələrindən məni bu əsərdə ifadə olunan mülahizələrin səmimiyyətilə cəlb etdi. Anar arzupərəst sənətkardır. O, xüsusi ustalıqla istiqbalın yalnız yaxşılı-yamanlı keçmişin təməlində ucaldıla biləcəyi haqqında fikri təlqin edir. Və xalq öz keçmişini unudursa, onun gələcəyi də yoxdur. Anar humanistdir; o, insanların təbiətcə xeyirxah, saf və gözəl olduğuna inam bəsləyir. O, Oruellin «bütün insanlar bərabərdir, lakin bəziləri qalanlarından daha çox bərabərdir» fikrinə istehza ilə yanaşır.

Anarın nəsri doğma yurdun gözəllikləri, tarixi hadisələr, siyasət, mədəniyyət xadimlərinin adları ilə doludur. Bu əsəri oxuyan hər bir adamın ürəyindən belə müfəssəl, belə məhəbbətlə təsvir olunan yerləri görmək həvəsi keçir. Onun nəsri estetik baxımdan orijinal, məlumat zənginliyilə ibrətamizdir. Xüsusən, birinci nağılda o qədər faktlar, coğrafi və tarixi adlar, milli sənət, adətlər, ayinlər adı var ki, kitaba izahat lüğəti əlavə etməli olduq. Anar bir şəxsiyyət, bir yazıçı kimi öz yaradıcılığı ilə iki sivlizasiyanın – Asiya və Avropanın minillik mədəniyyətlərinin sintezini yaratmışdır. Yazıçının mülahizələri bizi Şərq dünyasına – arzular, röyalar dünyasına aparır, bununla belə qəhrəmanlarına xas olan məqsədyönlülük daha çox Qərb individualizmi üçün səciyyəvidir. Hər hansı avtokratiyanın qənimi olaraq, Anar çağdaş insanın amaclarını – onun azadlıq, səadət arzusunu, bütün insanlarla birləşmək istəyini ifadə edir. Əsərin sonunda acınacaqlı gerçəkliklə üzləşmiş qəhrəman yenə də bədbinliyə qapılmır. Onun pak qəlbində hələ də ümid yaşamaqdadır. Bu ümid köklərilə Azərbaycan xalq nağıllarıyla bağlıdır. Və bu ümid qəhrəmanlara tənhalıq və qorxu hissinə üstün gəlməyə imkan verir. Öz oricinal yaradıcılığı, lakonik üslubu ilə, bəzən metafizik ünsürlərə də əl ataraq, Anar öz xalqının taleyindən bəhs edir və müasir Azərbaycan ədəbiyyatında layiqli yer tutur.

Dimitru Balan,
Yazıçı, «Ağ qoç, qara qoç» povestinin Rumin dilinə tərcüməçisi.
Anarın Buxarestdə nəşr edilmiş kitabına müqəddimədən

Slovakiya

Anarın «Altıncı mərtəbə» povesli müasir Azərbaycan yazıçıları, …«altmışıncıların» ən yaxşı təmsilçilərinin yaradıcılığı üçün əlamətdardır. Onların əksəriyyəti üçün, Maqsud və Rüstəm İbrahimbəyovlar qardaşları, Elçin və cavan şairlər üçün müasir varlığın cəhətlərini göstərməkdə keçmişin əbədi kanonlarından (və şablonlarından) qurtulmaq əzmi səciyyəvidir. İnsan münasibətlərinin paklığına nail olmaq istəklərini onlar ilk növbədə bugünkü Azərbaycan gəncliyinin həyati timsalında nümayiş etdirirlər.

Müasir varlığın bədii təsvir vasitələrinin axtarışları onlar üçün eyni zamanda, müasirə, yaxın gələcəyin insanına qarşı mənəvi-əxlaqi tələblərin açıqlanması uğrunda mübarizə, öz qəhrəmanlarının mənəvi saflığı uğrunda mübarizə deməkdir.

Təhminəni povestin əsas qəhrəmanı saymaq olar; əriylə yaşayışı uğursuzdur, onun əri haqqında təsəvvürləri özünü doğrultmamış, o, şəxsi həyatında və işlədiyi yerdə saf münasibətlər arzusundadır.

Ərli Təhminə və subay Zaur arasında yaranan dərin məhəbbətlə yanaşı, povestdə meşşanlıq bataqlığına uğramış Zaurun yaşadığı ailə müfəssəl detallarla təsvir edilir. Təhminə həyat haqqında bəzi istəklərini gerçəkləşdirə bilsə də, bədbəxt icdivacına son qoyur. Televiziyada diktor kimi işə keçsə də, o, ciddi hissi ilə bağlı əngəllərdən o qədər üzülür ki, onları aradan qaldırmağa halı qalmır. Zaur isə valideyinlərinin təsirinə məruz qalır. Və dərk edir ki, heç vaxt rahatlıq tapa bilməyəcək, onu Təhminə ilə bağlayan dərin insani münasibətlərin həsrətini çəkəcək. Anar bu mövzunu problem səviyyəsində göstərir, əsərin bitirməsini oxucuya həvalə edir, onu həyat və özü haqqında düşünməyə vadar edir.

Slovak dilində Anarın «Altıncı mərtəbə» kitabına annotasiya

ABŞ

Maraqlıdır ki, Almaniya Demokratik Respublikasında «Beş mərtəbəli evin altıncı mərtəbəsi» romanının nəşri Amerikada, Oklaxoma Universitetində çıxan «Uorld literatur tudey» («Dünya ədəbiyyatı bu gün») dərgisində də əks-səda doğurmuşdur. Nyu-York Universitetinin müəllimi Ernst Rouzun resenziyasında deyilir: «1938-ci ildə dünyaya gələn nəslin nümayəndəsi olaraq, Anar Sovet respublikası Azərbaycanın inqilabı qaynaqları haqqında bilavasitə şəxsi xatirələrinə malik deyil. Onun diqqəti Bakı şəhərində inkişaf edən yeni texniki ziyalılar və intellektuallar təbəqəsi mühitində məhəbbət problemləri üzərində cəmləşir».

Səbatsız mühitdə insan həyatının çətinlikləri və problemləri çağdaş Azərbaycan ədəbiyyatının başlıca mövzularındandır. Anarın «Otel otağı» kitabındakı povest və heka-

yələr məhz bu səpgidə işlənmişdir. «Vahimə» hekayəsində yazıçı zahirən rahat güzəranlı, lakin daima vərdiş etdiyi həyat tərzini itirəcəyindən xoflanan bir insanı təsvir edir. «Otel otağı» povestində minlərlə həmvətəni kimi öz vətənini tərk etməyə məcbur olmuş bir müəllimdən bəhs edilir. «Qırmızı limuzin» hekayəsində də belə ovqatlar əksini tapmışdır. Bu hekayənin baş personajı başını qaldırıb yağış yağdığını görür və bu da doğma şəhərdə ona tanış olan yeganə görüntüdür. «Sanki bu yağış buludlardan deyil, keçmişdən yağırdı».

Şölə Vətənabadi,
Nyu-York Universitetinin ümumi ədəbiyyat kafedrasının əməkdaşı.
Oklaxoma Universitetinin «Dünya ədəbiyyatı bu gün» jurnalında
dərc olunmuş «Azərbaycan ədəbiyyatında keçmiş, bugün,
gələcək və müstəqillik dövründə bədii fikir» məqaləsindən

İran

Bu dastan o kişilər haqqındadır ki, iradələri ölkələrinin dağları kimi əzəmətli və möhkəmdir. Əziz oxuculara təqdim olunan bu tərcümə böyük müasir yazıçı Anar tərəfindən bəlli «Dədə Qorqud» dastanları əsasında işlənmişdir. Qəhrəmanlıq dastanının üslubu, dastanda anılan surətlər yazıçı tərəfindən özünəməxsus sənətkarlıqla yeni şəkildə canlandırılımşdır. O, Dədə Qorqudun 12 boyunu bir yerə toplayıb vahid məzmunlu əsər yaratmışdır.

(Anarın İbrahim Darabi tərəfindən fars dilinə tərcümə edilən və
İranda nəşr olunan «Dədə Qorqud» povestinə yazılmış ön sözdən)

Sovet hakimiyyət illərində insanların gözləri tutulmuşdu, tarixin təhrif olunmasını, onları susmağa məcbur edəın amansız repressiyaları görmürdülər. Sovet dövrünün əsl mənzərəsinni biz yalnız insanların gözlərini açmağa çalışan yazıçıların əsərlərində görə bilərik. Anarın bir çox əsərləri məhz bu məqsədə xidmət edir.

«O gecənin səhəri», «Dörd çahar», «Ürəyim ağrıyır», «Nisbət nəzəriyyəsi», «İztirabın vicdanı» belə hekayələr idi.

Könül İbrahimqızı,
Ədəbiyyatşünas.
İranda çıxan «Yaşmaq» (2007, Yay nömrəsi)
«Müasir nəsrdə insan və zaman problemi» məqaləsindən

Bu kitabı oxuyarkən düşünürdüm ki, o, eposun indiyə qədər çıxan mətnlərindən və müxtəlif dillərə tərcümələrimndən çox fərqlidir. Bu tamamilə başqa bir «Dədə Qor-

qud»dur, Anarın yaratdığı yeni «Dədə Qorqud»dur. Mahiyyət etibarilə Anar özü də Dədə Qorqud olmuşdur.

Əli Kərimi.
Anarın «Dədə Qorqud» kitabının tərcüməçisinin İran nəşrinə ön sözü

Əziz və möhtərəm dostum Anar Rza haqqında bir neçə söz

Anar bəy Azərbaycanın böyük yazıçısı, ədəbiyyatşünası, dramaturq və ictimai xadimidir. O, uzun illərdir Azərbaycan Yazıçılar Birliyinin sədridir. Və mənim də qədim dostumdur. Anar bəy Güneyli qardaşlarından məni çox istədiyi üçün 70 yaş yubileyi hazırlanan kitabda mənim də bir yazımın olmasını məndən istəmişdir. Mən də onun bu istəyini iftixar hissi ilə qəbul edərək ondan mövcud əsərlərindən numunələr istədim. Və mənə göndərdiyi bir neçə kitab və jurnalı səthi də olsa oxudum. Daha doğrusu göz gəzdirdim. Bu əsərlər mənim tanıdığım Anar bəydən daha böyük, möhtəşəm, qeyriadi bir insanla və bir fenomenlə yəni yeni bir Anarla məni tanış etdi. Deməli mən dostum Anar bəyi yenidən kəşf etdim və onu daha dərindən tanıdım. Və onun zəka, ləyaqət, çoxşaxəli və məhsuldar çalışma-larına heyran oldum. İndi bu neçə sətri onda şəxsən gördüklərimin və haqqında oxuduqlarımın təsiri ilə yazıram. Bu yazımı, 29 ildən bəri müntəzəm şəkildə İranda ana dilimizdə və farsca nəşr etdirdiyim «Varlıq» dərgisində də verəcəyəm ki, İrandakı azəri qardaşlarımız da belə bir şəxsiyyəti daha yaxşı və daha dərindən tanısınlar. Əsasən mən bu baxımdan dostum Anara borcluyam. Çünki o mənim Bakıda və Ankarada keçirilən yubileylərimdə mənim haqqımda çıxış edib və söylədiyi gözəl və mənalı sözləri yubileylər münasibətilə çıxan kitablarda dərc edilmişdir.

Anar çağdaş Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinə yenilikçi «novator» bir sənətkar və ictimai fikir tarixinə öncül bir mütəfəkkir kimi daxil olmuşdur.

60-cı illərdə Azərbaycanda zühür edən ədəbi-bədii fikirdə və milli ictimai təfəkkürün yeniləşmə cərəyanında, Anar digər həmkarlarının önündə gedirdi.

Anar əsərlərində XX əsrdə ölkəsinin keşməkeşli həyatını əks etdirir. Onun yazılarında digər sovet dönəmi yazıçılarından fərqli olaraq fabrika, tarla və əkintilərdən söhbət getmir. Onun yazılarının əsas temaları milli şüur, vətən sevgisi, keçmişi yaşatmaq və çağdaşlara çatdırmaq, fərdi əlaqələr, sevgidir. Onun yazılarında bəşəriliklə milliliyin vəhdəti gözə çarpır. Anar daha çox öz içində yaşayan və fikirləri və dərdləri ilə başbaşa qalan bir şəxsıyyətdir. Onu anlanılmamaq dərdi həmişə narahat eləyir və əsərlərində özəlliklə «Gecə düşüncələri» əsərində bu dərd aydın şəkildə görünür.

Anar böyük bir Azərbaycançı və türk ziyalısıdır. «Azərbaycançılıq haqqında düşüncələrim» ünvanlı məqaləsində öz əsas fikrini beş söz (kəlam)la ifadə edir:

«Azadlıq, müstəqillik, bərabərlik, qardaşlıq və dostluq».

Anar bəyin insan, xalq və vətən sevgisi ilə yazdığı bu məqaləni (20 səhifə) mən «Varlıqda» nəşr etdim və indi onu yenidən diqqətlə bir daha oxudum. Mən müəllifin özünə də dediyim kimi onun bu fikirləri ilə razılaşıram və etiraf etməliyəm ki, onların çoxusu mənim fikirlərim ilə üst-üstə düşür.

Mən möhtərəm dostum Anarın 70 yaşını təbrik edər və ona sağlam, uzun ömür, şadlıq, xoşbəxtlik və uğurlu həyat arzulayıram.

Cavad Heyət.
Paris Cərrahiyyə Akademiyasının üzvü,
Tehran Azad İslam Universitetinin Cərrahi professoru, Azərbaycan Respublikası Universitetlərinin fəxri professoru, «Varlıq» jurnalının sahibi və baş redaktoru

İraq

Anar Rəsul -–təxəllüsü Anar -– Sovet Azərbaycanının ən görkəmli və parlaq gənc yazıçılarındandır.O, çoxcəhətli və zəngint yaradıcıdığa malik gənc yazıçılardandır. Ədəbi səmada Anarın ulduzu çox tez parlamışdır. Qısa müddət ərzində həqiqi istedadıyla özünə yol açan Anarın hekayələri və tənqidi məqalələri ən mötəbər sover qəzet və jurnallarında rus dilində dərc edilməyə başlandı.Hekayəçilik və tənqid sahəsində müvəffəqiyyətlərilə bərabər o, həm də istedadlı ssenariçidir. Anarın öz səsi və ifadəliliyi ilə seçilən fərdi üslubu var.

Cövdət Bilal İsmayıl.
«As-Sakafa» jurnalı.
Bağdad, May, 1973-cü il

Anarın tərtib etldiyi «1500 ilin oğuz şeiri» antolociysinin gerçəkdən XX yüzilin – Əsrin kitabı adlanmağa haqqı var.Bu kitab – bütün türk dünyasına bəxş olunmuş şedevrdir. Yüz illərdən sonra da bu kitab Azərbaycanın və onun böyük yazarı Anarın adını qızıl hərflərlə Mədəniyyət tarixinə yazacaq.

«Əsrin kitabı və Anar» resenziyasından.
«Türkman eli» qəzeti(İraq), iyun, 2002

Məktublar

Əzizim, oğlum, qardaşım, mənim mehriban Dostum, inamlı, etibarlı, ümidli arxam, yoldaşım Anar bala!

Nə üçün bu qədər nigaranlıq keçirirsən? Məgər sən atanın həyatda ilk qədəm qoyduğu gündən mübarizələrdən, həyatın sınaqlarından, illərin, günlərin imtahanından keçdiyini bilmirsənmi? Nə üçün mənim gücüm, davamım, dözüm və iqtidarım haqqında sən şübhə edirsən? Niyə nigaransan? Məgər mən inandığım, seçdiyim həyat və sənər yolunda azmı ədəbi və qeyri-ədəbi mığmığaların sancaqlarını görmüş, dızıltısını eşitmişəm?

Paxıllar zümrəsinin, nadanlar dəstəsinin, talantsızlar güruhunun tənə daşları hansı sənətkarı yolundan qaytara bilmişdir?Məgər sən mənim az-çox sənət adamları qəbilindən olduğuma şübhə edirsən?

Anarım! Mən axır günlər yumoristik şeirlər yazıram. Bu son hadisələrə mənim necə baxdığıma sübut deyilmi? «Karvanımız gedəcək…» şeri yadında deyilmi? …Oğlum! İnsan anlamağa qadirdisə, heç bir məhrumiyyət, çətinlik, zərbə onu sarsıda bilməz. Mən xoşbxətəm ki, anlamağa qadirəm. Bu söz sənə özündən dəm vurmaq, «özünü bəyənən ağam vay!» qəbilindən gəlməsin. Mən söz gəzdirən ədəbi f… nə üçün belə etdiklərini anlamasaydım, qəzəblərinə səbəb olan nədir bilməsəydim, bügunkü yeni ədəbi cərəyanın, xüsusiylə Azərbaycan şeirində hər gün daha artıq bir qüvvətlə səslənən yeni şerin mübarizələrinin bir sıraya toplandığını anlamasaydım bəlkə də məyus olar, ruhdan düşərdim.Bütün bunların şah səbəbini aydın-aşkar gördüyüm üçün, anladığım üçün bu hadisələr (əgər bunları hadisə adlandırmaq olsa) məndə bir təbəssümdən, bəlkə də təəssüfdən başqa bir şeyə səbəb olmur. Yeni yaradıcılıq səfərinə, yeni mübarizələrə özümdə hər zaman olduğundan artıq qüvvət hiss edirəm.

…Yeni şeirlər yazıram. Gələcək yarış və mübarizələrə qüvvət toplayıram.Sən bilirsən ki, yarışı qazana bilmək üçün biz üçqat artıq layiq olmalıyıq. O gün sənlə danışanda mən səsində bir məyusluq çaları duydum. Nə üçün? Son zamanlar işləyə bilmirdim. Fikrimi toplaya bilmirdim. Sənlə danışandan sonra elə bil ki, qəlbimə sakitlik, fikrimə bir aydınlıq gəldi. Oturub yazmağa başladıim. Bu sikldən olan birinci şeiri sənə göndərirəm.

Kim nə desə inanma. Sənin atan kefi kök, damağı çağ, əlində hələ gücünü, axtarışını, yeni boyalarını itirməmiş bir qələm olaraq «Bənzəyir bir qocaman dağə ki, dəryadə durur».

…Məni Balakən rayonundan deputatlığa namizəd veriblər. Həyat belədir, oğlum, gün çıxır, göy buludlanır, yaz olur, qış olur. İnsanın ən böyük ləyaqəti ondadır ki, bütün

bu istilər, soyuqlar, işıqlar, qaranlıqlar içində yolunu İnsan kimi keçsin. Bəlkə də ədəbi mığmığalar bu sözləri oxuyub «Yenə də mücərrəd İnsan» – deyə dızıldayarlar. Olsun. Konkret heyvan olmaqdan mücərrəd İnsan olmağın nəyi pisdir?

Mənim Anarım, səni və sənin Zemfiranı öpürəm.
Rəsul (R.Rza)

Anarın şərhi: *1962-564 -cü illərdə Moskvada təhsil alanda atam məni bir neçə Bakı qəzetiinə abunə yazdırmışdı. Hər həftə «Ədəbiyyat və incəsənət» qəzeti gəlirdi və hər həftə onun səhifələrində Rəsul Rzanın «Rəngləri» haqqında bir-birindən kəskin və bir-birindən cahil yazılar oxuyurdum.Onların bəzilərindən parçalar bu kitabın əvvəlində verilib.*

Anarım! Səni anadan olduğun gün münasibətilə təbrik edir, bağrıma basır, bərk-bərk öpürəm. 26 il əvvəl sən yox idin, mən tək və kimsəsiz idim. Sonra sən dünyaya gəldin, təsəvvür edə bilməyəcəyin qədər sevinc gətirdin, ümid və məna gətirdin, sağ ol oğlum, dostum və yoldaşım… Anarım, hərənin bu dünyada bir ehtirası var, mənimki yalnız əməkdir, çox kiçik yaşlarımdan zəhmətə öyrəndiyim üçün işsiz dayana bilmirəm, Ömürümün bir hissəsi yazı masası arxasında qalın-qalın kitabların tərcüməsi, ya mütaliəsi ilə keçib, zalım ürək vəfasız çıxdıqdan sonra isə mən mətbəxə, piltə başına keçmişəm. Mən havayı çörək yeməmişəm. Əgər paltar təknəsinin arxasında, pilta başında, yaxıd yazı stolumun arxasında ölsəm, özümü ən xoşbxət adam hesab edərdim. Bu günə qədər heç kəsə yük olmamışam, bu gündən sonra da olmaq istəmirəm.Bu sözlərin səmimi olduğuna inan, Bilmirəm bunları sənə nə münasibətlə yazıram, ancaq üzündəki istehzalı təbəssüm görürəm. Əgər yersiz söhbətdirsə bağışla. Zemfiraya çoxlu salam… Öpürəm bərk-bərk.

Anan Nigar (N.Rəfibəyli).
10 mart, 1964

Əziz, hörmətli Anar!

Valideynləriniz haqqında xatirələrimi Sizə göndərirəm. Mən sizi ləyaqətli övlad kimi, diqqətli araşdırıcı və ziyalı kimi tanıyıram və istəyirəm ki, xatirələrim sizin arxivinizdə qalsın. Bu xatirələr mənim gənclik rəfiqəm, Sizin ananız Nigar haqqında və atanız, Şaiqin ifadəsinə görə «ipək kimi yumşaq və qılınc kimi kəsərli» Rəsul Rza haqqındadır. Bu gözəl müasirlərim haqqında xatirələrim vaxtilə «Ədəbiyyat qəzeti»ndə dərc olunmuşdu. İndi bir az zəifəm, səhhətim yaxşılaşan kimi o xatirələri tapıb sizə göndərəcəm. Onların xatirə günləri qeyd olunarkən məni unutmamağınızı xahiş edirəm. Səhhətim imkan versə mən də onlar haqqında bəlkə də sonuncu dəfə bir neçə söz demək istərdim.

Bu gün mən – bu günəm
Sabah – keçmişəm.

Əzizim, bu xahişim sənin sədr və deputat olmağınla əlaqədar deyil. Mənim xahişim tamamilə təmannasızdır. Mənim təmannam yalnız onadır ki, bizim əsl ziyalılarımız çox olsun. Siz belə zyalılarımızdansınız. Mənim istəyim odur ki, hər kəs layiqli qiymətini alsın. Mən bunu özümçün yox, xalqıma xidmət etmək üçün istəyirəm.

Dərin hörmət və məhəbbətlə,
Mirvarid Dilbazi,
28.XII.96

Под впечатлением только что просмотренного художественного телефильма о гордости азербайджанской музыкальной культуры Узеирбеке Гаджибекове, спешу поздравить Вас, дорогой Анар, с большой удачей в создании замечательного произведения искусства, достойного памяти великого композитора. Крепко жму Вашу руку и желаю новых достижений в Вашей многогранной деятельности.

Азиз Шариф.
17 ноября, 1985, Москва

Azərbaycan musiqi mədəniyyətinin fəxri Üzeyir bəy Hacıbəyova həsr olunmuş bədii televiziya filminin – indicə gördüyüm filmin təsiri altında əziz Anar, sizi təbrik etməyə tələsirəm. Sizi böyük uğurla – dahi bəstəkarın xatirəsinə layiq gözəl sənət əsəri yaratmağınız münasibətiylə təbrik edir və çoxcəhətli fəaliyyətinizdə Sizə yeni uğurlar diləyir, bərk-bərk əlinizi sıxıram.

Əziz Şərif.
17 noyabr, 1985, Moskva

Əzizim Anar!

Xalqımız sənin çoxcəhətli yaradıcılığına, duyğularına yüksək qiymət verir. Bunu sən qazanmısan! İndi daşıdığın çox mühüm vəzifə – ədəbmiyyatımıza-mənəviyyatımıza rəhbərlik eləmək sənin üzərinə tarixi vəzifələr qoyur. Mənəviyyatın bütövlükdə tərəqqisinə can yandırmaqdan çox asılıdır. Ümid eləməyə çoxlu əsas var ki, sən bu həlledici sahədə də yüksək nailiyyətlərə çatacaqsan… Məhəbbətlə, səmimi qəlblə cansağlığı, yaradıcılığının yeni-yeni zirvələrini diləyirm. Sənin başçılığınla hamının göz qoyduğu, xalqımızın böyük-böyük ümidlər bəslədiyi təşkilatımız qüdrətli bir əlin sağlam barmaqları kimi birləşsin, amalımız, xalqımız, irəliləyişimiz yolunda hünər göstərsin.Bizə hər mətləbdən birlik irəlidir, birlik vacibdir. Öpürəm, təbrik edirəm.

Bayram Bayramov,
14 mart, 1988

Hörmətli Anar!

Mənə verilən mükafat məsələsinə özüm qəsdən bir qədər sonra, ayıq düşüncə ilə və soyuq başla münasibət bildirmək istəyirəm. Bu, əvvəllər olğuğu kimi, verilməyə də bilərdi, ədəbiyyat elə bir şey itirməzdi. Ancaq mənim üçün Sizin tərəfinizdən olan qayğı, təkid və prinrsipiallıq qiymətlidir. Bu münasibət mənim boyuma ciddi məsulliyyət qoyur, məni bacardıqca daha çox işləməyə, zaman qarşısında, sənət qarşında, xalq qarşısında, öz qarşımda hesabat verməıyə, doğru sözün qulu olmağa çağırır.

Sizə və mənə səs vermiş bütün sənət yoldaşlarıma təşəkkür

Hörmətlə,

Məmməd Araz.
26 may, 1988

(Anarın şərhi: *Daha əvvəlki illərdə Məmməd Araz Respublikanın Dövlət mükafatına təqdim olunmuş və bu mükafatı almamışdı. Mən bunu gözəl şairmizə qarşı böyük ədalətsizlik sayırdım.Yazıçılar təşkilatının rəhbəri seçilən kimi elə həmin il Məmməd Arazı yenidən bu mükafatı təqdim etdim və başlqa iddiaçılara: «bu il biz yalnız Məmməd Arazı təqdim edirik və yalnız onu dəstəkləyəcəyik» – dedim. Mükafatlar Komitəsində də şairin namizədliyini müdafiə etdim və o, layiq olduğu mükafatı aldı. Məmməd Arazın mənə məktubu isə alicənab və təvazökar insanın nəcib hərəkətidir).*

Anar, salam

Əsərini oxudum. Sevindim. Lap çox sevindim. Ən yaxşı cəhəti budur ki, əsərdə mənfi tip yoxdur. Nə mənfi, nə müsbət. Hamısı adamdı. Yaxşı adamdı. Düşünəndi. Ağıllı adamlardı. Cildanın, Karmenin dili, Zaurun məktubu və i.a. hamısı yaxşıdır. Təhminə, Neymət… Adam bilmir onların hansı bizə daha çox oxşayır. Amma Neymətin ikinci zənginə inanmadım. Allah eləsin ki, neymətlər mütilik torundan açıla bilsinlər. Mən onunçün inana bilmədim ki, birinci zəngi çox inandırıcı vermisən.

Qardaş, hər halda böyük müvəffəqiyyətdir, qələbədir. Əsil qələbə. Amma hərdən birdən şairlik edirsən(bənzətmələrdən: Məmməd Nəsir qapıdan elə bil ki, üzür istəyirdi və i.a.)

Bu başıpozuq məktubuma görə bağışla. Əsər haqqında məqalə yazıram. Bəlkə də yazıb özümlə apardım, bəlkə də göndərdim. Qalıb bir az da işləmək, dincəlmək istəyirəm. Heç nə işləməmişəm.

Amma onu da deyim ki, əsər haqqında pis rəylər söylənəcək, səni qorxutmasın. Mən uzaqdayam. Bəlkə orada vəziyyət elə deyil. Allah eləsin. Amma Bakıdakı hampaların zövqünə bələdəm. Bilirəm bu yekə şey o dar boğazlardan bütünlüklə keçməz, boğazlarını cıracaq, incidəcək. Küsəcəklər. Amma əla əsərdir. Deyəsən səni çox tərifləmdim. O da lazımldır. Lap yaxşı eləyib tərifləyirəm.

Sağ ol. Məndən hamıya salam.

Fikrət Qoca

Qardaşım Anar! Məktubunu aldım. Həm sevindim, həm kədərləndim. Məktubun çox yaxşı, ağıllı məktub idi… Amma sənin ruhun xoşuma gəlmədi. Darıxırsan. Axı niyə? Nə olub? Bir az etinasız ola bilmək müvəffəqiyyətin başlanğıcıdır. Bütün bu hadisələr hamısı bizi əsəbiləşdirmək, bədbinləşdirmək üçündür. Biz onların niyyətini gözündə qoymalıyıq. Gülməliyik. Bacarmasaq da, çətin də olsa gülməliyik.Bunun əhəmiyyəti çoxdur. Biz elə bir dövrdə yaşayırıq ki, talantımız varsa, o talantın yanında böyük aktyorluq istedadımız da olmalıdır. Gülməyi bacarmalıyıq. Lap ürəyimiz ağrıyanda da gülə bilməliyik. (Bunlar mənim də edə bilmədiyim şeylərdir, sənə deyə-deyə özüm üçün də təkrar edirəm). Yazırsan ki, son vaxtlar yeni heç bir yazın yoxdur. Bu çox təbiidir, hələ səndə düşdüyün yeni şəraitə vərdiş etmək prosesi gedir. Stolun da, stulun da təzədir. Hələ yaxşı isnişməmisən. Hamısı onlan irəli gəlir və və mən inanıram ki, bü sənin yeni yazıların üçün hazırlıq dövrü olacaq.

Dərnəyimiz davam edir. Mənim kitabçamın redaktoru Rəsul müəllimdir. Burada elə bir əsaslı yenilik yoxdur... Hürənlər də sənin qanını qaraltmasın. Onlar da lazımdır. Həyətə təzə adamın gəldiyini birinci onlar xəbər verir. Susmaq və sükutla qarşılanmaq daha dəhşətli olardı. Darıxma. Bir 5-10 ildən sonranı təsəvvürünə gətir: Mütləq biz qalib gələcəyik. Bu günlər gülməli görünəcək. Biz Rəsul müəllimdən birinci növbədə nikbinliyi, sarsılmaz ruh yüksəkliyinmi öyrənməliyik. Düşmənə ən ağır zərbə onu saymazlıqdır. Ona etinasızlıqdır. Deyəsən ağıllı bir şey deməyəcəm. Odur ki, məktubu bitirməyim ağıllı görünər. Sənə və Zemfira bacıma çoxlu salamlar.

Məktubunu gözləyəcəm.

Fikrət Qoca.
29 noyabr, 1963

Əziz Anar!

Sənin mənalı ömrünün altıncı onilliyini, eləcə də müstəqil Azərbaycanımızın bir nömrəli ordeni olan Milli İstiqlal ordeni ilə təltif olunmağını, həm də yazıçı kimi ilk ordenini ürəkdən təbrik edir, sənə bundan sonra da uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Sən parlaq şəxsiyyət, gözəl sənətkar, həqiqi insansan. Xoşbəxtlikdən ulu tanrı, eləcə də tanrıya yaxın ölməz valideynlərin sənə böyük insan, qələm sahibi üçün lazım olan hər şeyi veriblər.

Birinci, sənə son dərəcə saf, həssas, hər cürə riyadan uzaq, geniş, səxavətli bir ürək bəxş olunub, ağıl, zəka verilib, ədəb-ərkan payı qismət olub.

İkinci, sənə tanrıdan, soy-kökündən gələn istedad nəsib olub. Bu da hər qələm sahibinə qismət olan səadət deyil.

Üçüncü, dediyim ulu qüvvələr sənə xalqı, milləti, hamımızın əbədi sevinci və narahatlığı, səadəti və nisgili olan para-para paralanmış Azərbaycanımızı qəlbinin bütün rişələri, qanının bütün hüceyrələri ilə sevmək, hər bir əzabını çəkmək xoşbəxtliyi, onun adını, amalını çox-çox uzaqlara yaymaq missiyası tapşırıb.

Dördüncüsü, sənin bütün xislətin, təbiətin, nəcabətin ilə nadir ziyalı, nadir mədəniyyət sahibi, nadir insanlığındır.

Yeganə arzum-umacağım budur ki, uzun illər yaşa, yarat və yuxarida sadaladığım o yüksək insani məziyyətləri göz bəbəyi kim qoru, saxla!

Hörmətlə,

Cabir Novruz

P.S. Bilə-bilə əlyazmasında ürək sözlərimi sənə təqdim edirəm. Çünki, mənə elə gəlir ki, onları yazı makinasilə varaqlara köçürüb sənə təqdim etsəydm, bəlkə də ləzzəti, tərəvəti, hərarəti itə bilərdi.

14 mart

Hörmətli Anar!

SSRİ Xalq deputatı seçilməyin münasibətilə Səni ürəklən təbrik edərəm, qarşındakı məsul ictimai fəaliyyətində Sənə böyük uğurlar arzulayıram.

Bildiyin kimi, bir neçə ziyalımıza, o cümlədən Sənə mən milli ümid nəzəri ilə baxıram. Gerilikdən çıxmalıyıq, hələ də davam edən həyasız və alçaq hücumlardan xalqımızı qorumağı bacarmalıyıq. Tariximizin indiki ağır dövründə bu cərgədə gedənlərdən xalq çox şey gözləyir. Bu yolda Sənin yükün daha ağırdır. Odur ki, sənə möhkəm cansağlığı arzu edirəm. Daha güclü, daha zorlu olasan! Zemfira xanımı hər iki xoş hadisə ilə – fəxri ad alması və Sənin «böyük deputat» olmağın münasibətilə təbrik edirəm. Həmişə xoşbəxt olun!

Rəsulun, Nigar xanımın ruhları şad olsun.

Sənin

Teymur Əliyev.
28 mart, 1989

Əziz və hörmətli Anar!

Səni SSRİ xalq deputatı seçilməyin münasibətilə səmimi təbrik edir, can sağlığı, yaradıcılığında böyük nailiyyətlər arzulayıram. Belə olsun həmişə.

Fikrət Əhmədov.
5 aprel, 1989

Əzizim Anar, səni SSRİ Xalq deputatı seçilməyin münasibətiylə təbrik edirəm. İnanıram ki, sən ən uca kürsülərdən xalqımızın qanuni haqqını, ədəbiyyatımızın şərəfini ləyaqətlə tələb və müdafiə edəcəksən.

Hörmətlə,

Tofiq Bayram

Hörmətli Anar!

«Dədə Qorqud» motivləri əsasında çəkilmiş filmə baxandan sonra Cəlil Məmmədquluzadəyə dair məqalənizi oxudum. İkisindən də böyük zövq aldım…Uzaq və yaxın keçmişimizi bu qədər müasir gözlə oxumağınıza heyran oldum. Ssenarilə məqalənizdə – təxəyyüllə elmi idrakın vəhdətinə qibtə etdim. Məqaləni oxuyandan sonra ssenaridə məxəzə sərbəst münasibətinizin səbəbləri, sücet və epizod yerdəyişmələri, Qazanın taleyi, «Dədə Qorqud»a bənzəməyən final mənə aydın oldu. Bəzi lövhələri müasirləşdirmək cəhdiniz də güman ki, mənə düzgün çatdı. Yeddi gün-yeddi gecə ağlayan Qazanın adam üzünə çıxmamasını da başa düşdüm. Mənə elə gəlir ki, Qazan ona sadiq olan bir igidə, başı bəlalar çəkmiş bir qeyrətli adama ağlamır, həm də qohum və tayfa qanını tökən əllərinin törədəcəyi fəlakətə, qan intiqamı üçün qılıncların qından çıxarılmaq bəlasına ağlayır – rüsvayçılıq, pərakəndəlik, yadlaşmaq gətirən bir bəlaya ağlayır.

Görmüşük ki, bir köksə bir nizə sancılardı.Qazan, polad köksünə sağdan və soldan sancılmış nizələri cəhd etsə də necə çıxara bilər? (Bu Qıpçaq Məliyin toru deyil ki, Qazan onu parçalasın və sonra köhlən belinə sıçrasın!).

Qazanın ssenaridəki şəkildə köhləndən aşması, arxası üstə yerə gəlməsi, onu torpağa mıxlamaq istəyənlərin gözlərinə baxması dəhşətlidir!

Ağıllı, düşünülmüş, incə yerdəşimələrin hamısı gözəldir! Sizi tərifləməyə ehtiyac duymuram, tərif gözləməyə Siz də gərək meylli olmayasınız. Sizə üç kəlmə sözüm var: Çox sağ olun!

Pənah (P.Xəlilov).
28 yanvar, 1977

Salam Anar

Səbrsiliklə martın axırını gözləyirəm ki, səndən ssenarinin birinci variantını alım. Heyf ki, sənlə çox danışa bilmədik və aydındır ki, bir qısa görüş zamanı hər şeyi dəqiqləşdirmək çətindir. Mənə elə gəlir ki, söhbətimiz zamanı gələcək filmin formasına az diqqət yetirdik. Bu isə əsas məsələdir.

Mən belə başa başa düşdüm ki, sən gələcək filmi sənədli film kimi (əlbəttə poetik formada) təsəvvür edirsən. Əlbəttə bu da maraqlıdır. Gerçəklik və həqiqilik oçerki maraqlı və emosional edir. Bilirsən ki, sənədli kinoda indi iki cərəyan var: 1. Sırf reportaj və xronika çəkilişi. 2. Olmuş faktların təşkili və ya bərpası-yəni səhnələşdirmə. Mənə elə gəlir ki, hər ikisi məqbuldur. İstərdim ki, bizim filmdə hər ikisi üzvü vəhdət təşkil etsin. Bunu ona görə yazıram ki, hər səhnəni yazanda bunun ekranda nə dərəcədə inandırıcı görünəcəyini nəzərə al. Burda çox şey sənin tapıntından asılı olacaq. Əsas iş ümumi formanı və oçerkin ümumi həllini tapmaqdır. Başa düşürəm ki, bütün bunları kağızda yazmaq asan, ssenaridə əks etdirmək çətindir, amma çalışmaq lazımdır. Əminəm ki, biz yaxşı bir film yarada biləcəyik. Yeri gəlmişkən iki hissəli film olmalıdır, daha uzun olsa maraqsız olar və prokat üçün də yaramaz. Dünən «Paris gecəsi» oçerkinə baxdım. Bir

neçə il bundan əvvəl çəkilib, Qəribə də olsa(həm də sevindim) maraqlı bir şey yoxdur bu filmdə. Vaxtın olsa yaz, işə başlamısanmı və ümumiyyətlə nə kimi fikirlərin var.

Hələlik,

Salamlarla,

Rasim (Ocaqov).

R.S. Xahiş edirəm «Toy», «Əməliyyat» və «Bəstəkarın yanında» epizodlarını mütləq ssenariyə daxil et. Mən bunları yaxşı görürəm.

(Rus dilində yazılmış məktubun tərcüməsi).

***(Anarın şərhi:** 1962-64-cü illərdə Moskvada Ali Ssenari kurslarında oxuduğum zaman o vaxt kinoda yalnız operator kimi çalışan Rasim Ocaqov mənə Bakı gecəsi haqqında sənədli filmin ssenarsini yazmağı təklif etmişdi. Bu onun rejissor kimi ilk işi olacaqdı. Nədənsə bu niyyətimiz baş tutmadı və çox illər sonra Rasim mənim ssenarilərim əsasında iki bədii film çəkdi: «Təhminə» və özünün son filmi «Otel otağı»).*

Anari, mən çox güman ki, ancaq ayın axırlarında gəlib çıxa biləcəyəm, Burada iki məsələ var. Biri bizim Naxçıvan səfərimiz. Gecikməyimin buna dəxli yoxdur. Gələn ayın əvvəllərində səfərə çıxa bilərik.O biri məsələ komsomol mükafatı məsələsidir. Qorxuram Cəmil (*«Azərbaycan gəncləri» qəzetinin o vaxtki baş redaktoru Cəmil Əlibəyov nəzərdə tutulur – **red.***) mənə badalaq gələ. Bu məktubu da, düzü, elə bu məsələyə görə sənə yazıram. Çünki orda mənim bu məsələ ətrafında bir söz deyə biləcəyim ikinci adam yoxdur. Anari, bilirəm, səni çətinə salıram. Ancaq başqa əlacım yoxdur. Mümkünsə bir az göz-qulaq ol. Mən istəyirəm o mükafatı alım, get-gedə daha çox hiss eləyirəm ki, lazımdır! Bilirəm ki, əgər Cəfər kişinin (*o vaxt MK-nın idelogiya üzrə katibi Cəfər Cəfərov nəzərdə tutulur – **red.***) xəbəri olsa, məsələ mənim xeyrimə həll olunacaq. Ancaq çox mümkündür ki, məsələni ondan ötürsünlər. Onda gərək sən Rəsul müəllimə deyəsən, onu da zəhmətə salasan zəng eləsin. Anari, bütün bunların, bu zəhmətin nə olduğunu mən başa düşürəm. Daxilən xəcalət çəkirəm və ancaq bir şeyə ürəklənirəm, o da taleyimi sizinlə birləşdirməyimdir. Bilmirəm nə dərəcədə buna haqqım var, ancaq mənə elə gəlir ki, bütün bunları sənə yaza bilərəm. Nə isə, mirzə, bu qədər. Özünə eşq olsun.

Sağ ol.

Sənin Əkrəmin (Ə.Əlisli).
20.X.68.

P.S. «Mən əlbəttə dərhal atama bu barədə dedim və o da Cəfər Cəfərovdan Əkrəmə komsomol mükafatı verilməsi barədə xahiş etdi. Mən özüm də Cəfərovun yanına getdim, xahiş etdim ki, bu ilin komsomol mükafatlarını Əkrəmə və Fikrət Qocaya verilməsinə kömək etsin (Fikrət özü bu barədə nə mənə, nə atama heç bir söz deməmişdi).

Cəfərov əvvəl xahişimi zarafata saldı: – Bəlkə bu mükafatı elə sənə verək, – dedi. – Yox, – dedim, – işdi mənə versələr, imtina edəcəm. Yenə zarafait elədi: – Pasternak Nobel mükafatından imtina edən kimi? Ancaq fikrimin ciddi olduğunu görüb: – Yaxşı, – dedi, – sənin Əkrəminlə Fikrətinə verərik. Sonra Cəfər Cəfərov bu əhvalatı atama danışıb: «Anarın da qəribə xasiyyəti var ey, bu xasiyyətlə yazıçılar arasında çətin baş çıxarda»... Uzaqgörən adam imiş və yazıçı əxlaqına yaxşı bələdmiş».

Anarın «Mübarizə bu gün də var» kitabından. Bakı, «Nurlan» nəşriyyatı, 2002.

Əzizdən əziz olan, qardaşımın qardaşı Anar! Salam. Əkrəm yazanda ki, Anarla Əylisə gələcəyik, sevindim. Nə gizlədim, həyəcan da keçirdim, həmin görüşün ümidilə Anarla öz aramda qiyabi söhbətlər də oldu. Xəyal müftə də olsa, adamı yaşadır. Yarım saatlıq çay stolu arxasında, özümü sərbəst hiss elədim. İndi Anara qısaca məktub yazmaq ehtiyacı hiss edirəm,

Bir vaxt şeir azarına tutulmuşdum. Sabir kəndində müəllim idim, həftənin son günləri Əylisə gələndə yolumu mütləq Ordubadın kitab mağazasından salırdım. Bir dəfə səfərim uğurlu olda, «Dözüm» kitabını aldım – səbrim çatmadı, yolu gedə-gedə vərəqləri çevirirdim, vərəqləri çevirdikcə zehnim işıqlanırdı. Göy üzündə təbiətin payızına məxsus qəribə bir işıq vardı. Mən hiss etdim ki, şeirin də təbiət-günəş işığı kimi öz işığı olur. «Dözüm» – «günəş içmiş üzüm».

Çox-çox qabaqlar anamın əlində latın əlifbası ilə «Qanadlar» kitabını görmüşdüm, «Çinar» şeirini onun dilindən əzbər eşitmişdim (Anam indi də kefi duru olanda şeir deyər).

Sonralar «Üzü küləyə», «Vaxt var ikən» kimi şairin neçə-neçə kitabını oxudum. Ancaq mən Rəsul Rzanı böyük şair kimi 1965-ci ilin həmin payız günü kəşf etdim və qəlbimdə təbiətin o qəribə işığı ilə yanaşı Rəsul şeirinə məxsus «dözüm» işığı yarandı. Dərsdə soruşdular ki, «Yazıçı Anar üstündür, yaxud dramaturq Anar?» Mənə elə gəlir ki, Anar iki deyil, yazıçı Anar həm də dramaturq Anardır və əksinə dramaturq Anar da yaşıçı Anardır. Anar sadə və səmimi insan kimi hamıya əzizdir. Həmişə əziz olasınız.

Siz çayın o səmtində olanda mən Ənvər (*Ənvər Məmmədxanlı* – ***red.***) müəllimlə söhbət eləyirdim. Dedim ki: «Əkrəm Anarı eşidər, xahiş eləyək səmt yerdən torpaq götürsün, O da dedi ki: «Əkrəm özü o yeri xoşlayır».

Mən torpağa kəndli gözü ilə baxıram, ailənin ehtiyacını ödəmək naminə yazıram. Əkrəm kənddən erkən aralanıb. Tək-tənha özünə yol açа-açа mərd-mərdanə yaşayıb. Kəndin indisinə bələd deyil. O səhv edə bilər. Mənə görə də yer əladır, ancaq uyğunsuzluq var, eldən uzaq olmak imkanları azaldır. Bunun qışı var, qarı-yağışı var, işıq çəkilməsi, yolu-rizi var. Evin tikilməsinə başlayanda da bəzi çətinliklər ortaya çıxacaq. Anar müəllim, Sizə baş ağrısı verdim. Bu barədə yəqin danışmısınız. Mən bilən, ev kəndə yaxın olmalıdır. Dədə-babadan insanlar qonşu olublar. Təkid eləməyə, göstəriş verməyə mənim nə haqqım çatır.

Cavid Naibov.
Əylis. 5 iyun

Anar, sənin amansız özünittihamınla : «Həyat bitdi, ondan yazmaq zamanı gəldi» fikrinlə heç cür razı ola bilmərəm. Həyatımız, heç nəyə baxmayaraq davam edir, yaxınlarımız sağdır, hələ də düşünmək, yazmaq, görüşmiək, səfərə çıxmaq, təmasda olmaq, nəyisə öyrənmək, bilmək istəyirik. Tez-tez təkrar edirəm: sənin həyvatıma daxil olmağın taleyin mənə hədiyəyəsi idi və bu hədiyyə bütün ömrümü dəyişdi. Amma indi başa düşürəm ki, məsələ təkcə məndə deyilmiş. Milli mədəniyyətə bağlılığın, maarifçilik amalın səni məcbur edir ki, ömrün boyu hər bir istedadı müdafiə edəsən, özu-özunu müdafiə etməyi bacarmayan istedadları da. Ona görə də sən bu qədər iş görə bilmisən, yaratmısan, yazmısan, ədəbiyyatda, kinoda, teatrda iz qoymusan, müxtəlif məclislərdə, beynəlxalq ədəbi, siyasi, elmi toplantılarda dərin zəkanın, natiqlik məharətinin bəhrəsi olan çıxışlar etmisən, Və nə qədər insana kömək etmisən, neçəsinə dayaq olmusan, neçəsini müdafiə etmisən. Və nə qədərinə yeri gələndə sərt və qəti cavablar vermisən. Mən «Azərbaycan mədəniyyəti tarixi» kursundan dərs deyirəm.Və qeyri-ixtiyarı başqalarından çox sənin yazılarından istifadə etməyi tələbələrimə tövsiyyə edirəm. «Kitabi Dədəm Qorqud»dan bəhs edəndə də, böyük Mirzə Cəlildən, Zərdabidən danışanda da, hətta xalçadan söz düşəndə də. Əgər desəm ki, sənin yazıların əsasında Azərbaycan ədəbiyyatı tarixi kursunu keçmək olar – bu heç də şişirtmə deyil. Amma sənə bir iradım da var. Nahaq yerə son vaxtlar qəzetlərdə yer alan hər föhşə-böhtana reaksiya verirsən. Belə yazıları yazanlar sovet dövrünün irsindən qurtara bilməyən, yəni kompleksli, əzilmiş, alçaldılmış insanlardır. Belə adamlar heç cür başa düşmür ki, insan ləyaqətini, ziyalılığını, aristokratlığını qoruyub saxlaya-saxlaya həm də uğurlar qazana bilər. Hələ görüləcək o qədər çox işin var ki, paxılların hər axmaq sözünə məhəl qoymamalısan.

Rəhman Bədəlov.
(«Xoşbəxt əsir» («Счастливый пленник»)
başlığıyla Anara yazdığı açıq məktubundan.
«Mir literaturı» qəzeti, mart, 2008

Əziz Anar göndərdiyin kitab üçün sağ ol, bu kitab çoxşaxəlidir, zəngindir, ensiklopedikdir, sözün yaxşı mənasında subyektivdi, individualdı, vətənimin ən istedadlı insanlarından birinin yanaşmalarını, fikirlərini, duyğularını, maraqlarının müxtəlifliyini açır.

Bu yazılardan çoxunu oxumuşdum, amma bir yerdə toplu halında onlar milli (və tək milli yox) mədəniyyətin mükəmməl həcmini göstərir. Bir daha təşəkkür. «Ailə sirrlərini» oxuyub başa çata bildinmi? (*Ç.Hüseynovun Anara göndərdiyi «Ailə sirrləri» romanı nəzərdə tutulur* – ***red.***) Verəcəyin hər hansı qiyməti qəbul etməyə hazıram, mən küsub inciyənlərdən deyiləm və öz zəif cəhətlərimi çox gözəl bilirəm. Sənin

Çingiz Hüseynov.
27 mart, 87, Moskva

Əziz Anar, salam!

«Azərbaycan» jurnalından «Dədə Qorqud dünyası» adlı əsərinizi böyük maraqla oxudum. Elə bil ki, yeni bir Anarla tanış oldum. Siz həm də böyük alim imişsiniz! Bu, çox orijinal, yüksək səviyyədə yazılmış elmi bir əsərdir. Həm də istedadlı yazıçı qələmi ilə yazılığı üçün hamıya maraqlıdır! Adam onu oxuyanda həm bədii zövq alır, həm də elmi məlumat qazanır.

Mən təsəvvürümə gətirirəm ki, siz onu yazanda böyük zəhmət çəkmisiniz! Məhz yazıçı (özü də istedadlı yazıçı) əsəri yazarkən nə qədər çox zəhmət çəkirsə, oxucu onu bir o qədər rahat oxuyur. Mən «Dədə Qorqud dünyası»nı oxuyanda Sizin təvazökar, təmkinli və səbrli simanızı bir daha gördüm. Bu əsər neçə müddətə yazılmışdır, onu yazmaq qənaətinə nə vaxt gəlmişsiniz? Elə bilirəm ki, onu hələ orta məktəb illərindən yazmağa başlamısınız. Əlbəttə, hərfi mənada necə deyərlər, onu yazmaq üçün masa arxasında o vaxt oturmamısınız. Hər halda bu mövzu uşaqlıqdan sizin fikrinizdə yaşamışdır. Ortaya çox dəyərli bir əsər qoyulmuşdur. Ədəbiyyatımızda 4-5 maraqlı romandan daha geniş mövqeyə layiq bir əsər! O, ədəbi əsər olmaqla bərabər həm də tarixi əsərdir. Azərbaycan tarixini möhtəşəm bir saray şəklində təsəvvür etsək «Dədə Qorqud dünyası» onun əzəmətli sütunlarından biri olar.

Mən inanıram ki, əsər kitab şəklində çap olunana qədər ona yeni əlavələr edilər. Xüsusilə istərdim ki, Dədə Qorqudun bədii sərvətlərindən, üslub dəyərlərindən, özünüz demişkən bir ədəbi əsər kimi təkrarsız gözəlliklərindən geniş danışasınız. Bunu başqasının ümidinə qoymaq lazım deyil. Kim bilir, bir də hansı Qorqudçu sizin qədər poetik istedada malik ola bilər, bədii detalları sizin kimi təhlil etməyə imkanı olar! Mənə elə gəlir ki, ayrı-ayrı misraların, sözlərin, ifadələrin təhlili zamanı hələ yeni-yeni sirlər də açılır.

Sağ olun!

Şəkər Aslan.
24 dekabr, 1985-ci il

Əziz Anar!

«Ağ liman» povesti bizim nəsrimizin ən görkəmli əsərlərindəndir.Sizin üslubunuz, poetik ifadə tərziniz vicdanlı və savadlı oxucular tərəfindən şübhəsiz yüksək qiymətləndiriləcəkdir. Dilinizin obrazlılığı məni sevindirir. Mən həqiqi nəsrdə görmək istədiklərimin çoxusunu burda gördüm. Cümlələr qafiyəsiz şeir misralarıdır. «Ağ liman» mənm üçün poemadır.

Sizə yeni cəsarətli addımlar arzulayıram.

Səmimi salamlarla,

Şəkər Aslanov.
30.03.1967

Qardaşım Anar!

Biz müxtəlif siniflərə mənsub adamlar olsaq da, mən Sizi həmmişə namuslu bir ziyalı, xalqını təmsil edə biləcək türk övladı və sinfinin ağıllı bir nümayəndəsi kimi yüksək qiymətləndirmişəm. Siz insanları hansı baxımdan qiymətləndirirsiniz, bilmirəm, mən özünü olduğu kimi göstərmək baxımından qiymətləndirirəm və belə düşünürəm ki, Siz nə yaradıcılığınızda, nə də real həyatda özünə xəyanət etmiş adam olmamalısınız. Sizin esselərinizdən məlum olur ki, son dərəcə dərdli, başının anlamaq bəlası olan bədbəxt bir bəndəsiniz. Bunu da bilirsiz ki, uzun müddətdi yatırılmış Azərbaycan xalqı, bizim biçarə millətmiz artıq aylımış, öz haqqını başa düşməyə başlamışdır. Belə olan halda mənəvi birlik və milli özünədərk prosesisini sürətləndirmək, xalqın mənəvi dayaqlarını hər vasitə ilə möhkəmləndirmək bizim qarşımızda duran ən ümdə məsələ olmalıdır. Mənə belə gəlir ki, həmin baxımdan Siz öz imkanlarınız və dövlətin Sizə verdiyi müvəqqəti imtiyazlar daxilində elə ciddi bir iş görmür, bununla da yaranmış tarixi şəraitdən tam istifadə etmirsiniz. Ola bilsin k, bir də belə fürsət ələ düşmədi. Tələsmək lazımdır.İndi biz öz İttifaqımızı «bəli-bəli»lərdən, «Bəzi-bəzilərdən» təmizləməsək, sonra bu xalqa çox baha oturacaq. Yazıçılar İttifaqında müstəqil fikirli, yetkin adamlar azdır. Siz buna inanın. Bizim karyerə əsirləri, yuxarıların itaətkar qulları oyanmış xalqın arxasınca sürünməkdədir. Yazıçılar İttifaqı belə adamlarla doludur. Ümumi işin xatirinə Siz bu adamlarla «pis» olmağı bacarmalısınız. Əksi təqdirlə xalq bizi lənətləyəcək. Siz öz ətrafınızdakı Kəbirlinskilərlə özünüzü həmişə qüvvəsiz və tənha hiss edəcəksiniz. Ətrafınızda sinfi cəhətdən deyil, mənəvi cəhətdən uyğun adamları toplayın. Cənclik haqda. Burda sağlam qüvvələr də var. Lakin tədricən qruppabazlığa və karyera azarına tutulanlar da az deyil, hətta çoxdur. Səfər Alışarlı, Tehran Vəliyev, Saday Budaqlı, Akif Əhmədor, Azər Əbilov inanılmalı və yetişmiş ziyalılıardı, qalanlardan ağlım bir şey kəsmir. Boşboğazlıqla məşğuldurlar, hayıf…

Nəhayət, mənə iş axtarırsız. İnanın ki, minnətdaram. Tələsməyin, mənim onsuz da işim çoxdur. «Qayğı»ya qul lazımdır. Məndən də indiyə qədər qul olmayıb, görünür mən ora yaramayacağam. Ümumiyyətlə, mənim fərdi «dərdim» məni o qədər də narahat etmir.

Öpürəm.

Hörmətlə,

Ağamalı Sadıq.
11 yanvar, 1989

Əziz Anar müəllim, Yazıçılar Təşkilatının rəhbəri seçilməyiniz münasibətiylə Sizi ürəkdən təbrik edirəm. Ümid yarandı ki, Azərbaycan ədəbyyyatı nəhayət depressiyadan qurtulacaq, Azərbaycan oxucusu ağrısız və vicdansız yaşayıb orden və medallarıyla zınqırovlu toy qoyunlarına bənzəyən yalançı klassiklərdən xilas olacaq. Hamımız sevinirik, uğurlar diləyirik.

Hörmətlə,

Rafiq Tağı.
Moskva

Hörmətli Anar müəllim! Sizini istər millət vəkili kimi, istər yazıçı kimi, istərsə də Azərbaycan Yazıçıları Birliyinin sədri kimi müsbət fəaliyyətiniz göz qabağındadır. Müasir Azərbaycan yazıçılarının ən nüfüzlü nümayəndəsi olaraq Sizi həmişə öndə görürük. Bu gün millətini, xalqını sevən hər bir kəs Sizi müasir Azərbaycan ziyalılığının etalonu hesab edir. Mən də belə hesab edirəm. Böyük cəsarətinizə, yüksək etika və mədəniyyətinizə, xalqa, millətə və böyük ədəbmiyyatımızə dərindən bağlılığınıza görə, sevginizə görə! Son illərdə ədəbiyyatımızda əsl sənətdən və sənətkarlıqdan uzaq olan qondarma cızmaqaraçlar peyda olub. Onlar Sizin dediyiniz qara milçəklərdir ki, Sizin ətrafınızda vızıldayırlar. Onlar öz vızıltılarına layiq olduqları çirkabda boğulub qalacaqdar. Onlar Sizin adi salamınız qədər səmimi ola bilməzlər! Kaş Allah imkan verəydi bu səmimiyyətin cavabında biz də bir iş görə biləydik.

Dərin hörmət və ehtiramla,

Müzəffər Şükür Məchul.
29 iyul, 2002

Salam, əziz Anar müəllim

«Qobustan» jurnalının 4-cü nömrəsində şeirlərimin çap olunması xəbərini dünən eşitdim. Sizə sonsuz təşəkkürümü bildirirəm. Şeirlərimi «Qobustan»a çoxdan təqdim etmişdim. Amma bu haqda Sizə də yazmamışdım ki, nəsə, yaxşı düşməz. Anar müəllim, Sizin qayğınızın qarşısında özümü bir şair kimi borclu sayıram… Və bu qayğının nahaq yerə olunmadığını ömrüm boyu sübut etməyə çalışacam.

Hörmətlə,

Əlisəmid (Kür).
14 aprel, 1985, Xarkov şəhəri

Çox hörmətli Anar müəllim! Salam!

Ülvü (*Ülvü Bünyadzadə nəzərdə tutulur* – ***red.***) yaradıcılığına, şəhid taleyinə göstərdiyiniz qayğı, diqqət ailəmiz, şəxsən mənim üçün unudulmaz təəssüratlardır. Çox sağ olun!

Səmimiyyətlə,

Almaz Ülvü (Bünyadova).
Yanvar, 2000

Hörmətli Anar müəllim!

Mən ədəbiyyata Sizin yaradıcılığınıza və şəxsiyyətinizə pərəstişlə gəlmişdim və öz kəndli səmimiyyətimlə Sizin şəxsiyyətinizi xüsusilə yüksək tuturdum. «Ədəbiyyat qəzeti»ndə işlədiyim vaxt İttifaq mühitindəki riyakarlıqdan zəhləm gedirdi və bu fonda Sizin şəxsiyyətinizdəki bütövlük, yüksək ziyalılıq, rəsmiyyətə etinasızlıq mənim üçün etalon idi. O vaxt cavan idim və ədəbiyyatın təmiz ideallarına inanmaq üçün mənə konk-

ret nümunə lazım idi. Bu nümunə təkrar edirəm ki, Siz idiniz və Sizi mən Vİ mühitindəki avtoritarizmin antipodu sayırdım. Yaxın ünsiyyətimiz olmasa da içimlə Sizə öz münasibətim vardı və tələbəlikdən «Ağ liman» povestini müasir ədəbiyyatımızın klassik bir əsəri sayırdım.

Mən öz aləmimdə son on illə Sizinlə çoxlu mübahisələr etmişdim, amma Anarın ifadəsi ilə desəm «kütlə diktaturasına» etiraz olaraq beş-altı il ədəbi yazılar yazmamışdım. Amma mənə elə gəlirdi ki, birinci yazıda yazdığım iradların hamısı mənim Sizə ərkimdir, şəxsi, ümuma dəxli olmayan bir münasibətimdir.

Amma sözü gedən cavabla aləm bir-birinə qarışmışdı, Anarın əvəzinə elə-bil bütün ədəbi mühit mənim üstümə qalxır, mənim haqqımda kinlə danışırdı. Bu mənim üçün tam gözlənilməz idi. Axı nə baş vermişdi? Vəziyyət məni sarsıtmışdı. Cavabdakı qiymətlər mənim daxilimdəki müva-zinəti dağıdırdı və mənimçün bundan ağrılı bir vəziyyət təsəvvür etmək çətindir.

Belə bir stress vəziyyətində mən redaksiyanın gözlədiyi cavab məqaləsini yazmalı idim. Əsəbi yazmamaq üçün bir həftə qələm götürmədim. Amma sonra yazmağa başlayanda şüuraltının təzyiqi ilə mən dəhşətli səhvə uydum. Sizə məktub formasında, özüm də qəzəblə öz daxili müvazinətimi dağıtmağa, son iyirmi beş ildə inandığım və sevdiyim şeyləri tarımar etməyə başladım. Mən cavabla yaradılan obrazımı soyuq məntiqlə təkzib etmək əvəzinə, bu obrazın rənglərini daha da tündləşdirdim. Sizin haqqınıza daxilimdə formalaşmış otuz illik daxili obrazı bir məqalədə dağılıb dəyişməyə, həmişə yaxşı hesab etdiyim dəyərləri pis şeylər kimi mənalandırmağa çalışırdım. Görünür, cavabda yaradılan obraz məni öz psixi cazibə sahəsinə salmışdı, çünki heç zaman elə olmamışdım. Və bütün bunları bir vaxtlar sevdiyim Anara münasibətimi yüz səksən dərəcə dəyişməklə və özümə məxsus acılıqla edirdim və həm də öz sadəlövhlüyümdən intiqam almağa çalışırdım. Həqiqət axtarışını həqiqətin inkarı ilə əvəz etmişdim. Bu – bir məqalədə başqalaşmaq, özünəyadlaşmaq təcrübəsi idi. Əlbəttə səhv idi və mən bunu səmimi surətdə etiraf edirəm və ilk növbədə Xalq Şairinin ruhundan üzr istəyirəm. Çünki onun ünvanına deyilən yanlış ittihamların hamısı mənim Anara qarşı əsəbi «tutmamın» nəticələrindən başqa bir şey deyildi və doğru deyirmişlər ki, «acıqlı başda ağıl olmaz».

Bu yazı çap olunan vaxtdan günah hissinə bənzər bir ağrı həmişə içimdə gəzib, çünki orda həmişə ali saydığım bir sərhəddi keçmişəm. Bu məktubu yazmaqla bu yükdən azad olmaq, yaşadığım ağrının katarsisini keçirmək istərdim. Bü məktubu yazmağımın əsl və yeganə səbəbi də budur.

Hörmətlə,

Rəhim Əliyev

Cənab Anara, Azərbaycan Yazıçılar İttifaqının Birinci katibinə

Hörmətli kolleqa Anar!

Hər şeydən əvvəl mənə həsr edilmiş məqalə üçün Sizə təşəkkür edirəm. Dostumuz Ramiz Abutalıbov dedi ki, onu 1988-ci ildə çap etmək istəyirsiniz. Bu diqqət məni

çox təsirləndirdi. M.F.Axundovun yubileyində iştirak etməyim barədə təklifiniz də məni riqqətləndirdi. Mən onun həm ədəbiyyat, həm də fəlsəfə sahəsində böyüklüyünü və xidmətlərini yaxşı bilirəm. O, əsərləri fransız dilinə çevrilmiş ilk Azərbaycan yazıçısıdır və mən fəxr edirəm ki, nə dərəcədəsə onun işini davam etdirirəm.

Ancaq bəzi səbəblərdən mən təklifinizi qəbul edə bilmirəm və inanın ki, buna çox təəsüflənirəm. Siz bu təklifinizi bir başqa vaxtda təkrar edə bilərdinizmi? Xoşbəxt uşaqlıq illərimi keçirdiyim Bakını və Mərdəkanı bir də görmək istərdim. Eyni zamanda mən çox istərdim ki, Sizinlə şəxsən tanış olum. Ramiz sizin keyfiyyətlərinizi çox yuksək qiymətləndirir və mən də sizi gözəl romançı və esseist kimi yaxşı tanıyıram.

Əgər baharda doğma yerlərə ziyarətim baş tutsaydı, əla olardı. Yaşım elədir ki, tək səyahət edə bilmirəm, odur ki, bu səfərə bir neçə dostum və rəfiqəmlə çıxmaq istərdim. Təbii ki, onlar bütün xərcləri öz üzərlərinə götürəcək. Bu cəsarətli ideyayla bərabər Sizə, əziz cənab, mənim ən səmimi rəğbət hissələrimi də göndərirəm.

Banin (Ümmülbanu).
Paris Loriston küçəsi 40, 8 oktyabr, 1987

Azərbaycan Yazıçılar İttifaqının Birinci katibi cənab Anara

Cənab Birinci katib!

Bağışlayın ki, sizin nəzakətli təklifinizə bir az gec cavab verirəm. İş ondadır ki, Türkiyədən Fransaya lap bu yaxınlarda qayıtmışam.

Mən Mirzə Fətəli Axundov yaradıcılığının pərəstiş-karıyam, fransız dilinə onun bir neçə komediyasını çevirmişəm və onlar YUNESKO-nun himayəsiylə nəşr olunub. Dekabrda Sizinlə birlikdə onun anadan olmasının 175 illiyi yubileyində iştirak etməkdən çox məmnun olardım. Əfsus ki, çoxlu vəzifələrim (professor, institut müdiri və artıq iki aydır ki, Milli elmi araşdırmalar Komitəsinin Şərq dilləri və mədə-niyyətləri şöbəsinin Prezidenti) məni məcbur edir ki, dekabrda Fransada olum, və mən, çox təəsüflənirəm ki, bu tədbirdə iştirak edə bilməyəcəm.

Sizdən xahiş edirəm ki, yübileyin təşkilatçılarına mənim təbriklərimi və Mirzə Fətəli Axundova heyranlığımı yetirəsiniz. O, böyük istedada malik dramaturq, dərin mütəfəkkir, Azərbaycan mədəniyyətinin yeniləşməsinin pioneri, beynəlmiləlçi-filosof idi.

Xahiş edirəm, cənab Birinci katib, mənim ən səmimi hisslərimi qəbul edəsiniz.

Professor Lui Bazen.
Paric Porto Fuarr 77, 4 noyabr, l987

Azərbaycan Yazıçılar Birliyinin sədri Cənab Anar Rzayevə

Hörmətli Anar müəllim!

Sizinlə Drezdendə bir də görüşməyimiz məndən ötrü olduqca sevindirici bir hadisə oldu. Heyf ki, vaxtın darlığından doyunca söhbət edə bilmədik. Təəssüf! Ancaq qəlblər yaxın olsun! Gerisi mühüm deyil.

Mənə bağışladığınız kitablara görə bir də dönə-dönə öz təşəkkürümü bildirmək istəyirəm. Bunlar mənim üçün çox əziz bir ərmağandır. Rəhmətlik atanızın şeirlərini nəşr etdirmisiniz. Bu, qədrşünas bir oğulun nəcib töhfəsidir. Az görüşməyimizə baxmayaraq rəhmətlik Rəsul müəllim ilə çox ayrı, qeyri-adi bir ünsiyyətimiz vardı. Allah rəhmət eləsin – o məni çox istəyirdi, mən də ona əlçatmaz bir sənət abidəsi kimi hörmət qoyardım. Onun şeirləri arasından ən çox «Çinar»ı sevirdim. O vaxt belə düşünürdüm ki, yəqin Rəsul Rza çinarın obrazında Türk xalqlarını özündə barındıran o ulu mədəniyyəti qəsd etmişdir. Hələ də eyni fikirdəyəm. «Min beş yüz ilin Oğuz şeri» adlı antologiyanız son dərəcə istifadəli və lazımli bir əsər kimi öz kitabxanamda saxlanılacaq, təbii ki, digər kitablarınız həmçinin. Bir də sağ olun!

Qabaqki həftələrdə Ankarada mənim «Kitabi Dədə Qorqud» dastanlarının Drezden nüshəsi» adlı faqiranə çalışmam nəşr üzü görəsidi. Əlimə çatan kimi sizə göndərəcəyəm. Elm iddiasında olmamağıma baxmayaraq köhnə hurufatlı türk əlyazmalarını oxumaqda müəyyən qədər təcrübəm var olduğundandır ki, Dədə Qorqudda indiyə kimi oxunmamış yaxud tədqiqatçılar arasında münaqişəli bir çox yerlər barəsində öz naciz qənaətimi bildirmişəm. Yaxşı bililirəm ki, Türkiyədə, eləcə də Azərbaycanda qızğın etiraz səsləri ucalacaq. Ona görə ki, hörmətli tədqiqatçılar hərəsi DQ-un sirlərini bütövlükdə açdıqlarım iddia edirlər və dastanlara təzədən yaxınlaşanlara qəzəblə baxırlar. Axı, bu nə işdir ki, DQ kimi əziz, səmimi, ürəyə yaxın bir ədəbi əsəri tədqiq edənlər birbirlərinə bu cür nifrətlə baxırlar? Necə bu qədər «Mən bilirəm, sən bilməzsən!» müddəasında ola bilərlər? Bu müqəddəs kitab onların atalarının fermasıdır? Biri desə ki, bəs, mətndəki filan passajı mən belə-belə oxuyuram, mənim oxuşum səninkindən fərqli isə nə olsun? Onda gəl Drezden nüsxəsini varaqlayaq, baxaq görək kiminki ağla batandır. Amma yox, – bu söz onlara sövqü gələr.

Biri mənə dedi ki: «Dədə Qorqud»da gizli nə vardı isə həpsini mən açdım. Artrq məndən sonra heç kimsədən yeni bir bilgi və anlayış bəklənməz. Sən tərcümə edərkən başqa birisinin mətnini əsas almaqda haqsızdın. Mənimkini əsas almalıydın. Mən cavabında: Amma mən sizdən də çox istifadə etdim» – deyəndə dedi ki, «istifada, mistifadə demirəm, bütünlükdə mənim kitabımı almalı idin!» Qocaman qorqudşünaslara hörmətim sonsuzdur, ancaq bu kimi müddəalara yol vermək olmaz. Siz, Anar müəllim, çox isabətli olaraq dediyiniz kimi: «Doğrudan da «Kitabi Dədə Qorqud» -sirləri açılmaz, hər oxunuşda qarşımızda yeni-yeni müəmmalar çıxaran bir əsərdir». Kamal Abdulla da bax nə qədər haqlı deyir: «Yəqin ki, bununla da Dədə Qorqud dastanlarının gizli və sirr içində dünyasına səyahət başa çatmış sayılmayacaq». Axı elm dunyasında bu vaxtın özünə qədər hansı problem birdəfəlik, həmişəlik həll olunub? Qaldı ki, mənimki elmi deyil, ədəbi tərcümədir, ona onsuz da elm ölçüsü ilə yanaşmaq səhvdir. Görəsən qorqudşünasların böyük bir hissəsi neçin yek – digərlərinə belə qəzəb və həsədlə baxırlar. Ağlım kəsmir, Türkiyədə də Mühərrəm Erkin ilə Orxan Şaik Gögyay müəllimlərin atışması başlıbaşına dastana çevrilib, qəzet, jurnal və kitabçalarla bir-birlərini DQ-un üstündə bərkbərk döyürdülər. Bu əhval ruhyyə bir balaca eyni qızı bir-birlərinə qısqanan aşiqləri yada salmazmı? Şair yaxşı demiş: «Gülürəm ağlayacaq halıma!»

Bunun böyük bir istisnasını rəhmətli Həmid Araslı təşkil edirdi. Bir gün o mənə dedi ki, «Sən sərbəst Türkiyəyə gedib gələ bilirsən. Artıq dərəcədə xahiş edirəm Orxan Şaiqi gör. Məndən mehriban qardaş salamımı ona yetir və de ki, mənim DQ mövzusunda vardığım anlayışları tənqid edərkən qardaşlığımızı yaddan çıxartmasm. O məndən ayrı fikrə gələ bilər, ancaq fərqli düşüncələrin nəşrlərdə dilə gətirərkən bir balaca ahəstə getsin. Ona görə ki, o orada əlbəttə hər şeyi deyə bilər, amma mən burada bu sərbəstliyə sahib deyiləm, ona istənilən kimi bu mövzuda cavab verə bilmirəm. Başına dönüm, elmi münaqişələrin ədasında qan qardaşliğimızı unutmayaq». Heyf ki, bu sözləri Orxan Şaik bəyə çatdıra bilmədən ikisi də rəhmətə getdi.

Əlqərəz, mənə elə gəlir ki, mütləqiyyət müddəası olğun bir alimə yakışmaz. Onsuz da «alim» kəlməsini heç mi heç sevmirəm. «Alim» olan bir Allahdır. Biz Adəm oğlu olsa-olsa bilgin, bilimçi ola bilərik. Təvazökarlıqdı bilginin əlaməti. «Bircə mən bilirəm»! deyənlər açıq qəflət içindədir.

Başınızı yaman ağrıtmışam. Bu cür qısqanclıqlıar yəqin ki, sizi də narahat eləməyə bilməz deyə bu qədər uzun yazdım. Bağışlayın. Sizi hörmət və məhəbbətlə salamlayıram. Həmişə əsən olasız.

Qardaşınız H.Ahmed Şmide

Dədə Qorqudu birinci dəfə tərcümə edəndə Samət Əlizadə və Fərhad Zeynalovun trankripsiyasını əsas götürmüşdüm. Berlin, l9.X.1999-cu il. (Məktub Azəbaycan dilində yazıldığı şəkildə verilir – ***red.****).*

Əziz Anar bəy, salam və ehtiram!

Dünən gələn «Ədəbiyyat və incəsənət qəzetində Sizin məqalənizi oxuyub mütəəssir oldum. Görün ki, Sizin kimi həmişə ağırbaşlılıqla, təmkinlə hərəkət edən bir yazıçıya belə nə töhmətlər, nə böhtanlar yağdırırlar! (*Erməni yazıçısı Perç Zeytunsyanın Anara qarşı böhtan dolu yazısına Anarın «Ədəbiyyat və incəsənət» qəzetində dərc edilmiş cavabı nəzərdə tutulur –* ***red.***). Bir də bu qənaətə gəldim ki, o Sizin qonşularınız çox nainsaf, hətta biədəb bir taifədi. Onlarla anlaşmaya, uzlaşmağa hazır olmaq, zəiflik kimi gələr.

Siz burada olarkən Sizə yardımçı olmadığım üçün çox, çox mütəəssirəm. Ancaq xəstəliklər macal vermədi. Bir axşam Sizin diskussiyanıza gələ bildik, onda da yoldaşım Sizlərə öz cənublu qardaşlarınızdan yönəldilmiş nalayiq sözlərə son dərəcə hiddətlənib pərt oldu. Məcbur oldum ki, onu xəlvətcə salondan çıxarıb aparmağa, yoxsa durub qovğa edə bilərdi. Axı, ikimiz də ürək xəstəsiyik, gərək ki, hər cür həyəcandan özümüzü qoruyaq. Sizin nə qədər təmkinli, olğun bir şəxsiyyətə malik olduğunuz o axşam da aydın olmuşdu. Göz bəbəyi kimi qoruyub bağrınıza basdığınız cənublular desinlər ki, biz sənlə həmvətən deyilik. O nə qədər ağır bir söz! Özü də, başa düşülməş bir israrla dilə gətirilməsi nəinki türk olan yoldaşımı, məni də çox üzdü (***Anarın şərhi:*** *Qərbi*

Berlindəki görüşlərdən birində İrandan olan və fars şovinizmi mövqeyindəın çıxış edən bir «azərbaycanlının»: «biz sizinlə ayrı millətik» sözlərinə kəskin cavab vermişdim).

Bu ağır günlərdə biz hər gün Sizlərlə fikrən, qəlbən, ruhən bir yerdəyik. Ümidvarıq, hətta əminik ki, atalarınızdan Sizə miras qalmış müdriklik, nəciblik və ədəb, qarşınızdakı küstahlığa qalib gələcək. Çünki türk soylu insanları çox yaxşı tanıdığım üçün yəqinən bilirəm ki, Allah eləməsin, Allah yazdı isə pozsun, Sizinkilərin səbr kasası daşdımı, bunun sonu çox fəci olar..Bu zaviyyədən baxanda qonşularınızın təkcə küstah deyil, eyni zamanda çox da ağılsız olduğuna hökm etəmək gərəkdir.

Əziz Azərbaycan xalqına, şəxsən Sizə və həmkarlarınıza uğurlar diləyirəm.

Dostunuz, qardaşınız

H.Əhməd Şmide.
Qərbi Berlin, 6 sentyabr, 1989

Sayın alim və ustad yazıçı Anar bəy!

Füzulinin anadan olmasının 500-cu ildönümü yubileyi gözəl Bakıyı və oradakı sevdigim və saydığım şəxsiyyətləri yenidən ziyarət etməyə vəsilə olduğu səbəbilə mənim üçün iki dəfə mübarəkdir. Buna imkan yaradanlara nə qədər təşəkkür etsəm azdır. Şölənin dalğalarına qapılarak sizinlə doyunca görüşəmmədim. Lakin hər zaman kölgənizi başamın üstündə hiss edirdim və hüzurunuzun verdiyi günəş işıntılarından hissəmi alırdım. Heyif! Son gündə Elçin bəyin sözünü etdiyi görüş «Təfəkkür» universitetinin iclasının uzundığından mümkün olmadı. Etdiyiniz lütflər üçün təşəkkürlər. Gələcək görüşlərin hər şeyə rəğmən mümkün olacağına inanır və sizin üçün ən yaxşı diləklərlə sözümə son verirəm.

Həmid Nitqi.
Nottinhem, İngiltərə. 19.11.1996

(*Məktub Azərbaycan dilində yazıldığı şəkildə verilir –* ***red.)***.

Əziz Anar, hörmətli Anarcan!

Ramizin (*Ramiz Abutalıbov –* ***red.***) araçılığıyla Sizə salam yollayıram. İnşallah iyisiniz.

Mümkün olsa Sizdən xəbər göndəriniz. Sonra, bir proje var: Kibrisdə (Rum-Qrek kısmında) babanız Rəsul Rzadan danışacağam. Onun klassik kultura yanaşmasını anlatmaq istəyirəm. Rəsul Rza haqqında gözəl, iyi, ciddi məqalə, – biblioqrafıya varmı? Kitabınız hazırmı? Və nə zaman vəfat etdi rahmətli Rəsul? Onun kinofestivalını da keçirmək üçün bəkləyirəm. Sizi ürəkdən sevən,

Canpyero Bellinceri

(*İtalyan türkoloqu Canpyero Bellincerinin Azərbaycan dilində yazdığı bu məktubda kinofestivaldan bəhs edərkən nə nəzərdə tutulduğu anlaşılmadı –* ***red.). Venetsiya.***

Hörmətli Anar müəllim!

Sizin böyük məqalənizi oxudum (*«Dədə Qorqud dünyası» nəzərdə tutulur* – ***red.***) Bu araşdırma zəngin fikirlərlə və mövzuya yeni baxışla fərqlənir. Bizim bu möhtəşəm abidə ömür boyu tədqiq olunmağa layiqdir. Təəssüf ki, alimlərmiz onunla cidd məşğul olmurlar. Çoxu ona səthi baxır. Sizin məqalənizlə dastanın son illərdə meydana çıxan tədqiqatları arasında çox böyük fərq var. Məqalənizdə toxunduğunuz məsələləri siz çox ciddi və dərindən izah edirsiz. Böyük məntiqlə xalqımızın tarixiylə bağlı problemləri açırsınız. Amma Sizin bəzi fikirlərinizlə razılaşmaq çətindir. Məsələn, bütün xristian salnaməçilərini qeyri-obyektiv saymağınız tarixi faktlara uyğun deyil. Doğrudur, bu qaynaqlarda qeyri-obyektiv fikirlər də az deyil. Amma unutmamalı ki, onlar öz zamanəsinin adamları idi və əsərlərində tarixi hadisələrdən danışırdılar. Sizin bu mükəmməl məqalənizdə bir neçə mübahisəli fikirlər də var. Məsələn, bəzi etimoloji fərziyyələriniz inandırıcı deyil. Dastanın əsl adı «Kitabi Dədəm Qorqud»dur». Bu ad dastanın Azərbaycana məxsusluğunu daha da inandırıcı edir. «Dədəm» yəni mənim dədəm, bütün türkdilli xalqların içində ən çox azərbaycanlılar üçün səciyyəvi ifadədir.. Ona görə də dastanın adını dəyişməyə (*yəni «Dədə Qorqud» şəklində* – ***red.***) ehtiyac yoxdur. Mən bu ətraflı, dərin və ciddi məqaləyə görə Sizi ürəkdən təbrik edirəm.Mənim qeydlərimdən inciməyin. Onlar da ürəkdəndir.

Xalıq Koroğlu.
Moskva

Rusca yazılmiş məktublar

(Rusca yazılmış məktubların əsli Lyudmila Lavrovanın «Naməlum tanış», Bakı, Azərnəşr, 2008) kitabında dərc edilmişdir. Məktubların bəziləri, o cümlədən həmin kitaba düşməyənlərin rus dilində orijinalı və tərcüməsi burda verilir).

Письма на русском языке

(Оригиналы писем, написанных на русском языке опубликованы в книге Людмилы Лавровой «Знакомый незнакомец», Баку, издательство Азернешр 2008. Некоторые из этих писем, в том числе, не вошедших в ту книгу, публикуются здесь в русском оригинале и в переводах).

Дорогой Анар!

Мы с удовлетворением восприняли и приветствуем Ваше предложение, являющееся подтверждением неизменной верности традициям нашей дружбы и служащие насущным интересам не только настоящего, но и будущего наших народов и литератур. Соответсвующие соглашения (протокол) совместных мероприятий мы готовы согласовать и подписать в любое удобное время. Конкретные предложенияи к совместном планам будут подготовлены и представлены.

Предварительное обсуждение мы могли бы провести в удобное для Вас время.

Желаю всего доброго.

Только сейчас узнал о круглой дате твоей жизни. Сердечно поздравляю. Надеюсь вместе с тобой отметить в Дагестане.

С глубоким уважением,

Расул Гамзатов,
Председатель Правления СП РД
29 апреля, 1998

Əziz Anar!

Sizin təklifinizi məmnuniyyətlə qarşıladıq və salamlayırıq, bü təklif dostluq ənənələrimizin təsdiqidir, yalnız indi deyil gələcəkdə də xalqlarımızın və ədəbiyyatlarımızın ən ümdə maraqlarına cavab verir.

Lazımi anlaşmaları (protokolları) razılaşdırıb istənilən vaxt imzalamağa hazırıq.

Ortaq plan haqqında konkret təkliflərimiz hazırlanıb təqdim olunacaqdır.

Təklifləri qabaqcadan Sizə münasib olan hər hansı vaxtda müzakirə edə bilərdik.

Ən xoş arzularla,

Ancaq indi bildim ki, sənin yubileyindir. Ürəkdən təbrik edirəm. Ümid edirəm ki, sənlə birlikdə Dağıstanda qeyd edəcəyik.

Dərin hörmətlə,

Rəsul Həmzətov,
Dağıstan Yazıçılar Birliyinin Sədri, 29 aprel, 1998

Дорогой Анар, очень близкий для меня собрат по перу! Долгие годы взаимных контактов и симпатий позволяют мне обратиться с просьбой – суть в следующем.

Ты хорошо знаешь своего земляка, талантливого художника Ашрафа Гейбатова (с его слов вы встречались в Баку, Москве и недавно в Париже, в институте мировых языков). Я давно слежу за творчеством Ашрафа, близкого мне по духу и мировосприятию. В 1994 году, будучи Послом в странах Бенилюкса, я открывал его персональную выставку в Люксембурге. Его творческая и общественная деятельность, способствующая укреплению культурного имиджа Азербайджана снискала поддержку и уважение Посла Азербайджана в Германии и Генеральных консулов России и Турции.

Созданное им грандиозное панно «11 сентября Нью-Йорк» было передано в дар американскому народу. Недавно он получил письменную благодарность от мэра Нью-Йорка (копия прилагается).

Я бы просил тебя, как друга, коллегу по перу и председателя Комитета по культуре парламента Азербайджана оказать содействие в решении вопроса о награждении заслуженного художника Азербайджана Ашрафа Гейбатова орденом «Шохрат». Он был представлен к награде послом Азербайджана в Германии г-ном Г.Садыховым еще в 2001 году в связи с 50-летием со дня рождения и 30-летием творческой деятельности. Однако до сих пор этот вопрос не решен.

Уверен, что твой заслуженный авторитет в республике даст тебе возможность оказать поддержку со своей стороны нашему другу, члену международной федерации художников ЮНЕСКО Ашрафу Гейбатову.

С уважением,

Чингиз Айтматов,
Посол Кыргызской Республики в странах БЕНИЛЮКСА и Франции
Г.Брюссель, 25 февраля, 2005

Р.С. *Дорогой Анар, насколько мне известно 14 марта с.г. отмечается твой день рождения. Тебе исполнится всего лишь 67 лет, а мне на 10 лет больше, но в конце года.*

Так давай двигаться в этом соотношении возрастов подольше, насколько возможно.

Комментарий Анара. *Я конечно, тотчас обратился в соответствующие инстанции с предложением о награждении Ашрафа Гейбатова и написал об этом Чингизу Торкеловичу.*

Əziz Anar, mənim çox yaxın qələm qardaşım! Uzun illər boyu davam edən əlaqələrimiz və qarşılıqlı rəğbətimiz mənə imkan verir ki, sənə bir xahişlə müraciət edim. Məsələnin mahiyyəti belədir. Sən öz həmyerlin, istedadlı rəssam Əşrəf Heybətovu yaxşı tanıyırsan. Deyirdi ki, siz Bakıda, Moskvada və lap bu yaxınlarda Parisdə Dünya dilləri institutunda görüşmüsünüz.

Mən Əşrəf Heybətovun yaradıcılığını çoxdan izləyirəm, ruhu etibarilə mənə çox yaxındır. 1994-cü ildə BENİLÜKS ölkələrində səfir olduğum zaman Luksemburqda onun fərdi sərgisini açmışam.

Onun yaradıcılıq və ictimai fəaliyyəti Azərbaycanın mədəni imicini möhkəmləndirir. Azərbaycanın Almaniyadakı səfirinin və Rusiyanın, Türkiyənin Baş konsullarının dəstəyini qazanıb.

Onun yaratlığı möhtəşəm «11 sentyabr Nyu York» pannosu Amerika xalqına hədiyyə edildi. Bu yaxınlarda Nyu-Yorkun meri ona təşəkkür məktubu da göndərib.

Mən səndən dostum, həmkarım kimi və Azərbaycan Parlamanının Mədəniyyət Komitəsinin sədri kimi xahiş eləyirəm ki, Azərbaycanın əməkdar rəssamı Əşrəf Heybətovun «Şöhrət» ordeni almasına yardım edəsən. O, 50 yaşı və yaradıcılıq fəaliyyətinin 30 illiyi münasibətilə bu ordena Azərbaycanın Almaniyadakı səfiri cənab H.Sadıqov tərəfindən təqdim olunmuşdu. Amma məsələ indiyə qədər həll olunmayıb

Əminəm ki, sənin respublikada layiqli nüfuzun bu məsələdə dostumuz, YUNESKO-nun beynəlxalq rəssamlar federasiyasının üzvü Əşrəf Heybətova dəstək olacaq. Hörmətlə,

Çingiz Aytmatov,
Qırğızstan Respublikasının BENİLÜUKS ölkələrində və Fransada səfiri,
Brüssel, 25 fevral, 2005

Əziz Anar, bildiyimə görə martın 14-də sənin ad günün qeyd olunacaq. Cəmisi 67 yaşın tamam olur. Mənim yaşım sənindən on il artıqdır və doğum günüm ilin axırındadır. Gəl bu yaş tənasübünü saxlamaqla mümkün qədər irəliləyək.

Anarın şərhi: *Əlbəttə, mən dərhal bu məsələylə əlaqədar instansiyalara müraciət etdim v ə bu barədə Çingiz Aytmatova da yazdım.*

Дорогой Анар!

Из осенней, грустно притихшей Сибири поклон Вам и благодарность за Ваше тёплое письмо. Приглашение до меня не дошло, а письмо, слава Багу, достигло адресата. И еще, в «Литературке» я прочел Вашу умную и печальную статью (*имеется в виду статья «Сладкие грезы независимости или поднимет ли господин Жириновский тост за Бориса Николаевича» –* ***ред.***). Я совершенно согласен с Вами, и пока от раздоров и разъединения мы ничего не приобрели, но потеряли многое. Я думаю, что национальные наши литературы начнут затухать от того, прежде всего, что у них не будет выхода на широкого читателя, в самих же республиках читают мало и уровень читательский невысок. Писатели обречены будут вращаться в собственном кругу и писать друг для друга. Азербайджану, быть может, это угрожает меньше, чем другим, соседним республикам, у него есть давняя историческая связь с Турцией и через нее выход в широкий мир, но соседи Ваши, опьяневшие от свободы, начатой с кровопролитий и мордования малых народов, эти одичают очень быстро.

Ну да нет никого, как Бог, а Бог, сказали мне в Боснии, разрешая посетить мечеть, везде один.

К сожалению, я был в тайге, когда пришло Ваше письмо, и дома сложности большие, не всегда я могу поехать куда-либо, но все равно я благодарю Вас за приглашение и за добрые слова.

Желаю Вам и народу Вашему не озлобиться, не потерять облик человеческий. Мирного труда желаю и покоя под крышей дома своего! А в сердце Бога и веры в лучшую долю детей своих!

Низко Вам кланяюсь, братски обнимаю,

Виктор Астафьев.
22 октября, 1991 г., Красноярск

Əziz Anar!

Susmüş qəmli payız Sibirindən Sizə ehtiramlar. «Literaturnaya qazeta» da Sizin ağıllı və kədərli məqalənizi oxudum (*«Cənab Jirinovski Boris Nikolayeviçin sağlığına badə qaldıracaqmı?» məqaləsi nəzərdə tutulur* – ***red.***). Sizinlə tamiamilə razıyam ki, didişmələrdən və pərən-pərən düşmələrdən biz hələ ki, heç nə qazanmamışıq, amma çox şey itirmişik. Mən belə düşünürəm ki, milli ədəbiyyatlar soluxacaq, çünki onların geniş oxucu kütləsinə çıxışları qalmayacaq, respublikalarda isə az mütaliə edirlər və oxucu səviyyəsi yüksək deyil. Yazıçılar ancaq öz çevrələrində dolaşacaqlar və ancaq bir-birləri üçün yazmağa məhkum olacaqlar. Bəlkə bu Azərbaycançün daha az təhlükə təşkil edir, çünki Sizin Türkiyə ilə qədim tarixi əlaqələriniz var və onun vasitəsiylə geniş dünyaya çıxa bilərsininiz. Amma sizin azadlıqdan məst olmuş və balaca millətlərin qanını tökmüş qonşularınız çox tez zamanda cırlaşacaqlar.

Bosniyada mənə məscidə girməyə icazə verəndə dedilər ki, Allah birdir və hər yerdə eynidir.

Məktubunuz gələndə təəssüf ki, tayqada idim, evdə də bəzi çətinliklər var, odur ki, bir yerə gedə bilmirəm, amima hər halda dəvətiniz üçün və xoş sözləriniz üçün təşəkkür edirəm.

Arzu edirəm ki, xalqınız insanı sifətlərini qoruyub saxlasın, nifrətə alışmasın. Sizə dinc əmək və öz evinizdə rahatlıq arzulayıram. Qəlbinizdə Allah sevgisi, balalarınıza daha xoş günlər diləyirəm.

Sizə ehtiramla baş əyir, Sizi qardaşcasına qucaqlayıram.

Viktor Astafyev,
rus nasiri.
22 oktyabr, 1991, Krasnoyarsk

Глубокоуважаемый, дорогой Анар Расулович!

Ваша статья в «Лит.газете» (*вышеупомянутая статья* – ***ред.***) произвела на меня очень сильное и, я бы сказала, ранящее, устыжающее впечатление. Может быть, лично я меньше, чем многие, повинна в равнодушии ко всему, что мы годами декларировали, но я ничего не сделала, никак не откликнулась на все трагические события в Азербайджане… И все же я решилась написать Вам – не для того, чтобы в чем-то оправдаться, а тем более отвечать за кого-то… Все это не отменяет вины за то, что кровавые события в Азербайджане, как Вы правильно написали, не вызвали гневного отклика российских гуманистов с пером. И – увы, – я в их числе. Есть одно, все же немаловажное, оправдание: н1ё икто не понял, что события в Баку – не резня армян, а военные действия тоталитарного государства против своего народа.

Римма Казакова.
Москва, 16 ноября, 1991

(Полный текст письма Р.Казаковой опубликван в книге Л.Лавровой «Знакомый незнакомец»).

Rimma Kazakovanın məktubunun tam mətninin tərcüməsi:

Çox hörmətli, əziz Anar Rəsuloviç! Sizin «Litqazeta»dakı məqaləniz (*yuxarıda adı çəkilən məqalə nəzərdə tutulur* – ***red.***) mənə çox dərin, mən deyərdim ki, yaralayan və utandırıcı təsir bağışladı. Bəlkə mən, başqalarına nisbətən illər boyu bəyan etdiyimiz şeylərə biganə qalmaqda daha az günahkaram, amma mən də Azərbaycanda baş vermiş faciəvi hadisələrə münasibət bildirmədim. Dəhşətli yanvar hadisələrindən sonra mənim bu işlərdə iştirakım yalnız rəfiqəm Zərifə Salahovayla birgə ağlamaq və Bəxtiyar Vahabzadəyə cavabsız qalmış məktub yazmaqdan ibarət oldu. Buna baxmayaraq Sizə yazmaq qərarına gəldim, ona görə yox ki, bəraət qazanım, ya kiminsə yerinə cavabdeh olum. Siz doğru yazırsınız ki, Azərbaycandakı qanlı olaylar əli qələmli rus humanistlərinin qəzəbli etirazına səbəb olmadı. Əfsus ki, mən də onlardan biriyəm… Bizim bir bəraətimiz var – əvvəl-əvvəl heç kəs başa düşmədi ki, Bakıdakı hadisələr ermənilərə qarşı yönəlmiş soyqurımı deyil, totalitar dövlətin öz xalqına qarşı hərbi təcavüzüdür. Bunları özümə bəraət qazandırmaq üçün yazmıram. Təkrar edirəm, günahım o qədər böyük deyil ki, Sizin tərəfinizdən anlanılmağa və əfv edilmiəyə ümid bəsləməyim.

Mən Azərbaycanı sevirəm, Nizamidən, Məhsətidən atanıza, ananıza və Sizin özünüzə qədər gözəl ədəbiyyatınız mənə əzizdir. Azərbaycan mənimçün qonaqpərvərlik, zəhmət, istedad, hətta son illər Şərqə səfərlərim nəticəsində xaçpərəst soydaşlarımdan daha çox bələd olduğum İslam deməkdir. Mən bir çox azərbaycanlılarla dostluq edirdim – Bəxtiyarla, Sabir Rüstəmxanlıyla, Məmməd İsmayılla və başqalarıyla. Onlar da həyatlarına vətənlərinin xəritədəki sərhədləriylə məhdudlaşdırıb susurlar. Axı gərək mədəni insanlar kimi gerçək dəyərləri hamımız birgə qoruyub saxlayaydıq? Bir-birimizin təkrarsızlığı qarşısında heyranlığımızı, başqa-başqalığımızı, bir-birimizə bənzərsizliyimizi. Bunları Sizə niyə yazıram. Siz bütün bunları məndən də yaxşı bilirsiniz. Bu məktubu tamamilə təmənnasız yazıram, ümid edirəm ki, tamamilə səmimi olduğumu başa düşəcəksiniz. Yeganə məqsədim – sevdiyimi itirməmək. Yoxsa həyatımız sonsuz dərəcədə kasıb olardı.

Bütün qəlbimlə Sizinləyəm,

Rimma Kazakova,
rus şairəsi.
Moskva, 16 noyabr, 1991

Ответ Анара на письмо Р.Казаковой:

Дорогая Римма Федоровна! Вчера получил Ваше доброе письмо и спешу ответить. Я глубоко тронут Вашим откликом на мою статью, Вашими такими искренними, добрыми словами в адрес нашего народа, литературы, Вашим пониманием нашего горя, Вашим сочувствием. Моя горечь, выраженная в «литгазетовской» статье, причина которой Вам хорошо понятна, меньше всего связана конкретно с такими литераторами как Вы и Вам, конечно же, не в чем каяться. Мы в Азербайджане знаем Вас как человека не только симпатизирующего нашему народу, литературе, но и многое сделавшего, чтобы приблизить эту литературу, а значит через литературу и народ наш к русскому читателю. Большое Вам спасибо за это.

После статьи в «Литгазете» я получил много откликов, но особенно важным для меня было очень доброе письмо из Сибири от В.П.Астафьева, с которым лично не знаком, но которого очень люблю, как крупнейшего и честнейшего русского писателя. Письмо Астафьева, как и Ваше письмо, вселяет в меня надежду, что и моя статья была написана, видимо, не зря, и то, что ее удалось все же «пробить» в «Лит.газете», не осталось без следа.

Поверьте, дорогая Римма Федоровна, нам азербайджанским писателям, стоит неимоверных усилий пробить ту стену враждебности, недоброжелательности, в лучшем случае равнодушия и безразличия, которая воздвигается стараниями наших весьма сильных, весьма многочисленных и хорошо организованных недругов. Даже Вы, человек причастный к Азербайджану, имеющий здесь много друзей и владеющий определенной правдивой информацией, наверное, не может представить себе сколько наглой лжи, откровенной, расчитанной дезинформации распростняют о нас центральная пресса, эфир и экран. Утешает лишь русская пословица, которую любил повторят Твардовский: «Все минется, правда останется».

В октябре в Москве, Петербурге и Минске провели юбилей Низами. В Москве я искал Вас, хотел, чтобы Вы выступили в Большом театре, на торжественном вечере, но вы были в отъезде (кажется в Средней Азии). В эти тяжкие дни Низами вновь приходит нам на помощь, представляя миру подлинное, гуманное лицо нашего народа. На 5–6 декабря намечались юбилейные торжества в Баку и Гяндже. Хотел уже отправить приглашение Вам, но тут случилась беда – разбился вертолет. Вы, конечно, знаете об этом событии. Его подбили – это уже доказано. Гибель вертолета – большая трагедия нашего народа – погибли действительно достойные люди, но для меня и огромное личное горе – большинство погибщих были моими друзьями, некоторые очень близкими, некоторые друзьями юности, некоторые коллегами-депутатами, с которыми бок о бок два года работали в Верховном Совете в неимоверно трудных обстоятельствах. Невыносимо тяжко было участвовать в похоранах, посещать поминки – у всех остались дети, в том числе малолетние, которые даже не осознают пока происшедшее, улыбаются, с любопытством и с недоумением наблюдая плач и стоны взрослых – своих матерей, бабушек, сестер. Да что писать – не дай Бог никому пережить то, что мы переживаем последние четыре года.

Дорогая Римма Федоровна! Я теперь не знаю, когда нам удасться отметить в Азербайджане юбилей Низами и удастся ли вообще. Но, если у Вас будет желание – без всякого юбилея или какого-либо официального мероприятия, приехать к нам, дайте знать. Вы всегда будете желанным гостем и Союза писателей и моим лично. С самыми сердечными чувствами дружбы.

Ваш Анар,
29 ноября,1991

Əziz Rimma Fyodoroyna!

Dünən Sizin mehriban məktubunuzu aldım və dərhal cavab yazıram. Mənim məqaləm haqqında, xalqımız, ədəbiyyatımız haqqında xoş, səmimi sözlərinizə görə, dərdimizi başa düşüb ona şərik çıxmağınıza görə Sizə təşəkkür edirəm.

Məqaləmdə ifadə etdiyim giley, əlbəttə Sizin təki ədəbiyyatçılara aid deyil. Sizin heç bir günahınız yoxdur. Azərbaycanda Sizi xalqımıza, ədəbiyyatımıza rəğbət bəsləyən, həm də bu ədəbiyyatımızı və deməli ədəbiyyat vasitəsiylə xadqımızı rus oxucusuna yaxınlaşdıran adam kimi tanıyırlar. Buna görə çox sağ olun. «Lit.qəzeta»daki məqaləmdən sonra xeyli məktub almışam, amma ən vacibi Sibirdən V.P.Astafyevdən aldığım məktub idi. Onunla şəxsən tanış deyiləm, amma böyük və namuslu rus yaşıçısı kimi onu çox sevirəm.Astafyevin məktubu da, Sizin məkitubunuz da məndə ümid yaradır ki, məqaləmi hədər yerə yazmamışam və onu «gücbəlayla» «Lit.qəzeta»da çap etdirməyim izsiz qalmayıb. İnanın, əziz Rimma Fyedorovna, Azərbaycan yazıçıları üçün düşmənçilik, bədxahlıq, ən yaxşı halda biganəlik, laqeydlik divaralırını uçurub həqiqəti dünyaya çatdırmaq çox çətindir.Bu divarı bizim çox güclü, çoxsaylı və yaxşı təşkil olunmuş düşmənlərimiz ucaldıb. Hətta Sizin kimi Azərbaycana yaxın adam, burda çoxlu dostları olan və müəyyən həqiqi informasiyaya malik olan adam, təsəvvür edə bilməzsiniz ki, Mərkəzi mətbuat, efir və ekran bizim haqqımızda nə qədər həyasız yalanlar, açıq qərəzli dezinformasiya yayır.

Təsəllimiz yalnız Tvardovskinin sevldiyi rus məsəlindədir: «Hər şey keçib gedəcək, həqiqət qalacaq».

Oktyabrda Moskvada, Peterburqda və Minskdə Nizami yubiliylərini keçiridik. Moskvada Sizi axğtardım, səfərdə idiniz (gərək ki, Orta Asiyada). 5–6 dekabrda yubileyi Bakıda və Gəncədə keçirmək nəzərdə tutulurdu. Sizə dəvətnamə göndərmək istəyirdim ki, vertolyot qəzaya uğradı. Daha doğrusu, onu vurub salıblar – bu artıq sübut olunub. Əlbəttə bu hadisədən xəbəriniz var. Vertolyotun məhv olması xalqımızın böyük faciəsidir, həm də mənim şəxsi dərdimdir – həlak olanların çoxsu mənim dostlarım idi, bəziləri çox yaxın dostum, bəzisi gənclik dostum, bəzisi deputat – həmkarlarımdı ki, onlarla ağlasığmaz çətin şəraitdə SSRİ Ali Sovetində birgə çalışırdıq.

Dəfndə, yas mərasimlərində iştirak etmək çox ağır idi – hamısının uşaqları, o cümlədən körpə balaları qalmışdı, bu körpələr hələ nə baş verdiyini dərk etmirlər, gülümsəyirlər, maraqla və heyrətlə yasa gələnlərə, ağlayan, nalə çəkən analarına, nənələrinə, böyük bacılarına baxırlar. Nə yazım – Allah heç kəsə bizim bu dörd ildə çəkdiklərimizi göstərməsin.

Əziz Rimma Fyodorovna! İndi bilmirəm Nizami yubileyi haçan keçiriləcək və ümimiyyətlə keçiriləcəkmi? Amma yubileysiz, rəsmi tədbirsiz-flansız Azərbaycana gəlmək istəsəniz – xəbər edin. Həmişə Yazıçılar Birliyinin də, şəxsən mənim də əziz qonağım olacaqsınız.

Ən səmimi dostluq hissələriylə,

Sizin

Anar,
29 noyabr, 1991

Дорогой Анар! Очено благодарна Вам за приглашение на торжества по поводу Низами. Я бы с радостью приехала, но мои дети уезжают на две недели из Москвы, оставив у меня на руках своего полуторогодовалого ребеночка. Так что настало веселое время, когда обязанности бабушки отодвигают все остальное, пусть даже более важное. Такова жизнь, и, может быть, в этом ее прелесть и нормальность.

Я знаю, что из «Содружества» Вам звонили без конца, чтобы узнать, едет ли кто ещё на эти торжества от «Сообщества». Сейчас такая ситуация, что вряд ли хотелось бы участвовать представителям этих двух писательских структур вместе в каких-либо мероприятиях. Предстоит суд по разделу имущества. Пулатов, который метнулся из одного лагеря в другой, даже не представляет, какие неприятности его ждут: группа писателей из «бондаревского» союза собираются его прогонять с «престола» по принципу национальной принадлежности. Русское, или псевдорусское чувство взыграло в Рыбасе, Бондаренко и иже с ними, и они не потерпят узбека над собой. Такова вообще концепция этого крыла нашей российской литературы: она шовинистическая, великодержавная и крайне примитивная. Недавно я прочла на стене одного дома «Россия – для русских!» и была возмущена до глубины души. Вот куда нас зовут всякие прохановы и даже – увы! – Распутин.

Хочу сказать Вам то, что, очевидно, никто не скажет. Благородно, что Вы в наше очень трудное во всех отношениях время приглашаете писателей на праздник за свой счет. Вот недавно меня и В.Карпова пригласили в Узбекистан на 75-летие Рашидова. Не будем сейчас поднимать «рашидовскую» тему, хотя думаю, что он был не хуже и не лучше многих ныне здравствующих вождей прошлого. Приглашения пришли на красных правительственных бланках, но, позвонив в посольство Узбекистана, я выяснила, что лететь мы должны за свой счет. Я мрачно пошутила: «Рашидов бы так не поступил». И, конечно, мы не полетели, хотя, возможно, это и хорошо для нас, ибо непростое и неод-

нозначное это мероприятие. Возможно, там и не в Рашидове дело, а дело в борьбе определенных группировок за власть. Так вот, дорогой и глубоко мною уважаемый Анар, если говорить, положа руку на сердце, у тех, кто захотел бы прилететь к Вам на праздник, нет в кармане этих 12 тысяч на билет, писатели сейчас просто нищие. Даже при условии, что вы эти деньги вернули бы. Такова печальная истина. Да и с билетами на Баку, как мне сказали, – непросто. Я полагаю, как это не странно, может быть, выглядит, в том случае, если в дальнейшем Вы будете кого-то приглашать, разумно было бы поручить азербайджанскому представительству в Москве обеспечивать приглашенных уже заранее приобретенными билетами. Извините за такую откровенность, но кто же скажет Вам правду? Денег у Союза нет. И долго еще не будет (Я имею в виду Содружество С.П.) Ко мне лично это, пожалуй, не относиться, хотя и я не могла бы себе позволить путешествие куда бы то ни было, но мне несколько лучше, чем многим поэтам, иногда приглашают на выступления и немного, но платят, иногда платят за песни, которые я пишу. И все равно – унизительная полоса, когда правительство дает на культуру копейки, о которых и говорить нечего, а искать спонсоров дело трудное и тоже унизительное. Тем не менее, будем, начав с нуля, работать, шаг за шагом обретать новое достойное положение в жизни общества и людей.

Я сейчас договорилась с Г.А.Анджапаридзе («Худлит»), что, если я обеспечу сбыт тиража, он издаст книгу стихов Азиза Несина в моем переводе. Хочу спросить Вас, дорогой Анар, могли ли бы азербайджанские книгораспространители взять какое-то количество этой книги? Если да, то нельзя ли, чтобы на имя директора «Худлита» Георгия Андреевича Анджапаризде было послана (через меня, скажем) соответствующее письмо?

Посылаю Вам новух книгу своих стихов, которая чудом вышла в бывшем «Советском писателе» в январе прошлого года.

Из Каира от Лутфи ал-Холи пришли приглашения на Конгресс интеллектуалов в феврале. Вы его вскоре получите, а, может, уже получили, теперь надо изыскивать средства на эту поездку.

Всего Вам наилучшего, с всегдашним добрым чувством к Вам и любовью к Азербайджану.

Ваша Римма Казакова.
23 ноября, 1992.

R.Kazakovanın məktubunun tərcüməsi ixtisarla:

Əziz Anar! Məni Nizami təntənələrinə dəvət etdiyinizə görə Sizə çox minnətdaram. Məmnuniyyətlə gələrdim, amma övladlarım iki həftəliyə Moskvadan gediblər, yaş yarımlıq uşaqlarını mənim öhdəmə buraxırblar….Bilirəm ki, «Sotdurjestvo»-dan sizə aramsız telefon edir, öyrənmək istəyirlər, bu təntənələrə «Soobşestvo» nümayəndələri də dəvət olunubmu? Belə bir vəziyyət yaranıb ki, bu iki yazıçı təşkilatı-

nın nümayəndələri eyni tədbirdə birlikdə iştirak etmək istəmirlər. Əmlakın bölünməsi üzrə məhkəmə olacaq. Bir düşərgədən o birinə keçmiş Pulatov özü də təsəvvür etmir ki, başını necə cəncələ salıb. «Bondarev» ittifaqının yazıçıları milli mənsubiyyətinə görə onu «taxtından» devirmək istəyirlər. Rusluq yaxud yalançı russluq hissi Rıbasa, Bondarenkoya hakim kəsilib və onlar razı olmazlar ki, özbəyin əlinin altında işləsinlər. Rusiya ədəbiyyatının bu qanadının məramı belədir. Bu şovinist, böyük dövlətçi və çox bəsit bir qrupdur. Bu yaxınlarda bir evin divarında «Rusiya-ruslar üçündür» sözlərini oxudum və bütün qəlbimlə qəzəbləndim. Proxanovlar və onun kimilər, əfəsus ki, Rasputin də bizi bax buna çağırırlar.

Sizə heç kəsin deməyəcəyi sözləri demək istəyrəm. Bizim hər cəhətdən çətin günlərdə Nizami yubileyinə qonaqları öz hesabınıza çağırmağınız çox nəcib işdir. Bu yaxınlarda məni və V.Karpovu Özbəkistana Rəşidovun 75 illiyinə dəvət etmişdilər. İndi Rəşidov mövzusunu qaldırmağın yeri deyil, məncə o vaxtın başqa rəhblərlərinn çoxundan nə yaxşı, nə pis idi. Özbəkistan səfirliyinə zəng edib öyrəndim ki, öz hesabımıza bilet alıb uçmalıyıq. Biz, əlbəttə, gedəsi olmadıq, bəlkə bu daha yaxşı oldu, çünki bu tədbirin özü də birmənalı deyildi. Bəlkə məsələ heç Rəşidovda da deyil, müəyyən çevrələrin hakimiyyət uğrunda mübarizəsindədir.

Beləliklə əziz və dərin hörmət bəslədiyim Anar, əgər açığını desəm, Sizin bayramınıza gəlmək istəyənlərin – əgər bilet pullarını sonra qaytarsanız belə, – ciblərində bilet almaq üçün 12 min yoxdur. Yazıçılar indi dilənçi kökündədər. Bağışlayın ki, belə açıq danışıram, amma bu həqiqəti Sizə kim deyəcək? İttifaqın («Sodrujestvo»nu nəzərdə tuturam) pulu yoxdur və uzun zaman olmayacaq. Hökumət mədəniyyətə qəpik-quruş ayırır, sponsor axtarmaq isə çətin və alçaldıcı işdir.

Möcüzəvi şəkildə çap olunmuş yeni kitabımı Sizə göndərirəm.

Qahirədən Lütfü əl Holidən fevralda intellektuallar konqressinə dəvətnamə gəlib. Bu yaxında dəvəti siz də alacaqsınız, bəlkə də artıq almısınız. İndi gərək bu səyahət üçün pul tapaq.

Ən xoş arzularla, Sizə həmişəki dostluq

Sizin

Rimma Kazakova.
23 noyabr, 1992

Ali Sovetin üzvü, Azərbaycan Yazıçılar İttifaqının Birinci katibi cənab Anar Rzayevə.

Qahirədə Yaxın Şərqi araşdırma Milli hisslərilə, Azərbaycana məhəbbətlə ərkəzi Sizi Qahirəyə dəvət etməyi özünə şərəf bilir. Xahiş edirik ki, yenidənqurmanın praktik həyata keçirilməsi və yeni dünya düzəni işığında Sovet İttafqının gələcəyi haqqında, gələcək SSRİ siyasətinin ərəb ölkələrinə təsiri haqqında məruzəylə çıxış edəsiniz. Mərkəz Sizi bir həftə müddətində qəbul etməyə şad olardı. Razı olsanız Sizə uyğun olan vaxt dəvət göndərərdik.

Ən yüksək hörmətimi qəbul edin.

Lütf əl Holi,
Mərkəzin sədri.
12 dekabr, 1990

Уважаемый Анар Расулович!

Как вы знаете, недавно ноябрский пленум Правления Союза писателей СССР принял решение созвать в июне 1971 года очередной V-й съезд писателей СССР.

Просим Вам сообщить нам, каким бы Вы хотели видеть будущий отчетный доклад Правления, на какие, по Вашему мнению, явления, произведения и книги желательно было бы обратить внимание в докладе с тем, чтобы в нем нашли отрожение наиболее характерные проблемы литературного процесса между IV и V съездами, т.е. за последние четыре года.

С уважением,

Г.Марков,
Первый секретарь Правления Союза писателей СССР

Hörmətli Anar Rəsuloviç!

Bildiyiniz kimi, SSRİ Yazıçılar İttifaqının İdarə Heyətinin noyabr plenumunda SSRİ yazıçılarının V qurultayını 1971-ci ilin iyun ayında keçirilməsi qərara alınmışdır.

Xahiş edirik İldarə heyətinin hesabat məruzəsini necə görmək istədiyiniz haqqında bizə məlumat verəsiniz. Sizin fikrinizcə məruzədə hansı ədəbi hadisələrə, əsərlərə və kitabalara diqqət yetirilməlidir ki, IV və V qurultaylar arasında, yəni son dörd ildə ədəbi prosesin problemlərinin xarakter cəhətləri öz əksini tapsın.

Hörmətlə,

G. Markov.
SSRİ Yazıçılar İttifaqının birinci katibi

Дорогой Анар!

Сердечное спасибо за теплое письмо, за добрые слова о моей работе, пришедшие так кстати. Я, разумеется, помню Вашу статью в «Новом мире», и теперь с интересом познакомлюсь с тем, что Вы делаете в иных жанрах. Завидую Вашей молодости и разнообразию литературных занятий.

Владимир Лакшин.
27 марта, 1970

Комментарий Анара. *Покойный Владимир Лакшин – один из ведущих русских критиков, фактический идеолог журнала «Новый мир» в период редакторства А.Твардовского. Именно его острые статьи вызывали особое раздражение в верхах и после того, как его вынудили уйти из журнала, А.Твардовский подал в отставку. Именно в эти дни я написал В.Лакшину письмо которое привожу здесь:*

«Уважаемый Владимир Яковлевич! Вы, наверное, меня не знаете. А может быть и помните, в «Новом мире» (№5, 1967) была опубликована моя статья «Большое бремя – понимать». На днях я прочитал в 12 номере «Нового мира» Вашу статью о «Мудрецах» (имеется ввиду пьеса Островского «На всякого мудреца довольно простоты») и не мог не написать Вам и не выразить своего глубокого восхищения. Я давно собирался это сделать, ибо в течении нескольких лет с неизменным интересом читаю Ваши статьи. Особенно мне запомнилась Ваша статья о «Мастере и Маргарите», которую я, как и статью Виноградова в «Вопросах литературы», считаю в высшей степени достойной своего предмета – романа Булгакова. Статья о «Мудрецах» поразила меня умением критика трактовать, столь, казалось бы, далекое от нынешних наших забот произведения, так актульно, злободневно, современно. Для меня эта статья, и Ваша критическая деятельность в целом, олицетворяет ту часть нашей литературы, которую, когда-то принято было называть совестью народа. Если у Вас будет возможность приехать к нам в Азербайджан, Вы здесь встретите друзей и единомышленников. Желаю Вам всего наилучщего в жизни и в творчестве.

Анар

Lakşinin məktubunun tərcüməsi

Əziz Anar!

Mehriban məktubunuza, mənim işim haqqında əsl vaxtında gəlmiş xoş sözlərinizə görə Sizə ürəkdən təşəkkür edirəm.Mən əlbəttə Sizin «Novıy mir»dəki məqalənizi xatırlayıram, indi də Sizin başqa canrlardakı işlərinizlə maraqla tanış olacam. Sizin gəncliyinizə və ədəbi işlərinizin müxtəlifliyinə həsəd çəkirəm. Sizə ürəkdən uğurlar arzulayıram.

Vladimir Lakşin.
27 mart, 1970

Anarın şərhi. *Mərhum Vladimir Lakşin görkəmli rus tənqidçilərindəndi, A.Tvardovskinin redaktorluğu zamanı «Novıy mir» jurnalının əsas ideloquydu. Lakşinien cəsarətli məqalələri «yuxarıları» qıcıqlandırırdı və nəyahət onu jurnaldan getməyə məcbur etdilər. Bundan dərhal sonra A.Tvardovski də redaktorluqdan istefa verdi. Məhz o günlərdə Lakşinə məktub yazdım. Həmin məktubun tərcüməsini burda verirəm:*

Hörmətli Vladimir Yakovleviç!

Yəqin ki, məni tanımırsız, ya bəlkə də «Novıy mir»də dərc olunmuş (№5, 1967) «Anlamaq dərdi» adlı məqaləmi xatırlayırsınız. Bu günlərdə «Novıy mir»in 12-ci nömrəsində sizin Aleksandr Ostrovskinin pyesi haqqında məqalənizi oxudum və dərin heyranlığımı Sizə bildirmək istədim. Bunu çoxdan etmək istəyirdim, çünki artiq neçə ildir ki, daimi maraqla Sizin məqalələrinizi oxuyuram. Xüsusiylə Sizin «Usta və Marqarita» haqqında məqaləniz yaxşı yadımda qalıb. Mən bu məqaləni də, Vinoqradovun «Voprosı literaturı» jurnalında dərc olunmuş məqaləsi kimi mövzularına – yəni Bulqakovun romanına ən yüksək dərəcədə layiqli yazılar kimi qiymətləndirirəm. Ostrovskinin pyesi haqqında məqalənizdə sanki bizim günlərdən bu qədər uzaq olan bir əsəri belə aktual, muasir yozmağınız məni heyrətləndirdi. Bu məqalə və ümumən Sizin tənqidçilik fəaliyyətiniz mənimçün haçanlarsa ədəbiyyatın xalqın vicdanı sayıldığı dövrü xatırlatdı. İmkan tapıb Azərbaycana gəlsəniz burda dostlarınızı və həmfikirlərinizi tapacaqsınız. Həyatda və yaradıcılıqda Sizə ən xoş şeylər arzulayıram.

Anar

Милый Анар!

Вышел №2 «Дружбы народов» с Вашим «Кругом». От души благодарю Вас за отличную повесть. Не забывайте, пожалуйста, нас и впредь. Искренне ваш,

С.Баруздин

Əziz Anar!

«Drujba narordov»un Sizin «Çevrə» («Ağ liman») povestiniz dərc olunmuş 2-ci nömrəsi çıxdı. Əla povestə görə Sizə təşəkkür edirəm. Gələcəkdə də, lütfən bizi unutmayın.

Səmimiyyətlə,

Sizin Sergey Baruzdin

Дорогой Анар!

Я совершила бестактность по отношению к Вам и к Сергую Алексеевичу, не дав читать ему «Контакт» в самом начале наших переговоров. Прочитав повесть сейчас, Сергей Алексеевич возражает против ее публикации, считая, что в повести много Кафки, Гоголя, Гофмана, но мало Анара. Очевидно, глядя на «Контакт» как на своеобразное продолжение темы «Шестого этажа пятиэтажного дома», я не учла, что впечатление может быть и иным.

С великим сожалением возвращаю повесть.

Инна Сергеева.
9 ноября, 1977

Əziz Anar!

Sizə və Sergey Alekseeviçə (*«Drujba narodov» jurnalının baş redaktoru S.A.Baruzdin nəzərdə tutulur – **A.)*** qarşı nəzakətsizlik etmişəm: «Əlaqə»ni bizim danışıqlarımızdan qabaq Sergey Alekseyeviçə göstərməmişəm. İndi povesti oxuyandan sonra Sergey Alekseyeviç onun jurnalda dərc olunmasına etiraz edir, elə hesab edir ki, əsərdə Kafka, Qoqol, Qofman çoxdur, Anar isə azdır. Görünür «Əlaqə»yə «Beş mərtəbəli evin altıncı mərtəbəsi»nin başqa şəkildə davamı kimi baxmışam, nəzərə almamışam ki, ayrı təəssürat da ola bilər.

Böyük təəssüf hissiylə povesti Sizə qaytarıram.

İnna Sergeyeva.
(«Drujba narodov» jurnalının nəsr şöbəsinin müdiri).
9 noyabr, 1977

Дорогой Анар! Сегодня вышел в свет №12 нашей «Дружбы народов» с Вашей повестью «Контакт». От души поздравляю Вас и благодарю за отличную повесть и за… долготерпение! Не забывайте нас, пожалуйста и впредь! И еше просьба – подошлите мне, пожалуйста, в редакцию последние издания своих книг – на азербайджанском и русском – с добрыми пожеланиями нашим подшевным нурекчанамаи. «Интернациональной баруздинской библиотеке «Дружбы народов» в славном Нуреке от старого «дружбинца» и т.д.

Хорошо? Буду ждать. Заранее благодарен Вам! О Вашем даре (первом) в нурекскую колекцию мы уже сообщали. Так что давайте поддерживать добрую традицию!

Сердечно поздравляю Вас с наступающим Новым 1979 годом и желаю добра и счастья.

Ваш

Сергей Баруздин.
18 декабря, 1978 г.

Əziz Anar!

Bu gün «Drujba narodov»un Sizin «Əlaqə» povestiniz dərc olunmuş 12-ci nömrəsi çıxdı. Əla povestiniz üçün Sizi təbrik edir və... səbriniz üçün Sizə təşəkkür edirəm. Bizi lütfən, gələcəkdə də unutmayın!

Bir xahişim var, zəhmət olmasa kitablarınızın son nəşrlərini – Azərbaycan və rus dillərində redaksiyamıza göndərin – Nureklilərə ithafla. Məsələn belə: «Drujba narodov»un beynəlxalq Baruzdin kitabxanasına köhnə «Drujba» müəllifindən və s. (*S.Baruzdinin təşəbbüsylə Nurek Su elektrik stansiyasının kitabxanası yaradılmışdı və yazıçılar ora kitablarını göndərirdilər – **A.***).

Yaxşımı? Gözləyəcəm. Sizin Nurek kolleksiyasına əvvəlki (birinci) hədiyyəniz haqqında məlumat vermişdik. Odur ki, gəlin bu xoş ənənəni davam etdirək. Sizi 1979-cu ilin gəlişi münasibətiylə ürəkdən təbrik edirəm. Sizə xoş günlər və səadət arzulayıram.

Sizin,

Sergey Baruzdin.
18 dekabr, 1978.

Милый Анар!

Сердечно поздравляю Вас с выходом «Цейтнота» в приложениях к нашей «Дружбе народов»! Искренне рад за Вас! Книга, по-моему получилось очень симпатичной и доставит Вам радость. Всего Вам самого-самого доброго!

Всегда Ваш

Сергей Баруздин.
13 февраля, 1989 г.

Əziz Anar!

«Drujba narordov»un əlavəsi olaraq «Macal»ın çıxması münasibətiylə Sizə ürəkdən təbrik edirəm. Sizə görə səmimi surətdə şadam, Məncə kitab çox yaxşı alınıb və Sizə sevinc bəxş edəcək. Sizə ən xoş arzularımla

Həmişə Sizin

Sergey Baruzdin.
13 fevral, 1989

Дорогой Анар!

У меня к Вам большая просьба. В 1968 году в Баку вышла книга С.Якубовой «Народное сказание Ашыг Гариб» (издание Академии наук Аз ССР). Автор подтверждает мою версию о том, что человеком, от которого Лермонтов узнал сюжет этой сказки, мог быть М.Ф.Ахундов. Можете представить себе, как это для меня важно!

Узнал я о выходе книги из рецензии в «Вопросах литературы». Но самой книги в Москве достать не могу. Вот я и хочу Вас побескоить: нельзя ли мне получить это сочинение из Баку?

Пользуюсь случаем, чтобы выразить Вам самые лучшие чувства и поздравить Вас и всю Вашу семью с Новым Годом и пожелать Вам счастья, благополучия, успехов. Особый привет Вашему отцу.

Когда будете в Москве – приходите к нам на улицу Кирова (д. 17. кв. 48, телеф. 221-14-45). Будем всегда рады Вас видеть. Адрес узнал от Мананы, которая просила Вам кланяться.

Ваш Ираклий Андроников.
Москва, 25 декабря, 1968

(дочь И.Л.Андронникова Манана училась с Анаром на Сценарных Курсах в Москве).

Əziz Anar! Sizdən böyük bir xahişim var. 1968-ci ildə Bakıda S.Yaqubovanın «Xalq dastanı Aşıq Qərib»« kitabı çıxıb (Az.SSR Elmlər Akademiyasının nəşri). Müəllif mənim fərziyyəmi təsdiq ediir ki, Lermontova bu dastanı danışan adam M.F.Axundov ola bilərdi. Təsəvvür edirsinizmi, bu mənim üçün necə vacibdir!

Kitabın çıxması haqqında «Voprosı literaturı» jurnalında reseniziyadan xəbər tutdum. Amma kitabın özünü Moskvada tapa bilmirəm. Ona görə də sizi narahat edirəm – bu kitabı Bakıdan ala bilərəmmi?

Fürsətdən istifadə edib Sizə ən yaxşı hisslərimi çatdırır, Sizi və ailənizi Yeni il münasibətilə təbrik etmək, xoşbəxtlik, rifah və uğurlar arzulamaq istəyirəm. Atanıza xüsusi salamlarımı yeririn.

Moskvaya yolunuz düşəndə Bizə gəlin. Sizi görməyə həmişə şadıq. Ünvanınızı Mananadan öyrəndim, o da Sizə salam göndərir.

Sizin İrakli Andronikov.
25 dekabr, 1968

(İ.L.Andronnikovun qızı Manana Anarla Moskvada Ali Ssenari Kurslarında təhsil alıb).

Дорогой Анар!

Спасибо Вам за доброе письмо и новогодние пожелания. Желаю Вам взаимно счастливого Нового 1983 года. За перевод стихотворения любимого поэта Расула Рза я взялся охотно. Но тут же столкнулся с трудностями. В Вашем подстрочном переводе не указано, какой ритм, какая строфика и какие строки с какой рифмой рифмуется. Это только общая схема (только содержание стиха). А форма? Пришлось заглядывать на поэтические перевод, а он в некоторых местах он отступает от оригинала. Что надо было бы не делать. Я держался ближе к оригиналу. Но правильно это или нет – могут судить только те, кто знает оригинал. Словом, я руководствовался интуицией и сделал из этого литовское стихотворение, сохранив все содержание и метофорику (конечно, и философскую мысль) большого художника. На литовском может это и звучит, как в оригинале. Не знаю. Судите сами что делать. Подойдет – печатайте, не подойдет – верните. Могу еще поработать. Жду ответа.

Ваш Эдуардас Межелайтис.
5 января, 1983, Вильнюс

Əziz Anar!

Səmimi məktubunuza və yeni il təbriklərinizə görə çox sağ olun. Mən də qarşılıqlı olaraq sizə xoşbəxt 1983-cü il arzulayıram. Sevimli şairim Rəsul Rzanın şeirinin tərcüməsinə məmnuniyyətlə başladım. Amma dərhal çətinliklə üzləşdim. Sizin sətri tərcümənizdə ritm, ölçü, hansı sözün hansı sözlə qafiyələndiyi göstərilməyib. Bu ancaq ümumi sxemdir (ancaq şeirin məzmunudur). Bəs forma? Şeirin (ruscaya) bədii tərcüməsinə baxmalı oldum. Bu tərcümə bəzi yerlərdə orijinala uyğun deyil. Bunu gərək etməyəydilər. Mən orijinala yaxın olmağa çalışdım. Düzmü etmişəm ya yox, bunu ancaq dili bilənlər deyə bilər. Bir sözlə, mən intuitsiyama arxalandım və tərcümüdə Litva şeiri yaratdmağa çalışdım. Bununla belə, böyük sənətkarın şeirinin həm məzmununu, həm metoforikasını (və əlbəttə, fəlsəfi fikrini) saxladım. Litva dilində alınıb, orijinala nə qədər yaxun olduğunu deyə bilmərəm. Özünüz qərar verin, Yarayarsa çap edin, yaramırsa, qaytarın, üzərində yenə işləyə bilərəm. Cavabınızı gözləyirəm.

Sizin Eduardas Mecelaytis.
5 yanvar, 1983, Vilnüs

Дорогой Анар, вернувшись в Москву, я нашёл Ваше любезное приглашение. Очень грустно, что все сложилось неудачно – так давно хочется побывать на родине. Если Вы читали «Старую рукопись» и, в особенности, «Прощальный марш», то поймете, что поднимается в моей душе при одном только слове «Баку». Но и в Москве меня не было (я в ней очень редко появляюсь) и сразу две премьеры пришлось на эти дни – одна в Малом театре, другая – в театре Моссовета, и тут уж надо было сидеть в столице до победного конца и пройти через весь этот премьерный хоровод, что с каждым разом даётся мне все трудней.

Сейчас возвращаюсь на дачу, нужно заканчивать роман. С одной стороны – пора, прошло четыре года, с другой стороны – грустно, все это время я чувствовал себя защищенным этой работой.

Я надеюсь, что настанут прекрасные теплые дни и наша встреча состоится. Я очень хорошо знал Вашего очаровательного отца и прекрасную мать (редко приходилось видеть женщину, чья красота была отмечана таким аристократическим благородством) – буду сердечно раз увидеть их сына, которого хорошо знаю как писателя, о котором много слышал как о человеке.

Крепко жму Вашу руку.

Леонид Зорин.

Если «Цитата» пойдет 7 ноября по ТВ (так планируют, но кто их знает?) и если будет охота и время, то поглядите.

1 ноября, 1988

Əziz Anar, Moskvaya qayıdıb Sizin lütfkar dəvətinizi aldım. Çox kədərlənirəm ki, hər şey belə uğursuz alınır – vətənimə getməyi o qədər istərdim ki… Əgər Siz «Köhnə əlyazması»nı və xüsusilə «Vida marşını» oxumusunuzsa, ancaq elə tək bir «Bakı» sözünü eşidəndə qəlbimdə nələr oyandığını başa düşərsiz. Moskvada da yox idim (bura az-az gəlirəm). Bu günlərdə iki premyeram eyni vaxta düşüb – biri Malı teatrda, o biri Mossovet teatrında, odur ki, sona qədər paytaxtda qalmalı oldum.Bu premyera qalmağallarından keçmək get-gedə mənə daha çətin olur.

İndi bağ evinə qayıdıram, romanı qurtarmalıyam. Bir yandan – vaxtdır – dörd il keçib, o biri tərədən kədərlidir, məni bütün bu vaxt ərzində bu iş məni qoruyurdu. Ümid edirəm ki, havalar istiləşəcək və biz görüşəcəyik.

Mən Sizin çox yaraşıqlı atanızı və gözəl ananızı (qadın gözəlliyinin arsitokratik nəcibliklə belə üzvü vəhdətinə nadir hallarda rast gəlinir) yaxşı tanıyrdım. Onların oğullarını görməyə də çox şad olaram, mən sizi yazıçı kimi yaxşı tanıyrıam, insan kimi də Sizin haqqınızda çox eşitmişəm.

Əlinizi möhkəm sıxıram.

Leonid Zorin.

Əgər «Sitat» 7 noyabrda TV də göstərilsə (belə planlaşdırıblar, amma kim bilir?) həvəsiniz və vaxtınız olsa, baxın.

1 noyabr, 1988

Дорогой Анар! Спасибо Вам за Ваш новогодний подарок. Я сразу начал читать книгу, благо оказался в Москве (Я ведь, в сущности, переселился в свое Красновидово). «Юбилей Данте» я знаю уже давно. По этому рассказу я впервые узнал Вас как писателя, помню и другие в небольшой белой книжке. В этом однотомнике много нового дла меня. Разумеется, он будет изучен весь, но Вы поймете, что я не мог не начать с завершающего книгу романа и читал его всю ночь до рассвета (*имеется ввиду роман-воспоминание «Без вас» о родителях Анара –* ***ред.***). Это очень искренняя проза, Анар, и в этом романе отражены не только Ваши родители, но и их сын, с не меньшей, если не с большей полнотой. Но честно могу сказать, что если бы Ваш отец и мать не оставили после себя ни единой строчки, жизнь их все равно была бы оправдана тем, что они сумели поселить в Вашей душе такую любовь, самоотверженность, преданность.

Вы прекрасно воссоздали жизнь Вашей семьи и жизнь всего клана, объединённого родоначальниками, более того – бакинскую жизнь, с тем, что в ней есть щедрого, теплого, великодушного и с тем, что не могло не отравить существование человека масштаба Расула – ограниченностью, недостаточной образованностью и всякого рода мышиной возней (помню, как часто жаловался мне на непонимание покойный Рафили).

С предельной тщательностью Вы привели в порядок, систематизоровали всю эпистолярию, назвали всех корреспондентов отца, (быть может, даже с чрезмерной тщательностью – память Расула не пострадала бы, если бы не был упомянут такой человек как Софронов и еще кое-кто), но, конечно, главная прелесть книги в том, что эта история любви двух красивых, талантливых, предназначенных друг другу людей, прошедших под незабываемым апшеронским небом свой почти полувековой совместный путь, познавших редкое счастье полного взаимоудовлетворения и радость продолжения себя в детях, и упоение творчеством, и трагедию конца.

Многие, очень многие прочтут эту книгу с волнинием и благодарностью. Возможно иные, недостаточно знающие традиции восточной прозы, предпочли бы увидеть ее написанной чуть более жестко (Вам известна сокрушительная сила внешней сдержанности), но я думаю, что эти страницы не могли быть написанными иначе – они излились так и только так. Разумеется, мало кто прочтет Ваш роман с такой отдачей, как Ваш покорный слуга. И что удивительного? Я же знал Ваших родителей до Вашего рождения, я же помню Нигяр в черном берете, который чудом удержался в Вашей памяти. Я знаю почти всех, помянутых в романе, а с Микаэлом Рафили и Сабитом Рахманом был в теплых отношениях. Для меня слова Книжный пассаж, неопределенная Кривая, неразрушенный еще Парапет, старые названия кинотеатров (был еще «Тэйяре» на Ольгинской-Джапаридзе, сейчас там универмаг) весь этот шелест другой жизни, дошедший из тридцатых годов, полон особого значения. Это ведь Баку, мой Баку, где когда-то на улице Бандерной (теперь эта улица Дмитрова) мне выпало появиться на свет. С тех пор образ этого города со мной неотлучно – в марте я был на своей премьере в Канаде, от отеля шла скошенная дугой улица и я стал рассказывать жене про Кривую. Через месяц (так

получилось) мы были с ней на другой премьере – в Париже – и – это было какое то наваждение! – улица Реймона Пуанкаре напомнила мне Телефонную.

Ах, что это был за удивительный город и какое широкодушное племя жило в нем полвека назад! Есть какой-то ошеломительный парадокс, что в самые жестокие годы, в самое кровавое время, нам, мальчикам, было тепло в этом городе. Могу по чести сказать- не было места щедрей и интернациональней. Шли десятилетия, а мы, дети той поры, с гордым вызовым произносим: «национальность – бакинец».

Я не мог читать этих страниц и без сопоставлений со своей судьбой. Вот я встречаю имя Чингиза Гусейнова. Мы и по сей день ощущаем нашу близость.

А наши с ним сыновья связаны между собой теснейшей дружбой. С этими замечательными молодыми людьми я встречал новый год и, разумеется, вновь говорили мы о городе-первоистоке.

А двадцать один год назад ужинали в Измире, в Айвалыке! (*Айвалык упоминается в «Без вас» – **ред.)***. Да и когда я читаю о Москве, сопоставления рождаются вновь. В онкологический Центр на Каширском шоссе я ходил почти восемь с половиной лет – там лежала моя жена. Я забрал ее оттуда в последний раз за три месяца до ее кончины, которая наступила в 1980-м. Одну из операций ей делала Людмила Алексеевна Новикова, с которой мы стали очень дружны (*в «Без вас» говориться об онкологиеческом центре на Каширском шоссе, где лежала Нигяр Рафибейли. Ее оперировала Л.А.Новикова – **ред.)***.

Грустная, возвышенная книга! Я понимаю какой непосильный груз Вы носили в своей душе. Жизнь Вам станет несколько легче – это проверено. Единственная привилегия писателя – он может справиться со своим страданием, написав о нем.

Думаю, что богатство, которым одарили Вас эти два человека, поможет Вам сотворить еще множество отличных книг. А к юности Вы еще не раз будете возвращаться. Однажды мы долго беседовали на эта тему с другим Чингизом – Айтматовым – и пришли к тому, что литература – эта память. Добавлю еще, – не в последнюю очередь – память о детстве.

Смотрю на кое-какие свои опусы – и «Старая рукопсь» и «Прощальный марш», да и многие другие страницы, – все это Баку и вновь Баку.

От души желаю, чтобы под небом, которое так радостно сияет девять месяцев в году, вновь воцарился мир, восторжествовало бы великодушие и добро. Пусть прекрасные тени тех, кого уже нет с нами, помогут живым.

Крепко жму Вашу руку
Леонид Зорин.

Р.С. Дорогой Анар, в минувшем году Вам минуло пятьдесят. Поверьте мне, Вы еще молоды. Только теперь, когда я стал старше своего отца, я понимаю, какой это был прекрасный возраст и сколько мне всего еще предстояло. И главное книги,

и завершение трилогии (трех романов), и новые пьесы, и новая встреча и женитьба. Не торопитесь же – даже мысленно –подводить итоги Вашей жизни.

P.P.C. Да, нам повезло. У нас были замечательные отцы. Помню в 37-м, когда в Баксовете голосовалась резолюция против врагов народа, мой отец сидел – один! – со скрещенному на груди руками. – Как же мы?! У тебя же есть дети. – сказала ему мать. – Потому что у меня есть дети, – ответил он.

Как Вы знаете, я начинал со стихов. И теперь иногда их пишу. Только никому не показываю. Но вот эти, в общем недавние – мне хочется , чтобы Вы прочли.

Мы живем и хлеб жуём,
А отцы нас так любили!
Мы не то, что их забыли
Просто мы без них живём.
Что осталось? Горстка пыли,
Полусказки, полубыли,
Мы так редко их зовём.
Мы давно себе забили
Голову. А их забыли
И ночами не ревём.
А они когда-то были.
А они нас так любили.
И мы тоже их любили
А теперь без них живём.

5 мая 1981 г. (!)

Leonid Zorinin məktubunun ixtisarla tərcüməsi

Əziz Anar, yeni il hədiyyəniz üçün çox sağ olun. Kitabı dərhal oxumağa başladım. «Dantenin yubileyi» ilə əvvəldən tanış idim. Sizi yazıçı kimi bu hekayədən tanımışam. Sonra da kiçik kitabınızda başqa yazılarınızı oxumuşdum... Bu bircildlikdə isə çox şey mənimçün yenidir. Təbii ki, hamısını oxuyacam, ancaq yəqin ki, məni başa düşərsiz, kitabı tamamlayan romandan başladım və səhər sübh çağınacan oxudum («Sizsiz» xatirə -romanı nəzərdə tutulur).

Bu çox səmimi nəsrdir, Anar, romanda yalnız Sizin valideynləriniz deyil, onların oğlu da, bəlkə daha böyük tamlıqla əks olunub. Əgər Sizin atanız və ananız özlərindən sonra bir misra da qoyub getməsəydilər onların həyatı Sizin qəlbinizə belə məhəbbət, fədakarlıq və vəfa toxumları səpdikləri üçün dəyərli olardı.

Siz romanda tək ailənizin və nəslinizin həyatını deyil, ünumiyyətlə Bakı həyatını çox gözəl canlandırmısınız. Bakı həyatının səxavətli, isti, genişürəklilik cəhətlərini də, Rəsul miqyasda insanın həyatını zəhərləyən nadanlığı, savadsızlığı və cür-bəcür sıçan-pişik oyunlarını da (Tez-tez məhrum Rəfilinin anlaşılmazlıqdan mənə gileləndiyini xatırlayıram). Siz diqqətlə bütün məktublaşmaları, sənədləri, sistemləşdirməsiniz, məktub sahiblərinin hamısının adını çəkmisiniz (hətta Sofronov və bəzi bu kimi adamların adları çəkilməsəydi Rəsulun ruhu inciməzdi). Əlbəttə kitabın əsas dəyəri iki gözəl, istedadlı, bir-biriyçün yaranmış insanın unudulmaz Abşeron səması altında keçmiş yarıməsrlik yollarının təsviridir-bu insanlara bir-birini tam şəkildə anlamağın nadir səadəti, özlərini evladlarında davam etdirməyin xoşbəxtliyi, yaradıcılıq bəxtəvərliyi nəsib olmuşdu. Axırda da faciəvi sonluq.

Çoxları, lap çoxları bu kitabı böyük həyəcanla və minnətdarlıqla oxuyacaqlar. Amma bu romandan ən çox mütəəssir olan mənəm. Bu təəccüblü deyil. Axı mən Sizin valideylərinizlə hələ Siz dünyaya gəlməmişdən qabaq tanış idim. Nigarın Sizin yaddaşınızda möcüzəvi şəkildə qalmış qara bereti də yaxşı yadımdadır. Romanınızda adlarını çəkdiyiniz Rəfili və Sabit Rəhmanla isti münasibətlərim vardı. Adlarını çəkdiyiniz yerlər – Kitab passajı, Krivaya küçəsi, Parapet, kino-teatrların köhnə adları (hələ Olginski-Caparidze küçəsində «Təyyarə» kinoteatrı da vardı, indi orda Univermaqdır) – bütün bunlar başqa bir həyatın otuzuncu illərdən gələn əsintisi kimi mənimçün xüsusi əhəmiyyətə malikdir. Bu Bakı mənim Bakımdır, haçansa Banderni küçəsində dünyaya gəldiyim şəhərdir.

O vaxtdən bəri bu şəhərin obrazı həmişə mənimlədir. Martda Kanadada pyesimin premyarısında idim. Arvadıma dedim ki, bax bu əyri küçə eynən Bakının Krivoy küçəsini xatırlatdır. İş elə gətirdi ki, bir aydan sonra arvadımla başqa bir premyaram münasibətiylə Parisə getdik. Parisdə – bu nə qəribə bir oxşayış idi- Reymon Puankare küçəsi Bakının Telefonnu küçəsinin əkizi idi. Yarım əsr bundan qabaq yaşadığım Bakı necə də qəribə şəhər idi. İnsanı çaşırdan bir paradoks var – ən qəddar, qanlı-qadalı illərdə biz yeniyetmələr bu şəhərdə xoşbəxt idik. Düzünü deyim ki, o zaman Bakıdan beynəlmiləl

və xeyirxah şəhər yoxdu. Onilliklər keçib, amma biz o vaxtdlardan bəri həmişə iftixarla: millətimiz? – sualına – Bakılıyık – deyirik.

Kədərli, həm də çox ülvü kitabdır. Başa düşürəm ki, qəlbinizdə bütün bu vaxt ərzində necə ağır yük daşımısınız. Bunu yazmaqla həyatınızı yüngülləşdirmisiniz – bu yoxlanılmış bir şeydir. Yazıçının yeganə imtiyazı ondadır ki, o, iztirablarını yazmaqla onlardan müəyyən qədər xilas ola bilir. Düşünürəm ki, bu iki insanın Sizə bəxş etdikləri zənginlik hələ neçə-neçə əla kitablar yazacağınızının rəhni olacaq. Hələ dəfələrlə gəncliyinizə dönəcəksiniz. Bir kərə Çingiz Aytmatovla bu barədə ətraflı söhbətimiz oldu və sonda belə qənaətə gəldik ki, ədəbiyyat – ilk növbədə yaddaşdır. Əlavə edim ki, bəlkə də ən çox uşaqlıq haqqında xatirələrdir. Öz yazılarıma nəzər salıram «Köhnə əlyazması», «Vida marşı», neçə-neçə başqası – hamısı Bakı, Bakıdır.

Ürəkdən arzulayıram ki, ilin doqquz ayı günəşli olan səmanızın altında sülh və xeyir olsun. Qoy aramızdan getmişlərin gözəl gölkələri yaşayanlara yardım etsin.

Əlinizi bərk-bərk sıxıram.

Leonid Zorin

R.S. Əziz Anar. Keçən il əlli yaşınız tamam oldu. İnanın ki, hələ çox cavansınız. Mən yalnız atamdan böyük olduğum vaxt başa düşdüm ki, bu ən gözəl yaş imiş və hələ irəlidə nə qədər görülməli işim varmış. Odur ki, ömrünüzü yekunlaşdırmağı heç ağlınıza gətirməyin.

Bizim baxtımız gətirib – namuslu atalarımız olub. Yadımdadır 37-ci ildə Baksovetdə xalq düşmənlərinə qarşı qərar qəbul olunanda atam əli qoynunda oturub. Anam: – Bəs biz? – deyilb ona, – axı sənin övladların var? – Atam: – Ona görə ki, mənim övladlarım var, – deyə cavab verib.

Bildiniz kimi mən şeirlə başlamışam. Hərdən bir indi də şeir yazıram. Amma heç kəsə göstərmirəm. Ancaq bax bax bu yaxınlarda yazdığım bir şeiri istərdim ki, Siz oxuyasınız.

L.Z.

Уважаемый Анар Расулович!

Вы доставили мне большое удовольствие своей статьей в «Лит.газете» (*Имеется в виду статья «Нити нежности, нити грубости» («Литературная газета» 30 августа 1978) в которой Анар полемизировал с критикой в адрес Ю.Трифонова, А.Крона, выступив против обвинений Ю.Андреева –* ***ред.***) Не потому, что Вы дважды добром помянули меня, и тем самым косвенно поддержали мою «Бессоницу», подвергаюшуюся планомерной атаке с тех самых позиций, которым Вы дали прекрасную отповедь в своей статье. Конечно, мне это приятно, но не это главное. Главное – это уровень, до которого не поднимался еще никто, ни в этой, ни в предшествующей дискуссии на страницах «ЛГ» о «беллетристике». Вы сумели протовопоставить ходячим вульгарно-социалогическим штампам, демагогии и маниловщине, которыми изобилуют многие статьи – не только Ю.Андреева, с которым вы впрямую полемизируете, настоящий профессиональный разговор о нашем нелегком ремесле, спокойный тон и понимание действительности. Второе, что меня порадовало, касается сегодняшнего уровня азербайджанской прозы и критики. В 1930-31 г.г. я жил и работал в Баку, на основе бакинских впечатлений написана моя пьеса «Глубокая разведка». В то время в Азербайджане была прекрасна поэзия, жив был Самед Вургун, уже заявили себя мастерами Сулейман Рустам и Расул Рза, но проза была слаба, а профессиональная критика и того слабее. Теперь Вы с гордосью называете ряд имен, жалею что мне знакомы не все, но вполне Вам верю. Судя по повести Ибрагимбекова, напечатанной в «Новом мире», молодая азербайджанская проза очень интересна. Ваша статья заставляет меня постараться в ближайщее время расширить свое представлениие о ее сегодняшнем дне.

Благодарю Вас за статью и желаю здоровья, литературных успехов.

Александр Крон.
Переделкино, 31 августа, 1978

Hörmətli Anar Rəsuloviç!

«Lit.qəzet»dəki məqaləniz mənə böyük zövq verdi (*«Lietarutrnaya qazeta» da (30 avqust 1978) dərc olunmuş «Zəriflik bağları, kobudluq bağları» məqaləsi nəzərdə tutulur, bu məqalədə Anar Y.Trifonovayla, A.Kronla bağlı tənqidi fikirlərlə mübahisə edir, tənqidçi Y.Andreyevin ittihamlarına cavab verirdi –* ***red.)***. Ona görə yox ki, mənim adımı iki dəfə xoş niyyətlə çəkmisiniz və beləliklə dolayı yolla mənim «Yuxusuzluq» romanımı ardıcıl hücümlardan, məqalənizdə tutarlı cavab verdiyiniz mövqelərdən olan hücumlardan müdafiə etmisiniz. Bu əlbəttə mənə xoşdur, amma əsas bu deyil. Əsas odur ki, «LQ» səhifələrində «belletristika» haqqında diskussiyada da, bundan əvvəlki diskussiyada da heç kəs bu səviyyəyə qalxa bilməyib. Siz yalnız bir başa mübahisə etdiyiniz Y.Andreyevin deyil, bir çox başqa məqalələrdə də bolluca yer alan köklü vulqar sosiloji ştamplara, demoqoqiyaya və manilovşinaya qarşı bizim çətin peşəmiz haqqında həqiqi professional söhbəti, sakit tonu və gerçəklik anlayışını qoyursunuz. İkinci, məni sevindirən Azərbaycan nəsri və tənqidiqnin bugünki səviyyəsi oldu. 1930-31-ci illərdə mən Bakıda yaşayır və işləyirdim. Bakı təəsüratlarıyla «Dərin kəşfiyyat» pyesimi yazmışam. O vaxt Azərbaycanda gözəl poeziya vardı. Səməd Vurğun sağ idi, Süleyman Rüstəm və Rəsul Rza ustalar kimi təsdiq olunurdular, amma nəsr zəif idi, professional tənqid isə ondan da zəif. İndi Siz iftixarla bir sıra adlar çəkirsiniz, təəssüf ki, onların hamısı mənə tanış deyil, amma mən Sizə inanıram. Maqsud İbrahimbəyovun «Novıy mir»də dərc olunmuş povesti sübut edir ki, gənc Azərbaycan nəsri çox maraqlıdır. Sizin məqaləniz məni sövq edir ki, ən yaxın zamanda müasir ədəbiyyatınız haqqında təsəvvürlərimi genişləndirim.

Məqaləniz üçün Sizə təşəkkür edir və cansağlığı, ədəbi uğurlar arzulayıram.

Aleksandr Kron.
Peredelkino. 31 avqust, 1978

Уважаемый Анар Расулович!

Прочитал Вашу пьесу и особенно ясно понял, почему Вам не по душе ханжеские рассужденеия о нравственности. Пьеса мужественная и талантливая. Надеюсь, что обретет сценическую жизнь не только в Азербайджане. Только недавно узнал, что Расул Рза – Ваш отец. Если он меня помнит, то передайте ему привет. Жму Вашу руку, желаю всякого добра.

Александр Крон

Hörmətli Anar Rəsuloviç!

Pyesinizi oxuyanda aydın dərk etdim ki, nəyə görə əxlaq haqqında riyakar söhbətlər ürəyinizcə deyil. Pyes cəsarətli və istedadlıdır. Ümid edirəm ki, o yalnız Azərbaycanda səhnə həyatı qazanmayacaq. Lap bu yaxınlarda bildim ki, Rəsul Rza – Sizin atanızdır. Əgər məni xatırlayırsa, salamlarımı ona yetirin. Əlinizi sıxıram, hər cür xoş şeylər arzulayıram.

Aleksandr Kron

Уважаемый Анар Расулович!

Примите мои самые искренние соболезнования по поводу кончины Вашего отца, замечательного советского поэта, певца Азербайджана. С Вашим отцом я встретился в начале 30-х годов в Баку, работая на кинофабрике Азеркино, а позже в Москве и сохранил о нем самые теплые воспоминания как о литераторе и человеке.

Дружеский привет всей вашей семье от опечаленного читателя и сверстника покойного поэта,

Александр Крон.
11 апреля, 1981, Москва

Hörmətli Anar Rəsuloviç!

Atanızın, gözəl sovet şairinin, Azərbaycan nəğməkarının vəfatı münasibətiylə mənim ən səmimi başsağlığımı qəbul edin. Atanızla 30-cu illərin əvvəllərində Bakıda Azerkino kinofabrikində işlədiyim zaman və sonralar Moskvada görüşmüşdük. Ədəbiyyatçı və insan kimi onun haqqında ən isti xatirələrim var.

Ailənizə dostluq salamlarımı yetirin.

Mərhumun kədərlənmiş oxucusu və yaşıdı,

Aleksandr Kron.
1 aprel, 1981, Moskva

Дорогой Анар!

Наша с тобой переписка имеет какую-то странную тайну. Ты пишешь мне письмо в дни «юбилея», оно не доходит, я тебе посылаю телеграмму с поздравлением по поводу избрания – получаю ответ: адресат по этому адресу не значится. Проверяю по справочнику, все правильно… Что за почтовая мистерия?

Так же и твою рецензию получил с опозданием на несколько месяцев (попала к соседу по этажу, а я был в разъездах) (*имеется в виду рецензия Анара на повесть В.Амлинского «Оправдан будет каждый час» –* ***ред.).*** Спасибо тебе за умную, точную рецензию. Ну да бог с ними, с обстоятельствами…

Первое. Я очень и очень рад, что все так вышло летом – твое избрание (*имеется в виду избрание Анара руководителем Союза писателей Азербайджана –* ***ред.).*** Это важно для многого, для литературных дел в республике, для человеческой творческой атмосферы, да и вообще это справедливо.

Очень хочется с тобой увидеться, поговорить, обдумать какие-то вещи, но этой осенью едва ли выйдет.

Что касается рецензии, то она мне очень понравилась, важные вещи сказаны, но я не знаю ее судьбу. Звонил Богданову, но не застал. Потом я уезжал и т.д. (рецензия была опубликована в журнале «Литаратурное обозрение» №4, 1987).

Хотел это письмо передать с оказией через Юр. Ник. Верченко, но неудобно, поэтому вновь доверяюсь почте…

Обнимаю тебя и желаю всего, всего. Понимаю, что писать тебе в новом качестве будет труднее.

Привет всем друзьям.

Твой Владимир Амлинский.
19 октября, 1987 г.

Əziz Anar!

Bizim sənlə məktublaşmağımızın qəribə sirri var. Sən «yubiley» günlərində mənə məktub yazırsan, gəlib çatmır, mən sənin seçilməyin (*Anarın Azərbaycan Yazıçılar İttifaqının rəhbəri seçilməsi nəzərdə tutulur* – ***red.***) münasibətiylə sənə böyük təbrik teleqrammı vururam, cavab alıram ki, adresat bu ünvanda yaşamır, soraq kitabına baxıram, hər şey düzdur… Bu nə belə poçt misteriyasıdır. Sənin resenziyanı da bir neçə ay yubanmadan sonra aldım, mərtəbə qonşumuzda imiş, mənsə səfərdə idim (*Anarın V.Amlinskinin «Hər bir saat bəraət qazanacaq» povestinə yazdığı retsenziya nəzərdə tutulur* – ***red.***) Ağıllı, dəqiq resenziya üçün sənə təşəkkür edirəm.

Nə isə…

Birinci, çox istərdim ki, sənlə görüşüm, söhbət edək, bəzi şeyləri birlikdə düşünək. Amma bu payız çətin ki, baş tuta.

Resenziyaya gəlincə o mənim çox xoşuma gəldi, vacib şeylər deyilib, amma onun taleyini bilmirəm. Boqdanova zənc elədim, tapmadım, sonra mən getməli oldum və i.a. (*Anarın resenziyası «Literaturnoe obozrenie» jurnalını» 1987-ci il 4-cü nömrəsində dərc olundu* – ***red.***)

Bu məktubu Y.N.Verçenko vasitəsiylə yollamaq istədim, amma yaxşı düşməz, odur ki, yenə də poçta etibar edirəm.

Səni bağrıma basıram və ən yaxşı şeylər arzulayıram. Başa düşürəm ki, indi yeni vəzifədə yazmaq sənincün çətin olacaq.

Bütün dostlara salam

Sənin Vladimir Amlinski.
19 oktybar, 1987

Дорогой Анар!

Не писал так долго, ибо не было новостей. Коллегия Министерства (*имеется ввиду Министерство культуры СССР – **А.**)* не знала, останется ли она существовать, поэтому старалась ничего не решать. Самое парадоксальное, что все они, в принципе, любят и Вас, и меня, но вот так медленно делаются дела в нашем королевстве. А стукнуть кулаком по столу я не мог, так как сам числюсь в членах коллегии, и вышло бы, что как бы использую служебное положение (хотя денег там не платят и я туда практически не хожу).

Словом, скоро возьмусь за работу. Постараюсь прибавить драматизма, сохранив ту загадочность и обаяние недосказанности, которые всегда есть в Вашей прозе и которые мне так у Вас нравятся. Всего Вам доброго

Ваш Леонид Жуховицкий.
14 сентября, 1987

Əziz Anar!

Təzə xəbər olmadığı üçün Sizə çoxdan yazmırdım. Nazirliyin (*SSRİ Mədəniyyət nazirliyi nəzərdə tutulur – **A.***) kolleqiyası qalıb-qalmayacığını bilmirdi, odur ki, heç bir qərar verməməyə çalışırdı. Ən qəribəsi odur ki, onların hamısı prinsip etibariylə Sizi də, məni də çox istəyir. Amma bizim dövlətdə hər şey belə gec baş verir. Mən də masaya yumruğumu vura bilmirdim, çünki özüm də kollegiyanın üzvüyəm. Belə çıxardı ki, vəzifəmdən sui-istifadə edirəm (halbuki kolleqiya üzvləri maaş almır və mən onun iclaslarına praktik olaraq getmirəm).

Bir sözlə, bu yaxında işə başlayacam. Çalışacam ki, dramatizmi bir qədər artıraraq əsas şeyi – Sizin nəsrinizə də xas olan və mənim həmişə çox xoşuma gələn sehri və müəmmalı üslubu qoruyub saxlayım.

Ən xoş arzularla

Sizin Leonid Cuxovitski.
14 sentyabr, 1987

Дорогой Анар!

Закончил перевод Вашей пьесы, на днях вышлю экземпляр. Когда вплотную приступил к делу и вошел в пьесу, она меня просто по-человечески захватила: стал ясен её внутренний драматизм и даже трагизм. Причём, не столько в образе Тахмины (что, в общем, очевидно) сколько в Зауре. Этот бытовый кошмар, когда благожелательная, даже любящая среда давит и в конце концов ломает человека, желая ему добра, отбирает у него возможность счастья, впечатление производит очень сильное. Когда получу от Вас ответ (если перевод Вас в принципе устроит) попробую предложить пьесу в «Современную драматургию».

Судьба любой пьесы всегда в тумане. Но эта вещь, если найдется режиссер, способный понять трагизм простых, в общем, отношений, может иметь серьёзный успех. Что ж, будем такого режиссёра искать. Кстати, Джана Селимова пьесу не читала? Жду ответа.

Ваш

Леонид Жуховицкий

(Пьеса «Тахмина и Заур» в переводе Л.Жуховицкого была опубликована в московском журнале «Современная драматургия» и поставлена на сцене Русского драматического театра имени Самеда Вургуна в Баку. Режиссер Тамилла Магеррамова – ***ред.).***

Əziz Anar!

Pyesinizin tərcüməsini bitirdim, bu günlərdə Sizə göndərəcəm. İşə girişəndə və pyeslə daha yaxın təmasda olanda, o məni insani cəhətdən cazibəsinə aldı, onun daxili dramatizmini, hətta tragizmini daha aydın dərk etdim.

Özü də yalnız Təhminə obrazında yox (bu aydındır) daha çox Zaur obrazında. Məişət dəhşətinin, xeyirxah, hətta sevən mühitiin son nəticədə insanı sındırması, ona səadət arzulayaraq xoşbəxt olmaq imkanından məhrum etməsi çox güclü təsir bağışlayır.

Sizdən cavab alandan sonra (əgər tərcümə Sizi qane edirsə) pyesi «Sovremennaya dramaturqiya» jurnalına təqdim edəcəm.

Hər bir pyesin talei dumanlı olur. Əgər bu əsərin tragizmini dərk edə bilən recissor tapılsa pyes ciddi uğur qazana bilər… Gərək belə rejissoru axtaraq, Yeri gəlmişkən, Cana Səlimova pyesi oxuyubmu?

Sizdən cavab gözləyirəm.

Sizin,

Leonid Juxovitski

(«Təhminə və Zaur» pyesi L.Cuxovitskinin tərcüməsində Moskvanın «Sovremennaya dramaturgiya» jurnalında dərc olunub. Səməd Vurğun adına Rus Dram Teatrında tamaşaya qoyulub. Rejissor Tamilla Məhərrəmova – ***red.)****.*

Дорогой Анар!

В конце ноября я, к сожалению, буду вынужден руководить семинаром драматургов, каждый из которых, включая меня, не стоит подмётки Джафара Джабарлы. Этот человек совершил чудо, один сделал то, что под силу лишь нескольким поколениям литераторов – создал национальную драматургию и поднял её до уровня классики. Мои друзья и ровесники склоняют свои уже седые головы перед его чёрной головой – по количеству прожитых лет он сегодня годился бы нам в сыновья, но по масштабу сделанного для всех нас – он Учитель. Народ, который рождает художников такой творческой мощи, не может не быть счастливым.

Сегодня мы вполне справедливо многое подвергаем сомнению. Но именно сегодня особенно важны ценности, которые от времени не зависят и сомнению не подлежат. Безмерный талант Джафара Джабарлы как раз и есть такая ценность, он связывает нас с прошлым и будущим.

Благодарю за приглашение и горюю, что не могу им воспользоваться.

Если сочтёте возможным, прошу считать это письмо моим выступлением на нашем общем празднике.

Жму руку,

Ваш Леонид Жуховицкий

Əziz Anar!

Təəsüf ki, noyabrın axırında mən dramaturqların seminarına rəhbərlik etməli olacam, bu dramuturqlar, içi mən qarışıq, Cəfər Cabbarlının dırnağı da deyil. C.Cabbarlı möcüzə yaradıb, belə möcüzə yalnız bir neçə nəsil ədəbiyyatçıların səyiylə baş verə bilərdi – o müasir milli dramaturgiyanı yaradıb, onu klassika səviyyəsinə qaldırıb. Mən və mənim həmyaşlarım artıq ağarmış başlarımızı onun qara saçlı başı qarşısında əyirik – yaşadığı illərin sayına görə o bu gün bizim oğlumuz yaşındadır, amma hamımız üçün gördüyü işlərin miqyasına görə o – Ustaddır. Belə yaradıcı qüdrətə malik olan sənətkarları yetirən xalq xoşbəxt olmaya bilməz.

Biz bu gün haqlı olaraq çox şeyi şübhə altıra alırıq, Amma bu gün vaxtdan asılı olmayan şübhəsiz dəyərlər xüsusiylə vacibdir. Cəfər Cabbarlının qeyri-adi istedadı məhz belə dəyərlərdəndir, bu istedad bizi keçmişlə və gələcəklə bağlayır.

Dəvət üçün təşəkkür edirəm və təəsüflənirəm ki, ondan istitfadə edə bilmirəm.

Əgər lazım bilsəniz bu məktubu ümumi bayramımızda mənim çıxışım kimi qəbul edin.

Əlinizi sıxıram.

Sizin,

Leonid Juxovitski

Дорогой Анар!

Мне бы следовало давно написать тебе, но, как бывает, к сожалению, всё время что-то отодвигало это письмо. Большое спасибо за присланную книгу. Я прочел её внимательно, с подлинным интересом и сочувствием к твоему стилю – умному, отточенному, лишенному всяких признаков сентиментальности, чем еще грешат вокруг тебя, да и в русской прозе. Прекрасно написан «Контакт», неожиданно воскрешающий «готику» в наши дни. Да и реалистические вещи «Цейтнот», «Шестой этаж…» выполнены превосходно (только быстрая смерть Тахмины показалась мне некоторым беллетристическим нажимом). Не знаю, что происходит сегодня в азербайджанской поэзии (кроме Ф.Годжи мало читаю ее из-за плохих, наверное, русских переводов), но «новая» проза талантлива бесспорно, и ты, конечно, один из самых для меня предствительных в ней.

Всего самого доброго,

Евгений Сидоров.
Москва, 7 сентября, 1981.

(Е.Сидоров, критик, доктор филологических наук, бывший Министр культуры Российской Федерации, ныне Председатель Московского Союза писателей).

Əziz Anar,

Göndərdiyin kitab üçün çox təşəkkür edirəm. Mən onu diqqətlə, böyük maraqla və sənin ağıllı, cilalanmış üslubuna rəğbət hissiylə oxudum. Bu üslubda heç bir sentimentallıq əlaməti yoxdur, o şeylərə ki, sənin ətrafıdakıların yazılarında, elə rus nəsrində də rast gəlirsən. Bizim günlərdə «qotikanı» dirçəldən «Əlaqə» əla yazılıb, Realist əsərlər də – «Macal», «Altıncı mərtəbə» gözəldir. Bilmirəm Azərbaycan şeirində vəziyyət necədir, (Fikrət Qocadan başqa digərlərini az oxumuşam), amma nəsriniz şübhəsiz çox istedadlıdır, sən də bu nəsrin ən görkəmli nümayəndələrindənsən.

Ən yaxşı arzularla,

Yevgeni Sidorov.
Moskva, 7 senrtyabr, 1981.

(Y.Sidorov – tənqidçi-ədəbiyyatşünas, professor, Rusiya Federasiyasının keçmiş mədəniyyət naziri, hazırda Moskva Yazıçılar İttifaqının sədri).

Дорогой Анар,

Ты совсем исчез, и ни разу не дал о себе знать. Питаемся только слухами о том, что у тебя давно родился младенец, ты получил квартиру, пишешь и процветаешь в жестокой борьбе за существование. У нас было все в относительном порядке, много ездили и работали. Я даже написала новую книгу стихов и сдала её в «Советский писатель», переводили видимо-невидимо. Но сейчас я очень больна и успеваю мало, а Леон (*Леон Тоом-поэт, друг Юнны Мориц –* ***ред.)*** еще меньше. У меня открылась язва двенадцатипёрстной, ни одно ни наше, ни заграничное лекарство её не берет. Боли – кошмарные и ежедневные. Какое-то существо, помимо меня, не мне принадлежащее, пишет ещё стихи и переводит, но я в этом не принимаю никакого участия. Я страдаю немилосердно. И поэтому обращаемся к тебе с очень трудной и деликатной просьбой.

(В этом письме от 15 февраля 1968-го года Юнна Мориц просила о лекарстве, которое в Москве не могла достать, мы достали его и послали ей. Второе письмо от 23-го февраля 1968-го года, написано в связи с этим – уточнение Анара).

Дорогой Анар! Как я тебе благодарна! Только что приехал Леон и привёз от Расула цветы, привет, сердечную доброту и лекарство. Это очень выручит нас, пока меня не заточат в больницу. Мы были в безвыходном положении уже давно. Но именно потому, что я не сомневалась в твоей отзывчивости, мы с Леоном решили обратиться к тебе только в самом безнадёжном случае. Нет таких слов, которыми я могла бы тебе объяснить, что за помощь ты мне оказал. Самую скорую из всех скорых и неотложных. Я всё же думаю, что со временем ты выкроишь вечер и напишешь о своей жизни. Леон говорит, что ты станешь министром кинематографии – это правда? По-моему такие министры бывают только во Франции. Я по-прежнему безнадёжно, но героически обороняю земли «духовной поэзии» от нашествия «эстрадников». Как видишь, это стоит здоровья. Если будешь в Москве, приходи к нам на кофе и на стихи. Еще раз благодарю тебя. Расул сказал Леону, что по приезде сможет достать ещё немного лекарства. Если это действительно так, и если он не забудет, – тогда мой дух и моя судьба отмечены счастливой звездой. Самый сердечный привет маме, жене, сестрам. Мы с Леоном обнимаем тебя. У меня нет таких слов, которыми я могла бы отблагодарить Расула. Он просто спас нас.

Юнна (Мориц)

Əziz Anar,

Sən tamamilə yox olmusan və özün barədə bir dəfə də olsun heç nə yazmırsan. Ancaq bizə çatan xəbərlərlə qidalanırıq, eşitmişik ki, oğlun olub, ev almıısan, çətin mübarizələr içində yaşayıb yaradırsan. Bizim işlərimiz pis getmirdi, səfərlərə çıxır, çoxlu işləyirdik. Mən hətta yeni şeir kitabı yazdım və «Sovetski pisatel» nəşriyyatına təhvil verdim. Xeyli tərcümə etmişəm. Amma indi yaman xəstəyəm. Və az işləyirəm. Leon (*Leon Toom – şair, Yunna Moritsin dostu –* ***red.)*** məndən də az işləyir. Mənim xəstəliyimə nə bizim, nə xaricin heç bir dərmanı əlac eləmir. Dəhşətli ağrılar, aramsız hər gün… İçimdəki hansısa məxluq, məndən asılı olmayaraq hələ də şeir yazır, tərcümə edir, amma mənim bunda heç bir iştirakım yoxdur. Olmazın əzab çəkirəm. Ona görə də çox çətin və incə bir məsələylə əlaqədar səndən xahişim var…

(1968-ci il fevral tarixli bu məktubda Yunna Morits, Moskvada tapa bilmədikləri bit dərmanı mümkünsə Bakıda varsa, alıb ona göndərməyi xahiş edirdi. Bakıda bu dərmanı tapdıq, göndərdik və onun 23 fevral tarixli məktubu bundan sonra yazılıb – Anarın şərhi).

Əziz Anar. Necə də sənə mimnnətdaram! Bu saat Leon gəldi və Rəsuldan salam, çiçək, səmimi xeyirxahlıq və dərman gətirdi. Məni xəstəxanaya salana qədər bu bizi xilas edəcək. Məhz sənin həssaslığına şübhə etmədiyim üçün Leonla qərara gəldik ki, ən çıxılmaz halda sənə müraciət edək. Bizə necə kömək etdiyini izah etmək üçün söz tapmıram. Təcili yardımların ən təcilisini etdin sən.

Düşünürəm ki, hər halda bir macal eləyib işlərin, həyatın haqqında bizə məktub yazacaqsan. Leon deyir ki, sən Kinematoqrafiya naziri olacaqsan – bu doğrudurmu? Məncə belə nazirlər yalnız Fransada olur. Mən əvvəlki təkin «mənəvi poeziyanı» «estradaçıların» həmləsindən qəhrəmanlıqla və ümidsizliklə qorumağa çalışıram. Gördüyün kimi səhhətimin bahasına.

Bir daha sənə təşəkkür edirəm. Rəsul Leona deyib ki, Bakıya qayıdandan sonra bu dərmandan yenə tapa bilər… Əgər belədirsə, və əgər o unutmayacaqsa, deməli mənim ruhum və taleyim xoşbəxt ulduz altında doğulub. Anana, arvadına, bacılarına ən səmimi salamlarımı yetir. Leon və mən səni qucaqlayırıq. Rəsula minnətdarlıq etməyə söz tapmıram. O, bizi xilas etdi.

Yunna (Morits)

Дорогой Анар!!!!

Кажется, уже сто лет тебя не видела, но на самом деле – то и дело либо слышу о тебе, либо каким-то образом бываю связана с делами и друзьями из Азербайджана и всегда сердечно тебя вспоминаю.

Много воды с тех пор утекло, много сложностей мы все пережили и переживаем, но мое теплое чуство к тебе, к Вам, к азербайджанским друзьям всегда со мной. И вот я с оказией передаю тебе уже библиографическую редкость для твоего архива. Это сборник советских рассказов (лучших, смею думать, на тот момент и переводчик-индиец, мистер Гупта, тоже, очевидно, так думал), где и мой и твой рассказ переведены на хинди в Кальтутте.

Надеюсь, этот сувенир тебя обрадует.

Книгу передаст мой старинный друг, писатель Юсиф Керимов. Кстати, сейчас я перевожу его роман для «Сов.Писа».

Звони всегда, когда будешь в Москве, буду рада.

Сердечно,

Ирина Ракша.
Февраль, 1991

Əziz Anar!

Sanki yüz ildir səni görməmişik, amma əslində tez-tez sənin haqqında eşidirəm yaxud da Azərbaycanlı dostlarla əlaqələrim olur və həmişə səni xatırlayıram.

O vaxtdan çox sular axdı, hamımız çox mürəkkəb vaxtlar yaşadıq və yaşayırıq, amma mənim sənə, azərbaycanlı dostlarıma isti hisslərim həmişə mənimlədir. İmkan düşüb sənin arxivin üçün nadir kitab göndərirəm. Bu Kəlküttədə, hind dilində çıxan ən yaxşı sovet hekayələri toplusudur (hər halda kitabın tərcüməçisi cənab Qupta, yəqin ki, belə hesab edir). Kitabda mənim və sənin hekayələrin də dərc olunub. Güman edirəm ki, bu hədiyyə səni sevindirəcək. Kitabı sənə mənim köhnə dostum yaşıçı Yusif Kərimov gətirəcək. Mən indi «Sovetskiy pisatel» nəşriyyatı üçün onun romanını çevirirəm.

Moskvaya yolun düşəndə zəng elə, şad olaram.

Səmimi qəlbdən,

İrina Rakşa.
Fevral, 1991

Дорогой Анар!

Вот и наступил момент, когда понадобилось Ваше вмешательство. Попался ли Вам последний (44) номер «Огонька» со стихами моего отца при «шапке» Евтушенко?

Нас с сестрой его текст глубоко оскорбил. Как отнесетесь к нему Вы? И если согласитесь с нами – как на него отреагируете? Жду с надеждой на Ваш ответ

С уважением, Тата.

П.С. Книгу Вашу читаю медленно, смакуя, и вы для меня в ней другой человек, чем тот, которого знала, но судя по моему портрету, предчувствовала. Жду новых книг.

*(**Комментарий Анара:** В ответ на письмо дочери И.Л.Сельвинского художницы Татьяны Сельвинской, с которой я дружил в годы учебы в Москве и которая написала мой портрет, я написал в редакцию «Огонька» и выразил свое несогласие с оценкой Е.Евтушенко некоторых стихов Ильи Сельвинского).*

Əziz Anar!

Belə bir məqam gəldi ki, Sizin müdaxilənizə ehtiyac var. «Oqonyok»un son (44) nömrəsini görmüsünüzmü, atamın şeirləri Yevtuşenkonun başlıq sözüylə dərc olunub. Bu başlığı mən və bacım təhqiredici hesab edirik. Sizin buna münasibətiniz necədir? Əgər bizimlə həmrəysinizsə bunu necə ifadə edəcəksiniz? Ümidlə cavabınıza gözləyirəm.

Hörmətlə, Tata

P.S. Kitabınızı aramla, zövq ala-ala oxuyuram.Bu kitabda Siz mənimçün tanıdığım yox, ama çəkdiyim portretdə duya bildiyim adamsınız.Yeni kitablarınızı gözləyirəm.

*(**Anarın şərhi:** Şair İlya Selvinskinin qızı rəssam Tatyana Selvinskaya ilə Moskvada oxuduğum illərdə dostluq edirdik və o mənim portretimi çəkmişdi. Bu məktubuna cavab olaraq «Oqonyok» redaksiyasına kağız yazdım, Yevtuşenkonun Selvinskinin şeirlərinə verdiyi qiymətlə razılaşmadığımı bildirdim).*

Əziz Anar!

Heç düşünmürdüm ki, bizim müsahibəmiz belə əks-səda doğuracaq (*Anarla Lüdmila Lavrovanın «Drujba narodov» jurnalında dərc olunmuş müsahibəsi nəzərdə tutulur* – **red.**) Moskva radiosunda da, bir neçə qəzetdə də, xüsusiylə «Novıe İzvestya» qəzetində bu müsahibə haqqında çox xoş rəylər oldu. Bu mənə qəribə gəldi, çünki bu redaksiyaların çoxunda ədəbi əlaqələri istəməyənlər işləyir. «Drujba narodov» redaksiyasında da müsahibənin müzakirəsi oldu. L.Anniniski, vitse-premyer Ruslan Abdullətifov çıxış edib çox tərifladilər. Güman edirəm ki, bu bzim son ortaq işimiz deyil.

Hörmətlə,

Lüdmila (L.Lavrova)

Председателю Комитета по кинематографии Азербайджанской ССР т. Курбанову М.К.

Уважаемый Мамед Курбанович!

Недавно Совет Высших Сценарных Курсов обсудил литературный сценарий Анара Рзаева «Земля. Море. Огонь. Небо» и принял решение рекомендовать этот сценарий Вашей студии для постановки.

В качестве руководителя мастерской, в которой учился Анар Рзаев, я считаю необходимым высказать свое отношение к его работе.

Мне кажется, что в этой работе есть приметы настоящего искусства – значительность проблематики, художестивенное своеобразие, национальная окрашеннность.

Молодой автор проявляет похвальную смелость в своем поиске, отказывается от привычных в кинематографе драматургических приемов, он строит свою вещь в повествовательном и в то же время в поэтическом ключе. И занимательность его произведения обусловлена не сюжетной, вернее не столько сюжетной стороной, сколько философским осмыслением жизни в ее беспрерывном развитии, в ее порой сложной противоречивости. Взаимопроникновение эпического начала и начала бытового придает сценарию А.Рзаева дополнительное обаяние.

Сценарий нуждается в сокращении. Объем его великоват. Но, хотел бы оговориться, делать это необходимо совместно с режиссером.

В заключении мне хотелось бы поздравиить Студию с рождением нового, интересно думающего азербайджанского сценариста.

Позвольте от лица Высших Сценарных курсов высказать надежду, что Ваша студия отнесётся с должным вниманием к сценарию и приложит необходимые усилия, чтобы на основе этого интересного произведения, воспевающего красоту осмысленного творческого труда, был создан талантливый, нужный народу фильм.

С уважением,

Иосиф Ольшанский

Azərbaycan SSR Kinematoqrafiya Komitəsinin sədri M.Q.Qurbanov yoldaşa

Hörmətli Məmməd Qurbanoviç!

Bu yaxınlarda Ali Ssenari Kurslarının şurası Anar Rzayevin «Torpaq. Dəniz. Od. Səma» ssenarisini çəkilmək üçün Sizin studiyaya tövsiyyə etməyə qərar verdi.

Anar Rzayevin təhsil aldığı emalatxananın rəhbəri kimi onun işinə münasibət bildirməyi lazım bilirəm. Mənə elə gəlir ki, bu ssenaridə əsl sənətin əlamətləri var – problemin əhəmiyyəti, bədii özünəməxsusluq, milli kolorit. Gənc müəllif axtarışlarında tərifəlayıq cəsarət göstərək kinematqrafda vərdiş halını almış drumuturji üsullardan imtina edir, o, əsərinin təhkiyəsini poetik üslübda qurur. Əsərə maraq süjet, daha doğrusu yalnız süjet üçtündə deyil, daima inkişaf edən, bəzən mürəkkəb ziddiyyətləri olan həyatın fəlsəfi dərki əsasında yaranır. Epik başlancığla məişət başlanğıcının vəhdəti ssenariyə əlavə gözəllik verir. Ssenanrinin həcmi böyükdür, ixtisar olunmalıdır, amma qeyd etmək istəyirəm ki, bunu rejissorla birlikdə etmək lazımdır. Məktubumun sonunda mən studiyanı yeni, maraqlı düşünən bir Azərbaycan ssenariçisinin yaranması münasibətiylə təbrik etmək istəyirəm.

İzn verin Ali Ssenari Kursları adından ümidvar olduğumu bildirim ki, Sizin studiya bu ssenariyə lazımi diqqət göstərəcək və yaradıcı əməyi tərənnüm edən bu əsər əsasında istedadlı, xalqa lazım olan film yaradılacaqdır.

İosif Olşanski.
29 may, 1964

Hörmətli Anar!

Mən Sovet İttifaqı və Qərbi Berlin arasında dostluq cəmiyyətində sovet ədəbiyyatıyla məşğul oluram. İndiyəcən Azərbaycan ədəbiyyvatı haqqında demək olar ki, heç bir şey bilmirdim. İndi, rus tərcümələrində bir neçə kitab oxudum ki, bu böyük ədəbiyyatla tanış ola biləm. Odur ki, Sizə bir neçə kəlmə yazsmaq istədim. Sizin povestləriniz mənim çox xoşuma gəldi. Onlardan sonra indi «Literutrnıy Azərbaycan»da «Sizsiz»i oxudum. Bu əsər məni sarsıtdı. Sağ olun, çox- sağ olun ki, bu əsəri yazmısınız. Ata-ananın xatirəsi, ümumən böyük şairlərin xatirəsi haqqında oxuduqlarımın arasında bundan yaxşısı yoxdur. Bir daha sağ olun. Siz Berlində olarkən mən ərimlə məzuniyyətdə idim, odur ki, tanış ola bilmədik. İndi «Sizsiz»i oxuyandan sonra mən, qəribə də olsa, məmnun oldum ki, buna qədər Sizinlə şəxsən tanış olmamışam. Axı əsərilərinizi oxumadan tanış olsaydıq Sizə yersiz suallar verə bilərdim. «Ağ liman» da çox təsirli əsərdir. Nədənsə burada bəziləri bu romanı qadın emansipasiyası barədə əsər kimi dərk edirlər. Məncə Sizin əsəriniz bu barədə deyil, qəlblərin tənhalığı haqqındadır. Başqalarının anlaya bilmədikləri səmimi duyğular haqqındadır. Heyfsilənirəm ki, əsərin əsas ideyasını burda düzgün başa düşmürlər. Bildim ki, bu kitabı siz başınıza gələn fəlakətlərdən çox qabaq yazmısınız və mənə elə gəlir ki, itkilərinizdən sonra yazsaydınız bəlkə başqa cür alınardı.

Yaradıcı insan haqqında heç nə bilmədən onunla görüşmək nə qədər təhlükəlidir. Həyatın hansı dərinliklərindən keçdiyini biləndən sonra ona başqa gözlə baxırsan. Yenə də, yenə də «Sizsiz» üçün çox sağ olun. Bu əsər qəlbimdə silinməz izlər buraxdı. Əbədi şeirlər yazmaqla bərabər məhəbbətli və ləyaqətli həyat sürmüş Rəsul Rza və Nigar Rəfibəyli haqqında yazmaq nə qədər vacibdir.

Noyabrda Bakıya gələcəm. Sizinlə və bəzi başqa yaşıçılarla, Yusif Səmədoğlu, Bayram Bayramov, Maqsud İbrahimbəyovla tanış olmaqdan məmnunluq duyardım.

Sizə və həyat yoldaşınız Zemfiraya hörmətlə,

Mişel Vayyan.
Qərbi Berlin, 10 oktyabr, 1989

Bəzi məkitublarda məlumatlar

Sizə həm öz işim, həm də Sizin işinizlə bağlı bir məsələ üçün müraciət edirəm. Polşanın Şetin şəhərindəki teatrımız Sizin «Zəncir» pyesinizlə maraqlanır. Xahiş edirik ki, səhnəmizdə oynanmasına izn verəsiniz. Umid edirik ki, ümumi işimizdə iştirak edəcəksiniz. Cavabınızı gözləyirəm.

Hörmətlə,

M.Fost.
12 sentyabr, 1984

Salam, əziz Anar! Əlbəttə, sizə daha əvvəl yazmalıydım, amma tələsmirdim, bizim Moskva qastrollarımız haqqında mətbuatda yazıları gözləyirdim (Söhbət Moldaviya Dövlət Teatrının Moskva qastrolları zamanı Anarın «Səhra yuxuları» tamaşasını göstərmələrindən gedir- red.). İndi biz məzuniyyətdəyik. Sezonun açılışı noyabrda olacaq. Birinci tamaşamız noyabrın 15-də «Səhra yuxuları»dır. Ümid edirəm ki, Siz tamaşada yeni aktyorları görə biləcəksiniz. Taleyimə minnətdaram ki, Sizinlə rastlaşdım, şəxsən Sizinlə və yaradıcılığınızla tanış oldum. Pyesinizi çox sevirəm. Sizə yeni yaradıcılıq uğurları və bizimlə yeni yaradıcılıqt əməkdaşlığı arzulayıram.

Məhəbbətlə,

Andrey Belyanu,
Teatrın baş rejissoru.
Kişinyov

Hörmətli yoldaşlar. Anarın sizin teatrda böyük uğurla göstərilən «Təhminə və Zaur» pyesi bizi çox maqalandırdı. Xahiş edirik əsəri bizə- Kabardin-Balkar respublikası, Nalçik şəhəri, Əli Şoqentsukov adına Dövlət dram teatrına çatdırasınız. Əgər sizdə pyesin nüsxəsi yoxdursa, məktubumuzu və xahişimizi Anarın özünə yetirin.

Hörmətlə,

Teatrın baş rejissoru, RSFSR Xalq artisti Leonid Erkenov.
19.X.87

Litvanın Klaypeda şəhərinin dramatik teatrının ədəbi hissə müdiri Stefaniya Qaolkaysate «Adamın adamı» pyesini repertuara salmaq üçün əsərin mətnini göndərməyi xahiş edir.

24 yanvar, 1979

Moskvanın Mərkəzi Televiziyası ədəbi-dram proqramları redaksiyasının şöbə müdirinin müavini M.N.Temyakova Anara göndərdiyi məktubda (5 aprel, 1968) yazır ki, Mərkəzi televiziyaynın İ proqramla nümayiş etdrilmiş «Mən, sən, o və telefon» tamaşası böyük uğur qazanmşdır. Anarın başqa bir hekayəsiylə – «Keçən ilin son gecəsi» hekayəsiylə də maraqlandıqlarını bildirir və xahiş edir ki, bu hekayəni yazıçı özü ekranlaşdırsın (*Anarın ekranlaşdırmasında həmin hekayə iki dəfə iki müxtəlif quruluşda Mərkəz Televizyayanın 1 proqramıyla göstərilib – **red.**)*.

Krım Televiziyasının baş rejissoru A.İ.Saratov «Mən, sən, o və telefon» hekayəsini Krım televiziyasıyla tamaşaya qoymaq üçün müəllifdən izn istəyir.

APN-in (Агентство Печати Новости) redaktoru N.Kupriyanova məktubunda xəbər verir ki, «Mən, sən, o və telefon» hekayəsi ingilis, fransız və yapon dillərində nəşr olunub.

Xarkov telestudiyasının Baş redaktoru Kanevski həmin hekayənin Xarkov televiziyasıyla ekranlaşdırmaq niyyətində olduqlarını və əgər imkanı varsa bunu Anarın özünün etməsini, imkanı yoxdursa ekranlaşdırılmasına izn veməsini xahiş edir.

28 avqust, 1967

Barnaul Ölkə teatrının Baş rejissoru V.L.Çertkov 15 dekabr 1980-cı il tarixli məktubunda «Səhra yuxuları» pyesinin məşqlərinə başladıqlarını xəbər verir və tamaşaya aid müəllifin hər hansı arzusu, təklifi olub olmadığını soruşur.

Eston televiziyasının redaktoru Perve Pyelderin məktubunda Tallin televiziyasında «Dantenin yubileyi»nin ekranlaşdırılıması xəbər verilir və tamaşadan əvvəl məşhur eston rejissoru, SSRİ Xalq artisti Voldemar Pansonun teatr haqqında düşüncələrini səsləndirmək üçün müəllifdən izn istəyir (*bu tamaşada Kəbirlinski rolunu SSRİ Xalq artisti Yüri Yarvet ifa etmişdi – **red.)***.

Özbəkistandan Mamatkul Xazratkulov 17 may 1980-ci il tarixli məktubunda yazır ki, Daşkənd televiziyası onun tərcüməsində «Dantenin yubilenyi»nin səhnələşdirməsini göstərib.

Aşqabaddan Gənc tamaşaçılar teatrının ədəbi hissə müdiri Annaev Amangeldi teatrlarında «Şəhərin yay günləri» pyesini tamaşaya qoymaq üçün əsərin rus dilinə tərcüməsini göndərməyi xahiş edir.

Kiyevdən V.İkonnikov 16 iyul 1980-cı il tarixli məktubunda Anarın «Dədə Qorqud» əsərinin ukrayın dilinə çevrilməsinə icazə verdiyinə görə təşəkkür edir və əsərin Ukraynada nəşr olunmasına çalışdığını yazır.

Əziz Anar! Sənin gözəl qəlbinə dəyən zərbələrə qarşı möhkəm və mətin dayan. Bağışla ki, başına gəlmişlər və gələnlərə dərhal hay vermədim. Abbas Abdulla burda idi, onunla sənin haqqında, sənin ailən haqqında, Rəsul Rza haqqında xeyli danışdıq, Sən nadir və möcüzəvi insansan…Həmişə hay verməsəm də, həmişə sənin ləyəm.

Məhəbbətlə,

dostun İvan Draç.
Kiev, 1981

Əziz Anar!

Qaqauz yazıçısı D.Tanasoğlu və xanımı Sevda xanım sizə səmimi qardaşlıq salamı göndərir. 1988-ci ildə Müşfiqin yubileyi zamanı çəkilmiş fotoları Sizə göndərirəm. Bir az yubatdığım üçün üzr istəyirəm. Qardaş Azəprbaycan xalqının başına gələn bəlalara görə mən və arvadım çox iztirab çəkirik.

Dərin hörmətlə,

Dionis Tanasoğlu.
2 avqust, 1990, Kişinyov

Əziz Anar! Məktubunuzu aldım. Nə qədər sevindiyimi bir Allah bilir. Və tək mən yox. Evdə məktubunuzu bərkdən oxuyanda anamın və bacımın gözləri doldu. Düzünü deyim ki, Sizdən cavab gözləmirdim. Düşünürdüm ki, əlyazmamı oxumamısınız. Ya oxuyub bəyənməməsiniz (*Məshəti türklərindən olan Klara Barataşvili Anara Gürcüstandan sürgün olunmuş xalqlarının acı taleyi haqqında yazısını göndərmişdi – **red.***). Poçt qutusundan məktubunuzu çıxaranda ilk fikrim bu oldu ki, Sizin barənizdə yanılmamışam – əsas odur ki, müraciətimi cavabsız qoymamısınız, yazımı bəyənib-bəyənməməniz isə başqa məsələdir. Əziz Anar, sağ olun ki, yazımı yüksək qiymətləndirmisiniz. Doğru deyirsiniz ki, mən bu yazıya bütün varlığımı vermişəm. İtirdiyim atamı yazımda yaşatmaq üçün sanki onun cildinə girib onun həyatını yaşayırdım. Axı o ailəsinə çox yaxın adam idi. Onu itirməyin bizimçün necə ağır olduğunu təsəvvür edə bilərsiniz. Elə bil ürəyimizə bıçaq saplandı, nəfəsimiz kəsildi. Özümüzü itirmişdik – bundan sonra necə yaşayacaqdıq. Qəlbimdə bu ağrıyla yaşayırdım ta o vaxta kimi ki, tale mənə «Sizsiz» romanınızla tanışlığı bəxş etdi. Bu mənim xilasım idi. Bu romanı göz yaşları içində oxuyurdum (indi də vərəqləyəndə ağlayıram). Talelərimizin oxşarlığı məni sarsıtdı. Bu mənə təsəlli verirdi. Buna görə də Sizə məktub yazmağa və əsərimi göndərməyə qərar verdim. Düşünürdüm, yəqin ki, cavab almayacam: Sizin diqqətsizliyiniz ucundan yox, çox məşğulluğunuz səbəbindən. Axı hər gün mətbuatda oxuyurdum, radio və TV də rastlaşdırdım: «Anar ora getdi, bura getdi, kimisə qarşıladı, kimisə ötürdü, iştirak etdi, çıxış etdi və s.» Amma bü qədər məşğul olmağınıza baxmayaraq cavab yazmağı, özü də tanımadığınız adama cavab verməyi, həm də belə ətraflı, isti məktub yazmağı da bacardınız. Məhz Sizin bu həssaslığınız sayəsində mən yazımı Tbilisidə bəzi redak-

siyalara göstərməyə cəsarət etdim. Sizə belə uzun məktub yazıb vaxtınızı almaqdan utanıram, amma elə hey yazar, yazardım…Tbilisidə redaksiyada mənə dedilər ki, yazımda Gürcüstan çox da müsbət görünmür. Amma onu da deyim ki, gürcü ziyalılarının ən namuslu nümayəndələri bizim xalqımızın doğma torpaqlarına qaytarılması üçün səylər göstərir. Moskva qayıtmağımızdan ehtiyat edir – Türkiyəylə həmsərhəd olmağımızdan qorxur. KQB də qəti şəkildə qayıtmağımızın əleyhinədir.

Bu şəraiitdə mənim «Biz – məshətilərik» əsərimin çapı xalqımızın gözünün açılması baxımından çox vacibdir. Özü də tək məshətilərin deyil, gürcülərin özlərinin də. Ona görə ki, 44-cü ildə xalqımızı Gürdüstandan sürgün edəndən sonra indiki nəsil məshətilərin kim olduqları haqqında təsəvvürləri yoxdur. Sizə folklorumuzdan bir neçə nümunə də göndərirəm:

Məndilimdə kara var
Yürəyimdə yara var.
Nə bən öldüm, kurtuldum,
Nə dərdimə çara var.

Məndilim bənək-bənək
Ortası çarxu-fələk.
Yazı barabar keçirdük
Kışı koymadı fələk.

Ay işığı süd kimi
Arxaluğun çit kimi.
Nə gəzərsən peşimə
Salaxana it kimi?

Endim dərələrinə
Bilmem nerelərinə.
İki dilbər yatıyer
Girdim aralarına.

Kocordan furqon gəlür
Atları yorğun gəlür.
Bir gecə konax olsam
Gör neçə çervon gəlür.

Deyəsən çox çərənlədim. Bir daha təşəkkürlər.

Hörmətlə, Klara

Əziz Anar Rəsul oğlu!

1988-ci il apreldə Daşkənddə və Nukusda Aralın problemləri üzrə «Ekologiya və ədəbiyyat» beynəlxalq forumu keçiriləcəkdir. Ədəbi ictimaiyyət Sizi ətraf mühitin zənginliyi uğrunda mübarizə edən adam kimi tanıyır. Sizdən artıq dərəcədə xahiş edirik, ki bu forumda iştirak edəsiniz. İştirakınız foruma daha böyük nüfuz qazandırar.

Böyük və səmimi hörmətlə,

Pirmat Şermuhəmmədov,
Aralı xilas komitəsinin sədri, filoloji elmlər doktoru

Hörmətli cənab Anar!

«Qafqaz. Sülh axtarışlarında» kitabının müəlliflərindən biri kimi Sizə bilmək xoş olar ki, kitab, Vyanada təqdimatından sonra böyük əks səda doğurdu. Ümumi fikir belə oldu ki, ümumqafqaz problemlərinin dərk olunması və həll edilməsi prosesində bu kitab irəliyə doğru atılmış əhəmiyyətli addımdır. Kitabın uğuru və təsiri bizi sövq edir ki, həmin müəlliflərə, o cümlədən Sizə yenidən müraciət edək və əməkldaşlığın yeni lahiyələrini təklif edək. Biz bu məsələlri müzakirə etmək üçün seminar keçirməyi və Sizi həmin seminara dəvət etməyi qərarlaşdırmışıq. Seminarda «Qafqaz və Rüsiya», «Qafqaz və Qərb», «Qafqaz və İslam fundamentalizmi» mövzuları müzakirə oluna bilər. Xahiş edirik ki, iki həftə ərzində seminarda iştirakınızı təsdiq edəsiniz.

Təşkilat Komitəsi və İsveçrə hökuməti adından,
Xaydi Taliavini, səfir.
Bern. 10 iyul, 2001

(İsveçrə hökümətinin təşəbbüsüylə rus, ingilis və alman dillərində nəşr olunmuş «Qafqaz. Sülh axtarışları» kitabında Azərbaycandan Anarın «Kamançanın saflaşdırıcı səsi» adlı essesi dərz olunmuşdu – ***red.****)*

Əziz Anar!

Türkiyəyə qabaqcadan planlaşdırılmış səfərimə görə təəsüf ki, Böyük şairin (*H.Cavid nəzərdə tutulur –* ***red.***) təntənələrində iştirak edə bilməyəcəm. Dəvətə görə təşəkkür edirəm, mənim ən səmimi təbriklərimi qəbul et. Şairlər həmişə xalqlarından bir az irəlidə gedirlər və bunu ən yüksək qanun kimi təsdiqləyib şairlərinin öncüllüyünü qəbul edən xalq hörmətə layiqdir. Şairlərin yeri hər hansı siyasi mövqedən daha üstündür. Poeziyaya inam Gələcəyə inam deməkdir.

Dostluq salamlarıyla,

Tamaz Çiladze.
20 oktyabr, 1995

Əziz dostum Anar!

«Literaturnı Azərbaycan» jurnalında dərc olunmuş «Ağ qoç, qara qoç» povestinizi məmnuniyyətlə oxudum. Bizim xahişimizlə povest respblikada məşhur tərcüməçi Mındıbay İles tərəfindən çevrildi. Povest jurnalımızın oxucuları tərəfindən yüksək qiymətləndirildi. «Calın» jurnalının povestiniz dərc olunmuş iki nömrəsini Sizə göndərirəm Mən indi Respublika Məclisinin (Parlamentin) deputatıyam və paytaxtımız Astanada yaşayıram.

Sizə yaradıcılıqda qartal uçuşu arzulayıram.

Hörmətlə,

Muxtar Şaxanov.
17 yanvar, 2005

Əziz Anar!

İşə bax, Ankarada eyni «Taleman» mehmanxanasında eyni bir vaxtda olmuşuq, amma görüşməmişik, Mən bunu biləndə Siz artıq getmişdiniz. Türklər dedilər ki, Bakıda Türk dünyası yazıçılarının görüşü olacaq. Biz Çuvaşıstan Yazıçılar İttifaqı olaraq çox istərdik ki, o görüşdə iştirak edək. Mən Sizi çox yaxşı tanıyıram, qardaşım və istedadlı yazıçı kimi sevirəm və Sizə hörmət bəsləyirəm… Bizim Çuvaşıstan Yazıçılar İttifaqı fəal işləyən bir təşkilatdır, Ankaraya Türkiyədə çap olunmaqçün çuvaş ədəbiyyatı antologiyasını gətirdim. Bu işdə Sizin yardımınıza da ehtiyacımız var. Sizi qardaş və dost kimi salamlayıram.

Sizin

Mişşi Yuxma,
Çuvaşıstan Yazıçılar İttifaqının sədri,
Çuvaşıstanın xalq yazıçısı. Çeboksarı.

Çox hörmətli Anar!

İki ay bundan əvvəl Sizin işçiniz mənə «Qobustan» üçün məqalə yazmağı təklıf etdi. Təssüf ki, xəstəliyim bunu vaxtında etməyə mane oldu. İndi Sizə «İrəvanın teatr keçmişindən. XİX əsr» adlı yazımı göndərirəm. Bu yazıda şəhərimizdəki Azərbaycan teatrından bəhs olunur. İstədim İrəvanda Azərbaycan və erməni teatr həyatının paralel və eyni səviyyədə inkişaf etməsini göstərim, əlbəttə Azərbaycan teatr xadimlərinin işi daha ağır və mürəkkəb olub. Bir vaxt «Ermənistanda Azərbaycan teatrı» adlı kitabımda mən bu barədə daha ətraflı yazmışdım. Amma bu kitab on il qabaq, özü də yalnız rus dilində nəşr olunub, bu yazımda isə bəzi fikirlərimi daha aydın ifadə etməyə çalışmışam. «Qobustan»da mənim barəmdə yazı vermək niyyətinizə gəldikdə isə, Sizə çox minnətdaram, mən belə səxavətli münasibətə alışmamışam. Bu yazını yazmaq Hidayət Orucova tapşırılıb. Yazısını mənə göstərdi, ordakı bəzi məqamlarla razı deyiləm. Sizə yazının təshih olunmuş variantını göndərəcəyini söz verdi. Əgər ikinci variant Sizə çat-

mayıbsa, xahiş edirəm birinci variantı dərc etməyin. Allah xətrinə işinizə belə müdaxilə etdiyimə görə məni bağışlayın. Ümid edirəm ki, məni düzgün başa düşəcəksiniz. Mənə xoş münasibətiniz üçün Sizə bir daha təşəkkür edirəm. Sizinlə şəxsən tanış olacağıma səmimi arzularla,

Sabir Rizaev.
Yerevan, 14 may, 1972.

(Sabir Rizayev İrəvanda yaşayan görkəmli teatruşunas idi – ***red.)****.*

Əziz Anar!

«Sovestkaya kultura» qəzetində sənin «Ümid məqamı» məqaləni böyük maraqla oxudum. Çoxlu xatirələr oyandı, xüsusiylə də Kirovabadda, sonra isə Bakıda işlədiyim dövr haqqında. Sənin məqaləndən Marsda astronom İbrahimov krateri olduğunu öyrəndim. Cəlil Məmmədquluzadə müzeyinin, teatr muzeyinin talelərinə acıdım. Kədərləndim ki, Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin arxivləri baxımsız qalıb, – mən onları yaxından tanıyırdım, tez-tez – görüşürdük, yaradıcılıqlarını çox sevirəm.

Ağıllı məqalə üçün çox sağ ol. Elə bil sənlə yenidən görüşüb söhbət etdik. Heyf ki, Kəlküttədə və Şantineketona getdiyimiz zaman yolda etdiyimiz söhbətləri davam edə bilmədik. Bununçün mən öz payıma günahımı qəbul edirəm.. Necə deyərlər inşallah! Səmimi hörmətlə,

Əbdürrəhman Vəzirov.
İslamabad, oktyabr, 1986

(Məktub Ə.Vəzirovun Pakistanda SSRİ-nin səfiri olduğu zaman yazılıb)

Türkiyədən məktublar və başqa məktublar

Əzizim Anar!

Azərbaycan sənət həyatında ötədən bəri bütün sənət qollarını içinə alan və bunlara iç və dış sənət hərəkətlərini izləyərək yeni üfüqlər açan bir sənət dərgisinə şiddətli ehtiyac duyulurdu. Nəşrinə təşəbbüs etdiyiniz sənət dərgisi bu ehtiyaca cavab vermək və bütün sənət qollarına işıq tutmaq surətiylə bu ehtiyaca cavab verərək böyük bir boşluğu doldurmuş olacaqdır. Eyni zamanda bu təşəbbüsünüz Azəbaycan sənət həyatına bir yenilik və canlılıq gətirəcəkdir. Bu səbəblə bu təşəbbüsünüzdən dolayı sizi və arxadaşlarınızı candan təbrik edər və həpinizə çalışmalarınızda böyük başarılar dilərəm.

M.Zəkəriyyə Sərtəl

*(Məktub «Qobustan» toplusunun nəşrə hazırlanmasmıyla bağlı yazılıb – **red.)**.*

Əziz dostum Anar!

Bakını və sizləri unutmaq mümkünmü? Sadəcə bizi dəvət edən Yazarlar Birliyini deyil, bütün bir xalqın sıcaqkanlığı bizi nasıl büyüledi. En qısa zamanda sizləri burada görmək istəriz. Bu gün İstanbulda əqrabanız Aydın bəyi telefonla aradım. Qızıyla danışdıq, sizə salamlarını iletdilər. «The last niyht of tve old year» oxuyuram («Keçən ilin son gecəsi» kitabının ingilscə nəşri nəzərdə tutulur-red.). Daha doğrusu, eşim Ayşə ilə oxuyuram. Pək möhtəşəm. Bir tanıtma yapacağam.

En kısa zamanda görüşmək diləyiylə sənə və eşin Zemfira xanıma salam və iyi diləklərimi sunarım.

İldər Ortaylı.
28 noyabr, 1988

Sevgili kardeşim Anar!

Bundan bir sürə önce sizin Azəbaycan Harici Ülkelerle Dostluq və medeni Elakə cemiyyetinden bir davet mektubu aldım. Beni degerli bestekarınız, ülkelərmizin yüzakı Üzeyir Hacıbeyovun 100 doğum yıldönümünə davet ediyorlar. Çok sevindim. Tarihler uyğun düşerse 15, 3, 1986 ilə 5, 4, 1986 tarihleri arasında sizleri yeniden görmek mümkün olacaq. Ne güzel! Burada Batıya kış geldi. Heç yazı ne zaman görüyoruz ki! Siz Bakude güzü (*payızı – **red.***) yaşıyorsunuz. Burada 4 milyon türk işçisi yaşıyor. Almaniyanın bazi sokakları çokdan türkleşdi. Musiqi ile, lokantalarıyla, kültürüyle. Amma genə də qürbette yaşıyoruz. Yurdumuza, insanlarımıza hasretimiz böyük. Və bilmiyorum bu ne kadar sürecek. Nazımın da dedigi kibi insan Azərbaycanda olunca ya-

rı yurdunda sanıyor kendini. Ben de şimdiden oyle bir heyecan yaşıyorum. Eger cemiyyet uyğun bulursa karımla kızımı da getrimek istiyorum. Sanıram yakında görüşürüz. Zamanının uyğun olduğu bir anda seni də davet etmek istiyorum. Gelirsen hem benim konuğum olur, hem de buradakı insanlarımızla tanış olursun. Ne güzel olur! Hiç çekinme, çünki bizim burada imkanlarımız çok. Bizim kardeş olduğumuzu, oğlumun adaşı olduğunu (*Almanyida yaşayan türk yaşıçısı Orxan Polat Moskvada Anarla tanış olduqdan sonra, oğlunun adını Anar qoymuşdu. Nə yazıq ki, oğlu uşaq yaşalırında vəfat etdi –* ***red.***) lütfen unutma! Burada mektubuma son veriyor, sana, degerli hanımına və çoçuqlarına yürek dolusu sevgimi yolluyorum.

Ömer Polat.
Gelskenkirhen,
Almaniya Federativ Respublikası

Hörmətli Anar bəy!

Yayın evimizdə «Der sekhste eines funkstökigen Nauses» («Beşmərtəbəli evin altıncı mərtəbəsi) çıxmış bulunmakdadır. Bu münasibətlə 18 nisan – 4 mayıs tarixləri arasında kitabınızdan oxumalar yapmaq, kitabınız və Azərbaycan ədəbiyyatı üzərinə TV və radioda söhbətlərdə bulunmaq, oxuyuculara kitabınızı imzalamaq üzərə siz Anar Rzayev Rəsul oğlu və həyat yoldaşınız Zemfira Səfərova Yusif qızını Federal Almaniya Cümhuriyyətinə dəvət ediyoruz. Yolculuq məsrəfləriniz və Federal Almaniyadakı otel və digər məsrəfləriniz yayın evmizin tərəfindən qarşılanacadır. Burada bulunduğunuz sürə içində Bakının qardaş şəhri Mayns və Sumqayıtın qardaş şəhri Lüdviqşafen şəhər kitabxanalarında, Frankfurt, Visbaden, Münix, Bonn, Köln, Hamburq şəhərlərindəki kitab evlərində kitabınızdan parçalar oxuyacaqsınız. Ayrıca Frankfurt-Mayn, Köln və Boxum üniversitelərinin Türkoloji bölümlərində Azərbaycan ədəbiyyatı və dili üzərinə konfranslar verəcəksiniz. Eyni Universitetlərdə həyat yoldaşınız Zemfira xanım Azərbaycan müziki haqqında qonuşacaq. Mümkün olursa Frankfurt sinematekində Azərbaycan filməri göstərilə bilirsək, orada Azərbaycan filmi üzərində qonuşacaqsınız. Cevabınızı əcələ bəkliyorum.

Sevgi və salamlar!

Yıldırım Dağyeli.
Frankfurt, 2 fevral, 1989

Sayğıdəyər Anar bəy,

Bu il ekim (oktyabr) ayında Azərbaycanı ziyarət etmək istiyoruz. Amacımız buralar haqqında reportaj yapmaqdır. Azərbaycan ilə ilgili konularımızın ağırlıq nöqtələrini şoylə planladıq: Sizinlə Batı Almaniyada yayınlanan kitabınız «Beş qatlı evin altıncı qatı» haqqında qonuşmaq istiyoruz. Sizinlə ilgili bir bioqrafi yapmaq, çalışmalarınızı bioqrafinizin bir parçası olaraq ələ almaq istəyoruz. Azərbaycan tarixi və kulturu

Batı Almaniyada tanınmadığı kimi Batı Avropada da tanınmamakdadır. Cəzi amacımızın böyük bir bölümünü Azərbaycan xalqının kulturuna ayırıdıq. Azərbaycanlı rəssamlar, heykəltəraşlar, müzisyenlər, sinema yapımçıları, kısacası külturel yapımın ürətimini daşıyan kişilərlə tanışmaq istiyoruz. Bizə bu tanşmalarda yardımçı olarsınız, məmnun olarız.

Batı Almaniya və Batı Avropada son günlərdə Azərbaycanda gəlişən olaylarla ilgili gerçəyə uymayan bir qəzetəçilik, yayınçılıq olqusu var. Gəzi amaclarımızıdan biri də bu konu ilə ilgili incələmələr və gözləmlərdir. Bizim kişiliyimizə (şəxsiyyətimizə) gəlincə: Bayan Cornelia Sihan fotoqrafçıdır, eyni zamanda sərbəst qəzetəçidir. Mən Şərq bilimləri bölümünü bitirdim. Kısa bir sürədir çalışmalarımın ağırlıq nöqtələrini Yaxın Doğuyla və İslamla ilgili konulara verdim. Kəndim də eyni zamanda sərbəst qəzetəçiyəm. Çalışmalırımızın bir bölümü keçdiyimiz aylarda almanca yazılan və qonuşulan ölkələrdə yayınlandı.

Adresinizi Yıldırım Dağyelindən aldıq. Yıldırım bəyin tövsiyyəsi ilə bu məktubu sizə iletiyoruz. Ricamız Azərbaycana yazılı olaraq dəvətiyyə edilməkdir.

Sizi və çalışma arxadaşlarınızı tanimaq ümidi içində hörmətlərimizi iletəriz.

Ürəkdən salamlarız,

Ulrix Barinqhort, Jornelia Sihan

Önəmli nöqtələrdən birini də açıqlamaq istəriz: qonuşduğumuz və yazdığımız yabancı dillər şunlardır: ingiliscə, ərəbcə, fransızca, almanca və bir az türkcə, amma çox az.

Dortmund, 18 eylul(sentyabr), 1989

Çox mehriban Zemfira xanım, Anar müəllim!

Məktubunuzu aldıq. Sağ olun. «İstanbulun dadı yoxdur sizsiz» – desəm mübaliğə sanmayın. Çox yalqızıq İstanbulda biz ikimiz, evdə bir sürü qonaq olduğu halda. Keşkə birgə olaydıq. Siz bizim üçün Bakıdan bir əsintiydiniz.

Atanız ulu şair Rəsul Rzanın şeir kitabı keçən ay «Sabah» qəzetinin listəsinə (siyahısına) görə Ocaq (yanvar) ayının gözdə olan (maraq doğuran) 10 kitabı içində 5-ci olaraq elan edilmişdir.

Keçən həftə ölkədən gələn heyət içində gözlərimiz sizləri axtardı. İki təyyarə dolusu adam gəlmişdi Bakıdan.

Heydər Əliyevin Süis otelindəki dəvətinə getdik. Ona dərin ümidlə bağlı hiss edirəm özümü. Çox sevindim. Azəri tələbələr bir az şuluq salmaq istədilər, amma olmadı. Əliyev özü hamısını sakitləşdirdi.

Burada vəziyyət bildiyiniz kimidir, politik və ekonomik çöküş davam eləyir. Bələdiyyə seçgiləri münasibətiylə hər kəs bir-birinin canına düşmüş. Necə deyərlər, Allaq qurtarsın.

Həsrətlə sizi gözələyirik

Fəridə və İldəniz (Qurtulanlar)

Sayın Anar yoldaş!

Mənə boyle xitab etməmə müsaide ediniz. Sizləri-1962.lərdə mərhum Mehdi Hüseyndən sizin kiçik bir hekayə kitabınızı qəbul etmişdim-oradan tanıdım və sevdim. Gənc yazıçı idiniz. Mehdi Hüseyn sizi çox seviyordu. Sonra yazılarınızı «Azərbaycan» jurnalında oxudum, heç birini kaçırmadım. Babanız ulu şair idi. Onun şeir kitabları başım altında…

Mən Bolqaristanın Razqrad sancağı Lüblen köyündə yaşayan Necib Karabacağam. Pedaqoji ikmal ettim.O zamanlar 1953 illərdə Azərbaycandan öyrətmənlərimiz vardı. Onlardan öyrənmişdim Vurğunun şeirlərini… Sonra «Yurdum, canım, Azərbaycanım» şarkısı marşımız oldu.

Şimdi öyrətmən deyiləm. 1985-de adlamızı dəyişdirdilər, çox basqı yaptılar bizlərə. Sizlərin 1937/38-lərdə geçirdiyinizi biz yiriminci əsrin sonlarında Bolqarstanda keçirdik. 1989-da yapılan dervimdə yenə hürriyyətə qovuşduq. Adlarımızı aldıq. Dilimizi konuşuyoruz, ama okullarda oxuyamıyoruz.

Keçən sənəyə qədər «Azərbaycan», «Ədəbiyyat və incəsənət» jurnal və qəzetlərini sırasınca qabul etdim. Bu il abunə olamadıq. Dollar istədilər. Bizdə isə dollar yox… Sizin «Sizsiz» başlıqlı xatirə romanınız var. Orada valideynlərinizdən bəhs ediyorsunuz. Bu romanı oxumaq istiyorum. Onu mənə göndəriniz. Çox sevinəcəyəm. Bundan əvvəl Mehdi Hüseyn mənə bütün əsərlərini yolladı. Eynən babanız Rəsul Rzanın əsərlərin. O.Sarıvəllinin, Vahabzadənin əsərlərini isə Heydər Əliyev MK Birinci katibi olarkən göndərdi.

Mən Azərbaycan kitablarını çox seviyorum. Onları oxumadan duramıyorum. Bolqarstanda satılsalar sizlərə əziyyət etməzdim. Məni maaruz görünüz.

Necib Karabacak.
Lübley köyü, Razqrad sancağı

Sizlərə, bütün Azəri yazarlarına, Azəri xalqına – can qardaşlarıma yeni ilinizi qutlar mutluluklar dilerim. Taze iliniz – qutlu olsun qardaşlar.

18 dekabr, 1990

Sevimli Anar müəllim!

Maalesef Munxendə çox arzu etdiyimə və çalışmağıma rəqmən görüşə bilmədik. Sizi evimizdə qarşılamaq ümidində idik, mənim həyat yoldaşım da bundan mütəəssir oldu. Nə isə… qəbahəti başqasının üstünə atmayaq, qismət belə imiş, sağlıq olsun, başqa bir zaman görüşərik, inşallah!

Tam bilmirəm rəhmətlik Məhəmməd Emin bəyin bu kitabı haqqında məlumatınız varmı? (*M.Ə.Rəsulzadənin «Nizami» kitabı nəzərdə tutulur* – ***red.***). Mənə bəlli olan budur ki, 60-cı illərdə Azərbaycanın ədəbiyyat xadimləri, o cümlədən hələ də pərəstiş etdiyim rəhmətlik atanız bu kitabla çox ilgilənmiş və ona sahib olmaq istəmişlər-

di. Çox təəsüf ki, o zaman bu dəyərli əsəri Azərbaycana göndərmək mümkün deyildi. M.E.Rəsulzadəni mən şəxsən və yaxşı tanıyrdım və münasibətlərimiz də çox səmimi idi. Alicənab, əfəndi, millətpərvər bir alim idi. Özünün dediyinə görə o, ömrünün 10 ilini bu əsərə sərf etmiş və Buxarestdə bitirmişdir. Rəhmətlik ana dilimizlə yanaşı rus, fars, leh (Polşa) dillərini mükəmməl bilirdi. Özü də şeirlər (Nizamidən, Xaqanidən etdiyi tərcümələr bunun dəlili sayıla bilər), dram əsərləri yazardı. Hər halda onun haltərcüməsini Siz məndən daha yaxşı bilirsiniz. «Nizami»ni Sizin Bakı adresinə (Az. Yazıçılar İttifaqı rəyasət Heyətinə) göndərmək istəyirdim, Amma əlinizə keçməməsi ehtimalından ehtiyat edirdim. Sizin Berlinə gələcəyiniz xəbərini eşitdikdən sonra bu yolu seçdim, zira Əhməd bəy (*Əhməd Şmide nəzərdə tutulur – **red.)*** bizim yaxın dostumuzdur, məktublaşırıq, dərdlərimizi səmimi surətdə bölüşdürürük. «Nizami»ni əldə etmək çox çətindir, zira onun çapının üstündən 40 ildən artıq bir zaman keçir. Buna görə onun fotosurətini çıxarıb Sizə göndərmək niyyətində idim. Fəqət bir təsadüf kitabın orjinalını əldə etməyə kömək etdi. İndi arzu etsəz vətəndə ədəbiyyatşünaslar arasında yaya bilərsiniz. Kitab sənədlər əsasında və azad fikrə və tədqiqata əsaslanaraq yazıldığı üçün dəyərlidir. Bu barədə hökm verməyi Sizə buraxıram.

Son günlərdə Azərbaycandan gələn naxoş məlumatlar bizi olduqca kədərləndirir. Qanunlar bütün Sovet İttifaqında eyni olduğu halda, nə səbəbdən Ermənistan və Gürcüstan rəhbərləri daha irəli gedə bilir və daha qəti tələblər irəli sürürlər?! Bunun hər halda səbəbi vardır ki, bunu biz buradakı şəraitdə anlaya bilmirik… Doğrudur, Azərbaycanda Xalq Cümhuriyyətinin də xətaları, səhvləri olmuşdur. Amma o zaman həm milli hökumətin, həm də Azərbaycan parlamentinin tərkibində müxtəlif partiyaların nümayəndələri iştirak etmişdir. Hər necə olsa, ən geriçi bir milli hakimiyyət yadların boğazımıza zorla keçirdiyi, xalqımızın on minlərlə günahsız qurbanlaranı səbəb olan yad hakimiyyətdən daha əlverişlidir.

Məslək və yol arxadaşlarınıza salam söyləməyinizi rica edirəm. Bu kitab və risalələləri götürə bilməsəniz lütfən Əhməd bəyə verin, mən Sizə başqa yolla göndərərəm. Sizə işinizdə müvəffəqiyyətlər diləyirəm. Ən səmimmi təmənnilərlə,

Məcid Musazədə.
Munxen, 10 iyul, 1989

(Anarın şərhi. *İkinci dünya müharibəsində əsir düşmüş və bundan sonra acı mühacir həyatı yaşayan Məcid Musazadəylə bir il əvvəl Kayseridə Azərbaycan Konqresində tanış olmuşduq, M.Ə.Rəsulzadənin «Nizami» kitabı haqqında xahişim də o zaman olub. M.Musazadənin hədiyyə etdiyi bu qiymətli kitabı və bir neçə mühacir jurnalını o vaxt Qərbi Berlindən Bakıya gətirmişəm).*

Hörmətli Anar müəllim, salam. Yanvar ayındakı Bakı görüşündən bəri heç bir əlaqəmiz olmadı. Əlimdən gəldikcə Şimali Azərbaycandakı inkişafı izləyirəm. Bəzən qəzetlərdə sizin çıxış və söhbətlərinizi də oxuyuram. Vəziyyətin son dərəcə mürəkkəb və

qeyri-aydın olduğu hamımıza bəlli olduğu üçün, hər kəs vətəndəki hadisələri təşviş və ürək ağrısıyla izləyir.

İngilis dilində jurnal buraxmaq işi indilik qalıb. Bakıdan hələ heç kəs bir dənə də olsun məqalə və tərcümə göndərməyib. Bu barədə Akademiyadakı yoldaşlara yazacağam. Məcid məllimi tanıyırdınız *(Məcid Musazadə nəzərdə tutulur – **red.**)* Hətta mən Bakıdan qayıdanda siz öz kitablarınızdan iki cild ona imzalayıb göndərmişdiniz. İyulun 18-də rəhmətə getdi. Heç olmasa kiçik bir nekoroloq yazaq, dedik buradakı dostlarla. Bunu «Ədəbiyyat və incəsənət» qəzetində və ya «Odlar yurdu»nda çıxması mümkündürmü? Onun ən böyük ürək ağrılarından biri də o idi ki, indi başqasının adıyla nəşr olunan tərcüməsi (*«Əli və Nino» romanının tərcüməsi nəzərdə tutulur – **red.***) hər hansı bir qəzetdə çıxan bir-iki sətirlə aydın olsun ki, onun əsəri idi.

Anar bəy, bağışlayın, bu məktubu həm tələsik yazıram, çünki bir yolçuyla çatdırmaq istəyirəm həm də əyri-üyrü kiril hərfləriylə yazıram.

Zemfira xanıma çoxlu salam söyləyirik. Münxendə Sizinlə yenidən görüşənədək. Hörmətlə,

Abbas Əli Cavadi.
2 sentyabr. 1990

Məcid bəyin fotoşəklini həyat yolaşından alıb göndərirəm

*(M.Musazadə haqqında nekroloq (şəkliylə) qəzetlərdə dərc olundu – **red.**)*

Azərbaycan Yazıçılar Birliyinin sədri hörmətli Anara!

Anar müəllim və xalqımızın milli varlığını kəskin qələmiylə qoruyan yazıçı və şairlərimiz!

Şimalda Azadlıq hərəkatının parlaq qələbəsi və onun demokratik prosesdə inkişafı, xalqımızın ictimai ədalətdən faydalanması Cənubda olduqca milli dirçəliş qol-budaq atmasında unudulmaz təsir qoyacaqdır. İnanıram ki, bizim milli mədəni zülmə qarşı haqlı mübarizəmizdə xalqımızın milli varlığını müdafiə edən qələm böyük rol oynayacaqdlır.

Sayın Anar müəllim! Sizin yardımınız nəticəsində tariximizin şanlı səhifələrini yenidən canlandıran samballı «21 Azər» jurnalı və onun qoyduğu müsbət təsirlər heç zaman qardaş Güney Azərbaycanın xatirə dəftərindən silinməyəcəkdir. Mən beləliklə Sizə, yorulmaz şairimiz Miyanalı Əlirza və sair əməkdaşlara öz minnətdarlığımı bildirib böyük başarılar arzu edirəm.

Dərin sayğılarımla,

Behruz Həqqi.
27 iyun, 2000. Köln, Almaniya

(Anarın şərhi. *Təşəkkürlər Güneyli qardaşlarımızın nəşr etdikləri «21 Azər» jurnalının redaksiyasına Yazıçılar Birliyinin binasınla yer verib şərait yaratmağımızla bağlıdır.)*

Azərbaycan Cümhuriyyəti Yazıçılar İttifaqının sədri hörmətli Anar cənablarına!

Hörmətli Sədr!

Yazıçılar Birliyi və xüsusilə Sizin təşəbbüsünüzlə «21 Azər» juranılının müzakirə olunacağı məni ürəkdən sevindirdi. Mən bu təşəbbüsü bir tərəfdən qələm, sənət və düşüncə dünyasının sərhədlərə və tarixi hüdudlara sığınmadığının bir nişanəsi, digər tərəfdən Şimali Azərbaycanda yaşayıb-yaradan yazıçılarımızın cənublu qardaşlarının yaratdıqları irsə bəslədikləri qayğıkeşlik və məsuliyyət hissinin gözəl nümunəsi kimi qiymətləndirib alqışlayıram. Siyasət dünyasından daha yüksəklərdə yer tutan bu müqəsddəs əlaqələri yaşadıb qoruyan Şimalda yaşayan bütün qələm və düşüncə sahiblərini və xüsusən Sizi belə bir müqqəddəs iş və məsuliyyət hissləri üçün bir daha alqışlayıram.

Hörmətli sədr!

Bildiyiniz kimi məsuliyyət hissi ancaq nailiyyətləri alqışlamaqda yox, yaradıcılıqlarınızın mənfi cəhətləri və çatışmazlıqlarını üzə çıxarıb onları islah etməyə yollar axtarmaqdır. Cənubi Azərbaycan ədəbi nöqteyi-nəzərdən Şimala nisbətən geri qalmışsa da müasir siyasi düşüncənin inkişafı baxımından məntəqənin ən həssas nöqtələrindən hesab olunur. Bu səbəbdəndir ki, nöqsanlarımıza ciddi yanaşmaq və müasir dünya səviyyəsində hərəkət etməyə çalışmaq zərurəti irəli gəlir. Bu əsasla redaksiya heyətinin fəxri üzvü olduğum «21 Azər» jurnalının Siz və başqa alim, yazıçılar tərəfindən tənqidi ruhda müzakirə olunmasını arzulayıb Sizə uğurlar diləyirəm. Bir daha Sizi və sizin vasitənizlə iki qardaş arasında məhəbbət atəşini hər zaman şölələndirən Azərbaycan cümhuriyyətinin Yazıçılar Birliyini və eləcə də müzakirədə iştirak edən bacı və qardaşlarımızı ürəkdən alqışlayır, hamınıza uğurlar arzulayıram.

Dərin ehtiram hissləri ilə,

Sirus Mədədi.
Almaniya, Essen şəhəri.
23 iyun, 2000

Əziz Anar! Mən artıq üç aydır ki, Varşavada yaşayıram. Sizin «Ağ liman»ınız çox xoşuma gəldi, onu öz jurnalımda dərc etdim («Ağ liman» Polyak yazıçısı V.Kubastskinin redaktorluğu ilə Vavrşavada çıxan «Literatura na sveçie» – «Dünya ədəbiyyatı» jurnalının iki nömrəsində dərc edilmişdi-red.). Eləcə də jurnalda atanızın, çox sevdiyim Rəsulun şeirləri çap olunub. «Ağ liman»ı Lodzda nəşriyyata təqdim etmişik. Bu Sizin polyak dilində çıxan ilk kitabınız olacaq. Əsərin tərcüməçisi Andcey Şimanski onun radio üçün varintanı da hazırlayıb. Güman edirəm ki, Siz Polşaya qonaq gələcəksiniz Qonarırınız Sizi Varşavada gözləyir. Sizi, atanızı, yoldaşınız Zemfiranı salamlayıram.

Sizin Vatslav Kubatski.
Varşava, 27 yanvar, 1973

Əziz Anar

Kitabınız bu gunlərdə işıq üzü gördu. Bu çox uzun çəkdi. Mən tərcüməni üç il bundan qabaq təhvil vermişdim. Bir neçə kəlmə yazsanız çox məmnun olaram. Təzə kitablarınız varmı? Ümid edirəm ki, 1978-ci ildə Sizin «Dantenin yubileyini»« çevirdim.

Səmimiyyətlə,

Sizin Andcey Şimanski.
Dekabr, 1977

Əziz Anar,

Yeni il təbriklərin üçün çox sağ ol. Bu günlərdə kitabın çıxdı. Bu barədə mən də bilmirdim, birdən kitab dükanının vitrinində gördüm. Sən bəlkə nəşriyyatdan bir neçə nüsxə almısan. Hər ehtimala qarşı iki nüsxə göndərirəm. Sənin və Zemfiranın Macarstana gəlməyinizlə əlaqədar bildirirəm ki, 15 iyunla – 15 iyul arasında gəlsəniz yaxşı olar. Bir xahişim də var. Məsələ ondadır ki, tələbələrimdən biri diplom işi kimi sənin yaradıcılığını götürüb. Bizdə olan bütün əsərlərini (rus və macar dillərində) oxuyub, indi də təhlilə girişib. Əgər bizə məlum olmayan əsərlərin varsa, xahiş edirəm göndərəsən. Ona əlavə material da lazımdır (sənin haqqında məqalələr, resenziyalar və s.). Mətnlərin özləri də olmasa siyahısını göndər, biz kitabxanalarda axtarılb taparıq. Sizi səbrsizliklə gözləyirik.

Laslo Zaxemski.
Eger. 5 fevral, 1973

Əziz Zemfira və Anar!

Uzun zamandır Sizə yazmırdıq, qarşınızda günahkarıq. Səfərlər, işlər, Annanın atasının vəfatı (*Laslonun arvadı tərcüməçi Anna Heringq* – ***red.***) imkan vermədi ki, Sizinlə vaxtında əlaqə saxlayaq… Sizin Macarstanda, bizim Azərbaycanda olduğumuz günləri məmnuniyyətlə xatırlayırıq.

Mətləbə keçək. Anar, sənin «Ağ liman» povestini buraxan «Avropa» nəşriyyatı eyni seriyadan Azərbaycan yazıçılarının əsərlərinin antologiyasının nəşri haqqında qərar qəbul etdi. Hüseyn Abbaszadə və mən belə bir kitabı tərtib etdik. Mən bu müəlliflər haqqında yazmalıyam, amma bəziləri haqqında məlumatım yoxdur. Siyahıda göstərdiyim yazıçılar haqqında (*Siyahı məktuba əlavə olunub* – ***red.***) 8-10 səhifəlik məlumatlar göndərməyinizi xahiş edirəm. Bundan başqa mən ayrıca Azərbaycan hekayələri kitabını da hazırlamaq istəyirəm. Bura Sənin, Elçinin, Əkrəm Əylislinin, Maqsud və Rüstəm İbrahimbəyovların hekayələrini daxil etmək istərdim. Sizi yenə də Macarstanda gözləyirik.

Laslo.
Eger. 20 fevral, 1975

Əzizlərimiz Zemfira və Anar!

Çoxdandır Sizə yazmırıq. Heç nəyi unutmamışıq, amma vaxt çatmır. Sağ-salamatıq, işimiz isə başımızdan aşır. Anna və Rita (Rita Margit də Laslo Zaxemski və Anna Heringq kimi Anarın və başqa Azərbaycan yazıçılarının əsərlərini macar dilinə çevirənlərdir) Əylislinin kitabının tərcüməsini bitiriblər, bəlkə payıza qədər çıxdı. İyulun 1-nə Elçinin də kitabını nəşriyyata təhvil veriblər. Onlara denən, amma yəqin ki, bilirlər.

Anna sənin «Əlaqən»ni də çevirib. Oxuyanlar əsəri çox bəyənib. Bəlkə gözləyək «Macalı» da çevirsin və ikisini bir kitabda nəşr etdirək. «Beş mərtəbə» (*«Beşmərtəbəli evin altıncı mərtəbəsi»* – ***red.***) haqqında nəşriyyata dörd müsbət rəy verilib və o da çap ediləcək. Hamıya çoxlu salamlar.

Sizin,

Laslo, Anna.
Eger. 27 iyun, 1980

Əziz Anar.

Baninin sənə ünvanlandığı məktubunu göndərirəm. O, Bakıya yazda gəlmək istərdi, çünki bu vaxt onun dostları da turistlər kimi Azərbaycana gəlmək niyyətindədirlər. Yazıçılar İttifaqı ya «Vətən» cəmiyyəti Baninin yol xərclərini ödəyə bilərmi?

Bakı qəzetlərindən birində oxudum ki, Y.V.Çəmənzəminlinin 100 illiyi qeyd olunacaq. Bilirsənmi ki, xaricdə, bir çox ölkələrdə «Əli və Nino» romanı nəşr olunub. Müəllif Qurban Səid göstərilir. Bu uydurulmuş təxəllüsdur. Bəziləri belə hesab edir ki, müəllif Y.V.Çəmənzəminlidir. Professor Abbas Zamanov da belə hesab edir. Bunu tədqiq etmək pis olmazdı. Fransada roman «Pari-matç» jurnalının bir neçə nömrəsində dərc olunub. Bir neçə il bundan qabaq mən bu nömrələri Mirzə İbrahimova vermişəm.

Zemfira xanıma salamlarımı yetir.

Həmişəki hörmətlə,

Ramiz (Abutalıbov).
Paris. 12 oktyabr, 1987

(*O vaxt Ramiz Abutalıbov Parisdə YUNESKO-da çalışırdı* – ***red.)***.

Əziz Anar!

Məktubuna görə çox sağ ol. M.F.Axundov yubileyinin 1988-ci ilin mayına keçirilməsi ağıllı qərarlır. Yubileyin Paris iştirakçılarına gəldikdə Banin və İren xanım razıdırlar. Amma onlara rəsmi dəvət göndərmək lazımdır. İlbər Ortaylının gəlməyə maddi imkanı yoxdur. Sərvər Tanilli çox gəlmək istəyir. «Vətən» cəmiyyəti xəttiylə Parisdə yaşayan rəssam Davud Emdadianı, Strasburqda Azərbaycan kültur cəmiyyətinmin sədri Əhməd Mehribanını dəvət etmək olar. Yeri gəlmişkən, «Vətən» cəmiyyətinin sədri kimdir? London Universitetindən Turxan Gənceyini və doktor Şirin Akineri də dəvət etmək olar.

Gürcülərə ancaq həsəd aparmaq olar. «Kuryer YUNESKO» jurnalının bütün dillərdə çıxan nəşrşlərində İlya Çavçavadze haqqında məqalə, üz qabağında isə onun şəkli çıxıb. 1985-ci ilin əvvəlində mən Z.N.Bağırov və V.M.Quluzadədən xahiş etdim ki, Üzeyir bəy haqqında məqalə təqdim etsinlər. 1985-ci ilin avqustun-da Bakıdan belə bir məqaləni almadan getməli oldum. Gürcülər və ermənilər hər şeyi vaxtında edirlər. Ona görə də istədiklərinə nail olurlar.

Banin sənə təşəkkür edir, indi sənin son kitabını oxuyur. Mən ona M.F.Axundov haqqında da xeyli material verdim ki, Bakıda çıxış edə bilsin.

Zemfira xanıma mənim və Tamillanın salamlarını yetir.

Hörmətlə,

Ramiz (Abutalıbov).
Paris. 7 dekabr, 1987

(Anarın şərhi. *M.F.Axundovun yubileyinə xarici qonaqların gəlməsi üçün Yazıçılar İttifaqıyla birlikdə R.Abutalıbov, «Vətən» cəmiyyətinin sədri yazıçı Elçin çox iş gördülər. Məktubda adları çəkilənlərdən İren xanım Məlikova və qızı Şirin, Turxan Gənceyi, Sərvər Tanilli, İlbər Ortaylı, Davud İmdadian, Əhməd Mehribani yubileydə iştirak etdilər. Banin səhhətiylə bağlı gələ bilmədi).*

Hörmətli Anar müəllim!

«525-ci qəzet»də «Rəsul Pzanın həyatı və yaradıcılığı haqqında düşüncələr» kitabından çap olunan hissələrin birində mənim Rəsul müəllimə 19 yaşında yazdığım məktubu və ona göndərdiyim şeirləri xatırlayaraq, çox şeyləri unutduğum kimi bunları da unutduğumu yazırsınız. Amma Sizə deyim ki, mən ancaq pis şeyləri unuduram və duşünürəm ki, insan yalnız gözəl şeyləri yadda saxlamalıdır. Siz deyən məktub isə ədəbi gəncliyimin ilkinliyindən gözəl bir xatirədir. Heç kəsin tanımadığı bir gəncin məktubunu atmayıb saxladığına görə Rəsul müəllimin böyüklüyünü bir daha duyuram.

Ölümün hələ ölmək olmadığını bu dünyada, hayıf ki, hələ ki, təkcə mən bilirəm. Bir də bəlkə quşlar. Hər halda, onlar ən azı biz bilmədiyimiz bir neçə gözəl şeyi bilirlər.

Bu gün mən artıq bütün insanların günahını öz günahım tək duyuram və artıq dəqiq bilirəm ki, bu dünyada ən çox haqlı olan yoxdu, ən çox günahkar olan var, o da elə mən özüməm. Beləcə, mən dünyanın günahlarını canıma yığa-yığa, onları sevgi şəklində dünyaya qaytara-qaytara, mənə bu gücü, sevgini verdiyinə görə hər an ilahiyə dua edə-edə yaşayıram.

Mən hər gün H.Cavidin, M.Ə.Sabirin, Ü.Hacıbəylinin, Füzulinin, Nizaminin, Q.Qarayevin və başqa böyük insan və sənətkarlarımızın barelyef və hekayələrinin yanından keçərkən onlara dua edirəm… Və illərdi hər gün dəfələrlə sevgili şəhidlərimizə, köçkünlərimizə, qaçqınlarımıza, əzab içində, aclıq içində çırpınan yazarlarımıza, soydaşlarımıza hər an dua edən də mənəm. Kitab passajının yanından keçərkən Rəsul Rza və Nigar xanıma da, onların barelyeflərinin yanındakı şəhid Vüqara da gündə bir neçə dəfə, bəlkə də üst-üstə bu dünyada hamıdan çox dua edən də mənəm. Bəlkə də Siz

Rəsul müəllimə məktubumu unutduğumu yazdığınız an mən Rəsul müəllimin və Nigar xanımın barelyefi önündən ötürdüm və onlara dua edirdim. Bəlkə mən bunları yazdığım an siz də bütün qaçqınlara, xəstələrə dua edirsiniz, ya da onlar üçün böyük işlər görürsünüz. Mən artıq görürəm, biz ikimiz də, Əkrəm Əylisli də, Afaq Məsud da, Elçin də, Ramiz Rövşən də, minlərlə gözəl insanlarla birgə hərə öz ürəyində, diz çöküb eyni duanı oxuyuruq… Burada mənim deyimimdə dua etmək təkcə dua etmək deyil, başqa gözəl bir dünyanın sevgi anlamıdır.

Düşünürəm ki, hər insanın bu dünyaya ən çətin sualı ilahinin onu nə üçün yaratdığını anlamağıdır. Mən artıq dəqiq bilirəm ki, Allah məni bu dünyada sevgini daha da gücləndirmək üçün yaradıb. Mən bütün şeirlərimlə, həyatımla buna doğru can atıram və Sizdən xahiş edirəm ki, bu yazıda sətiraltı heç nə aramayasınız. Aradıqlarınızı sətirlərin üstündə, İlahinin ətəyi yanında arayın. Orada həm də İlahinin yaratdığı şəkildə məni də, özünüzü də tapacaqsınız.

Vaqif Bayatlı Odər

Vaqif Bayatlı Odərə

Hörmətli Vaqif!

«525-ci qəzetdə dərc olunmuş və mənə ünvanlanmış məktubun məni çox sevindirdi. Uzun illər tanışlığımız ərzində isti, mehriban münasibətlərimiz olan dövrlər də, soyuqluq məqamları da olub. Bu «isti» məqamlarda mən sənə hekayələr, sən mənə şeir ithaf etmisən, anama həsr olunmuş gözəl bir şeir yazmısan.

Mənə məlum olmayan və təqsirim olmayan səbəblərdən «soyuqluq» məqamlarında belə, mən həmişə səni ədəbiyyatımızda öz yeri olan istedadlı sənətkar kimi qəbul etmiş və qiymətləndirmişəm. Türkiyədə və Azərbaycanda tərtib və çap etdirdiyim şeir antologiyalarında sənin şeirlərinə layiqli yer ayırmağım qəlbimdə heç bir incikliyin heç bir vaxt ədəbi meyarlarıma təsir göstərməməsinə sübutdur.

Vaxtilə, münasibətlərimizin mehriban çağında bir dəfə demişdim ki, atamın arxivində sənin iki məktubun var. Sən qəti şəkildə: «Mən heç vaxt Rəsul müəllimə məktub yazmamışam» – dedin. İndi yazdığın bu məktublardan birini çap etdirərkən unutqanlıq haqqında sözlərimin səbəbi məhz budur və ümid edirəm ki, sən bu sözlərdən incimə-misən.

Mənə ünvanladığın məktubunda məni çox riqqətləndirən H.Cavid, M.Ə.Sabir, Ü.Hacıbəyli, Füzuli, Nizami, Q.Qarayev (bura Mirzə Fətəlini və Mirzə Cəlili də əlavə edərdim) haqqında – ara-sıra nadan hücumlara hədəf olan müqəddəslərimiz haqqında – dediyin ehtiram dolu sözlərdir. Rəsul Rzayla Nigar Rəfibəylinin xatirəsini əziz tutduğun üçün də sənə minnətdaram. Özlərini ədəbiyyata pərçim etməyin yeganə yolunu hamını – öləni-qalanı ləkələməkdə tapan ədəbi killerlərin (muzdlu qatillərin) meydan

suladığı bir zamanda sənin sözlərin Azərbaycan türklərinin mənəvi dəyərlərinə əsi ziyalı münasibətinin örnəyidir. Ziyalılıq 70-80 il bundan qabaq yazıb-yaratmış Qərb yazıçılarının adlarını təzə-təzə öyrənib onları avam adamlara yenilik kimi sırımaqda deyil. Azərbaycan türk-cəsində yaranmış bütün klassik və çağdaş ədəbiyyatımıza nankorcasına xor baxmaq da ziyalılıqdan çox uzaq işdir. «Keçmişə güllə atanı gələcək topa tutar»-deyiblər. Qınından çıxıb qınını bəyənməməyin də, öz qınının içinə qapanıb qalmağın da ziyalılığa dəxli yoxdur. Özünü ədəbi intriqalarla, ona-buna çirkab atmaqla deyil bədii əsərlərlə təsdiq etmək – həqiqi sənətin yeganə və çətin yoludur. Şadam ki, ilk növbədə məhz yaratdıqları əsərləriylə yadda qalan yazıçı-şairlərin sırasında Əkrəm Əylislinin, Afaq Məsudun, Elçinin, Ramiz Rövşənin adını çəkirsən. Bu siyahıya Fikrət Qocanı, Vaqif Səmədoğlunu, Mövlud Süleymanlını və sənin özünü də, bir sıra başqa qələm dostlarımızı da əlavə etməklə deyə bilərəm ki, bütün bu sənətçilərin yaradıcılığına mən də dərin hörmət bəsləyirəm və onların hamısını, o cümlədən də səni Yazıçılar Birliyinə yaxın görmək istəyirəm. Yazıçılar Birliyi nə mənim, nə sənindir, amma o, hamımızındır. Onun işini daha da yaxşı qurmaq üçün hər bir dəyərli təklifi, mülahizəni diqqətlə dinləməyə hazırıq. İnanıram ki, bizi birləşdirən cəhətlər ayıran cəhətlərdən çoxdur və bu yolda sənin məktubunu birinci, öz məktubumu ikinci addım sayıram.

Fürsətdən istifadə edərək ədəbiyyat məsələlərində həmişə obyektiv mövqedə duran, ədəbiyyatımızın sağlam qüvvələrini xeyirxahlıq zəminində birləşdirməyə çalışan «525-ci qəzet»in redaksiyasına səmimi təşəkkürlərimi bildirirəm.

Anar,
«525-ci qəzet», 4 iyun, 2002

Turan Cavidin Rafael Hüseynova məktubundan

Salam, əziz Rafael!

Cavidlər haqdakı əsərinin məndə doğurduğu təsiri, oxuyarkən və xüsusilə makinada yazarkən keçirdiyim hissləri söyləməyə, izah etməyə çox çətinlik çəkirəm. Haradandır səndə başqasının dərdini, nisgilini, həsrətini, ürək ağrılarını bu dərəcədə duya bilmək istedadı?! Mən sənin yazılarını həmişə böyük maraqla oxumuş, həqiqi zövq almışam. Sənin yazı üsulun, dilin həmişə məni valeh edib. Səni oxumazdan əvvəl eynilə bu hissləri, zövqü Anara oxuyarkən keçirmişəm. Dörd il əvvəl Anar Ərtoğrul abidəsinin təməlini qoydu. Sən müəlliminin ən ləyaqətli tələbəsi kimi bu işi davam etdirdin. Nə yaxşı ki, siz varsız!!! Ümimiyyətlə, sənin yazdıqlarını oxuyanda məndə belə fikir oyanır ki, yəqin sən şeir yazırsan, bəlkə pyes də…yazırsan. Demək, Anar da belə hiss edir. Yazın o qədər gözəl, dəqiq işlənib ki, mən onun olduğu kimi çap edilməsini istərdim. Lakin… Anar haqlıdır. Onun fikirləri ilə mən də razıyam. Hər halda çapına mane ola biləcək səbəblərdən vaz keçilməlidir. Bu məsələdə Anarın deyəcəkləri, məsləhəti, heç şübhəsiz ki, işin xeyrinə olacaq və bu yazıya eyni münasibət bəsləyən hər ikimiz razılaşmalıyıq…

…Bildiyin kimi, yubiley ərəfəsində çox əsəbi hallar keçirirdim. Hətta təzyiqim qalxmışdı, ürəyim də fasiləsiz ağrıyırdı. Çox gərgin idim. Çıxışları, demək olar ki, eşitmirdim. Yalnız Anarı eşitdim. Anarın Cavidləri anması mənə necə təsir etdi? Sənin sevinc yaşların məni görməyə, o sözlərin mənə təsirini görməyə mane olub. Bəlkə də o gün, o salonda olanların içərisində yeganə adam mən idim ki, Anarın onları yad edəcəyini gözləyirdim. Anarın çıxışında hər cümlədən sonra onları anacağını intizarla gözləyirdim və gözlədiyim sözləri eşitdiyim üçün həyəcanlandım, sevindim. Anarda yanılmadığıma bir daha əmin oldum. Çünki orada çıxış edənlərin heç biri, heç biri bunu etməzdi, edə bilməzdi. Bununçün Cavidləri Anar kimi duymaq lazımdı.

Yubiley gecəsi çoxları məni təbrik edir, qucaqlayıb öpürdülər. Mən isə yalnız bir nəfəri – Anarı qucaqlayıb alnından öpmək, «Ər oğlu ərsən!» sözlərini deyib minnətdarlığımı bildirmək istəyirdim.

Lakin rəsmi hissə qurtaran kimi mən Anarı görmək istəyəndə qoluma girib sərgiyə baxmağa apardılar. Bədii hissədən sonra nə səni, nə də Anarı tapa bildim. Həmin gecə Anara edə bilmədiyim münnətdarlığa, təşəkkürə görə xeyli darıxdım, sakitləşə bilmədim. Biz sabahı günü də Naxçıvana getdik. Çox sonra Anarı görəndə isə artıq gecdi, heç bir şey deyə bilmədim. Anarın bununçün məndən inciməyə haqqı vardı.

Turan.
1 dekabr, 1985

Anarın internet saytı

«Sahil» dizayn studiyası İnternetdə yazıçı Anarın saytını açmışdır. Qısa müddətdə sayta Azərbaycanın və dünyanın bir çox yerlərindən mesajlar gəlmişdir. İnternetlə daima əlaqədə olan adam kimi bu mesajları kağızda çıxarıb Anar müəllimə verdim. Onun özü internetə qoşulmayıb. Bu mesajların bir neçəsini təqdim etmək istəyirəm:

Moskvada təhsil alan Azərbaycanlı tələbələr adından salam! Çox hörmətli Anar müəllim və saytın qurucuları. Saytı gəzdim və onu deyim ki, xoşuma gəldi. Maraqlı səhifə alınıb. İlk səhifədə olan şeir isə ürəyimə yağ kimi yayıldı. Sizə işlərinizdə uğurlar arzulayıram. Hörmətlə,

Pərviz

Sayın Anar hocamızı 5-6 yıldır tanıyorum. Kendisi ilə 6-7 dəfə görüşmə imkanı buldum. Görüşmə konularımız Türk halk kültürü mehtevalı idi və hər dəfasında yeni orijinal mükəmmel tesbitlər edile bildim. Onu samimi və gerçekçi bir kimse olaraq tanıdım. Bizi Kamil Nerimanoğlu Veliyev və Abbas Abdulla beyler tanışdırdığı üçün onlara şükran borcluyum. Anar bey kibi fikir və sanat adamı olan milletlerin sırtı yere gelmez. Ona uzun ömürlər və yeni başarılar diliyorum. Sayğılarımla,

Yaşar Kalafa, Türkiye

Salam! Mən bir Azərbaycanlı və Göyçaylı olaraq sizin kimi bir şairə və yazara sahib olduğumuz üçün qürur duyuram və mən Türkiyədə sizin bütün məqalələr və də teatrda olan əsərləri böyük məmnuniyyətlə izləyirəm və də sizi Azərbaycanı çox gözəl təmsil elədiyiniz üçün təbrik edirəm. Sonda da sizi ASYA DA İLİN ADAMİ VƏ YAZARİ SEÇİLDİYİNİZ ÜÇÜN TƏBRİK EDİRƏM!

Hörmətlə, Sənan Mirzəyev

Azərbaycn torpaqlarını Vətənləşdirən və Azərbaycan dilli əhalini Millətləşdirən bir Vətəndaşa, Yazıçıya, Şairə, Alimə, Xalqımızın mənəviyyatını formalaşdıran bir şəxsiyyətə ən xoş arzularımı bildirirəm.

Dərin ehtiramla Sizi həmişə kumir (üzr istəyirəm ki, Azəri türkcəsində bu sözün mənasını ifadə edə bilmirəm) hesab edən,

Şahin Pənahov

Sevgili Anar müəllim, salam!

Keyf-əhvaldan sonra bəri başdan açdığınız bu gözəl saytınız üçün sizə təbriklər söyləyirik. Ümid edirik ki, Azərbaycanımızın sizin kimi bütün vətənsevər yazar və alimlərinin saytları olsun. Müjdə üçün deyim ki, sizin Dədə Qorqud kitabınız Danimarkanın milli kitabxanasına ümumi istifadə üçün verilmişdir. Ümid edirik ki, kitab rəflərimiz burada sizin başqa əsərlərinizlə zənginləşsin. Özümüz barədə qısa: Danimarkada Azərbaycan türkcəsində ardıcıl olaraq radio və televiziya verilişləri aparırıq, könüllü olaraq.

Qiymətli Anar müəllim, sizə cansağlığı, həyatınızda başarılar diləyirik. Qarabağın qurtuluşu arzusu ilə Danimarka-Azərbaycan Kültür Ocağı adına,

Kərim Urmulu

Hörmətli Anar müəllim! Böyük məmnuniyyətlə və qürur hissiylə bu saytla tanış oldum. Çox ləyaqətli işdir. Siz – mədəniyyətimizin ən parlaq şəxsiyyətlərindənsiniz. Xoşbəxtəm ki, mənim Azərbaycanımda sizin kimi adamlar var.

Hörmətlə Tomris Azəri. ABŞ.

Hörmətli Anar müəllim!

Sizi ilk öncə Belçikada yaşayan azərbaycanlılar və şəxsən öz adımdan salamlayıram. Bu yeni texnoloji vasitəsiylə siz də dünyanın dörd bir yanına dağılmış Azərbaycan diasporasına öz haqqınızda olan informasiyaları çatdırmanız mənə görə dünyadakı Azərbaycan diasporasının failiyyətlərinin yeni dünya düzəninə çatdığını göstərir. Sizi həm yeni saytınız vəsiləsiylə, həm də ölkəmizin və xalqımızın böyük düşünürü kimi ürəkdən təbrik edirəm.

Belçika, Azərbaycan Evi. Bülənd Gürcəm

Hörmətli Anar müəllim

Sizin yaradıcılığınızla tam yaxından tanış ola bilməsəm də, oxuduğum əsərlərinizin hamısı həqiqətən təqdirə layiqdir. Mən özüm Türkiyədə, İstanbul Qalatasaray Universiteti hüquq fakütləsində oxuyuram... Sizin də ara-sıra Türkiyəyə gəldiyinizi eşidirəm... Sizinlə İstanbulda görüşməyi çox istəyirəm.... Ayrıca İstanbuldakı Azərbaycanlı tələbələr olaraq sizin təcrübənizdən də yararlanma ehtiyacımız var...

İstanbuldan sevgilərlə, Elnur Məcidli

Çox hörmətli Anar bəy!

Mən Strasburq şəhərində Beynəlxalq Hüquq üzrə doktoran-tura təhsili alıram. 2000-2002-ci illərdə Fransanın Bakıdakı səfirliyində mətbuat işləri üzrə attaşe vəzifəsində çalışmışam.

Yaradıcılığınızın daimi pərəstişkarıyam. Buna görə də saytınızın yaradılması xəbərini eşidəndə çox sevindim. Ümid edirəm ki, saytınız yaradıcılığınızdakı ən son yeniliklərlə tanış olmaq imkanı verəcək.

Mən sizi müasir ədəbiyyatın ən böyük nümayəndələrindən biri hesab edirəm. Çox arzu edirəm ki yaradıcılığınız Qərbi Avropada layiq olduğu qədər tanınsın. Bunun üçün əlimdən gələni etməyə hazıram.

Hörmətli Anar bəy, fürsətdən istifadə edib sizə bir sualla müraciət etmək istərdim. Sizin vaxtı ilə dərc edilmiş iki cildliyinizi tapmaq artıq qeyri-mümkündür. Yaxın vaxtlarda bütün əsərlərinizi əhatə edəcək küllüyatınızın dərcini gözləyə bilərikmi?

Sizə ən xoş arzularımı ifadə edirəm.

Fuad Zərbiyev.
Strasburq, 8 may, 2003-cü il

Hörmətli Anar müəllim!

Sizi 65 yaş yubileyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edir, sizə uzun ömür, can sağlığı, ailə və həyatınızda daha böyük nailiyyətlər arzu edirik. Arzu edirik ki, Allah-təalanın köməyi ilə 80, 90 və 100 yaş yubileyinizi qeyd edək. Yeri gəlmişkən, sizin internet səhifənizin açılması bizi, Amerikada yaşayan Azərbaycanlıları çox sevindirdi.

Çox gözəl səhifədir. Xeyirli olsun.

Dərin hörmətlə,

Məmməd Sadıxov,
«Muğam» Cəmiyyətinin Prezidenti.
Nyu-Cersi. ABŞ

Salam Anar bəy! Mən və ətrafımdakı dost-tanışım sizin sənətinizin vurğunuyuq. Türk dilində çap edilmiş kitablarınızı isə xüsusi qiymətləndirirəm. Bu Azərbaycan diasporası naminə görülən çox məhdud işlərdən biridir. Mən sizin «Dantenin yubi-

leyi» kitabınızı oxuyandan sonra başda elmi rəhbərim olmaqla hamıya demək olar ki, «oxutdurdum». Deyim sizə ilk dəfədir ki, Avropa romanı (eləcə də türk romanı) qarşısında özümü sınıq hiss etmədim! Bunun üçün sizə minnətdaram! İnanıram ki, sizin bütün dünyada azarkeşləriniz var!

Dəyanət Rzayev

Anar bəy! Bu saytın açılışı məni o qədər sevindirdi ki, ədəbiyyatda bunu ifadə edəcək söz yoxdur. Arzu edirəm ki, dünyanın üstündə dartışıb bölə bilmədiyi Nizamimiz, Füzulimiz üçün də belə saytlar açılsın. Əsərlərinizi oxudum: çox xoşuma gəldi. Dilçi alimlərimizin qarışqa sürətiylə irəlilətdikləri dilimiz çox güman ki, belə saytlarımız sayəsində yaşayacaq. Həm də burdan oxumaq daha ucuz başa gəlir. Təşəkkürüm dünya qədərdir.

Hörmətlə, Nurlanə

Sevindirici haldır ki, sizin əsərlərinizi tapmaq imkanı Güney Azərbaycanda mənə qismət olmuşdur. Tehran şəhərində sizi görə bilmək əlçatmaz oldu mənim üçün. Gün o gün olsun Təbrizdə sizin 100 illiyiniz keçirilsin. Eləcə də Rəsul Rzanın dediyi Ərk qalasının sərin kölgəsində.

Əziz Anar müəllim, sizə olan məhəbbətimiz sonsuzdur. Mənə elə gəlir ki, dünyanın ən istedadlı sənətkarları bizim ölkədədir. Siz isə sənətkarlardan ən öndə gedənisiniz. Belə bir sayt açdığınız üçün sizə sonsuz hörmət və təşəkkürlərimizi çatdırırıq. Sizdən çox xahiş edirik ki, bizim emailimizə bir sevgi şeiri göndərəsiniz. İnanırıq ki, bizim bu xahişimizi yerinə yetirəcəksiniz. Sağ olun...

Hörmətlə, iki dost Emin və Ruslan

Hörmətli Anar! Siz Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafında ayrıca yeri olan bir insansınız. Sizin yaradıcılığınızı və həyatınızı əks etdirən nümunələrin internet məkanında yerləşdirilməsi xüsusi hadisədir. Saytınız hazırlanmasında yüksək fədakarlığına görə «Sahil İRC»yə ayrıca təşəkkür edirik. Sizə yeni-yeni yaradıcılıq uğurları və can sağlığı arzulayırıq.

Yenisi ədəbiyyat və sənət mərkəzi adından,

Məqsəd NUR,
Tehran Alışanoğlu

Anar müəllim, salam! Sizin kimi nüfuzlu yazıçı və ictimai xadim haqqında belə gözəl sayt hazırlayanlara mən də təşəkkürümü bildirirəm. Amma saytın yaradıcılarına bir təklifim də var yaxşı olardı ki, sizə göndərilən mesajlara dair sizin münasibətinizi öyrən-

mək imkanı da yaradılsın. Müxtəlif məsələlərə dair Sizin rəyinizlə bu sayt vasitəsi ilə tanış olmaq hamımız üçün maraqlı olar.

Hörmətlə,

Feyruz,
Sumqayıt şəhəri

Mən çox sevinirəm ki, axır ki, Azərbaycan ədəbiyyatının ən dəyərli yazıçısının internet səhifəsi açıldı. Ona uzun ömür, yaradıcılıq uğurları arzulayıram.

Həlimə

Salam Anar bəy. Mənim sizin sənətinizə böyük hörmətimin həddi hüdudu yoxdur. Üstəlik də bu saytı yaratdığınız üçün sizə təşəkkürümü bildirirəm. Çünki biz sizin haqqınızda çox şeyi öyrəndik. Sizdən bir xahişim var: Mənim adresimə bir gözəl sevgi şeiri göndərsəniz sevinərəm. Sağ olun. Mən Ağdamın Paprəvənd kəndindənəm.

Hüseynov Ruslan Ağdamlı

Salam Anar müəllim. Sitenizi çox bəyəndim. Amma nəysə «Ağ Liman» və «Beşmərtəbəli evin altıncı mərtəbəsi» əsərləri ilə rastlaşmadım. Bəlkə əlavə edəsiniz? Mətbuatda çap olunmuşam – «Azərbaycan» jurnalında, «Ədalət»də, «Yeni Azərbaycan»da və s. Sizi narahat etdiyim üçün üzr istəyirəm.

Sevinc

Salam Anar müəllim. Sizi belə gözəl sayta sahib olmağınız münasibətilə təbrik edir, onu hazırlayanlara sizinlə ünsiyyət imkanı verdikləri üçün minnətdarlığımı bildirirəm. Ürəyim doludur, amma vaxtınızı çox almaq fikrindən uzağam. Sizin əsərlərinizi oxuya-oxuya böyüsəm də, indi ancaq çox nadir hallarda bədii əsərlərinizə rast gəlirəm. Nədəndir bu əcəba? Məgər bu gün bizə ədəbiyyat lazım deyilmi? Digər bir məsələ – artıq yaradıcı gənclərin bir hissəsində belə bir fikir yaranır ki, bu gün çap olunmaq üçün mütləq müxalifətdə olmalısan. Sizi, Yazıçılar Birliyini böhtan, iftira atəşinə tutanların adlarının təqaüdçülər sırasında olması, gen-bol çap olunması məhz bu fikri yaradır. Amma ədəbiyyatda ilk addımlarını atanlar eyni ədəbi məkanlarda çap olunmaq üçün başqa başqa şərtlərlə üzləşdikdə «sandıq ədəbiyyatı» yaratmağa üstünlük verirlər. Bəlkə də burada sizin deyil, daşıdığınız vəzifəyə göz dikdiyini gizlətməyənlərin və onları himayə edənlərin rolu daha böyükdür. Amma sizin də söz deməyə haqqı çatan yazıçı kimi, təqdimatınızla aldıqları təqaüd qarşılığında ortaya samballı bir əsər qoya bilməyənlərə, amma yazmaqdan çox qeybətlə məşğul olanlara qəti, tutarlı cavabınız olmalıdır. Ədəbiyyatımızın problemi çoxdur, fəqət bunların həlli hər birimizə, o cümlədən sizə daha çox bağlıdır. Yeni yaranan YeniSi.net kimi sitelər ədəbiyyatın gələcəyinə ümid qı-

ğılcımı yaratsa da, qarşıda daha böyük vəzifələr öz həllini gözləyir. Bu vəzifələrin uğurlu həlli istiqamətindəki fəaliyyətinizdə bütün yaradıcı insanlara, xüsusilə Sizə ən xoş arzularla,

Xanlar Xoca

Salam hörmətli Anar, sizin yaradıcılığınız çox maraqlıdır, xüsusilə Təhminə və Zaur obrazı biz gənclərə Leyli və Məcnun qədər şirin və yaxındır. Amma təəssüf ki, yazmaqdan çox qeybətlə məşğul olanlar sizin yeni əsərlərinizi oxumaqdansa bizi bəzən həmin böhtanlara tutarlı cavablarınızla tanış edir. Bunun əvəzində yeni əsərlər yazsanız olmazmı? Axı onsuz da tənbəllər həmişə tənqid edirlər... Sağ olun.

Xanlar Xoca

Hərdən insan fikrə gedər, ötub-kecənləri anar,
Xoş anlarla fərəhlənər, acı xatirədən yanar.
Hər insançün xatirə var, ya tez solur, ya heç solmur,
Hami daim nəsə anır, ancaq hamı Anar olmur...

Bu torpağa ayaq basan Anar adlı ilk oğlandı,
Yaxsı-yaman seçən gundən urəyində söz qalandı.
Bugününü, dünənimi, min il əvvəlini anar:
Gah köksü sevinclə dolar, gah da icin-icin yanar.
Yazısına-pozusuna dastan, nağıl dad veribdir,
Ogluna da, qızına da Dədə Qorqud ad veribdir.
Onun ulu nənəsinə Burla xatun süd veribdir,
Süd dolanıb qanı olub, qələminə od veribdir.
Vətəninin taleyinə soyuqqanlı qala bilməz,
Rəsul-Nigar ogludur o, basqa cür də ola bilməz!

Bu «basqa cür ola bilməzlik» – ozundə təkcə Vətənin taleyinə soyuqqanlı qala bilməməyi deyil, daha cox şeyləri cəmləşdirən «basqa cür ola bilməzlik» bu insanı mənim (və bir coxlarının) hansı məqamdasa ona bel baglaya biləcəyim qədər basqalarından fərqləndirir. Ustəgəl: sozə vurgunluq, sozdən toxunan gozəllik, sozun məxsus oldugu dogma dilə sevgi, bu dildə danışanların yaxşılarının dirisinə hörmət, dunyadan köcmuşlərinin xatirəsinə saygi, pislərinin varligina təəssuf hissi, xalqının əli və dili ilə yaratdığı mocüzələr qarşısında heyranlıq duygusu və qürur, bu sərvətləri qorumaq istəyi və əzmi, onu yaxindan tanıyanlara adının əvvəlində «dunyanın ən gozəl insanı» təyinini işlətməyə sovq ədən nəciblik...

Salam, Anar muəllim! Necəsiniz, əhvali-ruhiyyəniz nəcədir?

Sizin saytınızı gördüm, cox sevindim. Oglum mənimcun e-mail açdı və mən burada ilk məktubumu sizə yazıram. Yuxarıdakı sətirləri neçə il əvvəl yazmışam sizin haqqınızda. Xeyli əvvəl «Meydan» verilişində də gordum sizi: bənzərsiz idiniz həmişə oldugu kimi. Baxdım və sevindim ki, nə yaxşı bu cür insanlar var dunyada: səmimi, necə var, elə. İndiyəcən «Meydan»da gordüyüm qonaqların ən maraqlısı idiniz, şişirtməsiz deyirəm bunu. «Ulduz» jurnalında övladlarınız Tural və Gunelin yazılarını oxudum. Hər ikisi xosuma gəldi, «Sinifkom səçkiləri» daha cox. Təəssuf ki, ədəbiyyat aləmində baş verənləri ardıcıl izləmək imkanım az olur, ancaq çalışıram əsas hadisələrdən xəbərsiz qalmayım. Sevinirəm ki, yeni əsərlər uzərində işləyirsiniz. Heyf ki, yeni əsərlərinizi oxuya bilməmişəm. Burada yeni nəşrləri əldə ətmək cətindir, ancaq mutləq tapıb oxuyacağam. Sizə cansağlığı və yaradıcılıq ugurları arzulayıram. Vaxt tapib mənə cavab yazsanız sox sevinərəm.

Hormətlə: İmarət Cəlil qizi, Oguz şəhəri

Anar müəllimi bu mətnlərlə tanış etdikdən sonra onun münasibətini öyrənmək istədim. Anar müəllim dedi:

Tofiq, ən öncə sənə təşəkkür etmək istəyirəm ki, zəhmət çəkib bu mətnləri kağıza köçürmüsən. Mənim kompüterim hələ ki, internet sisteminə qoşulmayıb. Odur ki, mesaj göndərənlərə bilavasitə internetdə cavab vermək imkanım yoxdur. Amma yəqin ki, bu yazı qəzetdə dərc olunarsa qəzetin internet saytında mənim sözlərimlə tanış ola biləcəklər.

Bilirsən ki, mənim bu yeni texnologiya və müasir rabitə, ünsiyyət üsullarını mənimsəməkdə bir elə səriştəm yoxdur. Odur ki, fürsətdən istifadə edib bu saytın təmənnasız təşəbbüskarı və icraçısı Elçin Əzimliyə, sayt üçün vəsait ayırmış «Sahil» dizayn studiyasına ən səmimi minnətdarlığımı bildirmək istərdim. Əlbəttə, qısa müddət ərzində sayta dünyanın müxtəlif yerlərindən göndərilən mesajlara görə özümü xoşbəxt sayıram. Yerli-yersiz hücumlara, inkarçılığa tuş olarkən adam bəzən bədbinliyə qapılır: görəsən doğrudanmı həyatımın mənası olan yazı-pozum heç kəsə lazım deyilmiş? Amma hər həftə aldığım onlarla məktub, vaxtilə böyük tirajlarla nəşr olunmuş kitablarımın tapılmaması, mənə məktub yazmasalar də yaradıcılığımı diqqətlə izləyən minlər, yüz minlərlə oxucularımın mövcud olması məni bu ani ümidsizlik ovqatından xilas edir. İndi budur bax, internet səhifələrində mesajlarla tanış olarkən mən bu məmnunluq hissini daha böyük həyəcan və sevinclə yaşayıram. Mənim haqqımda, sayt haqqında, ümumən yaradıcılığım haqqında çox xoş sözlər yazmış mehriban insanlara səmimi-qəlbdən minnətdaram. Məni sevindirdikləri kimi, arzu edirəm ki, uca Tanrı onları da həmişə sevindirsin. Mənə xoş olan bir də odur ki, ABŞ-da, Avropa ölkələrində, Türkiyədə, İranda yaşayan həmvətənlərimiz ədəbiyyatımızı diqqətlə və qayğıyla izləyir, bizim az-çox fəaliyyəti-

miz onları həm Ana vətənlərinə, həm də bir-birinə daha da yaxınlaşdırır. İkinci, ona sevinirəm ki, yazanların böyük qismi cavanlardır, tələbələrdir. Deməli hər halda XXI əsrin sakinləri olacaq yeni nəsillər gördüyümüz işlərlə tanışdırlar, yazdıqlarımızı layiqincə qiymətləndirirlər. Sözümü həmişə olduğu kimi böyük Mirzə Cəlilin bir fikriylə tamamlamaq istəyirəm:

«Sağ olsun bizi qanan oxucular. Avama ümid yoxdur».

Tofiq Abdin Məhərrəmoğlu

P.S. YUNESKO-nun saytında Azərbaycan yazıçılarından Anarın «Ağ liman» və Elçinin «Mahmud və Məryəm» əsərləri yerləşdirilmişdir.

«Zerkalo» qəzeti, 2005, 1 iyun

Anara həsr olunmuş şeirlər

Rəsul Rza,
Xalq şairi

Yadıma düşdü

Oğlum Anara

Dənizdə ləpə var, dağda bulud var,
Göndə durna keçir göydən yüz qatar.
Baxdım üfüqlərə həzin axşamlar,
O məlul durmağın yadıma düşdü.

Bax, yaşıl Krımda yarpaqlar solub,
Elə bil təbiət işdən yorulub
Hərdən qərib-qərib gözlərin dolub,
Boynunu burmağın yadına düşdü.

Hər günüm bir ildir sənsiz, a bala,
Gəlməyəsən görüm səni zavala.
Gözlərim yumulub getdim xəyala
Min oyun qurmağın yadıma düşdü.

Səhər-səhər tezdən açılıb yaxan,
Alnına inci tər düzülən zaman
Yuxudan duranda alışıb yanan
O tunbul yanağın yadıma düşdü.

Atamın, anamın istəkli soyu,
Anan layla desin, beşikdə uyu!
Qaz balası kimi görəndə suyu
Əlini vurmağın yadıma düşdü.

Sormasınlar nə var dərdli könüldən,
Səni mən yuxumda görmüşəm dünən.
Bir az uzananda yuxarı dönən,
Körpəcə dırnağın yadıma düşdü.

Könlüm sənsiz ağlar, sənlə gülər,
Ata olmayanlar bunu nə bilər.
Tutub çarpayının yanından səhər,
Ayağa durmağın yadıma düşdü.

Yenə səndən gəlmir çoxdandır soraq
O zalım ananda insafa bir bax!..
Bir körpə əlini görəndə bayaq
Çeçələ barmağın yadıma düşdü.

Krım-Yalta, 1938

Sənin ad günün

Anara

Ev… süfrənin başında oturmuş qohum-tanış;
Hamı deyir: – A bala, sevin, oyna, gül, danış!
Sənin gözün qapıda, qulaqların səsdədir.
Qəlbin quştək çırpınır, elə bil qəfəsdədir.
Bax, gəldi yoldaşların, əllərində hədiyyə.
Sən kimi gözləyirsən, indi gələcək deyə.
Nədir gözlərindəki o həsrət, o intizar?
Neçin gül tək açılmır gülüşünlə dodaqlar?
Divardakı nədir o, uzun-uzun baxdığın?
Gəl, qəlbimin parçası, dur gəl sinəmə sığın!
Sən məni axtarırsan, mən uzaqda deyiləm.
Doğrudur ki, yanında bir otaqda deyiləm;
ancaq yoxla hər yeri, şerimi, məktubumu, –
gör səndən ayrı keçən bir dəqiqəm oldumu!
Gözünü çək qapıdan, sevin, oyna, gül, danış!
Körpə qəlbin duyğusu dünyada aldanmamış.
İndi məni gözləmə, gözünü yora-yora;
gələcəyəm indi yox, bəlkə də çox-çox sonra…
Sən orda həsrət çəkib məni gözləyən zaman,
qoruyuram ömrünü burda mən yağılardan.

Krım, 1942

Oğul

Mən səni
yeni ayaq açanda,
yeni dil açanda,
top kimi yumalanıb
qaçanda görmüşəm.
İlkin ata deyəndə
öpmüşəm dodaqlarından.
Çəkdiyin qəribə, gülməli şəkilləri
bugünəcən saxlamışam.
İlk dəfə məktəbdən gələndə
bağrıma basmışam səni,
qucaqlamışam.
İllər keçib bir-birinin ardınca,
sən böyümüsən hər gün.
Qalxmısan ömrün neçə pilləsini;
zaman təqvimin varaqlarını qopardıqca.
İndi yekə kişi olmusan, maşallah!
Gündə üzünü qırxırsan.
İndi qadınlar sənə
həsədlə, məhəbbətlə baxır.
Uşaqlardan sənə dayı deyənlər var.
Ancaq sən,
mənim gözümdə hələ də
yeni ayaq açan,
yeni dil açan,
top kimi dümələnib qaçan
körpəsən.

27 yanvar, 1962

Nigar Rəfibəyli,
Xalq şairi

Oğlumdan ayrılan gecə

Ay gümüş dalğalarda
nazlanır gəlin kimi.
Ruzgar gəzir saçımda
körpəcə əlin kimi.
Yenə ay işığında
qumlar sanki incidir,
Körpə balam, həsrətin
məni yaman incidir.
Sən indi oyaqmısan,
gözündə yuxu varmı?
Balasından ayrılan
ana gecə yatarmı?!
Mən hələ yatmamışam
yanımda boşdur yerin,
Qapanırmı, a körpəm,
o uzun kirpiklərin?..
Bayaq günəş batanda
tozlu yollardan keçdin,
Ürəyin yanan zaman
sərin sulardan içdin.
Mən də sənin yanında
dayanmışdım elə bil,
O gözlərinlə
bircə şirin-şirin gül.
Sən tamaşa edirsən
heyran-heyran dağlara.
Bəzən yol ayrıcından
baxırsan uzaqlara.
Anasının dalınca
quzular mələr keçir,
o körpə xəyalından,
ceyranım, nələr keçir?!

Uzaqda yalqız qalan
anan keçir fikrindən,
Bəlkə indi yatmayıb
onu düşünürsən sən?
Bəlkə ana həsrəti
saf könlünü qanadır,
vətən mülkü, gül oğlum,
ən müqəddəs anadır!
O gördüyün göy bağlar,
yaşıl dağlar, dərələr,
Getdikcə hey dəyişən
fərəhli mənzərələr…
Sənin ana yurdundur,
Sənin doğma ocağın,
Xoşbəxt ömür sürdüyün
nurlu, azad torpağın
Nəfəsinə qarışan
dağların saf havası,
Qürbətdən uçub gələn
quşların şən yuvası,
Çiçəklərin xoş ətri,
axan suyun gur səsi,
Budaqlarda oynayan
ruzgarın zümzüməsi.
Dəryatək ləpələnən
sarı sünbül taxıllar,
Yollarda rast gəldiyin,
Gördüyün hər nə ki var,
Azad torpaq, azad el
çiçəkli vətənindir.
Günəş, dəniz, göy, hava,
qarlı dağlar sənindir!
Sən onları əziz tut,
vətəni yaxşı tanı.
Varlığınla, qəlbinlə
sən sev Azərbaycanı!

1945

Anara

Hicranın ağırdır, dözə bilmirəm,
O uca dağlardan en gəl Anarım!
Körpə ayaqların yaman yorulub,
Sinəmin üstündə dincəl, Anarım.

Sənsiz nə gecəm var, nə də gündüzüm
Sən gedəndən bəri gülməyib üzüm,
Gəl uzun kirpikli körpəcə quzum,
Anarım, Anarım, dəcəl Anarım!

Dedilər heyransan gülün ətrinə,
Gül qatdım şerimin hər bir sətrinə,
Min cəfaya düzdüm sənin xətrinə
Anarım, Anarım, dəcəl Anarım!

Sən ceyran gözlüsən, çatma qaşlısan,
Tayın-tuşun çoxdur, yar-yoldaşlısan,
Bəlkə məndən ayrı gözü yaşlısan
Olmuş bu ayrılıq əngəl, Anarım!

Dağların sinəsi lalə, bənövşə,
Yaylaqlar qonağı ol sən həmişə,
Qoyma bu dağlara bir xəzan düşə.
Tökülə yollara xəzəl, Anarım.

1945

Ramiz Rövşən

Hamı qardaş olsa da

Anarın bədxahlarına

Öz itini hamı öyər,
Lap qudurmuş olsa da.
Ayranına kim turş deyər?
Ayranı turş olsa da.

Sözlər var ki, dilə gəlməz,
Dil bir qarış olsa da.
Əldən çıxan ələ gəlməz,
Barmağın beş olsa da.

Xarabadır bu ev-eşik,
Daş üstə daş olsa da.
Niyə düşmən kəsilmişik?
Hamı qardaş olsa da.

Nə oyağam, nə yuxulu,
Gözlərim yaş olsa da.
...O quş nə qəşəng oxuyur,
Adı Bayquş olsa da...

Toy

Deyirlər ki, qısqanırsan, anasan, əlbət,
Oğlun bu gön toy eyləyib səndən ayrılır.
Mən nə deyim, bu sözlərdə var bir həqiqət,
Elə bil ki, ruhum indi təndən ayrılır.

Ürəyimdə fərəh də də var, qısqanclıq da var;
Körpəlikdən sinəm üstdə böyütdüm onu.
O böyüdü, böyüdükcə coşdu arzular,
Kaş görəydim, deyirdim ki, oğul toyunu.

İndi bizə gəlin gəlir, toy-düyün gəlir,
Daha da gur yanacaqdır evin çırağı.
İstədiyim, gözlədiyim gözəl gün gəlir,
Kim istəməz belə qəşəng, əziz qonağı.

Qoy cəbhələr ayırmasın bizi övladdan,
Qoy aparsın oğulları gözəl gəlinlər.
Qara bulud asılmasın göydən heç zaman
Yurdumuzun üzərində parlasın səhər.

Müharibə, qan olmasın, tufan olmasın,
Qısqanclıqın atəşini söndürər ürək.
Kaş toy olsun, bayram olsun, hicran olmasın,
Kama yetsin ürəklərdə bəslənən dilək.

1962

Qabil,
Xalq şairi

Anar

(60 yaşına töhfə)

Şəfəqlərə bürünməyi,
Sevməyən Anar -
Bir ziyadır şəfəqləri
Yeddi cilvədə.
Zirvələrdə görünməyi
Sevməyən Anar –
Bir zəkadır qərar tutub
Uca zirvədə.
Ziyalılar nəsil-nəsil
Gəlib gediblər,
Öz ömrünü, öz xalqına
Fəda ediblər.
Aydınların başdaşına
Baş əyirəm mən.
Millətimin yaddaşına
Baş əyirəm mən.
Əyildikcə həm də
Göyə ucalır başım.
Bugünkü başucalığım –
Anar qardaşım.

Fikri aydın, sözübütöv
Əsil-nəsilli.
Təbiəttək özü bütöv
Çöhrə fəsilli.
Nəcabəti –
Xəcalətli eylər adamı.
Nəzakəti –
Nəzakətli eylər adamı.

Neçə Anar mışıl-mışıl
Beşikdə yatır –
Yatır Anar şərəfinə,
Anar şəninə.
Nəçə Anar təzə-təzə
Ərsəyə çatır –
Çatır Anar şərəfinə
Anar şəninə.
Qoy eşidib bilsin ancaq,
Cəmi Anarlar:
İlk Anara layiqləri
Anar sanarlar...
Yalnız Anar şərəfinə
Anar şəninə!
Bizim Odlar diyarının
Od sərrafları
Tüstüləri göz yaşardan
Kösövləri yox,
Qızıl-qızıl alovları
Yanar sanarlar.
Yanar Anar şərəfinə,
Anar şəninə!

Aya-günə, ulduzlara
Apar Anarı,
Apar arxayın!
Lap cazibə qüvvəsindən
Qopar Anarı,
Qopar arxayın.
Uca-uca kürsülərə
Çıxar Anarı,
Çıxar arxayın!
Cavabdehəm:
Sən arxayın,
Mən arxayın,
Anar arxayın.

Çeşməyində qayğılara,
Dumanlara bax!
Barəsində haqlı-haqsız
Gümanlara bax!

Uman Yerdən –
Onnan ümid umanlara bax!
Anar ilə üzbəsurət
Beş-altı kəlmə –
Kəlmə kəsib yaxşılaşan
Yamanlara bax!
Ziyalılar xələfidir
Mənim xələfim –
Sələflərim göz önümə
Gəldi bu saat:
İftixarla qayıt
Keçmiş zamanlara bax!

Yazar çoxdu...
Mən də varam,
Başqası da var.
Xalqım üçün təkcə yazar
deyil ki, Anar!
Ömrün müdrik pilləsində
Tutubdur qərar.
Həm mehriban,
Həm ədalı...
Həm təvəzökar,
Ürəyində Ata-Ana eşqi
Bərqərar.
İlhamını eldən alan
Vətəndaş yazar.
Sinəsində çadır-çadır
Müdhiş yaralar,
Ulu, ölməz Mirzələrdən
Yarpaq yadigar – Anar!
Anar kimi varis olsun
Bütün Anarlar!
Anar kimi xalis olsun
Bütün Anarlar!

18 yanvar, 1998

Məmməd Araz
Xalq şairi

Söyləmələr, səsləmələr, haraylar

Anara

Dədəm Qorqud!
İnsan didir bir-birini,
İnsan yeyir bir-birini –
İnsan yeyir təbiəti
Yeyir fərqinə varmadan,
Yeyir qurusuna, yaşına baxmadan.
Hardasan, qoşa-qoşa ağaclarım,
Zeytunum, palıdım, narbəndim, hardasan?
Gəlinsayaq sərvlərim yan üstə.
Dağ dilində, çay dilində, od dilində harayın,
Quzu ceyranlar ağlayır,
Yırtıcılar toy dəmində.
Dədəm Qorqud: Söyləmən
Qayalar söykənmək üçündü,
Daşlar güllə əvəzi,
«Daş bitən yerlərdə ağac bitirin
Torpaq üstündə daşlar yasdığımız».
Zədələməyin ağacları,
Ağaclar körpüdür.
Sellər baş aparanda körpüdür ağac,
Qəbri ağacdandı
İgid döyüşçülərin.
Əli qılıncının dəstəyi ağacdandı,
Ulu peyğəmbərdən qalan töhfədir
Bulaqlar başında bitən ağaclar.
Ağac da göyərməz.
Dədəm Qorqud söyləmən:
Qan tökməyin, qorxun qandan,
Qorxun, qorxun nahaq qandan.
Yaşı kəsmək başı kəsmək deməkdi.

Köhlən atın qədrini bilin ki,
Qulaq verər.
«Boyük-böyük suların körpüsü ağac».
«Zülfüqarın qını ilə dəstəyi ağac».
Dədəm Qorqud, bu söyləmə haraydı
Bu harayı bizim dildə kim əkdi?
Əkəni də gördük, qanla suvaranı da
Sonra qanda çiməni də...
Ağacın dibini gördük, suvandarı da
Qansız ağaclardan darağacı quranları da
Cəllad daha qansız olur,
Dar ağacının ipi bərk olmayır,
Onda cəllada «yazıq»,
Ağacı yedi insan, – meşəni yedi
Qurunu yedi,
Yaşı da yedi.
Göyə qalxan tüstü qaldı,
Göyə yazıq; tüstüyə yazıq.
Ölənə qəbir yeri qalmadı – ölənə yazıq,
Yaşını yeyənə «yazıq»
Ağaçların dibindəki torpağa yazıq.
Dədəm Qorqud söyləmən:
Allah-allah deməklə iş aşmaz,
Allaha öz tutun,
Allah qan sevməz
Qorxun qandan.

Cabir Novruz
Xalq şairi

Böyük qibtə hissi yarandı məndə,
Baş əydim səndəki qəhrəmanlığa,
Dörd ayın ərzində iki çiynində,
İki tabut verdin qəbirstanlığa.
Getdi Rəsul Rza, uçdu Nigarın,
İki zərbə dəydi bir tək ürəyə.
Biz söz ustaları, xiridarları,
Söz tapa bilmədik sənə deməyə.
Elə hey sükutla üzünə baxdıq,
Bir dözüm adlanan dağ oldu – Anar…
Atanı-ananı itirən vaxtı,
Elə bil təzədən doğuldu – Anar…
Elə bil təzədən gəldin dünyaya,
Elə bil yenidən biz səni gördük.
Davasız, döyüşsüz ikicə aya,
Atası, anası itəni gördük.
Qəbrdən-qəbrə yolunu saldın,
Gah anaya yandın, gah da ataya,
Hər sənə baxanda quruyub qaldıq,
Hər sənə baxanda dedik – Xudaya,
Adamın nə möhkəm beli olarmış?!
Adamın sükutu-dili olarmış.
Adamda nə böyük dözüm olarmış,
Adamın göz yaşı sözü olarmış.
Güllər, təzə güllər oldu ümüdin,
Səpdin məzarlara hey dənə-dənə:
Mahir dərzi kimi tikdin, yamadın
Cümə axşamların biri-birinə,
Döndün bir körpəyə o an, o saat,
Sən ata itirdin, ana itirdin.
Biz Rəsul Rza tək böyük bir ustad,
Biz Nigar xanım tək sona itirdik.
İki böyük dərdlə durduq üz-üzə,
Boşaldıq ürəkdən.
Sənin böyüklərin itdi, bizimsə,

İki şairimiz getdi bir evdən…
Xalqımız daha çox itirdi, bəli.
Bu xalqda nə böyük səbr olarmış,
Gözü baxa-baxa iki şairi,
Məzara girərmiş, qəbir olarmış.
Sənə ürək-dirək versək də hər gün,
Elindir bu matəm, bu kədər, – Anar.
Şairlər öləndə birinci, ilkin,
Xalqa başsağlığı verərlər, Anar.

Fikrət Qoca
Xalq şairi

Dostuma

Dönyanın hər üzünü
Anar görüb tanıyır,
Nə söyür, nə qınayır.
Bilir ki, bu dünyanın
Namərdi var, mərdi var
Nə vaxt desən çəkməyə
Başında öz bəlası,
Qəlbində öz qəmi var.
Nə vaxt desən çəkməyə
Bir qəlyanlıq dərdi var.
Həkimlik eyləməyin
Onun öz aləmi var.
Əsl həkimi, dərmanı,
Əlində qələmi var.
Odur məbədi, piri
İndi də kompyüteri.

Bu yaşda bir zarafat

Anar şirin oğlandı
O qədər şirindi ki,
Şəkərsiz içir çayı.
Anarla qoşa dursa
Şəkər Şirinoviçin
Şirinlik yarışında
Bir dütdülüdür payı.
Eh Anar, Anar, Anar
Gec yatar, tez oyanar
«Qırmızı limuzində,
«Kamikadze», «Gön keçdi»
Saç-saqqala dən düşdü...
Altmış yaşa yetişdin

Sən döyüşə-döyüşə.
Atan kimi həmişə
Rəqiblərlə döş-döşə
Rəsul Rza demişkən
Gəl bu müzür kəslərin
«Tut qıçından at dalına
Ağzı hara düşə-düşə».
Bəlkə onda tapdılar –
Özlərinə iş-peşə...
Öz yaşımdan bilirəm
Altmış yaş ağır işdi
Altmışdan sonra ömür
Özü də bir döyüşdü.
Altmış yaşa təbriklər
Elə bil ki, söyüşdü.
Anar, bu yaş söhbətin
Heç salmayaydım gərək
Altmış yaşdan söz düşdü
Altmış yaşın mübarək!

12 fevral, 1998

Anarın 60-70 illiklərinə

Bəzən oğlan çağı yayın, baharın,
Qəlbinə çox yağıb qar narın, narın.
Bu qədər qohumlu, dostlu Anarın
İçində bir qərib – tənha Anar var.
Nə yaxşı dünyada hələ bahar var
İndi altmışıncı ilk baharındı.
Bütün gözəlliklər dostun, yarındı.
«Qəm pəncərəsində» dərd yaza-yaza
Ölməzlik verirsən dediyin sözə.
Sənə gül gətirir gül kimi qızlar –
Çiçək yağışıdır sevgilər, sözlər.
Şirin nəvələrin gözləri gülür.
Turalın, Günelin fərəhlə gəlir.
Vuqarla boylanır ömür yoldaşın.
Hamının yanında ucadır başın.

Özün qazanmısan bunu qardaşım –
Külüng çala-çala, söz yaza-yaza
Ürəyi qabarlı gəldin bu yaza,
Yetmiş yaşında da görünək təki...
Mən özüm-özümə pıçıldadım ki:
Oğlunuz layiqdir öz adınıza
Gözün aydın olsun, ay Nigar xanım,
Gözün aydın olsun, ay Rəsul Rza

Anar - bu adın yetmiş yaşı var

Sən –
Fırtınalı okeanda üzən gəmisən.
Həm də bal arısı kimisən.
Zəhərli atmacalardan
zərrə-zərrə yığdığın şəkərin var.
Bakılılar demiş;
Xeyirxahlıq adlı bir şakərin var.
Hər gün
iki əlin dörd olur,
yaxşılıq etmək üçün.
Görəsən yardım alanlar
Xoşbəxt oldumu dünyada?. .
Görəsən sənin kimi
yardım edənlər düşürmü yada?
Eh, aşımıza su qatmayım.
Xülasə, söhbəti uzatmayım.
Ömrü əzablı yollar keçib
Özü deyir «pis deyil».
Mazoxist deyil.
Amma işinin yorğunluğundan həzz alandı,
deyir ki,
işdən başqa istirahət yalandı.
Anar, hindular demiş,
badəmiz dolu olsun atəşli Su ilə.
Yetmişin mübarək,
Həştadda görüşmək arzusu ilə.

«525-ci qəzet», 15 fevral, 2008

Vaqif Səmədoğlu,
Xalq şairi

Anara

Diogen çıraqları yanır
yanır qardaşım hey!
Bu pəncərə,
o pəncərə, bizim pəncərə...
Hər pəncərə bir Diogen çırağı.
Həyat dərk olunur hər pəncərədə.
Ağılla dərk olunur,
yumruqla,
dodaqla
qardaşım hey!
İşıqlar yanacaq
pəncərə işıqları
kainatın
Diogen çırağı –
Günəş
qalxana qədər.
İşıq dərk olunacaq onda
qardaşım hey!
Diogen çıraqları yanır;
bu pəncərə,
o pəncərə
pəncərələr.
İstəmirəm sönsün
Diogen çıraqları.
Pəncərə,
çıraq olmaq istəyirəm,
qardaşım hey!

1963

Anara

İçimə məhəbbət yazır,
içimə həsrət yazır,
yazır, yazır, yazır həyat.

Günəşli gündüzlər,
köksü məsafəylə dolu düzlər,
gecə tək qaranlıq,
gündüz kimi aydın üzlər,
yazılır içimə,
içimdə qalır...

Sevdiklərim də,
sevmədiklərim də
yazılır içimə,
qalır içimin
qalın səbr dəftərində...
Dostum,
mən öləndən sonra
basarsan bu maqnitofonun
səs qaytaran döyməsini,
bir dəfə də eşidərsən
artıq döyünməyən
qəlbimin səsini...

1964

Hacıbaba Hüseynov,
Xalq artisti

Hacıbaba Hüseynov xahiş elədi ki, bu şeiri Anar müəllimə çatdır. Vərəq çərfdə deyildi, gözüm onu gördü və mən istəməsəm də oxunurdu. Dedim: «Ay Hacıbaba müəllim, yuxarıda yazmısınız ki, «hörmətli alimimiz Anara». Sizə elə gəlmirmi ki, bu deyilən bir az qeyri-dəqiqdir? Bəlkə «yazıçı» deyəsiniz. Dedi: «Yox, elə ən dəqiqini mən tapmışam. Alim kimə deyirlər? Çox bilən adama. Yazsam yazıçı, rejissorluğu qalacaq, desəm rejissor, dramaturqluğu qalacaq, desəm dramaturq, jurnalistliyi qalacaq. Odur ki, elə ən yaxşısını özüm tapmışam».

Gördüm kişi düz deyir…

Rəfael Hüseynov,
15.12.1983

Qəçəl

İthaf olunur hörmətli alimimiz Anara

Bu şanlı ölkəm əcəb fəxr edir Anarımızla
Anarımız da bu gün səs salıb diyarımıza.

Diyarımızda onun xalq içində şöhrəti var,
Bu şöhrəti səbəb olmuş iftixarımıza.

İftixarımızdı bizim bir zaman atası Rəsul,
Rəsul Rza da verib oğlun ixtiyarımıza.

İxtiyarımızdı desək: «Yaxşı ot kök üstə bitər»
Yaxşı ot bitəndə yəqin gül səpər baharımıza.

Baharımızdı, könül, gəl Anara nəğmə deyək
Bu nəğmə təki yetər yari-gülüzarımıza.

Gül üzlü dilbərimin, bülbülüm, kənarına get
Kənara kimsələri qoymayaq kənarımıça.

Kənari-yaridə çün, Hacı dil nəvaya gəlib
Nəvanı başla özün, şuri verək tarımıza.

Vidadi Babanlı

Dərs

Yazıçı Anara

Nə müddətdir hiddət izləyir bizi,
Qəzəb qəlbimizi salıb kəməndə.
Çəp-çəp süzürük bir-birimizi,
Elə bil ki, baxır dəvə nalbəndə.

Bir yas məclisində gəldik üz-üzə
Sən mənə dilucu salam yetirdin
Ehtiram özünü verdi büruzə,
Əvvəllər yanımdan saymaç ötürdün.

Dönüb əl uçatdım mən isə sənə,
Görüşdük yad kəslər görüşən kimi
Bir göz qırpımında sivişib yenə
Pəl girdi araya göreşən kimi

Haçandan yaranıb bu zalım nifaq?
Dürüst vaxt söyləmək çətindir bir az.
Hər halda, inciklik törəməz nahaq
Ağrımayan başa dəsmal bağlanmaz!

Sənin yamanlığın az deyil mənə,
Mənim də tərsliyim olub, danmıram
Böhtan deməmişəm amma bir dənə
Açıq sözlərimi əbəs sanmıram.

Nə isə, keçmişə qayıtmayaq gəl
Artıq qocalmışıq, yaş o yaş deyil.
Durub pusqumuza hardasa əcəl
Ömür heç əriməz qara daş deyil.

Odur, o tabutda uyuyana bax,
Nə ad kömək etdi, nə şöhrət ona
Son qazanc üzüboz torpaqdı ancaq
Bu aqibət dərsdir hər bir insana.

Daşı ətəyimdən tökürəm daha
Umu-küsülərdən əl çəkirəm mən.
İstəmirəm nifaq qalsın sabaha
Sən isə, nə deyim, özün bilərsən.

19 sentyabr, 2006

Mənim israrlı təkidimlə «Ədəbiyyat qəzeti»ndə (13 oktyabr, 2006) dərc edilmiş bu şeirə şərh verməyə məcburam. Şeirdəki «bir-birimizi çəp-çəp süzməmiz», «qəlbimizin qəzəb kəməndinə salınması», «hiddətin bizi izləməsi» və bu qəbilədən olan nəticələri nəyə görə çıxardığı, doğrusu mənə aydın deyil. Bəlkə bütün bunlar müəllifin fantaziyasının məhsuludur, hər halda onları təkzib etmək fikrim yoxdur. Amma şeirdəki bir ifadəyə cavab verməliyəm. Yazır ki, «Sənin yamanlığın az deyil mənə?» Vidadinin vicdanı susmayanda mənim ona hər hansı bir yamanlığımı deyə bilərmi? Bu «yamanlıq» ondan ibarətdir ki, ona Prezident təqaüdü verilməsi haqqında təqdimat yazmışam və o, bu təqaüdü alır. 70 yaşı ilə əlaqədar təltif olunması haqqında da təqdimat yazdım. Öz xahişiylə istədiyi səkkiz rayonun İcra başçısına zəng elədim və bu rayonların hamısında V.Babanlının yubiley tədbirləri keçirildi, hədiyyələr də öz yerində. Sumqayıtdakı yubiley gecəsində özüm də iştirak və çıxış etdim… Bakıda Milli Dram Teatrındakı yubiley gecəsini mən açdım və apardım. Həmin gecədə nitqində Vidadi yubileyinin belə yüksək səviyyədə keçirilməsinə görə Yazıçılar Birliyinin rəhbərliyinə təşəkkür etdi. Bir müddət sonra isə bir qəzetə müsahibə verdi ki, Yazıçılar Birliyinin işi-peşəsi yubiley keçirməkdir.

2004-cü ildə XI Qurultayımız ərəfəsində təşkilatımızın rəhbərliyinin dəyişiləcəyi haqqında söz-söhbət gəzərkən Vidadi yanıma gəldi: – Qurultayda mənə də söz verin, Sizi müdafiə edəcəm – dedi. – Qurultayda çıxış etmək istəyirsənsə bizi müdafiə edib etməyəcəyindən asılı olmayaraq sənə mütləq söz verərik – dedim.

Qurultayda söz aldı, təsdiq olunmuş reqlamentdən üç dəfə artıq uzun-uzadı bir çıxış yapıb məni və Elçini ən kəskin şəkildə tənqid etdi. Mənim ona «yamanlıqlarım» bundan ibarətdir.

Vidadi məni «dilucu salam verməkdə», soyuq davranmaqda suçlayır. Nə etməli ki, mən riyakarlıq dərsləri almamışam.

İndi gələn il 80 illik yubileyi ərəfəsində Vidadinin «daşı ətəyindən tökməsi, umu-küsülərdən əl çəkməsi» barədə bəyanatlarına sevinirəm. Mən isə heç vaxt nə ətəyimdə, nə cibimdə daş saxlamadığım üçün onun bu çağırışına qoşula bilmirəm. – Anar.

Tofiq Bayram

Anara

Filmimlə pyesim verib səs-səsə
Roman yazmağa da xoşum var, xoşum
Tənqid güldən ağır mənə söz desə
Fikrim var hirslənib şeir də qoşum.

Uşaq da, böyük də oxuyur məni,
Kiminə sualam, kiminə cavab
Oğulsan dolanıb beşmərtəbəni
Olmayan altıncı mərtəbəni tap.

Məmməd İsmayil

Gör harda anıldı ay Anar, adın
Bu dərdi çəkərdik hansı birimiz?
Yox qardaş, təkcə sən yetim qalmadın,
Atasız, anasız qaldı şerimiz.

Rəfiq Zəka

Üzləri bahara doğru olanlar
Zülmətə yabançı, sabaha yardır.
Anar tək qeyrətli oğlu olanlar
Bilənlər bilir ki, nə bəxtiyardır.

Vaqif Cəbrayılzadə (Bayatlı)

Sözün tarixi

Anara

Əvvəl ölüm doğuldu, sonra Vətən,
Ölüm olmasaydı Vətən də olmazdı!
Əvvəl qılınc doğuldu,
sonra qardaşlıq,
Qılınc olmasaydı
qardaşlıq da olmazdı!
Əvvəl ulduçlar doğuldu,
sonra sevgi,
Ulduçlar olmasaydı
sevgi də olmazdı!
Sevgilər olmasaydı,
Şairlər doğulmazdı,
Şairlər doğulmasaydı,
sözlər də olmazdı.
Sözlər olmasaydı nitqləri
əllə, ayaqla söylərdilər
biçarə natiqlər,
Belə-belə hər xalq danışardı
min cürə fənd, fellə,
Onda yəqin
İspanlar ayaqla danışardılar,
italyanlar əllə,
Heç şübhə, yox,
ingilislər də insandılar,
yaçıqların dünyanı tanımağa
qarışdığından başları
vaxt tapmazdılar danışmağa,
Ancaq azırbaycanlılarla ermənilər
Danışardılar
ingilislərin də əvəzinə,

Və qadınlar…
qadınlar bütün dünyada
paltarla, bər-bəzəklə danışardılar,
Təzə söz olardı hər təzə paltar.
Tən gələrdi dünyada
Dərzilərlə qarğışların sayı.

Dünyanı əl-ayaq,
pal-paltar əzabından qurtaran
sevgi şairləri, dev şairləri,
Yadınızdamı
nəyə toxundunuz
qalxır devrilirdi,
nəyə toxundunuz
sözə çevrilirdi?!

Yusif Həsənbəy

Ad günün mübarək Anar

Sən balaca qarışqada
Fil gücü görən,
Səbrindən səbirsiçə
Fil səbri verən Anarsan!
Rişələrini torpağa yeridə-yeridə.
Suya həsrət yarpaq dillərini
Şəfəqlərdə əridə-əridə,
Budaqlarda şirin
Bar gətirən Anarsan!
Əziz qardaşım, Anar!
Altmış yaşında da,
Sütül-sünbül, həmişəyaşar Anar!
Sənə böyük bağban desəm
Məni kim qınar?
Əlindən bağ qayçısı düşmədi bir an.
Gövdəmizə sarmaşan,
haram budaqları,
Qonşu bağda çiçəkləri görüb
saralan yarpaqları.
İlan dilinə bənzər şeytan şüvələri,
Öz bağ qayçınla
Kəsib atan Anarsan!
Sən öz hekayələrinə
Sabirdən bir kəlmə,
Mirzə Cəlildən
Bir cümlə calağı vurub,
Yeni söz yaradan Anarsan!
Ömür boyu hamının
Zülmətinə fanar olan,
Ancaq öz gecəsinə
Fanarlıqdan kənar olan Anarsan!
Rəqibliyində kişiliyi,
Mərdliyi xoşladın.

Namərdin dərya günahını
Damla istedadına bağışladın.
Yanında ah çəkənə
«Ahın dağlara» deyib,
Üzünü çevirmədin yana
Od tutan qaçqın, köçkün ürəklərinin
Boz külləri qonar gicgahlarına.
Şax yeridin,
Düz keçdin qaranlıq yolu.
Ardınca gələnlərin gözü,
İşıqlarınla doldu.
Sən əsla ağa qara, qaraya ağ demədin.
Heç kəsə əyilmədin,
Ancaq çəkmə bağlarına əyildi
Uca qamətin.
Sən sönmüş ürəklərdə
yanar Anarımıçsan,
Quşlara, qarışqalara
Sərin kölgə verə-verə,
Günəş altda cadar çinarımızsan,
Yerin-yurdun qıçıl narlı,
Həm də də qıçıl Anarlı
Göyçayımızdır.
Külək deyil kövdəni zağ-zağ titrədən,
Təslim Şuşadan əsən
harayımızdır.
«Sabaha açılmış pəncərə»də
Təmizliyin dan şəfəqi.
Özün saflıqda dürr, inci Anarsan!
Çiynindəki çantadan
Sən bütün ürəklərə
Düzlük toxumu səpən,
Rəncbər Anar, əkinçi Anarsan.
Sən bizim yazıçıların
Zəhmətinə verilən
Ən yüksək qonorarsan!
Altmış yaşın mübarək, Anar!
Ehtiraslı şövqünlə
Kövrək, zərif zövqünlə,

İstərəm, gənclik ruhun
həmişə qaynar qala.
Amma, dostum, yaş ötdükcə
asta-asta
bala-bala,
Yeyəsən qaz ətini,
Görəsən qocalığın
dadını, ləzzətini.
Xəlvəti bir guşədə
yazasan şirin-şirin
İndi yaza bilmədiyin həyatın
acı həqiqətini.

Vaqif Bəhmənli

Anar

Azərbaycanın xalq yazıçısı
Anarın 70 yaşı münasibətilə

Görünür nə isə dolaşıq düşüb,
Sözsüz ki, oxşamır gerçək olana;
Deyirlər yetmişə yetişib yaşın,
İnana bilmirəm mən bu yalana.

Ağlını başına yığ, qoca zaman,
Deyəsən sən bizə iş artırırsan...
Ay pəncərə dünya, ay baca zaman,
Gör kimin yaşına yaş artırırsan?!

Nahaq zəhmət çəkib əriyir zaman,
Əgər ağlı olsa gövhəri satmaz.
Baxma ki, göy ilə yeriyir zaman,
Səni qocatmağa hünəri çatmaz.

Nə olsun il ötür, pərdəni çəkir –
Yananlar günəş tək uca doğulur.
Kimlər ki, anlamaq dərdini çəkir
Min ildi bələyə qoca doğulur.

Seçilmiş bəndənin doğulduğu il
Olmayan rəqəmin civarındadı.
Sənin yaş kağızın arxivdə deyil,
Qədim Qobustanın divarındadı.

İstədim ki, boğum yalanı qında
Onçün gətirmədim gül, sənə qurban!
Sən ki bir dastansan gənclik haqqında;
Həftə sənə qurban, il sənə qurban...

Sabah tək gizlinsən, dünən tək aydın,
Tarixlə qoşayam, nə dərdim, ustad!
Çiynini bir azca düz saxlasaydın
Sənə Dədə Qorqud deyərdim, ustad!

Bir əli alsa da, verir bir əli –
Yaxşı ki, adildi tərəzi çəkən.
Analar ad seçir toydan irəli
Hər həftə yüz Anar doğulur bəlkə.

Kim gedə bilər ki, sən gedən yolla? –
Haqq kişi ən nurlu fanarı verib….
Hər sərvət tükənir, yaxşı ki, Allah
Xalqıma tükənməz Anarı verib!

«525-ci qəzet», 19 aprel, 2008

Fərqanə Mehdiyeva

Mən sənin gözündə tərəzi gördüm

Hörmətli yazıçımız Anarın
70 illiyinə ithaf

Alıb 70 ili çiyninin üstə,
Çəkib daşıdığın yükün mübarək!
Ot kökü üstündə bitər, – deyiblər
Budağın mübarək, kökün mübarək!

Nələri düşündün ömür yolunda,
Düşdün ədalətin, haqqın izinə.
Bir para adamlar güzgülənəndə,
Zamanı güzgü tək tutdun üzünə.

Bəxtin hər deyəndə gülmür ki üzü,
Sətirlər göyərdi ümidlərində.
İsti xəyallarla yazıb «Sizsiz»i
Üşüdün «Şəhərin yay günlərində».

«Gecə zəngləri»nə səksənən adam,
Neçə axşam qalıb, səhər keçməyib.
Daha köks ötürüb, «Gün keçdi» demə,
Keçdiyin ömür-gün hədər keçməyib.

Köksünə sığmayıb eşqinin odu,
Ürəyin bir dünya odmuş, ocaqmış.
Sinəsi xəzinə «Dədə Qorqud»u,
Gör neçə qorqudlar yaşadacaqmış.

Ağa ağ deyənim, qaraya qara,
Nadanın haqqına qərəzi gördüm.
Çoxunun əlində daş-tərəzi var
Mən sənin gözündə tərəzi gördüm.

İllər gülə-gülə qaçsın üstünə,
Xoş ayın, xoş günün, xoş halın olsun.
Ömrün hələ neçə mərtəbəsində,
Təki yaratmağa «Macal»ın olsun.

Alıb 70 ili çiyninin üstə,
Çəkib daşıdığın yükün mübarək!
Ot kökü üstündə bitər, – deyiblər
Budağın mübarək, kökün mübarək!

«525-ci qəzet», 21 may, 2008.

Qaynaqçı Məmməd

Qaynaqçı Məmməd kimdir?

Qaynaqçı Məmməd (Məmməd Zülfüqar oğlu Quliyev) Ağdam rayonunun Zəngişalı kəndində yaşayır. 60-65 yaşında ahıl bir kişidir. Gözünün nuru imkan verənədək qaynaqçılıq eləyib. İndi mehrini torpağa salıb. Əkin-biçinlə ailəsini dolandırır.

Qaynaqçı Məmmədin ali təhsili, diplomu olmasa da, əsl ziyalıdır. Ona bu adı ilk dəfə «Sizsiz» kitabında görkəmli yazıçımız Anar verib.

Bu gün Məmməd kişi Anarın ona verdiyi qiyməti və onunla birgə Qarabağ torpağında keçirdiyi anları ömrünün ən qiymətli çağları kimi dəyərləndirir. Yazıçının alicənablığından, sadəliyindən, vətən sevgisindən, Şuşa həsrətindən məclislərdə tez-tez söhbət açır, onun Qarabağ və Şuşa haqqında söylədiklərini yorulmadan təkrarlayır.

Bu şeir el qəlbindən axıb gələn misralardı. Bu misralar Azərbaycanın görkəmli şəxsiyyətlərindən biri olan hörmətli yazıçımız Anara sadə zəhmət adamının bəslədiyi səmimi duyğulardan xəbər verir.

«Kredo» qəzeti, 24 may, 2003

Yadima düşdü Anar...

«Dünya bir pəncərədir,
Hər gələn baxıb gedər...»
Baxıram pəncərədən,
Gözümə çox şey dəyir.
Ürəyimi görürəm,
Görürəm axan çinarı
Əziz doğma Anarı.

Baxıram pəncərədən,
Sellər, sular hey axar...
Nə qış bizə üz verər,
Nə bahar bizə baxar
Yadıma düşdü Anar.

Baxıram pəncərədən,
Otur çəndə, dumanda.
Qulağımız səsdədir,
Ürəyimiz gümanda.
Bir tərəfdən üstəlik,
Haqqımız tapdananda,
Dözə bilməz ürəyim
Damarda qanım donar,
Yadıma düşər Anar.

Baxıram göy üzünə,
Göydə şimşəklər çaxar.
Nurlu yağışlar yağar...
Göyün üzü durular,
Sellər hey axar, axar...
Yadıma düşər Anar.

Baxıram pəncərədən,
Quşlar hey cəh-cəh vurar,
Quşlar cəh-cəh vuranda
Düzdə lalələr yanar,
Yadıma düşər Anar.
Baxıram pəncərədən,
Ulduzların arasında,
Qayaların sırasında
Mən görürəm Anarı
Xalqımm iftixarı.

Ağdam rayonu, Zəngişalı kəndi

Владимир Портнов

Тишина

Анару

Как много музыки нежданной в тишине
С какой-то скромной щедростью разлито:
Засохший рыжий лист прошелестит в окне,
Шагов далёких стук по тротуарным плитам,

Иль просто пульса счёт назойливый в висках,
И даже мысль без слов – в тиши звучит как будто.
Этюдом Скрябина, прозрачна и легка,
С протяжным звоном удаляется минута.

Хотя на первый слух немая тишина
Послеобеденной усталости и скуки,
Внимательному власть прекрасная дана:
Услышать, как живут и умирают звуки.

Мансур Векилов

Юбилейное

I

Льют елей
На юбилей:
“Ты – наш классик,
Корифей!”
Но Анар
Других похвал достоин:
Чем его
Кусают злей,
Он становится
Сильней –
Стойкий рыцарь,
Не картонный воин.

Бог к нему благоволил, –
И Джалил заговорил
С помощью его чернил
О сегодняшних метаморфозах,
И великий Узеир,
Пригласив его на пир,
Музыкой наполнил
Киногрёзы...

II

Ты рос под сенью
Родных чинар,
И твой они
Благословили дар,
Желая, чтоб он стал
С их кроной вровень

И не заглох бы в сердце
Голос крови,
Как потаённый
Исповедник – тар...

III

Ты ироничен, но и мудр,
Анар,
Ты и не ласков и не хмур,
Анар,
Ни белый агнец, ни боз гурд,
Анар.
Дай Бог тебе,
Приблизившись к закату,
Ещё немало добрых утр,
Анар!

Фархад Бадалбейли

Анару,
к 60-летию

С печальной, грустною улыбкой
Прощает он своих врагов
В среде Богемы – тяжкой, зыбкой -
И в хороводе жутких снов, -
Он не озлобился, не сдался,
И в сердце жажды мести нет.
Таким же добрым он остался.
Каким пришёл на этот свет.
Толпа озлобленных писак
Кусала «жёлтой» клеветой.
И учит нас уму дурак,
А грешник ходит как святой.

В цинично-жуткой карусели
Крутиться ты, мой друг, не стал.
Всё растащили, всё проели,
Забыв Свободы идеал.
А ты глядишь, чуть улыбаясь, –
Со злом бороться нет уж сил...
Вот так, с толпой не соглашаясь,
Глядел Сабир. Грустил Джалил …
Пусть зависть, злоба
канут в Лету,
Пусть возродится совесть, честь.
Благословляю землю эту,
Покуда здесь Анары есть.

г. Баку, 14 марта, 1998 г.

Посвящается Анару в день рождения

Зачем с улыбкой ты
прощаешь
Бездарность, хама, подлеца,
О сколько развелось их. Знаешь!
Мужчин без чести и лица
И молодые хунвейбины
За славой рвущиеся в бой
Амбициозные кретины
Но как довольные собой
И вверх ползущие чинуши
Чтоб стать законным подлецом
Алмазно-золотые туши
С непроницаемым лицом
Зачем ты здесь, скажи, Анарус,
Мы сыновья таких отцов
Поник, увы, как вольный парус
Живем средь злобствующих глупцов.
Давай умчимся в даль к закату
Где ветер среди звёзд парит
И Бах сыграет нам токкату
Моне картиной одарит.
Сады Пьемонта и Тосканы
И фрески древних базилик
И Возрожденья великаны
И Монны Лизы дивный лик.
Но держит крепко мать-природа
Своих мятежных сыновей
Хоть мы не вышли из народа
Но землю любим всех сильней.
Вот почему и ты прощаешь
Всех борзописцев от сохи
Хоть и прекрасно понимаешь
Насколько лживы и плохи
Те самозваные пророки
Что о свободе гимн поют

Их пустопафосные строки
Дышать свободно не дают,
Но Данте юбилей отметив
На Гималаях, средь снегов
И верю я – твоим столетьем
Мы опечалим всех врагов.
Живи, твори и улыбайся
Земфира выше всех наград
Семьёй, друзьями наслаждайся
Я поздравляю
– твой Фархад.

Баку, ресторан «Бях-бях», 14 марта, 2007 г.

Нигяр Гасанзаде

Письмо Заура – Тахмине

«Шестой этаж пятиэтажного дома»
Анар

Час прошёл,... вспорхнул к тем самым ярким звёздам,
Что покрывали наши обнажённые сердца,
Где ты сквозь слёзы хохотала без конца...

А странно, каким вдруг счастье показалось мне доступным
И целый мир в твоих глазах таким уютным...
таким родным...

Как истина проста, когда ты ей навстречу.
Она в твоих устах звучала безмятежно,
И ею ты со мной делилась, так небрежно...

Всему – твоей надежде,
Твоей немой печали,
Твоим мечтам и правом быть – иной –
Я верю! Буду верить! Будь со мной!

Ailə üzvlərinin gözüylə

Zemfira Səfərova

Məhəbbətin yaşı

Həyatımın yalnız məktəbə qədərki yeddi ilini Anarsız yaşamışam. Sevincli, fərəhli, bəzən də ağrı-acılı altmış beş illik ömrümüzün əlli səkkiz ilini Anarla birgə keçirmişik. Orta məktəbdə bir sinifdə oxumuşuq, sonra o, Azərbaycan Dövlət Universitetinə, mən isə Konservatoriyaya daxil olmuşuq. Yeddi il görüşmüşük, bu yeddi ilin son iki ilini nişanlı olmuşuq. 1962-ci ildə toyumuz çalınıb. 41 ildir ki, evliyik, iki övladımız – oğlumuz və qızımız, iki oğlan, iki qız nəvəmiz var.

Zaman nə tez ötüşdü –
Lap mat qalmışam özüm;
Düz qırx il bundan qabaq
Olub toyumuz bizim.
Bu qırx il necə keçdi?
Elə bil qırx il deyil,
Qırx gün, qırx gecə keçdi...

Bu misralar keçən il, toyumuzun qırx ilinin tamam olması münasibəti ilə Anarın mənə ithaf etdiyi «Zemfirama» şerinin ilk misralarıdır.

Anarla mənim ilk görüşüm 1945-ci ilin sentyabında oldu. Hər ikimiz Konservatoriyanın nəzdində olan onillik xüsusi musiqi məktəbinin birinci sinfinə qəbul olunmuşduq. Anarın ilk dəfə sinfə girməyini indiki kimi xatırlayıram. Qolunda iri bir saatı var idi. Sinif otağına anası Nigar xala ilə birgə daxil olmuşdu. Nigar xala ucaboy, yaraşıqlı, dolu bir qadın idi. Anar onun əlindən yapışıb buraxmırdı. Nigar xala da kiçik partaya güclə yerləşib dərsin axırına qədər oturmalı olmuşdu.

Məktəb illərində sinfimizin qızları Anarla və digər oğlanlarla çox vaxt nədənsə küsülü olardılar. Sözün düzü, bunun ciddi bir səbəbi yox idi, sadəcə, bu «küsülüolma» bir dəb halını almışdı. Yalnız lazım olanda, onlar oğlanlara «o adam», deyə müraciət edərdilər. Anar da, adəti üzrə, tənəffüslərdə biz-qızlardan soruşardı ki, müəllim hansı dərsi verib, sonra da həmin paraqrafları beş dəqiqənin içərisində vərəqləyib, dərsə hamıdan yaxşı cavab verərdi. Qızlar da hirslənib deyərdilər ki, «o adam dərsi evdə zübrüt-

ləyib, indi də gəlib burada özünü göstərir. Guya ki, beş dəqiqə ərzində bu boyda dərsi öyrənmək olar!».

Doğrudan da Anar sinfin ən yaxşı oxuyanlarından idi. O, ədəbiyyatı, tarixi, coğrafiyanı, riyaziyyatı əla bilirdi. Amma, mükəmməl biliyi və yazıları ilə yanaşı, xətti bərbad idi. Biz də onun xəttinə istehzayla baxıb yazdıqlarına «ilan-qurbağa» deyərdik.

Yadımdadır, idman dərslərində, xüsusilə də basketbol oyunu zamanı Anar tez-tez deyərdi: «Gəlin belə oynayaq – siz hamınız, mən tək!». Qızlar da, o cümlədən mən, buna görə əsəbiləşərdik.

Doğrusu, Anarın mənə nə zaman aşiq olduğunu deyə bilmərəm. Yadımdadır ki, bir gün əlaçıların lövhəsində asılmış şəklim yox oldu. Dərs hissə müdiri Əziz müəllim də məktəbin oğlanlarını müəllimlər otağına çağırıb, onları sorğu-suala tutdu ki, düzünü deyin, şəkli hansınız lövhədən çırpışdırmısınız? Hamı susmuş, bu işin məsuliyyətini heç biri boynuna almamışdı. Ustündən çox illər ötəndən sonra, artıq həyat yoldaşım olan Anar etiraf etmişdi ki, o vaxt şəklimi özünə xatirə kimi məhz o götürmüşdü.

Bir dəfə də ondan soruşmuşdum ki, ad gününə nə hədiyyə edim. Anar da düşünmədən:

«Başına kəlağayı örtüb bir şəkil çəkdir. Şəklin üzərinda də ürək sözlərini yaz. Mənə ondan yaxşı hədiyyə ola bilməz», – demişdi. Təbii ki, istəyini yerinə yetirmişdim.

Həmişə əla oxuyurdum. Sinifkom, həm də məktəbdə komsomol təşkilatının üzvü idim. Ozüm də komsomola Anardan əvvəl qəbul olunmuşdum. Vəzifəmə çox ciddi və məsuliyyətlə yanaşırdım. Anar komsomola qəbul olunanda onu yaman sorğu-suala tutmuşdum.

«Rumıniyanın kommunist partiyasının rəhbəri kimdir?» və s. kimi mənasız suallar yağdırırdım. O da hamısına cavab verirdi. Çox sonralar bu «imtahanı» yada salan Anar mənə yaman sataşırdı.

Məktəbi bitirib sənədlərimizi müxtəlif institutlara verdik. Yollarımız ayrılacaqdı. Həmin vaxt, daha doğrusu, 1955-ci il, iyun ayının əvvələrində Konservatoriyanın qabağında Anar məni sevdiyini etiraf etdi. Və bu etiraf mənim həyatımı tamamilə dəyişdirdi. Sonra, nədənsə rus dilində mənə ətraflı bir məktub yazdı. Və həmin məktubun bir cümləsi yaddaşıma həmişəlik həkk olundu: «Mən sənə ədəbi abidə ucaldacam».

Onda mən Anara razılığımı vermədim. Düzdür, mən də onu sevirdim. Amma bunu açıq etiraf etməyə cürət etmirdim. Yalnız üstündən bir neçə gün keçdikdən sonra, iyunun 8-də, mən də ona olan hisslərimi bildirdim və bundan sonra biz görüşməyə başladıq. Təbii ki, o zamanlar hələ dərk etmirdim ki, bu ucaboylu və arıq oğlan mənim həyatımda necə böyük rol oynayacaq.

Yadımdadır, elçilər gəlməmiş nənəm məndən «oğlan tərəfi haralıdır» deyə soruşmuşdu. Mən də «göyçaylıdırlar», – deyə cavab vermişdim. Əla yumor hissinə malık, əslən şamaxılı olan nənəm: «Eybi yox, Göyçay da Şamaxının bir mahalıdır!» – deyə, mənə «ürək-dirək» vermişdi.

Həmin illərdə Anar artıq ilk hekayələrini yazmağa başlamışdı. Mən də böyük rus yazıçısı Anton Çexovun yaradıcılığının təsiri altında bir hekayə yazmışdım. Anar o hekayəmi oxuyub bəyənmiş, «yazıçılığımı» davam etdirməyə tövsiyə etmişdi. Həmin yay Anargilin ailəsi Şuşaya istirahətə getmişdi. Şuşadan Anarın mənə yazıb göndərdiyi məktublarının ana xətti, refreni «Hekayə yaz və Şuşaya gəl» sözləri idi. Onda əan Şuşaya gedə bilmədim, ancaq çox sonralar – 80-ci illərin əvvəllərində bu gözəl şəhərə hamımız bir yerdə, ailəlikcə getdik. Həmin illərdə Anar dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyov haqqında «Uzun ömrün akkordları» filmini çəkirdi. Bu filmdə tanınmış aktyor, həm də mənim böyük bacım Elmiranın həyat yoldaşı Tofiq Mirzəyev aparıcı rolunda çəkilirdi. Anar bu filmin bir çox səhnələrini Cıdır düzündə, Üzeyir bəyin ev muzeyinin həyətində, Natəvan bağında və digər əlamətdar yerlərdə lentə almışdı və nə yaxşı ki, bu kadrlar indi də durur. Çünki, bu günümüzdə Şuşanın bizə əziz, məhrəm yerlərini, təkrarsız mənzərələrini yalnız həmin filmdə görə bilərik.

Anar tez-tez deyir ki, bizim iki övladımız var, gərək birgə bir kitabımız da olsun. Bu kitab da, hər ikimizin musiqisinə və şəxsiyyətinə pərəstiş etdiyimiz Üzeyir bəy haqqında olmalıdır. Hətta vaxtilə Moskvadan da bununla əlaqədar sifarişimiz var idi. Lakin bu planımız hələ ki, yerinə yetməyib. Bununla belə, Üzeyir bəyin ruhu qarşısında borclu qalmamışıq.

Anar ölməz bəstəkar haqqında iki seriyalı bədii film çəkib, mən isə iki monoqrafiya və yeddi dilə tərcümə olunmuş elmi-kütləvi kitab yazıb, Üzeyir bəyin musiqi əsərlərinin akademik nəşrini hazırlamışam.

Musiqi elminə həvəs də məndə məktəbdə oxuduğum illərdə yarandı. Və ilk hekayəmdən sonra mən daha ədəbi əsərlər yox, elmi məqalələr, dissertasiyalar və kitablar yazdım. Onların əksəriyyətinin ilk oxucusu da Anar oldu. Onun da əsərlərinin ilk oxucusu mən idim. Çapdan çıxmış, hələ rəngi qurumamış kitablarımızın ilk nüsxələrini xos sözlərlə imzalayıb indi də bir-birimizə bagışlayırıq.

Belə adətlərimiz çoxdur. Məsələn, ailə üzvlərimizin hər birinin ad gününü mütləq gecə yarısı, saat 12-də təm-təraqla təbrik etmək ənənəsinin əsasını məhz Anar qoyub. Hətta uşaqlarımız ailə qurub bizdən ayrı yaşamağa başlayandan sonra da, ad günlərində, saat 12 tamam olan kimi onlara zəng vurub, təbrik edirik. Əvvəllər uşaqlarımızın; indi də nəvələrimizin dediyi məzəli ifadələri isə Anar bir yerə qeyd edir, nə vaxtsa maraqlı ola bilən detalları dəftərçəsinə yazır. Hərdən isə deyir: «Görürsən, bizim nə iki oğlumuz var, nə də iki qızımız, amma oğlumuzun iki oğlu, qızımızın da iki qızı var».

Sözün doğrusu, Anar heç vaxt tələbkar olmayıb. O, hər evdə olan xırda məişət problemləri üstündə qan qaraldıb, deyinməyi xoşlamır. Əksinə, hər bir məsələni tez həll edib yerinə qoymağa çalışır. Hətta həyatının ən çətin vaxlarında belə təmkinini itirmir, özündən çıxmır, səsini qaldırmır. Müəyyən vərdişləri, başqaları üçün qəribə görünə bilən adətləri də az deyil. Məsələn, Anar gecə saatlarınacan, bəzən də səhər, açılanacan yatmayıb, işləyə, kitab oxuya və ya sadəcə özünə qapanıb düşünə bilər. Çox za-

man gecənin bir vaxtında oyanıb, iş otağında işığın yandığını görüb bilirəm ki, Anar hələ də işləyir.

Mətbəxdə də üstünlük verdiyi xörəklər az deyil. Ən çox da süfrəmizin şahı olan plovu sevir. Deyilənə görə, mən plovu xüsusi məharətlə bişirirəm. Anar müxtəlif xarici səfərlərdən qayidanda, mən, adət üzrə, plov hazırlayıram. Bir dəfə Anar İran səfərindən qayıdırdı. Evdə onu həmişəki kimi dəmə qoyulmüş plov gözləyirdi. Plovun ətri hətta bloka yayılmışdı. Evə girən kimi Anar təəssüflə söruşdu:

– Plov bişirmisən?

– Nədir ki?

Heç... İranda 10 gündür ki, səhər, günorta, axsam düyüdən başqa bir şey yeməmişəm.

O axşam düyüdən bezdiyinə baxmayaraq, mənim xətrimə dəyməsin deyə, bişirdiyim plovu birtəhər yedi.

Ümumiyyətlə, Anar özünün rahatlığı, marağı naminə heç vaxt mənə əziyyət verməz, narahatçılığıma səbəb olmaz. Bu da onun xüsusi həssaslığı, hər şeyi incələyinəcən sezib duyması ilə bağlıdır.

Hərdən həyatda çox qəribə əhvalatlarımız olurdu ki, bir müddətdən sonra onlar yaddan çıxıb xatirimdən silinirdi. Amma müəyyən vaxtdan sonra həmin əhvalata Anarın hansısa əsərində gözləmədiyim bir məqamda rast gəlirdim.

Onun «Gün keçdi» filminə yazdığı ssenarisində bir neçə epizod var ki, bizim öz həyatımızdan götürülüb, Filmin xüsusilə retro epizodları mənə Anarla məktəb illərimizi xatırladır. Yadımdadır, 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində Bakıda Braziliya müğənnisi Lolita Torresin iştirakı ilə «Məhəbbətin yaşı» filmi göstərilirdi. Biz də həmin filmə baxmağa gedərkən, ayağım nəyəsə illişmiş və ayaqqabımın dabanı qırılmışdı. Əvvəlcə çəkməçiyə getdik, olmadı, sonra Anardan yapışa-yapışa evə güclə çatıb, ayaqqabımı dəyişməli oldum. Həyatımızın bu gerçək epizodu filmə olduğu kimi keçirilmişdi.

Məktəbi bitirəndə Anargildə böyük qonaqlıq oldu. Mən də sinif yoldaşlarımla birlikdə onlara getmişdim. Bu qonaqlıq çox şən keçmiş və sonralar «Gün keçdi» filmində öz əksini tapmışdı.

Filmin son kadrlarında kameraya baxıb gülən balaca oğlan – oğlumuz Tural da bizə o illərdən yadigardır.

İlk balamız Tural bütün ailəmiz üçün böyük bir hədiyyə olmuşdu. O, anadan olanda qaynatam Rəsul əmi xəstəxanaya mənə təbrik məktubu göndərmişdi. Məktubda o yazırdi ki, «Bizi baba, nənə etdiyin üçün çox sağ ol!».

Rəsul əmı yaradıcılığında novator olduğu kimi, həyatında da hər şeydə yeniliyin tərəfdarı idi. Bizim toyumuza iki yüzdən artıq qonaq dəvət etmiş və hamıya bərk-bərk tapşırmışdı ki, məclisə hədiyyəsiz gəlsinlər.

Evləndikdən bir müddət sonra isə, 1960-70-ci illərdə evimiz mədəniyyət klubunun bir növ filialına çevrilmişdi. Evimizin qonaqları yazıçılar, şairlər, bəstəkarlar, rəssamlar, o cümlədən Yusif Səmədoğlu, Elçin Əfəndiyev, Maqsud İbrahimbəyov, Fikrət Qoca,

Vaqif Səmədoğlu, Araz Dadaşzadə, Emin Sabitoğlu, Toğrul Nərimanbəyov, Sənan Qurbanov və başqaları olardı. Bir vaxtlar hətta Anarla plan qurmuşduq ki, hər həftənin müəyyən (cümə və ya şənbə) günlərini belə dost görüşlərinə həsr edək. O zamanlar evimizə gələn dostlarımızın çoxları hələ çox gənc idi, bəziləri ailə belə qurmamışdı və ona görə də bizim evdə hökm sürən isti münasibətlərə yaxın olmağa can atırdılar.

Bəzən Anarla razılaşmadığım məsələlər də olur. Amma üstündən aylar, illər ötəndən sonra görürəm ki, bu məsələdə də Anar həmişə olduğu kimi haqlıymış. Hərdən də hirslənib deyirəm ki, bəsdir ona-buna yaxşılıq etdin, bir az da özünü düşün, səhhətinə fikir ver, onsuz da yaxşılığın qədrini bilən yoxdur. O isə belə cavab verir: «Balığı at dəryaya, balıq bilməsə də xalıq bilər».

Anarla yaşadığım uzun illərin nəticəsində də belə bir qənaətə gəlmişəm ki, bu insan dünyaya yazıb-yaratmaq üçün gəlib. Mən onu həmişə dincəlmədən çalışan görmüşəm. O, məzuniyyəti belə hamı kimi istirahət etmək üçün yox, yaradıcılıq ilə məşğul olmaq, cəmiyyətdən bir növ uzaqlaşıb, özünə qapanmaq üçün götürür. Hətta eyvanda oturub, dənizi seyr etdiyi anlarda belə işləyir, düşünür, beynində yeni-yeni süjetlər qurur, hansısa problemləri həll edir.

Belə anlarda ona yaxınlaşıb nə isə soruşanda fikri yayınır, əsəbiləşir, amma heç vaxt bunu açıq-aşkar nümayiş etdirmir. Hərdən ailə üzvləri müxtəlif problemləri ilə yanına gəlib sual verəndə, bir qədər gözləməyi xahiş edir, sonra isə zarafatla deyir: «Hə, indi sən de görüm, nə sualın var, sonra da o danışar». Həmin vaxt biz də gülüb deyirik ki, bəli, iclas başlandı, indi hər kəs öz suallarını verə bilər.

Vaxtilə Üzeyir bəy yazırdı ki, «bəşəriyyət tarixində elə şəxslər var ki, onlar özləri üçün anadan olmayıblar, bəlkə də bütün xalqa və hətta insaniyyətə xeyir gətirmək üçün yaranıblar». Bu şəxslərdən biri, mənim üçün isə birincisi Anardır. Onun «Adamın adamı», «Molla Nəsrəddin – 66», «Evləri köndələn yar» əsərlərindən parçalar artıq folklora çevrilib. «Dədə Qorqud» filminin final kadrlarında Dədə Qorqudun dili ilə dediyi «Torpağı becərmirsənsə qorumağa dəyməz, qorumursansa becərməyə dəyməz» sözləri isə bir növ atalar sözü, məsəl kimi qəbul olunub.

Vaxilə Anarın yaratdığı və redaktoru olduğu «Qobustan» toplusuna hücumlar, dilinə iradlar tutulürdu. İndi artıq bu toplunun mədəniyyətimizin inkişafında, dilimizin saflaşdırılmasında böyük rolu hamıya bəllidir. Mənim isə həmin illərin ağrı-acısı, Anarın hər bir yazı üstündə «yuxarılara» söhbətə çağırılması indiki kimi yadımdadır.

Sonda bir xatirəm də var. Mənə elə gəlir ki, bu xatirə Anar haqqında bütün söylədiklərimi bir daha vurğulayır. Bakıda zəlzələ olanda bir çoxları küçələrə qızılları, daşqaşları və digər qiymətli əşyaları ilə çıxmışdı. Anar isə əlində bitirməmiş əsərinin əlyazmasını saxlamışdı. Ozü də, çoxlarından fərqli olaraq, kostyum və qalstukda...

Sanıram ki, 58 illik tanışlığımız və 41 il bərabər həyatımız Anar haqqında danışmağa mənə haqq verir. Mən 65 yaşı tamam olan Anara can sağlığı və bitməmiş əsərinin tamamlanmasını arzulayıram. Bir də arzu edirəm ki, mənim Anarlı günlərim uzun olsun...

Anarın izi

Anar və musiqi, Anar və rəssamlıq, Anar və teatr, Anar və kino... Bu siyahını hələ xeyli uzatmaq olardı. Çünki həmin sahələrin hər birində Anar öz izini qoymuş, teatr və kino sahəsində pyes və ssenari yazmış, bir sıra filmlərin rejissoru olmuş, musiqi, rəssamlıq və digər sahələr haqqında saysız-hesabsız esse və məqalələrində fikir və düşüncələrini söyləmişdir. O, heç vaxt incəsənətin bir sahəsinin hüdudları, çərçivələri ilə məhdudlaşmamış, illər boyu topladığı biliklərini, müşahidələrini, intellektini və əlbəttə ki, bacarığını və istedadını başqa sahələrdə də sınamaq istəmişdir.

Bizim evdə qiymətli rəssamlıq kolleksiyamız və zəngin musiqi fonotekamız vardır. Bu fonotekanı musiqiçi kimi mən yox, məhz Anar alıb toplamışdır. Mənzilimizin divarlarını da bir sıra məşhur rəssamların tabloları bəzəyir. Rəssamlığa bu maraq və sevgi mənə elə gəlir ki, genlərlə, daha doğrusu, ənənə ilə, onun atasından Anara miras olaraq keçmişdir. Rəsul əmi rəssamlıqla maraqlanırdı, Moskvadan və Bakıdan bir çox rəssamların əsərlərini alıb gətirirdi. Mən böyük rus rəssamı R.Falkın əsərlərini ilk dəfə o vaxt görmüşdüm. Həyatının son illərində isə Rəsul əmi musiqi vallarını toplamağa başlamışdı. O, R.l.Çaykovskinin, N.A.Rimski-Korşakovun əsərlərini əldə etdikdən sonra, A.P.Borodinin «Knyaz İqor» operasını axtarırdı. Xüsusilə «Poloves rəqslər»ini bəyənirdi və onun musiqisini zümzümə edərək onu haradan ala bilməsini məndən soruşmuşdu.

Musiqi Anarın həyatını həmişə müşayiət edib, Anar işləyəndə belə musiqinin müşayiəti ilə yazıb yaradıb. Mənim rəhmətlik anam deyərdi ki, Anar işləyəndə evdə elə xoş ab-hava olur ki, həmişə musiqi səslənir, o da ki musiqini çox sevərdi.

Mən bu yazıda Anar və onun məşğul olduğu bütün sahələr haqqında təbii ki, yazmaq fikrində deyiləm, bunların hərəsi bir tədqiqat mövzusudur. Mən yalnız sizlə «Anar və musiqi» haqda olan qeydlərimi bölüşmək istəyirəm. İlk növbədə ona görə ki, bu sahə mənə daha yaxındır, həm də ona görə ki, biz Anarla ilk təhsilimizi məhz xüsusi musiqi məktəbində, indiki Bülbül adına musiqi məktəbində, o vaxt isə konservatoriyanın nəzdində olan xüsusi musiqi məktəbində 10 il bir sinifdə almışıq.

Yazmaq istədiyim «Anar və musiqi» mövzusunun özü də çox genişdir. Anarın musiqi haqda əsərləri kifayət qədərdir, mən məqalə yox, məhz əsərləri deyirəm, çünki onun çoxsaylı məqalələri ilə bərabər, bu sahədə ssenarisi də vardır.

Musiqi məktəbində o həm altda, həm də pianoda çalmışdır. Artıq yuxarı siniflərdə Anar etiraf edib deyirdi ki, gecələr tez-tez yuxuda görur ki, F.Mendelsonun konsertini səhnədə çaldığı vaxt notları unudub ardını çala bilmir. Anarın məktəbdə pianodan müəlliməsi Kövkət xanım Səfərəliyeva Lana Korş adlı tələbəsini həmişə Anara misal gətirərdi və çalmaqda ondan nümunə götürməyi məsləhət görərdi. Ona görə rəhmətlik Nigar xala tez-tez soruşardı; «Görəsən Lana Korş məşhur pianoçu oldumu?»

Bizim solfecio dərsindən müəlliməmiz Leyla xanım Qaraşarlı «sluxa» akkordların təyin olunmasını soruşanda, adətən Anar akkordları çaşdıraraq kvartsekstakkordun yeri-

nə sekstakord deyərdi. Leyla xanım əsəbiləşərdi və: «Ənar, sən sekstakordla kvartsekstakordu ayıra bilmirsən, belə olmaz, axı» – deyərdi. Anar da hirslənib əvəzində artıq biz uşaqlara öz etirazını belə bildirərdi: «Əvvəla mənim adımı düz tələffüz etsin, sonra mənə irad tutsun. Mənim adım «Ə» hərfi ilə yox, «A» hərfi ilə başlayır». Biz də bu sözlərə gülərdik. Bütün bu epizodlar məktəb illərinin yadigarıdır və bu illərdən artıq yarım əsrdən çox vaxt keçmişdir!

Sonrakı illərdə Anarın musiqiyə olan münasibəti və sevgisi yazdığı bir sıra əsərlərdə, məqalələrdə əks olunmuşdur. Onlardarı ilk növbədə mən «Üzeyir ömrü» («Uzun ömrün akkordları») iki seriyalı bədii filmini göstərmək istərdim. Anar bu filmin həm ssenarisinin müəllifi, həm də filmin rejissorudur. Bu film xalqımızın böyük şəxsiyyətləri Cəlil Məmmədquluzadə, Hüseyn Cavid və Üzeyir Hacıbəyov haqqında çəkilmiş trilogiyanın bir hissəsidir.

«Üzeyir ömrü» filmi mənə elə gəlir ki, əsasən iki cəhətdən çox qiymətlidir, tarixdə qalasıdır. Əvvəla ona görə ki, musiqimizin dühası Üzeyir bəyə həsr edilmişdir, ikinci isə ona görə ki, bu filmdə füsunkar Şuşamızın ecazkar mənzərələri lentə alınmışdı. İndi bu kadrlar vizual fondumuzun nadir inciləridir. Şuşanın yaşıl örtüklü dumanlı dağlarının fonunda Qarabağ bülbülünün ecazkar səslə zildən muğam oxuması heç kəsi biganə qoymur. Bu kadrlar bir çox televiziya verlişlərində təkrar-təkrar istifadə olunmuş, göstərilmişdir. Bəs məşhur Şuşa pilləkənləri ilə «Leyli və Məcnun»dan qızların «Bu gələn yara bənzər» musiqisi ilə xor oxumaları və rəqs etmələri və yaxud teatr səhnəsində «Ər və arvad» musiqili komediyasından Minnətin mahnı oxuması, bu mahnını Anar mərhum Şəmsi Bədəlbəylinin oxumasından yazmışdı və yaxud heç yerdə çəkilməyən və çox az-az televiziya ekranlarma çıxan gözəl xanəndə Qədir Rüstəmovun Cabbar Qaryağdı oğlu rolunu oynayıb oxuması, müğənni Şövkət Məmmədova ilə bağlı kadrlar unudulmazdır. Bu cür şən, günəşli, nikbin filmi Anar həyatının ən ağır, ən faciəvi günlərində, valideynlərini itirdiyi vaxt çəkirdi. Biz hər cümə axşamı üçün Xan kəndindən təyyarəyə minib Bakıya gəlirdik və yası yola verib, yenə Şuşaya Üzeyir bəy haqda filmin çəkilişinə qayıdırdıq.

Mən bir üzeyirşünas kimi deyə bilərəm ki, Üzeyir Hacıbəyovun bütün həyatı və yaradıcılığı, onun təkrarsız musiqisi bu filmdə peşəkarcasına göstərilib səsləndirilmişdir. Bu film sözsüz ki, Üzeyir bəyin xatirəsinə ucaldılmış gözəl abidədir.

Azərbaycanda ilk dəfə konkret bir şəxsiyyətə həsr olunmuş ensiklopediya «Üzeyir Hacıbəyov» ensiklopediyası idi. Bu ensikolpediyanın (baş red. N.İbrahimov) «Dahi bəstəkarımız» adlı giriş məqaləsini Anar yazmışdır. O bu məqaləsini belə sözlərlə başlayır: «Üzeyir dünyası... Bu dünyanı əlbəttə, Üzeyir Hacıbəyov özu yaradıb – zəngin tərcümeyi-halı, müxtəlif və mürəkkəb dövrlərdən keçən ömür yolu, parlaq şəxsiyyəti, çoxcəhətli fəaliyyəti və şübhəsiz, ilk növbədə ölümsüz yaradıcılığı ilə...»

Məqalənin digər bir yerində müəllif Şuşanın məşhur bulaqlarını muğam konservatoriyasının sinifləri ilə müqayisə edərək yazır: «Hər buz bulağının başında, hər dil-

bər təbiət güşəsində yığışan musiqi məclisləri bu konservatoriyanın siniflərdir. Hər xanəndə, hər tarzən, kamançaçı bu konservatoriyanın professoru olmasa da, müəllimidir. Amma professorları da var; bütün Qafqazda, bütün Şərqdə ad çıxarmış muğam ustaları – müğənnilər, sazəndələr. Hər ifa mükəmməl müğam dərsidir. Bax, həmin bu muğam konservatoriyasında Üzeyir Hacıbəyov on dörd yaşına qədər təhsil alıb». Müəllif qeyd edir ki, qabiliyyətli, zəkalı şagird üçün bu az müddət deyil.

Və nəhayət məqalədə olan bir fikri də vurğulamaq istərdim: «Üzeyir bəyin Müsavat partiyasının üzvü və ideoloqlarından biri olması faktını da, Azərbaycan Demokratik Respublikasının rəsmi orqanı «Azərbaycan» qəzetini qardaşı Ceyhun bəylə bərabər, Ceyhun bəy Parisə, sülh konfransına getdikdən sonra isə təkbaşına redaktə etməsini də, bu qəzetdə istər çar Rusiyasının, istər sovet Rusiyasının imperialist, müstəmləkəçi siyasətini kəskin tənqid edən yazılarını da on il, beş il bundan qabaq açıb göstərmək əlbəttə ki, mümkün deyildi.» Bu illərdə Üzeyir bəyin Əhməd Cavadın sözlərinə yazdığı «Çırpınırdı Qara dəniz» mahnısının Türkiyədə bu gün də dillər əzbəri olduğunu bir neçə il bundan qabaq demək belə yasaq idi.

Nəhayət, Üzeyir bəyin Azərbaycan Demokratik Respublikasının milli marşının (bu gün həmin marş müstəqil Azərbaycanın Dövlət himnidir) müəllifi olduğu da unutdurulmağa çalışılırdı. Müəllif tamamilə doğru qeyd edirdi ki, Üzeyir həyatının, Üzeyir şəxsiyyətinin, fəaliyyətinin ayrılmaz parçası olan bu dövrü danmaqla böyük sənətkar haqqında tam təsəvvür yarada biləcək bir ensiklopediya nəşr etmək qeyri mümkün idi.

Anar həyatının müxtəlif illərində Üzeyir bəy haqqında yazmış və çıxış etmişdir. Ümumiyyətlə o, belə hesab edir ki, (mən də bununla razıyam) Azərbaycan xalqının baxtı gətirmişdir ki, onun tarixində Üzeyir Hacıbəyov kimi şəxsiyyət olmuşdur.

Azərbaycan musiqisinin tarixində digər böyük bəstəkar və şəxsiyyət Üzeyir Hacıbəyovun tələbəsi Qara Qarayev haqqında da Anarın yazdığı məqalələr musiqi ictimaiyyətimizin diqqət mərkəzində olmuşdur. Onun bəstəkara həsr etdiyi «Qara Qarayevin işığı» adlı məqaləsi bir sıra yerli qəzet və jurnallarda, eləcə də Moskvanın mötəbər «Muzıkalnaya Akademiya» jurnalında dərc edilmişdir. Qara Qarayev şəxsiyyətinin saçdığı işıq müəllif bəstəkarın yaradıcılığını hərtərəfli işıqlandırmağa imkan yaratmışdır. Mən məqalədə önəmli olan bir sıra məqamları diqqətinizə çatdırmaq istərdim. Anar yazır: «Hər novator sənətkar kimi Qarayev yaşadığı zaman içində Gələcəyin gırovu idi. Daima hərəkətdə, daima inkişafda olan Qarayev yaradıcılığında hər yeni mərhələ özündən qabaqkı mərhələni inkar etməsə də, onunla mübahisə edir. Qarayev məhz öz musiqisiylə, başqalarıyla yox, ilk növbədə özü-özüylə höcətləşirdi, gərgin axtarışlar nəticəsində əldə etdikləri isə, yalnız öz yaradıcılığı üçün deyil, ümumən musiqi sənətimiz üçün yeni zirvə, yeni aşırım, yeni üfüqlərin açılması deməkdi...» Anara görə, Qara Qarayevin dühasının bənzərsizliyi də ondadır ki, daima dəyişərək o hər zaman özü olaraq qalır.

Anar Qarayev haqqında məqaləsinin digər bir yerində etiraf edib yazır ki, yeniyetməlik və gənclik illərindən Qarayev musiqisinin heyranı olmuşdu, xüsusilə də «Leyli və

Məcnun» simfonik poemasının, «Yeddi gözəl»ə bizim teatrda 20 dəfədən çox baxmışdı (bu baletə yəqin ki, heç bir musiqiçi belə dönə-dönə baxmamışdı), hər tamaşaya gedərək o səhnədə göstərilənlərə biganə qalar, yalnız və yalmz ecazkar musiqini dinləyərdi.

Bu hisslər mənə də çox yaxın və tanışdır. Mən də Qara Qarayevin «26-lar oda»sına qulaq asmaq üçün dəfələrlə yolumu 26-lar bağından salırdım. Qara Qarayevin «26-lara həsr etdiyi oda» onun vəsiyyəti və göstərişi ilə yalnız bu bağda, memorial yerləşən yerdə səslənirdi. Mən o musiqiyə o qədər aşiq idim ki, sona yetənədək ona qulaq asırdım. Musiqinin nə münasibətlə yazılması və kimlərə ithaf olunması mənim üçün önəmli deyildi. Mən məhz bu ülvi, nəcib, hüznlə dolu musiqiyə qulaq asırdım. Simli alətlər əzəmətli xor kimi səslənir, qoboy «Bayatı-Şiraz»da ağı kimi inləyir, odanın kuliminasiyası ölməzliyi tərənnüm edirdi.

Qarayev musiqisini içdən duyan və onun peşəkarcasına təhlilini verən Anarın məqaləsindən bir parçanı da diqqətə çatdırmaq istərdim: «İlk adajio. Arfalar aramla, ahəstə-ahəstə onun ilk taktlarmı çalır... Sonra simli alətlər fikrimizi, xəyallarımızı uzaqlara – çox-çox uzaqlara çəkib aparır, sonra bütün orkestr çılğın bir eşqdən danışaraq gurgur gurlayır və qəfildən hər şey bitir, orkestr susur, alətlər bir-biriylə pıçıldaşıb səslərini qısırlar, hər yan tam və qatı səssizliyə, dinməzliyə qərq olur. Adama elə gəlir ki, hər şey qurtardı, bitdi. Daha heç nə olmayacaq. Heç bir ümid qalmayıb, heç yerdən iynə ucu boyda işıq gəlmir. Sükut və qaranlıq dünyası içindəsən. Və birdən məhz bu ümidsizlik anlarında – sükutun, qaranlığın ən dərin dibindən həmin o musiqi temasinm ürkək və kövrək səsləri eşidilməyə başlayır. Skripkalar yenidən xəyallarımızı uzaq üfüqlərə aparır və bədbinliyin ən gizli güşəsindən ümid fidanı baş qaldırır. Qarayev musiqisinin sönməz işığı neçənci dəfədir ki, ümidsizliyə, bədbinliyə, inamsızlığa qalib gəlir. Qara Qarayevin ömrü boyu qarşısına çıxan dəhşətli yoxluq kabusuna yenə zəfər çalır». Mən Anarın bu məqalədəki bir etirafını da vurğulamaq istərdim. O bu etirafla çox şeyi anladır: – o, heç bir başqa sənətçiyə Qarayevə borclu olduğu qədər borclu deyil. Yəqin ki, yalnız yeniyetməlik çağında, ruhun sozaldığı məqamlarda yaşana biləcək bir səadətə, sonralar heç zaman təkrar olunmayacaq mənəvi xoşbəxtliyə görə Qarayev musiqisinə borcludur və minnətdardır. Anar «Yeddi gözəl»in son faciəvi adajiosunu öz qəlbinin kardioqraması kimi qavrayırdı-istək və xəyal qırıqlığı, ümid və şübhə, zil qaranlıq, çox uzaqlarda işıldayan işıq zərrəcikləri – Qarayev musiqisinin ümid, inam, təsəlli işığı...

Anarın bir məqaləsi üzərində də mən xüsusi dayanmaq istərdim. Bu, muğam ustası Alim Qasımova həsr olunmuş «Muğamatın filosofu» adlı məqalədir. Məqalə belə başlanır: «Alim Qasımov muğamın bütün zənginliklərini, incəliklərini, çalarlarını çatdırmağı bacaran nadir və kamil ifaçı olmaqla bərabər, həm də muğamın filosofudur». Məqalədə müəllif yalnız Alim Qasımov haqqında yox, ümumiyyətlə, muğamın tanrı tərəfindən göndərilməsi, onun kosmosla bağlılığı, başqa xalqlara açılması və bir çox digər məsələlərdən danışır. Məqalədə deyilir: «Muğam bizi əbədiyyətə qovuşdurur. İlahi bir məkana aparır. Alim Qasımovun səsi sanki uzaq əsrlərin, minillərin dərinliklərindən, kəhkəşanın

ənginliklərindən gəlir. Muğamatm konkret insanlar tərəfindən yaradıldığını düşünmək çətindir. O, sanki vəhy kimi, ismarıc kimi İlahi bir qüvvə tərəfindən insanlara, xalqlara bəxş edilib.

Muğam kimi sırf milli sənətin dünyaya açılmasında, dünya tərəfindən qəbul olunmasında Alim Qasımov ifasının müstəsna rolu var. Şərq və Qərb musiqisinin bir-birinə tamamilə yad, bir-birinə qovuşmaz, bir-biri tərəfindən anlaşılmaz olması fikrinə Alimin ifası öldürücü zərbə vurur.

Yer kürəsinin çeşidli məkanlarında yaranan sənət örnəkləri-hər birinin özəl sifəti, estetik siması, ifadə fərqləri olmaqla bərabər, bəşər xəzinəsinin ümumi sərvətidir. Bu sənət zənginliklərinin qarışılıqlı təmasları, bir-birinə qovuşması zamanın tələbidir. Alim Qasımovun sənəti məhz bu zəruri ehtiyacdan doğulub və bu ülvi amala xidmət edir».

Muğam haqqında bu fikirləri, düşüncələri, hiss və ehtirasları davam etdirmək olar. Muğam Azərbaycana göndərilmiş Allah vergisidir, Tanrının bəxşişidir və onun yer üzündə gözəl icraçılarından biri Alim Qasımovdur. Deyilənləri yekunlaşdıraraq, qeyd etmək istərdim ki, Anarın musiqi haqda yazılarından qırmızı xətt kimi ilk növbədə yüksək maarifçilik ruhu keçir, onun təkrarolunmaz yazı tərzi, maraqlı müşahidələri, hər bir sənətkarın portretinə əlavə olunan yeni ştrixlər, cizgilər, musiqisinə xas olan və heç kim tərəfindən qeyd olunmayan özəlliklərin göstərilməsi və ümumiyyətlə, daha geniş miqyasda musiqimizin inkişaf yolunda mövcud problemləri görmək, göstərmək bacarığı xasdır.

Anar Üzeyir Hacıbəyov və Qara Qarayevlə bərabər, maestro Niyazi, Tofiq Quliyev, Vasif Adıgözəlov, Süleyman Ələsgərov, Bübül, Şövkət Məmmədova, Rəşid Behbudov, Vaqif Mustafazadə, Emin Sabitoğlu, Ərtoğrul Cavid, Polad Bülbüloğlu, Alim Qasımov, Fərhad Bədəlbəyli və başqaları haqqında maraqlı, öz müşahidələri, fikir və düşüncələri ilə dolu məqalələr yazmışdır. «Anar və musiqi» məqaləsinin həcmini nəzərə alaraq bu çoxsaylı məqalələr üzərində dayanmaq imkanım yoxdur.

Lakin Anarın musiqi haqda yazdığı bütün yazılarında mirvari zərrəcikləri kimi səpələnmiş çoxlu müşahidələri, fikirləri, qeydləri gələcək yazılar, tədqiqatlar üçün tükənməz mənbədir. Bizim yazımız isə bu yöndə ilk addım, olsa-olsa yalnız başlanğıcdır.

Mən əzizim Anarı yubileyi münisibəti ilə təbrik edir, ona 70 yaşında can sağlığı və yenə də can sağlığı arzulayıram.

Fidan Rzayeva

Qardaş

– Siz Anarın bacısısınız?

– Bəli

– Allah onun canını sağ eləsin...

– Bu millətə onu çox görməsin…

– Anar bizim fəxrimizdir…

Bu və buna bənzər sözləri mən dəfələrlə müxtəlif adamlardan – qoca, cavan, qadın, kişi, şəhərli, kənd sakini, rusdilli, azərbacandilli, bir-birindən çox fərqlənən insanlardan eşitmişəm.

Bu geniş diapazonlu məhəbbətin, hörmətin səbəbi nədir?

Onun «Beşmərtəbəli evin altıncı mərtəbəsi» əsərini oxuyan bir çox qadın «bu kitab mənim taleyimdən yazılıb» – deyir.

Əlbəttə ki, Anar unikal şəxsiyyətdir, bəziləri ona marginal da deyir, yəni hamıdan seçilən, kənarda, sərhəddə duran adam… Amma mən onu iki mədəniyyətin – Şərq və Qərb mədəniyyətlərinin sərhəddində dayanan yox, bir çox mədəniyyətləri özündə sığışdıra bilən insan hesab edirəm.

Yenə də bu səbəb deyil, bəlkə səbəblərdən biridir. Onun şəxsiyyəti, mədəni tutumu, ədəbi məziyyətləri haqqında çox deyilib, çox yazılıb, mənim bunlara toxunmaq fikrim yoxdur.

Bir vaxt, gənclik illərində mən özüm üçün etdiyim bəzi qeydlərdə yazmışdım ki, Anarın də buraxdığı iz yaş palçığa basılmış əlin izinə bənzəyir, yəni bu tam əl deyil, onun yalnız bir tərəfidir.

İllər keçdi, bəzi izlər silindi, yox oldu. Lakin mənə onun başqa xüsusiyyətləri, başqa mərifətləri aşkar oldu.

Onda həm uşağa məxsus saflıq, insanlara inanmaq, həm dəuzun ömür sürmüş yaşlı adamlara xas olan təmkin, uzaqgörənlik, müdriklik var.

Anarın təbiətini təşkil edən bir çox özəlliklər içərisində bir neçəsi haqqında demək istərdim. Bu onun daxilində həmişə yaşayan borcluluq hissidir. Təkcə valideynlərinə, ailəsinə, qohumlarına, dostlarına qarşı yox. Ona cüzi yaxşılıq etmiş, nəvaziş, diqqət, xoş münasibət göstərənlərə və hətta göstəməyənlərə də qarşı borcluluq…Sanki o özünü daima hamıya borclu hesab edir.

Bir də başqalarını düşünməsi. Bir dəfə mən bir müsahibədə belə bir misal gətirmişdim: «Anar bir otağa girib orada beş rahat, bir narahat yer görsə mütləq gedib o nara-

hat yerdə oturacaq. Ona görə yox ki, narahatlığı sevir. Ona görə ki, o başqalarının narahat olmasını istəmir».

Bilmirəm, bu misaldan bir şey aydın olurmu? Məncə, onun xasiyyətindəki yumşaqlıq, mülayimlik anamdan, bu qədər yalana, böhtana, murdar hücumlara dözməsi və hamısına mətanətlə cavab vermək qüdrəti isə atamdan gəlir.

Anarın öz mühitini, yaşadığı cəmiyyəti qabaqlaması, yəqin ki, hər bir düşünən adam üçün sirr deyil. Bu bir çox istedadlı, dahi adamın başına gələn fəlakətdir – onların zamanla boğuşmaları,zamanı qabaqlamaları, bəzilərini həyatları boyunca anlaşılmamağa məhkum edir.

Gənclik illərində Anar bir əsər yazmışdı, adını «Qara matəm» qoymuşdu. Bu pəncərəsiz, qapısız, havasız, heç bir işıq ucu görünməyən, zindana bənzər bir məkanın təsviri idi. Əsər qəribə, zəngin təşbehlərlə dolu idi. Oxuduqca insan sanki bir boğanaq içinə düşür, ürəyi sıxılır, gözlərinə qara duman çökürdü. Şübhəsiz, bu sovet mühitinin abhavasından doğan və onu məcazi şəkildə əks etdirən mənzərə idi.

1968-ci ildə bir gün Anar evə gəldi, «Sovet qoşunları Çexoslovakiyaya girdi» – dedi və hönkür-hönkür ağladı.

Çox qısa sürən və rusca «ottepel» adlanan Sovet rejiminin bir qədər yumşalması dövründən sonra müəyyən dəyişikliklərə və ideoloji təzyiqlərin azalmasına ümid edən mənəviyyat adamları üçün «Praqa baharının» süqutu sarsıdıcı zərbə idi.

Qarabağ hadisələri başlananda Anarın yazdığı bəyanatlar, məktublar, ən yüksək səviyyədə etdiyi müraciətlər, məqalə və çıxışlarının sayı-hesabı yoxdur.

Amma Ermənistandan Spitakda zəlzələ xəbəri gələndə Anar: «Yazıq camaat» – deyə çox mütəəssir oldu.

Qəribəsi o idi ki, ermənilər özlərinə ən böyük düşmən saydıqları Anarın bu fəlakətə reaksiyası belə oldu.

Bir ingilis yazıçısının yazdığına görə (mənim özümün də bunu müşahidə etmək imkanım olub) inglislərin mədəniyyətində başqasının şəxsiyyətinə, heysiyyətinə sonsuz bir hörmət var, yəni başqasının mənliyinə toxuna bilən, onu alçaldan, kiçimsəyən bir söz demək və ya bir hərəkət etmək tamamilə qəbul olunmazdır. Anar ingilis olmasa da, onda da bu xüsusiyət var. O həmişə çalışır ki, həmsöhbətinin ürəyinə toxuna bilən və ya onda naqislik kompleks oyada biləcək məqamlardan çəkinsin. Buna onun daxili nəcabəti, həssaslığı, özünü başqasının yerinə qoymaq qabiliyyəti imkan verir.

(Bir çox adamlar isə əksinə olaraq daima özlərini tərifləyir, öz üstünlüklərini isbat etməyə, uğur sahibi olduqlarını nəzərə çarpdırmağa çalışırlar).

Fədakarlıq, xoşməramlıq, alicənablıq və s. saymaqla bitməyən gözəl, pozitiv özəlliklər də Anara məxsusdur.

Həmişə sinəsini qabağa vermək, hamını düşünmək, əzizlərini müdafiə etmək, öz səhhəti, əsəbləri, hətta həyatı hesabına adamlara kömək etmək, qahmar durmaq… Öz rahatlığını, dincliyini daima qurban vermək, özgələrin dərdinə təkcə sözdə yox, əməldə

də şərik çıxmaq və s. – bunlar da odur, Anardır. Yeniyetməlik və gənclik illərində biz Anarla çox yaxın idik. Sirlərini, xəyallarını, planlarını mənimlə bölüşərdi, yazdığı hər kiçik əsərini, hətta tam bitirmədən mənə oxuyardı, özü də həmişə əvvəlcə hekayənin adını qoyardı.

1962-ci ildə Moskvaya oxumağa getdi. Biz onunla yenə də çox tez-tez telefonla danışır, məktublaşırdıq. Bir dəfə mən ona məktubumda o zaman bizə tamamilə ağlasığmaz görünən bir şey yazdım. Yazdım ki, vaxt gələcək bir-birimizdən uzaqlaşacayıq, aramızda yalnız qohumluq əlaqələri qalacaq. Bu fikir mənim ağlıma haradan gəlmişdi, bunu necə ehtimal edə bildim, necə sezdim? Bilmirəm, amma təxminən belə də oldu.

Burada anamın sevdiyi bir türk şeri yadıma düşür:

Görüşərkən boyləyik
həyəcan yox, tələş yox
Ayrılarkən də boylə gözlərimizdə
yaş yox.
Dünyada səndən yaxın
Bana bir arkadaş yox
Bən öləndə köksünə qönçə güllər takarsın
Sən benim sırma saçlım
can evimdən yakarsın.

Gözümü dünyaya açıb gördüyüm, 25 il bir evdə yaşadığım, həmişə sevib səcdə etdiyim, bir çox məqamlarda mənə meyar olan adam haqqında mən necə iki kəlmə yaza bilərəm.

Bu ömür, bu duyğular, bu münasibətlər iki kəlməyə sığmır. Ömür keçir, itkilərimiz qazanclarımızı üstələyir, sanki həyatın özü də yorulur, solur, sönür…

Təranə Rzayeva

Mənə elə gəlir ki, dünyada ondan yaxşı qardaş ola bilməz.

Tural Rzayev

Atam Anar

İnsan özünün ən yaxını haqqında söz söyləməyə hər zaman çətinlik çəkir. Çünki nə deyəcəyini bilmir. Çətinliyin səbəbi sözün azlığı deyil, əksinə söyləyəcəklərinin sonsuz olması, bir neçə kağız parçasının azlıq təşkil edə biləcəyi qorxusudur. Özünü yetərincə ifadə edə bilməməyin sıxıntısı, əndişəsidir.

Atam Anar Azərbaycanın çox tanınmış bir yazıçısıdır. Azərbaycan Yazıçılar Birliyinin sədridir. Parlamentin Azərbaycan–Türkiyə dostluq qrupunun sədri, rejissor, yazıçı, şairdir. Azərbaycanın dövlət mükafatçısı, Xalq yazıçısı, ölkəmizin ən yüksək ordeni olan «İstiqlal» ordeninin sahibidir. Bir çox xarici ölkədə kitabları çap olunmuş, əsərləri teatrlarda səhnələşdirilmiş, ssenarilərinə bədii filmlər çəkilmişdir. Bütün bunlar ictimaiyyətin bildiyi gerçəklərdir. Düşünürəm ki, mənim də bunları sadalamağıma hərhalda ehtiyac yoxdur. Məndən gözlənilən atamın evdəki davranışı, həyat yoldaşı, övladları, nəvələri ilə münasibətləri haqqında bəlkə ən yaxın və səlahiyyətli ağızdan məlumat almaq istəyidir. Mən də yazdıqlarımla bunları anlatmağa çalışacam.

Atam çox duyğulu və həssas insandır. Həmsöhbətlərinə qarşı həmişə dürüst və səmimi olmuşdur. Ən çox nifrət etdiyi xüsusiyyətlər riyakarlıq, qısqanclıq, yalan, iftira və xəyanətdir. Həyatı boyunca çox insana çörək, iş vermiş, başlarını salacaq bir ev sahibi olmaqları üçün əlindən gələni etmişdir. Sonradan bunların bəziləri ona xəyanət etmişdilər… Lakin bu başqa bir mövzudur.

Atamı çox sevirəm. Yalnız atam olduğu üçün deyil. Mənə həyat müəllimi olduğu üçün. Mənə həyatımda doğru yolu göstərdiyi üçün. Hara getsəm, Anarın oğludur, – deyərək ona göstərilən o böyük hörmətin şüaları məni də isitdiyi üçün. Xoşbəxt uşaqlıq, mənalı gənclik və ailəm üçün. Heç bir zaman heç bir şəraitdə heç kimsəyə yad olmadığı üçün. Gənclik illərində dostlarımız evimizə gələndə atamın yanında özlərini heç bir zaman sıxıntıda hiss etmirdilər.

Atam fərqli şəraitlərdə uşaqla uşaq, gənclə gənc, yaşlıyla yaşlı kimi davranır, kimsəyə yük olmaq, adının ağırlığı ilə heç kimi sıxmaq istəmir. Bu da onun xasiyyətlərindən biridir. Övladlarına olduğu kimi, indi də nəvələrinə heç bir zaman təzyiq, qadağa

tətbiq etmir. Ağıl verir. Düşüncələrini bölüşür. Onun söylədiklərinin doğru olduğu qənaətinə özün gəlirsən.

İndi mənim çiyinlərimdə olan ağırlıq məndən qabaq atamın çiyinlərindəydi. O, tanınmış şairlərimiz – Rəsul Rzanın və Nigar Rəfibəylinin oğludu. Həyatında bir uğura sahib olduqda bunu valideynlərinin ayağına yazırdılar. Arxası olduğunu söyləyirdilər. Əksikliklər isə həmişə özünə şamil edilirdi. «Bax, biz demişdik» kimi sözlər… Ən böyük məsuliyyət isə daşıdığın, ictimaiyyətə bəlli olan ailə adına ləkə salmamaq, cəmiyyətin düşündüyü mövqedə davranaraq ailə başçılarının xatirəsinə ziyan vurmamaqdır. Atam bunu bacarmışdır. Növbə bizə, onun övladlarına çatdı.

Bəlkə də bütün bunları gördüyüm üçün yazmaq, yazıçı olmaq istəmədim. Bəlkə bütün bunları gördüyü üçün bacım da yazıçılıqdan uzaq durdu. Ancaq tale başqa bir şeydir. Bəlli etməsək də kağız-qələm alıb yazmağa başladıq. Yazılarımız yığıldıqca atama, anama, ailəmizə oxuduq. Atam və anam o an yazılarımızın nəşr olunmasını məsləhət gördülər.

Etiraz etsək də olmadı. Əvvəl bacım Günelin kitabları nəşr olundu. Ondan sonra isə mənim hekayələr kitabım işıq üzü gördü. Hələlik yalnız yaxşı, müsbət şərhlər, tənqidlərlə qarşılaşırıq. Sabah nə olacağı isə bilinmir. Ancaq bu kitabların gün işığı görməsində atamın rolunu araşdıran olsa, etiraf etmək lazımdır ki, bəli, həqiqətən də bunların çap olunmasına bizi razı salan atamızdır.

Atamın bizə söylədiyi bir əhvalatı xatırlayıram. Bir zamanlar ilk hekayəsini yazıb öz ana-atasına, yəni mənim nənə və babama oxuduqda onların düşdüyü vəziyyət çox maraqlı olmuşdur. Bir az qürur, bir az da təəssüflə atama baxmış – «deyəsən sən də yazıçı oldun» – demişlər. Gəncliyimizdə bu xatirəni bizimlə bölüşdükdə, «qüruru» anladıq, bəs nədən təəssüf ediblər sualını verirdik. İndi dünyanı, həyatı, insanları daha yaxşı anladıqca artıq bu sualı vermirik. Çünki cavabını bilirik. Adını xatırlamıram, ancaq tanınmış yazıçılardan biri bağçasında külüngü alıb ağır fiziki işlə məşğul olur. Qonşusu küçədən keçərkən onu salamlayır və soruşur- İşləyirsənmi? Aldığı cavabdan çaşır. – Xeyir, dincəlirəm!.. Qonşu işini görüb geri dönəndə yazıçının rahat halda oturacaqda oturduğunu görüb yenə soruşur. – Dincəlirsənmi? Aldığı cavab özünə daha da qəribə gəlir. – Xeyir! Bax indi işləyirəm! Bəli, yazıçının işi, əməyi də fərqlidir. Bir əsər üçün bəzən günlər, həftələrlə belə bir oturacaqa «dincəlməsi» gərəkdir. Belə zamanlarda toplanan fikir və düşüncələr isə bəzən bir-iki gün ərzində kağıza tökülür. Bu kağıza tökülən fikir və düşüncələr isə dünyadakı insanları bəzən zaman ağladır, bəzən güldürür, bəzən müstəqillik mücadiləsinə qaldırır.

Mən bunların hamısını anlayıram və bunu anlatmağda ən böyük amil atamın mənə verdiyi tərbiyə, elm, həyatı tanıma qabiliyyətidir. Varlığıma, bildiklərimə, hər şeyimə görə atama borcluyam. Bu borcu ona sonsuz etimadım, sevgim, hörmətim və adına layiq olma səylərimlə ödəməyə çalışıram.

İnşallah, Allah utandırmaz!

Günel Anarqızı

Nöqtələr...

İlk dəfədir atam haqqında yazı yazıram. Düzdür, bir dəfə, lap çoxdan, yeniyetmə-lik çağlarında ona bir məktub yazmışdım. Məktub elə onun özü haqqında idi. Adətən belə yazılara açıq məktub deyirlər. Mənimki məktuba oxşar bir şey idi, konkret adama – atama ünvanlanmışdı, amma açıq deyildi. Əksinə, bu yazını daha çox qapalı məktub adlandırmaq olardı. Mənim içimdə, daxilimdə qapanıb qalmış, çölə çıxış tapa bilməyən cümlələr, ifadələr, hisslər yumağı. Həmin yumaq o qədər böyük və dolaşıq idi ki, onu təkbaşına nə açıb çölə buraxa, nə də içimdə saxlayıb gizlədə bilirdim. O da elə-belə – yumurlana-yumurlana, ürəyimi göynədə-göynədə qalmışdı daxilimdə. Həmin məktubu mən heç kəsə göstərmədim. İndi heç yadımda da deyil ki, onu neylədim, cırıb tulladım, yoxsa haradasa saxladım. Hər halda, bu məktub haqqında heç kəs heç nə bilmədi. Özüm də unutdum. Və yalnız bu yazını yazmağa başlayanda xatırladım ki, mən artıq bir dəfə atam haqqında yazı yazmışam. İndi müəyyən yaşa dolub, müəyyən yazı-pozu təcrübə-si toplayıb, o zamanlar yazdıqlarımı xatırlayıb anlayıram ki, onda mən, bütün uşaqlar ki-mi, atamı, sadəcə, çox sevən və ona bunu bildirməyi bacarmayan balaca qız idim. Yəqin ondan idi ki, həmin yazıda çoxlu nida işarəsi var idi. Məktubun sonunda isə üç nöqtə... O nida və nöqtələr mənim «yazıçı» acizliyimin göstəricisi idi, yəni ki, nə qədər istə-səm də, ürəyimdəkilər yalnız bu nida və üç nöqtəyəcəndir, orada ilişib qalır, o yana keç-mir... Daha sonralar anladım ki, hissləri kağıza həkk etmək üçün nida işarəsi və üç nöq-tədən savayı, qat-qat güclü təsir vasitələri var. Sadəcə, onlardan yararlanmaq üçün bir çox komponentin vəhdəti gərəkdir (bunları atamla yazıçılıq haqqında apardığım nadir söhbətlərindən öyrənmişəm): Allah vergisi sayılan istedad, zəhmətkeşlik, soyuq beyin, sonsuz təmkin və hamıdan, hər şeydən kənarlaşmaq, tam təcrid olunmaq bacarığı...

İndi sakit bir otaqda, kompüterimlə təkbətək qalıb təmkinlə bu cümlələri monitora köçürürəm. Atamın sadaladıqları arasında məndə, çox guman ki, bir neçə keyfiyyət ye-təri qədər deyil. Məsələn, indiki məqamda hisslərimi cilovlamağı bacarmıram. Bir şey haqqında yazmağa başlayıb başqa mətləblərə keçirəm. Çünki deyiləcək sözlər deyil-məyəcək qədər çoxdur... Amma lazımdırmı onları demək, açıq bildirmək?

Bilmirəm. Ancaq anlayıram ki, o vaxtlar atam haqqında o yazını yazarkən hansı his-sləri keçirirdimsə, indi də təxminən eyni emosiyalar yaşayıram. Deməli, həyat sürətlə də-yişsə, biz yaşa dolsaq, uşaqlarımız artıq bizim uşaqkən yaşadıqlarımızı indi yaşasa da, içi-miz necə var elə də qalır. Mən də 20-25 il əvvəl necə idimsə, indi də eləyəm. Atam-anam, böyük qardaşım Tural da elədirlər, bəlkə bir az yaşlanıblar, saçlarındakı ağlar, alınlarındakı qırışlar azacıq artıb, vəssalam. Və yalnız evimizin divarlarını və kitab rəflə-

rini bəzəyən, atamın səliqəylə asdığı və düzdüyü fotolara baxanda acınacaqlılığı ilə dərk edirəm ki, buradakı adamların çoxu artıq uzun illərdir ki, aramızda yoxdur. Elə valideynlərim, qohumlarım, mən özüm də o vaxtkı kimi deyilik. Həyat da dəyişir, özümüz də...

Artıq çox şeyə alışıb vərdiş etmişik: anam-atam valideynlərsiz yaşamağa, sevinməyə, toy-düyün keçirməyə, baba-nənə olmağa, mən də uşaqlıqda onlarla barışacağımı təsəvvürümə belə gətirə bilmədiyim həyat həqiqətlərinə...

Yəqin ki, bu yubiley yazısında belə kədərli notların olması ən azı qəribə və yersiz səslənə bilər. Amma, nədənsə, bu yazı məhz bu cür istiqamət aldı və mən də uşaqlıqdan bəri içimdə qalaq-qalaq yığılan təəssüratlarımı məhz bu cür ifadə etməli oldum...

Bu məqamda atamın yaradıcılığında, zənnimcə, təsir qüvvəsinə görə ən güclü əsərlərdən biri olan «Sizsiz» esse-xatirələrinin yazıldığı günləri xatırlayıram. Yazı makinası arxasında siqaret dumanında gecələri səhərə calayan, ürəyini göynədən, yırtıb parçalayan hissləri kağıza köçürməyə tələsən yazıçı, oğul borcunu yerinə yetirmədən yaşaya, rahat nəfəs ala bilməyən övlad. Düşünürəm ki, ailəmizdə valideynlərimizə qarşı nəsildən-nəslə ötürülən qeyri-adi həssas və kövrək münasibət doğru deyil. Yəni valideynlərə bu dərəcədə bağlı, onlardan emosional cəhətdən bu qədər asılı olmaq olmaz. Üstəlik, uşaqlıqdan dərk etdiyimiz və çiyinlərimizdə daşıdığımız məsuliyyəti də hər zaman, həyatın hər məqamında hiss edəndə... Mənə tez-tez sual verirlər: Anarın qızı olmaq çətindir, yoxsa asan? Çox gözlənilən, amma gözlənilən qədər də təbii hesab etdiyim cavabı verirəm ki, asan olduğu kimi də çətindir. Çətinin səbəbini artıq bir balaca açıqladım. Asanına gəlincə isə, iş orasındadır ki, Anarı heç kimə tanıtmaq lazım deyil. Onu hər yerdə, hər səviyyədə tanıyır, tanımaqdan daha vacib olanı isə, ona hər səviyyədə həqiqi hörmət bəsləyirlər. Özümü Anarın qızı kimi tanıyandan bəri həyatımda bircə dəfə belə olmayıb ki, hansısa məkanda kimsə atamın adını eşidib, yalnız nəzakət xətrinə onu tanıdığını desin. Anara olan bu hörmətə ailəmiz çoxdandır ki alışıb. Doğrudur, əvvəllər atamla küçəyə çıxmaqdan çəkinirdim. Çünki ona və dolayısıyla mənə tuşlanan baxışlardan sıxılır, utanırdım. Atama baxanda isə təəccüblənirdim. O, bu baxışları sanki görmürdü, təsadüfən fərqinə varanda isə, onlar haqqında heç düşünmürdü də. Çünki nəzəri həmişə öz daxilinə yönəli idi. Siqaretini tüstülədə-tüstülədə küçəylə gedəndə də, hansısa mötəbər məclisdə yuxarı başda oturanda da, millətimizin ağrılı günlərində Azadlıq meydanında camaat arasında olanda da, xalqının müqəddəratı həll olunan zaman televiziya ekranlarından, ən mötəbər kürsülərdən xalqına müraciətlər edəndə də, hər növ əqidəsiz ağzıgöyçəklər və nadanlar onun ünvanına saysız-hesabsız haqsız böhtanlar yağdıranda da... Atamın onun xarakterini, əsas xislətini ifadə edən bir sözü var, deyir mən bütün ömrümü içimdə yaşamışam. Əzablarmı, dərdini, problemlərini nümayiş etdirmədən. Onlarla təkbaşına mübarizə apararaq. Bəlkə mübarizəni aparmağın ən doğru, namuslu və kişicəsinə üsulu elə budur?

Şübhəsiz ki, atam haqqında yazı tamam başqa cür olmalı idi. Bu yazıda ən azı onun bizə – övladlarına məqsədyönlü olaraq tərbiyələndirmədən öyrətdikləri, dünyada, insan-

larda açdıqları, göstərdikləri, həyat fəlsəfəsi, baxışları, əqidəsi, dönməz və dəyişməz həyat prinsipləri, görüb-götürdükləri, bütün bunların bizim formalaşmağımızda nə kimi rol oynaması, şəxsiyyətinin bizim üçün (və təkcə bizim üçün yox) örnək, vicdan, qeyrət, Üzeyir bəy və Mirzə Cəlil kimi əsl ziyalı rəmzi, millətin ağsaqqalı oldıığu və s. haqqında bir-iki kəlmə deməliydim....

Amma bütün bunları yaza bilmədim. Yəqin ona görə ki, bunları heç mən yazmamalıyam da... Bir də, hisslərimin çılpaqlaşmasından, Allah göstərməsin, yarana biləcək yersiz pafosdan qorxuram. Atamın bu yazını oxuyanda üzündə yarana biləcək gözləmədiyim ifadədən ehtiyat edirəm. Demək, burada, həqiqətən də, nöqtələrim yenə daha çoxdur. Deyirlər müqəddəs məfhumları, məlhəm duyğuları açmaq olmaz. Uzaq başı, onları kağıza yazıb, ürəyini boşaldıb sonra kağızı cırıb tullaya, ya da masanın siyirtməsində gizlədə bilərsən. Deməli, biz həqiqətən də dəyişmirik. Həyatın müxtəlif məqamlarında güclü olanda güclü, aciz olanda isə, acizik. Mən də atam haqqında onun layiq olduğu yazı yazmaqda aciz olduğumu etiraf edirəm...

P.S. Yubiley günlərində atama çox şeylər arzulayacam. Birinci növbədə, əlbəttə ki, can sağlığını. Bizim başımızdan əskik olmamasını.

Çünki Anar kimi adamlar təkcə bir ailənin yox, bütün millətin, bəşəriyyətin sərvətidir.

Bu yerdə bəlkə də nida işarəsi qoyulmalı idi. Amma yox. Həyat davam edir, deyiləcək və yazılacaq hələ çox sözlər var...

Əmin Tahir oğlu Əfəndiyev

1933-cü il may ayının 18-də Qax rayonunun İlisu kəndində müəllim ailəsində anadan olmuşdur. 1957-ci ildə ADU-nun kitabxanaçılıq fakültəsini bitirdikdən sonra Universitetin kitabxanasında əmək fəaliyyətinə başlamış, sonrakı illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında baş biblioqraf, şöbə müdiri, elmi işlər üzrə direktor müavini, Azərbaycan Sovet Ensiklopediyasında redaksiya müdiri, Mədəniyyət və İncəsənət İnstitutunda dekan müavini və kafedra müdiri, Elmlər Akademiyasının Milli Münasibətlər İnstitutunda baş elmi işçi, 1997-ci ildən Azərbaycan MEA-nın MEK-nın direktoru vəzifəsində çalışmışdır. Hazırda Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri işləyir. 1972-ci ildə «Azərbaycan-latış ədəbi əlaqələri tarixindən» mövzusunda dissertasiya müdaifə etmişdir. Filologiya elm-ləri namizədidir. Jurnalistlər və Yazıçılar Birliklərinin üzvüdür. İlk mətbu əsəri «Amerika ədəbiyatı Azərbaycan dilində» məqaləsi 1959-cu ildə «Ədəbiyyat və incəsənət» qəzetində dərc edilmiş, «Azərbaycan ədəbiyyatı SSRİ xalqları dillərində» adlı ilk kitabı 1960-cı ildə çapdan çıxmışdır. Onun qələmindən «SSRİ xalqları ədəbiyyatı Azərbaycan dilində» (1973), «İmadəddin Nəsimi» (1973), «Rus sovet ədəbiyyatı Azərbaycan dilində» (1977), «Azərbaycanın laureat yazıçıları» (1984), «İlyas Əfəndiyev» (1985), «Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu (1999), «Kamal Talıbzadə», «Yaşar Qarayev» (2001), «Azərbaycan–80» (2003), «Həmid Araslı» (2008) və s. kitablar çıxmışdır. 250-dən artıq məqalənin müəllifi, bir sıra kitabların tərtibçisi (İ.S.Turgenev, Seçilmiş əsərləri 3 cilddə. – Bakı: Azərnəşr, 1989) və redaktorudur («Akademik Bəkir Nəbiyev: Soraq kitabı», Bakı, 2005 və s.). Tərcümə ilə də məşğul olur (latış yazıçılarının bir sıra əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir).

Xalq yazıçısı İlyas Əfəndiyev haqqında bir neçə kitabın («İlyas Əfəndiyev. Albom-monoqrafiya» (1996), «İlyas Əfəndiyevin yaradıcılığı» (2000), «İlyas Əfəndiyev. Biblioqrafik göstərici» (2002) və s) müəllifidir. Əsərləri rus, türk, ingilis, Ukrayna, latış, özbək, gürcü və s. dillərə tərcümə olunmuşdur. Moskva, Leninqrad, Riqa, Tbilisi, Antalya, Düşənbə, Daşkənd, Simferopol və s. şəhərlərdə keçirilən beynəlxalq konfrans, simpozium və yığıncaqlarda məruzə ilə iştirak etmişdir. Azərbaycan dilində ilk elektron nəşrin «Azərbaycan ədəbiyyatı antologiyası», gutenberg.az.net, tercüme.az elektron kitabxanalarının təsisçi müəlliflərindəndir.

Zakirə İmamverdi qızı Əliyeva

1954-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1970-ci ildə 190 saylı otrta məktəbi, 1976-cı ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsini bitirmişdir. 1977-1979-cu illərdə Xarici Dillər İnstituitunun kitabxanasında biblioqraf, 1980-2002-ci illərdə AMEA MEK-da bölmə və şöbə müdiri, elmi katib vəzifələrində çalışmışdır. Hazırda Nizami adına Ədəbiyyat İnstitunun «İnformasiya və biblioqrafiya» şöbəsinin elmi işçisidir. YUNESKO-nun «Hamı üçün informasiya», Avropa Şurasının «Steyc» layihələri çərçivəsində, İFLA-nın «Mühafizə və konservasiya» proqramları çərçivəsində bir sıra beynəlxalq konfrans və simpoziumların, innovasiya seminarlarının iştirakçısı olmuş və bu sahələr üzrə sertifikatlar almışdır. Ədəbiyyat və mədəniyyət üzrə 20-dən artıq elmi məqalənin («İskəndəriyyə prinsipi ilə gələcəyə doğru», «Qutenberq qalaktikası», «Azərbaycan ədəbiyyatının elektron kitabxanası», «İlisu ətirli poeziya», «Azeribooks Finlandiya parlamentinin səhnəsində» «Sizin əbədi dostunuz, yol yoldaşınız (Uşaq mütaliəsi haqqında», «Ensiklopedik zəka sahibi» (N.Tusi haqqında), «İlyas Əfəndiyev nəsrinin gender mənzərəsi», «İnformasiya cəmiyyəti və kitabxanalar» və s. bir neçə kitabın («Bakı kitabxanaları», Soraq kitabı (1998), «Orucov qardaşları mətbəəsi» (1999), «Azadə Rüstəmova» (2003) və s. müəllifidir. Eyni zamanda bir sıra kitabların redaktoru və tərtibçisidir («AMEA Nizami ad. Ədəbiyyat İnstitutunun Elmi əsərlərinin biblioqrafiyası», «İlyas Əfəndiyev», «Ağamusa Axundov», «Kamal Talıbzadə» biblioqrafik göstəriciləri və s.). Milli ədəbi irsin mühafizəsi, informatika və filologiya məsələləri ilə bağlı bir neçə layihənin müəllifi və iştirakçısıdır. Hazırda Xalq yazıçısı Anarın yaradıcılığına həsr olunmuş elmi tədqiqat mövzusu üzərində çalışır. Yazıçıya həsr olunmuş «Ədəbi yollarla», «Anar yaradıcılığında Azərbaycan qadını», «Anar dünya ədəbi mühitində», «Anar yaradıcılığı Türk ədəbi tənqidində», «Anar yaradıcılığı Türkiyə və Rusiya ədəbi mühitində» məqalələri və s. çap olunmuşdur.